# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

Bakı-2021

**Redaktor:** Ceyran Abbasova
**Tərtibatçı və üz qabığının dizayneri:** Günay Əmirova

**Ön sözün müəllifi:** Günay Nəriman

ISBN: 9789952479355


İLHAM ƏLİYEV

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

AZƏRBAYCAN, AZƏRBAYCAN!
EY QƏHRƏMAN ÖVLADIN ŞANLI VƏTƏNİ!
SƏNDƏN ÖTRÜ CAN VERMƏYƏ CÜMLƏ HAZIRIZ!
SƏNDƏN ÖTRÜ QAN TÖKMƏYƏ CÜMLƏ QADİRİZ!
ÜÇ RƏNGLİ BAYRAĞINLA MƏSUD YAŞA!
MİNLƏRLƏ CAN QURBAN OLDU,
SİNƏN HƏRBƏ MEYDAN OLDU!
HÜQUQUNDAN KEÇƏN ƏSGƏR,
HƏRƏ BİR QƏHRƏMAN OLDU!
SƏN OLASAN GÜLÜSTAN,
SƏNƏ HƏR AN CAN QURBAN!
SƏNƏ MİN BİR MƏHƏBBƏT
SİNƏMDƏ TUTMUŞ MƏKAN!
NAMUSUNU HİFZ ETMƏYƏ,
BAYRAĞINI YÜKSƏLTMƏYƏ,
CÜMLƏ GƏNCLƏR MÜŞTAQDIR!
ŞANLI VƏTƏN, ŞANLI VƏTƏN!
AZƏRBAYCAN, AZƏRBAYCAN!

# 44 BƏND

1. Eyni səngərdə döyüşən ata-oğullar.
2. Oğlunun qəbrinə girib "oğlumla yatmaq istəyirəm, üstümü torpaqlayın" deyən ana.
3. Yatağında qanına qərq olan günahsız insanlar.
4. Cibinin bəlkə də son manatı ilə əsgər qardaşlarına corab, əlcək, siqaret alıb yollayan, aparan oğullar.
5. ŞƏHİD həyat yoldaşının cənazəsini çiynində daşıyan, ŞƏHİD qardaşının gözlərinə torpaq atan qadın.
6. Əsgərini qardaşı hesab edən, səngər Generalı, şəhadətiylə milli ruhumuzu təzələyən Polad Həşimov.
7. Öz cehiz yorğan-döşəyini əsgər qardaşlarına göndərən qızlar.
8. Bərdəyə raket düşəndə körpə qızının bağırsaqlarını yerdən yığan ata.
9. Şəhid oğlunun nəşi tapılsın, torpağa tapşıra bilsin deyə qurban deyən ata-analar.
10. Əli, qolu olmaya-olmaya mən vətən üçün heçnə edə bilmədim deyib, Şuşa sevincini xəstəxana pəncərəsindən insanları salamlayaraq yaşayan qəhrəman qazi.
11. Oğlunun birini dəfn edib, qayıdanda o biri oğlunun nəşini qarşılayan ana.
12. Yaralı döyüş yoldaşını çiyninə alıb, bir əlində silah döyüşərək, irəliləyən əsgər.
13. Döyüşə getmək üçün hərbi komisarlığın işçiləri ilə dalaşan oğullar.
14. Oğlunun məzarında "Xocalı qisası almısan, buna görə ağlamıram, oğul" deyib, dik dayanan ana.
15. Son nəfəsində "təkcə qızım üçün darıxıram" deyib, şəhadətə qovuşan əsgər.
16. Əməliyyat zamanı keyləşdirici vurulmasına baxmayaraq, AZƏRBAYCAN deyə çırpınan əsgər.
17. Oğlunun tabutunu xonça ilə qarşılayan, bəy otağından yola salan ana.
18. Bütün xarici təzyiqləri dəf edərək, siyasi gücləri susdurmağı bacaran ölkə başçısı.
19. Döyüş yoldaşlarını qorumaq üçün yanlarına düşən partlayıcının üstünə uzanan əsgər.
20. Canından keçməyə hazır könüllü cəsur qadınlar.
21. Şuşa uğrunda döyüşdə yaralanıb, son nəfəsində "Şuşanı axı niyə görə bilmədim mən? Ən böyük arzum idi." deyən əsgər və onun cansız bədənini Şuşaya qədər özləriylə aparan döyüş yoldaşları.
22. Haqq səsimizi dünyaya çatdıran, hər zaman hadisələrin mərkəzində olan, Türkiyənin media nümayəndələri və Fulyanın dinməyən göz yaşları.
23. Yırtıq ayaqqabı ilə Asan xidmətə gəlib, təqaüdünü əsgərlərə hədiyyə göndərən qoca kişi.

24. Oğlunun cənazəsi gələn yolu əyilib öpən və "südüm sənə halal olsun oğul" deyən ana.
25. Sən idmanla məşğul olmusan, canavar kimi öldür onları, məhv et deyə nəvəsinə ruh verən nənə.
26. Döyüş bölgəsinə könüllü yollanan həkim qadınlar.
27. Nişanlısının şəhadətindən sonra intihar edən qız.
28. Oğlunun tabutunun qabağında gəlin gətirirmiş kimi qol qaldırıb, oynayan ana.
29. Yatağında qanına qərq olan günahsız insanlar.
30. Üzü-gözü qan içində kameraya gülümsəyən yaşı kiçik, ürəyi böyük qəhrəmanlar.
31. Günlərlə yuxusuz qalıb, əsgər övladları üçün yeməklər hazırlayan analar.
32. Erməni generalını boğaraq öldürən, #PoladHəşimovun qisasını alan əsgər.
33. Anasının evdə hazırladığı kompotları qucağına yığıb, yol kənarında dayanan, gedib-gələn əsgərlərə paylayan balaca uşaqlar.
34. Bütün hadisələrin başlanğıc nöqtəsi, Tovuza erməni hücumu zamanı tovuzluların sərhəddə yürüyüşü, ətraf rayonların camaatının da Tovuza toplaşması. (Canlı sipər)
35. Bəzi market, aptek sahiblərinin hərbiçilərdən pul götürməməsi.
36. Dəfələrlə qızına elçi göndərən, qızını o oğlana verməyən və həmin oğlanın qazi olduğunu eşidəndə "oğlana deyin gəlsin qız onundu" deyən ata.
37. Atasızlığı yenicə dadmış ŞƏHİDLƏRimizin körpə balalarının məğrur duruşu.
38. Tabe olduqları siyasi rejimin ağırlığına baxmayaraq, silah transferinə etirazlarını bildirən güneyli qardaşlarımızın zindanlı günləri.
39. Döyüş meydanında topçu əsgərimizin, siyasi meydanda siyasətçilərimizin cəsarətli duruşu.
40. Əkiz qardaşların əkiz məzarı.
41. Bıçaqla, süngüylə, qol gücüylə azad olunan Şuşa.
42. Bütün çətinliklərə rəğmən, canını hər dəqiqə təhlükəyə ataraq haqq səsimizi dünyaya çatdıran media nümayəndələri və ŞƏHİD jurnalistlər.
43. Havalar bir azca soyuyan kimi, yağış yağan kimi əsgərim soyuqdadır, islanır deyib, yatağında ilan kimi qıvrılan əlli milyon azərbaycanlı.
44. Birdən raket atarlar, ölümə hazırlıqsız yaxalanarıq deyib, gecələr paltarlı yatan xalqım.
II Qarabağ müharibəsində biz bunları və sadalamadığım çox şeyi gördük, yaşadıq.
..... Və nəhayət yumruq kimi birləşmiş əlli milyon azərbaycanlı, ona dəstək olan, qardaş olan ölkələr.
Hələ də mənə yuxu kimi gəlir, BİZ QARABAĞI AZAD ETDİK.
MİLLƏTİMLƏ FƏXR EDİRƏM.

Günay Nəriman



**Abakarov Nail Müzəffər oğlu** 2001-ci il iyulun 24-də Rusiya Federasiyasının Kazan şəhərində anadan olub.

Əsgər Nail Abakarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nail Abakarov oktyabrın 2-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunda dəfn olunub. Nail Abakarov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov Ağababa Səfər oğlu** 14 mart 2002-ci ildə Şabran rayonunun Uzunboyad kəndində dünyaya göz açıb.

Əsgər Ağababa Abbasov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində, xüsusilə, Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə kəşfiyyat qrupunun manqa komandiri kimi iştirak edib və 29 sentyabr 2020-ci ildə həmin döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən yanında mərmi partlaması nəticəsində şəhid olub.

Ağababa Abbasov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abasov Ayaz Nizami oğlu** 1998-ci il dekabrın 20-də Cəlilabad rayonunun Bəcirəvan kəndində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının əsgəri olan Ayaz Abasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ayaz Abasov oktyabrın 3-də Cəbrayıl döyüşləri zamanı şəhid olub.

Ayaz Abasov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abasov Davud Yalçın oğlu** 1999-cu il noyabrın 19-da Cəlilabad rayonunun Sabirabad kəndində anadan olub. Subay idi.

Kiçik gizir Davud Abasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Davud Abasov oktyabrın 16-da Cəbrayıl döyüşləri zamanı şəhid olub. Cəlilabad rayonunun Sabirabad kəndində dəfn olunub.

O, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Abbasov Elvin Səxavət oğlu** 1993-cü il iyunun 17-də Şamaxı rayonunun Çarhan kəndində anadan olub.

Əsgər Elvin Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Elvin Abbasov noyabrın 8-də Şuşa döyüşləri zamanı ağır yaralanıb və 14 gün Ağcabədi Rayon Xəstəxanasında müalicə aldıqdan sonra noyabrın 22-də şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında dəfn olunub.

Elvin Abbasov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Abbasov Ruslan Hikmət oğlu** 25 may 2000-ci ildə Bakı şəhərinin Sahil qəsəbəsində anadan olub.

Əsgər Ruslan Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edərək şücaət göstərib. 14 oktyabr 2020-ci ildə cəbhənin Füzuli istiqamətində şəhid olub.

Şəhid 16 oktyabrda doğulduğu rayona gətirilərək Lökbatan qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn olunub.

Ruslan Abbasov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov Samir Adəm oğlu** 2001-ci il avqustun 24-də Şabran rayonunun Uzunboyad kəndində anadan olub.

Əsgər Samir Abbasov Vətən müharibəsində igidlik göstərərək Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 13 oktyabrda Talış istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Abasov Seymur Adil oğlu** 1999-cu il avqustun 10-da Cəlilabad rayonunun Buravar kəndində anadan olub.

Kiçik çavuş Seymur Abasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Seymur Abasov oktyabrın 29-da Qubadlı döyüşləri zamanı şəhid olub.

Seymur Abasov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Abbasov Aysənan Əsgər oğlu** 29 iyun 1992-ci ildə Tərtər rayonunun Seydimli kəndində dünyaya gəlib.

2020-ci ilin sentyabrın 30-da Goranboy rayonunun Gülüstan kəndi istiqamətində hərbi əməliyyatlar zamanı aldığı qəlpə yarası nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Abbasov Azad Novruz oğlu** 6 iyul 1977-ci ildə Göygöl rayonunda anadan olub.

Əsgər Azad Abbasov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 29 sentyabr 2020-ci ildə Murovdağ istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhidlik zirvəsinə ucalıb. Uzun müddət axtarılsa da nəşi tapılmayıb. 19 dekabr 2020-ci ildə tapılan nəşi Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Azad Abbasov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Abbasov Ceyhun Natiq oğlu** 1986-cı il fevralın 8-də Bakı şəhərində anadan olub.

Gizir Ceyhun Abbasov 2020-ci ilin 12-16 iyulunda Azərbaycan və Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində baş verən Tovuz döyüşlərində savaşıb.

Ceyhun Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Ceyhun Abbasov sentyabrın 28-də Murovdağ döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn edilib.

Ceyhun Abbasov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasbəyli Həmid Cavanşir oğlu** 1991-ci il noyabrın 17-də Binəqədi rayonunda anadan olub.

Baş leytenant Həmid Abbasbəyli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Həmid Abbasbəyli oktyabrın 20-də Laçın dəhlizi istiqamətində şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Həmid Abbasbəyli ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Abbasəliyev Hüseyn Adil oğlu** 2000-ci il oktyabrın 2-də Mingəçevirdə doğulub.

Əsgər Hüseyn Abbasov 2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. O, 2020-ci il sentyabrın 29-da qəhrəmancasına şəhid olub.

Hüseyn Abbasəliyev ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbaslı Arif Firuz oğlu** 1993-cü il dekabrın 15-də Şərur rayonunun Qıvraq qəsəbəsində anadan olub.

Baş leytenant Arif Abbaslı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Arif Abbaslı oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Arif Abbaslı ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbaslı Elgin Ağayar oğlu** 16 may 1991-ci ildə Laçın rayonunun Dəyhan kəndində dünyaya göz açıb.

MAHHXHQ əsgər Elgin Abbaslı 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində iştirak edib, Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının və Laçının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub, yaralıları döyüş meydanından çıxarıb. Noyabr ayının əvvəllərində başlanan Şuşa döyüşlərində də iştirak edən Elgin Abbaslı 10 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbaslı Elgiz Fuad oğlu** 1998-ci il mayın 21-də Sabirabad rayonunda anadan olub.

Əsgər Elgiz Abbaslı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Elgiz Abbaslı oktyabrın 10-da şəhid olub.

Elgiz Abbaslı ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Abbaslı Elnur Yaşar oğlu** 1992-ci il iyulun 17-də Tərtər rayonunun Köçərli kəndində anadan olub.

Kiçik çavuş Elnur Abbaslı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur Abbaslı oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub. Tərtər rayonunun Köçərli kəndində dəfn olunub.

Elnur Abbaslı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Abbaslı Hikmət Zahir oğlu** 18 yanvar 1999-cu il tarixində Beyləqan rayonunda anadan olub.

Hikmət Abbaslı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Hadrut, Cəbrayıl, Daşaltı və Suşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına iştirak edib. Hikmət Abbaslı 9 noyabr 2020-ci il tarixində Şuşa ətrafında şəhidlik zirvəsinə ucalıb. 11 noyabr 2020-ci il tarixində Beyləqan rayonunun Şəhidlər Xiyabanında dəfn olunub. Hikmət Abbaslı ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Abbaslı Munis Həbibullah oğlu** 18 mart 2000-ci il Beyləqan rayonunda anadan olub.

Əsgər Abbaslı Munis 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Abbaslı Munis oktyabrın 14-də Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunda dəfn olunub.

Munis Abbaslı ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Abbasov Ağaqardaş İlham oğlu** 1992-ci il sentyabrın 28-də Zərdab rayonunun Hüseynxanlı kəndində anadan olub.

Baş leytenant Ağaqardaş Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ağaqardaş Abbasov sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub. Zərdab rayonunun Hüseynxanlı kəndində dəfn olunub.

Ağaqardaş Abbasov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Abbasov Asim Rasim oğlu** 1987-ci il mayın 26-da İmişli rayonunun Hacırüstəmli kəndində anadan olub.

Çavuş Asim Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Asim Abbasov sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub.

Asim Abbasov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov Aslan Vəliyəddin oğlu** 1995-ci il dekabrın 25-də Xəzər rayonunda anadan olub.

Əsgər Aslan Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində qismən səfərbərlik çağırışına qatılaraq və könüllü olaraq 3 oktyabr tarixindən iştirak edib. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 10-da döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.


Aslan Abbasov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov Bəşir Nizami oğlu** 1998-ci il iyulun 28-də Quba rayonunda anadan olub.

Əsgər Bəşir Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bəşir Abbasov oktyabrın 5-də Füzuli rayonu Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

Bəşir Abbasov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Abbasov Elcan Əfsəddin oğlu** 23 sentyabr 2000-ci ildə Mingəçevir şəhərində anadan olub.

MAHHXHQ əsgər Abbasov Elcan 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin iştirakçısı olub. Abbasov Elcan döyüşlərdə rəşadəti və igidliyi ilə seçilib.

Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub.






**Abbasov Elvin Şamil oğlu** 1992-ci il mayın 6-da Ağdərə rayonunun Umudlu kəndində anadan olub.

Baş çavuş Elvin Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elvin Abbasov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Elvin Abbasov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov Fərrux Azər oğlu** 1994-cü il oktyabrın 18-də Ağstafa rayonunun Zəlimxan kəndində anadan olub.

Əsgər Fərrux Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Fərrux Abbasov oktyabrın 25-də Qubadlı döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Zəlimxan kəndində dəfn olunub.

Fərrux Abbasov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov İlham Əli oğlu** 2000-ci il martın 13-də Füzuli rayonunun Araz Dilağarda kəndində anadan olub.

Əsgər İlham Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İlham Abbasov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

İlham Abbasov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov İntiqam Yavər oğlu** 1978-ci il sentyabrın 21-də Masallı rayonunun Köcəkli kəndində anadan olub.

Baş gizir İntiqam Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İntiqam Abbasov sentyabrın 29-da Füzuli döyüşləri zamanı şəhid olub. Masallı rayonunun Köcəkli kəndində dəfn olunub.

İntiqam Abbasov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.

**Abbasov İsa Faiq oğlu** 1996-cı il avqustun 2-də Gəncə şəhərində anadan olub.

Əsgər İsa Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Hadrut qəsəbəsinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İsa Abbasov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

İsa Abbasov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov Möhlət Eldəniz oğlu** 19 mart 2001-ci ildə Daşkəsən rayonunda anadan olub.

27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Abbasov Möhlət 7 noyabr 2020-ci ildə Şuşanın Daşaltı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Abbasov Möhlət ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov Murad Vasif oğlu** 20 aprel 1998-ci ildə Lənkəran rayonunun Şıxəkəran kəndində anadan olub.

Əsgər Murad Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində qismən səfərbərliyə qoşularaq və könüllü olaraq Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Murad Abbasov 23 oktyabr 2020-ci ildə Qubadlı rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. 24 oktyabr 2020-ci ildə Lənkəran rayonunda dəfn edilib. Murad Abbasov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov Murtuz Çingiz oğlu** 1998-ci il noyabrın 2-də Lerik rayonunun Soru kəndində anadan olub.

Leytenant Murtuz Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Murtuz Abbasov oktyabrın 28-də Zəngilan döyüşləri zamanı Mincivan istiqamətində şəhid olub. Lerik rayonunda dəfn olunub.

Murtuz Abbasov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Abbasov Müşviq Qabil oğlu** 16 aprel 1970-ci ildə Ağdam rayonunun Abdal Gülablı kəndində anadan olub.

Əsgər Abbasov Müşviq 27 sentyabr 2020-ci ildən könüllü olaraq Vətən müharibəsində döyüşə başlayıb. 5 oktyabr 2020-ci ildə Ağdam rayonunun Qərvənd kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ağdam Şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Müşviq Abbasov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Abbasov Nemət Elçin oğlu** 4 avqust 1996-cı ildə Ağdaş şəhərində anadan olub.

Əsgər Abbasov Nemət 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, oktyabrın 27-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub.

Nemət Abbasov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov Nihad Mövlüd oğlu** 2000-ci il iyulun 25-də Qax rayonunun İlisu kəndində anadan olub.

Baş əsgər Nihad Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın və Talışın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nihad Abbasov oktyabrın 9-da Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olub. Qax rayonunun İlisu kəndində dəfn olunub.

Nihad Abbasov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov Nurhan Əlastan oğlu** 17 iyun 1991-ci ildə Gəncə şəhərində dünyaya göz açıb.

Əsgər Nurhan Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Könüllü əsgər olaraq bir çox hərbi əməliyyatlarda vuruşub. Noyabr ayının əvvəllərində başlanan Şuşa döyüşləri gedişatında Nurhan Abbasov 8 noyabr 2020-ci ildə Xankəndidə yaralı döyüşçüləri döyüş meydanından çıxararkən şəhid olub.

Nurhan Abbasov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Abbasov Pünhan Nəsir oğlu** 17 avqust 1997-ci ildə Qaradağ rayonunda dünyaya gəlib.

Əsgər Pünhan Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb. Oktyabrın 14-də müharibənin ən qızğın dövründə Talış-Suqovuşan istiqamətində döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Abbasov Ramil Sabir oğlu** 1989-cu il aprelin 1-də Qax rayonunun Turaclı kəndində anadan olub.

Çavuş Ramil Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ramil Abbasov oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı şəhid olub.

Ramil Abbasov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov Samir Azər oğlu** 1997-ci ildə Neftçala rayonunun Xol Qaraqaşlı kəndində doğulub.

Əsgər Samir Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb. O, noyabrın 7-də Şuşa uğrunda gedən döyüşlərdə şəhid olub. Noyabrın 23-də doğulduğu Xol Qaraqaşlı kəndinin qəbiristanlığında dəfn olunub.

Samir Abbasov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Abbasov Şamxal Xasay oğlu** 14 fevral 1995-ci ildə Beyləqan rayonunun Kəbirli kəndində dünyaya göz açıb.

Kiçik çavuş Şamxal Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli, Zəngilan və Qubadlı uğrunda gedən döyüşlərdə iştirak edib. 21 oktyabr 2020-ci ildə Qubadlı döyüşləri zamanı qəhrəmancasına şəhid olub.

Şamxal Abbasov ölümündən sonra "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Abbasov Səxavət Rizvan oğlu** 2000-ci il aprelin 25-də Xırdalan şəhərində anadan olub.

Əsgər Səxavət Abbasov Füzuli, Cəbrayıl, Hadrut və Xocavənd istiqamətlərində düşmənlə mübarizədə qalib kimi çıxıb. Sonuncu döyüşü isə Ərgünəş dağı ətrafında olub. Yaralı döyüş yoldaşı, həm də yaxın dostu olan Rəşad Mehdiyevi xilas edərkən düşmənin atdığı minamyot qəlpəsi onların ikisinin də həyatına son qoyub. Səxavət Abbasov oktyabırın 20-də şəhid olub və Xırdalan şəhər Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra"Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov Seymur Müşfiq oğlu** 2000-ci il mayın 20-də Göygöl şəhərində anadan olub.

Kiçik leytenant Seymur Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Seymur Abbasov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Göygöl şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Seymur Abbasov ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü”, “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edildi.



**Abbasov Tacəddin Vüqar oğlu** 2001-ci il dekrabrın 10-da Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olub.

Əsgər Tacəddin Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğruda gedən döyüşlərdə vuruşub.

Tacəddin Abbasov oktyabrın 24-də Füzuli uğrunda gedən döyüşlərdə şəhid olub.

Döyüşlərdə göstərdiyi igidliyə görə ölümündən sonra “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edildi.



**Abbasov Teymur Feyruz oğlu** 1981-ci il fevralın 25-də Bakı şəhərində anadan olub.

Leytenant Teymur Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Teymur Abbasov oktyabrın 12-də Xocavənd döyüşləri zamanı Hadrut istiqamətində şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Teymur Abbasov ölümündən sonra “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edildi.

**Abbasov Toğrul Bayram oğlu** 1990-cı il dekabrın 31-də Ağcabədi rayonunun Hacıbədəlli kəndində anadan olub.

Əsgər Toğrul Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Toğrul Abbasov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Ağcabədi rayonunda dəfn olunub.

Toğrul Abbasov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov Tural Fəzail oğlu** 1989-cu il oktyabr ayının 19-u Şəmkir rayonunun Qılıncbəyli kəndində anadan olub.

Kiçik çavuş 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Murov istiqamətində gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb. Ailəsi ilə axırıncı dəfə 29 sentyabr tarixində danışıb və həmin tarixdən sonra əlaqə kəsilib. 2020-ci il dekabrın 12-də doğulduğu Şəmkir rayonunun Qılıncbəyli kəndində dəfn olunub.



**Abbasov Vahid Sahib oğlu** 1994-cü il noyabrın 11-də Binəqədi rayonunda anadan olub.

Vahid Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vahid Abbasov oktyabrın 22-də Füzuli döyüşləri zamanı şəhid olub. Binəqədi rayonunda dəfn olunub.

Vahid Abbasov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abbasov Vüsal Telman oğlu** 12 avqust 1983-cü ildə Beyləqan rayonunun Bolsulu kəndində anadan olub.

Əsgər Vüsal Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal Abbasov Füzuli, Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhid olub.

Vüsal Abbasov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.





**Abbasov Zöhrab Natiq oğlu** 2001-ci il sentyabrın 17-də Ağstafa rayonunun Eynallı kəndində anadan olub.

Əsgər Zöhrab Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zöhrab Abbasov oktyabrın 13-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Nəşi uzun müddət tapıla bilməyib. Dekabrın 16-da Ağstafa rayonunun Eynallı kəndində dəfn olunub.

Zöhrab Abbasov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Abbasov Zülfüqar Bayram oğlu** 1995-ci il dekabrın 24-də Gədəbəy şəhərində anadan olub.

Əsgər Zülfüqar Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zülfüqar Abbasov noyabrın 10-da Xocavənd döyüşləri zamanı şəhid olub. Tovuz rayonunda dəfn olunub.

Zülfüqar Abbasov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Abbasquliyev Nadir Elçin oğlu** 1995-ci il dekabrın 6-da Gəncə şəhərində anadan olub.

Əsgər Nadir Abbasquliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Nadir Abbasquliyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdalov Nurlan Faiq oğlu** 12 iyun 2000-ci ildə Sumqayıt şəhərində anadan olub.

Çavuş Nurlan Abdalov 2020-ci il sentyabrın 27-də başlanan əks-hücum əməliyyatlarında Füzuli, Cəbrayıl, Zəngilan, Xocavənd uğrunda gedən döyüşlərdə vuruşub. Noyabrın 3-də Xocavənd döyüşləri zamanı şəhidlik zirvəsinə yüksəlib. 5 noyabr 2020-ci ildə Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Nurlan Abdalov ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Abduləlimov Miqdad Faiq oğlu** 2002-ci il martın 23-də Quba rayonunda dünyaya göz açıb.

Əsgər Miqdad Abduləlimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Tərtərin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 29 oktyabr 2020-ci ildə Tərtər istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Miqdad Abduləlimov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abduləzimli Emil Rasif oğlu** 6 dekar 1994-cü ildə Zəngilan rayonunda anadan olub.

Əsgər Emil Abduləzimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq döyüşlərə qatılıb. Zəngilan rayonunun işğaldan azad olunması uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 19-da Zəngilan döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb. Şəhadətindən bir gün sonra silahdaşları onun qisasını alaraq Zəngilan rayonunu işğaldan azad etdilər.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Abdullayev Balazadə Rafət oğlu** 1991-ci il iyunun 22-də Salyanda anadan olub.

Əsgər Abdullayev Balazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Ağdərə uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 18-də Ağdərə döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb.

Abdullayev Balazadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Abdullayev Cavid Vahid oğlu** 2000-ci il aprelin 23-də Qax rayonunun Qaşqaçay kəndində anadan olub.

Əsgər Cavid Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Cavid Abdullayev oktyabrın 21-də Füzuli döyüşləri zamanı şəhid olub. Qax rayonunun Qaşqaçay kəndində torpağa tapşırılıb.

Cavid Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Abdullayev Əkram Azad oğlu** 21 fevral 1998-ci ildə Cəlilabad rayonunun Qarakazımlı kəndində anadan olub.

Əsgər Əkram Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın, Füzulinin, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. 29 oktyabr 2020-ci ildə Laçın uğrunda gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.


Əkram Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Eldar Firuddin oğlu** 1982-ci il iyulun 23-də Sumqayıt şəhərində anadan olub.

Baş gizir Eldar Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Hadrutun və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə döyüş meydanındaca tibbi yardım göstərib. Eldar Abdullayev oktyabrın 18-də Zəngilan döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.


Eldar Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Elgün Əmirxan oğlu** 1994-cü il aprelin 1-də Ağstafa rayonunun Qırılı kəndində dünyaya gəlib.

Kiçik çavuş Elgün Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elgün Abdullayev noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Qırılı kəndində dəfn olunub.

Elgün Abdullayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Abdullayev Elməddin Telman oğlu** 13 fevral 2001-ci ildə Quba rayonunun Qam-qam kəndində dünyaya göz açıb.

Əsgər Elməddin Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. 27 sentyabr 2020-ci ildə Tərtərin azadlığı uğrunda gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Elməddin Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Abdullayev Elnur Təvəkkül oğlu** 1983-cü il iyul ayının 10-da Sumqayıt şəhərində dünyaya gəlib.

MAHHXHQ əsgər 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd rayonları istiqamətlərində döyüşüb. Həmin döyüşlərdə 9 düşmən tankını qənimət olaraq ələ keçirib. Oktyabr ayının 27-də Xocavənd istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb və Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilib.


Elnur Abdullayev "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Elşən Sabir oğlu** 1992-ci il avqustun 1-də Gəncə şəhərində anadan olub.

Baş leytenant olan Elşən Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elşən Abdullayev noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Gəncə Şəhidlər Xiyabanında dəfn olunub.

Elşən Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Gündüz Çingiz oğlu** 1999-cu il dekabrın 1-də Biləsuvar rayonunun Zəhmətabad kəndində anadan olub.

Əsgər Gündüz Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Gündüz Abdullayev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunda dəfn olunub.

Gündüz Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Hasil Miryusif oğlu** 1985-ci il mayın 21-də Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olub.

Gizir Hasil Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Hasil Abdullayev oktyabrın 16-da Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunun Dünyamalılar kəndində dəfn olunub.

Hasil Abdullayev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Abdullayev Həmdulla Aslan oğlu** 1994-cü il martın 19-da İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olub.

Əsgər Həmdulla Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Zəngilan, Qubadlı və Şuşa rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Həmdulla Abdullayev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində torpağa tapşırılıb.


Həmdulla Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalı ilə təltif edildi.



**Abdullayev Həsən Aydın oğlu** 1990-cı il oktyabrın 15-də Kəlbəcər rayonunun Zivel kəndində anadan olub.

Çavuş Həsən Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Həsən Abdullayev oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Həsən Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Həsən Aydın oğlu** 1994-cü il iyunun 21-də Daşkəsən rayonunda doğulub.

MAHHXHQ əsgər Həsən Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Noyabrın 6-sı Şuşa uğrunda gedən döyüşlərdə şəhid olan Həsənin anası oğlunun ölümündən 3 gün əvvəl onun həsrətini çəkərək vəfat edib. Ana baladan, bala anadan xəbərsiz dünyadan köçüb. Noyabrın 12-də dəfn olunub. Son nəfəsində dostuna "mənim hiss etdiyim ətri hiss etmirsən" deyən 26 yaşlı igid ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Hikmət Şaiq oğlu** 1998-ci il sentyabrın 20-də Beyləqan rayonunun 1-ci Şahsevən kəndində anadan olub.

Əsgər Hikmət Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Hikmət Abdullayev 23 noyabr 2020-ci ildə Şuşa istiqamətində şəhid olub.

Hikmət Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Abdullayev İbrahim Habil oğlu** 20 iyul 1994-cü ildə Bakı şəhərində anadan olub.

Baş leytenant İbrahim Abdullayev 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, Murovdağ yüksəkliyi, Füzuli və Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərdə düşmən hücumunun qarşısını alaraq şəhid olub.

İbrahim Abdullayev "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev İntiqam Allahverdi oğlu** 12 avqust 1998-ci ildə Ordubad rayonunun Düylün kəndində anadan olub.

Leytenant İntiqam Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Murovdağ döyüşlərində iştirak edib. Oktyabrın 2-də Murovdağ uğrundə gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. İntiqam Abdullayevin cənazəsi uzun müddət düşmən tərəfdə qalıb. O, uzun müddət itkin düşmüş sayılıb. Şəhadətindən 165 gün sonra onun şəhid xəbəri gəlib. Şəhid Ordubad rayonunun Düylün kəndində dəfn olunub.



**Abdullayev Məhəmməd Vaqif oğlu** 1999-cu il aprelin 19-da Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub.

MAHHXHQ əsgər Məhəmməd Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində döyüşüb.

Sentyabrın 30-da Kəlbəcər rayonu istiqamətində (şərti adı "Üçtəpələr") hərbi əməliyyatlar nəticəsində şəhid olub.

O, ölümündən sonra "Döyüşdə fərqləndiyinə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdulrəhmanov Şöhrət Böyükbəy oğlu** 1991-ci il fevralın 14-də Hacıqabul rayonunun Şorbaçı kəndində anadan olub.

Gizir Şöhrət Abdulrəhmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şöhrət Abdulrəhmanov oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub.

Şöhrət Abdulrəhmanov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.






**Abıyev Vasif Vaqif oğlu** 1986-cı il dekabrın 28-də Lənkəran şəhərinin Nərimanabad qəsəbəsində anadan olub.

Əsgər Vasif Abıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli istiqamətində gedən ağır döyüşlərdə ayağından yaralanıb, buna baxmayaraq vuruşmağa davab edib.

Oktyabrın 8-də Horadiz-Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Alıyev Qələndər Nofəl oğlu** 31 oktyabr 2001-ci ildə Bakı şəhərində anadan olub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Ağdərə, Talış-Suqovuşan istiqamətində gedən döyüşlərdə savaşıb. Qızğın döyüşlər zamanı yaralı əsgər yoldaşlarını xilas edib. Oktyabrın 7-də Suqovuşan döyüşlərində şəhidlik zirvəsinə ucalıb. Noyabrın 28-də dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdiyev Vilayət Valeh oğlu** 19 avqust 2000-ci ildə Şəkinin Birinci Biləcik kəndində doğulub.

Əsgər Vilayət Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Laçın istiqamətində gedən qızğın döyüşlərdə iştirak edib. Oktyabrın 28-də Laçın döyüşləri zamanı artilleriya atəşi nəticəsində şəhid olub.

Vilayət Allahverdiyev ölümündən sonra "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdiyev Zöhrab Sübhan oğlu** 2001-ci il sentyabrın 28-də Şamaxı şəhərində anadan olub.

Əsgər Zöhrab Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb.

Zöhrab Allahverdiyev oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında dəfn olunub.

Zöhrab Allahverdiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Allahverənov Telman Fazil oğlu** 1995-ci il iyulun 7-də Mingəçevir şəhərində anadan olub.

Əsgər Telman Allahverənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Telman Allahverənov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Abbasov Hüseyn Əlizadə oğlu** 1993-cü il fevralın 13-də Hacıqabul şəhərində anadan olub.

Gizir Hüseyn Abbasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Hüseyn Abbasov oktyabrın 6-da Suqovuşan döyüşləri zamanı şəhid olub.

Hüseyn Abbasov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Kənan Mübariz oğlu** 1990-cı il dekabrın 3-də Mingəçevir şəhərində anadan olub.

Leytenant Kənan Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kənan Abdullayev oktyabrın 16-da Suqovuşan döyüşləri zamanı şəhid olub.

Kənan Abdullayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Abdullayev Məhəmməd Ramazan oğlu** 1992-ci il mayın 3-də Balakən rayonunun Talalar kəndində anadan olub.

Əsgər Məhəmməd Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib.

Məhəmməd Abdullayev oktyabrın 16-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Balakən Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Məhəmməd Abdullayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Abdullayev Mərahim Aslan oğlu** 27 mart 2002-ci ildə Şəmkir rayonunun Keçili kəndində dünyaya göz açıb.

Əsgər Mərahim Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 8-də Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Mərahim Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Nicat Mirnəbi oğlu** 4 sentyabr 1995-ci ildə Saatlı rayonunun Seyidlər kəndində doğulub.

MAHHXHQ əsgər Nicat Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində ilk günlərdən cəbhəyə yollanıb. Füzulidə, Cəbrayılda döyüş yolu keçib. Oktyabrın 9-da Füzuli istiqamətində gedən ağır döyüşlərdə şəhidlik zirvəsinə ucalan Nicat oktyabrın 29-da Saatlı rayonunun Seyidlər kəndində dəfn olunub.

Şəhadətindən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Nihad Adil oğlu** 2002-ci il aprelin 13-də Ağstafa rayonunda anadan olub.

Əsgər Nihad Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nihad Abdullayev noyabrın 9-da Xocavənd rayonu ərazisində gedən döyüşlər zamanı şəhid olub. Ağstafa Şəhidlər Xiyabanında dəfn olunub.

Nihad Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Nurlan İnqilab oğlu** 1992-ci il 26 yanvarda Beyləqan rayonunda anadan olub.

MAHHXHQ əsgər Nurlan Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonu istiqamətində gedən döyüşlərdə savaşıb. Nurlan Abdullayev sentyabrın 30-da Füzuli və Cəbrayıl döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunun Şəhidlər Xiyabanında dəfn edilib.

Nurlan Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Abdullayev Qəzənfər Nəcəf oğlu** 1993-cü il mayın 10-da Samux rayonunun Ziyadlı kəndində anadan olub.

MAHHXHQ əsgər Qəzənfər Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Qəzənfər Abdullayev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Qəzənfər Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Abdullayev Rasim Yaqub oğlu** 1975-ci il fevralın 21-də Kəlbəcər rayonunun Milli kəndində anadan olub.

Polkovnik-leytenant Rasim Abdullayev öz istəyi ilə və bu tapşırığa əsasən hərbi tibb maşını ilə Hadrut-Şuşa yoluna çıxıb. Xocalı rayonunun Çanaqçı kəndi istiqamətində, Şuşaya az qalmış Abdullayevin maşını qarşı tərəfin zabitləri və əsgərləri tərəfindən pusquya düşüb. Bu zaman açılan atəşlərdən yaralanan Rasim Abdullayev şəhid olub. II Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Rasim Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Rəşad Arif oğlu** 1988-ci il sentyabrın 14-də Cəlilabad rayonunun Göytəpə (həmin dövrdə Prişib) şəhərində anadan olub.

Kapitan Rəşad Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Sentyabrın 29-u şəhidlik zirvəsinə ucalıb.

Rəşad Abdullayevə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi. Həmçinin "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Rəşid Abdulla oğlu** 2002-ci il martın 23-də Samux rayonunda anadan olub.

Əsgər Rəşid Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rəşid Abdullayev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Samux rayonunun İnstitut qəsəbəsində dəfn olunub.

Rəşid Abdullayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Abdullayev Samir İlham oğlu** 1998-ci il iyulun 28-də Gəncə şəhərində anadan olub.

Əsgər Samir Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Oktyabrın 28-də Füzuli uğrunda gedən qızğın döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Şəhriyar Kamil oğlu** 1987-ci il martın 2-də Kəlbəcər rayonunun Zəylik kəndində anadan olub.

Kiçik gizir Şəhriyar Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şəhriyar Abdullayev oktyabrın 13-də Hadrut döyüşləri zamanı şəhid olub. Daşkəsən şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Şəhriyar Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Abdullayev Səməd Sədyar oğlu** 2002-ci il iyunun 17-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olub.

Əsgər Səməd Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə şəhəri istiqamətində gedən döyüşlərdə savaşıb. Səməd Abdullayev oktyabrın 2-də Ağdərə döyüşləri zamanı şəhid olub. Göyçay rayonunda dəfn olunub.

Səməd Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Sənan Şahin oğlu** 1998-ci il noyabrın 1-də Bakı şəhərində anadan olub.

Əsgər Sənan Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sənan Abdullayev oktyabrın 5-də snayper güllələsi nəticəsində Füzuli döyüşləri zamanı şəhid olub. Sənan Abdullayevin nəşi doğum günündə, noyabrın 1-də tapılıb. Noyabrın 20-də II Fəxri Xiyabanda dəfn olunub.

Sənan Abdullayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Abdullayev Sərxan Elxan oğlu** 1988-ci il noyabrın 2-də Qazax şəhərində anadan olub.

Gizir Sərxan Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Sərxan Abdullayev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Ağköynək kəndində dəfn olunub.

Sərxan Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Taleh Məhərrəm oğlu** 1993-cü il iyunun 6-sı Gəncədə anadan olub.

Əsgər Taleh Abdullayev Tərtər rayonunun Suqovuşan kəndi, Cəbrayıl, Füzuli, Qubadlı rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

17 oktyabr 2020-ci ildə Füzuli uğrunda gedən döyüşlərdə şəhid olub.

Taleh Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Abdullayev Taleh Temraz oğlu** 1993-cü il fevralın 8-də Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub.

Əsgər Taleh Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Taleh Abdullayev oktyabrın 13-də Füzuli döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Yuxarı Salahlı kəndində torpağa tapşırılıb.

Taleh Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Tosif Vidadi oğlu** 1998-ci il dekabrın 8-də Cəlilabad rayonunun Qara Kazımlı kəndində anadan olub.

Əsgər Tosif Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tosif Abdullayev oktyabrın 14-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Cəlilabad rayonunda dəfn olunub.

Tosif Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Abdullayev Tural Bəylər oğlu** 1993-cü il dekabrın 9-da Xocavənd rayonunun Tuğ kəndində anadan olub.

Kiçik gizir 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Xocavənd istiqamətlərində igidliklə döyüşüb. 28 oktyabr 2020-ci ildə İlandağ adlı ərazidə qəhrəmancasına şəhid olub. Oktyabrın 29-da torpağa tapşırılıb.

Tural Abdullayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Abdullayev Tural Şakir oğlu** 1990-cı il fevralın 26-da Laçın rayonunun Ərikli kəndində anadan olub.

Baş çavuş Tural Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Tural Abdullayev sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub. Binə Şəhidlər Xiyabanında dəfn olunub.

Tural Abdullayev ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Vaqif Rəşid oğlu** 1996-cı il oktyabrın 15-də Ağsu rayonunun Hacıqədirli kəndində anadan olub.

Əsgər Vaqif Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vaqif Abdullayev noyabrın 6-da Laçın döyüşləri zamanı şəhid olub. Ağsu rayonunda dəfn olunub.

Vaqif Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullayev Vüsal Şakir oğlu** 1986-cı il martın 15-də Beyləqan rayonunun Sarı-su qəsəbəsində anadan olub.

Əsgər Abdullayev Vüsal 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Qubadlı istiqamətində düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Abdullazadə Həsənağa Şakir oğlu** 1993-cü il martın 9-da Lənkəran şəhərində anadan olub.

Baş leytenant Həsənağa Abdullazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib, daha sonra isə Ağdərə və Kəlbəcər cəbhələrində savaşıb.

Nəşi uzun müddət tapıla bilməyib. Yanvarın 14-də itkin düşdüyü Kəlbəcər rayonu ərazisində şəhid olduğu müəyyənləşib. İkinci Fəxri Xiyabanda torpağa tapşırılıb.

Həsənağa Abdullazadə ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullazadə İmaməddin Əsgər oğlu** 1996-cı il avqustun 4-də Beyləqan rayonunun Kəbirli kəndində anadan olub.

Kiçik çavuş İmaməddin Abdullazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İmaməddin Abdullazadə noyabrın 5-də Şuşa döyüşləri zamanı şəhid olub.


İmaməddin Abdullazadə ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullazadə Qasım Əli oğlu** 27 iyul 1999-cu ildə Bakının Mərdəkan qəsəbəsində anadan olub.

Əsgər Qasım Abdullazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı cəbhənin bir çox istiqamətlərində döyüşlərdə iştirak edərək şücaət göstərib. Qasım 14 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdullazadə Teymur Faiq oğlu** 2001-ci il iyunun 24-də Biləsuvar rayonunun Günəşli kəndində anadan olub.

Əsgər Teymur Abdullazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Teymur Abdullazadə oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub. Biləsuvar rayonunda dəfn olunub.

Teymur Abdullazadə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Abdullazadə Tağı İlham oğlu** 1992-ci il mayın 4-də Sədərək şəhərində anadan olub.

MAHHXHQ kiçik çavuş Tağı Abdullazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tağı Abdullazadə noyabrın 2-də Hadrut döyüşləri zamanı şəhid olub. Sədərək şəhərində dəfn olunub.

Tağı Abdullazadə ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Abdulov İdrət İbi oğlu** 2001-ci il oktyabrın 5-də Lerik rayonunun Orand kəndində anadan olub.

Əsgər İdrət Abdulov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İdrət Abdulov oktyabrın 18-də Ağdərə istiqamətində şəhid olub.

İdrət Abdulov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdurahmanlı Sübhan Mahir oğlu** 1992-ci il oktyabrın 18-də Bakı şəhərində anadan olub.

Gizir Sübhan Abdurahmanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sübhan Abdurahmanlı oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Sübhan Abdurahmanlı ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdurahmanov Əfqan Ağasəf oğlu** 1976-cı il mayın 25-də Bakı şəhərində anadan olub.

Polkovnik-leytenant Əfqan Abdurahmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əfqan Abdurahmanov oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Qəbələ rayonunun Əmirvan kəndində dəfn olunub.

Əfqan Abdurahmanov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi. Həmçinin "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Abdurahmanov Elvin Əbülfəz oğlu** 1996-cı il oktyabrın 1-də Qəbələ rayonunun Əmirvan kəndində anadan olub.

Gizir Elvin Abdurahmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elvin Abdurahmanov oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub.

Elvin Abdurahmanov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdurrəhmanov Hafiz Xalid oğlu** 1989-cu il noyabrın 21-də Şəmkir rayonunun Sabir kəndində anadan olub.

Kapitan Hafiz Abdurrəhmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə şəhəri istiqamətində gedən döyüşlərdə savaşıb. Hafiz Abdurrəhmanov noyabrın 2-də Ağdərə döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunda dəfn olunub.

Həmid Cəfərli ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Abışev Telman Nadir oğlu** 1995-ci il oktyabrın 3-də Sumqayıt şəhərində anadan olub.

Əsgər Telman Abışev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Telman Abışev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Telman Abışev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abışov Asif Əlövsət oğlu** 1992-ci il mayın 16-da Bərdə rayonunun Lək kəndində anadan olub.

Asif Abışov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Asif Abışov noyabrın 2-də Xocavənd döyüşləri zamanı şəhid olub. Bərdə rayonunun Lək kəndində dəfn olunub.

Asif Abışov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.






**Abışov Babək Vaqif oğlu** 1994-cü il aprelin 25-də Beyləqan rayonunun Yeni Mil qəsəbəsində anadan olub.

Gizir Babək Abışov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Babək Abışov oktyabrın 10-da Füzuli döyüşləri zamanı şəhid olub.

Babək Abışov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abışov Elnur Şaiq oğlu** 1 sentyabr 1997-ci ildə Kürdəmir rayonunun Qarasu kəndində doğulub.

MAHHXHQ əsgər Elnur Abışov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı qardaşı Səfalı ilə birlikdə döyüşlərə qatılıb.

Talış və Suqovuşan kəndi uğrunda gedən döyüşlərdə düşmənin bir neçə texnikası və xeyli sayda canlı qüvvəsini məhv edib. Oktyabrın 7-də qəhrəmancasına şəhid olub.

Elnur Abışov ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Abışov Əmrah Səyyab oğlu** 1999-cu il noyabrın 15-də Ağcabədi rayonunun Kürdlər kəndində anadan olub.

Əsgər Əmrah Abışov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Əmrah Abışov 30 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Ağcabədi Şəhidlər Xiyabanında dəfn olunub.

Əmrah Abışov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abışov Fərid Əlfayım oğlu** 22 mart 2001-ci ildə İsmayıllı şəhərinin Kürdmaşı kəndində anadan olub.

Əsgər Fərid Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olub. Fərid Əliyev sentyabrın 28-də doğulduğu İsmayıllı rayonunun Kürdmaşı kəndində dəfn olunub.

Fərid Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Abışov Tacəddin Elşən oğlu** 2001-ci il noyabrın 27-də İmişli şəhərində anadan olub.

Əsgər Tacəddin Abışov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Tacəddin Abışov oktyabrın 9-da Ağdərə istiqamətində şəhid olub. İmişli şəhərində dəfn olunub.


Tacəddin Abışov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Abışov Ülvi Bayram oğlu** 1997-ci il aprelin 23-də Şəki rayonunun Turan qəsəbəsində anadan olub.

Əsgər Ülvi Abışov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülvi Abışov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Şəki rayonunda dəfn olunub.

Ülvi Abışov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abışov Zəka Zakir oğlu** 2001-ci il martın 19-da Qaradağ rayonunun Qızldaş qəsəbəsində dünyaya göz açıb.

Əsgər Zəka Abışov 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsi zamanı Füzuli əməliyyatında və Cəbrayıl uğrunda döyüşlərdə iştirak edib. Abışov Zəka noyabr ayının əvvəlləri qəhrəmancasına şəhid olub. Şəhidin nəşi 22 noyabr tarixində Qızıldaş qəsəbəsinə gətirilib, burada qəsəbə sakinləri tərəfindən böyük izdihamla qarşılanaraq ailəsinə təhvil verilib.

Abışov Zəka ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abıyev İlkin İslam oğlu** 1995-ci il yanvarın 18-də Biləsuvar rayonunun Əsgərabad kəndində anadan olub.

Kiçik çavuş İlkin Abıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. İlkin Abıyev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunun Əsgərabad kəndində dəfn olunub.

İlkin Abıyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Abuşov Bəhruz Zabit oğlu** 1983-cü il iyunun 18-də Qəbələ rayonunun Nohurqışlaq kəndində anadan olub.

Mayor Bəhruz Abuşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə, həmçinin Cəbrayılın, Hadrut qəsəbəsinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bəhruz Abuşov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Qəbələ rayonunun Nohurqışlaq kəndində dəfn olunub.

Bəhruz Abuşov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Adıgözəlov Cəmil Əli oğlu** 2002-ci il aprelin 29-da Sabunçu rayonunun Ramana qəsəbəsində anadan olub.

Əsgər Cəmil Adıgözəlov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb, Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə şəhid olub.

Cəmil Adıgözəlov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Adgözəlov Ceyhun Çoban oğlu** 1994-cü il oktyabrın 12-də Saatlı rayonunun Azadkənd kəndində anadan olub.

Əsgər Ceyhun Adgözəlov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Noyabrın 6-da Qubadlı rayonunda şəhid olub.

Ceyhun Adgözəlov ölümündən sonra "Vətən uğrunda, "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Adgözəlov Faiq Mehdi oğlu** 1 sentyabr 1996-cı ildə Yevlax rayonunun Nemətabad kəndində dünyaya göz açıb.

MAHHXHQ əsgər Faiq Adıgözəlov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Lakin fasiləsiz davam edən gərgin döyüşlərin birində növbəti düşmən texnikasını məhv etdikdən sonra snayper gülləsinə tuş gəlib. Faiq 2020-ci il oktyabrın 10-da düşmən mövqeyinə hücum zamanı qəhrəmancasına şəhid olub. Faiq Adıgözəlovun məzarı Yevlax şəhərinin Şəhidlər Xiyabanındadır.

Faiq Adıgözəlov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Adıgözəlov Cavid Gülhəsən oğlu** 1995-ci il dekabrın 11-də Şamaxı şəhərində anadan olub.

Əsgər Cavid Adıgözəlov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdam, Cəbrayıl, Zəngilan və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Cavid Adıgözəlov oktyabrın 21-də Füzuli döyüşləri zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Cavid Adıgözəlov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Adıgözəlov Fərid İlqar oğlu** 1982-ci il sentyabrın 8-də Naftalan şəhərində dünyaya gəlib.

MAHHXHQ əsgər Fərid Adıgözəlov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb.

Oktyabrın 18-də müharibənin qızğın dövründə Suqovuşan döyüşləri zamanı Talış kəndi ərazisində gedən döyüşlərdə hərəkətdə olan tankın aşması nəticəsində aldığı travmadan şəhidlik zirvəsinə ucalıb.

Fərid Adıgözəlov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Adilov Şirəli İlham oğlu** 1996-cı il iyunun 6-da Göyçay rayonunun Çaxırlı kəndində anadan olub.

Əsgər Şirəli Adilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılıb. Füzulidə, Hadrutda, Xocavənddə gedən döyüşlərdə iştirak edən Şirəli böyük qəhrəmanlıqlar göstərib. Oktyabrın 21-də qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Adişov Qüdrət Rahim oğlu** 26 iyul 1998-ci ildə Yardımlı rayonunun Ostayır kəndində anadan olub.

Əsgər Qüdrət Adişov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Tərtər istiqamətində gedən döyüşlərdə vuruşub. 28 sentyabr 2020-ci ildə Goranboy istiqamətində gedən döyüşlərdə şəhid olub. 2 oktyabr 2020-ci ildə Zabrat qəsəbəsində yerləşən Zabrat-1 qəbiristanlığında torpağa tapşırılıb.

Qüdrət Adişov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Ağabalayev Sadiq Nadir oğlu** 15 mart 1998-ci ildə Cəlilabad rayonunun Privolnoye kəndində anadan olub.

Əsgər Sadiq Ağabalayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Oktyabrın 21-i torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Ağabalayev Sadiq ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ağabəyov Oqtay Baxşəli oğlu** 1987-ci il noyabrın 22-də Nizami rayonunda anadan olub.

Əsgər Oqtay Ağabəyov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Oqtay Ağabəyov oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub.

Oqtay Ağabəyov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ağacəfərli Ağamid Şirzaid oğlu** 1995-ci ildə yanvar ayının 23-də Lerik şəhərində anadan olub.

Əsgər Ağamid Ağacəfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə könüllü qatılıb.

Oktyabrın 26-da Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidimizin nəşi doğulduğu Lerik şəhərinə gətirilərək orada torpağa tapşırılıb.

Ağamid Ağacəfərli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Ağaəhmədov Elnur Fəxrəddin oğlu** 1998-ci il iyunun 28-də Xızı rayonunun Sitalçay kəndində anadan olub.

Kiçik gizir Elnur Ağaəhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur Ağaəhmədov oktyabrın 26-da Xocavənd döyüşləri zamanı Qırmızı Bazar istiqamətində şəhid olub. Xızı rayonunun Sitalçay kəndində dəfn olunub.

Elnur Ağaəhmədov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Ağahüseynli Səyyad Əliyar oğlu** 30 yanvar 2002-ci ildə Cəlilabad rayonunun Qarazəncir kəndində dünyaya göz açıb.

Əsgər Səyyad Ağahüseynli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 20 oktyabr 2020-ci ildə şəhid olub. 21 oktyabr 2020-ci ildə doğulduğu Cəlilabad rayonunun Qarazəncir kəndində torpağa tapşırılıb.

Səyyad Ağahüseynli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ağakərimov Elvin Eldəniz oğlu** 2002-ci il aprelin 1-də Şamaxı şəhərində anadan olub.

Əsgər Elvin Ağakərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Elvin Ağakərimov oktyabrın 2-də Tərtər istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Elvin Ağakərimov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağakişiyev İlkin Elxan oğlu** 1995-ci il sentyabrın 17-də Mingəçevir şəhərində anadan olub.

Əsgər İlkin Ağakişiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İlkin Ağakişiyev oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. Noyabrın 27-də Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

İlkin Ağakişiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ağakişiyev Nurlan Etibar oğlu** 2002-ci il iyulun 22-də Sumqayıt şəhərində Qarabağ müharibəsinin qazisi Etibar Ağakişiyevin ailəsində anadan olub.

Nurlan Ağakişiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Sentyabrın 28-də Ağdam rayonu istiqamətində şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Nurlan Ağakişiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Ağalarlı Toğrul Daşqın oğlu** 1995-ci il yanvarın 31-də Ağsu rayonunun Ağalarbəyli kəndində anadan olub.

Əsgər Toğrul Ağalarlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Toğrul Ağalarlı oktyabrın 7-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Ağsu rayonunda dəfn olunub.

Toğrul Ağalarlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ağalarov Nahid Musa oğlu** 1983-cü il dekabrın 19-da Goranboy rayonunun Xan Qərvənd kəndində anadan olub.

MAHHXHQ baş çavuş Nahid Ağalarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nahid Ağalarov noyabrın 23-də Şuşa istiqamətində minaya düşməsi nəticəsində şəhid olub.

Nahid Ağalarov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağalı Zaur Kamil oğlu** 11 dekabr 1996-cı ildə Lənkəran rayonunun İstisu qəsəbəsində anadan olub.

Əsgər Zaur Ağalı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl döyüşləri və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zaur Ağalı Füzuli istiqamətində qəhrəmancasına vuruşaraq şəhid olub. Zaur Ağalı oktyabrın 22-də yaşadığı qəsəbə qəbiristanlığında böyük izdihamla dəfn olunub.

Zaur Ağalı ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağaliyev Müzəffər Vahid oğlu** 1981-ci il dekabrın 30-da anadan olub.

MAHHXHQ əsgər Ağaliyev Müzəffər 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli və Cəbrayılın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 23-də Füzuli döyüşləri zamanı şəhid olub.

Müzəffər Ağaliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Ağamalıyev Ağamməd Elgiz oğlu** 1990-cı il noyabrın 16-də Samux rayonunun Füzuli kəndində anadan olub.

Əsgər Ağamməd Ağamalıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. O, igidlik və mərdlik göstərərək Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Ağamməd Ağamalıyev Vətən müharibəsində göstərdiyi igidlik və qəhrəmanlıqlara görə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağamalıyev Şəhriyar Əvəz oğlu** 1989-cu il sentyabrın 28-də Hacıqabul şəhərində anadan olub.

Leytenant Şəhriyar Ağamalıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Şəhriyar Ağamalıyev sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub.

Şəhriyar Ağamalıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ağaməmmədov Xəyal Salam oğlu** 1992-ci il avqustun 23-də Hacıqabul rayonunun Kolanı kəndində anadan olub.

Əsgər Xəyal Ağaməmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyal Ağaməmmədov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.


Xəyal Ağaməmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağamirov Şıxmir Qabil oğlu** 1990-cı il aprelin 5-də Qusar rayonunun Gican kəndində anadan olub.

Baş gizir Şıxmir Ağamirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şıxmir Ağamirov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Qusar rayonunun Gican kəndində dəfn olunub.

Şıxmir Ağamirov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Ağaquliyev İlkin Samәddin oğlu** 4 oktyabr 2000-ci ildə Dəvəçi şəhərində doğulub.

MAHHXHQ əsgər 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan uğrunda gedən döyüşlərdə öz şücaətini göstərərək qəhrəmancasına şəhid olub.

18 oktyabr 2020-ci ildə Şabran Şəhidlər Xiyabanında dəfn olunub.

İlkin Ağaquliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ağaquliyev Tofiq Rafiq oğlu** 2000-ci il dekabrın 1-də Cəlilabad şəhərində anadan olub.

Əsgər Tofiq Ağaquliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tofiq Ağaquliyev oktyabrın 28-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Cəlilabad şəhərində dəfn olunub.

Tofiq Ağaquliyev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağasiyev Elşən Ağabala oğlu** 1999-cu il sentyabrın 22-də Xaçmaz şəhərində doğulub.

Əsgər Elşən Ağasiyev savaşa atılan ilk döyüşçülərimizin sırasında yer alıb. Döyüş yoldaşlarının bildirdiyinə görə, Elşən savaşın ilk günlərində yaralansa da, ön cəbhəni tərk etməyərək döyüşməyə davam edib. Oktyabrın 3-də şəhidlik zirvəsinə ucalıb.

Elşən Ağasiyev ölümündən sonra "Laçının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Ağaşov Famil Vüqar oğlu** 1998-ci il sentyabrın 19-da Cəlilabad rayonunda anadan olub.

Əsgər Famil Ağaşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak edib. Famil Ağaşov Vətən müharibəsi zamanı Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Famil Ağaşov 2020-ci il noyabrın 12-də Cəlilabad rayonunda dəfn olunub.

O, ölümündən sonra qəhrəmanlığına görə "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Ağayev Ağa Əli oğlu** 2001-ci il aprelin 4-də Qusar rayonunun Yeni Həyat kəndində anadan olub.

Əsgər Ağa Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Ağa Ağayev oktyabrın 25-də şəhid olub. Qusar rayonunda dəfn olunub.

Ağa Ağayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ağayev Ağabala İlqar oğlu** 3 mart 1997-ci il tarixində Azərbaycanın Şabran rayonunun (o vaxtlar Dəvəçi adlandırılırdı) Çölquşçu kəndində anadan olub.

O, 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Ağabala Ağayev Füzulinin və Cəbrayılın azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. O, oktyabrın 13-də Füzuli-Cəbrayıl istiqamətində şəhid olub. Ağabala Ağayev oktyabrın 14-də Çölquşçu kəndində dəfn edilib.

Ağabala Ağayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Ağali Tağı oğlu** 1995-ci il aprelin 29-da Siyəzən rayonunun Balaca Həmyə kəndində anadan olub.

Kiçik gizir Ağali Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ağali Ağayev oktyabrın 26-da Xocavənd döyüşləri zamanı şəhid olub. Siyəzən rayonunun Balaca Həmyə kəndində dəfn olunub.

Ağali Ağayev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə","Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Ağamalı Şamil oğlu** 1996-cı il sentyabrın 23-də Masallı rayonunun Çaxırlı kəndində anadan olub.

Əsgər Ağamalı Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ağamalı Ağayev oktyabrın 19-da Füzuli döyüşləri zamanı yaralı hərbi qulluqçunu döyüş meydanından çıxaran zaman düşmən tərəfinin snayper gülləsi nəticəsində şəhid olub. Masallı rayonunda dəfn olunub.

Ağamalı Ağayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Ağayev Ağamir Qüdrət oğlu** 1996-cı il iyulun 14-də Biləsuvar rayonunda 2 saylı çadır şəhərciyində məcburi köçkün ailəsində dünyaya göz açıb.

Əsgər Ağayev Ağamir 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşə yollanıb. Füzuli istiqamətində gedən döyüşlər zamanı bir çox uğurlu tapşırıqlarda Ağamir də ruh yüksəkliyi ilə iştirak edib. Oktyabrın 8-də Füzuli rayonunun Seyidəhmədli kəndi istiqamətində gedən gərgin döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Aqşin Şirvan oğlu** 1 iyun 1993-cü ildə Sabirabad rayonunun Ulacalı kəndində anadan olub.

Əsgər Aqşin Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 27 oktyabr 2020-ci ildə Füzuli istiqamətindəki döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Aqşin Ağayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Cavanşir Niyaməddin oğlu** 1999-cu il mayın 1-də Saatlı rayonunda anadan olub.

Əsgər Cavanşir Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak edib və qəhrəmancasına şəhid olub.

Cavanşir Ağayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Cavidan Mirzəağa oğlu** 2001-ci il iyulun 16-da Bakı şəhərində anadan olub.

Əsgər Cavidan Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Cavidan Ağayev Ağdam-Xocavənd istiqamətində şəhid olub. Oktyabrın 2-də Badamdar qəbiristanlığında dəfn olunub.

Cavidan Ağayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Ağayev Cəlal Ağaverdi oğlu** 1984-cü il dekabrın 4-də Lerik rayonunun Kornədi kəndində anadan olub.

Gizir Cəlal Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cəlal Ağayev sentyabrın 29-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Lerik rayonunun Kornədi kəndində dəfn olunub.

Cəlal Ağayev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Ceyhun Cəmil oğlu** 9 avqust 1991-ci ildə Saatlı rayonunun Mircəlalkənd kəndində anadan olub.

Əsgər Ağayev Ceyhun 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Noyabrın 6-da Xocavənd rayonunun Sirik yaşayış məntəqəsindən Mülküdərə yaşayış məntəqəsi istiqamətində yerdəyişmə edərkən şəxsi heyəti daşıyan avtomobilin aşması nəticəsində aldığı xəsarət nəticəsində şəhid olub.

O, ölümündən sonra "Cəsur döyüşçü" , "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Ağayev Daşqın Əliqulu oğlu** 1987-ci il noyabrın 21-də Sumqayıt şəhərində anadan olub.

Kiçik çavuş Daşqın Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Daşqın Ağayev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Daşqın Ağayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Əmirağa Mahir oğlu** 29 may 2002-ci ildə Şabran rayonunun Surra kəndində dünyaya göz açıb.

Əsgər Əmirağa Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Əmirağa Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Uzun müddət itkin olaraq axtarılan Əmirağa Ağayevin nəşi 10 fevral 2021-ci ildə tapılıb və 11 fevral tarixində Şabran Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Ağayev Əhəd Bilal oğlu** 1987-ci ildə Astara rayonunun Motalayataq kəndində anadan olub.

Əsgər Əhəd Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl istiqamətlərində gedən ağır döyüşlərdə böyük qəhrəmanlıq və şücaətlər göstərib. Daha sonra Xocavənd istiqamətində gedən döyüşlərə qatılıb, düşmənə sarsıdıcı zərbələr endirib və xeyli sayda canlı qüvvəsini məhv edib. Noyabr ayının 1-də Xocavənd uğrunda gedən şiddətli döyüşlərdə şəhid olub. O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Elçin Zakir oğlu** 1993-cü il iyulun 7-də Cəlilabad rayonunun Günəşli kəndində anadan olub.

Baş leytenant Elçin Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elçin Ağayev oktyabrın 6-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Cəlilabad rayonunda dəfn olunub.

Elçin Ağayev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Elvin Valeh oğlu** 25 noyabr 1997-ci ildə Xaçmaz rayonunda anadan olub.

Əsgər Elvin Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin alınmasında fəal iştirak edib. 29 oktyabr 2020-ci ildə Füzulinin Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" , "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Həmdəm Mayıl oğlu** 1975-ci il sentyabrın 9-da Ağdam rayonunun Sırxavənd kəndində anadan olub.


Polkovnik-leytenant Həmdəm Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Həmdəm Ağayev oktyabrın 9-da Füzuli döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Həmdəm Ağayev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.

**Ağayev İldırım Qafqaz oğlu** 1998-ci il mayın 2-də Yevlax rayonunun Rüstəmli kəndində anadan olub.

Kiçik çavuş İldırım Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İldırım Ağayev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

İldırım Ağayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev İlkin Tehran oğlu** 1986-cı il iyunun 2-də Zərdab rayonunun Körpü kəndində anadan olub.

Gizir İlkin Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İlkin Ağayev noyabrın 8-də Qubadlı döyüşləri zamanı şəhid olub.

İlkin Ağayev ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev İntiqam Hüseyn oğlu** 1998-ci il martın 1-də Tərtər rayonunun Səhləbad kəndində anadan olub.

Əsgər İntiqam Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində igidlik göstərərək Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

İntiqam Ağayev oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Mənsur Ağa oğlu** 1994-cü il iyunun 29-da Hacıqabul rayonunun Padar qəsəbəsində anadan olub.

Əsgər Mənsur Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Mənsur Ağayev noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Mənsur Ağayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Ağayev Mirlətif Mirislam oğlu** 1990-cı il noyabrın 20-də Göytəpə şəhərində anadan olub.

TX/leytenantı Mirlətif Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralanan hərbçilərə yerindəcə yardım edib. Mirlətif Ağayev oktyabrın 26-da Qubadlı döyüşləri zamanı şəhid olub. Cəlilabad rayonunda dəfn olunub.

Mirlətif Ağayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Naim Süleyman oğlu** 29 avqust 1998-ci ildə Rusiya Federasiyasının Saratov vilayətində dünyaya göz açıb.

Əsgər Naim Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Naim Ağayev 30 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Naim Ağayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Ramil Ağarəhim oğlu** 20 sentyabr 1994-cü ildə Sabirabad rayonunda anadan olub.

Əsgər Ramil Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ramil Ağayev oktyabrın 13-də Hadrut döyüşləri zamanı şəhid olub. Doğulduğu Sabirabad rayonunda dəfn olunub.

Ramil Ağayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ağayev Ramil Mərdan oğlu** 1984-cü il dekabrın 20-də Lerik şəhərində anadan olub.

Əsgər Ramil Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ramil Ağayev oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub. Lerik şəhərində dəfn olunub.

Ramil Ağayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Ağayev Ramiq Təhsin oğlu** 1992-ci il fevralın 12-də Astara şəhərinin Alaşa kəndində anadan olub.

Əsgər Ramiq Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Cəbrayıl uğrunda gedən döyüşlərdə tankda yanaraq şəhid olub.

O ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Ramiz İmamverdi oğlu** 1993-cü il iyulun 25-də Binəqədi rayonunun Biləcəri qəsəbəsində anadan olub.

Çavuş Ramiz Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ramiz Ağayev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Ramiz Ağayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Ağayev Rəşad Rövşən oğlu** 2 iyul 2000-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində anadan olub.

Əsgər Rəşad Ağayev 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsi zamanı ordu sıralarına qatılıb.

Oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan kəndinin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Bakı şəhər Şəhidlər Xiyabanında dəfn edilib.

Rəşad Ağayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ağayev Şahin Azər oğlu** 13 dekabr 1993-cü ildə Bakı şəhərində anadan olub.

Əsgər Şahin Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə qatılıb. Şahin Ağayev oktyabrın 25-də Qubadlıda şəhid olub.

Əvvəlcə Qaradağ rayonundakı Ümumşəhər qəbiristanlığında dəfn olunub. Daha sonra məzarı II Şəhidlər Xiyabanına köçürülüb.

Şahin Ağayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Ağayev Saleh Nurəddin oğlu** 1992-ci il aprelin 30-da Biləsuvar rayonunun Günəşli kəndində anadan olub.

Kiçik gizir Saleh Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Saleh Ağayev oktyabrın 6-da Cəbrayıl döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunun Günəşli kəndində dəfn olunub.

Saleh Ağayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Ağayev Tapdıq Çingiz oğlu** 1990-cı il dekabrın 2-də Qəbələ rayonunun Tüntül kəndində anadan olub.

Kiçik çavuş Tapdıq Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tapdıq Ağayev oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub. Qəbələ rayonunun Tüntül kəndində dəfn olunub.

Tapdıq Ağayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Ülvi Valeh oğlu** 1993-cü il martın 9-da Göyçay rayonunun Şahsoltanlı kəndində anadan olub.

Əsgər Ülvi Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülvi Ağayev oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub.

Ülvi Ağayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ağayev Vahid Məcnun oğlu** 1996-cı il sentyabrın 14-də Bakı şəhərinin Maştağa qəsəbəsində anadan olub.

Əsgər Ağayev Vahid 2020-ci il sentyabrın 29-da Səfərbərlik çağırışı ilə Vətən müharibəsinə yollanıb. Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edib. Noyabrın 11-də Şuşada qəhrəmancasına şəhid olub. 17 noyabr 2020-ci il Maştağa qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn olunub.

Öümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Ağayev Vüqar Əhməd oğlu** 1973-cü il martın 4-də Qubadlı rayonunun Xanlıq kəndində anadan olub.

Mayor Vüqar Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüqar Ağayev noyabrın 1-də Qubadlı döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Vüqar Ağayevə "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.


O, ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Xəlil Pənah oğlu** 1998-ci il dekabrın 7-də Cəlilabad rayonunun Zopun kəndində anadan olub.

Əsgər Xəlil Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəlil Ağayev oktyabrın 27-də Qubadlı döyüşləri zamanı şəhid olub. Cəlilabad rayonunun Zopun kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Zabil Azər oğlu** 1994-cü il martın 1-də Saatlı rayonunun Məmmədabad kəndində anadan olub.

Kiçik çavuş Zabil Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zabil Ağayev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağayev Zamin Zülfüqar oğlu** 11 may 2002-ci il tarixində anadan olub.

Əsgər Zamin Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günlərindən döyüşə qatılıb, düşmənin çoxlu sayda texnikasını və canlı qüvvəsini məhv edib. 2021-ci il oktyabr ayının 23-də Füzuli və Şuşa istiqamətlərində gedən döyüşlərdə şəhid olub.

Qobustan rayonunun Sündü kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.






**Ağazadə Emin Valik oğlu** 1991-ci il mart ayının 22-də İsmayıllı rayonunun Kürdmaşı kəndində dünyaya göz açıb.

Əsgər Emin Ağazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, Füzuli, Cəbrayıl, Qubadlı rayonları uğrunda gedən döyüşlərdə savaşıb.

Emin Ağazadə oktyabrın 25-i gecə Laçın istiqamətində yoldaşları ilə birlikdə ön cəbhəyə gedərkən maşında vurularaq sol ayağından qəlpə yarası alıb və əbədiyyətə qovuşub. Oktyabrın 27-də İsmayıllı rayonunun Kürdmaşı kəndindəki qəbiristanlıqda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağazadə Sənan Nizami oğlu** 1 may 2000-ci ildə Lənkəran şəhərinin Göyşaban kəndində anadan olub.

Əsgər Sənan Ağazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Sənan Ağazadə oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.




**Ağazadə Murad İkram oğlu** 2000-ci il iyulun 13-də Yevlax şəhərində dünyaya göz açıb.

Əsgər Murad Ağazadə 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlanan zaman Goranboy rayonu istiqamətində döyüş yolu keçib. Oktyabrın 2-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndi istiqamətində gedən qızğın döyüşlərin birində şəhid olub. 70 gün Murad neytral zonada qaldıqdan sonra, dekabrın 9-da Yevlax şəhərinin Şəhidlər Xiyabanında dəfn edilib.

Ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Akifzadə Elmir Gündüz oğlu** 1997-ci il sentyabrın 1-də Masallı rayonunun Banbaşı kəndində anadan olub.

Əsgər Elmir Akifzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elmir Akifzadə oktyabrın 9-da Hadrut döyüşləri zamanı şəhid olub. Masallı rayonunda dəfn olunub.

Elmir Akifzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Alişanlı Amal Seyfəddin oğlu** 2001-ci il fevralın 11-də Yardımlı rayonunun Qabaqdibi kəndində anadan olub.

Əsgər Amal Alişanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amal Alişanlı noyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub.

Amal Alişanlı ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Alışov Samir Cəmil oğlu** 1997-ci il avqust ayının 23-də Hacıqabul rayonunun Qubalı kəndində anadan olub.

Əsgər Samir Alışov sentyabrın 29-da könüllü olaraq döyüşlərə qatılıb. Əsasən Füzuli rayonu istiqamətində döyüşlərdə iştirak edən Samir oktyabr ayının 24-də Xocavənd rayonu uğrunda gedən döyüşlərdə şəhid olub.

Samir Alışov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edildi.



**Alışov Ülvi İlham oğlu** 2000-ci il yanvarın 11-də Cəlilabad rayonunun Həziabad kəndində anadan olub.

Çavuş Ülvi Alışov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülvi Alışov sentyabrın 29-da Füzuli döyüşləri zamanı şəhid olub.

Ülvi Alışov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Alıyev Elçin Bayram oğlu** 1975-ci il iyulun 16-da Qubadlı şəhərində anadan olub.

Mayor Elçin Alıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elçin Alıyev noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Elçin Alıyev ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Alıyev Laçın Rasim oğlu** 1992-ci il yanvarın 22-də Goranboy rayonunun Yəhərçi Qazaxlar kəndində anadan olub.

Gizir Laçın Alıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Laçın Alıyev oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub.

Laçın Alıyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Alıyev Vahid Abbas oğlu** 1989-cu il fevralın 18-də Daşkəsən rayonunun Alunitdağ qəsəbəsində anadan olub.

Gizir Vahid Alıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vahid Alıyev oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub.

Vahid Alıyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Alızadə Seymur Mirzə oğlu** 1998-ci il yanvarın 12-də Şəmkir rayonunun Xuluf kəndində anadan olub.

Əsgər Seymur Alızadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Seymur Alızadə oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunun Xuluf kəndində dəfn olunub.

Seymur Alızadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdiyev Allahverdi Əli oğlu** 2001-ci il iyulun 9-da Xəzər rayonunda anadan olub.

Əsgər Allahverdi Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərə qatılıb.

Sentyabrın 27-də Talış-Suqovuşan istiqamətində gedən döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**Allahverdiyev Asiman Niyaz oğlu** 1998-ci avqustun 26-da Sumqayıt şəhərində anadan olub.

Əsgər Asiman Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd və Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 9-da Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub.

Asiman Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdiyev Babək Bəxtiyar oğlu** 1979-cu il mayın 30-da Naxçıvan şəhərində anadan olub.

Baş leytenant Babək Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Babək Allahverdiyev noyabrın 4-də Şuşa döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Babək Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Allahverdiyev Elnur Kamil oğlu** 12 iyul 2001-ci ildə Biləsuvar rayonunun Çaylı kəndində anadan olub.

Əsgər Elnur Allahverdiyev 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Elnur Allahverdiyev 11 noyabr 2020-ci il tarixində Biləsuvar rayonunun Çaylı kənd məzarıstanlığında dəfn olub.

Elnur Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdiyev Elşad Zaməddin oğlu** 1997-ci il aprelin 5-də Göyçə Mahalının Zod kəndində anadan olub.

Baş Leytenant Elşad Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində vuruşub. Döyüşlər bitdikdən sonra tank əleyhinə minaların təmizlənməsi əməliyyatında iştirak edib. Elşad Allahverdiyev 23 noyabr 2020-ci ildə Şuşa şəhərində minaya düşərək şəhid olub.

Elşad Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.






**Allahverdiyev İsgəndər Nəsir oğlu** 1999-cu il aprelin 2-də Qax rayonunun Şotavar kəndində anadan olub.

Əsgər İsgəndər Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edib. İsgəndər Allahverdiyev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdiyev Kənan Mərdan oğlu** 10 fevral 2002-ci ildə Sumqayıt şəhərində dünyaya gəlib.

Əsgər Kənan Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kənan Allahverdiyev oktyabrın 3-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Kənan Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdiyev Namaz Baxış oğlu** 2000-ci il iyunun 13-də Şəki rayonunun Suçma kəndində anadan olub.

Kiçik leytenant Namaz Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Namaz Allahverdiyev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Şəki rayonunda dəfn olunub.

Namaz Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdiyev Nazir Xasay oğlu** 2001-ci il aprelin 20-də Ağdam rayonunun Çullu kəndində anadan olub.

Əsgər Nazir Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nazir Allahverdiyev oktyabrın 24-da Füzuli döyüşləri zamanı şəhid olub. Ağdam rayonunda dəfn olunub.

Nazir Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Allahverdiyev Rövşən Fərrux oğlu** 10 noyabr 1991-ci ildə Ağcabədi rayonunun Qaraxanlı kəndində anadan olub.

Kiçik çavuş Rövşən Allahverdiyev sentyabr ayının 27-də başlanan Vətən müharibəsində ön cəbhəyə yollanıb. Füzuli istiqamətində gedən gərgin döyüşlərin iştirakçısı olan Rövşən müharibənin elə ilk günü ağır yaralanıb və aldığı yaradan şəhidlik zirvəsinə ucalıb.

Rövşən Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdiyev Sakit Şahin oğlu** 24 dekabr 2001-ci ildə Ağstafa rayonunun Tatlı kəndində dünyaya göz açıb.

Əsgər Sakit Allahverdiyev 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsinin ilk günündən bir çox hərbi əməliyyatlarda və döyüşlərdə iştirak edib, döyüş tapşırıqlarını uğurla yerinə yetirib. Sakit Füzuli, Cəbrayıl və digər torpaqlarımızın istiqamətində gedən döyüşlərdə böyük şücaət nümayiş etdirib. Şuşa döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

13 noyabr 2020-ci ildə Çaylı kəndinin qəbiristanlığında dəfn edilib.

Sakit Allahverdiyev ölümündən sonra "Hərbi xidmətlərə görə", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdiyev Samir Elçin oğlu** 2001-ci il iyunun 7-də Lənkəran şəhərində anadan olub.

Əsgər Samir Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Samir Allahverdiyev oktyabrın 22-də Qubadlı döyüşləri zamanı şəhid olub. Lənkəran şəhərində torpağa tapşırılıb.

Samir Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdiyev Seymur Qərib oğlu** 1985-ci il iyunun 1-də Gədəbəy rayonunun Parakənd kəndində anadan olub.

Kiçik çavuş Seymur Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Seymur Allahverdiyev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapılmayıb. Dekabrın 29-da Gədəbəy rayonunun Parakənd kəndində dəfn olunub.

Seymur Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Allahverdiyev Süleyman Etibar oğlu** 22 sentyabr 1996-cı ildə Bərdə rayonunda anadan olub.

Əsgər Süleyman Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb. Oktyabrın 8-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdiyev Tacir Xasay oğlu** 2001-ci il aprelin 20-də Ağdam rayonunun Çullu kəndində anadan olub.

Əsgər Tacir Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tacir Allahverdiyev oktyabrın 24-də Füzuli döyüşləri zamanı şəhid olub. Ağdam rayonunda dəfn olunub.

Tacir Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdiyev Turxan Rəsul oğlu** 5 aprel 1996-cı ildə Gədəbəy rayonunun İnəkboğan kəndində anadan olub.

Əsgər Turxan Allahverdiyev 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb. Şuşada gedən döyüşlərdə düşmənə sarsıdıcı zərbələr endirib. Qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə yüksəlib.

Turxan noyabr ayının 12-də doğulduğu Gədəbəy rayonunun İnəkboğan kənd qəbiristanlığında dəfn olunub.

Turxan Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdiyev Vidadi Fazil oğlu** 1988-ci il martın 13-də Xızı rayonunun Giləzi qəsəbəsində anadan olub.

Kiçik çavuş Vidadi Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vidadi Allahverdiyev sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Xızı rayonunun Giləzi qəsəbəsində dəfn olunub.

Vidadi Allahverdiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Allahverdiyev Vüsal Novruz oğlu** 25 iyul 2002-ci ildə Samux rayonunun Qarayeri qəsəbəsində dünyaya göz açıb.

Əsgər Vüsal Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə vuruşub. O, 6 noyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. 18 yaşında (18 il 4 ay) şəhid olan əsgər Allahverdiyev Vətən müharibəsinin ən gənc şəhidi oldu.

Vüsal Allahverdiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Allahverdiyev Vüsal Tahir oğlu** 16 avqust 1988-ci ildə Qubadlı rayonunda anadan olub.

Əsgər Vüsal Allahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində həmin ilin 1 oktyabr tarixindən könüllü olaraq iştirak edib. Füzulinin, Cəbrayılın və Xocavəndin azad edilməsi uğrunda və Füzuli rayonunun Seyidəhmədli kəndi istiqamətində gedən döyüşlərdə vuruşub. 30 oktyabr 2020-ci ildə Xocavənd istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Sumqayıt Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Vüsal Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə","Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverdizadə Elnur Əli oğlu** 1995-ci ildə Sumqayıt şəhərində anadan olub. Əslən Zəngilan rayonundandır.

Əsgər Elnur Allahverdizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü topçu olaraq iştirak edib. Ağdamın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Elnur Allahverdizadə 7 noyabr 2020-ci ildə Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Noyabrın 8-də Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunub.

Elnur Allahverdizadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahverənov Məhəmməd Zöhrab oğlu** 1995-ci il iyulun 8-də Bərdə rayonunun Çəmənli kəndində anadan olub.

Əsgər Məhəmməd Allahverənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmanlıqlar göstərib. Oktyabrın 7-də düşmən atəşi nəticəsində şəhid olub. Qəbri doğulduğu Çəmənli kənd qəbiristanlığındadır.

Məhəmməd Allahverənov ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Allahyarov Şahin Hüseynbala oğlu** 1993-cü il yanvarın 29-da Şamaxı rayonunun Paşalı kəndində anadan olub.

Baş gizir Şahin Allahyarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şahin Allahyarov noyabrın 1-də Şuşa döyüşləri zamanı şəhid olub. Quba rayonunun Zizik kəndində dəfn olunub.

Şahin Allahyarova "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Allahyarov Vüsal Şakir oğlu** 1988-ci il aprelin 22-də Sumqayıt şəhərində anadan olub.

Baş çavuş Vüsal Allahyarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal Allahyarov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Vüsal Allahyarov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Alməmmədov Emin Akif oğlu** 1989-cu il fevralın 27-də Şəmkir şəhərində anadan olub.

Gizir Emin Alməmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Emin Alməmmədov sentyabrın 29-da Murovdağ döyüşləri zamanı şəhid olub. Şəmkir şəhərində dəfn olunub.

Emin Alməmmədov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Alməmmədov İman Tarverdi oğlu** 17 may 1999-cu ildə Şahbuz rayonunun Kolanı kəndində dünyaya göz açıb.

Əsgər İman Alməmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin, Hadrutun, həmçinin Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinin və Xocalı rayonunun Çanaqçı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə vuruşub.

İman Alməmmədov 9 noyabr 2020-ci ildə Şuşada döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Şahbuz rayonunun Kolanı kənd qəbiristanlığında torpağa tapşırılıb.

İman Alməmmədov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Almməmmədov Təbriz Letman oğlu** 1995-ci il noyabrın 28-də Sumqayıt şəhərində anadan olub.

MAHHXHQ əsgər Təbriz Almməmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Təbriz Almməmmədov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Təbriz Almməmmədov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Alqayev Harun Məhəmməd oğlu** 1992-ci il iyulun 14-də Balakən rayonunun Gərəkli kəndində anadan olub.

Baş leytenant Harun Alqayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Harun Alqayev oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub. Balakən şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Harun Alqayev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Alxaslı Rəvan Cəmil oğlu** 1 yanvar 1996-cı ildə Ağsu rayonunun Rəhimli kəndində dünyaya göz açıb.

Əsgər Rəvan Alxaslı 2020-ci ilin iyul ayında hərbi təlim toplantılarına çağırılıb.

Rəvan Alxaslı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Bir çox hərbi əməliyyatlarda və döyüşlərdə vuruşub. 9 oktyabr 2020-ci ildə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Alxasov Elməddin Rəsul oğlu** 24 may 1984-cü ildə Xaçmaz rayonunun Qaradağ buduq kəndində dünyaya göz açıb.

MAHHXHQ əsgər Elməddin Alxasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı həm cənub, həm də şimal cəbhələrində döyüşərək düşmənə qan uddurub. Döyüşlərə Cəbrayıl, Füzuli istiqamətindən başlayan qəhrəman kəşfiyyatçı daha sonra Suqovuşanın azad olunması uğrunda əməliyyatlarda iştirak edib. Oktyabrın 2-də Qaradağ Buduq kənd qəbiristanlığında dəfn olunub.

Elməddin Alxasov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Amanaliyev Tərlan Rövşən oğlu** 1995-ci il iyulun 15-də Şamaxı rayonunun Şəhriyar qəsəbəsində anadan olub.

Əsgər Tərlan Amanaliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Tərlan Amanaliyev oktyabrın 9-da Ağdərə döyüşləri zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Tərlan Amanaliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Amanov Əhməd Tahir oğlu** 4 sentyabr 1994-cü ildə Yevlax rayonunun Salahlı kəndində anadan olub.

MAHHXHQ əsgər Əhməd Amanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə tankçı olaraq vuruşub. 28 sentyabr 2020-ci ildə qarşı tərəfin intensiv atəşi səbəbilə tankının yanması nəticəsində şəhid olub.

Əhməd Amanov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Arazov Elçin Eldar oğlu** 2001-ci il avqustun 8-də Quba rayonunda dünyaya gəlib.

Əsgər Elçin Arazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Oktyabrın 21-də Goranboy rayonu Tapqaraqoyunlu kəndi istiqamətində şəhid olub.

Elçin Arazov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarıyla təltif edildi.



**Arazov İkrəməddin Qüdrət oğlu** 2001-ci il senyabrın 7-də Qusar rayonunun Urva kəndində anadan olub.

Əsgər İkrəməddin Arazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. İkrəməddin Arazov oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 2021-ci il yanvarın 15-də dəfn olunub.

İkrəməddin Arazov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Arazov Səyyar Güloğlan oğlu** 21 iyul 1987-ci ildə Gəncə şəhərində doğulub.

Əsgər Səyyar Arazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb, Murovdağ istiqamətindəki döyüşlərdə iştirak edib.

30 sentyabr 2020-ci il tarixində Kəlbəcər rayonu uğrunda gedən döyüşlərdə şəhid olub. Həmin ilin dekabrın 19-da Gəncə şəhərinin Şəhidlər Xiyabanında torpağa tapşırılıb.



**Aslanlı Orxan Şahmar oğlu** 1992-ci il noyabrın 20-də Tərtər rayonunun Səhləbad kəndində anadan olub.

Əsgər Orxan Aslanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Orxan Aslanlı oktyabrın 8-də Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olub. Tərtər rayonunda dəfn olunub.

Orxan Aslanlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Aslanov Ağasadıq Xəlil oğlu** 1991-ci il martın 1-də Neftçala rayonunun Kür Qarabucaq kəndində anadan olub.

Gizir Ağasadıq Aslanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ağasadıq Aslanov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Neftçala rayonunun Kür Qarabucaq kəndində dəfn olunub.

Ağasadıq Aslanov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni , "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Aslanov Atəş Yusif oğlu** 1993-cü il aprelin 1-də Tovuz rayonunun Məşədivəllər kəndində anadan olub.

Əsgər Atəş Aslanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Atəş Aslanov oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Aşağı Quşçu kəndində dəfn olunub.

Atəş Aslanov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Aslanov Babək Sakit oğlu** 1994-cü il noyabrın 15-də Tovuz rayonunun Yanıqlı kəndində anadan olub.

Gizir Babək Aslanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Babək Aslanov oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Yanıqlı kəndində dəfn olunub.

Babək Aslanov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Aslanov Bəxtiyar İlqar oğlu** 28 dekabr 1998-ci ildə dünyaya göz açıb.

MAHHXHQ əsgər Bəxtiyar Aslanov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Murovdağın azad olunması uğrunda gedən döyüşlərdə vuruşub. Bundan sonra Bəxtiyar Aslanov və təxminən 7 nəfər əsgər silahının bitdiyinə görə əlbəyaxa döyüşüb.

30 sentyabr tarixində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub, nəşi 137 gün sonra Murovdağın Ağbaba yüksəkliyində tapılıb. Fevralın 13-də ailəsinin istəyi ilə Goranboy rayonunun Balakürd kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Aslanov Elşən Alxas oğlu** 29 sentyabr 1999-cu ildə Qaradağ rayonunun Qızıldaş qəsəbəsində doğulub.

Əsgər Elşən Aslanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli və Cəbrayıl kəndlərinin işğaldan azad edilməsində qəhrəmancasına döyüşüb. 22 noyabr 2020-ci il tarixində Cəbrayıl-Qubadlı istiqamətində gedən döyüşlərdə şəhid olub.

Elşən Aslanov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Aslanov Rəşad Taryel oğlu** 1984-cü il martın 16-da Goranboy rayonunun Qarqucaq kəndində anadan olub.

MAHHXHQ əsgər Rəşad Aslanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Kəşfiyyatçı Rəşad Aslanovun son döyüşü Murov zirvəsi uğrunda olub. Dekabrın 26-da Rəşadın şəhid xəbəri gəlib.


O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edildi.

**Aslanov Röyal Elzar oğlu** 2001-ci il mayın 17-də Tovuz rayonunun Abulbəyli kəndində anadan olub.

Əsgər Röyal Aslanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Röyal Aslanov sentyabrın 29-da Füzuli döyüşləri zamanı şəhid olub. Tovuz rayonunda torpağa tapşırılıb.

Röyal Aslanov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Aslanov Taleh Elman oğlu** 1996-cı il dekabrın 1-də Goranboy şəhərində anadan olub.

Əsgər Taleh Aslanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Taleh Aslanov oktyabrın 1-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Taleh Aslanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Aslanov Tural Elşən oğlu** 1992-ci il iyunun 5-də Yardımlı rayonunun Çay Üzü kəndində anadan olub.

Leytenant Tural Aslanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Aslanov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Yardımlı rayonunda dəfn olunub.

Tural Aslanov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Aslanov Xəyal Qüdrət oğlu** 1994-cü il martın 5-də Tərtər rayonunun Çardaqlı kəndində anadan olub.

Gizir Xəyal Aslanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyal Aslanov sentyabrın 28-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Xəyal Aslanov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Astanlı İqbal İlqar oğlu** 10 avqust 1997-ci ildə Biləsuvar rayonunda anadan olub.

Əsgər İqbal Astanlı 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüş əməliyyatları zamanı qəhrəmancasına şəhid olub.

İqbal Astanlı 29 sentyabr 2020-ci il tarixində Biləsuvar rayonunun məzarıstanlığında dəfn olunub.

İqbal Astanlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Atakişiyev Kamil Araz oğlu** 12 iyun 2000-ci ildə Oğuz rayonunun Xaçmaz kəndində anadan olub.

Əsgər Kamil Atakişiyev 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Qubadlının və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cəbrayılda bir dəfə ayağından yaralanıb, bir neçə gün xəstəxanada yatdıqdan sonra yenidən özü israrla döyüşlərə qatılıb. Kamil Atakişiyev noyabrın 5-də Laçın dəhlizində qəhrəmancasına vuruşaraq şəhid olub. Noyabrın 27-də Oğuz rayonunun Xaçmaz kənd Şəhidlər Xiyabanında dəfn olunub.

Kamil Atakişiyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Atakişiyev Ramiz Rafiq oğlu** 1996-cı il mart ayının 4-də Siyəzən şəhərində anadan olub.

Əsgər Ramiz Atakişiyev 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı döyüşlərə qatılıb. Şuşaya kimi döyüş yolu keçib. Şuşa uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksələn Ramiz noyabrın 14-ü dəfn edilib.

Atakişiyev Ramiz Rafiq oğlu "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Atakişiyev Rüstəm Zahid oğlu** 2000-ci il dekabrın 24-də Qəbələ rayonunun Tüntül kəndində anadan olub.

Əsgər Rüstəm Atakişiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Füzuli döyüşləri zamanı yaralansa da, savaşmağa davam edib. Döyüşlər zamanı Ermənistan Ordusunun 10-dan çox hərbçisini məhv edib. Rüstəm Atakişiyev oktyabrın 21-də Şuşa rayonu istiqamətində şəhid olub. Qəbələ rayonunda dəfn olunub.

Rüstəm Atakişiyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Atakişiyev Tərlan Dərgah oğlu** 1977-ci il fevralın 23-də Şamaxı rayonunun Göylər kəndində anadan olub.

Leytenant Tərlan Atakişiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Tərlan Atakişiyev oktyabrın 24-də Füzuli döyüşləri zamanı şəhid olub. Şamaxı rayonunun Göylər kəndində dəfn olunub.

Tərlan Atakişiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Atakişiyev Toğrul Ramil oğlu** 2000-ci il fevralın 25-də Beyləqan şəhərində anadan olub.

MAHHXHQ əsgər Toğrul Atakişiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Toğrul Atakişiyev oktyabrın 21-də Hadrut döyüşləri zamanı şəhid olub. Beyləqan şəhərində dəfn olunub.

Toğrul Atakişiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ataşov Asif Kərim oğlu** 10 aprel 2002-ci il tarixində Abşeron rayonunun Xırdalan qəsəbəsində anadan olub. Əslən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindəndir.

Əsgər Asif Ataşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 1-də Tərtər rayonunun Dəmirçilər kəndi istiqamətindəki döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", Ağdamın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.


Hərbi xidmətə gedərkən sadəcə bir cümlə işlədib: "Anam Vətən əmanəti..."



**Atayev Nicat Habil oğlu** 1994-cü il martın 5-də Mingəçevir şəhərində anadan olub.

Leytenant Nicat Atayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nicat Atayev sentyabrın 27-də Füzuli döyüşləri zamanı Yuxarı Əbdürrəhmanlı istiqamətində şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Nicat Atayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.






**Atayev Tariyel Fəxrəddin oğlu** 1986-cı il sentyabrın 5-də Ağcabədi rayonunun Minəxorlu kəndində anadan olub.

MAHHXHQ əsgər Tariyel Atayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tariyel Atayev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Ağcabədi rayonunda dəfn olunub.

Tariyel Atayev ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Abdıyev Orxan Habil oğlu** 1995-ci il avqustun 2-də Ağstafa rayonunun Pirili kəndində anadan olub.

Əsgər Orxan Abdıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Abdıyev oktyabrın 25-də Qubadlı döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunda dəfn olunub.

Orxan Abdıyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Axundov Əfqan Hüseyn oğlu** 2000-ci il fevral ayının 16-da Salyan şəhərində anadan olub.

Əsgər Əfqan Axundov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Əfqan Axundov oktyabr ayının 16-da şəhid olsa da uğrunda canından keçdiyi torpağa oktyabr ayının 29-da tapşırılıb. Şəhid olmuş komandirin və əsgərinin nəşini düşmənin atəşi altında olan mövqedən bir müddət çıxarmaq mümkün olmayıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Axundov Eşqin İntiqam oğlu** 3 yanvar 2000-ci ildə Gəncə şəhərində doğulub.

Əsgər Eşqin Axundov 27 sentyabr 2020-ci il tarixində Vətən müharibəsinin başlaması ilə əlaqədar yenidən hərbi xidmətə çağırılıb.

O, Füzuli, Qubadlı və Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib. Bir neçə yaralı əsgər yoldaşını düşmən mühasirəsindən xilas edib.

Noyabrın 8-də Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. 19 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Axundov Mirzə Musa oğlu** 1984-cü il martın 15-də Lənkəran rayonunun Gəgiran kəndində anadan olub.

Miçman Mirzə Axundov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın və Talışın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mirzə Axundov oktyabrın 2-də Talış istiqamətində şəhid olub. Xəzər rayonunun Türkan qəsəbəsində dəfn olunub.

Mirzə Axundov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Axundzadə Kənan Hamil oğlu** 1994-cü il avqustun 2-də Lənkəran şəhərində anadan olub.

MAHHXHQ əsgər Kənan Axundzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd istiqamətində gedən döyüşlərdə savaşıb. Kənan Axundzadə oktyabrın 31-də Xocavənd rayonu istiqamətində, Uryandağ yüksəkliyi uğrunda gedən döyüşlərdə şəhid olub. Lənkəranın Girdəni kəndində dəfn olunub.

Kənan Axundzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Aydəmirov Beyrək Etibar oğlu** 1990-cı il 13 avqust tarixində Şabran rayonunun Çayqaraqaşlı kəndində anadan olub.

MAHHXHQ əsgər Aydəmirov Beyrək 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb. Şabran rayonunun Çayqaraqaşlı kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzuli rayonunun azad olunmasına görə" medalları ilə təltif edildi.



**Aydəmirov Nizami Elçin oğlu** 11 mart 1993-cü ildə Quba rayonunun Bağbanlı kəndində anadan olub.

MAHHXHQ əsgər Nizami Aydəmirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Baş kəşfiyyatçı Nizami Aydəmirov oktyabrın 5-də Füzuli rayonunun Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

Nizami Aydəmirov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.





**Ayvazov Həsən Cəlil oğlu** 2000-ci il avqustun 21-də Tovuz rayonunun Pələkli kəndində anadan olub.

Əsgər Həsən Ayvazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 15-də Həsən Ayvazov ilə əlaqə saxlamaq mümkün olmayıb. Noyabrın 21-də şəhid olduğu müəyyənləşib. Noyabrın 22-də Tovuz rayonunun Pələkli kəndində dəfn edilib.

Həsən Ayvazov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Azadlı Eltac Sədrəddin oğlu** 22 mart 1992-ci ildə Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olub.

Əsgər Eltac Azadlı 2020-ci il sentyabrın 27-də başlanan II Qarabağ müharibəsi zamanı ordu sıralarına qoşulub. Vətən mübaribəsi zamanı Füzuli-Qubadlı və Xocavənd istiqamətlərində gedən döyüşlərdə fəal iştirak edib. Oktyabrın 3-də Füzuli-Qubadlı istiqamətində düşmənlə mübarizədə şəhadətə yüksəlib. Oktyabrın 31-də Dünyamalılar kəndində dəfn edilib.

Şəhadətindən sonra "Xocavəndin azad olunmasına görə" , "Füzulinin azad olunmasına görə" , "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Azadlı Zabil Tələt oğlu** 1999-cu il yanvarın 1-də Lerik rayonunun Biləvər kəndində anadan olub.

Əsgər Zabil Azadlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zabil Azadlı oktyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub. Lerik rayonunda dəfn olunub.

Zabil Azadlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Azayev Asif Məhəmmədağa oğlu** 1985-ci il fevralın 1-də Şamaxı rayonunun Həmyəli kəndində anadan olub.

Mayor Asif Azayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tabor Komandiri olaraq Cəbrayılın, Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Asif Azayev oktyabrın 20-də Füzuli rayonu istiqamətində snayper gülləsi nəticəsində şəhid olub. Şamaxı rayonunda dəfn olunub.

Asif Azayev ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Azayev Sadiq Xubyar oğlu** 1992-ci il avqustun 11-də Quba rayonunun Qonaqkənd qəsəbəsində anadan olub.

Gizir Sadiq Azayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sadiq Azayev oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub. Quba rayonunun Qonaqkənd qəsəbəsində dəfn olunub.

Sadiq Azayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Azayev Ülvi Maqsud oğlu** 2001-ci il dekabrın 4-də Kürdəmir rayonunun Ərəb Qubalı kəndində anadan olub.

Əsgər Ülvi Azayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülvi Azayev oktyabrın 2-də Ağdərə istiqamətində şəhid olub.

Ülvi Azayev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bababəy Şamil Nazim oğlu** 1994-cü il yanvarın 4-də Ordubad rayonunun Cənnəb kəndində anadan olub.

Baş leytenant Şamil Bababəy 2020-ci ildə İkinci Vətən müharibəsi zamanı Naftalan və Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edib, Ağdərənin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Şamil Bababəy oktyabrın 7-də Ağdərə döyüşləri zamanı şəhid olub. İkinci Fəxri Xiyabanda dəfn olunub.

O, şəhadətindən sonra "Suqovuşanın azad olunmasına görə" medalı, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.



**Babaşov Bayram İlqar oğlu** 1993-cü il iyulun 9-da Cəlilabad rayonunun Günəşli kəndində anadan olub.

Baş leytenant Bayram Babaşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Bayram Babaşov oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Babaşov Hikmət Firudin oğlu** 1977-ci il fevralın 3-də Beyləqan rayonunun Yeni Mil qəsəbəsində anadan olub.

MAHHXHQ kiçik çavuş Hikmət Babaşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Hikmət Babaşov noyabrın 8-də Qubadlı döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babaxanov Elman Ağamirzə oğlu** 1993-cü il dekabrın 17-də Bakı şəhərində anadan olub.

Kapitan Elman Babaxanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elman Babaxanov noyabrın 9-da Xocavənd döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

O, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babayev Ağaşirin Firuz oğlu** 2001-ci il mayın 16-da Qəbələ rayonunun Qəmərvan kəndində dünyaya gəlib.

Əsgər Ağaşirin Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. 3 noyabr tarixində Ağdərə uğrunda gedən şiddətli döyüşlərdə şəhid olub.

O gündən ailəsi ondan xəbər ala bilməyib. 18 noyabr tarixində şəhid olduğu haqqında ailəsinə məlumat verilib. Şəhidin cənazəsi götürüldükdən sonra 19 noyabr tarixində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə də təltif edildi.




**Babayev Allahverdi Ələt oğlu** 1989-cu il martın 24-də Mingəçevir şəhərində anadan olub.

Kiçik çavuş Allahverdi Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Allahverdi Babayev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Babayev Alməmməd Qərib oğlu** 2000-ci il noyabrın 23-də Salyan rayonunun Sarvan kəndində anadan olub.

Əsgər Alməmməd Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Alməmməd Babayev sentyabrın 29-da Füzuli döyüşləri zamanı şəhid olub. Salyan rayonunda dəfn olunub.

Alməmməd Babayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babayev Babaxan Əlövsət oğlu** 10 fevral 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Aşağı Yaycı kəndində anadan olub.

Əsgər Babayev Babaxan 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Murovdağ, Suqovuşan, Hadrut uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 17-də Hadrut döyüşləri zamanı Babaxan yaralansa da, buna əhəmiyyət verməyib, qan içində olan yaralı yoldaşını döyüş bölgəsindən çıxarmaq istəyəndə uzaq məsafədən minamyot atəşi ilə ayaqlarından yaralanaraq yoldaşlarının arasında şəhadətə qovuşub. Son nəfəsində "Biz ölmürük, şəhid oluruq" deyən Babaxan adını əbədiyyətə qədər vətən torpağına həkk edib.

Şəhidin cənazəsi 24 oktyabrda ata ocağına gətirilərək Şərur şəhər Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babayev Cavad Gülverdi oğlu** 28 noyabr 1998-ci ildə Masallı rayonunun Qızılağac kəndində anadan olub.

Əsgər Cavad Gülverdi 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərib. Qubadlı uğrunda gedən qızğın döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhid Cavad Gülverdi oğlu Babayevin nəşi Qızılağac kənd qəbiristanlığında böyük izdihamla dəfn olunub.

Cavad Babayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Babayev Çingiz Sulduz oğlu** 2001-ci il sentyabrın 21-də Lerik rayonunun Mistan kəndində anadan olub.

Əsgər Çingiz Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Çingiz Babayev oktyabrın 11-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Lerik rayonunda dəfn olunub.

Çingiz Babayev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Babayev Əli Həsən oğlu** 1997-ci il noyabrın 14-də Şərur rayonunun Danyeri kəndində anadan olub.

Leytenant Babayev Əli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı ilk hərbi dəstədə qabağa gedənlərdən olub və müharibənin birinci günü şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babayev Elman Telman oğlu** 1 noyabr 1994-cü ildə Oğuz rayonunun Padar kəndində anadan olub.

Əsgər Elman Babayev 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Murovdağ döyüşlərində savaşıb. Elman Babayev sentyabrın 29-da Murovdağ döyüşlərində qəhrəmancasına vuruşaraq şəhid olub. Oktyabrın 4-də Oğuz Şəhidlər Xiyabanında dəfn olunub.

Elman Babayev ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Babayev Elmәddin Cəfərqulu oğlu** 1981-ci il oktyabrın 26-da Biləsuvar rayonunun Çaylı kəndində anadan olub.

Gizir Elmәddin Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elmәddin Babayev sentyabrın 27-də Suqovuşan döyüşlərində şəhid olub. Biləsuvar rayonunun Çaylı kəndində dəfn olunub.

Elmәddin Babayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Babayev Elvin Əkbər oğlu** 28 fevral 2001-ci ildə Gəncə şəhərində anadan olub.

Əsgər Elvin Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Döyüşlərdə iştirak edəndə onun tərxis olunmasına 3 ay qalırdı. Elvin Babayev 2 oktyabr 2020-ci ildə Ağdam istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. II Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Elvin Babayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Babayev Əmirxan Mirilham oğlu** 28 noyabr 1998-ci ildə Bakı şəhəri Yeni Suraxanı qəsəbəsində dünyaya göz açıb.

Əsgər Əmirxan Babayev 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində iştirak edib. Fəallığına görə fərqlənən Əmirxan 18 oktyabr 2020-ci ildə Hadrut uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. O böyüyüb boya-başa çatdığı Yeni Suraxanı qəsəbəsində dəfn edilib.


Əmirxan Babayev ölümündən sonra "Vətən uğrunda" , "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Babayev Fariz Zakir oğlu** 1984-cü il fevralın 15-də Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olub.

Çavuş Fariz Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Hadrut qəsəbəsinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Fariz Babayev noyabrın 3-də Şuşa döyüşləri zamanı Daşaltı istiqamətində şəhid olub. Füzuli rayonunun Bala Bəhmənli kəndində dəfn olunub.

Fariz Babayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babayev Fərhad Məhərrəm oğlu** 1992-ci ildə Bakıda doğulub.

Əsgər Fərhad Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad olunmasında yaxından iştirak edib. 2020-ci il oktyabr ayının 24-də Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Babayev İqbal Zəki oğlu** 1995-ci il sentyabrın 10-da Xətai rayonunda dünyaya göz açıb.

Əsgər İqbal Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzuliin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Babayev Kamal Eynulla oğlu** 27 may 1991-ci ildə İsmayıllı rayonunda anadan olub.

Əsgər Babayev Kamal 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Qubadlı, Cəbrayıl rayonlarının və Şuşa şəhərinin azadlığı uğrunda gedən döyüşlərdə şücaət göstərib. Kamal Babayev oktyabrın 5-də Şuşa döyüşləri zamanı şəhid olub. Doğulduğu kənddə dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Babayev Murad Nadir oğlu** 1982-ci il martın 31-də Cəlilabad rayonunun Sabirabad kəndində anadan olub.

Baş gizir Murad Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Murad Babayev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Cəlilabad rayonunun Sabirabad kəndində dəfn olunub.

Murad Babayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babayev Mustafa Elman oğlu** 2000-ci il noyabrın 4-də Ağstafa rayonunun Yenigün kəndində anadan olub.

Əsgər Mustafa Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Qubadlı, Zəngilan və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mustafa Babayev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Ağstafa Şəhidlər Xiyabanında dəfn olunub.

Mustafa Babayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babayev Muxtar Rəhim oğlu** 1987-ci il dekabrın 25-də Göytəpə şəhərində anadan olub.

Kiçik çavuş Muxtar Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Muxtar Babayev noyabrın 2-də Xocavənd döyüşləri zamanı şəhid olub.

Muxtar Babayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Babayev Nihad Akif oğlu** 1991-ci ildə Biləsuvar rayonunun Günəşli kəndində anadan olub.

Kapitan Nihad Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak edib.

Oktybarın 29-da Füzuli rayonunun Yuxarı Veysəlli kəndinə yaxın Uryandağ yüksəkliyi uğrunda şiddətli döyüşlərdə şəhid olub.

"Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babayev Orxan Sarvan oğlu** 2001-ci il aprelin 17-də Ağstafa rayonunun Qarahəsənli kəndində anadan olub.

Əsgər Orxan Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Babayev noyabrın 9-da Xocavənd döyüşləri zamanı şəhid olub.

Orxan Babayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bağırov Elçin Fərhad oğlu** 1989-cu il aprelin 27-də Ağdam rayonunun Sarıhacılı kəndində anadan olub.

Kiçik çavuş Elçin Bağırov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə, həmçinin Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elçin Bağırov oktyabrın 1-də Talış istiqamətində şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 2020-ci il dekabrın 20-də dəfn olunub.

Elçin Bağırov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bağırov Elnur Sahib oğlu** 16 aprel 1993-cü ildə Daşkəsən rayonunda anadan olub.

Əsgər Bağırov Elnur 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

2020-ci il sentyabrın 29-da Kəlbəcər rayonunun şərti adı "Üçtəpələr" olan döyüş mövqeyi istiqamətində hərbi əməliyyatlar zamanı düşmənin minomyot atəşi nəticəsində şəhadətə yüksəlib.

Ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Babayev Orxan Sədail oğlu** 1994-cü il dekabrın 24-də Astara rayonunun Kijəbə qəsəbəsində anadan olub.

Baş çavuş Orxan Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Babayev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Orxan Babayev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babayev Pərvin Hüseyn oğlu** 2001-ci il sentyabrın 26-da Rusiya Federasiyasının Saratov şəhərində anadan olub.

Əsgər Pərvin Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Pərvin Babayev oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Pərvin Babayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Babayev Rahib Bəxtiyar oğlu** 1985-ci il iyunun 19-da Şahbuz rayonunun Külüs kəndində anadan olub.

Mayor Rahib Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə şücaət göstərib. "Canavar" postunun alınmasında iştirak edib və sentyabrın 30-da şəhid olub. Oktyabrın 2-də Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn olunub.

Rahib Babayev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babayev Ramil Taqət oğlu** 1991-ci il dekabrın 12-də Kürdəmir rayonunun Şilyan kəndində anadan olub.

Baş leytenant Ramil Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb.


Ramil Babayev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 2021-ci il yanvarın 31-də Kürdəmir rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Babayev Rəşad Ağabəy oğlu** 1992-ci il iyunun 4-də Sabunçu rayonunun Maştağa qəsəbəsində anadan olub.

Gizir Rəşad Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə, həmçinin Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rəşad Babayev oktyabrın 10-da Hadrut döyüşləri zamanı şəhid olub. Sabunçu rayonunun Maştağa qəsəbəsində dəfn olunub.

Rəşad Babayev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babayev Rəşad İlham oğlu** 1999-cu il martın 15-də Gəncə şəhərində doğulub.

Əsgər Rəşad Babayev 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində Füzuli, Qubadlı və Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

9 noyabr 2020-ci il tarixində Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. 21 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, "Vətən uğrunda", "Döyüşdə fərqləndiyinə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babayev Şamil Baloğlan oğlu** 1988-ci il yanvarın 26-da Culfa rayonunda anadan olub.

Kapitan Şamil Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şamil Babayev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Culfa rayonundə dəfn olunub.

Şamil Babayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babayev Samsun Şəmsəddin oğlu** 2001-ci ildə Qax rayonunun Qapıçay kəndində dünyaya göz açıb.

Əsgər Samsun Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 6-da Talış və Suqovuşan yaşayış məntəqəsi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Babayev Taleh Xanmurad oğlu** 1986-cı il dekabrın 2-də Quba rayonunda anadan olub.

Əsgər Taleh Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Taleh Babayev Azərbaycanın işğalda olan torpaqlarının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. O, noyabrın 6-da Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Taleh Babayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Babayev Vüqar İlham oğlu** 2001-ci il iyulun 4-də Bakı şəhərinin Xətai rayonunda anadan olub.

Əsgər Vüqar Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüqar Babayev oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub.

Vüqar Babayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Babayev Vüsal Sübbuh oğlu** 1992-ci il yanvarın 8-də Bakı şəhərinin Pirallahı rayonunun Pirallahı adasında anadan olub.

Baş leytenant Vüsal Babayev 2020-ci il 27 sentyabr tarixində Vətən müharibəsi başlayan kimi öz vəzifə borcunu yerinə yetirmək üçün ön cəbhəyə yollanıb. Cəsur komandir Vüsal Babayev 2020-ci il oktyabrın 21-i Füzuli rayonunun Gecəgözlü kəndində yaralı döyüş yoldaşını xilas edərkən yanına mərmi düşməsi nəticəsində qəhrəmancasına ən ali məqama – şəhidlik zirvəsinə ucalıb.

Vüsal Babayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babazadə Babazeynal Maqsud oğlu** 2001-ci il iyulun 1-də Lerik rayonunun Aşağı Amburdərə kəndində anadan olub.

Əsgər Babazeynal Babazadə 2020-ci il sentyabrın 27-də II Qarabağ müharibəsi başladığı gündən torpaqlarımızın düşmən işğalından azad edilməsi üçün döyüşə qatılıb, bir sıra strateji yüksəkliklərin alınmasında yüksək fədakarlıq və şücaət göstərərək onlarla erməni əsgərini məhv edib.

Oktyabrın 6-da Ağdərə rayonu uğrunda gedən şiddətli döyüşlərdə şəhid olub. Şəhidin nəşi Aşağı Amburdərə kəndinə gətirilib və böyük izdihamla orada yerləşən kənd qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə, "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Babazadə Məhəmməd Cavanşir oğlu** 1995-ci il mayın 5-də Astara rayonunun Marzəsə kəndində anadan olub.

Kiçik çavuş Məhəmməd Babazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Məhəmməd Babazadə sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub. Astara rayonunun Marzəsə kəndində dəfn olunub.

Məhəmməd Babazadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babazadə Mirşəmsi Elşad oğlu** 1996-cı il fevralın 20-də Tərtər rayonunun Mamırlı kəndində anadan olub.

Əsgər Mirşəmsi Babazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Sentyabrın 30-da Tərtər-Ağdərə istiqamətində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Babazadə Ülfət Qabil oğlu** 2001-ci il fevralın 28-də Lənkəran rayonunun Daştatük kəndində anadan olub.

Əsgər Ülfət Babazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülfət Babazadə noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Lənkəran rayonunda dəfn olunub.

Ülfət Babazadə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü","Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babazadə Xaqani Anar oğlu** 2001-ci il fevralın 13-də Astara rayonunun Kijəbə qəsəbəsində anadan olub.

Əsgər Xaqani Babazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xaqani Babazadə oktyabrın 10-da Hadrut döyüşləri zamanı şəhid olub. Astara rayonunun Kijəbə qəsəbəsində dəfn olunub.

Xaqani Babazadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Babazadə Yolçu Bəhruz oğlu** 20 yanvar 2002-ci ildə Şəki rayonu Qozlubulaq kəndində dünyaya gəlib.

Əsgər Yolçu Babazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Yolçu Babazadə 5 oktyabr 2020-ci ildə gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Yolçu Babazadə ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Bağırlı Hikmət Qəhrəman oğlu** 29 sentyabr 2001-ci ildə Biləsuvar rayonunun Bəydili kəndində anadan olub.

Əsgər Hikmət Bağırlı Ağcabədi bölgəsində kəşfiyyat qrupunda xidmət edib. Vətən müharibəsində Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. Sentyabrın 29-da Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub. İki gün sonra doğulduğu Bəydili kənd qəbiristanlığında torpağa tapşırılıb.

Hikmət Bağırlı ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Bağırlı Mirsədi Mircəfər oğlu** 2000-ci il iyunun 12-də Tərtər şəhərində anadan olub.

Kiçik gizir Mirsədi Bağırlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı əvvəlcə Kəlbəcər istiqamətində, sonra isə Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mirsədi Bağırlı oktyabrın 10-da Cəbrayıl döyüşləri zamanı şəhid olub.

Mirsədi Bağırlı ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bağırov Aqil Fazil oğlu** 1995-ci il mayın 1-də Ağstafa rayonunun Muğanlı kəndində anadan olub.

Əsgər Aqil Bağırov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Aqil Bağırov oktyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Muğanlı kəndində dəfn olunub.

Aqil Bağırov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Bağırov Elçin Yunus oğlu** 1994-cü il iyunun 17-də Bakı şəhəri Binəqədi rayonunda anadan olub.

Əsgər Elçin Bağırov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb.

Oktyabrın 10-da Füzuli rayonunun Gecəgözlü kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bağırov Elnur Zeynal oğlu** 1996-cı il martın 6-da Cəlilabad rayonunun Privolnoye kəndində anadan olub.

Əsgər Elnur Bağırov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Elnur Bağırov oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Babayev Rauf Fəxrəddin oğlu** 2001-ci il iyunun 5-də Xaçmaz şəhərində anadan olub.

Əsgər Rauf Babayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı şücaətlə döyüşlərə qatılıb.

Oktyabrın 1-də Tapqaraqoyunlu kəndi və Ağdərə istiqamətində gedən döyüşlərdə yaralanaraq 19 yaşında şəhidlik zirvəsinə ucalıb.

Rauf Babayev dekabrın 12-də Xaçmaz rayon qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bağırov Əli Eltay oğlu** 1994-cü il dekabrın 15-də Xəzər rayonunda dünyaya gəlib.

Əsgər Əli Bağırov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb.

Oktyabrın 10-da Talış-Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Əli Bağırov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.





**Balayev Orxan Vidadi oğlu** 1998-ci il sentyabrın 18-də Quba rayonunun Alpan kəndində anadan olub.

Gizir Orxan Balayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Balayev oktyabrın 8-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Orxan Balayev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bayramov Samir Elxan oğlu** 1996-cı il avqustun 15-də Göygöl rayonunun Yeni Zod kəndində anadan olub.

Gizir Samir Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Samir Bayramov sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub.

Samir Bayramov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bayramov Şahin Arif oğlu** 4 yanvar 1992-ci ildə Gəncə şəhərində doğulub.

Əsgər Şahin Bayramov 27 sentyabr 2020-ci il tarixində Şahin Bayramov xidmət etdiyi hərbi hissənin tərkibində cəbhəyə yollanıb, Murov zirvəsinin alınmasında yaxından iştirak edib.

1 oktyabr 2020-ci ildə Kəlbəcər istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. 19 dekabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilib.

Şahin Bayramov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bəkirli Azad Rasim oğlu** 27 sentyabr 1992-ci ildə Bakı şəhərində anadan olub.

Əsgər Bəkirli Azad Tovuz döyüşlərindən sonra könüllü şəkildə qeydiyyata yazılan Azad 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində orduya qoşulub. Füzuli rayonu uğrunda gedən döyüşlərdə şücaət göstərib. Oktyabrın 20-də Füzulidə şəhid olub.

Azad Bəkirli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları təltif edildi.

**Bəkirov Yasər Əfqan oğlu** 2002-ci il mayın 19-da Şamaxı rayonunun Quşçu kəndində anadan olub.

Əsgər Yasər Bəkirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb.

Yasər Bəkirov oktyabrın 1-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında dəfn olunub.

Yasər Bəkirov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bağırov Eşqin Rafiq oğlu** 1991-ci il aprelin 1-də Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub.

Kiçik çavuş Eşqin Bağırov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Eşqin Bağırov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Eşqin Bağırov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bağırov Məmmədağa Həsənağa oğlu** 1997-ci il dekabrın 2-də Masallı rayonunun Xoşçobanlı kəndində anadan olub.

Əsgər Məmmədağa Bağırov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Məmmədağa Bağırov noyabrın 6-da Xocavənd döyüşləri zamanı şəhid olub. Masallı rayonunda dəfn olunub.

Məmmədağa Bağırov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bağırov Namiq Nurəddin oğlu** 1984-cü il avqustun 30-da Masallı rayonunun Çaxırlı kəndində anadan olub.

MAHHXHQ çavuş Namiq Bağırov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Namiq Bağırov oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhid olub. Masallı rayonunun Çaxırlı kəndində dəfn olunub.

Namiq Bağırov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Bağırov Nurlan İsmayıl oğlu** 21 yanvar 2001-ci ildə Gəncə şəhərində doğulub.

Əsgər Nurlan Bağırov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin əsgəri kimi Füzuli rayonu uğrunda gedən döyüşlərdə yer alıb.

25 oktyabr 2020-ci ildə Füzuli rayonu ərazisində gedən döyüşlərdə şəhid olub. 26 oktyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər Xiyabanında torpağa tapşırılıb.


Nurlan Bağırov "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bağırov Ramin Nəriman oğlu** 19 aprel 1999-cu ildə Şahbuz rayonu Badamlı qəsəbəsində anadan olub.

Əsgər Ramin Bağırov 2020-ci il sentyabr ayının 27-də başlanan II Qarabağ müharibəsinə 18 oktyabr tarixindən qatılıb. Füzuli, Cəbrayıl, Zəngilan və Xocavənd rayonlarının işğaldan azad olunması istiqamətində gedən döyüşlərdə iştirak edib. 27 oktyabr tarixində döyüşlərin birində şəhid olub. 30 oktyabr 2020-ci ildə Şahbuz rayon Badamlı kənd məzarlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bağırov Süleyman Kamil oğlu** 20 yanvar 1995-ci ildə Hacıqabul rayonunun Qubalıbalaoğlan kəndində dünyaya göz açıb.

Əsgər Süleyman Bağırov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin, Cəbrayılın, Hadrutun, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Noyabrın 8-də Şuşa istiqamətində gedən döyüşlərdə şəhid olub.

Süleyman Bağırov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bağırov Süleyman Loğman oğlu** 1992-ci il fevralın 1-də Sabirabad rayonunun Sarxanbəyli kəndində anadan olub.

Leytenant Süleyman Bağırov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Süleyman Bağırov oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub. Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.


Süleyman Bağırov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Bağırzadə Mahsun Zahir oğlu** 1998-ci il mayın 30-da Lənkəran rayonunun Xanbulan kəndində doğulub.

Əsgər Mahsun Bağırzadə 2020-ci ilin iyulunda Tovuzda baş vermiş döyüşlər zamanı könüllü cəbhəyə yazılıb və sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsinin iştirakçısı olub və Füzuli, Qubdalı, Cəbrayıl, Hadrut uğrunda gedən döyüşlərdə savaşıb.

Bir sıra kəndlərin alınmasında mahir pulemyotçu kimi ermənilərə qan uddurub. Füzulidə gedən ağır döyüşlərdə xüsusi fəallıq göstərib, sona qədər vuruşaraq qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bağırzadə Sadiq Şahin oğlu** 15 aprel 2002-ci ildə Astaranın Ərçivan qəsəbəsində doğulub.

Əsgər Sadiq Bağırzadə 2020-ci il sentyabr ayının 27-də başlanan İkinci Qarabağ müharibəsində ön cəbhədə vuruşub. Murovdağ yüksəkliyinin azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərib, xeyli düşmən əsgərini məhv edib. Sentyabrın 30-da düşmən gülləsinə tuş gələrək şəhid olub.

Sadiq Bağırzadə ölümündən sonra "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Bahadurov Anar Süleyman oğlu** 1992-ci il iyunun 26-da Sabirabad şəhərində anadan olub.

Əsgər Anar Bahadurov 2020-ci il sentyabr ayının 27-də başlanan Vətən müharibəsinə Cəbrayıl, Zəngilan və Qubadlı uğrunda döyüşlərdə iştirak edib. Noyabrın 8-i səhər saatlarında Qubadlıdan Şuşaya gedərkən dağda döyüş zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bahadurzadə Vüqar Məmməd oğlu** 1993-cü il iyulun 22-də Yevlax rayonunun Malbinəsi kəndində anadan olub.

Kiçik çavuş Vüqar Bahadurzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüqar Bahadurzadə oktyabrın 15-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Vüqar Bahadurzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Balabəyov Pərviz Tofiq oğlu** 1987-ci il iyunun 14-də Hacıqabul şəhərində anadan olub.

Əsgər Pərviz Balabəyov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Pərviz Balabəyov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Hacıqabul şəhərində dəfn olunub.

Pərviz Balabəyov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Balabəyov Ramil Ruslan oğlu** 2001-ci il fevralın 21-də Qusar rayonunun Köhnə Xudat kəndində anadan olub.

Əsgər Ramil Balabəyov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Ramil Balabəyov oktyabrın 1-də şəhid olub. Qusar rayonunda dəfn olunub.

Ramil Balabəyov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Balacayev Qərib Nəsib oğlu** 1997-ci ilin dekabr ayının 25-də Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olub.

Əsgər Qərib Balacayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. 28 sentyabrda Beyləqan rayonunun Təzəkənd kəndində dəfn olunub.

Qərib Balacayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Baladov Ruslan Allahyar oğlu** 1997-ci il sentyabrın 19-da anadan olub.

Əsgər Ruslan Baladov 2020-ci il sentyabrın 27-də başlanan İkinci Vətən müharibəsinin ilk günündə – sentyabrın 27-də Talış istiqamətində ağır döyüşlərdə qəhrəmancasına şəhadətə yüksəlib. Nəşini götürmək mümkün olmayıb. Şəhidimizin nəşi oktyabrın 4-də doğulduğu Hacıqabula gətirilərək rayon qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Balağayev Seyfəddin Vahid oğlu** 1998-ci il martın 6-da Şabran rayonunda anadan olub.

Əsgər Seyfəddin Balağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Seyfəddin Balağayev Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib.

O, oktyabrın 7-də, 22 yaşında Füzuli rayonu ərazisində şəhid olub. Seyfəddin Balağayev oktyabrın 8-də Şabran Şəhər Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Balakişiyev Qara Əmirxan oğlu** 1994-cü il iyulun 11-də Xocavənd rayonunda anadan olub.

Kiçik çavuş Qara Balakişiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Qara Balakişiyev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Horadiz şəhərində dəfn olunub.

Qara Balakişiyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Balakişiyev Xəyal Müseyib oğlu** 1994-cü il oktyabrın 17-də Bakı şəhərində dünyaya göz açıb.

Əsgər Xəyal Balakişiyev 2020-ci ilin 27 sentyabr tarixində başlanan Vətən müharibəsinə könüllü olaraq yollanıb. Baş atıcı olaraq döyüşlərdə fəal iştirak edib. Füzuli, Cəbrayıl, Qubadlı cəbhələrində xüsusi şücaət göstərib. Oktyabrın 25-də Füzuli istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən açılan minomyot zərbəsi nəticəsində qəhrəmancasına şəhid olub. İkinci Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Balakişiyev Zamin Dadaş oğlu** 2001-ci ildə aprelin 27-də Sabirabad rayonunun Qaralar kəndində anadan olub.

Əsgər Zamin Balakişiyev 2020-ci ilin 27 sentyabr tarixində başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 10-da Suqovuşan istiqamətində gedən döyüşlərdə baş nahiyəsindən ağır yaralanıb, 148 gün komada qalıb, həkimlərin bütün səylərinə baxmayaraq həyatını xilas etmək mümkün olmayıb, şəhidlik zirvəsinə ucalıb.

Zamin Balakişiyev doğulduğu Sabirabad rayonunun Qaralar kəndində torpağa tapşırılıb.

O, "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Balıyev Hüseynağa Salman oğlu** 1987-ci il dekabrın 22-də Salyan şəhərində anadan olub.

Mayor Hüseynağa Balıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonunun Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Hüseynağa Balıyev oktyabrın 8-də Hadrut döyüşləri zamanı şəhid olub. Salyan şəhərində dəfn olunub.

Hüseynağa Balıyev ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Baloğlanlı Elşad Elşən oğlu** 18 yanvar 2002-ci ildə Biləsuvar rayonunun Günəşli kəndində anadan olub.

Əsgər Elşad Baloğlanlı 27 sentyabr 2020-ci il tarixdə başlanan Vətən müharibəsində iştirak edib, Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə vuruşub və düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Elşad Baloğlanlı 18 noyabr 2020-ci il tarixində Biləsuvar rayonunun Günəşli kənd məzarıstanlığında dəfn olunub.

Elşad Baloğlanlı ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Baxışov Cahangir Əmrah oğlu** 1 aprel 2001-ci ildə Qobustanın Nardaran kəndində anadan olub.

Əsgər Cahangir Baxışov 2020-ci il sentyabrın 27-də başlanan II Qarabağ müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 9-da şəhid olub.

Cahangir Baxışov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Baxışov Hakim Səyyar oğlu** 2000-ci il dekabr ayının 13-ü Qəbələ rayonunun Topbağ kəndində anadan olub.

MAHHXHQ əsgər Ağali Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə iştirak edib.

Sentyabrın 28-də Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Qəbələ rayonunun Topbağ kənd məzarlığında dəfn olunub.

Ağali Ağayev ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.

**Baxışov İlqar Adışirin oğlu** 21 noyabr 2000-ci ildə Horadiz şəhərində anadan olub.

Əsgər İlqar Baxışov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Oktyabrın 15-də Tərtər rayonunda Suqovuşan kəndinin işğaldan azad olunması zamanı şəhidlik zirvəsinə yüksəlib. Nəşi DNT analizindən sonra ailəsinə verilib. Horadiz şəhər qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Baxışov Sadiq Bəkir oğlu** 2 dekabr 2001-ci ildə Xaçmaz rayonunun Çarxı kəndində anadan olub.

Əsgər Sadiq Baxışov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Sadiq Baxışov 28 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.


Sadiq Baxışov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Baxışova Arəstə Kərim qızı** 1989-cu il mayın 4-də Xaçmaz şəhərində anadan olub.

QHQ əsgər Arəstə Baxışova 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə döyüş meydanındaca tibbi yardım göstərib. Arəstə Baxışova oktyabrın 23-də Qubadlı döyüşləri zamanı şəhid olub. Biləcəri qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn olunub.

Arəstə Baxışova ölümündən sonra "Vətən uğrunda", Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən ingilis tibb bacısı Florens Naytingelin şərəfinə təsis olunan "Florence Nightingale" medalları ilə təltif edildi.



**Baxşəliyev Nicat Ziyafət oğlu** 16 iyun 1993-cü il ildə dünyaya göz açıb.

Əsgər Nicat Baxşəliyev 2020-ci il sentyabr ayının 27-də düşmənin törətdiyi təxribata qarşı əks-hücumla başlayan Vətən müharibəsində Suqovuşan istiqamətində döyüşlərdə iştirak edib.

Nicat Baxşəliyev oktyabrın 18-də keçmiş Ağdərə rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Baxşəliyev Araz Yavər oğlu** 1993-cü il sentyabrın 18-də Horadiz şəhərində anadan olub.

Çavuş Araz Baxşəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Araz Baxşəliyev sentyabrın 28-də Füzuli döyüşləri zamanı Aşağı Seyidəhmədli istiqamətində şəhid olub. Horadiz şəhərində dəfn olunub.

Araz Baxşəliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Baxşəliyev İnam Rasim oğlu** 1993-cü il fevralın 20-də Cəlilabad rayonunun Kovuzbulaq kəndində anadan olub.

Əsgər İnam Baxşəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

İnam Baxşəliyev oktyabrın 9-da Füzuli döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Baxşəliyev Qərib İnqilab oğlu** 1977-ci il mayın 22-də Bakı şəhərində anadan olub.

Polkovnik-leytenant Qərib Baxşəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli və Zəngilan istiqamətlərində gedən döyüşlərdə Azərbaycan Ordusunun hərbi qulluqçularının mənəvi-psixoloji hazırlığının artırılmasında rol oynayıb. Qərib Baxşəliyev noyabrın 3-də Zəngilan istiqamətində şəhid olub. Onun nəşi 32 gün düşmən tərəfində saxlanıldıqdan sonra II Şəhidlər Xiyabanında dəfn olunub.

Qərib Baxşəliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Baxşəliyev Natiq Saleh oğlu** 1980-ci il iyulun 7-də Bakı şəhərində anadan olub.

Leytenant Natiq Baxşəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Natiq Baxşəliyev oktyabrın 20-də Xocavənd döyüşləri zamanı Ərgünəş dağı istiqamətində şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Natiq Baxşəliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Baxşıyev Eldar Sultan oğlu** 1998-ci il oktyabrın 7-də Goranboy rayonunda anadan olub.

Əsgər Eldar Baxşıyev 2020-ci il sentyabrın 27-də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 30-da Suqovuşan uğrunda döyüşlərin gedişatında Goranboy rayonunun Tap Qaraqoyunlu kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı yaralı döyüş yoldaşlarına kömək edərkən qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bayramlı Elmar İsa oğlu** 1998-ci il sentyabrın 2-də Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olub.

Leytenant Elmar Bayramlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elmar Bayramlı sentyabrın 29-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Qazax rayonunda dəfn olunub.

Elmar Bayramlı ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bayramlı Tural Ədil oğlu** 1996-cı il fevralın 10-da Beyləqan rayonunun Şərq qəsəbəsində anadan olub.

MAHHXHQ əsgər Tural Bayramlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Bayramlı noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Tural Bayramlı ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bayramov Aydın Mətləb oğlu** 1997-ci il 2 avqust tarixində Qəbələ rayonunun Əmirvan kəndində anadan olub.

Əsgər Aydın Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Murovdağ, Talış kəndi, Ağdərə istiqamətində gedən döyüşlərdə olub. Aydın Bayramov oktyabrın 9-da Ağdərə rayonu istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Qəbələ rayonu Əmirvan kənd qəbiristanlığında dəfn olunub.

Aydın Bayramov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Bayramov Cavid Azər oğlu** 1997-ci il iyunun 29-u Bakı şəhərində dünyaya göz açıb.

Əsgər Cavid Bayramov 27 sentyabrda başlanan II Qarabağ müharibəsinə könüllü olaraq qatılıb.

Oktyabrın 8-i Füzuli-Hadrut uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib. Binəqədi rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bayramov Cəlal Yaqub oğlu** 1994-cü ildə Saatlı rayonunun Çoplu kəndində anadan olub.

Əsgər Cəlal Bayramov 2020-ci il 29 sentyabrda Səfərbərlik Xidmətinin çağırışı ilə cəbhə bölgəsinə yollanıb. Oktyabrın 27-də Laçının Arpagədik kəndində ailəsi ilə danışıb və ondan sonra itkin düşüb.

Cəlal Bayramovun şəhid olduğu yanvarın 13-də ailəsinə xəbər verilib.

DNT analizi vasitəsilə nəşin Cəlal Bayramova məxsus olduğu identifikasiya edilib. Şəhid Saatlının Çoplu kəndində dəfn olunub.

Cəlal Bayramov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bayramov Coşğun Ənvər oğlu** 1991-ci il mayın 25-də Qəbələ rayonunun Qəmərvan kəndində anadan olub.

Əsgər Coşğun Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Coşğun Bayramov oktyabrın 8-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Qəbələ rayonunun Qəmərvan kəndində dəfn olunub.

Coşğun Bayramov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bayramov Elbrus Eyvaz oğlu** 1986-cı il dekabrın 1-də Beyləqan rayonunun Milabad qəsəbəsində anadan olub.

Mayor Elbrus Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elbrus Bayramov oktyabrın 2-də Füzuli döyüşləri zamanı Qərvənd istiqamətində şəhid olub. Beyləqan rayonunun Milabad qəsəbəsində dəfn olunub.

Elbrus Bayramova ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi. Həmçinin "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Bayramov Elcan Qoşqar oğlu** 2001-ci il avqustun 3-də Göygöl rayonunda anadan olub.

Əsgər Elcan Bayramov 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Sentyabrın 28-də Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Elcan Bayramov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bayramov Əli Nadir oğlu** 24 mart 1999-cu ildə Bakı şəhəri, Binəqədi rayonunda dünyaya göz açıb.

Əsgər Əli Bayramov 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Əli Bayramov oktyabrın 5-i Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub. Binəqədi qəsəbəsi ərazisində yerləşən Vətən müharibəsi şəhidlərinin uyuduğu qəbiristanlıqda dəfn edilib.

Əli Bayramov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Bayramov Elmin Elməddin oğlu** 24 iyun 2002-ci ildə Biləsuvar rayonunun Əsgərabad kəndində anadan olub.

Əsgər Elmin Bayramov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub. Şəhid Elmin Bayramov 6 oktyabr 2020-ci il tarixində Biləsuvar rayonunun Əsgərabad kənd məzarıstanlığında dəfn olunub.

Elmin Bayramov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bayramov Elnur Şəmsi oğlu** 25 yanvar 1992-ci ildə İmişli rayonunun Şahverdili kəndində dünyaya göz açıb.

Əsgər Elnur Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Xocavəndin azad olunmasına görə gedən döyüşlərdə vuruşub. Elnur Bayramov Şuşanın Daşaltı kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Elnur Bayramov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Bayramov Elvin Elçin oğlu** 1998-ci il yanvarın 22-də anadan olub.

MAHHXHQ əsgər Elvin Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

Sentyabrın 30-da Füzuli rayonunun Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub.

Elvin Bayramov ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bayramov Elvin İslam oğlu** 1999-cu ildə iyul ayının 8-də Bakı şəhərində anadan olub.

Əsgər Elvin Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Elvin Bayramov sentyabrın 26-da Füzuli uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Bayramov Əmrah Hüseyn oğlu** 18 yanvar 2001-ci ildə Neftçalanın Bankə qəsəbəsində anadan olub.

Əsgər Əmrah Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

İgid döyüşçümüz oktyabrın 9-da Füzuli istiqamətində gedən ağır döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib.

Əmrah Bayramov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bayramov Fərrux Bayram oğlu** 1990-cı il yanvarın 24-də Saatlı rayonunun Məmmədabad kəndində anadan olub.

Kiçik çavuş Fərrux Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Fərrux Bayramov oktyabrın 12-də Ağdərə istiqamətində şəhid olub.

Fərrux Bayramov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Bayramov Həsən Bəhrəm oğlu** 17 iyun 1992-ci ildə Göygöl rayonunun Sarısu kəndində doğulub.

MAHHXHQ əsgər Həsən Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Cəbrayıl, Qubadlı və Laçın uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Noyabrın 5-də şəhidlik zirvəsinə ucalıb.

27 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilib.

O, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.




**Bayramov Həsən Ağaisa oğlu** 2001-ci il iyunun 22-də Göyçay rayonunda dünyaya gəlib.

Əsgər Həsən Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 1-də Tərtər-Ağdərə istiqamətində hərbi əməliyyatlar zamanı düşmən mərmisinin partlaması nəticəsində qəlpə yarası alıb və şəhadətə qovuşub.

Həsən Bayramov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Bayramov İqbal Əhmədağa oğlu** 1977-ci il iyulun 4-də Lənkəran şəhərinin Hirkan qəsəbəsində anadan olub.

Mayor İqbal Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İqbal Bayramov oktyabrın 5-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Lənkəran şəhərində dəfn olunub.

İqbal Bayramov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bayramov Məmməd Arif oğlu** 2000-ci il noyabrın 23-ü Xaçmaz şəhərində anadan olub.

Əsgər Məmməd Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

Oktyabrın 16-da Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", Şücaətə görə" medalları ilə təltif edildi.





**Bayramov Orxan Surxay oğlu** 1993-cü il yanvarın 29-da Gəncə şəhərində anadan olub.

Əsgər Orxan Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Bayramov oktyabrın 2-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Orxan Bayramov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bayramov Osman Zeyqəm oğlu** 1987-ci il fevralın 13-də Biləsuvar rayonunun Ağalı kəndində anadan olub.

MAHHXHQ əsgər Osman Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Osman Bayramov oktyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunun Ağalı kəndində dəfn olunub.


O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bayramov Ramin Hüseynağa oğlu** 8 oktyabr 1979-cu ildə Cəlilabad rayonunun Alar kəndində dünyaya göz açıb.

Baş leytenant Ramin Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində hərbi səfərbərlik zamanı könüllü iştirak edib. Füzulinin, Cəbrayılın, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 10 noyabr 2020-ci ildə Qubadlı istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. 11 noyabr tarixində Cəlilabad rayonunun Alar kəndində torpağa tapşırılıb.

Ramin Bayramov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bayramov Rəhman Dilcan oğlu** 20 avqust 1993-cü ildə Gəncə şəhərində doğulub.

Əsgər Rəhman Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli və Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib. 2020-ci il, noyabrın 9-da Xocavənd rayonu ərazisində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib. 2020-ci il dekabrın 28-də Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.


O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Bayramov Ruslan Azər oğlu** 1996-cı il mayın 10-da Quba rayonunun Əlibəyqışlaq kəndində anadan olub.

Baş leytenant Ruslan Bayramov 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsində könüllü olaraq Xüsusi Təyinatlı Qüvvələrin tərkibində döyüşlərə qatılıb. Hadrutun və Xocavənd ətrafındakı yüksəkliklərin alınmasında iştirak edib. Döyüşlərin birində komandiri yaralandığından tağıma rəhbərlik edib. Göstərdiyi şücaətə görə elə döyüşdə baş leytenant rütbəsi alıb.

Şuşanın alınması uğrunda döyüşlərdə snayper gülləsinə tuş gələrək şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bayramov Ruslan Telman oğlu** 1996-cı il mayın 15-də anadan olub.

Əsgər Ruslan Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Sentyabrın 30-da Füzuli rayonunun Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub.

Ruslan Bayramov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bayramov Səddam Ələddin oğlu** 2002-ci ildə Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub.

Əsgər Səddam Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı cəbhəyə ailəsindən xəbərsiz gedib. Son 1 ayda itkin düşüb, valideynləri ondan xəbər ala bilməyib. Noyabrın 22-də isə şəhid olduğu xəbəri gəlib.

18 yaşlı Səddam oktyabrın 16-da Suqovuşan uğrunda gedən döyüşlərdə 30-dan çox erməni məhv edib. Yaralı əsgər yoldaşlarını və komandirini döyüş bölgəsindən çıxararkən şəhid olub.

Bayramov Səddam Ələddin oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bayramov Səid Eldəniz oğlu** 1999-cu il noyabrın 20-də Kürdəmir rayonunun Çöl Ərəb kəndində anadan olub.

Əsgər Səid Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı istiqamətlərində düşmənlə döyüşüb, oktyabrın 21-də isə könüllü olaraq XTQ kəşfiyyata qoşulub.

Noyabr ayının 1-i Şuşa istiqamətinə irəliləyərkən 1553 metr hündürlükdə erməni kəşfiyyatı ilə vuruşub.

XTQ olan Səid qəlpə dəyməsi nəticəsinə Şuşa istiqamətində qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Noyabrın 5-də dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Bayramov Xəqani Məmməd oğlu** 1990-cı il noyabrın 17-də Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub.

Gizir Xəqani Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəqani Bayramov oktyabrın 21-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Xəqani Bayramov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bayramov Xəzər Azad oğlu** 1997-ci il noyabrın 14-də Ağcabədi rayonunun Qaravəlli kəndində anadan olub.

MAHHXHQ əsgər Xəzər Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəzər Bayramov oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olub. Ağcabədi rayonunda dəfn olunub.

Xəzər Bayramov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bayramov Səlimxan Vüqar oğlu** 13 iyul 1998-ci il tarixində Sumqayıt şəhərində dünyaya göz açıb.

Əsgər Səlimxan Bayramov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd rayonlarında gedən döyüşlərdə çox yüksək şücaətlə iştirak edib, 3 nəfər döyüş yoldaşları ilə erməni təcavüzkarlarından post almış və o posta öz doğma şəhəri Sumqayıtın adını verib.

19 oktyabr 2020-ci il tarixində Xocavənd rayonu uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Bayraxtarov Batdal Mikail oğlu** 2002-ci il aprelin 1-də Quba rayonunun Ağbil kəndində anadan olub.

Əsgər Batdal Bayraxtarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Batdal Bayraqdarov oktyabrın 12-də Füzuli rayonu istiqamətində şəhid olub. Quba rayonunda dəfn olunub.

Batdal Bayraxtarov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Bədəlov Elməddin Dəyanət oğlu** 2000-ci il martın 6-da Füzuli rayonunun Kərimbəyli kəndində anadan olub.

MAHHXHQ əsgər Elməddin Bədəlov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı işğalda olan torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elməddin Bədəlov sentyabrın 28-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı şəhid olub.

Elməddin Bədəlov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Bədəlov Oqtay Ələddin oğlu** 1984-cü il oktyabrın 27-də Tovuz rayonunun Çeşməli kəndində anadan olub.

Baş gizir Oqtay Bədəlov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oqtay Bədəlov oktyabrın 27-də Qubadlı döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Çeşməli kəndində dəfn olunub.

Oqtay Bədəlov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Suqovuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bədəlov Səhman Bəhmən oğlu** 14 avqust 2001-ci ildə Quba rayonunun Nütəh kəndində anadan olub.

Əsgər Səhman Bədəlov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Səhman Bədəlov oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub.

Səhman Bədəlov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Bədəlov Valeh Vahid oğlu** 1990-cı il oktyabrın 10-da Zaqatala rayonunun Aşağı Tala kəndində anadan olub.

Baş leytenant Valeh Bədəlov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ, Cəbrayıl, Xocavənd və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Valeh Bədəlov oktyabrın 7-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunun Aşağı Tala kəndində torpağa tapşırılıb.

Valeh Bədəlov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Bədirov Murad Qismət oğlu** 2001-ci il yanvarın 25-də Cəlilabad rayonunun Kazımabad kəndində anadan olub.

Kiçik çavuş Murad Bədirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Murad Bədirov oktyabrın 29-da Ağdərə istiqamətində şəhid olub.

Murad Bədirov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bədirov Nəcməddin Nurəddin oğlu** 2001-ci il noyabrın 8-də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olub.

Əsgər Nəcməddin Bədirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nəcməddin Bədirov 10 oktyabr 2020-ci ildə Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirən zaman şəhid olub. Nəcməddin Bədirov bir müddət itkin kimi axtarılıb. Noyabrın 23-də şəhid olduğu təsdiqlənib. Tovuz rayonunun Düz Qırıqlı kəndində dəfn edilib.

Nəcməddin Bədirov "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Behbudlu Behbud Rubail oğlu** 2001-ci il sentyabrın 9-da Bərdə rayonunun Mustafaağalı kəndində anadan olub.

Əsgər Behbudlu Behbud 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Sentyabrın 30-da Göygöl rayonunun Toğanalı kəndi yaşayış məntəqəsi və düşmənlə təmas xəttində bizim döyüş mövqeyindən düşmənin "Canavar sol" döyüş mövqeyi istiqamətində hərbi əməliyyatlar yerinə yetirən zaman şəhid olub.

Behbudlu Behbud ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Behbudov Nofəl Həmid oğlu** 07 iyun 2001-ci ildə Goranboyun Səfikürd kəndində anadan olub.

Əsgər Nofəl Behbudov 2020-ci il sentyabrın 27-də başlanan Kəlbəcər, Cəbrayıl, Füzuli və Şuşa rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

Noyabrın 8-də Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları ilə təltif edildi.

**Bəhmanlı Manaf Bəhman oğlu** 1998-ci il yanvarın 2-də Yevlax şəhərində anadan olub.

Manaf Bəhmanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə qoşulub. Murovdağ istiqamətində gedən döyüşlərdə fəal iştirak edib.

Sentyabrın 27-də Murov zirvəsində gedən şiddətli döyüşlərdə şəhid olub. Sentyabrın 28-də Bakı şəhərində Biləcəri qəbiristanlığında dəfn olunub.

Manaf Bəhmanlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bəkirov Bəxtiyar Yavər oğlu** 1981-ci il mayın 18-də Yevlax rayonunun Xaldan kəndində anadan olub.

Bəxtiyar Bəkirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bəxtiyar Bəkirov sentyabrın 28-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Bəxtiyar Bəkirov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bəkirov Təbriz Etibar oğlu** 1993-cü il yanvarın 26-da Ucar rayonunun Bağırbəyli kəndində anadan olub.

Təbriz Bəkirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Təbriz Bəkirov oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub.

Təbriz Bəkirov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bəktiyev Müşfiq Abbas oğlu** 2002-ci il dekabrın 24-də Sumqayıt şəhərinin Corat qəsəbəsində anadan olub.

Əsgər Müşfiq Bəktiyev 2020-ci il sentyabrın 27-dən hərbçi yoldaşları ilə birgə döyüşə atılıb. O, Füzuli, Cəbrayıl, Hadrut və Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərib. Atası Abbas Bəktiyev deyir ki, elə sonuncu döyüşü də Xocavənddə olub. Müşfiq Bəktiyev oktyabrın 27-də qəhrəmancasına şəhid olub və Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilib.

Şəhid əsgər Müşfiq Bəktiyev ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.






**Bəndəliyev Əliəkbər Qulu oğlu** 23 aprel 2001-ci ildə Salyanın Çadırlı kəndində anadan olub.

Əsgər Əliəkbər Bəndəliyev 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsinə qatılıb. Suqovuşan, Hadrut istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Baş kəşfiyyatçı və baş müşahidəçi olan Əliəkbərin verdiyi dəqiq koordinatlar sayəsində bir neçə dəfə düşmənə ağır zərbə vurulub. Son dəfə oktyabrın 8-i evlə əlaqə saxladıqdan sonra döyüşə yollanıb.

10 oktyabr tarixində şəhid olub. Ölümündən sonra "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bərxudarov Toğrul Məmməd oğlu** 1987-ci il iyunun 30-da Gəncə şəhərində anadan olub.

Toğrul Bərxudarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Toğrul Bərxudarov sentyabrın 30-da şəhid olub. Yevlax şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Toğrul Bərxudarov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bəşirov Akif Vahid oğlu** 1988-ci il noyabrın 8-də Ağstafa rayonunun Soyuqbulaq qəsəbəsində dünyaya göz açıb.

Əsgər Akif Bəşirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Akif Bəşirov oktyabrın 3-də Suqovuşan döyüşləri zamanı snayper gülləsinə tuş gələrək şəhid olub. Ağstafa rayonunun Soyuqbulaq qəsəbəsində dəfn olunub.

Akif Bəşirov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bəşirov Əyyub Ramiz oğlu** 1998-ci il noyabrın 24-də Yevlax rayonunun Ərəş kəndində anadan olub.

Əsgər Əyyub Bəşirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Əyyub Bəşirov oktyabrın 16-da Suqovuşan ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Əyyub Bəşirov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Bəşirov Hakim Nizam oğlu** 1989-cu il martın 2-də İmişli rayonunun Əliyetməzli kəndində anadan olub.

Leytenant Hakim Bəşirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Hakim Bəşirov oktyabrın 20-də Füzuli döyüşləri zamanı şəhid olub.

Hakim Bəşirov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bəşirov Rəhman Eyvaz oğlu** 2002-ci il martın 20-də Salyan rayonunda dünyaya gəlib.

2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsində Goranboy rayonu istiqamətində döyüşüb.

Oktyabrın 1-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Bəşirzadə Hüseyn Xanhüseyn oğlu** 1994-cü il mayın 28-də Lənkəran rayonunun Qumbaşı kəndində anadan olub.

Əsgər Hüseyn Bəşirzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 21-də Qubadlı rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. 23 oktyabrda Lənkəran rayonunun Qumbaşı kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bəxtiyarov Orxan Sərvər oğlu** 1991-ci il sentyabrın 13-də Daşkəsən şəhərində anadan olub.

Orxan Bəxtiyarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Bəxtiyarov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Daşkəsən şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Orxan Bəxtiyarov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Beydiyev Nazim Eynulla oğlu** 1991-ci il yanvarın 24-də Şamaxı rayonunun Mirikənd kəndində anadan olub.

Əsgər Nazim Beydiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nazim Beydiyev oktyabrın 2-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında dəfn olunub.

Nazim Beydiyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bəyişli Elgün Teyuf oğlu** 6 mart 1996-cı ildə Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub.

Elgün Bəyişli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Elgün Bəyişli 10 noyabr 2020-ci ildə Şuşa şəhərində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Elgün Bəyişli ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bəylərov Elnur Etibar oğlu** 1998-ci ildə İmişli rayonunun Ağaməmmədli kəndində anadan olub.

Əsgər Elnur Bayramov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedın döyüşlərdə xüsusi şücaət göstərib və bir neçə əsgər yoldaşının həyatını xilas edərək onları çiynində daşıya-daşıya düşmənlə cəsurcasına vuruşub. O, işğaldan azad olunan mövqelərimizə bayraq sancan igidlərdən biri olub. Cəbrayıl və Qubadlı istiqamətində igidcəsinə döyüşüb.

Noyabrın 3-də Qubadlının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. İmişli rayonunun Ağaməmmədli kəndində torpağa tapşırılıb.

O, "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bəylərov Seymur Səlyəddin oğlu** 1996-cı il iyunun 24-də Samux rayonunun Qarayeri kəndində anadan olub.

MAHHXHQ əsgər Seymur Bəylərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə vuruşub. Müharibə zamanı tuşlayıcı operator kimi hərbi xidmətini yerinə yetirib.

Sentyabrın 28-də Talış-Suqovuşan istiqamətində gedən döyüşlər zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Bəyverdiyev Rafiq Nurməhəmməd oğlu** 1998-ci il iyunun 1-də Qusar rayonunun Cibir kəndində anadan olub.

Əsgər Rafiq Bəyverdiyev 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlanan zamanı SHXÇDX-yə müraciət edib və müharibəyə yollanıb. Silah yoldaşları tərəfindən "Rembo Rafiq" ləqəbini qazanıb. Rafiq Bəyverdiyev oktyabrın 20-də şəhid olub, nəşi isə düşmən tərəfində qalıb. Noyabrın 17-də nəşi qarşı tərəfdən götürülüb və ailəsinə təhvil verilib. Qusar rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzilinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bilalov Abdulcəmil Xəqani oğlu** 1997-ci il yanvarın 9-da Göyçay rayonunun Ləkçılpaq kəndində anadan olub.

Əsgər Abdulcəmil Bilalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Abdulcəmil Bilalov noyabrın 1-də Ağdərə istiqamətində şəhid olub. Göyçay rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Binnətov Ruslan Rafiq oğlu** 22 avqust 2001-ci ildə Göygöl rayonu Haça qaya kəndində dünyaya gəlib.

Əsgər Ruslan Binnətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb.

O, noyabrın 9-da Xocavənd rayonunda gedən döyüşlərdə aldığı qəlpə yarasından şəhid olub.

Ruslan Binnətov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Budaqov Rəşad Ramiz oğlu** 1986-cı il martın 13-də Yevlax şəhərində anadan olub.

Mayor Rəşad Budaqov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Rəşad Budaqov sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub. Yevlax şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Rəşad Budaqov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Budaqov Rufiz Şirzad oğlu** 1977-ci il iyulun 12-də Ordubad rayonunun Tivi kəndində anadan olub.

Gizir Rufiz Budaqov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Rufiz Budaqov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Rufiz Budaqov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Budaqov Yusif Ramiq oğlu** 1997-ci il oktyabrın 11-də Bakı şəhərində anadan olmuşdur.

Əsgər Yusif Budaqov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

20 oktyabrda Füzuli rayonunun Gecəgözlü kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub.

Yusif Budaqov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Bünyadlı Rəvan Asif oğlu** 8 avqust 2001-ci ildə Qax rayonunun Almalı kəndində anadan olub.

Əsgər Rəvan Bünyadlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Rəvan Bünyadlı sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı Mübariz İbrahimovun şəhid olduğu post istiqamətində şəhid olub.

Rəvan Bünyadlı ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bürcəliyev İlqar Vüqar oğlu** 2001-ci il martın 11-də Rusiyanın Moskva şəhərində anadan olub.

Əsgər İlqar Bürcəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərdə savaşıb. İlqar Bürcəliyev sentyabrın 28-də Talış döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

İlqar Bürcəliyev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Cabarzadə Cavid Qorxmaz oğlu** 1997-ci il avqustun 10-da Bakı şəhərinin Bülbülə qəsəbəsində anadan olub.

Əsgər Cavid Cabarzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Xocavənd rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Cavid Cabarzadə oktyabrın 24-də Xocavənd döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Cavid Cabarzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Cabbarov Akif Elxan oğlu** 1997-ci il sentyabrın 20-də Gədəbəy rayonunda dünyaya göz açıb.

Əsgər Akif Cabbarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 25-də Füzulinin Alıxanlı kəndində şəhid olub. Sumqayıtdakı Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Cabbarov Əli Baba oğlu** 2002-ci il yanvarın 8-də Bakının Binəqədi rayonunun Binəqədi qəsəbəsində anadan olub.

Əsgər Əli Cabbarov 2020-ci il 27 sentyabr tarixində başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə iştirak edib.

Oktyabr ayının 27-də Xocavənd rayonu istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cabbarov Elnur Şahmurad oğlu** 12 sentyabr 1994-cü ildə Ağcabədidə anadan olub.

Əsgər Elnur Cabbarov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı könüllü olaraq Füzulinin, Cəbrayılın, Hadrutun, Zəngilanın, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Laçın dəhlizinin işğaldan azad edilməsi də Elnur və onun komandasına tapşırılıb.

Noyabrın 5-də Şuşa döyüşlərində ağır yaralanaraq Hadruta, oradan Bakıya aparılıb. Bir həftəlik komadan sonra 12 noyabr 2020-ci ildə Bakıda müalicə aldığı xəstəxanada dünyasını dəyişib. Ağcabədi rayonunda dəfn olunub.

O, ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Cabbarov Muraz İlham oğlu** 2000-ci il martın 7-də Daşkəsən rayonunun Zağalı kəndində anadan olub.

Muraz Cabbarov Xüsusi Təyinatlı Qüvvələrin əsgəri olub. O, Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib və oktyabrın 30-da düşmənin snayper gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cabbarov Oruc Akif oğlu** 1999-cu il dekabrın 6-da Yevlax rayonunun Nərimanabad kəndində anadan olub.

Əsgər Oruc Cabbarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Oruc Cabbarov oktyabrın 4-də Ağdərə istiqamətində şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 07.01.2021-ci il tarixində Yevlax rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cabbarov Orxan Rövşən oğlu** 1995-ci il noyabrın 20-də Tovuz şəhərində anadan olub.

Kiçik gizir Orxan Cabbarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Cabbarov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Tovuz şəhərində dəfn olunub.

Orxan Cabbarova "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

Orxan Cabbarov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə","Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cabbarov Şahgündüz Habil oğlu** 13 yanvar 1995-ci ildə Bərdə rayonunun Mollalı kəndində anadan olub.

Şahgündüz Cabbarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Qubadlının və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak edərək şücaət göstərib. Şahgündüz Cabbarov 25 oktyabr 2020-ci ildə Füzuli rayonunun Əbdürrəhmanlı kəndi istiqamətində gedən döyüşlərdə şəhid olub.

Şahgündüz Cabbarov Binə qəbiristanlığında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Cabbarov Səlim Qulam oğlu** 2002-ci il fevral ayının 6-da Saatlı rayonunun Şirinbəy kəndində doğulub.

Əsgər Səlim Cabbarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 2-də Talış döyüşlərində şəhid olub. Səlim böyüyüb boya-başa çatdığı Saatlı rayonunun Şirinbəy kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Cabbarov Seymur İlham oğlu** 1987-ci il martın 16-da Şərur rayonunun Çərçiboğan kəndində anadan olub.

Kapitan Seymur Cabbarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Seymur Cabbarov oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olub.

Seymur Cabbarov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cabbarov Şöhrət Əli oğlu** 28 aprel 1995-ci ildə İmişli rayonunun Ölcələr kəndində dünyaya göz açıb.

Əsgər Şöhrət Cabbarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. 27 sentyabr 2020-ci ildə Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cabbarov Vidadi Cəbrayıl oğlu** 1997-ci il martın 28-də Lerik rayonunun Piran kəndində anadan olub.

Gizir Vidadi Cabbarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vidadi Cabbarov oktyabrın 20-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Vidadi Cabbarov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Cabbarzadə Məmmədiyə Məhəmməd oğlu** 1986-cı il dekabrın 10-da Şəki şəhərində anadan olub.

Gizir Məmmədiyə Cabbarzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Məmmədiyə Cabbarzadə sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

Məmmədiyə Cabbarzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Calalzadə Calal Qaryağdı oğlu** 1993-cü il oktyabr 17-də Bərdə rayonunun Mustafaağalı kəndində anadan olub.

Əsgər Calal Calalzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Calal Calalzadə oktyabrın 3-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Bərdə rayonunun Mustafaağalı kəndində dəfn olunub.

Calal Calalzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Cahangirov Rauf Xəyyam oğlu** 24 avqust 1998-ci ildə Astaranın Maşxan kəndində dünyaya göz açıb.

Əsgər Rauf Cahangirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd, Hadrut, Zəngilan və Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabrın 2-də Şuşa istiqamətində gedən döyüşlərdə şəhid olub. Doğulub boya-başa çatdığı Maşxan kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cavadlı Nemət Cavid oğlu** 1995-ci il iyunun 3-də İmişli rayonunda anadan olub.

Gizir Nemət Cavadlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Kəlbəcərin və Şuşa şəhərinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Nemət Cavadlı oktyabrın 31-də Şuşa döyüşləri zamanı şəhid olub.

Nemət Cavadlı ölümündən sonra "Qarabağ" ordeni ilə "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Cavadov Canlar Aqil oğlu** 1980-ci il iyunun 18-də Gəncə şəhərində anadan olub.

Kiçik çavuş Canlar Cavadov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Canlar Cavadov sentyabrın 29-da Murovdağ döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Canlar Cavadov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cavadov Cəlil Ağaddin oğlu** 1989-cu il martın 29-da Lerik rayonunun Xəlifəkücə kəndində anadan olub.

Kapitan Cəlil Cavadov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cəlil Cavadov oktyabrın 27-də Xocavənd döyüşləri zamanı şəhid olub. Lerik rayonunda dəfn olunub.

Cəlil Cavadov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cavadov Ələsgər Elxan oğlu** 29 dekabr 2000-ci ildə anadan olub.

Əsgər Ələsgər Cavadov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Kəlbəcər, Cəbrayıl, Füzuli və Şuşa rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

Noyabrın 9-da Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Şuşanın azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Cavadov Namiq Rəhbər oğlu** 1973-cü il noyabrın 7-də Xocalı şəhərində anadan olub.

Leytenant Namiq Cavadov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Xocavəndin və Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Namiq Cavadov oktyabrın 25-də Laçın döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə","Şuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.





**Cavadov Ramin Emin oğlu** 19 aprel 2000-ci ildə Salyan rayonunun Xalac kəndində anadan olub.

Əsgər Ramin Cavadov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı şücaətlə döyüşüb. Oktyabrın 2-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Cavadov Yalçın Aydın oğlu** 1985-ci il mayın 19-da Şamaxı rayonunun Sabir qəsəbəsində anadan olub.

Çavuş Yalçın Cavadov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Yalçın Cavadov oktyabrın 9-da Füzuli döyüşləri zamanı şəhid olub. Şamaxı şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Yalçın Cavadov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Cavadzadə Anar Tahir oğlu** 29 aprel 1990-cı ildə İmişli rayonunda dünyaya göz açıb.

Əsgər Anar Cavadzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Topçu kimi hərbi əməliyyatlarda vuruşub.

Oktyabrın 17-də Hadrutun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olub. İmişli rayonunun Telişli kəndində torpağa tapşırılıb.

Anar Cavadzadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cavadzadə Şaiq Faiq oğlu** 1995-ci il 28 noyabrda Azərbaycan Respublikasının Ağsu rayonunda anadan olub.

Əsgər Şaiq Cavadzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində savaşıb. Şaiq Cavadzadə oktyabrın 4-də şəhid olub. Ağsu şəhərində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Cəbiyev Qardaşağa Nizami oğlu** 1997-cil il yanvar ayının 13-də Siyəzən şəhərinin Kiçik Həmyə kəndində anadan olub.

MAHHXHQ əsgər Qardaşağa Cəbiyev Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılaraq Füzuli, Qubadlı, Xocavənd, Şuşa rayonlarının və Hadrud qəsəbəsinin işğaldan azad olunmasında xüsusi rolu olub. Noyabrın 3-də Xocavənd istiqamətində gedən şiddətli döyüşlərdə şəhid olub. Son arzusu oxuduğu Siyəzən rayonunun Kiçik Həmyə kənd tam orta məktəbinə öz adının verilməsi olub. Noyabrın 4-də Siyəzən şəhərinin Kiçik Həmyə kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Cəbizadə Əbil Qadir oğlu** 26 fevral 1993-cü ildə Sumqayıt şəhərində dünyaya göz açıb.

Əsgər Əbil Cəbizadə 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Xudafərin körpüsünün azad olunmasında böyük şücaət göstərib. Ailəsi ilə sonuncu dəfə 12 oktyabrda əlaqə saxlayan Əbil Cəbizadə 14 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Zoğalbulaq kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Əbil Cəbizadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəbrayıllı İbrahim Raqub oğlu** 1999-cu il fevralın 3-də Zərdab rayonunun Məlikumudlu kəndində anadan olub.

Çavuş İbrahim Cəbrayıllı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. İbrahim Cəbrayıllı sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub.

İbrahim Cəbrayıllı ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəbrayılov Elçin Surxay oğlu** 1982-ci il yanvarın 10-da Sumqayıt şəhərində anadan olub.

Kiçik çavuş Elçin Cəbrayılov 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elçin Cəbrayılov oktyabrın 21-də Füzuli döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Elçin Cəbrayılov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Cəbrayılov Elnur Tofiq oğlu** 26 aprel 1981-ci ildə Göygöl rayonunda anadan olub.

Kapitan Cəbrayılov Elnur Füzuli rayonunun işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib, qəhrəmanlıqlar göstərib.

Sonuncu dəfə 2020-ci ilin oktyabr ayının 12-də ailəsi ilə əlaqə saxlayıb. Həmin gündən sonra Cəbrayılov Elnur Tofiq oğlundan xəbər almayıb. Müdafiə Nazirliyinin itkinlər siyahısına alınıb.

16 yanvar 2021-ci ildə kapitan Cəbrayılov Elnur Tofiq oğlunun mübarək nəşi tapılıb, DNT analizi ilə təsdiq olunaraq Göygöl Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra"Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəbrayılov Rahib Ramil oğlu** 2001-ci il dekabrın 26-sında Yevlax rayonunun Quşçu kəndində anadan olub.

Əsgər Rahib Cəbrayılov 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlanan ilk gündən döyüşlərdə mərdliklə, qorxmazlıqla iştirak edib. O, Suqovuşan uğrunda gedən döyüşlərdə şəhidlik məqamına qovuşub.


Rahib Cəbrayılov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Cəbrayılov Sübhan Rahim oğlu** 1983-cü il oktyabrın 23-də Salyan rayonunun Marışlı kəndində anadan olub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Cəbrayıl rayonu, Füzuli rayonu və Qubadlı rayonu istiqamətlərində, həmçinin Ərgünəş dağı və Hadrut qəsəbəsi istiqamətlərində gedən döyüşlərdə savaşıb. Ümumi olaraq 24 gün ərzində 30-dan çox yaşayış məntəqəsinin azad edilməsi uğrunda gedən döyüşlərdə olub. Oktyabrın 19-da Sübhan Cəbrayılov və dəstənin bir neçə üzvü şəhid olub.

O, ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəbrayılov Xəyal Rafiq oğlu** 1998-ci il sentyabrın 1-də Ucar rayonunun Lək kəndində anadan olub.

Xəyal Cəbrayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyal Cəbrayılov noyabrın 4-də Şuşa döyüşləri zamanı Daşaltı istiqamətində şəhid olub.

Xəyal Cəbrayılov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Cəfər Osman Elsevər oğlu** 1998-ci il iyunun 17-də İmişli rayonunun Otuziki kəndində anadan olub.

Əsgər Osman Cəfər 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Osman Cəfər noyabrın 4-də Laçın döyüşləri zamanı şəhid olub. İmişli rayonunda dəfn olunub.

Osman Cəfər ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Cəfərli Asim Çingiz oğlu** 2001-ci il sentyabrın 4-də Bərdə şəhər Piyadalar kəndində doğulub.

Əsgər Asim Cəfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb və elə həmin gün Füzuli rayonu uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərli Əli İsa oğlu** 29 avqust 2001-ci ildə dünyaya göz açıb.

Əsgər Əli Cəfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Əli Cəfərli 27 sentyabr 2020-ci ildə Suqovuşan istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Əli Cəfərlinin nəşi bir ay sonra, 28 oktyabr 2020-ci ildə DNT analizi ilə müəyyən olunaraq ailəsinə təhvil verilib və torpağa tapşırılıb.

Əli Cəfərli ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərli Elşən Rəfail oğlu** 2 sentyabr 2000-ci ildə İmişli rayonunun Qulubəyli kəndində dünyaya göz açıb.

Əsgər Elşən Cəfərli 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 28 sentyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Elşən Cəfərli ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Cəfərli Əmrah Yusif oğlu** 22 yanvar 1997-ci ildə Masallı rayonunda dünyaya gəlib.

Əsgər Əmrah Cəfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Əmrah Cəfərli oktyabrın 15-də Xocavənd rayonunda gedən döyüşdə alıdığı qəlpə yarası nəticəsində şəhid olub.

Əmrah Cəfərli ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərli Həmid Kərim oğlu** 1990-cı il avqustun 1-də Bakı şəhərində anadan olub.

Kapitan Həmid Cəfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Həmid Cəfərli oktyabrın 5-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Həmid Cəfərli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərli Orxan Etibar oğlu** 1996-cı il fevralın 16-da Daşkəsən şəhərində anadan olub.

Gizir Orxan Cəfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Orxan Cəfərli sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Orxan Cəfərli ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərli Cəfər Babacəfər oğlu** 11 dekabr 1999-cu ildə Yardımlı rayonunun Avun kəndində anadan olub.

Əsgər Cəfər Cəfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəfər Cəfərli 3 noyabr tarixində Xocavənd rayonu uğrunda gedən döyüşlər zamanı şəhid olub. Onun nəşi şəhid olmasından bir müddət sonra tapılaraq ailəsinə təhvil verilib. 14 dekabr 2020-ci ildə Yardımlı rayonunun Avun kəndində dəfn edilib.

Cəfər Cəfərli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Cəfərli Röyal İkrəm oğlu** 1998-ci il yanvarın 1-də Beyləqan rayonunda anadan olub.

Əsgər Cəfərli Röyal 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonu istiqamətində gedən döyüşlərdə döyüşüb. Döyüşün ilk günündə şəhid olub. Beyləqan rayonunun Şəhidlər Xiyabanında dəfn edilib.

Röyal Cəfərli ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.




**Cəfərli Ruslan Nəcəf oğlu** 1995-ci il mayın 25-də Mingəçevir şəhərində anadan olub.

Əsgər Ruslan Cəfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ruslan Cəfərli oktyabrın 13-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Noyabrın 21-də Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Ruslan Cəfərli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərli Şahin Şamil oğlu** 28 iyun 1994-cü ildə Oğuz rayonunun Xalxalqışlaq kəndində anadan olub.

Əsgər Şahin Cəfərli 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Murovdağ döyüşlərində savaşıb. Şahin Cəfərli oktyabrın 1-də Murovdağ döyüşlərində qəhrəmancasına vuruşaraq şəhid olub. Şahin Cəfərli oktyabrın 2-də Xalxalqışlaq kəndində dəfn olunub.

Şahin Cəfərli ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Cəfərli Xəyal Xəlil oğlu** 1992-ci il iyulun 9-da Salyan rayonunun Qaraçala qəsəbəsində anadan olub.

Gizir Xəyal Cəfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyal Cəfərli oktyabrın 23-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Xəyal Cəfərli ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Cəfərov Anar Eyvaz oğlu** 19 dekabr 1977-ci ildə Ağcabədi şəhərində anadan olub.

Əsgər Anar Cəfərov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində ön cəbhədə olub. Tərtər-Ağdərə-Suqovuşan istiqamətində gedən döyüşlərdə xeyli sayda erməni məhv edib. Həmin döyüşlərdə də qəhrəmancasına şəhid olub. O, Ağcabədi Şəhidlər Xiyabanında dəfn olunub.

Anar Cəfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Cəfərov Ayxan Cəmaləddin oğlu** 1996-ci il sentyabrın 6-da Cəlilabad rayonunun Üçtəpə kəndində anadan olub.

Əsgər Ayxan Cəfərov 28 sentyabrda yenidən hərbi xidmətə çağırılır. 29 sentyabr 2020-ci ildə Ağcabədi korpusunda könüllülər dəstəsinə yazılaraq Füzuli bölgəsində döyüşüb. Füzuli döyüşlərində snayperçi kimi iştirak edən Ayxan Cəfərov 15 oktyabr 2020-ci ildə düşmənlə üzbəüz döyüşdə qəhrəmancasına şəhid olub. 17 oktyabr 2020-ci ildə Cəlilabad rayonunun Üçtəpə kəndində dəfn edilib.

Ayxan Cəfərov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Cəfərov Babək Məhsus oğlu** 15 avqust 1991-ci ildə Samux rayonunun Qarayeri qəsəbəsində anadan olub.

Əsgər Babək Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Babək Cəfərov oktyabrın 26-da Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi – Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə ağır yaralanıb və tibb müəssisəsinə yerləşdirilib. Babək Cəfərov 2021-ci il martın 8-də şəhid olub.

Babək Cəfərov ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Cəfərov Balaş Namiq oğlu** 18 iyul 2002-ci ildə Abşeron rayonunun Hökməli qəsəbəsində anadan olub.

Əsgər Balaş Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. 10 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. Balaş Cəfərovun nəşi 23 dekabr 2020-ci ildə Abşeron rayonunun Hökməli qəsəbəsində torpağa tapşırılıb.

Balaş Cəfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Cəfərov Cavid Fərhad oğlu** 1 dekabr 1993-cü ildə Sumqayıt şəhərində anadan olub.

Əsgər Cavid Cəfərov 2020-ci il sentyabrın 27-də tarixdən başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Cavid Cəfərov oktyabrın 1-də Füzuli döyüşləri zamanı yaralı komandirini ərazidən çəkərkən snayperlə vurularaq şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Cəfərov Cəlil Sulduz oğlu** 8 avqust 1998-ci ildə Neftçala rayonunun Şorkənd kəndində anadan olub.

Əsgər Cəlil Cəfərov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsinə kəşfiyyatçı olaraq qatılıb. Suqovuşanın və Talış kəndinin alınmasında, Laçın uğrunda gedən döyüşlərdə şücaət göstərib. Oktyabrın 16-da düşmən snayperi ilə vurulması nəticəsində şəhid olub. Noyabrın 19-da Şorkənd kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərov Əli Bəyulla oğlu** 29 avqust 1993-cü ildə Astara rayonunun Maşxan kəndində anadan olub.

Əsgər Əli Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış və Suqovuşan kəndlərinin, Murovdağ yüksəkliyinin alınmasında şücaət göstərib və düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub. Əli Cəfərov noyabrın 4-də Astara rayonunun Maşxan kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərov Elmar İlham oğlu** 2 may 1995-ci ildə Gədəbəy rayonunun Nova İvanovka kəndində anadan olub.

Əsgər Elmar Cəfərov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Elmar II Qarabağ müharibəsindən əvvəl Aprel döyüşlərində də igidcəsinə iştirak edib və ayağında qəlpə qalıb.

Elmar Cəfərov noyabrın 6-da Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə qolundan yaralanıb, çox qan itirməyinə rəğmən döyüşə davam edib və son olaraq isə çənəsinə dəyən qəlpə ilə şəhid olub.





**Cəfərov Elməddin Hümbət oğlu** əslən 21 sentyabr 1987-ci ildə Xızı rayonunun Şorabad qəsəbəsində dünyaya gəlib. Əslən Qərbi Azərbaycanın Dərələyəz mahalının Ağkənd kəndindəndir.

Gizir Elməddin Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı ön cəbhədə vuruşub. O, yaralı komandirini 12 km məsafədə mərmi yağışı altında, heç bir qorxu bilmədən, öz çiyinlərində təhlükəsiz əraziyə çıxarıb. İkinci dəfə 8 oktyabrda pusquya düşən dəstə böyük itkilər verib. Elməddin Cəfərov aldığı qəlpə yaralarından şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərov Elnur Cəmiyyət oğlu** 1998-ci il avqust 28-də Füzuli rayonu Əbdürrəhmanlı kəndində anadan olub.

Əsgər Elnur Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur Cəfərov oktyabrın 3-də Füzuli rayonu istiqamətində gedən döyüş əməliyyatlarında döyüş tapşırığını yerinə yetirərəkən düşmən tərəfindən açılan atəş zamanı şəhid olub.

Elnur Cəfərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Cəfərov Elyəddin Zöhrab oğlu** 1995-ci il mayın 24-də Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kəndində anadan olub.

Əsgər Elyəddin 2-ci Qarabağ müharibəsi başlanan ilk gündən könüllü şəkildə işlədiyi müəssisədən müvəqqəti möhlət alaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib və ön cəbhəyə yollanıb. Torpaqlarımızın işğalçılardan azad olunması uğrunda gedən döyüşlərdə şücaətlik göstərərək şəhidlik zirvəsinə ucalan Elyəddin Cəfərov oktyabrın 20-də doğulduğu doğma Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kənd qəbirisitanlığında böyük izdihamla dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Cəfərov Etibar Teyyub oğlu** 1983-cü il aprelin 4-də Şəmkir rayonunun Morul kəndində anadan olub.

Gizir Etibar Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcərin və Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Etibar Cəfərov Murovdağ döyüşləri zamanı itkin düşüb. Oktyabrın 23-də şəhid olduğu müəyyənləşib. Şəmkir rayonunun Morul kəndində dəfn olunub.


Etibar Cəfərov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Cəfərov Fərid İsmixan oğlu** 1998-ci il yanvarın 13-də Yevlax rayonunda dünyaya gəlib.

Əsgər Fərid Cəfərov 2020-ci il sentyabrın 27-də Kəhrilər xarabalığı, Dostagir, Talış və Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 1-də Goranboy rayonu istiqamətində atılan mərminin partlayışı nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarıyla təltif edildi.



**Cəfərov Mətləb Məhəmməd oğlu** 19 noyabr 1977-ci ildə Sabirabad rayonunun Nərimankənd kəndində dünyaya göz açıb.

Baş leytenant Mətləb Cəfərov 2-ci "Qarabağ müharibəsi" başlananda könüllü olaraq orduya yazılıb. Mətləb Cəfərov noyabr ayının 2-si Qubadlı uğrunda gedən döyüşlərdə ağır yaralanıb. 18 gün koma vəziyyətində qalan Cəfərov noyabrın 20-si, yəni doğum günündən bir gün sonra şəhid olub.

Mətləb Cəfərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərov Mirmuraz Mirbaba oğlu** 1997-ci il mayın 26-da Gəncədə anadan olub.

Əsgər Mirmuraz Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Füzulinin, Qubadlının və Zəngilanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Mirmuraz Cəfərov 26 oktyabr 2020-ci ildə Qubadlı istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. 27 oktyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn olunub.

Mirmuraz Cəfərov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərov Mübariz Qulu oğlu** 1983-cü il mayın 11-də Goranboy rayonunda doğulub.

Əsgər Mübariz Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Tərtər-Ağdərə bölgəsində döyüşüb. Oktyabrın 19-da düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Cəfərov Təbriz İlqar oğlu** 14 iyul 1995-ci ildə Bərdə rayonunda dünyaya göz açıb.

MAHHXHQ əsgər Təbriz Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Suqovuşan istiqamətində gedən döyüşlərdə itkin düşüb. Uzun müddət nəşi tapılmayıb. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunub. Onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülüb. Aprelin 6-da tapılaraq Bərdə Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Təbriz Cəfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Camalzadə Famil Hicran oğlu** 12 yanvar 1996-cı ildə Salyan rayonunun Xurşud kəndində anadan olub.

Əsgər Famil Camalzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı ilk gündən döyüşlərə qatılıb. Bir çox yerlərin azad olunmasında, Alxanlı, Qaraxanbəyli postlarının alınmasında şəxsən iştirak edib. 5 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Cavadov Mahmud Heydər oğlu** 1999-cu il aprelin 13-də Bakı şəhərində anadan olub.

Əsgər Mahmud Cavadov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabrın 27-də Ağdərə istiqamətində qəhrəmancasına şəhid olub. İkinci Fəxri Xiyabanda dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ağacan Zakir oğlu Cəbrayılov** 2002-ci il mayın 20-də Şamaxı şəhərində anadan olub.

Əsgər Ağacan Cəbrayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Ağacan Cəbrayılov noyabrın 10-da şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında dəfn olunub.

Ağacan Cəbrayılov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Cəfərov Araz Səmədağa oğlu** 28 yanvar 1993-cü ildə Cəlilabad rayonunun Qarazəncir kəndində anadan olub.

Əsgər Araz Cəfərov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, Laçın uğrunda gedən döyüşlərdə şəhid olub. Müharibə bitəndən sonra axtarışlar nəticəsində şəhid Araz Cəfərovun nəşi tapılıb və 2 dekabrda doğulduğu Qarazəncir kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Cəfərov Surxay Cümşüd oğlu** 1986-ci il fevralın 17-də Göygöl rayonunda (Danyeri kəndi) anadan olub.

Əsgər Surxay Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sonuncu döyüşü Şuşa istiqamətində olan qəhrəmanımız tarixi şəhərimizin alınmasında iştirak edərək şəhidlik zirvəsinə ucalıb.

Surxay Cəfərov ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.




**Cəfərzadə Tarif Qədim oğlu** 1 yanvar 2002-ci ildə Astara rayonunun Pəlkəş kəndində anadan olub.

Əsgər Tarif Cəfərzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Oktyabrın 3-də Xocavənd rayonunda gedən döyüşdə aldığı qəlpə yarası nəticəsində şəhid olub.

Tarif Cəfərzadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Cəfərov Oruc Vaqif oğlu** 1994-cü il fevralın 23-də Bərdə rayonunun Xanərəb kəndində anadan olub.

Əsgər Oruc Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Oruc Cəfərov oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Cəfərov Rahid Namik oğlu** 11 fevral 2002-ci ildə Cəlilabad rayonunun Dələli kəndində anadan olub.

Əsgər Rahid Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Talış və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Rahid Cəfərov 5 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.




**Cəfərov Ramiz Sübhan oğlu** 1974-cü il dekabrın 10-da Ukraynanın Makeevka şəhərində anadan olub.

Polkovnik-leytenant Ramiz Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ramiz Cəfərov noyabrın 6-da Şuşa döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Ramiz Cəfərova "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərov Röyal Vaqif oğlu** 1991-ci ildə dekabrın 7-də Gəncədə anadan olub. Müdafiə Nazirliyinin yayımladığı videogörüntülərdə düşmən bayrağını təpikləyib yerə salan, qürur və ehtiramla öz bayrağımızı azad edilmiş Qubadlıya sancan bu əsgərin görüntüləri hamımızı qürurlandırdı.

MAHHXHQ əsgər Röyal Cəfərov müharibə başlanan gündən döyüşlərə göndərilib. Əvvəl Murovdağda döyüşüb, sonra Füzuli, Zəngilan, Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərə qatılıb. Həmişə ön cəbhədə olub. Noyabrın 4-də düşmən gülləsinə tuş gələn Röyal döyüş meydanında şəhadətə qovuşub. Şəhidimizin qüruru və mətanəti ilə ondan geri qalmayan həyat yoldaşının fotosu isə hər bir azərbaycanlını kövrəltdi. Qəhrəman igidimizin cənazəsini çiynində daşıyan bu qadın müharibənin simvollarından birinə çevrildi.

O, ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərov Ruslan Gündüz oğlu** 1976-cı il noyabrın 19-da anadan olub. Əslən Xocalı rayonundan idi.

Mayor Ruslan Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonunun Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ruslan Cəfərov oktyabrın 11-də Hadrut döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanında dəfn olunub.

Ruslan Cəfərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Cəfərov Ruslan Mövlan oğlu** 2000-ci il avqustun 2-də Qusar şəhərində anadan olub.

Əsgər Ruslan Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. O, oktyabrın 21-də şəhid olub. Qusar şəhərində dəfn olunub.

Ruslan Cəfərov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərov Şahlar Fəzail oğlu** 1975-ci il iyunun 5-də Sabirabad rayonunun Xəlfəli kəndində anadan olub.

Mayor Şahlar Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonunun Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şahlar Cəfərov oktyabrın 14-də Hadrut döyüşləri zamanı şəhid olub. Sabirabad rayonunda dəfn olunub.

Şahlar Cəfərov "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", "İgidliyə görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi.



**Cəfərov Səid Zəfər oğlu** 1993-cü il fevralın 4-də Neftçala rayonunun Xol Qarabucaq kəndində anadan olub.

Baş çavuş Səid Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə, həmçinin Füzulinin, Hadrut qəsəbəsinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Səid Cəfərov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub.

Səid Cəfərov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərov Şəmsi Mahir oğlu** 2001-ci il 27 avqustda Füzuli rayonunda dünyaya gəlib.

Kiçik çavuş Şəmsi Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər-Ağdərə istiqamətində döyüşüb.

Sentyabrın 29-da düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Cəfərov Sübhan Mehman oğlu** 1999-cu il iyunun 10-da Ağsu şəhərində anadan olub.

Əsgər Sübhan Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Oktyabrın 10-da isə Talış kəndinin azad edilməsi uğrunda gedən hərbi əməliyyat zamanı qəhrəmancasına döyüşərək şəhid olub. Sübhan Cəfərov Ağsu şəhərindəki Şəhidlər Xiyabanında uyuyur.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Cəfərov Tacir Fariz oğlu** 2001-ci il fevralın 9-da Goranboy rayonunun Qaraçinar kəndində anadan olub.

Əsgər Tacir Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. O, oktyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərov Tehran Nadir oğlu** 1992-ci il martın 12-də Biləsuvar rayonunun Günəşli kəndində anadan olub.

Əsgər Tehran Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tehran Cəfərov oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Cəfərov Ülvi Habil oğlu** 1998-ci il yanvarın 16-da Kəngərli rayonunun Xok kəndində anadan olub.

MAHHXHQ əsgər Ülvi Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülvi Cəfərov oktyabrın 31-də Şuşa döyüşləri zamanı şəhid olub. Kəngərli rayonunun Xok kəndində dəfn olunub.

Ülvi Cəfərov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Cəfərov Vüqar İnşallah oğlu** 1991-ci il martın 23-də Bakı şəhərində anadan olub.

Baş çavuş Vüqar Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüqar Cəfərov oktyabrın 5-də Cəbrayıl döyüşləri zamanı şəhid olub.

Vüqar Cəfərov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərov Vüsal Şəfi oğlu** 1996-cı il yanvarın 16-da Salyan rayonunun Xələc kəndində anadan olub.

Əsgər Vüsal Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Vüsal Cəfərov noyabrın 5-də şəhid olub.

Vüsal Cəfərov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Cəfərov Vüsal Sərhədxan oğlu** 1989-cu il mart ayının 6-da Cəlilabad rayonu Göytəpə şəhərində anadan olub.

MAHHXHQ əsgər Vüsal Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində 5 rayonun, eləcə də Hadrut uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb. Vüsal dəfələrlə yaralı yoldaşlarını ərazidən çıxarıb, döyüş yoldaşlarının dediyinə görə, o çox sayda düşməni məhv edib.

Oktyabrın 18-dən 20-dək Cəbrayılın Dağ Tumas kəndi uğrunda gedən döyüşlərdə iştirak edib. Cəfərov Vüsal 21 oktyabrda Qubadlıda düşmənin ağır artilleriyasının açdığı atəş nəticəsində şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", 3-cü dərəcəli "Vətənə xidmətə görə" medalları ilə təltif edildi.



**Cəfərov Vüsal Saxləddin oğlu** 1990-cı il martın 1-də Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olub.

MAHHXHQ kiçik çavuş Vüsal Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Oktyabrın 1-də Kəlbəcər rayonu uğrunda aparılan döyüş əməliyyatları zamanı şəhid olub.

O, ölümündən sonra "Kəlbəcərin azadlığı uğrunda", "Vətən müharibəsi iştirakçısı", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Cəfərov Yusif Mübariz oğlu** 25 aprel 1996-cı ildə Şirvan şəhərində anadan olub. Yusif 3 yaşında ikən atası vəfat edib.

Əsgər Yusif Cəfərov 2020-ci il sentyabrın 27-də başlanan II Qarabağ müharibəsində düşmənə qan uddurmaq üçün cəbhəyə yollanıb. Zəngilan, Qubadlı, Cəbrayıl döyüşlərində xüsusi qəhrəmanlıq nümunələri göstərib, döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Şücaətli Vətən oğlu 4 noyabr 2020-ci ildə Şirvan Şəhidlər Xiyabanında izdihamla dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.




**Cəfərov Zaur Hüseyn oğlu** 1980-ci il martın 4-də Kəlbəcər rayonunun Başlıbel kəndində anadan olub.

Polkovnik-leytenant Zaur Cəfərov döyüşlər zamanı qərargah rəisi kimi briqadası ilə savaşıb. Madagiz-Ağdərə istiqamətində rəhbərliyi ilə keçirilən hərbi əməliyyatlar zamanı düşmənin 77-ci tank taborunun 4 tankı məhv edillib, 3 tankı isə qənimət götürülüb. Zaur Cəfərovun son döyüşü Ağdərə istiqamətində olub.

2020-ci il oktyabrın 9-dan 10-a keçən gecə Ağdərə istiqamətində gedən şiddətli döyüşlər zamanı minik avtomobili ilə minaya düşərək şəhid olub. 19 oktyabr yaşadığı Bakı şəhəri Yeni Ramana qəsəbəsinə gətirilib, həmin gün II Şəhidlər Xiyabanında yaylım atəşi ilə torpağa tapşırılıb.

Zaur Cəfərov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Cəfərzadə Eşqin Hamlet oğlu** 20 aprel 1997-ci ildə Lənkəranın Darquba kəndində dünyaya gəlib.

Əsgər Eşqin Cəfərzadə 2020-ci il sentyabrın 28-də hərbi komissarlığın çağırışı ilə cəbhəyə yollanıb. Hadrut, Suqovuşan, Cəbrayıl, Zəngilan, Füzuli və Qubadlı döyüşlərində atıcı kimi iştirak edib. Oktyabrin 21-də Qubadlı uğrunda gedən döyüşlərdə şəhid olub, noyabrın 5-də Şiləvar kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəfərzadə İsrayıl Namiq oğlu** 30 sentyabr 2000-ci ildə Bakı şəhərinin Sabunçu rayonunda anadan olub.

Əsgər İsrayıl Cəfərzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 16 oktyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Bakıxanov qəsəbəsində yerləşən Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Cəfərzadə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" medalları ilə təltif edildi.

**Cəlilov Elcan Famil oğlu** 1996-cı il fevralın 26-da Tovuz rayonunda anadan olub.

Əsgər Elcan Cəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Elcan Cəlilov noyabrın 7-də Xocavənd döyüşləri zamanı şəhid olub. Tovuz rayonunda dəfn olunub.

Elcan Cəlilov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəlilov Həsən Məhərrəm oğlu** 1995-ci il martın 30-da Şərurun Qarahəsənli kəndində anadan olub.

Əsgər Həsən Cəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 25-də Hadrut uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb. Nişanlı idi.

2020-ci il 28 oktyabrda doğulub böyüdüyü Qarahəsənli kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəlilov Sahil Oktay oğlu** 17 may 1998-cı ildə Şərur rayonunun Dərvişlər kəndində dünyaya göz açıb.

Əsgər Sahil Cəlilov II Qarabağ müharibəsində döyüş yolu Füzulidən başlayıb.

22 oktyabr 2020-ci il tarixində Xocavənd uğrunda gedən döyüşlərdə Sahil qəhrəmancasına şəhid olub. 26 oktyabr 2020-ci il Şərur rayonunun Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Cəlilov Şöhrət Cəfər oğlu** 11 yanvar 1998-ci ildə Xaçmaz rayonunun Gəncəli kəndində anadan olub.

Əsgər Şöhrət Cəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli, Cəbrayıl və Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib. 24 oktyabrda Zoğalbulaq, Düdüklü kəndinin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub.

Şöhrət Cəlilov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Cəlilov Tural Callad oğlu** 1996-cı il aprelin 10-da Qəbələ rayonunun Yeni Dizaxlı kəndində anadan olub.

Əsgər Tural Cəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Tural Cəlilov oktyabrın 7-də Ağdərə istiqamətində şəhid olub. Qəbələ rayonunda dəfn olunub.

Tural Cəlilov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəlilov Xaləddin Asəf oğlu** 2002-ci il aprelin 13-də Ağstafa rayonunun Yenigün kəndində anadan olub.

Əsgər Xaləddin Cəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Xaləddin Cəlilov sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunda dəfn olunub.

Xaləddin Cəlilov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Cəmilli Şakir Arif oğlu** 1992-ci il dekabrın 4-də Füzuli şəhərində anadan olub.

Gizir Şakir Cəmilli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şakir Cəmilli oktyabrın 23-də Xocavənd döyüşləri zamanı şəhid olub.

Şakir Cəmilli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cəmilli Xəqani Mənsur oğlu** 1995-ci il fevralın 22-də Yevlax rayonunun Varvara kəndində anadan olub.

Gizir Xəqani Cəmilli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəqani Cəmilli oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Yevlax rayonunun Varvara kəndində dəfn olunub.

Xəqani Cəmilli ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalıarı ilə təltif edildi.

**Cəmiyev Aşur Bəybala oğlu** 1989-cu il iyunun 18-də Şahbuz rayonunun Külüs kəndində anadan olub.

Kapitan Aşur Cəmiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Aşur Cəmiyev oktyabrın 21-də Zəngilan döyüşləri zamanı şəhid olub.

Aşur Cəmiyev ölümündən sonra "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Çobanov Orxan Zahid oğlu** 1997-ci il avqustun 2-də Xaçmaz rayonunun Sudur kəndində anadan olub.

Gizir Orxan Çobanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Çobanov sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub.

Orxan Çobanov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cumayev Orxan Fətəli oğlu** 2000-ci il yanvarın 14-də Zaqatala şəhərində anadan olub.

Əsgər Orxan Cumayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Orxan Cumayev oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub. Zaqatala şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Orxan Cumayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Cümşüdov Orxan Elxan oğlu** 1993-cü il sentyabrın 1-də Goranboy rayonunun Tap Qaraqoyunlu kəndində anadan olub.

Əsgər Orxan Cümşüdov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Cümşüdov noyabrın 1-də Şuşa döyüşləri zamanı şəhid olub. Goranboy rayonunda dəfn olunub.

Orxan Cümşüdov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Cumuzadə Təbriz İldırım oğlu** 2000-ci il fevralın 26-da Oğuz rayonunun Xaçmaz kəndində anadan olub.

Əsgər Təbriz Cumuzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Təbriz Cumuzadə noyabrın 8-dən 9-na ötən gecə Şuşa-Xankəndi istiqamətində gedən döyüşlər zamanı düşmənin snayperdən atəş açması nəticəsində şəhid olub. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Təbriz Cumuzadə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Cuvarov Tural Zahid oğlu** 1996-cı il mayın 1-də Şəmkir rayonunun Ələsgərli kəndində anadan olub.

Əsgər Tural Cuvarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Cuvarov oktyabrın 26-da Qubadlı döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunda dəfn olunub.

Tural Cuvarov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Çələbili Vüqar Fərəcullah oğlu** 30 aprel 1993-cü ildə Ağdaş rayonunun Nehrəxəlil kəndində anadan olub.

Əsgər Vüqar Çələbili 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Qubadlının və Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Vüqar Çələbili 5 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib və tapıldıqdan sonra 14 dekabr 2020-ci ildə Ağdaş rayonunun Nehrəxəlil kənd qəbiristanlığında torpağa tapşırılıb.

Vüqar Çələbili ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dadaşlı Orxan Elxan oğlu** 1997-ci il yanvarın 25-də Lənkəran rayonunun Darquba kəndində anadan olub.

Əsgər Orxan Dadaşlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Dadaşlı noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Orxan Dadaşlı ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Dadaşov Əjdər Pənah oğlu** 1996-cı il noyabrın 12-də Salyan rayonunun Xələc kəndində anadan olub.

Kiçik çavuş Əjdər Dadaşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əjdər Dadaşov sentyabrın 29-da Suqovuşan döyüşləri zamanı şəhid olub.

Əjdər Dadaşov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dadaşov Elvin İmanqulu oğlu** 14 avqust 1993-cü il Neftçala şəhərinin Qoltuq yaşayış məntəqəsində anadan olub.

Gizir Elvin Dadaşov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı iki dəfə yaralanmasına baxmayaraq döyüşlərə yenidən qatılıb.

Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Xocavənd və Şuşanın alınmasında qəhrəmanlıq nümunələri göstərib. Noyabrın 6-da Şuşada şəhidlik zirvəsinə ucalıb. Noyabrın 19-da Nefçala rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dadaşov Əzizağa Ramis oğlu** 1 iyul 1994-cü ildə Sumqayıt şəhərinin Corat qəsəbəsində dünyaya göz açıb.

Əsgər Dadaşov Əzizağa Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 19 oktyabrda Füzulinin Yarəhmədli kəndi uğrunda gedən döyüşlərdə şəhid olub. 26 yaşlı şəhidimiz Əzizağa Dadaşov Sumqayıtın Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dadaşov Nurlan Səyyad oğlu** 2001-ci il sentyabrın 27-də Kürdəmir rayonunun Qarasaqqal kəndində anadan olub.

Əsgər Nurlan Dadaşov anadan olduğu gün – sentyabrın 27-də XTQ kimi döyüşlərə qatılıb. Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. Oktyabrın 2-də Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhidlik zirvəsinə ucalıb. Nəşi elə həmin gün Kürdəmir Şəhər Mərkəzi Xəstəxanasına gətirilib və oktyabrın 4-də torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin alınmasına görə" medalları ilə təltif edildi.





**Dadaşov Orxan Vaqif oğlu** 1996-cı il fevralın 25-də Ağdam rayonunun Mirəşelli kəndində anadan olub.

Əsgər Orxan Dadaşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Dadaşov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Orxan Dadaşov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.




**Dadaşov Seyfəddin Məhiyyəddin oğlu** 1999-cu il martın 8-də Beyləqan rayonunda anadan olub.

Əsgər Seyfəddin Dadaşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə qoşulub.

Suqovuşan istiqamətində gedən döyüşlərdə fəal iştirak edib.

Oktyabrın 31-də Suqovuşanda gedən şiddətli döyüşlərdə şəhid olub. Beyləqan rayonunun Mayak kəndində dəfn edilib.



**Dadaşov Zaur Zümrüd oğlu** 1997-ci il dekabrın 5-də Rusiya Federasiyasının Surqut şəhərində anadan olub.

Əsgər Zaur Dadaşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

12 oktyabr saat 12:00-13:00 radələrində Füzuli rayonunun Horadiz kəndi uğrunda gedən döyüşlərdə yüksək şücaət göstərib və qəhrəmancasına vuruşub, düşmən snayperindən açılan atəş nəticəsində şəhid olub.

Zaur Dadaşov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dadaşzadə Hüseyin Zülfüqar oğlu** 1996-cı ilin mayın 27-də Kəndoba kəndində anadan olub.

Əsgər Hüseyin Dadaşzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə könüllü olaraq qatılıb, Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı, Şuşa istiqamətindəki döyüşlərdə xüsusi qəhrəmanlıq göstərib. Noyabrın 5-də Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhid olub. Vətən müharibəsində göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Dadaşzadə Kənan Elman oğlu** 2001-ci il iyunun 1-də Beyləqan rayonunun Örənqala qəsəbəsində anadan olub.

Əsgər Dadaşzadə Kənan 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək sentyabrın 29-da Talış kənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Kənan Dadaşzadə ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dadaşzadə Mahir Qərib oğlu** 1993-cü il sentyabrın 1-də Beyləqan rayonunun Allahyarlı kəndində anadan olub.

Baş leytenant Mahir Dadaşzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovun, Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mahir Dadaşzadə Vətən müharibəsində 20-dən çox yaralı hərbçini döyüş meydanından çıxarıb. Oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonu Şəhidlər Xiyabanında dəfn olunub.

Mahir Dadaşzadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medallarıyla təltif edildi.



**Dadaşzadə Yalçın İsmayıl oğlu** 1993-cü il iyunun 10-da Beyləqan rayonunun Mayaq qəsəbəsində anadan olub.

Gizir Yalçın Dadaşzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Yalçın Dadaşzadə sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

Yalçın Dadaşzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dadıyev Elnur Cəlal oğlu** 06 mart 1998-ci ildə Lerik rayonunun Buruq kəndində anadan olub.

Əsgər Elnur Dadıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Füzuli və Xocavənd uğrunda gedən ağır döyüşlərdə böyük şücaət və qəhrəmanlıqlar göstərib. Düşmənə sarsıdıcı zərbələr endirən və xeyli sayda canlı qüvvəsini məhv edən Elnur 26 oktyabr 2020-ci il tarixində Füzuli istiqamətində gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olur. Şəhidin nəşi Bakı şəhərinə gətirilib və 28 oktyabrda Zabrat 1 qəbiristanlığında torpağa tapşırılıb.

O, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.






**Daşdəmirov Elfak Eltun oğlu** 1996-cı il aprelin 26-da Qazax rayonunun Fərəhli kəndində anadan olub.

Əsgər Elfak Daşdəmirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elfak Daşdəmirov oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub. Qazax rayonunda dəfn olunub.

Elfak Daşdəmirov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Daşdəmirov Elmar Seymur oğlu** 2001-ci il noyabrın 23-də Salyan Rayonun Qarabağlı kəndinə anadan olub.

Əsgər Elmar Daşdəmirov 2020-ci il sentyabrin 27-də başlanan Vətən müharibəsi zamanı Goranboy rayonu istiqamətində gedən döyüşlərdə vuruşub. Oktyabrın 19-da həmin döyüşlərin birində düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Nəşi Salyan rayonunun Qarabağlı kəndinə gətirilib. Şəhidimizin cənazəsi böyük izdihamla qarşılanıb. Sonra şəhidimiz Qarabağlı Kənd Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Daşdəmirov Orxan Rəfail oğlu** 2001-ci il fevralın 27-də Xaçmaz rayonunun Hülövlü kəndində anadan olub.

Əsgər Orxan Daşdəmirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Orxan Daşdəmirov sentyabrın 28-də Murovdağ döyüşləri zamanı şəhid olub. Xaçmaz rayonunda dəfn olunub.

Orxan Daşdəmirov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Daşdəmirov Taleh Fərhad oğlu** 1998-ci il fevralın 5-də Şəki rayonunun Qoxmuq kəndində anadan olub.

Əsgər Taleh Daşdəmirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Taleh Daşdəmirov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 26.12.2020-ci il tarixində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Daşdəmirov Rəvan Məzahir oğlu** 6 mart 1994-cü ildə Gəncə şəhərində zəhmətkeş bir ailədə anadan olub.

Əsgər Rəvan Daşdəmirov 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başladıqda Ana torpağın müdafiəsinə yollanıb. Füzuli, Qubadlı, Zəngilan rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə cəsurluq və şücaət göstərib. Oktyabr ayının 27-də Qubadlı istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dəmirçiyev Tural Rafail** 1992-ci il oktyabrın 1-də Bakı şəhərində anadan olub.

Əsgər Tural Dəmirçiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 5-də Füzuli istiqamətində şəhid oldu.

Tural Dəmirçiyev ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Elşən Gündüz oğlu Dəmirli** 15 oktyabr 1998-ci ildə Qəbələ rayonunun Nic qəsəbəsində dünyaya göz açıb.

Əsgər Elşən Dəmirli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Ağdamın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 28 sentyabr 2020-ci ildə Ağdam istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Elşən Dəmirli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Dəmirov Ədalət Nüsrət oğlu** 2001-ci il noyabrın 9-da Göyçay rayonunun Aşağı Qaraməryəm kəndində anadan olub.

Əsgər Ədalət Dəmirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabrın 2-də həmin döyüşlərin birində şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Dəmirov Həsən Turan oğlu** 1994-cü il dekabrın 1-də Cəlilabad rayonunun Muğan kəndində anadan olub.

Baş əsgər Həsən Dəmirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Həsən Dəmirov sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Cəlilabad rayonunun Muğan kəndində dəfn olunub.

Həsən Dəmirov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dəmirov Siyahim Əlizamin oğlu** 1990-cı il sentyabrın 13-də Beyləqan rayonunun Əlinəzərli kəndində anadan olub.

Kiçik gizir Siyahim Dəmirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Siyahim Dəmirov oktyabrın 29-da Şuşa istiqamətində şəhid olub. Beyləqan şəhərində dəfn olunub.

Siyahim Dəmirov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dəmirov Vüsal Aydın oğlu** 1993-cü il sentyabrın 10-da İmişli şəhərində anadan olub.

Çavuş Vüsal Dəmirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal Dəmirov oktyabrın 5-də Füzuli döyüşləri zamanı şəhid olub.

Vüsal Dəmirov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dənziyev Orxan Mübariz oğlu** 2002-ci il iyulun 18-də Lerik rayonunun Laman kəndində anadan olub.

Əsgər Orxan Dənziyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Orxan Dənziyev oktyabrın 12-də Ağdam istiqamətində şəhid olub. Lerik rayonunda dəfn olunub.

Orxan Dənziyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Dostuyev Elçin Murad oğlu** 18 fevral 2002-ci ildə Samux rayonunda dünyaya gəlib.

Əsgər Elçin Dostuyev 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlanan zaman torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. 13 oktyabr 2020-ci ildə qəhrəmancasına döyüşərək şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Dövlətli İskəndər Vüqar oğlu** 24 sentyabr 1992-ci ildə Lerik rayonunun Soru kəndində anadan olub.

Gizir Sahil Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə vuruşub.

İskəndər Dövlətli ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dövlətov Zaur Zahid oğlu** 1995-ci il martın 9-da anadan olub.

Əsgər Zaur Dövlətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Zaur Dövlətov noyabrın 9-da Şuşa döyüşləri zamanı yaralanıb. Onun yaralanmasından saatlar sonra hərbi əməliyyatların dayandırılması haqda razılaşma əldə olunub. Təəssüf ki, Zaurun yarası ağır olduğundan həkimlər onu xilas edə bilməyiblər, cəsur döyüşçü noyabrın 12-də xəstəxanada canını vətəninə tapşırıb.

O, ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.



**Dövlətzadə Cəbrayıl Dövlət oğlu** 2001-ci il sentyabrın 11-də Sumqayıt şəhərində anadan olub.

Əsgər Cəbrayıl Dövlətzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Cəbrayıl Dövlətzadə sentyabrın 28-də Murovdağ döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Cəbrayıl Dövlətzadə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Dünyamalıyev Ceyhun Zeynal oğlu** 1996-cı il oktyabrın 15-də Culfa şəhərində anadan olub.

Leytenant Ceyhun Dünyamalıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində, həmçinin Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ceyhun Dünyamalıyev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Culfa şəhərində dəfn olunub.

Ceyhun Dünyamalıyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dünyamalıyev Elşən Mübariz oğlu** 1997-ci il aprelin 6-da Gəncə şəhərində anadan olub.

Əsgər Elşən Dünyamalıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elşən Dünyamalıyev sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Elşən Dünyamalıyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dursunov Fərid Fazil oğlu** 1986-cı il iyulun 26-da Qax rayonunun Qorağan kəndində anadan olub.

Kapitan Fərid Dursunov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonunun Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Fərid Dursunov sentyabrın 28-də Murovdağ döyüşləri zamanı şəhid olub. Qax rayonunun Qorağan kəndində dəfn olunub.

Fərid Dursunov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Dursunov Zeynalı Əlləz oğlu** 16 mart 1999-cu ildə Saatlı rayonunun Fətəlikənd qəsəbəsində doğulub. Əslən Axıska türklərindəndir.

Əsgər Zeynalı Dursunov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb. Oktyabrın 15-də Füzuli ərazisindəki döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.

**Əbdülov Elnur Qədir oğlu** 23.02.2002- ci ildə Astara rayon Ağkörpu kəndində anadan olub.

2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsi zamanı Kəlbəcərin, Cəbrayılın, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

28.09.2020-ci ildə Göygöl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

Elnur Əbdülov ölümündən "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə" medalları ilə təltif edildi.



**Əbdürrəhmanlı Sabir Faiq oğlu** 1998-ci il martın 9-da Sumqayıt şəhərində anadan olub.

Çavuş Sabir Əbdürrəhmanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sabir Əbdürrəhmanlı oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Sabir Əbdürrəhmanlı ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əbdürrəhimli Habil Qabil oğlu** 1997-ci il sentyabrın 26-da Şəmkir rayonunun Sabirkənd kəndində anadan olub.

Leytenant Habil Əbrürrəhimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Habil Əbrürrəhimli noyabrın 8-də Zəngilan döyüşləri zamanı Ağbənd istiqamətində snayper gülləsi nəticəsində şəhid olub. Şəmkir rayonunda dəfn olunub.

Habil Əbrürrəhimli ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda","Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əbilov Kamal Vidadi oğlu** 1996-cı il mayın 17-də Şərur rayonunun Oğlanqala kəndində anadan olub.

Leytenant Kamal Əbilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Kamal Əbilov sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub. Şərur şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Kamal Əbilov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə","Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əbilov Nurlan Fərrux oğlu** 2 avqust 1994-cü ildə Masallı rayonunun Ağakişibəyli kəndində anadan olub.

Nurlan Əbilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. 8 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığını yerinə yetirərkən baş nahiyəsindən ağır yaralanıb və Silahlı Qüvvələrin Baş Klinik Hospitalına yerləşdirilib.

Nurlan Əbilov 19 aprel 2021-ci ildə müalicə aldığı Silahlı Qüvvələrin Baş Klinik Hospitalında şəhid olub. Nəşi Masallı rayonunun Şərəfə kəndində torpağa tapşırılıb.

Nurlan Əbilov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Ədilov Səid Həsən oğlu** 5 noyabr 1994-ci ildə Bərdə rayonu Cəyirli kəndində dünyaya göz açıb.

Əsgər Ədilov Səid 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsinə könüllü yollanıb.

Səid Həsən oğlu Ədilov "Vətən uğrunda", Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülüb.



**Sübhan Arif oğlu Əbilzadə** 1998-ci il aprelində 23-də Biləsuvar rayonunun Nərimankənd kəndində anadan olub.

Kiçik çavuş Sübhan Əbilzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sübhan Əbilzadə noyabrın 6-da Qubadlı döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunun Nərimankənd kəndində dəfn olunub.

Sübhan Əbilzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Əfəndiyev Adil Qədir oğlu** 1995-ci il avqustun 12-də Qazax rayonunda anadan olub.

Adil Əfəndiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə yaralanan hərbçilərə yerindəcə yardım edib. Adil Əfəndiyev oktyabrın 22-də Xocavənd döyüşləri zamanı şəhid olub. Qazax rayonunda dəfn olunub.

Adil Əfəndiyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Əfəndiyev Nurlan Mürvət oğlu** 8 oktyabr 1995-ci ildə Oğuz rayonunun Xalxalqışlaq kəndində anadan olub.

Nurlan Əfəndiyev 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Murovdağ döyüşlərində savaşıb. Nurlan Əfəndiyev oktyabrın 6-da Murovdağ döyüşlərində qəhrəmancasına vuruşaraq şəhid olub. Nurlan Əfəndiyev oktyabrın 7-də Xalxalqışlaq kəndində dəfn olunub.


Nurlan Əfəndiyev ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Əhədli Baloğlan Şakir oğlu** 10 yanvar 2002-ci ildə Lənkəran rayonunun Gəgiran kəndində anadan olub.

Əsgər Baloğlan Əhədli 27 sentyabr 2020-ci ildə II Qarabağ müharibəsi başladığı zaman Baloğlan döyüşə qatılır. Qəhrəman əsgərin döyüş yolu Suqovuşan istiqamətindən başlayır. Daha sonra Füzuli, Cəbrayıl və Şuşa istiqamətlərində gedən ağır döyüşlərdə iştirak edir, bir sıra strateji yüksəkliklərin alınmasında yüksək fədakarlıq və şücaət göstərir. Qəhrəman Baloğlan 7 noyabr tarixində Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub. Şəhidin nəşi Gəgiran kəndinə gətirilib torpağa tapşırılır.

O, ölümündən sonra "Vətən uğrunda","Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Əhədov Mehrac İntiqam oğlu** 1999-cu il oktyabrın 30-da Şamaxı rayonunda dünyaya göz açıb. O, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

21.10.2020-ci ildə Füzuli rayonu Gecəgözlü kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub.



**Tural Rahil oğlu Əhədov** 12 oktyabr 1993-cü ildə Lerik rayonunun Çökərə kəndində anadan olub.

Baş leytenant Tural Əhədov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib. Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə vuruşub və düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Tural Əhədov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhədzadə Elsevər Ağacan oğlu** 3 iyul 1995-ci ildə Bakı şəhərində anadan olub.

27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılıb. Cəbrayıl-Füzuli istiqamətində aparılan əməliyyatlarda iştirak edib. 21.10.2020-ci il tarixində Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Elsevər Əhədzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhədzadə İlkin Qələmşah oğlu** 1985-ci il iyunun 26-da Bakı şəhərində anadan olub.

Mayor İlkin Əhədzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. İlkin Əhədzadə sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

İlkin Əhədzadə ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**İmaməli Əhədzadə Şəvəqqət oğlu** 1994-cü il avqustun 24-də Lənkəran şəhərində anadan olub.

İmaməli Əhədzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə savaşıb.

İmaməli Əhədzadə oktyabrın 4-ü qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucaldı.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əhmədəliyev Kərim Rövşən oğlu** 1998-ci il iyunun 12-də Sumqayıt şəhərində anadan olub.

Əsgər Kərim Əhmədəliyev 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kərim Əhmədəliyev oktyabrın 4-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Kərim Əhmədəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Əhmədli Aydın Mustafa oğlu** 2002-ci il martın 12-də Şəki rayonunun Orta Zəyzid kəndində anadan olub.

Əsgər Aydın Əhmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Aydın Əhmədli oktyabrın 9-da Füzuli döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunun Qandax kəndində torpağa tapşırılıb.

Aydın Əhmədli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Əhmədli Elməddin Gülverən oğlu** 1996-cı il yanvarın 28-də Biləsuvar rayonunun Təzəkənd kəndində anadan olub.

Çavuş Elməddin Əhmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elməddin Əhmədli sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunun Təzəkənd kəndində dəfn olunub.

Elməddin Əhmədli ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədli Elşən Elbrus oğlu** 11 iyul 1997-ci ildə Oğuz rayonunda anadan olub.

Əsgər Elşən Əhmədli 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzuli döyüşlərində və Şuşa uğrunda gedən döyüşlərdə savaşıb. Elşən Əhmədli noyabrın 7-də Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Elşən Əhmədli noyabr ayının 17-də Oğuz Şəhidlər Xiyabanında dəfn olunub.

Elşən Əhmədli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədli Əhməd Anar oğlu** 20.11.2001-ci ildə Sabirabad rayonunda dünyaya gəlib.

Əsgər Əhməd Əhmədli 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı döyüşlərdə savaşıb.

Oktyabrın 1-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Vətən uğrunda" medallarıyla təltif edildi.





**Əhmədli Qardaşxan Elxan oğlu** 12 mart 1996-cı ildə Lənkəran rayonunun Osakücə kəndində anadan olub.

Qardaşxan Əhmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Ağdam, Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib.

Qardaşxan noyabr ayının 7-dən 8-nə keçən gecə Xocavənddə yerləşən Nərgiz təpə istiqamətində gedən ağır döyüşlər zamanı itkin düşüb. Dekabr ayının 19-da Qardaşxanın şəhid olduğu bilinib və nəşi Bakı şəhərinə gətirilib, səhərisi gün böyük izdihamla Binə qəsəbəsində yerləşən Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Qardaşxan Elxan oğlu Əhmədli ölümündən sonra "Xocavəndin azad olumasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Əhmədli Nurlan Rəhim oğlu** 12 oktyabr 1996-cı ildə Oğuz rayonunun Xaçmaz kəndində anadan olub.

Əsgər Nurlan Əhmədli 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzuli döyüşlərində savaşıb. Nurlan Əhmədli oktyabrın 6-da Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Nurlan Əhmədli oktyabr ayının 27-də Oğuz rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.

Nurlan Əhmədli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şahid Gülməmməd oğlu Əhmədli** 1992-ci il oktyabrın 17-də Saatlı rayonunun Qaracalar kəndində anadan olub.

Leytenant Şahid Əhmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şahid Əhmədli oktyabrın 12-də Talış döyüşləri zamanı snayper gülləsi nəticəsində şəhid olub. Saatlı rayonunda dəfn olunub.

Şahid Əhmədli ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi.

Şahid Əhmədli ölümündən sonra "Vətənə xidmətə görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Əhmədov Abdulla Əhməd oğlu** 2002-ci il martın 12-də Sumqayıt şəhərində anadan olub.

Abdulla Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talışın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Abdulla Əhmədov sentyabrın 29-da Talış istiqamətində şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Abdulla Əhmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Əhmədov Amal Rauf oğlu** 1996-cı il mayın 3-də Rusiya Federasiyasının Tver şəhərində anadan olub.

Amal Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amal Əhmədov oktyabrın 13-də Füzuli döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Amal Əhmədov ölümündən sonra "Vətən uğrunda","Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov Asif Vasif oğlu** 2001-ci il aprelin 4-də Şəki rayonunun Oxud kəndində dünyaya gəlib.

Əsgər 27 sentyabr 2020-ci ildə Vətən müharibəsinə qatılan Asif, Füzuli və Xocavənd uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib. Oktyabrın 21-i Füzulinin Gecəgözlü kəndində şəhidlik zirvəsinə yüksəlib.

Asif Əhmədov oktyabrın 25-də Şəki rayonunun Oxud kənd qəbiristanlığının şəhidlər üçün ayrılmış hissəsində dəfn olunub.

Ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov Ayaz Elson oğlu** 2002-ci il martın 4-də Göyçay rayonunun İkinci Ərəbcəbirli kəndində anadan olub.

Əsgər Ayaz Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Ayaz Əhmədov 6 oktyabrdan 7 oktyabra keçən gecə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Göyçay rayonunun İkinci Ərəbcəbirli kəndində dəfn olunub.

Ayaz Əhmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əhmədov Bəhruz Səttar oğlu** 27.06.1997-ci ildə rayonun Balakənd kəndində anadan olub.

Əsgər Bəhruz Əhmədov sentyabrın 28-də Bakıdan Sabirabada gələrək könüllü cəbhəyə yola düşdü. "Arzularım sonsuzdur, qayıda bilsəm", – deyirdi. Şəhid olmağa hazır idi, Bəhruz.

Qaydasız doyüşdə heç vaxt məğlub olmayan, Azərbaycanın bayrağına bürünərək rinqin ali kürsüsünə çıxan cəsur, mərd, dəyanətli, dönməz olduğu qədər də mehriban, səmimi, insanpərvər Bəhruz elə o bayraqla da oktyabrın 19-da Qubadlının alınması uğrunda gedən döyüşlər zamanı şəhid olaraq canı qədər sevdiyi Sabirabadına qayıtdı . Bu dəfə müqəddəs amal uğrunda qələbə çalan şəhid kimi...

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Əhmədov Cavanşir Elxan oğlu** 2001-ci il may ayının 6-sı Xırdalan şəhərində anadan olub.

2020-ci ilin 4 noyabr tarixində Laçın rayonunun Səfiyan kəndində vuruşub, hətta qolundan yaralansa belə, yarasını sarıyıb, yenidən döyüşə davam edib. Yaralı olduğu halda döyüş yoldaşına kömək etmək istəyərkən, güllə böyrək nahiyəsinə tuş gəlib və Cavanşir Əhmədov şəhid olub. Cavanşir Əhmədovun nəşi 26 noyabr 2020-ci il tarixində ailəsinə təhvil verilib və böyük izdihamla Bərdə rayonunun Alpoud kəndində dəfn edilib.

Cavanşir Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Əhmədov Cavanşir Xeyrulla oğlu** 12 noyabr 1999-cu ildə Qaradağ rayonu Ələt qəsəbəsində anadan olub.

Gizir Cavanşir Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı ön cəbhədə vuruşub. Cavanşir ilk öncə Murovdağ zirvəsinin, Cəbrayıl, Zəngilan rayonlarının və Hadrut qəsəbəsinin düşməndən azad olunmasında fəal iştirak edib. Xocavənd döyüşlərində də iştirak edən Cavanşir, 15 oktyabr tarixində şəhid olub.

Cavanşir Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov Əhmədxan Məzahir oğlu** 1999-cu il fevralın 1-də Daşkəsən rayonunun Quşçu kəndində anadan olub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə könüllü olaraq qatılıb. Şuşa istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Əhmədov Ehtiram Teyyub oğlu** 2001-ci il martın 26-da Zaqatala rayonunun Yeni Suvagil kəndində anadan olub.

Ehtiram Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan, Xocavənd, Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Ehtiram Əhmədov oktyabrın 15-də Füzuli döyüşləri zamanı ağır yaralanıb. Uzun müddət Bakı şəhərində Mərkəzi Hərbi Hospitalda komada olub. Noyabrın 9-da şəhid olub. Zaqatala rayonunun Yeni Suvagil kəndində torpağa tapşırılıb.

Ehtiram Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə","Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.

**Əhmədov Əli İlqar oğlu** 1993-cü il yanvarın 5-də Mingəçevir şəhərində anadan olub.

Kiçik çavuş Əli Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əli Əhmədov sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Sentyabrın 27-də Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Əli Əhmədov ölümündən sonra "Vətən uğrunda","Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov Elmar Elşən oğlu** 2000-ci il iyunun 28-də Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində anadan olub.

Əsgər Elmar Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Elmar Əhmədov oktyabrın 14-də Füzuli döyüşləri zamanı şəhid olub. Nəşi uzun müddət götürülə bilməyib. Noyabrın 19-da Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində torpağa tapşırılıb.

Elmar Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov Emil Bahadur oğlu** 1983-cü il noyabrın 26-da Zəngilan şəhərində anadan olub.

Gizir Emil Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Emil Əhmədov oktyabrın 31-də Zəngilan döyüşləri zamanı şəhid olub.

Emil Əhmədov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə","Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsgər Əhmədkişi oğlu Əhmədov** 1990-cı il noyabrın 9-da Quba rayonunun Bərqov kəndində anadan olub.

Baş çavuş Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əsgər Əhmədov oktyabrın 5-də Cəbrayıl döyüşləri zamanı şəhid olub.

Əsgər Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əhmədov İlqar Xəqani oğlu** 18 mart 1999-cu ildə Kürdəmir rayonunun İsmayıllı kəndində dünyaya gəlib.

Əsgər İlqar Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. İlqar Əhmədov noyabrın 3-də Xocavənd rayonunda gedən döyüşdə alıdığı qəlpə yarası nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda","Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov İslam İlqar oğlu** 1994-cü il sentyabrın 19-da Mingəçevir şəhərində anadan olub.

Əsgər İslam Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İslam Əhmədov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

İslam Əhmədov sentyabrın 28-də Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

İslam Əhmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əhmədov Kənan Ləzgi oğlu** 1995-ci il fevralın 15-də Sumqayıt şəhərində anadan olub.

Əsgər Əhmədov Kənan əslən Qərbi Azərbaycanlıdır. Vətən müharibəsi başlanan zaman Səfərbərlik xidməti tərəfindən döyüşlərə yollanıb. Kənan torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Kənan Əhmədov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov Mahmud Fərman oğlu** 1989-cu il avqustun 2-də Ağstafa rayonunda anadan olub.

Əsgər–MAHHXHQ Mahmud Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə qoşulub. Müharibənin ilk günü Tərtər istiqamətində gedən döyüşlərdə tankı düşmən tərəfindən vurulub və yaralanıb. Oktyabrın 18-dək Bərdə Rayon Xəstəxanasında müalicə alıb. Müalicəsini yarımçıq qoyaraq yenidən döyüşlərə qatılıb. Noyabrın 3-də Laçın rayonu istiqamətində gedən şiddətli döyüşlərdə Mahmud Əhmədovun idarə etdiyi tank düşmən tərəfindən vurulub və o, şəhid olub. Ağstafa Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Mahmud Əhmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Əhmədov Mənsur Mamed oğlu** 2002-ci il martın 6-da anadan olub. Laçın rayonunun Çıraqlı kəndindəndir.

2020-ci ilin aprel ayında həqiqi hərbi xidmətə çağırılıb və Daxili Qoşunlarda xidmətə başlayıb. Sentyabrın 27-də başlanan II Qarabağ savaşının ilk günlərindən cəbhədə olub. Füzuli, Cəbrayıl, Xocavənd rayonları istiqamətində döyüşlərdə iştirak edib. Oktyabrın 21-də Düdüklü kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

Ölümündən sonra "Vətən uğrunda", Cəbrayıl, Xocavənd və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov Mərhəmət Adil oğlu** 1991-ci il mayın 14-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Oğuz kəndində doğulub.

Əsgər Əhmədov Mərhəmət Adil oğlu Vətən müharibəsində canını fəda edən oğullardan biri olub. Füzulinin, Hadrutun azad olunması uğrunda odlu-alovlu cəbhəyə atıldı, Daşaltının, Tuğ kəndinin işğaldan azad olunmasında cəsarətlə döyüşüb. Oktyabrın 25-i Şuşa istiqamətinə doğru irəliləyərkən şəhidlik məqamına yüksəlib.

Mərhəmət Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Əhmədov Mikayıl Hümbət oğlu** 1993-cü il iyulun 24-də Qəbələ rayonunun Savalan kəndində anadan olub.

Əsgər Mikayıl Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Azərbaycanın işğalda olan torpaqlarının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mikayıl Əhmədov noyabrın 3-də Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Mikayıl Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Əhmədov Mirmöhsüm Mirdaməd oğlu** 21 yanvar 2002-ci ildə Neftçala rayonuda anadan olub.

Mirmöhsüm 13 iyul 2020-ci ildə həqiqi hərbi xidmətə yollanıb və 27 sentyabrda başlanan İkinci Qarabağ müharibəsində iştirak edib. O, Füzuli, Xocavənd və Qubadlı istiqamətində gedən döyüşlərdə şücaət göstərmiş, öz yaralı döyüş yoldaşını çiyinləri üzərində ərazidən uzaqlaşdıran zaman ermənilər tərəfindən snayper vasitəsilə vurularaq, 28 oktyabrda Qubadlı uğrunda gedən döyüşlərdə qəhərmancasına şəhid olub. O, doğulub boya-başa çatdığı Neftçala rayonunda torpağa tapşırılıb.

Mirmöhsüm Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalıları ilə təltif edildi.





**Əhmədov Natiq Namiq oğlu** 1997-ci il martın 9-da Xəzər rayonunun Binə qəsəbəsində anadan olub.

Çavuş Natiq Əhmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Natiq Əhmədov oktyabrın 11-də Hadrut döyüşləri zamanı şəhid olub. Binə Şəhidlər Xiyabanında dəfn olunub. Yaxınlarının sözlərinə görə, Natiq şəhid olarkən son sözü "Gedirəm anamın yanına" olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov Nicat Həsən oğlu** 1998-ci il sentyabrın 22-də Bakı şəhərində anadan olub.

Əsgər Nicat Əhmədov 2020-ci il 27 sentyabrda hərbi əməliyyatlar başlayan gündən döyüşlərdə iştirak edib. Müharibə dövründə ailəsinin ondan nigaran qalmamasına çalışırdı, daim valideynlərini əmin edirdi ki, yaxşıdır və qalib gələrək geri qayıdacaq.

Nicat Əhmədovun ailəsi ilə son əlaqəsi 2020-ci il oktyabrın 6-da oldu. Həmin gün yenə ailəsini əmin etdi ki, heç nədən narahat olmasınlar. 2020-ci il oktyabrın 8-də səhər saatlarında Füzuli, Cəbrayıl istiqamətlərində gedən döyüşlərdə qəhrəmancasına Şəhid oldu. Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əhmədov Nihad Fuad oğlu** 7 sentyabr 2000-ci ildə anadan olub.

Müharibənin ilk günündən qanlı döyüşlərdə qəhrəmanlıq göstərir. Həmlə taborunda qranatamyot, iri çaplı pulemyot atıcısı olub. Sərrast atışları ilə düşmən mövqelərini və hədəflərini yerlə bir edib.

Son dəfə ailəsi ilə telefonda oktyabrın 9-da danışıb. Şəhid Nihad Əhmədov Talış kəndinin, Murovdağ yüksəkliyinin düşməndən azad olunmasında qərhəmancasına döyüşüb. Suqovuşanın alınması istiqamətində gedən şiddətli döyüşlərdə şəhadətə yüksəlib.

Nihad Əhmədov ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Əhmədov Qalib Rəşid oğlu** 10 sentyabr 2001-ci ildə Şəki rayonu Əliyar kəndində anadan olub.

Əsgər Əhmədov Qalib Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Talış kəndinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Sentyabrın 29-da Talış kənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın" azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.

**Əhmədov Rəşad Ələkbər oğlu** 2002-ci il iyunun 17-də Şəki rayonunda dünyaya gəlib.

Əsgər Rəşad Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

O, Oktyabrın 1-də Goranboy rayonu Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

Rəşad Əhmədov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Əhmədov Rəvan Yafət oğlu** 2002-ci il fevralın 25-də Quba rayonunun Əlibəyqışlaq kəndində anadan olub.

Əsgər Rəvan Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Rəvan Əhmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.



**Əhmədov Sabir Səfər oğlu** 1989-cu il iyunun 14-də Beyləqan rayonunun Qəhrəmanlı kəndində anadan olub.

Əsgər Sabir Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd və Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Sabir Əhmədov oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunun Qəhrəmanlı kəndində torpağa tapşırılıb.


Sabir Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov Səbuhi Ziyafət oğlu** 2002-ci il iyunun 6-da Hacıqabul rayonu Muğan qəsəbəsində anadan olub.

Əsgər Səbuhi Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı şücaətlə döyüşüb. 10.11.2020-ci il tarixdə Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə", və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.






**Əhmədov Sənan Qalasən oğlu** 1988-ci il fevralın 15-də Şamaxı rayonunun Bağırlı kəndində anadan olub.

Əsgər Sənan Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə tankçı kimi iştirak edib.

Sənan Əhmədov oktyabrın 11-də Füzuli döyüşləri zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Sənan Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Əhmədov Səyadulla Rasim oğlu** 29 dekabr 1998-ci ildə Cəlilabad rayonu Cəfərxanlı kəndində anadan olub.

Əsgər Səyadulla Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Səyadulla Əhmədov 2 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Səyadulla Əhmədov ölümündən sonra "Vətən uğrunda","Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov Tacir Mehdi oğlu** 2001-ci il aprelin 20-də Kürdəmir rayonunun Qarabucaq qəsəbəsində anadan olub.

Tacir Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tacir Əhmədov oktyabrın 20-də Xocavənd döyüşləri zamanı şəhid olub. Binəqədi rayonunda dəfn olunub.

Tacir Əhmədov ölümündən sonra "Vətən uğrunda","Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov Tural İzətulla oğlu** 2001-ci il iyunun 5-də Qusar rayonunun Mucuq kəndində anadan olub.

Tural Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Əhmədov oktyabrın 23-də Füzuli döyüşləri zamanı şəhid olub. Qusar rayonunda dəfn olunub.

Tural Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Əhmədov Vidadi Murad oğlu** 1979-cu il iyulun 12-də Salyan şəhərində anadan olub.

Mayor Vidadi Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vidadi Əhmədov oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub. Salyan şəhərində dəfn olunub.

Vidadi Əhmədov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" medalları ilə təltif edildi.




**Əhmədov Xəyal Hüseyn oğlu** 1994-cü il mayın 9-da Neftçala rayonunun Xıllı qəsəbəsində anadan olub.

Əsgər Xəyal Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyal Əhmədov noyabrın 4-də Qubadlı döyüşləri zamanı şəhid olub. Neftçala rayonunun Xıllı qəsəbəsində dəfn olunub.

Xəyal Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov Yasən Yelmar oğlu** 1974-cü il sentyabrın 16-da Ağdam rayonunun Kosalar kəndində anadan olub.

Baş gizir Yasən Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Yasən Əhmədov oktyabrın 9-da Talış döyüşləri zamanı ağır yaralanıb və Hərbi Hospitala aparılıb. 14 gün Koma vəziyyətində qaldıqdan sonra oktyabrın 23-də şəhid olub. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Yasən Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov Zamiq Çingiz oğlu** 1987-ci il noyabrın 16-da Göyçay rayonunun Ləkçılpaq kəndində anadan olub.

Əsgər Zamiq Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Zamiq Əhmədov sentyabrın 27-də Ağdam istiqamətində şəhid olub. Göyçay rayonunun Ləkçılpaq kəndində dəfn olunub.

Zamiq Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əhmədzadə Elməddin Uğur oğlu** 101.10.1996-cı ildə İmişli rayonunda anadan olub.

Elməddin Əhmədzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Elməddin Əhmədzadə sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

Elməddin Əhmədzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədzadə Famil Ağaəhməd oğlu** 23 sentyabr 1975-ci ildə Bakı şəhəri Xətai rayonunda dünyaya göz açıb.

Baş leytenant Famil Əhmədzadə 27 sentyabr 2020-ci ildə Vətən müharibəsinin başlaması ilə könüllü olaraq ordu sıralarına yazılıb.

Oktyabrın 13-dən 14-nə keçən gecə Talış kəndi və Suqovuşanda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhid Əhmədzadə Familin nəşi 3 noyabr tarixində əvvəlcə yaşadığı evə, daha sonra İsmayıllı rayonunun Şəhidlər Xiyabanına gətirilərək, şəhər sakinlərinin izdihamlı yürüşü ilə təntənəli surətdə dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədzadə Mürşüd Müdahil oğlu** 2000-ci ildə Tərtər rayonunun Evoğlu kəndində anadan olub. Mürşüd uşaqlığından nənəsinin yanında böyüyüb.

Əsgər Mürşüd Əhmədzadə 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində Suqovuşan və Talış kəndləri istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına iştirak edib. Suqovuşanda düşmənin xeyli sayda canlı qüvvəsinin məhv edilməsində onun da rolu olub. Sentyabrın 30-da axırıncı dəfə nənəsi ilə danışıb. Onun şəhid olması sonradan bilinib. Nəşi Suqovuşanda meşəlik ərazidən 54 gün sonra tapılıb.

O, ölümündən sonra"Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Əhmədzadə Rüfət Əbülfət oğlu** 15.10.2001-ci ildə Sumqayıt şəhərində dünyaya gəlib.

Əsgər Rüfət Əhmədzadə 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində şücaətlə döyüşüb.

Sentyabrın 29-da Tərtər-Ağdərə istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Eissavi Muhammad Mazen oğlu** 2002-ci il fevralın 18-də anadan olub.

Muhammad Eissavi 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Muhammad Eissavi noyabr ayının 9-da şəhid olub.

Muhammad Eissavi ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əjdərli Şamxal Marif oğlu** 1997-ci il dekabrın 17-də Şəmkir rayonunun Xuluf kəndində anadan olub.

Şamxal Əjdərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Şamxal Əjdərli oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunun Xuluf kəndində dəfn olunub.


Şamxal Əjdərli ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əjdərov Rəhman Rasim oğlu** 1997-ci il mayın 14-də Babək rayonunun Kalbaoruc Dizə kəndində anadan olub.

Leytenant Rəhman Əjdərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin, Laçının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rəhman Əjdərov noyabrın 9-də Şuşa döyüşləri zamanı şəhid olub.

Rəhman Əjdərov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əkbərli Rufan Elzabit oğlu** 1998-ci il yanvarın 6-da Şəmkir rayonunun Çaparlı kəndində anadan olub.

Əsgər Rufan Əkbərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Rufan Əkbərli oktyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunun Keçili kəndində dəfn olunub.

Rufan Əkbərli ölümündən sonra "Vətən uğrunda","Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əkbərov Əmrah Şahid oğlu** 1998-ci il Fevralın 21-də Lerik rayonunun Livədirqə kəndində anadan olub.

Leytenant Əmrah Əkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Əmrah Əkbərov oktyabrın 12-də Hadrut döyüşləri zamanı şəhid olub.

Əmrah Əkbərov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Əkbərov Həsən Raqub oğlu** 20 sentyabr 1997-ci ildə Ağdam rayonunun Eyvazxanbəyli kəndində anadan olub.

Əsgər Həsən Əkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Sentyabrın 27-də Kəlbəcər rayonunda şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əkbərov İbarət Faiq oğlu** 1993-cü il martın 21-də Yardımlı rayonunun Mirimli kəndində anadan olub.

Əsgər İbarət Əkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub.

İbarət Əkbərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əkbərov Mətləb Zülfiqar oğlu** 21 yanvar 2001-ci ildə Siyəzən rayonunun Yenikənd kəndində dünyaya göz açıb.

Mətləb Əkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 9 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Mətləb Əkbərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əkbərov Orxan Nadir oğlu** 1982-ci il dekabrın 12-də Saatlı şəhərində anadan olub.

Polkovnik-leytenant Orxan Əkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Əkbərov oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhid olub. Biləsuvar şəhərində dəfn olunub.

Orxan Əkbərova "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

Orxan Əkbərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əkbərov Rahil Canəhməd oğlu** 1991-ci il martın 1-də Sabirabad rayonunun Ətcələr kəndində anadan olub.

Kiçik çavuş Rahil Əkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rahil Əkbərov noyabrın 26-da Hadrut istiqamətində şəhid olub. Sabirabad rayonunun Ətcələr kəndində dəfn olunub.

Rahil Əkbərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əkbərov Vüqar Seyid oğlu** 1990-cı il sentyabrın 12-də Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində anadan olub.

Baş çavuş Vüqar Əkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüqar Əkbərov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Tovuz rayonunda dəfn olunub.

Vüqar Əkbərov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Əkbərov Qalib Əbdüləhəd oğlu** 2002-ci il aprelin 6-da Lənkəran rayonunun Kərgəlan kəndində anadan olub.

Əsgər Qalib Əkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Qalib Əkbərov sentyabrın 27-də Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Lənkəran rayonunun Kərgəlan kəndində dəfn olunub.

Qalib Əkbərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əkbərzadə Valeh Asim oğlu** 22.02.1997-ci il tarixində Lənkəran rayonu Boladi kəndində anadan olub.

05.11.2020-ci il tarixdə Şuşa rayonu ərazisində hərbi əməliyyatlar nəticəsində döş qəfəsinin hemopnevmoto-raksı, güllə yarası diaqnozu ilə şəhid olub.

Döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", Xocavəndin azad olunmasına görə", Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələkbərli Ələkbər Ramiz oğlu** 28 iyul 1991-ci ildə Tərtər rayonunun Köçərli kəndində dünyaya göz açmışdır.

Əsgər Ələkbər Ələkbərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. 29 sentyabr 2020-ci ildə Ağdərə istiqamətində gedən döyüşlərdə itkin düşüb. Uzun müddət axtarılan Ələkbər Ələkbərlinin nəşi tapıldıqdan sonra 7 fevral 2021-ci ildə Tərtər rayonunun Köçərli kənd qəbiristanlığında dəfn edilib.

Ələkbər Ələkbərli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ələkbərli Kənan Müşfiq oğlu** 1996-cı ildə rayonun Qızılhacılı qəsəbəsində anadan olub.

Çavuş Kənan Ələkbərli 2020-ci ilin sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə könüllü qatılıb, Suqovuşan-Ağdərə istiqamətindəki döyüşlərdə fəal iştirak edib. 9 oktyabr 2020-ci ildə həmin istiqamətdə gedən döyüşlərdə şəhid olub. Oktyabrın 11-də Qızılhacılı qəbiristanlığında – II Şəhidlər Xiyabanında dəfn olunub.

Kənan Ələkbərli "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Samir Şamil oğlu Ələkbərli** 2 iyul 2002-ci ildə Bərdə rayonunun Qaradəmirçi kəndində anadan olub.

Əsgər Samir Ələkbərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. 10 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Samir Ələkbərli ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Allahverdi Məzahir oğlu Ələkbərov** 1987-ci il fevralın 15-də Ucar şəhərində anadan olub.

Gizir Allahverdi Ələkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan və Hadrut qəsəbələrinin, həmçinin Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Allahverdi Ələkbərov oktyabrın 20-də Qubadlı döyüşləri zamanı ağır yaralanıb və noyabrın 11-də Mingəçevir şəhər Hərbi Hospitalında şəhid olub. Ucar şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Allahverdi Ələkbərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələkbərov Bağır Əsəd oğlu** 1995-ci il fevralın 10-da Naxçıvan şəhərində anadan olub.

Gizir Bağır Ələkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tehran Mənsimov tərəfindən idarə olunan qrupun heyətində olub. Bağır Ələkbərov Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb və 15 yaşayış məntəqəsinin işğaldan azad edilməsində savaşıb. Bağır Ələkbərov oktyabrın 15-də Hadrut döyüşləri zamanı şəhid olub. Naxçıvan şəhərində dəfn olunub.

Bağır Ələkbərov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələkbərov Əli Ələkbər oğlu** 12 oktyabr 1985-ci ildə Tovuz rayonu Bozalqanlı kəndində anadan olub.

O, iyul ayında Tovuzda baş verən erməni təxribatlarından sonra orduya könüllü yazılıb. Oktyabrın 5-də Orduya çağırılır, döyüşlərə yola düşür. Oktyabrın 17-də cəbhənin Ağdərə-Ağdam istiqamətlərində gedən döyüşlərdə qərhəmancasına şəhid olub.

Əli Ələkbərov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Ələkbərov Əlisahib Selman oğlu** 1994-cü il yanvarın 15-də Salyan rayonunun Piratman-Gəncəli kəndində anadan olub.

Baş leytenant Əlisahib Ələkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Əlisahib Ələkbərov noyabrın 1-də şəhid olub. Salyan rayonunda dəfn olunub.

O, "Qarabağ" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Ələkbərov Fərid Tahir oğlu** 1980-ci il iyulun 18-də Bakı şəhərində anadan olub.

Mayor Fərid Ələkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Fərid Ələkbərov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Fərid Ələkbərov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələkbərov Məhəmmədəli Bayram oğlu** 1990-cı il oktyabrın 15-də Ağstafa rayonunun Poylu qəsəbəsində anadan olub.

Gizir Məhəmmədəli Ələkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Məhəmmədəli Ələkbərov oktyabrın 21-də Zəngilan döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Poylu qəsəbəsində dəfn olunub.

Məhəmmədəli Ələkbərov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələkbərov Muraz Məzahir oğlu** 1995-ci il martın 23-də Tovuz rayonunun Koxa Nəbi kəndində anadan olub.

Əsgər Muraz Ələkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Muraz Ələkbərov oktyabrın 3-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Koxa Nəbi kəndində dəfn olunub.

Muraz Ələkbərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Ələkbərov Naiq Faiq oğlu** 1994-cü il avqustun 8-də Şamaxı rayonunun Bağırlı kəndində anadan olub.

Gizir Naiq Ələkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Naiq Ələkbərov oktyabrın 9-da Cəbrayıl döyüşləri zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında dəfn olunub.

Naiq Ələkbərov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Ələkbərov Niyaməddin İsrafil oğlu** 1989-cu il iyulun 12-də Şərur şəhərində anadan olub.

Gizir Niyaməddin Ələkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Niyaməddin Ələkbərov oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub.

Niyaməddin Ələkbərov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələkbərov Rəşad İlqar oğlu** 1997-ci il sentyabrın 15-də Gəncə şəhərində anadan olub.

Əsgər Rəşad Ələkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Hadrut, Daşaltı və Şuşanın işğaldan azad olunmasında iştirak edib. Şuşa işğaldan azad olduqdan sonra ordumuzun Şuşa-Laçın istiqamətində irəliləyişi zamanı noyabrın 9-da şəhid olub. Gəncənin Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələkbərov Röyal Fərmail oğlu** 23 iyun 1994-cü ildə Naxçıvan MR-nın Kəngərli rayonunun Qıvraq kəndində anadan olub.

Baş leytenant Röyal Ələkbərov 27 sentyabr 2020-ci il tarixindən başlanan İkinci Qarabağ müharibəsində iştirak edib və torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərib, 16 oktyabr, 2020-ci ildə Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhid Röyal Ələkbərov İkinci Fəxri Xiyabanda dəfn olunub.

Röyal Ələkbərov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələkbərov Telman İqdam oğlu** 1991-ci il martın 30-da Bakı şəhərində anadan olub.

Leytenant Telman Ələkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Telman Ələkbərov oktyabrın 7-də Ağdam rayonu istiqamətində şəhid olub.

Telman Ələkbərov ölümündən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Ələkbərov Vüqar Telman oğlu** 1994-cü il noyabrın 16-da Ucar rayonunun Qazyan kəndində anadan olub.

Gizir Vüqar Ələkbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağı istiqamətində gedən döyüşlərdə, həmçinin Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Füzuli istiqamətində strateji əhəmiyyətə sahib olan mövqelərin azad edilməsində, o cümlədən Ermənistan Ordusunun canlı qüvvəsinin məhv edilməsində fərqlənib. Vüqar Ələkbərov oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub. Ucar rayonunun Qazyan kəndində dəfn olunub.

Vüqar Ələkbərov ölümündən sonra "Vətən uğrunda","Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələsgərli İlkin Bəkir oğlu** 1992-ci il oktyabrın 14-də Şəmkir rayonunun Keçili kəndində anadan olub.

Gizir İlkin Ələsgərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunun Keçili kəndində dəfn olunub.

İlkin Ələsgərli ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələsgərli Zaur Mübariz oğlu** 1995-ci il martın 5-də Sumqayıt şəhərində Mübariz və Vəfa Ələsgərlilərin ailəsində anadan olub.

Su Altı Hücum (SAH) Xüsusi Təyinatlı Qüvvələrinin giziri olan Zaur Ələsgərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zaur Ələsgərli oktyabrın 31-də Xocavənd döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Zaur Ələsgərli "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələsgərov Ələkbər İsgəndər oğlu** 3 sentyabr 1998-ci ildə Bakı şəhərində Kubinkada anadan olub.

Əsgər Ələkbər Ələsgərov general Polad Həşimovun ölümündən sonra könüllü orduya yazılıb. Ələkbər Ələsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ələkbər Ələsgərov 1 oktyabr 2020-ci ildə Füzulinin Alxanlı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Hökməli qəbiristanlığında dəfn edilib. Polkovnik-leytenant Zaur Cəfərov Ələkbərin xatirəsinə onun ad-soyadını tankın üzərinə yazıb.

Ələkbər Ələsgərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Ələsgərov Həsrət Vahid oğlu** 2001-ci il fevralın 8-də Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olub.

Əsgər Həsrət Ələsgərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Həsrət Ələsgərov oktyabrın 8-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Aşağı Quşçu kəndində dəfn olunub.

Həsrət Ələsgərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əsgərov Hüseyin Ramiz oğlu** 1995-ci il iyunun 3-də Gədəbəy rayonunun Qoşabulaq kəndində anadan olub.

Əsgər Hüseyin Əsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Hüseyin Əsgərov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. Dekabrın 19-da Gədəbəy rayonunda dəfn olunub.



**Ələsgərov Mətləb Vüqar oğlu** 1999-cu il iyulun 18-də Ağstafa rayonunun Köçəsgər kəndində anadan olub.

Əsgər Mətləb Ələsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mətləb Ələsgərov oktyabrın 7-də Füzuli döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Köçəsgər kəndində dəfn olunub.

Mətləb Ələsgərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələsgərov Niyaməddin Süleyman oğlu** 1989-cu il aprelin 13-də Ağsu rayon Axundlu kəndində dünyaya göz açıb.

Əsgər Ələsgərov Niyaməddin 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı şücaətlə döyüşüb. Oktyabrın 4-ü Göygöl rayonunun Toğanalı kəndi istiqamətində gedən döyüşlərdə hərbi əməliyyatlar zamanı şəhid olub. Ələsgərov Niyaməddin Ağsu rayon Axundlu kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.





**Ələsgərov Pərviz Lətif oğlu** 1984-cü il sentyabrın 27-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub.

Kiçik çavuş Pərviz Ələsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Pərviz Ələsgərov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Pərviz Ələsgərov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələsgərov Sənan Əkram oğlu** 1996-cı il dekabrın 17-də Tovuz rayonunun Alakol kəndində anadan olub.

Əsgər Sənan Ələsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə kəşfiyyatçı kimi savaşıb. Sənan Ələsgərov sentyabrın 29-da Füzuli döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Alakol kəndində dəfn olunub.

Sənan Ələsgərov ölümündən sonra "Vətən uğrunda","Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələsgərov Seymur Əli oğlu** 1992-ci il fevralın 2-də Gədəbəy rayonunun Novosaratovka kəndində anadan olub.

Çavuş Seymur Ələsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Seymur Ələsgərov sentyabrın 29-da Füzuli döyüşləri zamanı şəhid olub. Gədəbəy rayonunun Novosaratovka kəndində dəfn olunub.

Seymur Ələsgərov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələsgərov Vadim Ağaba oğlu** 1993-cü il noyabrın 24-də Qusar rayonunun Urva kəndində anadan olub.

Kiçik çavuş Vadim Ələsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vadim Ələsgərov oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub. Qusar rayonunun Urva kəndində dəfn olunub.

Vadim Ələsgərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Ələsgərov Yusif Yaşar oğlu** 1996-cı il oktyabrın 14-də Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində anadan olub.

Əsgər Yusif Ələsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Cəbrayıl və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə tankçı kimi iştirak edib. Oktyabrın 24-də Qubadlı döyüşləri zamanı ağır yaralanıb. Müalicəsi tam bitmədən yenidən döyüş bölgəsinə qayıdıb.

Yusif Ələsgərov noyabrın 7-də Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub. Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində torpağa tapşırılıb.

Yusif Ələsgərov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ələsgərzadə Sənan Muxtar oğlu** 1995-ci il oktyabrın 10-da Şəki rayonunun Əliyar kəndində anadan olub.

Çavuş Sənan Ələsgərzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sənan Ələsgərzadə oktyabrın 19-da Füzuli döyüşləri zamanı şəhid olub.

Sənan Ələsgərzadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əlibəyli Mikayıl Xalıqverdi oğlu** 1992-ci il dekabrın 23-də Mingəçevir şəhərində anadan olub.

Əsgər Mikayıl Əlibəyli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Oktyabrın 7-də Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlara görə "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ələsov Əli Aydın oğlu** 1995-ci il yanvarın 8-də Goranboy rayonunun Tatarlı kəndində anadan olub.

Leytenant Əli Ələsov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Tərtər-Ağdərə rayonları istiqamətində gedən döyüşlər zamanı hərbi əməliyyatlarda düşmən tərəfindən açılan atəş nəticəsində digər növ partlayışlarla və ya qəlpələrlə törədilmiş zədələnmədən şəhid olub. Əli Ələsov oktyabrın 6-da Ağdərə istiqamətində şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. Dekabrın 29-da Goranboy rayonunda dəfn olunub. O, "Vətənə xidmətlərə görə 3-cü dərəcəli" ordeni ilə, "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.






**Əliyev Xəqani Füzuli oğlu** 1990-cı il iyunun 12-də Yardımlı rayonunun Çanaqbulaq kəndində anadan olub.

Gizir Xəqani Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəqani Əliyev oktyabrın 28-də Ağdərə istiqamətində şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Xəqani Əliyev ölümündən sonra "Vətən uğrunda","Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Əlifov Rüfət Sehun oğlu** 1 yanvar 2001-ci il Ağsu rayonunda anadan olub.

Əsgər Rüfət Əlifov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonunun Koroğlu dağ istiqamətində gedən döyüşlərdə iştirak edib.

28.09.2020-ci ildə Göygöl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.


Rüfət Əlifov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Əliməmmədov Elçin Mehman oğlu** 18.08.1997-ci ildə Bakı şəhəri Zirə qəsəbəsində anadan olub.

Baş çavuş Elçin Əliməmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Elçin Əliməmmədov 07.10.2020-ci ildə Füzuli rayonunun Horadiz kəndi istiqamətində düşmən həmləsinin qarşısını alarkən şəhid olub.

Elçin Əliməmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əlimov Elvin Nəsrəddin oğlu** 1995-ci il iyunun 8-də Qusar rayonunun Köhnə Xudat Qazmalar kəndində anadan olub.

Baş leytenant Elvin Əlimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elvin Əlimov sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub. Suraxanı rayonunun Hövsan qəsəbəsində dəfn olunub.

Elvin Əlimov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əlimuradov Cumart Şıxrəhim oğlu** 2001-ci il mayın 31-də Qusar rayonunun Urva kəndində anadan olub.

Cumart Əlimuradov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cumart Əlimuradov oktyabrın 5-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Qusar rayonunun Urva kəndində dəfn olunub.

Cumart Əlimuradov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əlimuradov Orxan Roman oğlu** 1993-cü il martın 11-də Qusar rayonunun Uqur kəndində anadan olub.

Əsgər Orxan Əlimuradov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Əlimuradov oktyabrın 5-də Füzuli döyüşləri zamanı şəhid olub. Qusar rayonunda dəfn olunub.

Orxan Əlimuradov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əlisoltanov Vahid Tahir oğlu** 1994-cü il noyabrın 10-da Balakən rayonunun Gərəkli kəndində anadan olub.

Gizir Vahid Əlisoltanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vahid Əlisoltanov oktyabrın 24-də Qubadlı döyüşləri zamanı şəhid olub. Balakən şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Vahid Əlisoltanov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Abbas Salam oğlu** 1988-ci il yanvarın 9-da Sabunçu rayonunun Ramana qəsəbəsində anadan olub.

Əsgər Abbas Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Abbas Əliyev noyabrın 2-də Xocavənd döyüşləri zamanı şəhid olub. Ramana qəsəbəsində dəfn olunub.

Abbas Əliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əliyev Adəm İlqar oğlu** 2000-ci il noyabrın 19-da Ağdam rayonunun Üçoğlan kəndində anadan olub.

Əsgər Adəm Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Adəm Əliyev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Adəm Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Ağayusif Mübariz oğlu** 1 sentyabr 1992-ci ildə Ucar rayonunun Bağban kəndində dünyaya göz açıb.

Əsgər Ağayusif Əliyev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Füzuli və Xocavənd döyüşlərində vuruşub. Ağayusif Əliyev Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Ağayusif Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Amid İlhamoviç** 1999-cu il dekabrın 3-də Biləsuvar rayonunun Çaylı kəndində anadan olub.

Əsgər Amid Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amid Əliyev oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunda dəfn olunub.

Amid Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Anar Talıb oğlu** 16 may 1991-ci ildə Oğuz rayonunda anadan olub.

Anar Əliyev 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzuli döyüşlərində savaşıb. Anar Əliyev oktyabrın 26-da Füzuli döyüşlərində qəhrəmancasına vuruşaraq şəhid olub. Anar Əliyev oktyabrın 27-də Oğuz Şəhidlər Xiyabanında dəfn olunub.

Anar Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Anar Vaqif oğlu** 1980-ci avqustun 28-də Kəlbəcər rayonunun Boyaqlı kəndində anadan olub.

Polkovnik-leytenant Anar müharibəyə oktyabrın 11-i gedib. Döyüşə Füzuli istiqamətindən başlayıb. Hadrut, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan istiqamətlərində irəliləyiblər. Ən çətin yüksəkliklərin azad olunmasına özü şəxsən öndə gedərək rəhbərlik edib. Sonuncu döyüşü isə Xocavəndin Tuğ yüksəkliyi olub. Anar əvvəl qolundan, sonra göz nahiyəsindən yaralanıb. Yaralı halda 2-3 saat qalıb. Yenə də tapşırıq verib ki, yüksəkliyi düşmənə verməyin.

Zəngilan rayonunun alınmasını Ali Baş Komandana məhz Anar Əliyev məruzə edib. Anar Əliyev, "Vətən Müharibəsi Qəhrəmanı" adına, "Vətən uğrunda" və "Şuşanın işğaldan azad olunması" medalları ilə təltif edildi. Polkovnik-leytenant Anar Əliyev ikinci Fəxri Xiyabanda dəfn olunub.



**Əliyev Aqil Faiq oğlu** 1999-cu il yanvarın 10-da Tovuz rayonunun Pələkli kəndində anadan olub.

Aqil Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Aqil Əliyev oktyabr 15-də Suqovuşan ətrafında gedən döyüşlər zamanı şəhid olub. Tovuz rayonunun Pələkli kəndində dəfn olunub.

Aqil Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Araz Aydın oğlu** 1984-cü il iyunun 21-də Beyləqan rayonunun Kəbirli kəndində anadan olub.

Kiçik çavuş Araz Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Araz Əliyev oktyabrın 8-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunun Kəbirli kəndində dəfn olunub.

Araz Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Asim Asəf oğlu** 1998-ci il sentyabr 17-də Sabirabad rayonunun Əsədli kəndində anadan olub.

Əsgər Asim Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində savaşıb. Asim Əliyev oktyabrın 14-də şəhid olub. Sabirabad rayonunda dəfn olunub.

Asim Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Asim Nuru oğlu** 1999-cu il sentyabrın 7-də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olub.

Əsgər Asim Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Asim Əliyev oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Düz Qırıqlı kəndində dəfn olunub.

Asim Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Asiman Vaqif oğlu** 1987-ci il fevralın 1-də Ordubad rayonunu Düylün kəndində anadan olub.

Mayor Asiman Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Asiman Əliyev noyabrın 7-də Xocavənd döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Asiman Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Aslan Elman oğlu** 23 sentyabr 2001-ci ildə Göyçay rayonu Hacılılı kənd kəndində dünyaya gəlib.

Aslan Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Aslan Əliyev noyabrın 7-də Xocavənd rayonunda gedən döyüşdə aldığı qəlpə yarası nəticəsində şəhid olub.

Aslan Əliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Atəm Vaqif oğlu** 1982-ci il dekabrın 16-da Ağdaş rayonunun Abad kəndində anadan olub.

Polkovnik-leytenant Atəm Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Atəm Əliyev oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 2021-ci il yanvarın 24-də Ağdaş rayonunun Abad kəndində dəfn olunub.

Atəm Əliyev ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əliyev Aydın Nəriman oğlu** 9 yanvar 1991-ci il Sumqayıt şəhərində anadan olub.

Aydın Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Aydın Əliyev 27 noyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilib.

Aydın Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Əliyev Azər Dilafər oğlu** 6 yanvar 1999-cu ildə Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olub.

Əsgər Azər Əliyev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 15 oktyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanıb və xəstəxanaya yerləşdirilib.

Uzun müddət koma vəziyyətində olan Azər Əliyev 28 yanvar 2021-ci ildə müalicə aldığı xəstəxanada şəhid olub. 29 yanvar 2021-ci ildə doğulduğu Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində torpağa tapşırılıb.

Azər Əliyev ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə","Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Azər Elnur oğlu** 21 mart 2002-ci ildə Göyçay rayonunun Kürdşaban kəndində anadan olub.

Əsgər Azər Əliyev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində igidlik göstərərək Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 30 sentyabrda döyüş tapşırığını yerinə yetirən zaman şəhid olub.

O, "Vətən uğrunda", "Füzuli rayonunun azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Bəhruz Elman oğlu** 24 oktyabr 1997-ci ildə Bakı şəhərində anadan olub.

2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Müharibənin ilk günündə düşmənin 2 tankını, dəqiq atəşlə 60-a yaxın əsgərini məhv edərək qəhrəmanlıqla döyüşür. Yaralı əsgər yoldaşlarının döyüş zonasından çıxarılmasına da köməklik edir. Sentyabrın 28-i son dəfə yaralı əsgər xilas edib döyüşə qayıdanda düşmənin atdığı minomyotun qəlpələri sağ ayağını ağır yaralayır. Hospitala çatdırılarkən kəskin qanitirmədən yolda şəhidlik zirvəsinə ucalır.

Sentyabr ayının 29-u böyüyü, boya-başa çatdığı Maştağa qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn edilib. O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.






**Əliyev Bəybala Fazil oğlu** 1996-cı il oktyabrın 22-də Gədəbəy rayonunun Səbətkeçməz kəndində anadan olub.

Hərbi Dəniz Qüvvələrinin matrosu olan Bəybala Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Bəybala Əliyev oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 08.12.2020-ci il tarixində Gədəbəy rayonunun Səbətkeçməz kəndində dəfn olunub.

Bəybala Əliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Camal Mehman oğlu** 2000-ci il dekabrın 17-də Cəlilabad şəhərində anadan olub.

Əsgər Camal Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Camal Əliyev oktyabrın 14-də Füzuli döyüşləri zamanı şəhid olub. Cəlilabad şəhərində dəfn olunub.

Camal Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Camal Xaliq oğlu** 1993-cü il avqustun 11-də Sabunçu rayonunda anadan olub.

Əsgəri Camal Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Camal Əliyev noyabrın 3-də Xocavənd döyüşləri zamanı şəhid olub.

Camal Əliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Cavid Şaban oğlu** 1996-cı il mayın 10-da Tovuz rayonunun Almalıtala kəndində anadan olub.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlananda, Cavid Əliyev SHXÇDX-yə müraciət edib və müharibəyə yollanıb. Snayper olan və onlarla erməni hərbçini öldürən Cavid Əliyev noyabrın 9-da Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Noyabrın 16-da Tovuz rayonunda dəfn olunub.

Cavid Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Cavid Samir oğlu Əliyev** 11.08.2001-ci tarixində Gəncə şəhərində anadan olub.

27 sentyabr 2020-ci il tarixində başlayan İkinci Qarabağ müharibəsində iştirak edib.

Cavid Əliyev Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa rayonları uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib. Ən son 3 noyabr 2020-ci il tarixində Şuşa rayonu uğrunda gedən döyüşlərdə yaralı komandirini xilas etmək istəyərkən qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalıb. 6 noyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında böyük izdihamla dəfn edilib.

Cavid Əliyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Cəlil Qüdrət oğlu** 12 iyul 1998-ci ildə Ağdaş rayonunun Qaradağlı kəndində anadan olub.

Əsgər Cəlil Əliyev 27 sentyabr 2020-ci il tarixindən başlayan Vətən müharibəsində iştirak edib, Cəbrayıl, Füzuli rayonları uğrunda gedən döyüşlərdə şücaət göstərib. Oktyabrın 22-də Hadrut döyüşlərində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Denis Aleksandr oğlu** 1989-cu il mayın 26-da Xətai rayonunda anadan olub.

Əsgər Denis Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Denis Əliyev oktyabrın 6-da Cəbrayıl döyüşləri zamanı şəhid olub. Xətai rayonunda dəfn olunub.

Denis Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Dəyanət Ələsgər oğlu** 1982-ci il sentyabrın 18-də Ağcabədi rayonunun Hacıbədəlli kəndində anadan olub.

Gizir Dəyanət Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Dəyanət Əliyev oktyabrın 24-də Füzuli döyüşləri zamanı şəhid olub.

Dəyanət Əliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə","Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əliyev Elçin Ələkbər oğlu** 15 yanvar 1997-ci ildə Neftçala rayonunun Mikayıllı kəndində anadan olub.

Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olan Elçin Əliyev 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edərək 2020-ci il oktyabrın 23-də qəhrəmancasına şəhid olub.

Elçin Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Elçin Rasim oğlu** 4 mart 1994–cü ildə Mingəçevir şəhərində anadan olub.

Gizir Elçin Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Murovdağ, Ağdərə-Tərtər rayonları istiqamətində gedən döyüşlərin iştirakçısıdır.

Vətən müharibəsi zamanı ən son Tərtər rayonunun Talış kəndinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elçin Əliyev sentyanrın 28-də Talış kənd döyüşləri zamanı döyüş maşınının yanına mərmi düşməsi nəticəsində şəhid olub. Uzun axtarışdan sonra oktyabrın 4-də Mingəçevir Şəhidlər Xiyabanında dəfn olunub.

Elçin Əliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", medalları ilə təltif edildi.



**Əliyev Elçin Sarvan oğlu** 1995-ci il mayın 23-də Yardımlı rayonunun Kürəkçi kəndində anadan olub.

Əsgər Elçin Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində savaşıb. Elçin Əliyev sentyabrın 27-də şəhid olub. Yardımlı rayonunda dəfn olunub.

Elçin Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Eldar Süleyman oğlu Əliyev** 1994-cü il fevralın 13-də Bakıda anadan olub. 2020-ci il 27 sentyabr İkinci Qarabağ müharibəsi zamanı Eldar da cəbhəyə könüllü olaraq yollanıb. Füzuli, Hadrut və Cəbrayılın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 13 Oktyabr tarixində Füzuli rayonu döyüşlərində qəhrəmanca şəhid olub. 18 Oktyabr tarixində Bakı şəhəri Əhmədli qəsəbəsi qəbristanlığında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə","Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi. Dünyaca məşhur "Nyu-York Tayms" qəzeti İkinci Qarabağ Müharibəsi haqqında olan məqalələrindən birində Eldar Əliyevin şəhid olmasından bəhs edilib.

**Əliyev Əli Ələsgər oğlu** 1997-ci il iyunun 6-da Fizuli rayonunda anadan olub.

Gizir Əli Əliyev 2020-ci il sentyabrın 27-də döyüşlər başlayarkən dərhal səfərbərliyə alınıb müharibəyə yola düşüb. Bir neçə rayonumuzun azad edilməsi əməliyyatlarında iştirak edib. Yüngül yaralanıb, lakin hospitalı tez tərk edib, yendiən döyüş yoldaşlarına qoşulub. Döyüş vaxtı Əliylə birlikdə döyüş yoldaşı da yaralanıb. Yaralıları döyüş meydanından çıxararkən deyib ki, dostumu aparın mən yaxşıyam dözərəm və döyüşə davam edib. Noyabr ayının 2-i Şuşa ətrafında gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Əli Qobu qəsəbəsində dəfn edilib.



**Əliyev Əlisa Arif oğlu** 8 yanvar 2000-ci ildə Masallı rayonunun Qızılağac kəndində dünyaya göz açıb.

Əsgər Əlisa Əliyev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Müharibənin bir çox hərbi əməliyyatlarında və döyüşlərində vuruşub. Əlisa Əliyev 6 noyabr 2020-ci ildə Xocalı rayonunun Şuşakənd kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən minaatan mərmisinin dəyməsi nəticəsində şəhid olub. Əlisa Əliyev Qızılağac kənd qəbiristanlığında torpağa tapşırılıb.

Əlisa Əliyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Elsəfa Səməd oğlu** 1978-ci il noyabrın 10-da Füzuli rayonunun II Mahmdulu kəndində anadan olub.

Baş əsgər Elsəfa Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elsəfa Əliyev sentybarın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Füzuli rayonunun II Mahmudlu kəndində dəfn olunub.

Elsəfa Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Elman Rakif oğlu** 23 oktyabr 1994-cü ildə Mingəçevir şəhərində dünyaya gəlib.

Elman Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elman Əliyev oktyabrın 20-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Elman Əliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.






**Əliyev Elməddin İlqar oğlu** 1985-ci il iyulun 2-də Tərtər rayonunun Yuxarı Qapanlı kəndində anadan olub.

Kiçik çavuş Elməddin Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elməddin Əliyev sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Elməddin Əliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Elmir Süleyman oğlu** 1980-ci il noyabrın 22-də Ağdam rayonunun İsmayılbəyli kəndində anadan olub.

Əsgər Elmir Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdamın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Elmir Əliyev noyabrın 3-də Ağdam rayonu istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Ağdam rayonunun Quzanlı qəsəbəsində dəfn olunub.

Elmir Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Elnur Ərəstun oğlu** 2000-ci il fevralın 10-da Göyçay rayonunda anadan olub.

Kiçik çavuş Elnur Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur Əliyev oktyabrın 6-da Cəbrayıl döyüşləri zamanı şəhid olub. Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Elnur Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Elqaş Barat oğlu Əliyev** 12 fevral 1999-cu ildə Lerik rayonunun Bırkandul kəndində anadan olmuşdu.

Əsgər Elqaş Əliyev 27 sentyabr 2020-ci ildən etibarən İkinci Qarabağ müharibəsində iştirak edib. Cəbhənin müxtəlif istiqamətlərində şücaət göstərən Elqaş, 3 noyabr tarixində Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Döyüş yoldaşları onu müstəsna dərəcədə cəsur bir döyüşçü kimi xarakterizə edib.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əliyev Elşad Mehman oğlu** 4 iyun 1992-ci ildə Ağdaş rayonunun Tofiqi kəndində anadan olub.

Əsgər Elşad Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vətən müharibəsi başlananda tankçı kimi döyüşə qatılıb. Düşmənin xeyli sayda canlı qüvvəsini, döyüş mövqelərini məhv edib. Elşad Əliyev oktyabrın 16-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Elşad Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Əliyev Elşən Novruz oğlu** 1986-cı il yanvarın 22-də Beyləqan rayon Yuxarı aran kəndində anadan olub.

Döyüşlərə könüllü olaraq qatılıb. 14 oktyabr 2020-ci il Füzuli rayonu ərazisində gedən döyüşlərdə şəhid olub.

Elşən Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Elsevər Hikmət oğlu** 2001-ci il avqustun 7-də Xaçmaz rayonunun Qusarçay kəndində anadan olub.

Əsgər Elsevər Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elsevər Əliyev oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub.

Elsevər Əliyev ölümündən sonra "Vətən uğrunda","Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.




**Əliyev Elsevər Saqib oğlu** 1 yanvar 1992-ci ildə Gədəbəy rayonunun Arısu kəndində dünyaya göz açıb.

Əsgər Elsevər Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Elsevər Əliyev 30 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Elsevər Əliyev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əliyev Eltun Elnur oğlu** 2001-ci il avqustun 29-da Sumqayıt şəhərində anadan olub.

Sentyabrın 27-də Vətən müharibəsinə qatılıb. O, ən şiddətli döyüşlərin getdiyi Füzuli, Cəbrayıl və Suqovuşanda vuruşub. Hamı kimi Eltunun da bir amalı var idi – işğal altında olan torpaqlarımızı yağı düşmənin tapdağından azad etmək. Döyüş yoldaşları deyir ki, təbiətcə sakit insan olan Eltun döyüşlərdə böyük cəsarət, qəhrəmanlıqlar göstərib.

19 yaşlı E.Əliyev oktyabrın 16-da Suqovuşanda namərd düşmənin güllələsinə tuş gələrək şəhidlik zirvəsinə yüksəlib. Oktyabrın 23-də Sumqayıt şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Elvin Bəhruz oğlu** 1997-ci il fevralın 26-da Bakı şəhərində anadan olub.

Əsgər Elvin Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 14-də Füzulinin azad olunması uğurunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Əliyev Elvin Famil oğlu** 2000-ci il iyulun 31-də Şəmkir rayonunun Sərxan kəndində anadan olub.

Əsgər Elvin Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elvin Əliyev oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunun Sərxan kəndində dəfn olunub.

Elvin Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Emil Əziz oğlu Əliyev** 1993-cü il avqustun 1-i Sumqayıt şəhərində anadan olub.

Əsgər Emil Əliyev 2020-ci il, sentyabrın 21-i Səfərbərlik tərəfindən könüllü hərbi xidmətə çağırılıb. 27 sentyabr 2020-ci il tarixində isə, İkinci Qarabağ müharibəsinin iştirakçısı olub. Müxtəlif istiqamətlərdə döyüşlərə qatılan Emil Əliyev ən son 6 oktyabr 2020-ci il tarixində Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalıb. Emil Əliyev Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında böyük coşqu ilə dəfn edildi.

O, ölümündən sonra "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.

**Əliyev Əmrah Ürfət oğlu** 1997-ci il iyulun 4-də Tovuz rayonunun Dondar Quşçu kəndində anadan olub.

Çavuş Əmrah Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Hadrut qəsəbəsinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əmrah Əliyev noyabrın 8-də Xocavənd döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Dondar Quşçu kəndində dəfn olunub.

Əmrah Əliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə","Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Əmirulla Vahid oğlu** 1996-cı il oktyabrın 7-də Şamaxı şəhərində anadan olub.

Leytenant Əmirulla Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əmirulla Əliyev sentyabrın 28-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Suraxanı rayonunda dəfn olunub.

Əmirulla Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı, "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi.



**Əliyev Ənvər Nizami oğlu** 1997-ci il iyunun 4-də Şərur rayonunun Axaməd kəndində anadan olub.

Leytenant Ənvər Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ənvər Əliyev oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub.

Ənvər Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Fərhad İlham oğlu** 07 sentyabr 1993-cü ildə anadan olub.

MAXE, kiçik çavuş Fərhad Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Füzuli rayonu Yuxarı Seyidəhmədli kəndi istiqamətində bir neçə adsız yüksəkliyin əldə edilməsində, eləcə də Füzuli rayonunun Kürdlər, Yuxarı Abdurrəhmanlı, Gecəgözlü kəndlərinin alınmasında yüksək fəaliyyəti olub.

20 oktyabrda Füzuli rayonunun Gecəgözlü kəndində düşmən üzərinə hücuma keçərkən şəhid olub. 19 noyabr Sumqayıt Şəhidlər Xiyabanında dəfn olundu.

Fərhad Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Əliyev Fərid Hamlet oğlu** 22 mart 2001-ci ildə İsmayıllı şəhər Kürdmaşı kəndində anadan olub.

Əsgər Fərid Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olub. Fərid Əliyev sentyabrın 28-də doğulduğu İsmayıllı rayonunun Kürdmaşı kəndində dəfn olunub.

Fərid Əliyev ölümündən sonra "Vətən uğrunda","Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Fərid Pirəli oğlu** 1994-cü il avqustun 14-də Bakı şəhərində anadan olub.

Əsgər Fərid Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Cəbrayıl, Qubadlı və Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib.

Fərid Əliyev rabitəçi idi. Fəridin olduğu maşında onunla birgə dörd nəfər – polkovnik, zabit, rabitəçi və əsgər əyləşibmiş, silah aparırlarmış. Noyabrın 5-i Şuşa uğrunda gedən döyüşlərdə həmin maşın ermənilər tərəfindən vurulub. Bunun nəticəsində Fəridlə bərabər maşının içərisindəki digər yoldaşları da Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib. Noyabrın 16-sı nəşi evlərinə təhvil verilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Fərmin Fərman oğlu** 1996-cı il martın 20-də Babək rayonunu Şıxmahmud kəndində anadan olub.

Leytenant Fərmin Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Fərmin Əliyev sentyabrın 27-də Talış döyüşləri zamanı şəhid olub. Babək rayonunda dəfn olunub.

Fərmin Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.



**Əliyev Fəzail Cahan oğlu** 1990-cı il noyabrın 5-də Zaqatala rayonunun Bəhmətli kəndində anadan olub.

Kapitan Fəzail Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Fəzail Əliyev sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunun Bəhmətli kəndində dəfn olunub.

Fəzail Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.

**Əliyev Füzuli Vidadi oğlu** 27 yanvar 1985-ci ildə Bakı şəhərində dünyaya göz açıb.

Kapitan Fizuli Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Fizuli Əliyev 8 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Füzuli Əliyev ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edildi.

Füzuli Əliyev ölümündən sonra "Vətən uğrunda","Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Fuad Ramin oğlu** 10 may 2001-ci ildə Tovuz rayonunun Aşağı Öysüzlü kəndində anadan olub.

Əsgər Fuad Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ, Suqovuşan, Hadrut, Füzuli, Zəngilan və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Fuad Əliyev noyabrın 11-də Şuşa döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Aşağı Öysüzlü kəndində dəfn olunub.

Fuad Əliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Gündüz Etibar oğlu** 2002-ci il fevralın 8-da Lerik rayonunun Loda kəndində anadan olub.

Əsgər Gündüz Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Gündüz Əliyev sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub. Lerik rayonunda dəfn olunub.

Gündüz Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Əliyev Həmzə Tərlan oğlu** 1 oktyabr 1998-ci ildə Quba rayonunun Aşağı Atuc kəndində dünyaya göz açıb.

Əsgər Həmzə Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. 21 oktyabr 2020-ci ildə Cəbrayıl istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. 22 oktyabr 2020-ci ildə Quba Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Həmzə Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əliyev Həndi Elbrus oğlu** 19 iyun 1992-ci ildə Gəncə şəhərində dünyaya göz açıb.

Əsgər Həndi Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə vuruşub. 14 oktyabr 2020-ci ildə Suqovuşanda döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Həndi Əliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Hüseyn Sahib oğlu** 2000-ci il sentyabrın 15-də Tovuz rayonunun Əsrik Cırdaxan kəndində anadan olub.

Əsgər Hüseyn Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Hüseyn Əliyev oktyabrın 3-də Murovdağ döyüşləri zamanı şəhid olub. Nəşi uzun müddət tapıla bilməyib. 2021-ci il yanvarın 14-də Tovuz rayonunun Əsrik Cırdaxan kəndində dəfn olunub.



**Əliyev İbrahim Nəcəfqulu oğlu** 23 oktyabr 1993-cü ildə Xəzər rayonunun Buzovna qəsəbəsində anadan olub.

Əsgər İbrahim Əliyev 2020-ci il sentyabrın 27-də başlanan II Qarabağ müharibəsinə könüllü olaraq qoşulub. Erkən yaşlarında hər iki valideynini itirən İbrahim silah yoldaşlarıyla birgə Füzulinin, Cəbrayılın və Zəngilanın azadlığı uğrunda döyüşlərdə düşmənlə üz-üzə gəlib.

İbrahim Əliyev oktyabrın 24-ü – ad günündən bir gün sonra Zəngilan uğrunda döyüşlərdə şəhadətə ucalıb.



**Əliyev İlkin Bəxtiyar oğlu** 2001-ci il fevralın 26-da Qazax rayonunun Canalı kəndində anadan olub.

Əsgər İlkin Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Cəbrayıl və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

İlkin Əliyev Şuşa döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Canalı kəndində torpağa tapşırılıb.

İlkin Əliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əliyev İmam Səfər oğlu** 1998-ci il iyulun 16-da Balakən rayonunun İtitala kəndində anadan olub.

Əsgər İmam Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

İmam Əliyev oktyabrın 7-də Talış kəndi istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Balakən rayonunun İtitala kəndində torpağa tapşırılıb.

İmam Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev İmran Əli oğlu** 1993-cü il aprelin 7-də Bakı şəhərində anadan olub.

Leytenant İmran Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İmran Əliyev sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

İmran Əliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Kamran Rasim oğlu** 28 iyul 2001-ci ildə Lənkəran rayonunun Aşağı Nüvədi qəsəbəsində dünyaya gəlib.

Əsgər Kamran Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Kamran Əliyev oktyabrın 12-də Xocavənd rayonunda gedən döyüşlərdə aldığı qəlpə yarası nəticəsində şəhid olub.


Kamran Əliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Kərim Məhəmmədəli oğlu** 1998-ci il avqustun 31-də Ucar rayonunun Alpout kəndində anadan olub.

Kiçik gizir Kərim Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kərim Əliyev oktyabrın 31-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Kərim Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əliyev Kərim Qeyrətxan oğlu** 2000-ci il yanvarın 1-də Xızı rayonunun Fındığan kəndində anadan olub.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlanan kimi Kərim Əliyev də təcrübəli snayperçi kimi könüllü olaraq orduya yazılıb. Tərtər, Füzuli istiqamətlərində gedən döyüşlərə qatılıb.

Talışkəndin, Hadrutun azad edilməsində rəşadətlə vuruşub.

2020-ci il noyabrın 4-də Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Kərim Əliyev ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



**Əliyev Lətif Oruc oğlu** 1995-ci il avqustun 15-də Şərur rayonunun Xanlıqlar kəndində anadan olub.

Əsgər Lətif Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Lətif Əliyev oktyabrın 27-da Laçın döyüşləri zamanı şəhid olub.


Lətif Əliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Maarif Təbriz oğlu** 1994-cü il sentyabrın 9-da Neftçala şəhərində anadan olub.

Kiçik çavuş Maarif Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Hadrut qəsəbəsinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Maarif Əliyev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Neftçala şəhərində dəfn olunub.

Maarif Əliyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Mahir Əjdər oğlu** 1984-cı il aprelin 13-də Beyləqan rayonunun Kəbirli kəndində anadan olub.

Azərbaycan Ordusunun MAHHXHQ Mahir Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mahir Əliyev sentyabrın 27-də Füzuli rayon istiqamətində gedən döyüş əməliyyatlarında döyüş taşırığını yerinə yetirərəkən düşmən tərəfindən açılan atəş zamanı şəhid olub.

Mahir Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.

**Əliyev Malik Təvəkkül oğlu** 1986-cı il dekabrın 26-da Naxçıvan şəhərində anadan olub.

Mayor Malik Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Malik Əliyev oktyabrın 13-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Malik Əliyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Məmməd Cahangir oğlu** 1993-cü il martın 28-də Gədəbəy rayonunun Novo İvanovka kəndində anadan olub.

Baş leytenant Məmməd Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq cəbhəyə yollanıb. İlk günlərdən döyüşlərdə qəhrəmanlıq göstərib.

Oktyabrın 10-da Kəlbəcər rayonu uğrunda aparılan döyüş əməliyyatları zamanı odlu silahdan açılmış atəş nəticəsində şəhid olub. 17 dekabr 2020-ci il tarixdə dəfn olunub.

O, Kəlbəcərin azadlığı uğrunda", "Vətən müharibəsi iştirakçısı" "Rəşadət ordeni" "Vətən uğrunda" medalları ilə təltif edilib.



**Məhəmməd İlham oğlu Əliyev** 1999-cu il yanvarın 9-da Masallı rayonunun Böyük Xocavar kəndində anadan olub.

Məhəmməd Əliyev 27 sentyabr 2020-ci il tarixdə başlanan II Qarabağ müharibəsinə qatılır. Ağır müharibə meydanlarında sinəsini yanar od edib dığaların bağrını çatladır. Vətən oğullarının hünərini görəndə isə qələbəyə heç şübhəsi qalmır. Bütün bunlara görə hər döyüşə Qarabağın azadlığı eşqi ilə atılır. Füzulidən Şuşaya qədər gedən döyüşlərdə düşmənə qarşı böyük mərdliklə vuruşur. Zəfərimizin bir addımlığında – 8 noyabrda Məhəmməd Vətən müharibəsinin qalib şəhiditək adını tarixə yazır. 21 yaşında nəsibi möhtəşəm şəhidlik zirvəsindən boylanmaq səadəti oldu.

Ölməz hünər sahibi Məhəmməd İlham oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Məhəmməd Yaqub oğlu** 2001-ci il mayın 28-də Şəmkir rayon Sabirkənd kəndində anadan olub.

27 sentyabr 2020-ci il tarixdə başlanan Vətən müharibəsinə könüllü olaraq müharibədə iştirak üçün müraciət edib.

Noyabrın 1-də Fizuli uğurunda gedən döyüşlərdə şəhid olub.

Məhəmməd Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi





**Əliyev Mehman Xudaşükür oğlu** 2002-ci il yanvarın 1-də Lerik rayonu Zivic kəndində anadan olub.

Əsgər Mehman Əliyev 2020-ci ilin yanvar ayında həqiqi xidəmətə çağırılıb. Onun arzusu idi ki, həqiqi xidmətdən sonra müddətdən artıq xidmətə başlayaraq Azərbaycan torpaqlarının ərazi bütövlüyü uğrunda lazımi xidmət göstərib. Şəhidimizin bu istəyi çox çəkmədi ki, 2020-ci ilin sentyabr ayının 27-də başlanan 2-ci Qarabağ müharibəsində reallaşdı. O öz şücaətini göstərərək vətəni, dini və xalqının firavanlığı uğrunda şəhidlik zirvəsinə ucaldı. Neftçala rayon Xolqarabucaq kənd qəbiristanlığında torpağa tapşırıldı.

Mehman Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Mərhab Şikar oğlu** 1979-cu il martın 8-də Gəncə şəhərində anadan olub.

Kiçik çavuş Mərhab Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mərhab Əliyev Suqovuşan döyüşləri zamanı ağır yaralanıb və Hərbi Hospitala yerləşdirilib. Oktyabrın 15-də Hərbi Hospitalda şəhid olub. Goranboy rayonunun Bağçakürd kəndində dəfn olunub.

Mərhab Əliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Mirağa Musa oğlu** 29 avqust 2000-ci ildə Ağcabədi rayonunun Xocavənd kəndində anadan olub. Mirağa Əliyev 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində ilk gündən baş kəşfiyyatçı olaraq ön cəbhədə kəşfiyyatçı taqımında vuruşub. Füzuli və Cəbrayıl uğrunda gedən döyüşlərdə hər iki ayağından qəlpə yarası alsa da, döyüşə davam edib. O, 29 sentyabr 2020-ci ildə Cəbrayılın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən snayperlə açılan atəş nəticəsində ürəyindən vurularaq şəhid olub. 30 sentyabr 2020-ci ildə doğulduğu Ağcabədi rayonunun Xocavənd kəndində torpağa tapşırılıb. O, ölümündən sonra "Vətən uğrunda","Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi. Həmçinin Şəhid Ailələri, Əlilləri və Müharibə Veteranlarının Müdafiəsi İctimai Birliyi tərəfindən Mirağa Əliyev "Qarabağ uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Mirzağa Məmmədbağır oğlu** 1996-cı il iyunun 15-də Neftçala rayonunun Xıllı qəsəbəsində anadan olub.


Leytenant Mirzağa Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mirzağa Əliyev oktyabrın 7-də Cəbrayıl rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirən zaman Ermənistan Ordusunun canlı qüvvəsini məhv edib, geri qayıdan zaman isə onun və döyüş yoldaşlarının olduğu Piyadanın Döyüş Maşını (PDM) ermənilər tərəfindən vurulub. Mirzağa Əliyev digər 2 döyüş yoldaşını maşından çıxarsa da, özü şəhid olub. Neftçala rayonunda dəfn olunub.

Mirzağa Əliyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əliyev Murad Hüseyn oğlu** 13 mart 2001-ci ildə Bakı şəhərində anadan olub.

Əsgər Murad Əliyev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Müharibənin bir çox hərbi əməliyyatlarında və döyüşlərində vuruşmuşdur. Murad Əliyev Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərin gedişatında 7 noyabr 2020-ci ildə şəhid olub.

Murad Əliyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Əliyev Nihad Heydər oğlu** 22 noyabr 2000-ci ildə Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində anadan olub. Əslən Laçın rayonunun Alxaslı kəndindəndir.

Əsgər Kənan Şahbazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonun Koroğludağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Nihad Əliyev 28.09.2020-ci ildə Göygöl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.


Nihad Heydər oğlu Əliyev "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Əliyev Nohəl Əlqəmə oğlu** 1989-cu il avqustun 13-də Füzuli rayonunun Kürd Mahruzlu kəndində anadan olub.

Kiçik gizir Nohəl Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nohəl Əliyev oktyabrın 5-də Füzuli döyüşləri zamanı şəhid olub.

Nohəl Əliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Orxan Ədalət oğlu** 1991-ci il dekabrın 19-da Xəzər rayonunun Şağan qəsəbəsində anadan olub.

Əsgər Orxan Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Orxan Əliyev oktyabrın 16-da Ağdərə istiqamətində şəhid olub. Xəzər rayonunun Şağan qəsəbəsində dəfn olunub.

Orxan Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Əlili Orxan Elşad oğlu** 2000-ci il avqustun 23-də Şəmkir şəhərində anadan olub.

Əsgər Orxan Əlili 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Əlili noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Orxan Əlili ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Orxan Məhəmməd oğlu** 1989-cu il sentyabrın 19-da Bərdə rayonunun Bəcirəvan kəndində anadan olub.

Kiçik çavuş Orxan Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Əliyev sentyabrın 30-da Suqovuşan döyüşləri zamanı şəhid olub.

Orxan Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Pərvin oğlu Vüqar** 1997-ci il oktyabrın 15-də Beyləqan rayonunun Qəhrəmanlı kəndində dünyaya göz açıb.

Pərvin Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı qəhrəmanlıqla döyüşüb. Talış-Suqovuşan istiqamətində döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb. O, doğulub boya-başa çatdığı Qəhrəmanlı kəndində torpağa tapşırılıb.

Pərvin Əliyev göstərdiyi şücaətə görə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Qara Kamal oğlu** 2001-ci il oktyabrın 20-də Yevlax rayonunun Cırdaxan kəndində anadan olub.

Əsgər Qara Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Qara Əliyev oktyabrın 23-də Füzuli döyüşləri zamanı şəhid olub. Yevlax rayonunda dəfn olunub.

Qara Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əliyev Qubat Hüsür oğlu** 1994-cü il fevralın 4-də Sumqayıt şəhərində anadan olub. Şuşanın alınması uğrunda gedən qızğın döyüşlərdə Qubat dağın başında yerləşən mövqedə düşmənə sarsıdıcı zərbələr endirib. "Ana, bizi təbrik edə bilərsən. Biz artıq Şuşadayıq. İllər sonra Şuşanı azad etdik". Şuşa xəbərini anası Nigar xanıma çatdıran Qubad telefon danışığından 2 saat sonra Şuşa yüksəkliyində qəhrəmancasına şəhid olub.

Oktyabrın 9-da müharibəyə gülə-gülə gedən Qubatın noyabrın 9-da ailəsinə şəhid olmaq xəbəri gəlir. Qubat Əliyev Sumqayıtın Şəhidlər Xiyabanında dəfn olunub.

O, "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib. 2016-cı ildə ailə həyatı quran Qubatın bir oğul övladı yadigar qalıb.




**Əliyev Ramid Kamal oğlu** 1996-cı il fevralın 9-da Lənkəran rayonunun Şağlaser kəndində anadan olub.

Ramid Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. 26 oktyabr 2020-ci il tarixdə Qubadlı istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində şəhid olub.

Ramid Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Ramil Qurban oğlu** 1996-cı il martın 22-də Babək rayonunun Güznüt kəndində anadan olub.

Leytenant Ramil Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ramil Əliyev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Babək rayonunda dəfn olunub.

Ramil Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Ramil Vüqarəddin oğlu** 1996-cı il fevralın 9-da Haciqabul rayonunda dünyaya göz acıb.

2020-ci il sentyabrın 29-da könüllü olaraq cəbhəyə yollanıb. Vətən müharibəsi zamanı 24 yaşı tamam olmamış şəhadətə yüksələrək 05.11.2020-ci il tarixində Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Ramil Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əliyev Ramin Muxtar oğlu** 1977-ci il fevralın 4-də Astara rayonunun Maşxan kəndində anadan olub.

Çavuş Ramin Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Ramin Əliyev sentyabrın 28-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Ramin Əliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Əliyev Rauf İlyas oğlu** 1993-cü il fevralın 11-də Şamaxı şəhərində anadan olub.

Əsgər Rauf Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Rauf Əliyev sentyabrın 30-da Talış yüksəkliyi istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Rauf Əliyev ölümündən sonra "Vətən uğrunda","Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Rauf Səxavət oğlu** 1994-cü il iyun ayının 4-də Naxçıvan Muxtar Respublikası, Culfa rayonunun Əbrəqunus kəndində dünyaya göz açmışdır.

Əsgər Rauf Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonunun Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rauf Əliyev oktyabrın 22-də Hadrut döyüşləri (Ərgünəş kəndində) zamanı şəhid olub. Füzuli istiqamətində, Lələtəpə yüksəkliyinin alınmasında fəallıq göstərmiş, Müdafiə Nazirliyinin Fəxri Fərmanına layiq görülüb.

İkinci Fəxri Xiyabanda torpağa tapşırılıb. O, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medallar ilə təltif edildi.



**Əliyev Rafael Oruc oğlu** 1984-cü il mayın 24-də Horadiz şəhərində anadan olub.

Çavuş Rafael Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rafael Əliyev sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub. Horadiz şəhərində dəfn olunub.

Rafael Əliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əliyev Rəşad Əmiralı oğlu** 1991-ci il aprelin 17-də Salyan rayonunun Ərəbqardaşbəyli kəndində anadan olub.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin kapitanı olan Rəşad Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rəşad Əliyev noyabrın 5-də Şuşa döyüşləri zamanı şəhid olub. Salyan rayonunun Ərəbqardaşbəyli kənd qəbiristanlığında dəfn olunub.

Rəşad Əliyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Rəvan Yusif oğlu** 27 may 2001-ci ildə Sumqayıt şəhərində anadan olub.

İkinci Qarabağ müharibəsi başlayanda Sərhəd Qoşunlarının əsgərləri əvvəlcə döyüşlərdə iştirak etmirdi. Lakin könüllü olaraq əsgərlər döyüşlərə gedə bilərdi. Rəvan qulluq etdiyi hərbi hissədən bir zabit və altı əsgər müharibəyə könüllü olaraq qoşulub.

Zəngilan uğrunda gedən döyüşlərdə yeddi könüllü əsgərin hamısı şəhid olub. Sərhəd Qoşunlarının ilk şəhidləri onlar olublar. Oktyabrın 23-də şəhid olub və 29 oktyabr 2020-ci ildə Quba Şəhidlər Xiyabanında dəfn olunub.

Rəvan Əliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Romir Rəşadət oğlu** 14 may 1997-ci ildə Lənkəran rayonunun Aşağı Nüvədi kəndində anadan olub.

Əsgər Romir Əliyev 27 sentyabr 2020-ci ildə başlanan Vətən Müharibəsində könüllü olaraq Cəbrayılın, Füzulinin, Zəngilanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Romir Əliyev 21 oktyabr 2020-ci ildə Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.




**Əliyev Rövşən İsrafil oğlu** 1999-cu il fevralın 3-də Şəmkir rayonunun Düyərli kəndində anadan olub.

Rövşən Əliyev 27 sentyabr 2020-ci ildə başlanan Vətən Müharibəsində qəhrəmanlıqla döyüşüb. O, oktyabrın 25-dən 26-na keçən gecə Füzuli istiqamətində gedən döyüşlərdə qəhramancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əliyev Rüfət Füzuli oğlu** 6 dekabr 1992-ci ildə Bakı şəhərində anadan olub.

Gizir Rüfət Əliyev Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatıldı. Füzuli və Cəbrayılın bir sıra yaşayış məntəqələrinin azad olunmasında yaxından iştirak etdi. O, Böyük Zəfərə bir gün qalmış noyabrın 7-də dövlət sərhədinin üzərində yerləşən 812.0 yüksəkliyi uğrunda döyüşdə şəhidlik zirvəsinə ucaldı. 8 noyabr 2020-ci ildə Bakı şəhərində Suraxanı rayonu Dədə Qorqud qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn edilin.

O, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.



**Əliyev Ruslan Aslan oğlu** 08 aprel 2000-ci ildə Astara rayon Ərçivan qəsəbəsində anadan olub.

MAHHXHQ əsgər Ruslan Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Gülüstan və Ağuçuq, istiqamətində gedən hərbi əməliyyatlarda iştirak edib. Sentyabrın 29-da Ağ uçuq istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. Düşmənin xeyli sayda hərbi qulluqçusunu məhv edərək qəhrəmancasına şəhid olub.

Ruslan Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Saleh Namiq oğlu** 1992-ci il avqustun 18-də Sabunçu rayonunun Zabrat qəsəbəsində anadan olub

Əsgər Saleh Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Saleh Əliyev oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub.

Saleh Əliyev ölümündən sonra "Vətən uğrunda","Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Şaməddin Qafqaz oğlu** 1990-cı il oktyabrın 8-də Goranboy rayonunun Balakürd kəndində anadan olub.

Kiçik çavuş Şaməddin Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şaməddin Əliyev oktyabrın 20-də Ağdərə istiqamətində şəhid olub.

Şaməddin Əliyev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əliyev Şamil Xançoban oğlu** 1996-cı il martın 20-də Füzuli rayonunun Bəhmənli kəndində anadan olub.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri olan Şamil Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şamil Əliyev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

Şamil Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Samir Əliheydər oğlu** 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət edirdi.

Leytenant Samir Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Samir Əliyev sentyanrın 29-da Suqovuşan döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Samir Əliyev ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Səbuhi Teyyub oğlu** 1983-cü il avqustun 7-də Beyləqan rayonunun Əlinəzərli kəndində anadan olub.

Gizir Səbuhi Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Səbuhi Əliyev oktyabrın 7-də Füzuli döyüşləri zamanı şəhid olub.

Səbuhi Əliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Əliyev Sehriman Rəhman oğlu** 1990-cı il aprelin 17-si Füzuli rayonunun Aşağı Yağlıvənd kəndində anadan olub.

Vətən müharibəsi başlayan gündən döyüşlərdə iştirak edib və 29 sentyabrda Füzuli rayonunun Qorqan kəndi istiqamətində şəhid olub.

Sehriman Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.






**Əliyev Səmid Xoşbəxt oğlu** 5 iyun 1998-ci ildə Sumqayıt şəhərinin, Corat qəsəbəsində valideynlərinin 7 illik oğul həsrətindən sonra dünyaya gəlib.

Vətən müharibəsi başlayan ilk gündən şəhidimiz könüllü olaraq ordu sıralarına yazılıb. Sentyabrın 29-da Füzuli döyüşlərində iştirak edərək yaralanıb. Oktyabrın 1-də şəhidlik zirvəsinə ucalıb. Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn olunub.

O, "Füzulinin azad olunması" və "Vətən uğrunda" medalları ilə təltif təltif edildi.



**Əliyev Sənan Ceyhun oğlu** 1999-cu il avqustun 8-də Goranboy rayonunun Dəliməmmədli şəhərində anadan olub.

Gizir Sənan Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edərək şücaət göstərib. 14 oktyabrda Füzuli rayonu Yuxarı Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub. Noyabrın 23-də şəhid olduğu müəyyənləşib.

Sənan Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əliyev Sənan Əlisəfa oğlu** 1989-cu il aprelin 11-də Beyləqan rayonunun Yeni Mil qəsəbəsində anadan olub.

Gizir Sənan Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sənan Əliyev sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub.

Sənan Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Şöhrət Cambulat oğlu** 1999-cu ilin oktyabr ayının 30-u Gəncə şəhərində anadan olub.

27 sentyabr 2020-ci ildə başlayan İkinci Qarabağ müharibəsinə könüllü yazılaraq döyüşlərə yollanıb. 8 noyabr tarixində Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Şəhidin cənazəsi 16 noyabr tarixində ailəsinə təhvil verilib, 17 noyabr tarixində doğulduğu Gencə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əliyev Tahir Mahir oğlu** 2001-ci il iyulun 20-də Sabunçu rayonunun Maştağa qəsəbəsində anadan olub.

Əsgər Tahir Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tahir Əliyev oktyabrın 13-də Füzuli döyüşləri zamanı şəhid olub. Sabunçu rayonunun Maştağa qəsəbəsində dəfn olunub.

Tahir Əliyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Tamerlan İqrar oğlu** 2002-ci il yanvarın 3-də Quba şəhərində anadan olub.

Əsgər Tamerlan Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tamerlan Əliyev oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Quba şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Tamerlan Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Teymur İman oğlu** 26 mart 1991-ci ildə Göygöl rayonunun Göyçəkənd kəndində anadan olub.

Əsgəri Teymur Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Ailəsi ilə sonuncu dəfə 7 oktyabr tarixində əlaqə saxlayan Teymur Əliyev Hadrut istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. Nəşi 14 dekabr 2020-ci ildə Göygöl Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Teymur Əliyev ölümündən sonra "Vətən uğrunda","Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Təbriz Tofiq oğlu** 2001-ci il avqustun 20-də Qax şəhərində anadan olub. Təbriz Əliyev 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi.

Əsgər Təbriz Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Təbriz Əliyev oktyabrın 19-da Ağdərə istiqamətində şəhid olub. Qax şəhərində dəfn olunub.

Təbriz Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Əliyev Timur Nurəddin oğlu** 1984-cü il mayın 29-da Çirçiq şəhərində anadan olub.

Çavuş Timur Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Timur Əliyev oktyabrın 13-də Füzuli döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Xanlıqlar kəndində dəfn olunub.


Timur Əliyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Turan Sulduz oğlu** 1996-cı il iyulun 7-də Biləsuvar rayonunun Əsgərabad kəndində anadan olub.

Kiçik çavuş Turan Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Turan Əliyev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunun Əsgərabad kəndində dəfn olunub.

Turan Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Tural Arif oğlu** 1991-ci il yanvarın 18-də Beyləqan rayonu Təzəkənd kəndində anadan olub.

Vətən Müharibəsində könüllü olaraq qatılıb. Noyabrın 2-də Şuşa yaxınlığında döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Nəşi 43 gün sonra neytral ərazidən çıxarılaraq ailəsinə təhvil verilib. Dekabrın 15-də Təzəkənd kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Vahib Ramiz oğlu** 24 mart 1997-ci ildə Sabirabad rayonunun Bulduq kəndində anadan olub.

Bu ilin sentyabrın 29-da könüllü olaraq Vətən müharibəsinə yola düşüb. Füzuli, Qubadlı, Zəngilan və Cəbrayıl istiqamətində aparılan döyüş əməliyyatlarında qəhrəmancasına iştirak edən Vahib düşmənin xeyli sayda canlı qüvvəsini məhv edib.

Qubadlıya daxil olarakən güllə yarası alan Vahib irəliləmək istəsə də, komandirləri və hərbçi yoldaşları məsləhət bilməyib. Amma Vahib onlara "siz hara, mən də ora" deyərək Qubadlı uğrunda döyüşə girir. Oktyabr ayının 21-dən 22-nə keçən gecə şəhidlik zirvəsinə ucalıb.

Qeyd edək ki, Vahib Əliyev ölümündən sonra "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əliyev Vüsal Məhəmmədəli oğlu** 1991-ci il oktyabrın 2-də Cəlilabad rayonunun Komanlı kəndində anadan olub.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının giziri olan Vüsal Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal Əliyev oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub.

Vüsal Əliyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xəyal Saleh oğlu Əliyev** 1999-cu il aprelində 25-də Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində anadan olub.

Kiçik çavuş Xəyal Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyal Əliyev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

Xəyal Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Əliyev Yadigar Səfxan oğlu** 1994-cü il iyunun 4-də Goranboy rayonunun Qaradağlı kəndində anadan olub.

Çavuş Yadigar Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Yadigar Əliyev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub.

Yadigar Əliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Yunis Zaur oğlu Əliyev** 19 yanvar 2000-ci ildə Bakı şəhərində anadan olub.

27 sentyabr 2020-ci ildə, Vətən müharibəsi başladıqda ön cəbhədə düşmənlə üz-üzə vuruşmağa başlayıb. 3 oktyabr 2020-ci ildə Suqovuşan'ın işğaldan azad olunmasında da böyük şücaət göstərib, həmçinin yaralı əsgərlərə yardım etməsi ilə seçilib.

5 oktyabr 2020-ci ildə Ağdərədə gedən döyüşlərdə, Batambara meşəsində çiyin-çiyinə döyüşdüyü dostlarını müdafiə edərkən və döyüş tapşırığını layiqincə yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Suraxanı rayonu Bülbülə qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn olunub. Yunis Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Əliyev Yusif Asif oğlu** 2001-ci il fevralın 11-də Şamaxı şəhərində anadan olub.

Əsgər Yusif Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Yusif Əliyev oktyabrın 5-də Füzuli döyüşləri zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Yusif Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Zaur Eldar oğlu** 24 iyul 1989-cu ildə Şəki şəhərində anadan olub. 9 nömrəli məktəbin məzunu olub.

Zaur hərbi xidməti bitirdikdən sonra MAXE kimi Azərbaycan Respublikası Silahlı qüvvələri sıralarında xidmət edib.

27 sentyabrda başlanmış İkinci Qarabağ Müharibəsinə qatılan Zaur torpaqların azadlığı uğrunda gedən döyüşlərdə böyük ruh yüksəkliyi ilə iştirak edib. Oktyabr ayının 14-də Ağdərə rayonu istiqamətində gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olub.



**Ziyadxan İbrahim oğlu Əliyev** 1997-ci il yanvarın 12-də Kürdəmir rayonunun Carlı kəndində anadan olub.

Əsgər Ziyadxan Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı hərbi hospitalda müalicə alırdı. Həmin vaxt hərbi təcili tibbi yardım maşınında döyüş meydanından yaralı hərbçiləri daşımaq üçün əsgər lazım olub. Könüllü olaraq döyüş meydanına yollanan Ziyadxan Əliyev, yaralı hərbçiləri təxliyyə edən zaman 1 oktyabrda Tərtər rayonunun Talış yüksəkliyi istiqamətində gedən döyüşlərdə erməni tərəfinin snayper gülləsi ilə şəhid olub. Kürdəmirin Şəhidlər Xiyabanında dəfn olunub.

Ziyadxan Əliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Elməddin Sübhi oğlu Əlizadə** 11 mart 1997-ci ildə Biləsuvar rayonunun Zəhmətabad kəndində anadan olub.

O, 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsinə könüllü olaraq qoşulub, Füzuli və Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə vuruşub. 8 noyabrda Şuşa şəhəri uğrunda gedən döyüşdə düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Şəhid Elməddin Əlizadə 9 noyabr 2020-ci il tarixində Biləsuvar rayonu Zəhmətabad kənd məzarıstanlığında dəfn olunub.

Elməddin Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əlizadə Elşən Faiq oğlu** 1995-ci il avqustun 10-da tarixdə Tərtər rayonunun İsmayılbəyli kəndində anadan olub.

14.10.2020-ci ildə müharibənin qızğın dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edib. Və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Əlizadə Eltac İsmayıl oğlu** 1996-cı il oktyabrın 15-də Tovuz rayonunun Çataq kəndində anadan olub.

Əsgər Eltac Əlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Eltac Əlizadə oktyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Çataq kəndində dəfn olunub.

Eltac Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əlizadə Famil Habil oğlu** 1999-cu il mayın 3-də Masallı rayonunun Ərkivan qəsəbəsində anadan olub.

Əsgər Famil Əlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

Oktyabrın 21-də şiddətli Füzuli döyüşlərində şəhid olub. Masallı rayonunun Ərkivan qəsəbəsində dəfn edilib.

Famil Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əlizadə Fuad Nazim oğlu** 1994-cü il iyunun 25-də Şahbuz rayonunun Kolanı kəndində anadan olub.

Baş leytenant Fuad Əlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının və Laçın rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Fuad Əlizadə noyabrın 7-də Laçın dəhlizi uğrunda gedən döyüşlər zamanı şəhid olub.

Fuad Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əlizadə Mirzəhəsən Şahin oğlu** 1992-ci il 12 yanvar Astara rayonunun Səncərədi kəndində dünyaya göz açıb. O, Vətən müharibəsinə xidmət etdiyi Həmlə Taborundan qatılıb.

MAHHXHQ əsgər Əlizadə Mirzəhəsən Füzuli Şuşa və Xocavəndin işğaldan azad olunmasında böyük şücaət göstərib. O, müharibənin sonuncu günü Füzuli -Şuşa istiqamətində şəhidlik zirvəsinə ucalıb.

Əlizadə Mirzəhəsən ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.

50 günə yaxın axtarılan şəhidimiz Əlizadə Mirzəhəsən Şahin oğlu 14 dekabr 2020-ci ildə dəfn edildi.



**Əlizadə Nicat Qorxmaz oğlu** 15 sentyabr 2001-ci ildə Sumqayıt şəhərində anadan olub.

Əlizadə Nicat 07 oktyabr 2020-ci il tarixində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda başlamış Vətən müharibəsində Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Biləsuvar rayonu ərazisindəki 3 saylı qəsəbədə salınmış qəbiristanlıqda dəfn edilib.

Əlizadə Nicat Qorxmaz oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əlizadə Nofəl Qəmbər oğlu** Bərdə rayonunun Saatlı kəndində anadan olub.

Nofəl Əlizadə sentyabrın 27-də düşmənin törətdiyi təxribata qarşı əks-hücuma başlanan Vətən müharibəsində Suqovuşanın azad edilməsində iştirak edib və elə orada şəhidlik zirvəsinə ucalıb.

Əlizadə Nofəl Qənbər oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əlizadə Pərvin Vüqar oğlu** 1993-cü il sentyabrın 11-də Bərdə rayonunun Qazaxlar kəndində anadan olub.

Həqiqi hərbi xidmətini Fövqalədə Hallar Nazirliyində keçib.

Leytenant Pərvin Əlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Pərvin Əlizadə 2020-ci il oktyabrın 20-də Ağdərə istiqamətindəki "Tülkü dərəsi" deyilən yerdə 703 saylı hərbi hissənin 5-ci bölüyünün 12-ci postunda şəhid olub. Bərdə rayonunun Birinci Qazaxlar kəndində dəfn olunub.

Pərvin Əlizadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Əlizadə Qorxmaz Arif oğlu** 1995-ci il yanvarın 27-də Qax rayonunun Cəlayir kəndində anadan olub.

Baş leytenant Qorxmaz Əlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Komandiri olduğu dəstə ilə birgə Ermənistan nəzarətində olan dörd postun nəzarətə alınmasında, Ermənistan Ordusunun bir sıra hərbçilərinin əsir götürülməsində xüsusi fərqlənib. Erməni hərbçisinin əsir götürülməsi zamanı əlbəyaxa davada burnunun sınmasına baxmayaraq hospitala yollanmaqdan imtina edib. Qorxmaz Əlizadə oktyabrın 17-də Füzuli rayonu istiqamətində snayper gülləsi nəticəsində şəhid olub. Qax rayonunda dəfn olunub. Qorxmaz Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əlizadə Qurbani Ziyafəddin oğlu** 1992-ci il iyunun 10-da Füzuli rayonunun Yuxarı Kürdmahmudlu kəndində anadan olub.

Çavuş Qurbani Əlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Qurbani Əlizadə oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub.

Qurbani Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əlizadə Ruslan Arif oğlu** 19 noyabr 1993-cü ildə Biləsuvar rayonunun Bəydili kəndində anadan olub.

Ruslan Əlizadə 27 sentyabr 2020-ci il başlanan Vətən müharibəsində Füzuli və Cəbrayıl uğrunda gedən döyüşlərdə vuruşmuş, Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ruslan Əlizadə doğulduğu kənd qəbiristanlığında torpağa tapşırılıb.

Ruslan Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Əlizadə Şamxal Əvəz oğlu** 1 yanvar 1998-ci ildə Gədəbəy rayonunun Çobankənd kəndində anadan olub.

Əsgər Şamxal Əlizadə 27 sentyabr 2020-ci il başlanan Vətən müharibəsində şücaətlə döyüşüb. Şuşa şəhərinin işğaldan azad edilməsi əməliyyatında döyüş yolu keçib.

8 noyabr 2020-ci ildə Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əlizadə Taleh Zaur oğlu** 1995-ci il noyabrın 29-da Cəlilabad rayonunun Alar kəndində anadan olub.

Əsgər Taleh Əlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Taleh Əlizadə oktyabrın 18-də Cəbrayıl döyüşləri zamanı şəhid olub.

Taleh Əlizadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əlizadə Toğrul Rafiq oğlu** 2002-ci il yanvarın 1-də Beyləqan rayonunun Yuxarı Aran qəsəbəsində anadan olub.

Əsgər Toğrul Əlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Toğrul Əlizadə oktyabrın 19-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunda dəfn olunub.

Toğrul Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əlizadə Xəyal Nəsrəddin oğlu** 1995-ci il iyunun 2-də Ağstafa şəhərində anadan olub.

Əsgər Xəyal Əlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyal Əlizadə oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Ağstafa şəhərində dəfn olunub.

Xəyal Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əlizadə Yüksəl İlqar oğlu** 1996-cı il iyunun 5-də Qazax rayonunda anadan olub.

Əsgər Yüksəl Əlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Yüksəl Əlizadə noyabrın 9-da Xocavənd döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Yüksəl Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Eldarzadə Azər İsmixan oğlu** 1994-cü il oktyabrın 25-də Göygöl şəhərində anadan olub.

Əsgər Azər Eldarzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Azər Eldarzadə oktyabrın 3-də Murovdağ döyüşləri zamanı şəhid olub. Göygöl şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azər Eldarzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Eylasov Cəfər Yavər oğlu** 2000-ci il sentyabrın 30-da Mingəçevir şəhərində anadan olub.

Əsgər Cəfər Eylasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cəfər Eylasov oktyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub. Mingəçevir şəhərində dəfn olunub.

Cəfər Eylasov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əmənov Məhəmməd İltizam oğlu** 1996-cı il sentyabrın 18-də Biləsuvar rayonunun Bağbanlar kəndində anadan olub.

Gizir Məhəmməd Əmənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Məhəmməd Əmənov oktyabrın 20-də Ağdərə istiqamətində şəhid olub. Biləsuvar rayonunun Bağbanlar kəndində dəfn olunub.

Məhəmməd Əmənov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Eminli Rüstəm Mais oğlu** 16 sentyabr 1999-cu ildə Yardımlı rayonunun Horonu kəndində anadan olub.

Rüstəm Eminli 15 oktyabr 2020-ci ildə Səfərbərlik Xidməti tərəfindən hərbi xidmətə çağırılıb və Vətən müharibəsində iştirak edib. 1 noyabrda Şuşa uğrunda gedən döyüşlərdə şəhid olub. Yardımlı rayonunun Horonu kəndində dəfn olunub.

Göstərdiyi qəhrəmanlıqlara görə Rüstəm Eminli ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Eminov Nurlan Pərviz oğlu** 2000-ci il iyulun 2-də Kürdəmir rayonunun Ərəbqubalı kəndində anadan olub. 2020-ci ildə həqiqi hərbi xidmətə yollanıb.

MAHHXHQ əsgər Nurlan Eminov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Oktyabrın 3-də Goranboy rayonu Buzluq kəndi yaşayış məntəqəsi istiqamətində, hərbi əməliyyatlar nəticəsində şəhid olub.

Nurlan Eminov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Eminov Tacir İntiqam oğlu** 2001-ci il dekabrın 31-də Cəlilabad rayonunun Sadatlı kəndində anadan olub.

Əsgər Tacir Eminov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tacir Eminov oktyabrın 6-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Cəlilabad rayonunun Sadatlı kəndində dəfn olunub.

Tacir Eminov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əmiraslanov Amin Vaqif oğlu** 1991-ci il iyulun 1-də Saatlı rayonunun Potubəyli kəndində anadan olub.

Əsgər Amin Əmiraslanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amin Əmiraslanov noyabrın 4-də Qubadlı döyüşləri zamanı şəhid olub. Saatlı rayonunda dəfn olunub.

Amin Əmiraslanov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əmiraslanov Ümman Namiq oğlu** 1996-cı il dekabrın 21-də Qəbələ rayonunun Mıxlıqovaq kəndində anadan olub.

Əsgər Ümman Əmiraslanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ümman Əmiraslanov oktyabrın 2-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Qəbələ rayonunda dəfn olunub.

Ülvi Pənahov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əmirli Əmirşah Səttar oğlu** 8 mart 2002-ci ildə Bakı şəhərinin Binəqədi rayonunda anadan olub.

Əsgər Əmirli Əmirşah 2020-ci ilin aprel ayında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin N saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə yollanıb.

28 oktyabr 2020-ci ildə Vətən uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Əmirşah Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əmirli Tofiq Şəmsəddin oğlu** 1992-ci il fevralın 17-də Cəlilabad rayonunun Fətullaqışlaq kəndində anadan olub.

Gizir Tofiq Əmirli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd və Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Tofiq Əmirli oktyabrın 13-də Cəbrayıl döyüşləri zamanı şəhid olub.

Tofiq Əmirli ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əmirov Adəm Elçin oğlu** 26 avqust 1999-cu ildə Ağdam rayonunun Xındırıstan kəndində doğulub.

MAHHXHQ əsgər Adəm Əmirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə şücaətlə döyüşüb. Oktyabrın 15-də Ağdam rayonunda şəhid olub.


O, ölümündən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əmirov Anar Allahverdi oğlu** 29 dekabr 2000-ci ildə Sabirabad rayonunun Bulaqlı kəndində anadan olub.

Əsgər Anar Əmirov 27 sentyabr 2020-ci il tarixində başlayan Vətən müharibəsində iştirak edib, oktyabrın 20-də Zəngilan istiqamətində gedən döyüşlərdə şəhid olub. Füzuli rayonunun Qazaxlar kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.






**Əmirov Emil Zaman oğlu** 2000-ci il dekabrın 9-da Mingəçevir şəhərində anadan olub.

Kiçik çavuş Emil Əmirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Emil Əmirov oktyabrın 14-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Emil Əmirov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əhmədov Elnur Etibar oğlu** 2000-ci il iyulun 21-də Ağdaş rayonunda dünyaya gəlib.

Əsgər Elnur Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı şücaətlə döyüşüb.

Sentyabrın 29-da Goranboy rayonunun Tapqaraqoyunlu kəndinin Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarıyla təltif edildi.



**Əkpərov Cabar Əşrəf oğlu** 2002-ci il iyulun 17-də Xaçmaz rayonunun Müşviq kəndində anadan olub.

Əsgər Cabar Əkpərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Cabar Əkpərov oktyabrın 7-də Ağdərə istiqamətində şəhid olub. Xaçmaz rayonunun Müşviq kəndində dəfn olunub.

Cabar Əkpərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əlimərdanov Elvin İlham oğlu** 1994-cü ilin dekabr ayının 12-də Sumqayıtda anadan olub. Ailənin yeganə övladı idi.

Tovuz döyüşləri zamanı könüllü olaraq orduya yazılıb.

Elvin Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər-Suqovuşan ərazisində döyüşüb. Oktyabrın 16-sı ailəsi onun şəhid olduğu xəbərini eşidib. Uzun müddət nəşini tapa bilməyiblər. Dekabrın 1-də DNT analizi nəticəsində Elvin Əhmədovun nəşini ailəsinə təhvil veriblər.

**Əliyev İbrahim Mustafa oğlu** 1997-ci il fevralın 17-də Kəngərli rayonunun Qabıllı kəndində anadan olub.

Leytenant Əliyev İbrahim 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Əliyev İbrahim sentyabrın 30-u Suqovuşan istiqamətində şəhidlik zirvəsinə yüksəlib. Lakin nəşi 70 gün sonra tapılaraq, dekabrın 7-də göz açdığı doğma Qabıllı kəndində torpağa tapşırılıb.

İbrahim Əliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əliyev Rövşən İbrahim oğlu** 1971-ci il fevralın 10-da Qaradağ rayonunda anadan olub.

Əsgər Rövşən Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli istiqamətlərində gedən döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələrinin tanklarının saz vəziyyətə gətirilməsində xidməti olan bölmələrin heyətində yer alıb. Rövşən Əliyev sentyabrın 28-də Füzuli rayonu ərazisində şəhid olub. Qaradağ rayonunda dəfn olunub.

Rövşən Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Sərxan İslam oğlu Əliyev** 16 yanvar 1998-ci ildə Sumqayıt şəhərində anadan olub.

Əsgər Sərxan Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb və torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Sərxan Əliyev ölümündən sonra "Vətən uğrunda","Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əlizadə Nəriman Nurəhməd oğlu** 6 aprel 1997-ci ildə Biləsuvar rayonunda anadan olub.

Nəriman Əlizadə 27 sentyabr 2020-ci il tarixdən başlanan Vətən müharibəsində iştirak edib, Cəbrayıl, Füzuli və Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə şəhid olub.

Nəriman Əlizadə 29 noyabr 2020-ci il tarixində Biləsuvar şəhər məzarıstanlığında dəfn olunub.

Nəriman Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əlizadə Tahir Qəribəli oğlu** 1994-cü il iyunun 21-də Biləsuvar şəhərində anadan olub.

Gizir Tahir Əlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tahir Əlizadə noyabrın 8-də Şuşa döyüşləri zamanı ağır yaralanıb və dekabrın 6-da Mingəçevir şəhərinin Hərbi Hospitalında şəhid olub. Biləsuvar şəhərində dəfn olunub.

Tahir Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əmiraslanov Elgün Sərvan oğlu** 1995-ci il aprelin 25-də Göygöl rayonunda anadan olub.

Əsgər Elgün Əmiraslanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı qəhrəmanlıqla döyüşüb.

Sentyabrın 27-də Goranboy rayonu Buzluq kəndi yaşayış məntəqəsi istiqamətində, düşmənin "Camış aşırımı – 3305 yüksəkliyi" yaxınlığında hərbi əməliyyatlar nəticəsində şəhid olub.

O, ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə " medalı ilə təltif edildi.



**Emnalıyev Orxan Eyvaz oğlu** 1994-cü il noyabrın 5-də Tovuz rayonunun Aşağı Mülkülü kəndində anadan olub.

Baş leytenant Orxan Emnalıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə tankçı kimi savaşıb. Orxan Emnalıyevin idarə etdiyi tank oktyabrın 26-da Qubadlı döyüşləri zamanı vurulub və o, qanitirmədən şəhid olub. Tovuz rayonunun Aşağı Mülkülü kəndində dəfn olunub.

Orxan Emnalıyev ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əmrahov Emin Əvəz oğlu** 1989-cu il iyunun 9-da Ağstafa rayonunun Qırılı kəndində anadan olub.

Çavuş Emin Əmrahov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Emin Əmrahov oktyabrın 27-də Xocavənd döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Qırılı kəndində dəfn olunub.

Emin Əmrahov ölümündən sonra "Vətən uğrunda","Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əmrahov Vüqar Mübariz oğlu** 1994-cü il avqustun 17-də Tovuz rayonunun Xatınlı kəndində anadan olub.

Əsgər Vüqar Əmrahov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüqar Əmrahov oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub. Nəşi uzun müddət tapıla bilməyib. Dekabrın 25-də Tovuz rayonunun Xatınlı kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Əmrahov Rasim İmran oğlu** 1988-ci ilin oktyabr ayının 12-də Yevlax rayonunun Ərəbbəsrə kəndində anadan olub.

MAXE əsgər Rasim Əmrahov 27 sentyabr 2020 ci il tarixində torpaqlarımızın azadlığı uğrunda başlanan Vətən müharibəsində bütün əsgər və zabitlərimiz kimi iştirak edib və 2020 ci ilin oktyabrın 8-də Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Əmrahov Saməddin Şamil oğlu** 1978-ci il oktyabrın 2-də Kəlbəcər şəhərində anadan olub.

Kiçik çavuş Saməddin Əmrahov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Saməddin Əmrahov oktyabrın 4-də Murovdağ döyüşləri zamanı şəhid olub. Oğuz rayonunun Calut kəndində dəfn olunub.

Saməddin Əmrahov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Ənnağıyev Babək Oktay oğlu** 28 aprel 1994-cü ildə Sabirabad rayonu Qasımbəyli kəndində anadan olmuşdur.

Əsgər Babək Ənnağıyevin döyüş yolu 29 sentyabrdan başlanıb, elə başlanğıcdan erməni fəndgirlərinin viran qoyduğu Füzuli uğrunda gedən ağır döyüşlərin iştirakçısı olub. Oktyabrın 7-də Füzuli ətrafında döyüşlərin birində ağır yaralanaraq döyüşçü yoldaşlarından ayrılıb. İlk tibbi yardım göstərilsə də hospitala çatdırmaq mümkün olmayıb, elə yoldaca gözlərini həyata əbədi yumub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Ənvərli Aqşin Faiq oğlu** 1994-cü il oktyabrın 10-da Qəbələ şəhərində anadan olub.

Leytenant Aqşin Ənvərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Qubadlının, Şuşanın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə yaralanan hərbçilərə yerindəcə yardım edib. Aqşin Ənvərli noyabrın 6-da Xocavənd döyüşləri zamanı şəhid olub. Döyüşlər zamanı səngərdə "baş leytenant" rütbəsi alıb. Qəbələ rayonunda dəfn olunub.

Aqşin Ənvərli ölümündən sonra "Vətən uğrunda" medalı, və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.



**Ərəbov Orxan Ramiz oğlu** 1993-cü il avqustun 24-də Samux rayonunun Qədili kəndində anadan olub.

Əsgər Orxan Ərəbov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Ərəbov sentyabrın 28-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Samux rayonunda dəfn olunub.

Orxan Ərəbov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Heybullah Məzahir oğlu Əsdiyev** 1993-cü il oktyabrın 14-də Balakən rayonunun Qaysa kəndində anadan olub.

Əsgər Heybullah Əsdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Heybullah Əsdiyev oktyabrın 16-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Qaysa kəndində torpağa tapşırılıb.

Heybullah Əsdiyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsədli Cahid Zahit oğlu** 18 yanvar 2002-ci ildə İmişli rayonunun Sarıxanlı kəndində dünyaya gəlib.

Əsgər Cahid Əsədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. 21 oktyabr 2020-ci ildə Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Cahid Əsədli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Əsədli Əsəd Mahir oğlu** 1995-ci il iyunun 17-də Masallının Çayqıraq kəndində anadan olub.

Vətən müharibəsi başlandıqdan sonra ilk günlərdən döyüşlərə qatılıb, Füzulidə, Xocavənddə düşmənə ağır zərbələr vurub. Son döyüşü noyabrın 9-da Xocavənd rayonunun strateji yüksəkliklərindən birinin müdafiəsi uğrunda olub. Əsəd döyüş yoldaşlarını mühasirədən çıxarsa da, özü şəhid olub. O, döyüşə getməzdən əvvəl çəkdiyi videoda deyilən fikirlə də yaddaşlarda qaldı: "İnşallah, sağ qayıdarıq, əgər şəhid olsaq belə, biz ölməyəcəyik..."


Əsəd Əsədli ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə" və "Xocəvəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsədov Anar Rafiq oğlu** 1982-ci il avqustun 10-da Füzuli şəhərində anadan olub.

Kiçik çavuş Anar Əsədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Anar Əsədov sentyabrın 29-da Füzuli döyüşləri zamanı şəhid olub.


Anar Əsədov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsədov Baxış Sahib oğlu** 1999-cu il iyunun 30-da Ağdam rayonu Birinci Yüzbaşlı kəndində anadan olub.

MAHHXHQ əsgər Əsədov Baxış 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərdə savaşıb. Sentyabrın 28-də Suqovuşan döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əsədov Əli Akif oğlu** 8 aprel 1993-cü ildə Mingəçevirdə anadan olub.

Əli Əsədov 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edərək 2020-ci il oktyabrın 13-də qəhrəmancasına şəhid olub.

Əli Əsədov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.






**Əsədov Əli Bayram oğlu** 27 may 2000-ci ildə Ağcabədinin Şahsevən Təzəkənd kəndində anadan olub.

Əsgər Əli Əsədov 2020-ci ilin sentyabrının əvvəllərindən könüllü olaraq orduda müddətdən artıq hərbi qulluqçu kimi xidmət etməyə başlayır. Vətən müharibəsinin ilk günündən ön cəbhənin döyüşçüləri sırasında vuruşur. Cəmi 21 yaşı olan Vətən fədaisi Əsədov Əli ömrünün bulaq kimi çağlayan dövründə oktyabr ayının 11-də Füzuli istiqamətində gedən artilleriya döyüşündə şəhidlik zirvəsini fəth etdi. 11 oktyabr 2020-ci il tarixində göz açdığı doğma kəndlərinin qəbristanlığıda torpağa tapşırıldı.

O, ölümündən sonra "Vətən Uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə"və"Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Əsədov Emil Balaqardaş oğlu** 1998-ci il yanvar 11-də Salyan rayonunun Çuxanlı kəndində anadan olub.

Leytenant Emil Əsədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Taqım Komandiri olaraq Hadrutun, Füzulinin, Qubadlının, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Döyüşlər zamanı Ermənistan ordusunun 90-dan çox canlı qüvvəsini və 14 texnikasını məhv edib, bir neçə dəfə silah yoldaşlarını mühasirədən çıxarıb, buna görə də "Qaya 11" ləqəbini qazanıb. Döyüşlər zamanı yaralanıb hospitala təxliyə olunsa da, bir müddət sonra yenidən döyüş meydanına qayıdıb. Emil Əsədov noyabrın 8-də Xocavənd döyüşləri zamanı şəhid olub. Salyan rayonunda dəfn olunub.

Emil Əsədov "Qarabağ" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsədov Əsəd Cəmaləddin oğlu** 29 mart 1978-ci ildə Neftçalanın Tatarməhlə kəndində anadan olub.

Baş leytennat Əsəd Əsədov 21 sentyabr 2020-ci ildə başlanan hərbi təlimlərə, sonradan isə 27 sentyabrda başlanan Vətən müharibəsinə qatılıb. Cəbhənin müxtəlif istiqamətlərində döyüşlərdə iştirak edib. 13 oktyabr 2020-ci ildə Füzuli uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsədov Murad Rüstəm oğlu** 15.12.1999-ci ildə Ağcəbədi rayonunun Şərəfxanlı kəndində anadan olub.

Əsgər Murad Əsədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində döyüşlərə könüllü qatılıb. Murad Əsədov 08.10.2020-ci il tarixində Fizuli uğrunda gedən gərgin döyüşlərdə 10-dan çox düşmən əsgərini təkbaşına məhv edib, əsgər yoldaşlarını qoruyarkən düşmən güllələsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Şəhid olmadan bir neçə saat öncə evdəkilərə zəng edib, "hallalıq alıb" və "Mən şəhid olacam bunu hiss edirəm" – deyib.

O, ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**Əsədov Ruslan Rövşən oğlu** 2002-ci il martın 7-də Samux rayonunun İnstitut qəsəbəsində anadan olub.

Əsgər Ruslan Əsədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ruslan Əsədov oktyabrın 20-də Füzuli döyüşləri zamanı şəhid olub. Samux rayonunda dəfn olunub.


Ruslan Əsədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əsədov Saleh Səməd oğlu** 1984-cü il dekabrın 29-da Beyləqan rayonunun Kəbirli kəndində anadan olub.

Çavuşu olan Saleh Əsədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Saleh Əsədov oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunun Kəbirli kəndində dəfn olunub.

Saleh Əsədov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsədov Səbuhi Azər oğlu** 19 yanvar 1999-cu ildə Bakı şəhərində anadan olub.

27 sentyabr Vətən müharibəsinin başlanması ilə cəbhənin Tərtər istiqamətində Talış və Suqovuşan uğrunda gedən döyüşlərə qatılıb. 8 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində şəhid olub.

Səbuhi Əsədov "Vətən uğrunda" medalı ilə təltif olundu.



**Əsədov Tural Sərvan oğlu** 2 fevral 1990-cı ildə Beyləqan rayonunda anadan olub.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başladıqdan sonra Azərbaycanda qismən səfərbərlik elan edilir. Tural Əsədov səfərbər olunur və tez bir zamanda çağırılır.

Əsgər Tural Əsədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Əsədov 8 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Tural Əsədov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.






**Əsədullayev Elnur İmran oğlu** 1998-ci il iyunun 13-də Lerik şəhərində anadan olub.

Kiçik gizir Elnur Əsədullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur Əsədullayev oktyabrın 14-də Füzuli döyüşləri zamanı şəhid olub. Lerik şəhərində dəfn olunub.

Elnur Əsədullayev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsədzadə Zaur Teyyub oğlu** 2002-ci il fevralın 1-də Beyləqan rayonunda anadan olub.

Əsgər Zaur Əsədzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində gedən döyüşlərdə iştirak edib. Zaur Əsədzadə oktyabrın 9-da Suqovuşan istiqamətində gedən döyüşlər zamanı şəhid olub.

Zaur Əsədzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əsgərli İntiqam Bayram oğlu** 16 avqust 1990-cı ildə Masallı rayonunun Viləş kəndində anadan olub.

Gizir İntiqam Əsgərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. 9 noyabr 2020-ci ildə Şuşa istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

İntiqam Əsgərliyə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

İntiqam Əsgərli ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsgərli Tural Ələmdar oğlu** 1993-cü il aprel ayının 20-də Kəngərli rayonunun Qıvraq qəsəbəsində anadan olub.

Baş leytenant Əsgərli Tural 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ və Kəlbəcər rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Müharibənin ilk günlərində 3 əsgəri ilə düşmənin 2 postunu ələ keçirib. Əsgərli Tural oktyabr ayının 1-də Kəlbəcər uğrunda gedən döyüşlər zamanı şəhadətə yüksəlib. Oktyabr ayının 3-də Bakının II Fəxri Xiyabanında dəfn olunub.

Tural Əsgərli ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əsgərov Asəf İlqar oğlu** 1989-cu il martın 5-də Bərdə rayonunun Mustafaağalı kəndində anadan olub.

Gizir Asəf Əsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Asəf Əsgərov oktyabrın 12-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Asəf Əsgərov "Qarabağ" ordeni ilə təltif edildi.

Asəf Əsgərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əsgərov Elçin Yalçın oğlu** 1997-ci il fevralın 3-də Kəngərli rayonunun Qıvraq qəsəbəsində anadan olub.

Leytenant Elçin Əsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elçin Əsgərov oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub. Kəngərli rayonunda dəfn olunub.

Elçin Əsgərov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsgərov Fərid Ərəstun oğlu** 1996-cı il mayın 21-də Neftçala rayonunun Qaçaqkənd kəndində hərbçi ailəsində anadan olub.

O, 44 günlük Vətən müharibəsinə könüllü olaraq qatılıb, oktyabrın 3-də cəbhəyə yollanıb. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı uğrunda gedən döyüşlərdə iştirak edərək igidlik göstərib. Noyabrın 4-də Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsgərov Firavan Xanbala oğlu** 14 mart 2001-ci ildə Sabirabad rayonunun Surra kəndində anadan olub.

Xüsusi Təyinatlı Firavan Əsgərov Cəbrayıl, Füzuli, Qubadlı və Xocavənd rayon qəsəbə və kəndlərinin də düşməndən azad olunmasında qəhrəmanlıq göstərib. Hadrut qəsəbəsinin azad edilməsi istiqamətində də ağır döyüşlərdə iştirak edir. Uşaqlıqdan qorxmazlığı, cəsarəti ilə seçilən Firavan təkbaşına 10 nəfərdən çox düşmən əsgər və zabitini məhv etsə də bu onun son döyüşü olur, aldığı ağır güllə yarasından şəhidlik məqamına ucalır...

O, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əsgərov İbrahim Məzahir oğlu** 27.10.1995-ci ildə Beyləqan rayonunda anadan olub.

27 senytabrda döyüş meydanına ilk atılan qəhrəmanlardan olub. Tağım komandiri olan Məzahir Füzuli, Ağdam, Ağdərə və Xocavənd rayonlarında gedən ağır döyüşlərdə iştirak edib. Döyüş yoldaşları ilə Xocavənddə Qızıl qaya istiqmətində mühasirəyə düşürlər, erməni bunlara yaxın gəlməyə ürək eləmir, əl qumbarasını partladıb 8 erməni öldürürlər. Ondan sonra onlar artireliya ilə vurularaq şəhid olurlar.

Məzahir Əsgərov noyabrın 6-da şəhidlik zirvəsinə ucalır. Ölümündən sonra "Vətən uğrunda", və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilir.



**Əsgərov İlkin Rauf oğlu** 6 sentyabr 2000-ci ildə Gəncə şəhərində dünyaya göz açıb.

Əsgər İlkin Əsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə könüllü olaraq qatılır. Müharibənin bir çox hərbi əməliyyatlarında vuruşub. 9 noyabr 2020-ci ildə Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Bir müddət nəşi tapılmır. Noyabrın 17-si tapılır, 18-i isə Gəncədə Şəhidlər Xiyabanında torpağa tapşırılır.

İlkin Əsgərov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Əsgərov Kamran Bayram oğlu** 1993-cü il dekabrın 2-də Tovuz rayonunun Düz Cırdaxan kəndində anadan olub.

Əsgər Kamran Əsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə könüllü olaraq savaşıb. Kamran Əsgərov oktyabrın 22-də Ağdərə istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Tovuz rayonunun Düz Cırdaxan kəndində dəfn olunub.

Kamran Əsgərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əsgərov Musa Əlifağa oğlu** 1997-ci il fevralın 17-də Cəlilabad rayonunun Sabirabad kəndində anadan olub.

Leytenant Musa Əsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ döyüşlərində, həmçinin Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə döyüşüb. Musa Əsgərov sentyabrın 28-də Cəbrayıl rayonu Cəfərabad kəndində kəşfiyyatda olarkən düşmən tərəfindən pusquya düşürülərək şəhid olub. Onun nəşi 4 gün düşmənin nəzarət etdiyi ərazidə qalıb. Oktyabrın 2-də onun nəşi döyüş meydanından götürülərək ailəsinə təhvil verilib.

Musa Əsgərov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əsgərov Musa Rövşən oğlu** 16 iyun 2000-ci ildə Daşkəsən rayonunun Muşavaq kəndində doğulub.

Əsgər Musa Əsgərov 27 sentyabr 2020-ci il tarixində başlayan Vətən müharibəsində iştirak edib. O, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının azad olunması uğrunda döyüşüb.

27 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində şəhid olub. 9 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilib.

Əsgərov Musa ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsgərov Novruz Ələddin oğlu** 1980-ci il dekabrın 1-də Ağdam rayonunun Quzanlı qəsəbəsində anadan olub.

Mayor Novruz Əsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Novruz Əsgərov sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Ağdam rayonunun Quzanlı qəsəbəsində dəfn olunub.

Novruz Əsgərov ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Əsgərov Rauf Vaqif oğlu** 1978-ci il noyabrın 2-də Gəncə şəhərində anadan olub.

Baş leytenant Rauf Əsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rauf Əsgərov oktyabrın 26-da Füzuli döyüşləri zamanı əsgərini neytral zonadan təxliyə edən zaman şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.


Rauf Əsgərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əsgərov Rüfət Mürvət oğlu** 1981-ci il avqustun 29-da Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olub.

Mayor Rüfət Əsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda döyüşlərdə, həmçinin Ağdərə şəhəri istiqamətində gedən döyüşlərdə savaşıb. Ermənistan Silahlı Qüvvələrinin 24-dən çox hərbçisini məhv edib, həmçinin üç postun Azərbaycan Ordusunun nəzarəti altına alınmasında fərqlənib. Rüfət Əsgərov oktyabrın 14-də Ağdərə şəhəri istiqamətində şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Rüfət Əsgərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Əsgərov Rüfət Qabil oğlu** 1997-ci il yanvarın 29-da Rusiya Federasiyasının Rostov şəhərində anadan olub.

Əsgər Rüfət Əsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Rüfət Əsgərov oktyabrın 25-də Qubadlı döyüşləri zamanı şəhid olub. Bakı şəhərinin Binə qəsəbəsində torpağa tapşırılıb.

Rüfət Əsgərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsgərov Sadiq Elbəyi oğlu** 12.12.1996-cı ildə Yevlax rayonunun Nemətabad kəndində anadan olub.

Müharibə zamanı mexanik sürücü kimi hərbi xidmətini yerinə yetirib. Talış-Suqovuşan istiqamətində döyüş yolu keçib.

28.09.2020-ci ildə Talış Suqovuşan istiqamətində gedən döyüşlər nəticəsində şəhid olub.

O, "Suqovuşanın azad olunması" medalı ilə təltif edilib.



**Əsgərov Samid Gülmalı oğlu** 1989-cu il oktyabrın 12-də Neftçala rayonunun Boyat kəndində anadan olub.

Kapitan Əsgərov Samid 2020-ci ildə sentyabr ayının 27-si 07:30-da döyüş əmri verilməsi ilə döyüşə yollanır. Əsgərov Füzuli rayonu Seyidəhmədli istiqamətində döyüşə başlayır. Samid qəlpə yarası alır və buna baxmayaraq döyüşə davam etməliyik deyir. Bu zaman düşmən tərəfindən minaatan vasitəsilə Əsgərov növbəti zərbəni alır və döyüş meydanında qəhrəmancasına şəhid olur. Sentyabr ayının 30-dan sonra Əsgərovdan zənglər kəsilir. O gecədən atası oğlunu tapmaq üçün cəbhə bölgəsinə yollanır. Oktyabr ayının 3-ü Kapitan Samid Əsgərov yaşadığı Neftçala şəhərinin Şəhidlər Xiyabanında izdihamla son mənzilə yola salınır. "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsgərov Şəhriyar İsa oğlu** 1991-ci il aprelin 17-də Göytəpə şəhərində anadan olub.

Çavuş Şəhriyar Əsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şəhriyar Əsgərov oktyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub.

Şəhriyar Əsgərov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əsgərov Taqi Nizami oğlu** 2001-ci il aprelin 9-da Gəncə şəhərində anadan olub.

Əsgər Taqi Əsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Taqi Əsgərov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Taqi Əsgərov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə","Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsgərov Təbriz Çapay oğlu** 18 iyul 1997-ci ildə Kəngərli rayonunun Xok kəndində dünyaya göz açıb.

Əsgər Təbriz Əsgərov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Hadrutun, Qubadlının, Zəngilanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi uğrunda gedən döyüşlərdə fərqlənib. 8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. 13 noyabr tarixində Naxçıvanda torpağa tapşırılıb.

Təbriz Əsgərov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsgərov Vüqar Rza oğlu** 1994-cü il noyabrın 26-da Şərur (indiki Kəngərli) rayonunun Qarabağlar kəndində anadan olub.

Əsgər Vüqar Əsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüqar Əsgərov 25 oktyabr 2020-ci ildə Şuşa ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Vüqar Əsgərov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsgərzadə Xəyal İsrafil oğlu** 1995-ci il dekabrın 15-də Şəki rayonunun Qayabaşı kəndində anadan olub.

Əsgər Xəyal Əsgərzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyal Əsgərzadə oktyabrın 19-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Şəki rayonunun Qayabaşı kəndində dəfn olunub.

Xəyal Əsgərzadə ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əsgərov Xaqani Səfa oğlu** 1995-ci il avqustun 27-də Xaçmaz rayonunun Qusarçay kəndində anadan olub.

Kiçik çavuş Xaqani Əsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xaqani Əsgərov sentyabrın 29-da Füzuli döyüşləri zamanı şəhid olub.

Xaqani Əsgərov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əşrəfov Məhəmməd Yusif oğlu** 2002-ci il aprelin 9-da Goranboy rayonunun Veyisli kəndində anadan olub. O, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli və Cəbrayıl rayonunun azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 9-da Füzuli rayonunun Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

Məhəmməd Əşrəfov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Eyniyev Tərlan Gölişad oğlu** 1993-cü il yanvarın 22-də Yardımlı rayonunun Zevin kəndində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Tərlan Eyniyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tərlan Eyniyev oktyabrın 5-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Xəzər rayonunda dəfn olunub.

Tərlan Eyniyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Eynullayev Rövşən Elşən oğlu** 14 fevral 2000-ci ildə Biləsuvar rayonunun Nərimankənd kəndində anadan olub.

Rövşən Eynullayev 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, Cəbrayıl və Füzuli rayonları istiqamətində gedən döyüşlərdə vuruşub və düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub. Şəhid Rövşən Eynullayev 29 sentyabr 2020-ci il tarixində Biləsuvar rayonunun Nərimankənd kənd məzarıstanlığında dəfn olunub.

Rövşən Eynullayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Eyvazlı Məzdək Əli oğlu** 26 fevral 1996-cı ildə Bakı şəhərində anadan olub.

Əsgər Məzdək Eyvazlı 27 sentyabrda başlayan Vətən müharibəsinə ilk gündən yollanıb. Füzuli uğrunda döyüşlərdə vuruşub. O, 29 oktyabr 2020-ci ildə Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Məzdək Eyvazlı ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Eyvazlı Rüfət Arzu oğlu** 1994-cü il sentyabrın 16-da anadan olub. O, anasının və ailəsinin tək güvənc yeri idi.

Əsgər Rüfət Eyvazlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Şəhid Rüfət Eyvazlı cəsarətli döyüşçü kimi ön cərgələrdə olub. Yağı düşmənin birinci istehkam xəttinin darmadağın edilməsi əməliyyatlarında iştirak edib. Ondan geridə qalan şirin xatirələr və bir də azadlığına qovuşmuş Vətən torpaqlarıdır. Rüfət Eyvazlı 12.10.2020-ci ildə Xocavənd rayonun azad olunması uğurunda gedən döyüşlərdə şəhid olub.

Rüfət Eyvazlı ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Eyvazov Əbülhəsən Balaş oğlu** 1 noyabr 1996-cı ildə Kürdəmir rayonunun Mollakənd kəndində anadan olub.

Əsgər Əbülhəsən Eyvazov 2020-ci il sentyabr ayının 21-i, səfərbərlik elan olunması ilə əlaqədar Əbülhəsən hərbi təlimlərə çağırılır. 27 sentyabr 2020-ci ildə İkinci Qarabağ müharibəsi başlayanda Füzuli rayonunda yerləşən hərbi bölmələrin tərkibində döyüşlərə qatılır. 30 oktyabr 2020-ci ildə Füzuli rayonu ərazisində yerləşən "bunker" adlanan yerə yaxın ərazidə gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhid olur.

Eyvazov Əbülhəsən Balaş oğlu ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Əli Seyran oğlu Eyvazov** 2001-ci il iyunun 30-da Göyçay şəhərində anadan olub.

Əsgər Əli Eyvazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Əli Eyvazov oktyabrın 14-də şəhid olub. Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Əli Eyvazov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Eyvazov İslam Həsən oğlu** 1999-cu il aprelin 7-də Naxçıvan şəhərində anadan olub.

İslam Eyvazov 2 ay sonra vətənini qorumaq üçün ön cəbhyə yola salınıb. Cəbrayıl, Füzuli, Xocavənd istiqamətində ön cəbhədə vuruşub. 09.11.2020-ci ildə Xocavənddə şəhid olub. Qaraxanbəyli kənd məzarlığında dəfn olunub.

İslam Eyvazov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Eyvazov Rəşad Babək oğlu** 20 iyul 2002-ci ildə Astara rayonunun Pəlikəş kəndində anadan olub.

Əsgər Rəşad Eyvazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin, Cəbrayılın və Xocavəndin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Rəşad Eyvazov 19 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Rəşad Eyvazov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əyyubov Ceyhun Savalan oğlu** 1992-ci il avqustun 16-da Yevlax şəhərində anadan olub.

Baş leytenant Ceyhun Əyyubov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Ceyhun Əyyubov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub, nəşi isə neytral ərazidə qalıb. Oktyabrın 11-də nəşi qarşı tərəfdən götürüldü və ailəsinə təhvil verildi. Bir gün sonra isə Yevlax şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Ceyhun Əyyubov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Eyyubov Sərvan Yusif oğlu** 2 noyabr 1998-ci ildə Qəbələ rayonunun Böyük Pirəli kəndində anadan olub.

Xidmətini çavuş olaraq başa vurub. 29 sentyabr 2020-ci ildə Vətən müharibəsinə kəşfiyyatçı olaraq qatılıb. 12 oktyabr 2020-ci ildə Tərtər istiqamətində şəhid olub. Qəbələ rayonu Böyük Pirəli kənd məzarlığında dəfn edilib.

Eyyubov Sərvan ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Eyyubov Tural Yadulla oğlu** 1992-ci il iyulun 2-də Kürdəmir rayonunun Mollakənd kəndində Yadulla və Gülnarə Eyyubovların ailəsində anadan olub.

Leytenant Tural Eyyubov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Eyyubov oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub. Kürdəmir rayonunda dəfn olunub.

Tural Eyyubov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əzimov Cavanşir Calal oğlu** 1997-ci il mayın 23-də Beyləqan rayonunun Birinci Şahsevən kəndində anadan olub.

Gizir Cavanşir Əzimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cavanşir Əzimov oktyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub.


Cavanşir Əzimov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əzimov Saatmirzə Feyruz oğlu** 16 oktyabr 1997-ci ildə Siyəzən şəhərində anadan olub.

Əsgər Saatmirzə Əzimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Füzulinin, Cəbrayılın və Xocavəndin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. 17 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Tuğ kəndində döyüş tapşırığının yerinə yetirilməsi zamanı beyni zədələnərək ağır yaralanıb və xəstəxanaya yerləşdirilib. Saatmirzə Əzimov 17 dekabr 2020-ci ildə müalicə aldığı xəstəxanada şəhid olub. Saatmirzə Əzimovun nəşi Siyəzən şəhər qəbiristanlığında dəfn olunub.

Saatmirzə Əzimov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əzizli Sabir Hikmət oğlu** 14 noyabr 1998-ci ildə İmişli şəhərində anadan olub.

Əsgər Sabir Əzizli 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin və Cəbrayılın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Ailəsi ilə sonuncu dəfə 29 oktyabr tarixində əlaqə saxlayıb. Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə ağır yaralansa da, döyüşlərə yenidən davam edib və döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Uzun müddət itkin olaraq axtarılan Sabir Əzizlinin nəşi 10 yanvar 2021-ci ildə İmişli Şəhidlər Xiyabanında dəfn edilib.

Sabir Əzizli "Cəsur döyüşçü", "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Əzizli Elnur Şahin oğlu** 25 sentyabr 2000-ci ildə Biləsuvar şəhərində anadan olmuşdur.

Əsgər Elnur Əzizli 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə vuruşub və düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Şəhid Elnur Əzizli 12 noyabr 2020-ci il tarixində Biləsuvar şəhər məzarıstanlığında dəfn edilib.

Elnur Əzizli ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əzizli Tacəddin Şahəddin oğlu** 1994-cü il avqustun 7-də Salyan rayonunun Sarvan kəndində anadan olub.

Əsgər Tacəddin Əzizli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tacəddin Əzizli noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Salyan rayonunda dəfn olunub.

Tacəddin Əzizli ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əzizov Ayşad Qaryağdı oğlu** 5 sentyabr 1990-cı il tarixində Azərbaycanın Tərtər rayonunun Əskipara kəndində anadan olub. Ayşad Əzizov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Həmin gün Talış kəndi uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Elçin Əvəz oğlu** 1985-ci il martın 30-da Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olub.

Baş leytenant Elçin Əzizov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elçin Əzizov oktyabrın 13-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.


Elçin Əzizov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Əzizov Elgün Elman oğlu** 1990-cı il yanvarın 8-də Şamaxı rayonunun Qurdtəpə kəndində anadan olub.

Baş leytenant Elgün Əzizov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Elgün Əzizov oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhid olub. Müşfiqabad qəsəbəsində torpağa tapşırılıb.

Elgün Əzizov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əzizov Elvin Əfrail oğlu** 25 mart 1986-cı ildə Masallı rayonunun Qarğalıq kəndində anadan olub.

Azərbaycan Ordusunun giziri Elvin Əzizov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunması uğrunda Füzuli rayonu ərazisində gedən qızğın döyüşlərdə düşmənə qarşı böyük mərdliklə döyüşərək şəhidlik zirvəsinə ucalıb.

Elvin Əzizov oktyabrın 16-da doğulduğu Qarğalıq kənd qəbiristanlığında izdihamla torpağa tapşırılıb.

Gizir Elvin Əfrail oğlu Əzizov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əzizov Əziz Məmmədvəli oğlu** 1 mart 2000-ci ildə Şəki rayonunun Qayabaşı kəndində anadan olub.

Əsgər Əziz Əzizov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın, Qubadlının, Laçının və Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Əziz Əzizov 5 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Əziz Əzizov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Əzizov İbrahim Şaməddin oğlu** 1997-ci il dekabrın 26-da Cəlilabad rayonunun Soltankənd kəndində anadan olub.

Əsgər İbrahim Əzizov 2020-ci il sentyabrın 21-i komissarlıq tərəfindən səfərbərliyə cəlb olunub. Füzuli istiqamətində döyüşüb, Füzuli və Qubadlının azad olunmasında iştirak edib.

O, noyabrın 8-i saat 4-5 radələrində Şuşanın Daşaltı kəndində qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Noyabrın 16-sı Cəlilabadın Soltankənd kəndində dəfn edilib.

Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin və Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhidin Vətənə əmanət bir qız övladı var.






**Əzizov Mail Mahir oğlu** 2000-ci il avqustun 28-də Lənkəran rayonunun Şağlaküçə kəndində anadan olub.

Mail Əzizov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Azərbaycanın işğalda olan torpaqlarının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mail Əzizov oktyabrın 2-də Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Mail Əzizov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Əzizov Qüdrət Bəhruz oğlu** 19 iyun 1997-ci ildə Göyçay rayonunun Bığır kəndində anadan olub.

27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsinə 29 sentyabrda könüllü olaraq orduya qoşulub, Cəbrayıl, Füzuli, Qubadlı, Xocavənd istiqamətində gedən döyüşlərdə şücaət göstərib. Noyabrın 9-da Şuşada şəhid olub.

Qüdrət Əzizov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əzizov Şəmistan İlyas oğlu** 1993-cü il dekabrın 6-da Göyçay rayonunun Qaraxıdır kəndində anadan olub.

Əsgər Şəmistan Əzizov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Şəmistan Əzizov oktyabrın 15-də şəhid olub. Göyçay rayonunda dəfn olunub.

Şəmistan Əzizov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Əzizov Sübhan Məmməd oğlu** 1999-cu il yanvarın 17-də Salyan rayonunun Dayıkənd kəndində anadan olub.

Əsgər Sübhan Əzizov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Sübhan Əzizov noyabrın 7-də şəhid olub.

Sübhan Əzizov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Əzizov Teymur Əli oğlu** 1987-ci il iyunun 22-də Sumqayıt şəhərində anadan olub.

Leytenant Teymur Əzizov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Teymur Əzizov oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhid olub.

Teymur Əzizov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əzizov Xəyyam Əli oğlu** 08 noyabr 1995-ci ildə Neftçala şəhərində fəhlə ailəsində anadan olub.

Baş leytenant Xəyyam Əzizov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyyam Əzizov noyabrın 6 da döyüş tapşırığının yerinə yetirilməsi zamanı ayağından ağır yaralanmış lakin döyüş bölgəsindən təxliyyə edilməsinə razı olmayaraq sona kimi mübarizəni davam etdirib və noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Neftçala rayonunda dəfn olunub.

Xəyyam Əzizov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi. Xəyyam Əzizov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Fətaliyev Şahin Şamxal oğlu** 30 iyul 1999-cu ildə Beyləqan rayonunun Bolsulu qəsəbəsində anadan olub.

Əsgər Şahin Fətaliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində olaraq iştirak edib. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Şahin Fətaliyev 30 sentyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Şahin Fətaliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Fərəcov Fərid Yaşar oğlu** 11 noyabr 1998-ci ildə Ağcabədi rayonunun Muğanlı kəndində dünyaya göz açıb.

Əsgər Fərid Fərəcov sentyabr ayının 27-dən könüllü olaraq Vətən müharibəsinə yollanıb. Füzuli istiqamətində gedən döyüşlərdə vuruşub. Oktyabrın 20-də şəhid olub. Muğanlı kəndində dəfn olunub.

Fərid Fərəcov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Fərəcov İlkin Sahib oğlu** 1992-ci il aprelin 13-də Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olub.

Kiçik çavuş İlkin Fərəcov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İlkin Fərəcov oktyabrın 16-da Füzuli döyüşləri zamanı Dördçinar kəndi istiqamətində şəhid olub. Füzuli rayonunun Bala Bəhmənli kəndində dəfn olunub.

İlkin Fərəcov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Fərəcov Kamran İlqar oğlu** 1996-cı il fevralın 14-də Şirvan şəhərində anadan olub.

Baş əsgər Kamran Fərəcov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kamran Fərəcov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Kamran Fərəcov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Fərəcov Kamran Qılman oğlu** 1978-ci il yanvarın 14-də Astara rayonunun Səncərədi kəndində anadan olub.

Kapitan Kamran Fərəcov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kamran Fərəcov oktyabrın 21-də Qubadlı döyüşləri zamanı şəhid olub. Astara rayonunda dəfn olunub.

Kamran Fərəcov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Fərəcov Zülfüqar Müseyib oğlu** 1977-ci il aprelin 27-də Xocavənd rayonunun Əmiranlar kəndində anadan olub.

Kiçik çavuş Zülfüqar Fərəcov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zülfüqar Fərəcov sentyabrın 28-də Füzuli döyüşləri zamanı Yuxarı Əbdürrəhmanlı istiqamətində şəhid olub.

Zülfüqar Fərəcov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Fərəcullayev Elşad İsa oğlu** 3 yanvar 1984-cü ildə Gəncə şəhərində doğulub.

Əsgər Elşad Fərəcullayev 27 sentyabr 2020-ci il tarixində Vətən müharibəsinin başlaması ilə əlaqədar yenidən hərbi xidmətə çağrılıb. O, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi və işğal altında olan torpaqlarımızın azadlığı uğrunda vuruşub. 8 noyabr 2020-ci ildə Xankəndi istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. 17 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Fərəməzov Nurlan Əhliman oğlu** 1 may 1992-ci ildə Astara rayonunun Təngərüd kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun tibb xidməti baş leytenantı Nurlan Fərəməzov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı gedən döyüşlərdə yaralı hərbçiləri döyüş meydanından çıxararkən oktyabrın 9-da şəhid olub. Şəhidimiz oktyabrın 10-da doğulduğu kənddə torpağa tapşırılıb.

Nurlan Fərəməzov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Fərhadlı Fərhad Vüqar oğlu** 1993-cü il dekabrın 8-i Sumqayıtda anadan olub.

Əsgər Fərhad Fərhadlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə savaşıb.

20 oktyabrda Füzuli rayonu Gecəgözlü kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən 3 yaralını xilas edib, 4-cünü çıxararkən vurularaq şəhid olub.

Fərhad Fərhadlı ölümündən sonra "Vətən uğrunda","Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Fərhadov Cəlaləddin Elxan oğlu** 2001-ci il mayın 1-də Ağdaş rayonunda dünyaya gəlib.

Baş çavuş Fərhadov Cəlaləddin 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xovavənd və Şuşa rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. O, 2020-ci il noyabrın 8-də Şuşa qələbəsindən 2 saat sonra şəhidlik zirvəsinə yüksəlib.

O, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Fərzalıyev Samiq Misir oğlu** 1992-ci il iyulun 8-də Tovuz rayonunun Güvəndik kəndində anadan olub.

Baş leytenant Samiq Fərzalıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Samiq Fərzalıyev oktyabrın 7-də Füzuli döyüşləri zamanı iki əsgərinin nəşini döyüş bölgəsindən çıxarmaq istəyərkən snayper gülləsinə tuş gələrək şəhid olub. Tovuz rayonunun Güvəndik kəndində dəfn olunub.

Samiq Fərzalıyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Samir Vaqif oğlu Fərzəliyev** 1996-cı il dekabrın 8-də Ağdam rayonunun Quzanlı qəsəbəsində anadan olub.

Samir Vətən müharibəsinin ilk dəqiqələrindən döyüşlərə atılıb, igidliklər, qəhrəmanlıqlar göstərib və Ağdərə istiqamətində gedən ağır döyüşlər zamanı qəhrəmancasına həlak olub, şəhidlik məqamına ucalıb. 15 oktyabr 2020-ci il tarixində də Ağdam rayonunun Quzanlı kənd qəbiristanlığında, Şəhidlər məzarlığında torpağa tapşırılıb.

Samir Fərzəliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Fərziyev Balaş İltizam oğlu** 1994 -cu il 6 mart tarixində Lerik rayonunun Bibiyani kəndində dünyaya gəlib.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı yüksək igidlik və şücaət göstərərək düşmənə sarsıdıcı zərbələr endirir, onun xeyli sayda canlı qüvvəsini məhv edir. 29 sentyabr tarixində Füzuli uğrunda gedən ağır döyüşdə minaatan mərmisinin partlaması nəticəsində qəhrəmancasına şəhid olub. 2 gün neytral zonada qalan şoktyabr ayının 1-də çıxarılır və Füzuli rayonunun Əhmədbəyli xəstəxanasına gətirilir, bir müddətində orada saxlanılır. Noyabr ayının 6-da DNT analizi ilə kimliyi müəyyən olunur və nəşi səhərisi gün, 7-si doğulub, boya-başa çatdığı Lerik rayonunun Bibiyani kəndinə gətirilib torpağa tapşırılıb


O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Fərziyev Saməddin Mehman oğlu** 2001-ci il iyulun 20-də Lerik rayonunun Xanəgah kəndində dünyaya göz açıb.

2020-ci il 27 sentyabr tarixində başlayan və 44 gün davam edən II Qarabağ müharibəsinin ilk günündən etibarən müharibədə iştirak edir, yüksək məharətlə döyüşür, şücaətlər göstərərərək adını qızıl hərflərlə tarixə yazır. Xidmətini başa vurmağına 70 gün qalmış, 21 oktyabr taixində Xocavənd rayonunun azad olunması uğrunda gedən döyüşlərdə mənfur düşmənin atdığı güllə Saməddinin sağ gözündən dəyir və qəhrəmancasına şəhid olur. Valideynləri Qaradağ rayonunun Lökbatan qəsəbəsndə yaşadığından, şəhidin nəşi ora gətirilir və qəsəbədə yerləşən qəbiristanlıqda torpağa tapşırılır.

Saməddin Mehman oğlu Fərziyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Fərzullazadə Mehdi Zaman oğlu** 27 iyul 1995-ci ildə anadan olub.

Əsgər Mehdi Fərzullazadə 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Mehdi Fərzullazadə 7 noyabr 2020-ci ildə Xocavənd rayonunda yerləşən 612-ci yüksəklik istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Mehdi Fərzullazadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Fətəliyev Emil Mayis oğlu** 1992-ci il oktyabrın 30-da Qax rayonunun Qorağan kəndində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Emil Fətəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Emil Fətəliyev oktyabrın 22-də Zəngilan döyüşləri zamanı şəhid olub.

Emil Fətəliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Fətəliyev Rahib Pənah oğlu** 1978-ci il iyulun 10-da Beyləqan rayonunun Bolsulu qəsəbəsində anadan olub.

Çavuş Rahib Fətəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rahib Fətəliyev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunun Bolsulu qəsəbəsində dəfn olunub.


Rahib Fətəliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Fətəliyev Səmural Ayaz oğlu** 13 mart 1997-ci ildə Quba rayonunun Əlibəyqışlaq kəndində anadan olub.

Səmural Fətəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən ağır döyüşlərdə böyük şücaət və qəhrəmanlıqlar göstərir. Düşmənə sarsıdıcı zərbələr endirən və xeyli sayda canlı qüvvəsini məhv edən qəhrəman Səmural 5 oktyabr 2020-ci il tarixində Füzuli rayonunun Seyidəhmədli kəndi istiqamətində gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olur. Şəhidin nəşi həmin ayın 9-da doğulduğu Quba rayonunun Əlibəyqışlaq kəndinə gətirilir və kənd qəbiristanlığında torpağa tapşırılır.

Səmural Ayaz oğlu Fətəliyev ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Fərzəlizadə Emin Fərman oğlu** 1995-ci il yanvarın 30-da Beyləqan rayonunun Yeni Mil qəsəbəsində anadan olub.

Kiçik çavuş Emin Fərzəlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Emin Fərzəlizadə noyabrın 6-da Şuşa döyüşləri zamanı şəhid olub.

Emin Fərzəlizadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Fərəcov Əflatun Mircangir oğlu** 1999-cu il oktyabrın 7-i Lənkəran şəhərinin Osakucə kəndində anadan olub. Əflatun hər iki valideynini erkən yaşda itirib.

O, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Talış kənd və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 15 dekbarda döyüş tapşırığını yerinə yetirən zaman şəhid olub.

Əflatun Fərəcov ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın" azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Fətiyev Xəqani Hüseynəli oğlu** 1989-cu il iyunun 30-da Cəlilabad rayonunun Adnalı kəndində anadan olub.

Kiçik çavuş Xəqani Fətiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəqani Fətiyev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

Xəqani Fətiyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Fətullayev Tərlan Amanşah oğlu** 1989-cu il mayın 15-də Sumqayıt şəhərində anadan olub.

Əsgər Tərlan Fətullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tərlan Fətullayev oktyabrın 25-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Tərlan Fətullayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Feyruzlu Əlibəy Samir oğlu** 1998-ci il sentyabrın 14-də Ağdaş rayonunun Şəmsabad kəndində dünyaya gəlib.

2020-ci il sentyabrən 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb. Oktyabrın 4-ü müharibənin qızğın dövründə Talış kəndi istiqamətində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" , "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Feyziyev Əli Malik oğlu** 11 iyul 1994-cü ildə Astara rayonunun Ərçivan kəndində anadan olub.

Əsgər Əli Feyziyev 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, noyabrın 8-də Şuşa istiqamətində gedən döyüşlərdə yaralanıb və noyabrın 10-da şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Feyziyev Sadiq Tahir oğlu** 1993-cü il sentyabrın 1-də Yardımlı rayonu Zevin kəndində doğulub.

Gizir Feyziyev Sadiq 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib. Ağdərə döyüşlərində vuruşaraq şəhid olub.

Feyziyev Sadiq Tahir oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Feyzizadə Toğrul İlqar oğlu** 2002-ci il aprelin 15-də Səbail rayonunun Bayıl qəsəbəsində anadan olub.

Əsgər Toğrul Feyzizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Toğrul Feyzizadə noyabrın 6-da Xocavənd döyüşləri zamanı şəhid olub. Binə qəsəbəsində dəfn olunub.

Toğrul Feyzizadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.






**Fezullayev Beyrək Seyfullah oğlu** 30 aprel 1997-ci ildə Oğuz rayonunun Baş Daşağıl kəndi, Malıx yaşayış sahəsində anadan olub.

Kiçik gizir Beyrək Fezullayev 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzuli-Cəbrayıl istiqamətində gedən gərgin döyüşlərdə savaşıb. 2020-ci ilin oktyabr ayında Füzulinin kəndlərindən birində düşmənlə təxminən 10 metr məsafədə üz-üzə döyüşdə olublar. 22 XTQ döyüşçüsü 49 ermənini məhv edib. 2 şəhid 5 yaralı olub. O, 2 şəhiddən biri Beyrək idi. 3 metr məsafədən Beyrəyə 4-5 güllə dəyib. Ona atəş açan ermənini şəxsən özü öldürüb. Yaralı vəziyyətdə 1 saata yaxın döyüşməyə davam edib. Təəssüf ki, daha artıq dözə bilməyib.

Beyrək 4 oktyabr 2020-ci ildə Füzuli-Cəbrayıl istiqamətində gedən gərgin döyüşlərdə qəhrəmancasına şəhid olub. Beyrək Fezullayev 5 oktyabr 2020-ci ildə Oğuz rayonu Baş Daşağıl kənd qəbiristanlığında dəfn olunub.

Beyrək Fezullayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Feyzullayev Zahir Eyvaz oğlu** 1992-ci il dekabrın 24-də Oğuz rayonunun Muxas kəndində anadan olub. Leytenant Zahir Feyzullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Döyüşlər zamanı bir neçə dəfə tabeliyində olan əsgərləri döyüş meydanından təxliyyə edib, həmçinin Ermənistan Ordusunun canlı qüvvəsinin məhv edilməsində fərqlənib. Zahir Feyzullayev döyüş yoldaşının torpağa tapşırıldığı gün onlarla ermənini məhv edərək dəfn yerinə zəng edib yoldaşının qisasını aldığını bildirib. Zahir Feyzullayev oktyabrın 20-də Xocavənd döyüşləri zamanı Tuğ kəndi istiqamətində şəhid olub. Oğuz rayonunun Muxas kəndində dəfn olunub.

Zahir Feyzullayev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", " ", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Göydağlı Ramazan Əbülfət oğlu** 4 fevral 1997-ci ildə Culfa rayonunun Kırna kəndində dünyaya göz açıb.

Əsgər Ramazan Göydağlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində 15 oktyabrdan iştirak edib. Füzulinin, Cəbrayılın, Hadrutun və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Ramazan Göydağlı 28 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Ramazan Göydağlı ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Göyüşov Məzahir Niyaz oğlu** 1992-ci il martın 7-də Beyləqan şəhərində anadan olub.

Gizir Məzahir Göyüşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Məzahir Göyüşov sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub.

Məzahir Göyüşov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Göyüşov Sərvan Mehman oğlu** 1997-ci il fevralın 28-də Ağdam rayonunun Quzanlı qəsəbəsində anadan olub.

Leytenant Sərvan Göyüşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Sərvan Göyüşov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Ağdam rayonunda dəfn olunub.

Sərvan Göyüşov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Gözəlov Murad Zabil oğlu** 12 may 1995-ci ildə Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olub. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olan Baş kəşfiyyatçı Murad Gözəlov 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılır. Kəşfiyyat qrupunda döyüşən Murad mərdliyi, rəşadəti ilə seçilir, döyüşün fəal iştirakçılarından olur. Murad Gözəlov oktyabr ayının 30-da Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlir. Murad Gözəlov noyabr ayının 5-də Neftçala rayonunda dəfn olunub.


Murad Gözəlov ölümündən sonra "Vətən uğrunda","Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Gözəlov Rüfət Əzim oğlu** 1996-cı il martın 17-də Şərur rayonunun Dəmirçi kəndində anadan olub.

MAHHXHQ əsgər Rüfət Gözəlov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə döyüşüb. Oktyabrın 27-də Şuşa döyüşləri zamanı şəhid olub. Şərur rayonu Şəhidlər Xiyabanında dəfn olunub.

Rüfət Gözəlov ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Gözəlov Xalid Həsən oğlu** 1996-cı il noyabrın 4-də Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olub.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının baş leytenantı olan hərbi pilot Xalid Gözəlov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xalid Gözəlov sentyabrın 27-də Füzuli döyüşləri zamanı mayor Abbas Qasımov ilə birgə şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Xalid Gözəlov və mayor Abbas Qasımov müharibənin birinci şəhidləri oldular. Xalid Gözəlov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Gülməliyev Ağamirzə Ağabəy oğlu** 2002-ci il aprelin 2-də Qaradağ rayonunda dünyaya gəlib.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Goranboy rayonu istiqamətində döyüşüb.

Oktyabrın 1-də Goranboy rayonu Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

Gülməliyev Ağamirzə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Gözəlov Ziya Zahid oğlu** 2002-ci il yanvarın 19-da Masallı rayonunun Kəlbəhüseynli kəndində anadan olub.

Əsgər Ziya Gözəlov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ziya Gözəlov oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub. Masallı rayonunda dəfn olunub.

Ziya Gözəlov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Gözəlzadə Ceyhun Nazim oğlu** 25 aprel 2002-ci ildə Biləsuvar rayonunun Bəydili kəndində anadan olub.

27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, Ağdərə rayonu istiqamətində gedən döyüşlərə könüllü qoşulub və qəhrəmancasına şəhid olub.

Şəhid Ceyhun Gözəlzadə 30 sentyabr 2020-ci il tarixdə Biləsuvar rayonunun Bəydili kənd məzarıstanlığında dəfn olunub.

Ceyhun Gözəlzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Gülalıyev Əlnur Seymur oğlu** 25 dekabr 1997-ci ildə İmişli rayonunun Xəlfəli kəndində dünyaya göz açıb.

Əsgər Əlnur Gülalıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Əlnur Gülalıyev 3 oktyabr 2020-ci ildə Füzulidə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Əlnur Gülalıyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Güləliyev Vüsal Azər oğlu** 2001-ci il noyabr ayının 19-da Siyəzən şəhərində anadan olub.

Əsgər Vüsal Güləliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı ilk günlərindən döyüşlərə qatılaraq Füzuli rayonunun işğaldan azad olunmasında böyük igidlik və fədakarlıq göstərib. Oktyabr ayının 29-da Xocavənd istiqamətində gedən döyüşlərdə Vüsal Vətən uğrunda canını qurban verərək şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı təltif edildi.



**Gülmalıyev Pərviz Zaur oğlu** 1997-ci il may ayının 10-da Füzuli rayonu Böyük Bəhmənli kəndində anadan olub.

Əsgər Pərviz Gülmalıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Pərviz Gülmalıyev noyabrın 11-də Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Pərviz Gülmalıyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Gülməmmədov Amin Mayis oğlu** 1995-ci il iyulun 31-də Culfa rayonunun Saltaq kəndində dünyaya göz açıb.

Baş leytenant Amin Gülməmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib. Füzulidən-Daşaltıya doğru gedən döyüşlərdə xüsusi rəşadət göstərib. Füzulinin, Hadrutun, Cəbrayılın, Xocavəndin işğaldan azad olunması uğrunda rəşadətlə vuruşub və şəhidlik məqamına yüksəlib.

Gülməmmədov Amin "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

O, 28.12.2020-ci il tarixində Culfa rayonunun Saltaq kənd qəbiristanlığında dəfn olunub.



**Gülməmmədov Eşqin Rabil oğlu** 11 avqust 2001-ci ildə Şəmkir rayonunun Qapanlı kəndində dünyaya gəlib.

Əsgər Eşqin Gülməmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Eşqin Gülməmmədov noyabrın 3-də Xocavənd rayonunda gedən döyüşdə alıdığı qəlpə yarası nəticəsində şəhid olub.

Eşqin Gülməmmədov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Gülüşov Rəmal Şahin oğlu** 5 avqust 1995-ci ildə Ucar rayonunun Qaracallı kəndində anadan olub.

Əsgər Rəmal Gülüşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Suqovuşanın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Rəmal Gülüşov 15 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Rəmal Gülüşov ölümündən sonra "Vətən uğrunda","Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Gülüşov Tərlan Salman oğlu** 1994-cü il oktyabrın 16-da Salyan rayonunun Xələc kəndində anadan olub.

Baş leytenant Tərlan Gülüşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tərlan Gülüşov oktyabrın 22-də Füzuli döyüşləri zamanı şəhid olub. Salyan rayonunun Xələc kəndində dəfn olunub.

Tərlan Gülüşov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıəhmədli Hacıəhməd Həsən oğlu** 06.04.1998-ci ildə Qax rayonunun Zərnə kəndində dünyaya göz açıb.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Zəngilan, Qubadlı rayonları və Laçın dəhlizinin işğaldan azad edilməsi uğrunda döyüşüb. Ayağından və gözündən yaralanmasına baxmayaraq, 15 günlük məzuniyyətdən imtina edərək müalicə olunduğu hospitaldan birbaşa cəbhəyə yollanıb. Hacıəhmədin son döyüşü noyabrın 7-də Şuşada olub. O, Şuşa qalası ətrafında ən uca zirvəni fəth edən zaman şəhid olub. O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib. Zərnə kənd qəbiristanlığında torpağa tapşırılıb.



**Hacı-İsmayılov Rahib Məmmədemin oğlu** 17 sentyabr 1991-ci ildə Şəki şəhərində anadan olub. Vətən müharibəsinin ilk günlərindən könüllü olaraq cəbhəyə gedib. Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Hacılı Feyruz Bəhruz oğlu** 1994-cü il martın 4-ü Bakı şəhərində anadan olub.

Əsgər Hacılı Feyruz sentyabrın 27-də başlanan Vətən müharibəsini eşidir-eşitməz öz işlərini qaydasına salıbmış, qohumlarından, ata-anasından halallıq alıb, sanki şəhid olacağı ürəyinə damıbmış.

Sentyabrın 30-da ona Hərbi Səfərbərlikdən çağırış gəlib və orduya yollanıb. Füzuli və Hadrut istiqamətində qızğın döyüşlərdə iştirak edib. Oktyabrın 14-də ayağının şah damarından qəlpə yarası alıb, həmin ayın 17-də şəhidlik zirvəsinə ucalıb.

Hacılı Feyruz Bəhruz oğlu ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Abakar Məhəmməd oğlu** 1979-cu il aprelin 11-də Zaqatala rayonunun Dardoqqaz kəndində anadan olub.

Mayor Abakar Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Abakar Hacıyev oktyabrın 27-də Xocavənd döyüşləri zamanı Qırmızı Bazar istiqamətində şəhid olub. Zaqatala rayonunda dəfn olunub.

Abakar Hacıyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Aydəmir Sənan oğlu** 1992-ci il martın 7-də Quba rayonunun Qırmızı qəsəbəsində anadan olub.

Əsgər Hacıyev Aydəmir 17 oktyabr 2020-ci il tarixində Vətəni düşmənlərdən qorumaq üçün cəbhəyə yollanıb. O, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli, Cəbrayıl, Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 26 oktyabrda Xocavəndin Zoğalbulaq kəndi istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Davud Novruz oğlu** 1998-ci il iyulun 14-də Xaçmaz şəhərində anadan olub.

Əsgər Davud Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Davud Hacıyev oktyabrın 10-da Hadrut döyüşləri zamanı şəhid olub. Xaçmaz şəhərində dəfn olunub.

Davud Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Hacıyev Elnur Yaqub oğlu** 1979-cu il iyunun 12-də Ucar şəhərində anadan olub.

Mayor Elnur Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur Hacıyev oktyabrın 17-də Füzuli döyüşləri zamanı şəhid olub. Ucar Şəhidlər Xiyabanında dəfn olunub.

Elnur Hacıyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni , "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hacıyev Fərid Təşkilat oğlu** 04 oktyabr 1989-cu ildə Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olub.

MAHHXHQ əsgər Hacıyev Fərid Təşkilat oğlu 28 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsi zamanı Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhid olur. Biləsuvar rayonu ərazisindəki 3 saylı qəsəbədə salınmış qəbiristanlıqda dəfn edilib.

O, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Hacı Rafiq oğlu** 1999-cu il sentyabr ayının 25-də Qax rayonunun Çüdüllü kəndində anadan olub.

2020-ci il sentyabrın 27-də Ikinci Qarabağ müharibəsi başlayandan cəmi iki gün sonra Hacı könüllü olaraq cəbhəyə yollanıb. İşğal olunan rayonlarımızın, kəndlərimizin alınmasında yaxından iştirak edən Hacı Şuşa şəhərinin alınması zamanı, noyabr ayının 7-də qəhrəmancasına şəhid olub.

Hacı ölümündən sonra göstərdiyi qəhrəmanlıqlara görə "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Hacıyev Hikmət Şubay oğlu** 7 dekabr 1984-cü ildə Şəmkir şəhərində dünyaya göz açıb.

Kapitan Hikmət Hacıyev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. 2 oktyabr tarixində Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində gedən döyüşlərdə döyüş yoldaşlarını xilas edərkən yaralanıb və reanimasiyaya yerləşdirilib. 8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi xəbərini eşitdikdən sonra şəhid olub.

Hikmət Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Hacıyev İntiqam Eynullah oğlu** 11 oktyabr 1998-ci ildə Ağcabədi rayonunun Minaxorlu kəndində anadan olub.

İntiqam Hacıyev 21 sentyabr 2020-ci ildən hərbi təlim toplantılarına çağırılıb.

İntiqam Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Döyüşlərdə yaralanıb və Ağcabədi rayonunun Muğanlı kəndinə gətirilib. İntiqam Hacıyev 13 oktyabr 2020-ci ildə Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində şəhid olub.

İntiqam Hacıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hacıyev İsmət Şölət oğlu** 1993-cü il yanvarın 20-də Quba şəhərində anadan olub.

Baş leytenant İsmət Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İsmət Hacıyev sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Quba şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

İsmət Hacıyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev İsrayıl Səməd oğlu** 28 fevral 2002-ci ildə Şəmkir rayonunun Zəyəm Cırdaxan kəndində anadan olub.

Əsgər İsrayıl Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə şəhid olub.

İsrayıl Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Hacıyev Elmaz Elmar oğlu** 1994-cü il mayın 9-da Şamaxı rayonunun İkinci Çaylı kəndində anadan olub.

Əsgər Elmaz Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb.

Elmaz Hacıyev noyabrın 4-də Laçın döyüşləri zamanı şəhid olub. Xəzər rayonunun Binə qəsəbəsində dəfn olunub.

Elmaz Hacıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Hacıyev Şükür Bayram oğlu** 1999-cu il avqustun 25-də Babək şəhərində anadan olub.

Leytenant Şükür Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şükür Hacıyev oktyabrın 12-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Babək şəhərində dəfn olunub.

Şükür Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Ülvi Şirin oğlu** 1994-cü il noyabrın 13-də Suraxanı rayonunda anadan olub.

Əsgər Ülvi Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülvi Hacıyev oktyabrın 19-da Füzuli döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 05.12.2020-ci il tarixində II Şəhidlər Xiyabanında dəfn olunub.

Ülvi Hacıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Həmidov Rəhim Ehtiram oğlu** 1997-ci il fevralın 9-da Göyçay rayonunun Mırtı kəndində doğulub.

Əsgər Rəhim Həmidov Vətən müharibəsinə 29 sentyabr 2020-ci il tarixində qatılaraq, Füzuli şəhərinin və bir neçə kəndinin işğaldan azad olunmasında iştirak edib. Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidimizin nəşi 30 noyabrda ailəsinə təhvil verilərək Mırtı kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Həmzəyev Mərhəmət Rizvan oğlu** 1997-ci il fevralın 24-də Şahbuz rayonunun Keçili kəndində anadan olub.


Leytenant Mərhəmət Həmzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Mərhəmət Həmzəyev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. Dekabrın 22-də Şahbuz rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Həmzəyev Musa Xalid oğlu** 2001-ci il iyunun 20-də Şabran rayonunun Rəhimli kəndində anadan olub.

Əsgər Musa Həmzəyev Axıska türküdür. O, Vətən müharibəsində 40 gün itkin sayılıb. Lakin 2 dekabr şəhid olduğu məlum olub. O, doğulduğu Şabran rayonunun Rəhimli kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Həsənli Elçin Qəşəm oğlu** Göygöl rayonunun Qırıxlı kəndində doğulmuşdu.


Çavuş Elçin Həsənli Murov yüksəkliyi uğrunda gedən döyüşlərdə şəhid olub. Dekabın 6-da doğulduğu kənddə dəfn olunub.



**Həsənli Rəşad Yaşar oğlu** 1997-ci il martın 29-da Saatlı şəhərində anadan olub.

Gizir Rəşad Həsənli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rəşad Həsənli oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub.

Rəşad Həsənli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Həsənov Hikmət Fikrət oğlu** 1986-cı il iyulun 15-də Gəncə şəhərində anadan olub.

Kiçik çavuş Hikmət Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Hikmət Həsənov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Hikmət Həsənov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Həsənov İlqar Nadir oğlu** 1990-cı il yanvarın 2-də Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olub.

Kiçik çavuş İlqar Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İlqar Həsənov oktyabrın 3-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

İlqar Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Qüdrət Səfər oğlu** 1995-ci il oktyabrın 20-də Sabirabad rayonunun Qardaşkənd kəndində anadan olub.

29 sentyabrda İkinci Qarabağ müharibəsinə könüllü yollanan qəhrəmanımızın ən böyük arzusu Vətən uğrunda şəhadətə qovuşmaq olub. Döyüşlərə gedərkən anasını həyat yoldaşına tapşıraraq şəhid olsam anam sənə əmanətdir" – deyib. Müharibə zamanı Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının alınmasında fəal iştirak etsə də, 29 oktyabrda Qubadlı istiqamətində düşmən hücumunu dəf edərkən iki güllə yarası alaraq qəhrəmancasına şəhid olub. İgidimiz 29 noyabrda xalqın böyük izdihamı ilə Sabirabad rayonunun Qardaşkənd qəbristanlığında dəfn olunub.



**Həsənov Rəvan Rövşən oğlu** 2001-ci il avqustun 25-i Ağdaş rayonunun İkinci Aral kəndində anadan olub.

Əsgər Rəvan Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə vuruşub. O, Füzuli rayonu Abdurrəhmanlı kəndində döyüşüb. Oktyabrın 22-də yaşadığı kənddə torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Sübhan Rauf oğlu** 2001-ci il avqustun 25-i Masallı şəhərində anadan olub.

Əsgər Sübhan Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub və döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. Sübhan Həsənov 7 dekabr 2020-ci ildə Masallı şəhərinin qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Həsənov Vüsal Ariz oğlu** 3 iyul 1997-ci ildə Bakı şəhərində anadan olub.

Əsgər Vüsal Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Vüsal Həsənov 7 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Vüsal Həsənov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Hümbətzadə Şahmuraz Əyyub oğlu** 1998-ci il sentyabrın 8-də Bərdə rayonunun Cəyirli kəndində anadan olub.

Əsgər Şahmuraz Hümbətzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə şəhəri istiqamətində gedən döyüşlərdə savaşıb. Şahmuraz Hümbətzadə oktyabrın 23-də Ağdərə döyüşləri zamanı şəhid olub. Bərdə rayonunda dəfn olunub.

Şahmuraz Hümbətzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynov Cavad Cavid oğlu** 1998-ci il sentyabrın 16-sı Lerik rayonunun Çayrud kəndində anadan olub.

Əsgər Cavad Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Cavad Hüseynov oktyabrın 17-də Suqovuşan ərazisində gedən döyüşlərdə şəhid olub. 18 noyabrda Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunub.

Cavad Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynov Həci Kərim oğlu** 12.06.1996-ci ildə Sumqayıt şəhərində anadan olub.

Əsgər Həci Hüseynov şəhid olmamışdan qabaq yuxusunda görüb ki, sürdüyü maşın aşır. Əsgər yoldaşları arzularından, xəyallarından danışırdılar. Həci deyib ki, "mən 3 günə şəhid olacam görərsiz." 3 gün sora da şəhid olur. Oktyabrın 23-dən 24-nə keçən gecə maşınında əsgərləri apararkən düşmən öndəki maşının qabağına minomyot atır və qəhrəmanımız əsgərlərə heç nə olmasın, çox şəhid verməyək deyə maşının istiqamətini dəyişmək istəyəndə maşın dərədən aşıb və elə oradaca şəhidlik zirvəsinə ucalıb.

Füzulidə şəhid olan qəhrəmanımız 25.10.2020-ci ildə Xocasən qəsəbəsində dəfn olunub. Həci Hüseynov "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Hüseynov Elxan Maarif oğlu** 12 mart 2000-ci ildə Qaradağ rayonununda anadan olub. Əsgər Elxan Hüseynov hamımızın dönə-dönə izlədiyimiz Xudafərin körpüsünə üçrəngli bayrağımızı sancıb cənab Ali Baş Komandan İlham Əliyevə məruzə edən qrupun üzvlərindən biri olub, Füzulidən Şuşaya qədər şanlı döyüş yolu keçib, Zəfərə sayılı günlər qalan zaman - 6 noyabrda düşmən gülləsinə tuş gələrək yaralanıb. Onu döyüş meydanından təxliyyə edən təcili yardım maşını isə minaya düşüb. İki dəfə əməliyyat olunmasına baxmayaraq onun həyatını xilas etmək mümkün olmayıb, Uzun müddət komada qaldıqdan sonra 13 dekabrda şəhid olub. O, ölümündən sonra "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı", "Şücaətə görə", "Kəlbəcərin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Şuşanın azad edilməsinə görə" medalları ilə təltif edildi.



**Hüseynov Emin Zakir oğlu** 22.11.1992-ci ildə Bərdə rayonunda dünyaya gəlib.

Əsgər Emin Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Goranboy rayonunda döyüşüb. Sentyabrın 29-da Goranboy rayon istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medallarıyla təltif edilib.



**Hüseynov İsabala Ceyhun oğlu** 2001-ci il sentyabrın 15-də Bakı şəhərində anadan olub.

Əsgər İsabala Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın və Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İsabala Hüseynov noyabrın 4-də Laçın döyüşləri zamanı şəhid olub. Suraxanı rayonunun Əmircan qəsəbəsində dəfn olunub.

İsabala Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynov Rafail Teymur oğlu** 2000-ci il yanvarın 1-i Masallının Qarğalıq kəndində dünyaya göz açıb.

Gizir Rəfael Hüseynov 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlanan gündən yoldaşları ilə Kəlbəcər istiqamətində, Murov yüksəkliyi uğrunda ən şiddətli döyüşlərdə işğalçı düşmənə qarşı rəşadətlə vuruşur.

Şuşanın azad olunması uğrunda döyüşlərə qoşulub və orada da qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Hüseynov Mustafa Ələddin oğlu** 1996-cı il oktyabrın 1-də Tovuz rayonunun Qonaqlı kəndində anadan olub.

Kiçik çavuş Mustafa Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Mustafa Hüseynov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 15.12.2020-ci il tarixində Tovuz rayonunun Qonaqlı kəndində dəfn olunub.

Mustafa Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Kamran Füzuli oğlu** 1994-cü il yanvarın 16-da Xəzər rayonunun Şüvəlan qəsəbəsində anadan olub.

Çavuş Kamran Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kamran Hacıyev oktyabrın 22-də Hadrut döyüşləri zamanı şəhid olub. Xəzər rayonunun Şüvəlan qəsəbəsində dəfn olunub.

Kamran Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Kənan İmran oğlu** 2001-ci il noyabrın 17-də Astara rayonunun Motalayataq kənd inzibati ərazi dairəsi olan Anbuba kəndində anadan olub.

Əsgər Kənan Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhid olub. Nəşi uzun müddət tapıla bilməyib. Noyabrın 9-da Kənan Hacıyevin şəhid olma xəbəri təsdiqlənib. Astara rayonunun Anbuba kəndində torpağa tapşırılıb.

Kənan Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Murad Eynulla oğlu** 18 oktyabr 1997-ci il tarixində Gürcuva kəndində anadan olub.

Müharibə zamanı manqa komandiri kimi hərbi xidmətini yerinə yetirib. Tərtər-Ağdərə istiqamətində döyüş yolu keçib.

13 oktyabr 2020-ci ildəTərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

Hacıyev Murad ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.






**Hacıyev Nazim Feyruz oğlu** 1995-ci il dekabrın 16-da Şamaxı rayonunda anadan olub.

Əsgər Nazim Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib.

Nazim Hacıyev oktyabrın 14-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Şamaxı rayonunun Şərədil kəndində dəfn olunub.

Nazim Hacıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hacıyev Nicat Cahangir oğlu** 1989-cu il mayın 25-də Füzuli şəhərində anadan olub.

Əsgər Nicat Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nicat Hacıyev oktyabrın 2-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.


Nicat Hacıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hacıyev Qubad Cəmil oğlu** 1988-ci il mayın 19-da Tərtər şəhərində anadan olub.

Kiçik çavuş Qubad Hacıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Qubad Hacıyev oktyabrın 10-da Ağdərə istiqamətində şəhid olub.

Qubad Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Qurban Əsəbəli oğlu** 1997-ci il aprelin 19-da Balakən rayonunun Mahamalar kəndində anadan olub.

Əsgər Qurban Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib.

Qurban Hacıyev sentyabrın 30-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Balakən Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Qurban Hacıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Hacıyev Ramid Nəriman oğlu** 1987-ci il fevralın 11-də Cəbrayıl rayonunun Mirək kəndində anadan olub.

Mayor Ramid Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ramid Hacıyev oktyabrın 16-da Suqovuşan döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Ramid Hacıyev ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Rüstəm Firqani oğlu** 2001-ci il sentyabrın 22-də Tərtər rayonu Yuxarı Qapanlı kəndində anadan olub.

Əsgər Rüstəm Hacıyev 29.09.2020-ci il tarixində Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Hərbi xidmətinə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Şəhriyar Şahlar oğlu** 2 avqust 1999-cu il tarixində Gədəbəy rayonunun Novoivanovka kəndində anadan olub.

Əsgər Şəhriyar Hacıyev Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Talış kənd və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

10 oktyabr 2020-ci il tarixində Vətən müharibəsi döyüşlərində qəhrəmancasına şəhid olub. Novoivanovka kənd qəbirstanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Sərxan Eldar oğlu** 08.07.1990-cı ildə Qobustan rayonunda dünyaya göz açıb.

Əsgər Sərxan Hacıyev Füzuli rayonu uğrunda gedən döyüşlərdə mənfur düşmənin atdığı top atəşi nəticəsində oktyabr ayının 6-da kürəyindən qəlpə yarası alaraq şəhidlik zirvəsinə ucalıb.

Sərxan Qobustan rayon qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.






**Hacıyev Sayad Azad oğlu** 2001-ci il martın 14-də Zaqatala rayonunun Bazar kəndində anadan olub.

Əsgər Sayad Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Sayad Hacıyev oktyabrın 17-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunun Bazar kəndində torpağa tapşırılıb.

Sayad Hacıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hacıyev Şükür Aslan oğlu** 8 mart 2000-ci ildə Yevlax şəhərində anadan olub.

Əsgər Şükür Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Qubadlı döyüşlərində vuruşub. 5 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Şükür Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Teymur Zaur oğlu** 1991-ci il yanvarın 28-də Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub.

Baş gizir Teymur Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Teymur Hacıyev oktyabrın 13-də Füzuli döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Yuxarı Salahlı kəndində dəfn olunub.

Teymur Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Toğrul Rüfət oğlu** 1996-cı il dekabrın 24-də Bakı şəhərində anadan olub.

Əsgər Toğrul Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Toğrul Hacıyev oktyabrın 10-da Füzuli döyüşləri zamanı şəhid olub. Binəqədi rayonunda dəfn olunub.

Toğrul Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Hacıyev Toğrul Siyavşah oğlu** 1991-ci il fevralın 4-də Göyçay rayonunun Çayarxı kəndində anadan olub.

Əsgər Toğrul Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Toğrul Hacıyev oktyabrın 25-də Xocavənd döyüşləri zamanı şəhid olub. Göyçay rayonunda dəfn olunub.

Toğrul Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyev Zamiq Eldar oğlu** 1983-cü il noyabrın 22-də Beyləqan şəhərində anadan olub.

Baş çavuş Zamiq Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Hadrut qəsəbəsinin, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zamiq Hacıyev oktyabrın 29-da Xocavənd döyüşləri zamanı Tuğ istiqamətində şəhid olub. Beyləqan şəhərində dəfn olunub.

Zamiq Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacıyusifov Əhməd Teymur oğlu** 2001-ci ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olub.

Əsgər Əhməd Hacıyusifov 2020-ci il 27 sentyabrdan başlanan döyüşlərdə iştirak edib. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı istiqamətində həyata keçirilən döyüşlərin iştirakçısı olub. Cəbrayıl, Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərib. Bu igidliyinə görə fərqlənmə sertifikatı verilib. O, Şuşa uğrunda gedən döyüşlərdə qəhramancasına şəhid olub. Noyabrın 6-da doğulduğu Şəki rayon Baş Göynük kəndində canı qədər sevdiyi torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hacızadə Ceyhun İfrayıl oğlu** 16 avqust 1992-ci ildə Tərtər rayonunun Evoğlu kəndində anadan olub.

Əsgər Ceyhun Hacızadə Vətən müharibəsi başlayanda könüllü olaraq ön cəbhəyə yollanıb. Tərtər rayonunun Suqovuşan və Talış kəndləri istiqamətində gedən ağır döyüşlərdə iştirak edib.

Ceyhun Hacızadə döyüşlər zamanı düşmənin xeyli sayda canlı qüvvəsi və texnikasını məhv edib. Döyüşlərin birində düşmənin minaatanlardan atdığı mərmi onların yaxınlığına düşüb. Ceyhun da qəhrəmancasına şəhid olub.

Şəhid Ceyhun Hacızadə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Hadıyev Raqim Teymur oğlu** 1999-cu il martın 19-u Lənkəran rayonunun Alazepin kəndində dünyaya göz açıb.

Əsgər Raqim Hadıyev 27 sentyabrda başlayan II Qarabağ müharibəsinə könüllü qoşulub. Füzuli, Cəbrayıl, Hadrut uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak edib. Noyabrın 4-ü Qubadlı uğrunda gedən döyüşlərdə şəhadət şərbətini içərək şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda" "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hadıyev Vüsal Balarəzi oğlu** 18 oktyabr 2000-ci ildə Lənkəran şəhəri Gəgiran kəndində anadan olub.

Əsgər Vüsal Hadıyev Vətən müharibəsinin başladığı ilk günlərdən etibarən döyüşlərdə iştirak edib. Oktyabrın 5-də Ağdərə uğrunda gedən döyüşlərdə şəhid olub.

22 oktyabr 2020-ci ildə Masallı şəhər məzarlığında dəfn olunmuşdur.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Haqverdiyev Ayhan Akif oğlu** 2002-ci il mart ayının 28-də Bakı şəhəri, Nəsimi rayonunda anadan olub.

Əsgər Ayxan Haqverdiyev 2020-ci il sentyabr ayının 27-də başlanan II Qarabağ müharibəsinə qoşulub. O, Füzuli istiqamətində gedən döyüşlərdə, Qaraxanlı kəndində "3 Təpə" deyilən ərazidə 30 sentyabr 2020-ci il tarixində ağır yaralanıb.

Yaralandıqdan sonra xəstəxanaya çatdırılsa da, 4 gün komada qalan Ayhan 4 oktyabr tarixində şəhadətə qovuşub. O, Binəqədi qəsəbəsi qəbiristanlığı ərazisində yerləşən Vətən müharibəsi Şəhidlərinin Xiyaban kompleksində böyük xalq izdihamı ilə dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda","Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Haxverdiyev Novruz Əli oğlu** 1996-cı il martın 25-də Daşkəsən rayonunun Alunitdağ qəsəbəsində anadan olub.

MAHHXHQ əsgər Haxverdiyev Novruz Əli oğlu işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda Murovdağ istiqamətində gedən döyüşlərdə şücaət göstərək şəhid olub. Novruz Haxverdiyev yamvar ayının 19-da Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O, ölümündən sonra Novruz Əli oğlu Haxverdiyev «Vətən uğrunda», "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə", "Şücaətə görə" medalları ilə təltif edildi.

**Haşımov Fuad Ceyhun oğlu** 1996-cı il sentyabr ayının 1-də Abşeron rayonunun Digah qəsəbəsində anadan olub.

Gizir Fuad Haşımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonu istiqamətində, Murovdağ yüksəklikləri uğrunda döyüşlərdə iştirak edib. Bir müddət sonra Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. Oktyabrın 9-da Hadrutun azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Oktyabr ayının 22-də Xocavəndin Tuğ kəndində ağır yaralanıb, yaralı halda ayağa qalxaraq son damla qanına qədər vuruşaraq şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Haşımov Tərzan Qəhrəman oğlu** 13 aprel 1989-cu ildə Lerik rayonunun Bibihoni kəndində anadan olub.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri Tərzan Haşımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Tərzan Haşımov Füzuli rayonu uğrunda gedən döyüşlər zamanı şəhid olub.


O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hassan Xalid Mahmud oğlu** 1995-ci il yanvarın 26-da Sumqayıt şəhərində anadan olub.

Əsgər Xalid Hassan 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə, həmçinin Talış və Ağdərə istiqamətlərində gedən döyüşlərdə savaşıb. Xalid Hassan noyabrın 4-də Kəlbəcər-Şuşa yolunun Ağdərə sahəsində şəhid olub.

Xalid Hassan ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həbibi Şəhriyar Vidadi oğlu** 19 yanvar 1993-cü ildə Lənkəran rayonunun Osaküçə kəndində anadan olub.

Əsgər Şəhriyar Həbibi Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixində başlayan Vətən müharibəsində Cəbrayıl, Zəngilan istiqamətində gedən döyüşlərdə iştirak edib, noyabrın 6-da Qubadlı döyüşlərində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Həbibi Füzuli Nizami oğlu** 1995-ci il martın 8-i Cəlilabad şəhərində anadan olub.

Əsgər Həbibli Füzuli müharibə başlayan vaxt, sentyabrın 28-i komissarlığa gedir, könüllü olaraq adını yazdırır. Və bir gün sonra Füzuli ailəsinə heç bir söz demədən müharibəyə yollanır.

Həbibli Füzuli 6 noyabr 2020-ci ildı Şuşa istiqamətində gedən döyüşlərdə qəhramancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Həbibov Murad Asəf oğlu** 15 may 2001-ci ildə Quba şəhərində anadan olub. 27 sentyabr 2020-ci ildə torpaqlarımızın azadlığı uğrunda başlayan mübarizəyə ilk qoşulanlardan biri olub. Belə ki, düşmənin Tərtər rayonu istiqamətində başladığı təxribatçı hücumlarının qarşısını kəsənlər Murad və onun döyüş yoldaşları olub. Düşmənin hücumlarının qarşısını alan əsgərlərimiz əks-hücuma keçərək düşmənə ağır itkilər vermişdir. Murad Həbibov 2020-ci ilin 3 oktyabrında Ağdərə uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 5 oktyabr 2020-ci ildə Quba Şəhidlər Xiyabanında dəfn olunub. 2021-ci ilin yanvar ayında Quba şəhərində küçələrin birinə şəhid Həbibov Muradın adı verilib.

O, ölümündən sonra "Vətən uğrunda","Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həbibov Seymur Feyruz oğlu** 1986-cı il fevralın 13-ü Şəmkir rayonunda anadan olub.

Əsgər Seymur Həbibov döyüşə gedəndə deyirdi: "Ya qəhrəman olmalıyam, ya şəhid gəlməliyəm".

01.10.2020-ci il tarixdə Kəlbəcər rayonu istiqamətində şərti adı "Hinal" döyüş mövqeyi istiqamətində hərbi əməliyyatlar nəticəsində şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə" "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həməşəyev Qismət Oruc oğlu** 1988-ci il noyabrın 3-də Rusiya Federasiyasının Rostov şəhərində anadan olub.

Leytenant Qismət Həməşəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Qismət Həməşəyev oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub. Qazax rayonunda dəfn olunub.

Qismət Həməşəyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Həmidli Cavanşir Namik oğlu** 20 oktyabr 1997-ci ildə Lerik rayonunun Çayrud kəndində, ziyalı ailəsində anadan olub.

Əsgər Cavanşir Həmidli 2020-ci ilin sentyabrın 27-də II Qarabağ müharibəsi başladığı gündən Cavanşir də taboru ilə birgə tabor yoldaşları ilə birgə torpaqlarımızın düşmən işğalından azad edilməsi üçün döyüşə qatılır. Tərtər-Ağdərə istiqamətində Talış və Suqovuşan yaşayış məntəqələrinin, bir sıra strateji yüksəkliklərin alınmasında yüksək fədakarlıq və şücaət göstərərək onlarla erməni əsgərini məhv etmişdir. Sonradan Füzuli rayonunun bir sıra kəndlərinin və Cəbrayıl rayonunun mərkəzi də daxil olmaqla bir neçə yaşayış məntəqələrinin düşmən taptağından azad olunmasında müstəsna qəhrəmanlıqlar göstərib. Cavanşir Həmidli 07 oktyabr tarixində Cəbrayıl rayonunun Nüzgar kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur.

O, ölümündən sonra "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Həmidov Elşən Məzahir oğlu** 1979-cu il avqustun 28-də Füzuli rayonunun Əhmədalılar kəndində anadan olub.

Azərbaycan Ordusunun ehtiyatda olan əsgəri Elşən Həmidov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Qubadlı və Xocavənd istiqamətlərində gedən döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularını daşıyan hərbi təyinatlı avtomobillərin sürücüsü olub. Elşən Həmidov noyabrın 8-də Xocavənd rayonu ərazisində şəhid olub. Füzuli rayonunun Əhmədalılar kəndində dəfn olunub.

Elşən Həmidov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Həmidov Əmrah Firavan oğlu** 1997-ci il yanvarın 12-də Salyan rayonunun Kürsəngi kəndində anadan olub.

Kiçik gizir Əmrah Həmidov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Əmrah Həmidov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı ağır yaralanıb, oktyabrın 5-də isə Gəncə şəhərində Hərbi Hospitalda şəhid olub.

Əmrah Həmidov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həmidov İzzət Rövşən oğlu** 2000-ci ildə fevralın 28-də Sumqayıtda anadan olub.

Əsgər İzzət Həmidov 2020-ci il 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak edib.

oktyabrın 9-da Füzulinin Alıxanlı kəndi istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. O, bu zaman bir ilin əsgəri olub.

O, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.





**Həmidov Mixail Hamlet oğlu** 1983-cü il dekabrın 18-də Şərqi Almaniyanın Potsdam şəhərində hərbçi ailəsində anadan olub.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlanan zaman, Azərbaycan Ordusunun ehtiyatda olan baş leytenantı Mixail Həmidov öz istəyi ilə müharibəyə yollanıb. Vətən müharibəsi zamanı o, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Füzuli rayonu istiqamətində Ermənistan tərəfində olan bir neçə postun qısa müddət ərzində Azərbaycan tərəfinin nəzarəti altına alınmasında xüsusi rol oynayıb. Vətən müharibəsində silah yoldaşları tərəfindən "Mixaylo" ləqəbini qazanıb. Mixail Həmidov oktyabrın 23-də Füzuli döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Mixail Həmidov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həmidov Pərvin Azər oğlu** 1994-cü ildə martın 8-i Yevlax rayonun Beydili kəndində anadan olub.

MAHHXHQ əsgər Pərvin Həmidov 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayarkən döyüşlərdə iştirak edib. Talış-Suqovuşan istiqamətində 457-ci yüksəklikdə 01.10.2020-ci il tarixdə şəxsi heyəti təhlükəsiz yerə çıxararkən qəhrəmancasına qəlpə yarası ilə şəhidlik zirvəsinə ucalıb. 02.10.2020-ci ildə Şəhidimizin nəşi Mingəçevir şəhərinə gətirilib və Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həmidov Rəşid Pərviz oğlu** 1999-cu il sentyabr ayının 19-da Siyəzən şəhərində anadan olub. Böyük dəyanət hissi ilə döyüşlərə qatılan Rəşid Həmidov II Qarabağ müharibəsində bütün gücü ilə ləyaqətlə vuruşur, neçə-neçə düşmən hərbçisinin, əsgərinin, döyüş sursatlarının məhv edilməsində iştirak edir, yaralı əsgərləri döyüş zonasından çıxararaq xilas edir. Özü isə alın yazısından qaça bilmir. Nə qədər döyüşkən, cəld olsa belə müharibənin ağır fəsadından yayınmaq mümkün olmadı. 2020-ci il oktyabrın 7-də Goranboy uğrunda gedən döyüşlər zamanı vurularaq 21 yaşında şəhidlik zirvəsini fəth edib şəhadətə qovuşur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Həmidov Rəsman Mərdan oğlu** 1998-ci il iyunun 1-də Şamaxı rayonunun Adnalı kəndində anadan olub.

Leytenant Rəsman Həmidov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Xocavənd rayonunun Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rəsman Həmidov oktyabrın 17-də Hadrut döyüşləri zamanı şəhid olub. Şamaxı rayonunda dəfn olunub.

Rəsman Həmidov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Həmidov Şükür Nəriman oğlu** 1975-ci il aprelin 1-də Qubadlı rayonunun Armudluq kəndində anadan olub.

22 aprel 2016-cı il "Azərbaycanın Milli Qəhrəmanı", aprel ayının əvvəlində Lələ təpə yüksəkliyinin azad edilməsi əməliyyatı zamanı göstərdiyi şücaətə görə polkovnik-leytenant Şükür Həmidova vaxtından əvvəl polkovnik hərbi rütbəsi təqdim olunub.

Milli qəhrəman Şükür Həmidov 22 oktyabr 2020-ci il tarixində Qubadlı rayonunun azadlığı uğrunda döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olub.

O, ölümündən sonra "Zəfər" ordeni, "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həmidov Vasif Natiq oğlu** 4 iyun 1998-ci ildə Şəki şəhərində dünyaya göz açıb.

Əsgər Vasif Həmidov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Tərtər istiqamətində gedən döyüşlərdə vuruşub. Tərtər-Ağdərə döyüşlərində döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanaraq xəstəxanaya yerləşdirilib. 7 gün komada qaldıqdan sonra dünyasını dəyişən Vasif Həmidovun nəşi 27 oktyabr 2020-ci ildə torpağa tapşırılıb.

Vasif Həmidov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Həmidzadə Hüseyn Akif oğlu** 1995-ci il oktyabr ayının 15-də Bakı şəhərində anadan olub. Əsgər Hüseyn Həmidzadə 27 sentyabr 2020-ci ildə başlamış Vətən müharibəsi zamanı könüllü olaraq Cəbrayıl rayon Komissarlığına yazılaraq qısa müddət ərzində ön cəbhəyə yollanır. Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının işğaldan azad edilməsində misli görünməmiş qəhrəmanlıq göstərir, düşmənin çox sayda tankını, ağır texnikasını sıradan çıxarır. 25 oktyabrda Xocavənd rayonu ərazisində gedən döyüşlər zamanı ağır yaralanan Hüseyn 1 noyabr 2020-ci ildə qəhrəmancasına şəhidlik zirvəsinə ucalır. Şəki rayonunun Oxut kənd məzarlığında dəfn olunub.

Hüseyn Həmidzadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həmzəyev Novruz Bəkir oğlu** 21 mart 1992-ci ildə İsmayıllı rayonunda dünyaya gəlib.

Gizir Novruz Həmzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Novruz Füzuli, Hadrut, Cəbrayıl, Qubadlı, Zəngilan, Suqovuşan uğrunda gedən döyüşlərdə şücaətlə döyüşüb. Novruz qaynar döyüş nöqtələrindən 127 şəhid və yaralı çıxarıb. Qələbəyə bir gün qalmış aldığı qəlpə yarasından şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Həmzəyev Turac Suliddin oğlu** 1998-ci il avqustun 27-də Qusar rayonunun Hiloba kəndində anadan olub.

Əsgər Turac Həmzəyev səfərbərlik şöbəsindən çağırış vərəqini alanda sevinmişdi. Hərbi xidmətini iki il əvvəl başa vuran Turac Həmzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Savaşın ilk günündən cəbhədə olan gənc, demək olar, hər gün qardaşı ilə telefon əlaqəsi saxlayırdı. Sonuncu danışıqları ölümündən bir gün qabaq, oktyabrın 14-də olmuşdu. Turac Füzulinin Musabəyli kəndi uğrunda şiddətli döyüş getdiyini, dörd sinif yoldaşının da onunla birlikdə olduğunu bildirmişdi.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənli Alı Nofəl oğlu** 22 iyun 1995-ci ildə Bakı şəhərində anadan olub.

Əsgər Həsənli Alı 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə və Cəbrayıl istiqamətində gedən döyüşlərdə rayonlarının azadlığı uğrunda mübarizədə xüsusi rəşadət göstərmişdir. 20 oktyabr 2020-ci il tarixində Vətən müharibəsində Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənli Amid İsaq oğlu** 1996-cı il yanvarın 21-də Saatlı rayonunun Dədə Qorqud kəndində anadan olub.

Əsgər Amid Həsənli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amid Həsənli oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Saatlı rayonunda dəfn olunub.

Amid Həsənli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənli Elçin Vaqif oğlu** 1993-cü il iyunun 16-da Ağstafa rayonunda anadan olub.

Əsgər Elçin Həsənli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Elçin Həsənli noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Xırdalan şəhərində dəfn olunub.

Elçin Həsənli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Həsənli Seymur Qələndər oğlu** 1993-cü il noyabrın 9-da Yevlax rayonunun Nurallar kəndində anadan olub.

Baş çavuş Seymur Həsənli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Seymur Həsənli noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Seymur Həsənli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənli Telman Rafiq oğlu** 1998-ci il martın 3-də Bağbanlar kəndində anadan olub.

Gizir Telman Həsənli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Telman Həsənli oktyabrın 5-də Füzuli döyüşləri zamanı şəhid olub.

Telman Həsənli ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənli Zərimxan Rafiq oğlu** 7 dekabr 2001-ci ildə Tərtər rayonunun Bəyimsarov kəndində anadan olub.

Əsgər Zərimxan Həsənli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində artilleriya komandasında iştirak edib. Füzulinin və Xocavəndin azad edilməsi uğrunda gedən döyüşlərdə qumbaraatan olaraq vuruşub. 11 oktyabr 2020-ci ildə Füzuli-Hadrut istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qarşı tərəfin atdığı minaatan nəticəsində beyin qanaxması keçirərək şəhid olub.

Zərimxan Həsənli ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Afik Namik oğlu** 01.11.1999-cu il tarixində Qusar rayonunun Böyük Muruq kəndində anadan olub.

Əsgər Afik Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. 02.10.2020-ci il tarixində Goranboy rayonu Buzluq yaşayış məntəqəsi istiqamətində, hərbi əməliyyatlar nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda","Kəlbəcərin azad olunmasına görə " medalları ilə təltif edildi.





**Həsənov Aqil Nofəl oğlu** 1996-cı il yanvarın 6-də Şabran rayonunun Pirəmsən kəndində anadan olub.

Leytenant Aqil Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Aqil Həsənov sentyabrın 29-da şəhid olub. Şabran rayonunda dəfn olunub.

Aqil Həsənov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Aydın Elşən oğlu** 1995-ci il dekabrın 15-də Gəncə şəhərində anadan olub.

Əsgər Aydın Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Hadrut qəsəbəsinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Aydın Həsənov noyabrın 10-da Xankəndi istiqamətində şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Aydın Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Azər Aydın oğlu** 1982-ci il mayın 6-da Bərdə rayonunun Qaradəmirçi kəndində anadan olub.

Çavuş Azər Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Azər Həsənov oktyabrın 13-də Ağdərə istiqamətində şəhid olub.

Azər Həsənov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Həsənov Babək Saleh oğlu** 1990-cı il sentyabrın 14-də Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olub.

Əsgər Babək Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Laçın və Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Babək Həsənov noyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Birinci Şıxlı kəndində torpağa tapşırılıb.

Babək Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Həsənov Bəşir Xəqani oğlu** 1995-ci il iyulun 13-də Şəmkir rayonunun Təzəkənd kəndində anadan olub.

Əsgər Bəşir Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Hadrut və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Bəşir Həsənov oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunun Təzəkənd kəndində dəfn olunub.

Bəşir Həsənov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Cavid Mikayıl oğlu** 1993-cü il martın 6-da Bakı şəhərində anadan olub.

Əsgər Cavid Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Cavid Həsənov oktyabrın 20-də Xocavənd döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Ceyhun Aydın oğlu** 1985-ci il oktyabrın 29-da Tovuz rayonunun Çeşməli kəndində anadan olub.

Kapitan Ceyhun Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ceyhun Həsənov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. İkinci Fəxri Xiyabanda dəfn olunub.

Ceyhun Həsənova ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

Ceyhun Həsənov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Elgün Əli oğlu** 1999-cu il avqusutun 16-da tarixdə İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olub.

Əsgər Elgün Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə şücaətlə savaşıb.

Füzuli rayonu ərazisində gedən döyüşlərdə şəhid olub.

O, göstərdiyi qəhrəmanlıqlara görə "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Elman Mehman oğlu Həsənov** 28 fevral 1993-cü ildə Goranboy rayonunun Qızılhacılı qəsəbəsində dünyaya göz açıb.

Əsgər Elman Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Həmin döyüşlər gedişatında 27 sentyabr 2020-ci ildə Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüşlərdə qarşı tərəfin atdığı artilleriya mərmisi nəticəsində şəhid olub.


Elman Həsənov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Elməddin Elşən oğlu** 1996-cı il fevralın 25-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olub.

Əsgər Elməddin Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Elməddin Həsənov oktyabrın 23-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Elməddin Həsənov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Həsənov Elnur Elman oğlu** 1992-ci il sentyabrın 15-də Ağstafa şəhərində anadan olub.

Əsgər Elnur Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Xocavəndin, Laçının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Elnur Həsənov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Ağstafa Şəhidlər Xiyabanında dəfn olunub.

Elnur Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Elşad Paşa oğlu** 1981-ci il iyunun 13-də Qərbi Azərbaycan Göyçə mahalında dünyaya gəlib.


Mayor Elşad Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Birinci tapşırıqda qolundan və çiynindən qəlpə yarası alıb. Döyüş yoldaşlarının israr etməsinə baxmayaraq mayor Həsənov tibb məntəqəsinə getməyib. Yerində yarasını sarıyaraq döyüşə davam edib. İkinci oktyabrın 2-də mayor Elşad Həsənov 2-ci tapşırığı yerinə yetirmək üçün irəli gedib. Bu əməliyyat zamanı isə artilleriya atəşi nəticəsində aldığı qəlpə yaralarından həlak olub. Onun nəşi döyüş meydanından gətirilərək dekabrın 16-da böyük izdihamla İkinci Fəxri Xiyabanda dəfn edilib.

O, ölümündən sonra "Kəlbəcərin azadlığı uğrunda", "Vətən uğrunda" medalı, "Hərbi xidmətlərə görə III dərəcəli orden", "Rəşadət ordeni" ilə təltif edildi.

**Həsənov Elvin Əlizadə oğlu** 07.11.1994-ci ildə Ağdaş rayonunun Mürsəl kəndində anadan olub.

Əsgər Elvin Həsənov Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 14.10.2020-ci ildə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub. 8 noyabr 2020-ci il tarixində torpağa tapşırılıb.

Elvin Həsənov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Həsənov Elvin Hökümməli oğlu** Saatlı rayon Əhmədbəyli kəndində 1992-ci il iyul ayının 8-də anadan olub.

Elvin 9 sentyabr 2020-ci ildə hərbi səfərbərlik idarəsi tərəfindən Vətən müharibəsinə yola salınıb. Elvin Həsənov Zəngilan, Qubadlı uğrunda döyüşlərdə qəhrəmanlıqlar göstərib. O, 22 oktyabrda şəhidlik zirvəsinə ucalıb. Şəhidimiz öz kəndində dəfn edilib.

O, ölümündən sonra «Vətən uğrunda», «Cəsur döyüşçü», «Cəbrayılın azad olunmasına görə», «Qubadlının azad olunmasına görə» medalları ilə təltif edildi.



**Həsənov Emil Eldəniz oğlu** 2 mart 1999-cu ildə Goranboy rayonu Tatarlı kəndində anadan olub.

Əsgər Emil Həsənov Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Talış kənd və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 22 oktyabrda Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "İgidliyə" görə, "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Həsənov Ərəstun Əfşan oğlu** 1990-cı il sentyabrın 10-da Beyləqan rayonunun Kəbirli kəndində anadan olub.

Kiçik çavuş Ərəstun Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ərəstun Həsənov noyabrın 3-də Qubadlı döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunun Kəbirli kəndində dəfn olunub.

Ərəstun Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.






**Həsənov Əsəd Fərhad oğlu** 1988-ci ildə aprelin 16-da İmişli rayonunun Şahverdili kəndində dünyaya göz açıb.

Kapitan Əsəd Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissədə Qərargah rəisi idi və Ermənistan Silahlı Qüvvələrinin mövqelərinin, üç batareyasının məhv edilməsində fərqlənib. Əsəd Həsənov oktyabrın 1-də Ağdam rayonu istiqamətində şəhid olub. İmişli rayonunda dəfn olunub.

O, ölümündən sonra "Ağdamın azad olunmasına görə" , "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Həsənov Etibar Ələddin oğlu** 1991-ci il fevralın 2-də Gədəbəy rayonunun Qarıkənd kəndində anadan olub.

Əsgər Etibar Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak etmiş, Füzuli ətrafında gedən döyüşlərdə şücaət göstərib. Noyabrın 9-da Şuşada gedən döyüşlərdə şəhid olub. Noyabrın 12-də doğulduğu kənddə dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Həsənov Əzim Fikrət oğlu** 13 iyun 1998-ci il tarixində Balakən rayonun anadan olub.

Əsgər Əzim Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əzim Həsənov oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub. 30 oktyabrda Mingəçevir Şəhidlər Xiyabanında dəfn olunub.

Əzim Həsənov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Faiq Hüseyn oğlu** 1990-cı il iyulun 28-də Bakı şəhərində anadan olub.

Gizir Faiq Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Faiq Həsənov oktyabrın 5-də Füzuli döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Faiq Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Həsənov Fariz Şahin oğlu** 1987-ci il fevralın 12-də Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olub.

Çavuş Fariz Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Fariz Həsənov oktyabrın 13-də Füzuli döyüşləri zamanı şəhid olub.

Fariz Həsənov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Hafiz Saleh oğlu** 1993-cü il 4 oktyabrda Beyləqan rayonu nun Kəbirli kəndində anadan olub.

Əsgər Həsənov Hafiz 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonu istiqamətində gedən döyüşlərdə döyüşüb. Eyni zamanda Cəbrayıl, Ağdərə, Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına döyüşüb. 14 oktyabrda mənfur düşmənin güllәsinə tuş gələrək şəhid olub. Kəbirli kənd qəbirsanlığında dəfn edilib.

Hafiz Həsənov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Həsənov Həsən Rəhim oğlu** 1990-cı il oktyabrın 1-də Şirvan şəhərində anadan olub.

Çavuş Həsən Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Həsən Həsənov oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub. Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Həsən Həsənov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Həsən Səfər oğlu** 3 iyun 1996-cı ildə Sabirabad rayonunun Quruzma kəndində dünyaya gəlib.

Əsgər Həsənov Həsən müharibənin ilk başlandığı 27 sentyabr günündən etibarən Ordu Kəşfiyyatı Qrupu ilə döyüşlərə qatılıb. Kəşfiyyatçı döyüşçü Füzuli, Cəbrayıl, Hadrut, Tərtər rayonunun Talış və Suqovuşan kəndləri, Zəngilanın dörd, Qubadlının isə üç kəndi uğrunda gedən ağır və şiddətli döyüşlərdə iştirak edib, döyüşlərin birində düşmən mühasirəsinə düşən döyüşçülərin sağ-salamat mühasirədən çıxarılmasını təmin edib. Cəsur döyüşçü oktyabr ayının 20-də, Qubadlının Bala Soltanlı kəndi uğrunda gedən çətin və qanlı döyüşlərdə ağır qəlpə yarası alaraq şəhidlik zirvəsinə ucalıb və doğulduğu Qəzli kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən Uğrunda" medalı ilə təltif edildi.






**Həsənov Hüseyn Vahib oğlu** 2001-ci il aprelin 13-də Ucar rayonunun Çiyni kəndində anadan olub.

Əsgər Hüseyn Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində savaşıb. Hüseyn Həsənov sentyabrın 27-də şəhid olub. Ucar rayonunda dəfn olunub.

Hüseyn Həsənov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", «Kəlbəcərin azad olunmasına görə» medalları ilə təltif edildi.



**Həsənov Kənan Elşad oğlu** 16 sentyabr 1997-ci ildə Salyanın Qaraçala qəsəbəsində doğulub.

Əsgər Kənan Həsəniv Vətən müharibəsinin ilk günlərindən döyüşdə iştirak edib. Tapqaraqoyunlu, Talış kənd, Hadrut, Suqovuşan istiqamətində gedən döyüşlərdə düşmənə qarşı fəal şəkildə vuruşub. 10 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində erməni postuna hücumu zamanı qəhrəmancasına şəhid olub. Ondan bir neçə saat əvvəl isə anasıyla telefon danışığında onun rahat olması üçün "narahat olmayın, mən yaxşıyam, təhlükəsiz yerdəyəm" – deyib və döyüşdə olduğunu ailəsindən gizlədib.

K.Həsənov şəhadətindən sonra "Laçının azad olunmasına görə" medalıyla təltif edildi.



**Həsənov Kənan Zirəddin oğlu** 01.01.2001-ci ildə Göygöl rayonunda anadan olub.

Əsgər Kənan Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib, şücaətlə döyüşüb.

12.10.2020-ci ildə Xocavənd rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

Kənan Həsənov ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Həsənov Maarif Rahim oğlu** 1999-cu il noyabr ayının 19-da Göyçay rayonunda anadan olub.

Əsgər Maarif Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərdə iştirak edib. Noyabrın 17-də Suqovuşan uğrunda gedən döyüşlərdə şəhid olub. Göyçay rayonunda Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Məharət Ramil oğli Həsənov** 1987-ci il oktyabrın 25-də Şirvan şəhərində anadan olub.

Vaxtilə Polad Həşimovun əsgəri olmuş Məharət Həsənov da orduya ilk könüllü yazılan gənclərin sırasında idi. Dörd dəfə könüllü olaraq müraciət edən Məharət Həsənov, nəhayət, sentyabrın 29-da döyüşə yollanır. Bu dəfə də manqa komandiri kimi Vətənin müdafiəsinə qoşulur, əsgərləri ilə birlikdə düşmənin canlı qüvvəsinin və döyüş sursatlarının məhv edilməsində iştirak edir. Döyüş yoldaşlarının dediyi kimi, yaralı əsgərləri döyüş zonasından çıxarır. Yoldaşları nə qədər israr etsə də, yaralanmağına baxmayaraq özü döyüşü tərk etmir. Son damla qanına, axır nəfəsinə qədər döyüşərək oktyabrın 15-də şəhadət məqamına yüksəlir. Gözlərini həyata əbədi yummazdan qabaq dediyi son sözləri bu gün təkcə doğmalarının deyil, onu tanıyan hər kəsin ürəyini parçalayır: "Anama deyin, ağlamasın... Bir də qardaşıma söz vermişdim, toyunu özüm edəcəkdim, məni bağışlasın...".

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Məqsəd Mahir oğlu** 21 noyabr 1991-ci ildə Ağdam Şəhərində anadan olub.

Əsgər Məqsəd Həsənov İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Məqsəd Həsənov oktyabrın 7-də Suqovuşan ətrafında gedən döyüşlərdə şəhid olub.

Məqsəd Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Musa Taptıq oğlu** 24.11.1995-ci ildə Mingəçevir şəhərində dünyaya gəlib.

Əsgər Musa Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb.

Sentyabrın 29-da müharibənin qızğın dövründə Talış Suqovuşan istiqamətində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Nahid Hökmüran oğlu** 1996-cı il martın 15-də Saatlı rayonunun Musalı kəndində anadan olub.

Çavuş Nahid Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nahid Həsənov sentyabrın 29-da Füzuli döyüşləri zamanı şəhid olub. Saatlı rayonunun Musalı kəndində dəfn olunub.

Nahid Həsənov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Həsənov Namiq Rasim oğlu** 10 may 1991-ci ildə anadan olub.

Gizir Namiq Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 30 sentyabr 2020-ci ildə Füzuli uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Nemət Süleyman oğlu** 1996-cı il yanvarın 28-i Saatlı rayonunun Əbil kəndində anadan olub.

Əsgər Nemət Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Oktyabrın 22-i Qubadlı istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində şəhidliyə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Neymət Emin oğlu** 11 noyabr 1992-ci ildə İmişlinin Qaralar kəndində anadan olub.

Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan uğrunda gedən döyüşlərində qəhrəmancasına vuruşub. Noyabrın 1-də Zəngilan uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucaldı.

O, ölümündən sonra "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medallarıyla təltif edildi.



**Həsənov Novruz Cumalı oğlu** 1996-ci ilin 20 fevralında Gədəbəy rayonunda doğulub.

Əsgər Novruz Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq ən qaynar nöqtələrində iştirak edərək igidlik göstərib. İlk öncə Murovdağ uğrunda gedən döyüşlərdə iştirak edib. Daha sonra Füzulinin kəndlərinin alınmasında igidlik göstərib. Noyabrın 6-da Novruz Şuşaya yola düşüb. Əlbəyaxa döyüşlərdə 6 ermənini məhv edib, lakin ayağından və kürəyindən yaralanıb. Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda gedən qızğın döyüşlərdə 9 noyabr tarixində şəhid olub. Şəhid Novruz Həsənov noyabrın 14-ü doğma Gədəbəyində dəfn edilib.

O, ölümündən sonra «Vətən uğrunda», «Hərbi xidmətlərə görə», «Şuşanın azad olunmasına görə» medalları ilə təltif edildi.

**Həsənov Nurlan Nadir oğlu** 1991-ci il mayın 19-da Şuşa şəhərində anadan olub.

Leytenant Nurlan Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Həsənov oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Biləcəri qəsəbəsində dəfn olunub.

Nurlan Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Orxan Bəkir oğlu** 1991-ci il mayın 9-da Gəncə şəhərində anadan olub.

Çavuş Orxan Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Həsənov oktyabrın 16-da Füzuli döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Orxan Həsənov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Pərviz Fərmayıl oğlu** 1989-cu il dekabrın 8-də Samux rayonunun Poylu kəndində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş əsgəri olan Pərviz Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Pərviz Həsənov noyabrın 6-da Şuşa döyüşləri zamanı şəhid olub.

Pərviz Həsənov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Pərviz Yolçu oğlu** 1990-cı il sentyabrın 17-i Beyləqan rayonu Kəbirli kəndində anadan olub.

Baş əsgər Pərviz Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

20.10.2020-ci il tarixində Füzuli rayonu istiqamətində Düşmən tərəfindən atılan mərmi nəticəsində digər növ partlayışlar və ya qəlpələrlə törənmiş zədələnmələr nəticəsində (bud arteryasının travması) şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzuli İgidliyə görə", "Xocavənd İgidliyinə görə" medalları ilə təltif edilib.





**Həsənov Röyal Arzu oğlu** 1992-ci il yanvarın 2-də Gədəbəy rayonunun Çobankənd kəndində anadan olub.

Əsgər Röyal Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Röyal Həsənov oktyabrın 3-də Murovdağ döyüşləri zamanı şəhid olub. Gədəbəy rayonunda dəfn olunub.

Röyal Həsənov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Sadiq Əli oğlu** 1986-cı il sentyabrın 14-də Naxçıvan şəhərində anadan olub.

Mayor Sadiq Həsənov Haqq savaşımızın başladığı gün 27 sentyabrda döyüşlərə qatılır, mərd hərbçilərlə birgə cəbhənin müxtəlif istiqamətlərində ermənilərin başına od-alov yağdırır. Elə ilk günlərdən bizə qələbə qazandıran oğullardan olur. Cəbhəyə yollananda da evdəkilər nigaran olmasın deyə ailəsinə heç nə bildirmir. 23 gün Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı istiqamətlərində əsl qəhrəmanlıqla savaşır. Oktyabrın 20-də Qubadlının Balasoltanlı kəndində öz əsgərini mənfur düşmən mərmisindən qorumaq üçün onun üzərinə atılaraq şəhidlik zirvəsini fəth edir.

O, ölümündən sonra "Vətən uğrunda", "Qubadlının və Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Sahib Azər oğlu Həsənov** 19 oktyabr 1999-cu il tarixdə Gəncə şəhəri, Kəpəz rayonunda anadan olub.

Əsgər Sahib Həsənov torpaqlarımızın azadlığı uğrunda vuruşlara qatıldı, Murovdağ zirvəsi və Kəlbəcər rayonu uğrunda gedən döyüşlərdə igidliklə iştirak etdi. 17 oktyabr 2020-ci ildə Goranboy rayonu Buzluq kəndi yaşayış məntəqəsi istiqamətində, düşmənlə təmas xəttində Azərbaycanın "İldırım" döyüş mövqeyindən erməni separatçılarının "Qaragöl" döyüş mövqeyinin solunda şəhid olub. 18 oktyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Həsənov Səddam Aydın oğlu** 15.10.1992-ci ildə Beyləqan rayonunun Yeni Mil qəsəbəsində anadan olub.

Gizir Səddam Həsənov 2-ci Qarabağ müharibəsinin ilk günlərindən Murovdağ silsiləsinin azad olunmasında və Ağdərə istiqamətində gedən döyüşlərdə yaxından iştirak edib, həmçinin Cəbrayıl və Qubadlı şəhərlərinin azad olunmasında qəhrəmanlıq göstərib və üçrəngli bayrağımızı həmin torpaqlarda dalğalandırıb. Döyüşlərdə fərqləndiyinə görə bir çox order və medallarla təltif edilib. 17.10.2020-ci ildə Hadrud qəsəbəsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. 17.10.2020-ci ildə doğulub boya-başa çatdığı Beyləqan rayonunun Yeni Mil qəsəbəsində torpağa tapşırılıb.

Həsənov Səddam ölümündən sonra "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edildi.

**Həsənov Səfər Elmar oğlu** 18 sentyabr 2001-ci ildə Neftçala rayonunun Xıllı qəsəbəsində anadan olub.

Əsgər Səfər Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan uğrunda gedən döyüşlərdə vuruşub.

Suqovuşan istiqamətində 530 yüksəkliyində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Həsənov Sərxan Habil oğlu** 1999-cu il martın 8-də Tovuz rayonunun Əlibəyli kəndində anadan olub.

Əsgər Sərxan Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Sərxan Həsənov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Əlibəyli kəndində dəfn olunub.

Sərxan Həsənov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Həsənov Səxavət Alim oğlu** 13 noyabr 1994-cü ildə Gəncə şəhərində doğulub.

Əsgər Həsənov Səxavət 27 sentyabr 2020-ci il tarixində Vətən müharibəsinin başlaması ilə əlaqədar Səxavət Həsənov yenidən hərbi xidmətə çağrılıb. Vətən müharibəsi zamanı o, Füzuli, Qubadlı, Cəbrayıl və Laçın rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. 2 noyabr 2020-ci ildə Laçın uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. 4 noyabr 2020-ci il tarixində Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə","Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Tacir Elşən oğlu** 21.04.2001-ci il tarixdə Bakı şəhərinin Sabunçu rayonunda anadan olub.

14.10.2020-ci il tarixində Göygöl rayonu, Toğanalı kəndi istiqamətində gedən döyüşlərdə hərbi əməliyyatlar zamanı nəticəsində şəhid olub.

O, ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə " medalı ilə təltif edildi.





**Həsənov Tarix Sucayət oğlu** 1986-cı il yanvarın 30-da Göygöl rayonunun Çay kəndində anadan olub.

Baş əsgər Tarix Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Tarix Həsənov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 28 yanvar 2021-ci ildə Göygöl şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Həsənov Təbriz Rəşid oğlu** 25 avqust 1994-cü ildə Bərdə rayon, Qaradəmirçi kəndində anadan olub.

Əsgər Təbriz Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak edib.

Tank tağımının tuşlayıcı-operator vəzifəsini icra edən Təbriz Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə fəal iştirak etmişdir. 2 oktyabr 2020-ci il tarixdə Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Təbriz Həsənov ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Həsənov Teymur Mahal oğlu** 1989-cu il aprelin 3-də Bakı şəhərində, hərbçi ailəsində dünyaya gəlib.

Əsgər Teymur Həsənov Vətən müharibəsi başlayanda hər kəs kimi torpaqların müdafiəsinə qalxmağı özünə borc bilir. Sentyabrın 29-da könüllü olaraq cəbhəyə yollanır. Füzuli, Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edən Teymur oktyabrın 25-də qəhrəmancasına şəhid olub.

Teymur Həsənovun komandirinə son sözü isə belə olur: "Mənə bir şey olsa atama deməyin, bu dərdə dözməz, qardaşıma deyin".

Bir müddət sonra Teymurun komandiri onun əşyalarını ailəsinə göndərir. Çantasından çıxan əşyalar isə hər kəsin göz yaşlarına səbəb olur. Çünki onun "ölüm medalyonu"nun içində "Ana ağlama", "Ata ağlama", "Siz dəyərlisiniz" sözləri yazılmışdı. Şəhidimiz ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Həsənov Tofiq Etibar oğlu** 1989-cu il noyabrın 21-də Gədəbəy rayonunun Cəfərli kəndində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu olan Tofiq Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Tofiq Həsənov sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub.

Tofiq Həsənov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Həsənov Tural Tapdıq oğlu** 16.07.1994-cü ildə Mingəçevir şəhərində dünyaya gəlib.

Əsgər Tural Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 2-də Goranboy rayonu Tapqaraqoyunlu kəndi istiqamətində şəhid olub.

"Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Vətən uğrunda" medallarıyla təltif edildi.



**Həsənov Ülvi Natiq oğlu** 2001-ci il dekabrın 31-də Mingəçevirdə anadan olub.

Əsgər Ülvi Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Ülvi Həsənov 11 noyabr 2020-ci ildə Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Ülvi Həsənov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Vurğun Ağası oğlu** 06 avqust 1995-ci ildə Siyəzən şəhərində anadan olub.

Əsgər Vurğun Həsənov 27 sentyabr 2020-ci il tarixində başlanan İkinci Qarabağ müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb və torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli, Cəbrayıl, Xocavəndin azad olunması uğrunda şəhid olub.

O, ölümündən sonra "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Həsənov Vüsal Bayram oğlu** 1986-cı il martın 17-də Xanlar (indiki Göygöl) şəhərində anadan olub.

Əsgər Vüsal Həsənov müharibənin başladığı ilk günlərdən dəfələrlə Göygöl rayon Hərbi Komissarlığına döyüşlərdə iştirak üçün müraciət edib.


09.11.2020-ci il tarixində Xocavənd, Şuşa ətrafında gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olub.





**Həsənov Xətai Xaliq oğlu** 2001-ci ildə Tovuz rayonunun Qovlar qəsəbəsində dünyaya gəlib. İkinci Qarabağ savaşına qatılaraq mərdliklə düşmənə qarşı vuruşub. Şəhidlik zirvəsinə ucalmazdan öncə Ağdərə, Cəbrayıl və Talış kəndi istiqamətində gedən döyüşlərdə iştirak edib. Ailəsi ilə sonuncu dəfə oktyabrın 30-u, yəni ölümündən bir gün öncə danışıb. Şəhid Xətai Həsənov anası Qabilə xanıma "mənimlə fəxr edəcəksiniz" deyib. Xətai Həsənov Ağdam rayonunun Qaraqoyunlu kəndində gedən döyüşlərdə öz komandirini xilas edən zaman qəhrəmancasına şəhid olub. Bu gün onunla nəinki ailəsi, bütün Azərbaycan xalqı fəxr edir. Məlumat üçün bildirək ki, Xətai Həsənov son 30 ildə Tovuz rayonunun Qovlar qəsəbəsinin ilk şəhididir.

Xətai Həsənov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Həsənov Xəyal Əliyulla oğlu** 1998-ci il noyabrın 30-da Şabran şəhərində anadan olub.

Əsgər Xəyal Həsənov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyal Həsənov oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olub.

Xəyal Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənov Xəyal Zeynəddin oğlu** 16 aprel 2002-ci ildə Göyçay rayonun Qaraman kəndində anadan olub. 2020-ci il mayın 27-də həqiqi hərbi xidmətə yollanıb.

27 sentyabrda başlanan Vətən müharibəsində iştirak edib. 13 oktyabrda Suqovuşanda gedən şiddətli döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb.

Həsənov Xəyal ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Həsənquliyev Nicat Aydın oğlu** 1989-cu il dekabrın 9-da Ağdam rayonunun İsmayılbəyli kəndində anadan olub.

Kiçik çavuş Nicat Həsənquliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nicat Həsənquliyev oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub.

Nicat Həsənquliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Həsənquliyev Səbuhi Əlixan oğlu** 11 aprel 2002-ci ildə Ucar rayonunun Boyat kəndində anadan olub.

Əsgər Səbuhi Həsənquliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Səbuhi Həsənquliyev 19 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Səbuhi Həsənquliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənzadə Əbülhəsən Mirzə oğlu** 20 avqust 1997-ci ildə Lənkəran rayonunun Havzava kəndində anadan olub.

2020-ci il sentyabr ayının 27-də başlanan 44 günlük II Qarabağ müharibəsinin ilk günündən böyük ruh yüksəkliyi ilə Füzuli, Cəbrayıl, Qubadlı istiqamətlərində gedən şiddətli döyüşlərdə yüksək şücaət və qəhrəmanlıqlar göstərir. Daha sonra Şuşa istiqaməti uğrunda gedən qızğın döyüşlərdə iştirak edir, düşmənə sarsıdıcı zərbələr endirir. Noyabr ayının 4-də Daşaltı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Şəhidin nəşi həmin ayın 6-da Havzava kəndinə gətirilir, "Seyidlər" adlanan qəbiristanlıqda dəfn edilir.

Əbülhəsən Həsənzadə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü","İgidliyə görə","Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həsənzadə Famil Şiraslan oğlu** 22 mart 1994-cü ildə Beyləqan rayonunun Kəbirli kəndində anadan olub.

İkinci Qarabağ müharibəsinin ilk günündən döyüşə başlayıb - Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı və Xocavənd rayonlarının işğaldan azad olunmasında qəhrəmancasına döyüşüb. Qəhrəman gizirimiz keçdiyi 42 günlük döyüş müddətində bir dəfə də olsun döyüş mövqeyindən çəkilməyib.

Gizir Famil Həsənzadə Şuşa şəhəri uğrunda gedən qanlı döyüşlərdə, noyabr ayının 8-də Sığnaq kəndində qəhrəmancasına şəhid olub.

Famil Həsənzadə ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Həsənzadə Məhəmmədəli Hörmət oğlu** 1999-cu il may ayının 1-də Sumqayıt şəhərində anadan olub.

Məmmədəli sentyabrın 27-də başlanan Vətən müharibəsinə qatılıb. O, Hadrutda gedən ağır döyüşlərdə əsgər yoldaşının həyatını xilas edib. Döyüş yoldaşı Yarıyev Azər deyir ki, həyatda sağ qalmasına görə Məmmədliyə borcludur. Onun sözlərinə görə, Məmmədli ondan başqa daha bir neçə nəfəri yaralı vəziyyətdə döyüş meydanından çıxarmağa müvəffəq olub. Cəbrayıl, Füzuli, Hadrut istiqamətində vuruşan Məmmədli, noyabrın 6-da Xocavənd rayonunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Noyabrın 8-də Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Həsənzadə Məhəmmədəli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Həsrətov Elməddin Sərdar oğlu** 21 may 1997-ci ildə Goranboy rayonunun Qarasuçu kəndində dünyaya göz açıb.

Əsgər Elməddin Həsrətov 2020-ci ilin 27 sentyabrından başlanan Vətən müharibəsində iştirak edib. Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Elməddin Həsrətov 2 oktyabr 2020-ci ildə Murovdağ istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunub. Onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülüb. Nəticədə, Elməddin Həsrətovun nəşi 26 iyun 2021-ci ildə tapılıb və 27 iyun tarixində Goranboy rayonunun Qarasuçu kəndində dəfn olunub.



**Həşimli Cəmil Əflatun oğlu** 1995-ci ilin avqust ayının 11-də Kürdəmirdə dünyaya gəlib.

"N" saylı hərbi hissənin giziri olub. Şəhadətinə kimi, 3 il gizir işləyib İkinci Qarabağ Savaşının ilk günlərindən də döyüşlərə atılıb.

Füzuli-Əbdürrəhmanlı kəndi istiqamətində ağır döyüşlərdən birində, oktyabrın 5-də Şəhidlik məqamına ucalıb.

Oktyabrın 6-da Kürdəmir rayonunda – Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həşimov Fərrux Mirzəmməd oğlu** 1988-ci il martın 24-də Qubadlı rayonunun Əliquluuşağı kəndində anadan olub.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin "Sualtı Hücum" (SAH) Xüsusi Təyinatlı Qüvvələrinin kapitan-leytenantı olan Fərrux Həşimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Qubadlı və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Fərrux Həşimov noyabrın 1-də Xocavənd rayonunun Qırmızı Bazar istiqamətində gedən döyüşlər zamanı şəhid olub.

Şəhidimiz "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Həşimov Nağı Anar oğlu** 1998-ci il avqustun 20-də Gəncə şəhərində anadan olub.

Leytenant Nağı Həşimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nağı Həşimov sentyabrın 29-da Füzuli döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Nağı Həşimov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Heybətov Ağaəmi Elçin oğlu** 1993-cü il iyunun 6-da Buzovna qəsəbəsində anadan olub.

Əsgər Ağaəmi Heybətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Ağaəmi Heybətov oktyabrın 16-da Goranboy rayonu istiqamətində şəhid olub. Xəzər rayonunun Buzovna qəsəbəsində dəfn olunub.


Ağaəmi Heybətov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Heydərli Ayxan İlham oğlu** 1996-cı il dekabrın 26-da Beyləqan rayonunun Orta Əlinəzərli kəndində anadan olub.

Kiçik çavuş Ayxan Heydərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ayxan Heydərli oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhid olub.

Ayxan Heydərli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Heydərov Adəm İkram oğlu** 2000-ci il martın 26-da Qəbələ rayonunun Bum qəsəbəsində anadan olub.

Əsgər Adəm Heydərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Adəm Heydərov oktyabrın 13-də Ağdərə istiqamətində şəhid olub. Qəbələ rayonunun Bum qəsəbəsində dəfn olunub.

Adəm Heydərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Heydərov Anar Bəhruz oğlu** 1988-ci il iyunun 1-də Sumqayıt şəhərində dünyaya gəlib.

Kapitan Anar Heydərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində döyüş tapşırığını yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" , "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı", "İgidliyə görə" medalları ilə təltif edildi.





**Heydərov Amid Rəbbil oğlu** 1988-ci il mayın 20-də Lerik şəhərində anadan olub.

Amid Heydərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amid Heydərov oktyabrın 3-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Lerik şəhərində dəfn olunub. Ailəli idi. 2 övladı yadigar qaldı.

Amid Heydərova ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Heydərov Ehtiram Şahin oğlu** 2000-ci il martın 5-də Xaçmaz rayonunun Uzunoba kəndində anadan olub.

Əsgər Ehtiram Heydərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak edib. Oktyabrın 4-ü Tərtər rayonu Suqovuşan kəndi istiqamətində hərəkət edən zaman düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən müharibəsi iştirakçısı", "Ağdamın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Heydərov Əli Vaqif oğlu** 9 fevral 2002-ci ildə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda anadan olub.

Əsgər Əli Heydərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Əli Heydərov 27 sentyabrda Füzuli, Cəbrayıl istiqamətində, gedən döyüşlərdə şəhid olub.

O, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Heydərov Qadir Ədalət oğlu** 11 may 1998-ci ildə anadan olub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Zəngilan və Qubadlı, istiqamətində döyüşlərdə iştirak edib. 30 oktyabr 2020-ci il tarixində qəhrəmancasına vuruşaraq şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayıl azad olunmasına görə"" və "Qubadlı döyüşlərinə görə" medalları ilə təltif edildi.

**Heydərov Qismət İsmayıl oğlu** 20 iyul 2002-ci ildə Goranboy rayonunda dünyaya göz açıb.

Əsgər Qismət Heydərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Qismət Heydərov oktyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub.

Qismət Heydərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Heydərov Rafiq Rahim oğlu** 1995-ci il iyulun 1-də Bakı şəhərdə anadan olub.

Əsgər Rafiq Heydərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Hadrud qəsəbəsini azad edərkən düşmən tərəfindən atılmış minamyot mərmisi nəticəsində 8 əsgər yoldaşıyla birgə şəhid olublar. 18.10.2020-ci ildə Rafiqin nəşi İkinci Fəxri Xiyabində dəfn olundu.

Rafiq Heydərov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Heydərov Sabir Ceyhun oğlu** 27 iyun 1998-ci ildə Şamaxı rayonunda dünyaya gəlib.

Gizir Sabir Heydərov 2020-ci il sentyabrın 27-sindən etibarən Qarabağ uğrunda gedən döyüşlərə qatılıb. Murovdağ silsiləsi istiqamətində bir çox postların alınmasında qəhrəmancasına iştirak edib. 02.10.2020-ci ildə Füzuli rayonu ərazisində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlayışı nəticəsində aldığı çoxsaylı qəlpə zədələnməsindən şəhid olub. Şamaxı şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.


Sabir Heydərov şəhadətindən sonra "Hərbi xidmətlərə görə", "Vətən Uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Heydərov Vasif Nazim oğlu** 1997-ci il yanvar ayının 5-də Tovuz rayonunun Aran Yanıqlı kəndində anadan olub.

O, 27 sentyabr 2020-ci ildə ordumuzun düşmən mövqələrinə qarşı başlayan əks-hücum əməliyyatlarında fəal iştirak edib. Füzuli istiqamətində gedən döyüşlərdə yaralansa belə döyüşə davam etmiş, yaralı zabiti yanan BMP-dən çıxarıb həyatını xilas edib. Və sonra "Bura qədər vuruşub gəlmişik, geriyə qayıtmaq olmaz!" deyərək hücumu davam etdirmək əmri verib, müdafiə olunan düşmənin 2-ci müdafiə xəttini yarıb. Atıcı silahlarla Vasifin dəstəsini məhv edə bilməyən düşmən ağır artilleriyadan istifadə edib və nəticədə Vasif ağır yaralanaraq şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" görə medalları ilə təltif edildi.





**Həziyev Hafiz Varoğlu oğlu** 1993-cü il oktyabrın 23-də Yeni Qaradolaq kəndində doğulub.

Əsgər Hafiz Həziyev 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlanan zaman Hafiz dərhal, 28 sentyabrda könüllü olaraq ordu sıralarına yazılır. Sabahı günü, sentyabrın 29-da ön cəbhədə vuruşan ordumuzun sıralarına qoşulan Hafiz oktyabr ayının 6-da Füzuli uğrunda gedən şiddətli döyüş zamanı yaralı əsgər yoldaşını xilas etmək üçün irəli atılır. Düşmən snayperinin gülləsinə tuş gələn Hafiz torpaqlarımızın bütövlüyü uğrunda qəhrəmancasına şəhid olur. Doğulduğu yeni Qaradolaq kəndinin qəbristanlığında dəfn olunur.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Həziyev Xəyal Feyruz oğlu** 1987-ci il dekabrın 20-də Ağcabədi şəhərində anadan olub.

Əsgər Xəyal Həziyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyal Həziyev oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub. Ağcabədi şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Xəyal Həziyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hilalov Araz Elburus oğlu** 1979-cu il aprelində 1-də Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olub.

Kiçik çavuş Araz Hilalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Araz Hilalov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Füzuli rayonunun Bala Bəhmənli kəndində dəfn olunub.

Araz Hilalov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə","Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi



**Hümbətov Azad Arif oğlu** 1996-cı il yanvarın 24-də Bakı şəhərində dünyaya gəlib. Müharibənin başladığı ilk günlərdən A.Hümbətov ön cəbhədə gedən döyüşlərdə iştirak edir. Füzuli, Qubadlı, Laçının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını məhv edir. Tank tağımı komandiri olan qəhrəman şəhidimiz Azad Hümbətov həyatını təhlükəyə ataraq düşmənin 5 tankını öz mövqelərimizə gətirməyə nail olub. Dəfələrlə öz döyüş yoldaşlarını düşmən mühasirəsindən yaralı halda çıxaran cəsur döyüşçümüz Laçın uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. A.Hümbətov İkinci Fəxri Xiyabanda torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş, eləcə də "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Hümbətov Emil Tərlan oğlu** 30 oktyabr 1992-ci ildə Şirvan şəhərində anadan olub.

Əsgər Emil Hümbətov sentyabrın 21-də Vətəni qorumaq üçün cəbhəyə yollanır, topçu və manqa başçısı kimi xidmət göstərir. Vətən müharibəsinin 15-ci günündə, 11 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən ağır döyüşlərdə qəhrəmanacasına şəhid olub.

Emil Hümbətov 12 oktyabr 2020-ci il tarixində Şirvan şəhərinin Şəhidlər Xiyabanında izdihamla dəfn edilib. Ruhu göylərə, nəşi isə canı, qanı bahasına qoruduğu, uğrunda öldüyü Vətən torpağına qovuşur.

O, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hümbətov İlqar Vüqar oğlu** 13.06.1996-cı ildə Ağsu rayonunda dünyaya gəlib.

Əsgər İlqar Hümbətov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Talış-Suqovuşan bölgəsində döyüşüb.

Oktyabrın 15-də müharibənin qızğın dövründə Talış-Suqovuşan istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.



**Hümbətov İmaməddin Muxtar oğlu** 5 sentyabr 1998-ci ildə Babək rayonunun Payız kəndində anadan olub.

Əsgər İmaməddin Hümbətov müharibə zamanı XT qrup kəşfiyyatçı-tuşlayıcı kimi hərbi xidmətini yerinə yetirib. Xocavənd rayonu istiqamətində döyüş yolu keçib.

20.10.2020-ci ildə Çakkuri-Azıx istiqamətində gedən döyüşlər nəticəsində şəhid olub.

Şəhidimiz "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hümbətov Nurəddin İlqar oğlu** 26 dekabr 1998-ci ildə Samux rayonunun Nəbiağalı qəsəbəsində dünyaya göz açıb.

Əsgər Nurəddin Hümbətov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Murovdağın, Suqovuşanın, Füzulinin, Hadrutun və Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Nurəddin Hümbətov 9 noyabr 2020-ci ildə Şuşa-Xocavənd istqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. 18 noyabr 2020-ci ildə Samux şəhər qəbiristanlığında torpağa tapşırılıb.

Nurəddin Hümbətov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Hümbətov Ruslan Səlim oğlu** 20 may 1987-ci ildə Samuxda anadan olub.

Xüsusi Təyinatlı Dəstələrin giziri olan Ruslan Hümbətov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Suqovuşan, Qubadlı, Murov və Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib, şücaətlə döyüşüb. 06.10.2020-ci ildə Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

Elnur Vəliyev ölümündən sonra "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Hümbətov Şahin Əlicuvan oğlu** 1986-cı il noyabrın 24-də Sabirabad rayonunun Minbaşı kəndində anadan olub.

Kiçik çavuş Şahin Hümbətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli Xocavənd rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. Şahin Hümbətov oktyabrın 26-da Xocavənd rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

Şahin Hümbətov ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Hümbətov Səfayət Ələddin oğlu** 17 fevral 1987-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olub.

28 sentyabr 2020-ci ildə Vətən müharibəsi zamanı Tap Qaraqoyunlu istiqamətində şəhid olub, 29 sentyabr 2020-ci ildə doğulduğu Yeni Daşkənd kəndində dəfn olunub.

Hümbətov Səfayət ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hümmətov İzzət Müşviq oğlu** 1996-cı il sentyabrın 9-də Şabran rayonunun Uzunboyad kəndində anadan olub.

Əsgər İzzət Hümmətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İzzət Hümmətov oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub.

İzzət Hümmətov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Hümmətov Tural Rövşən oğlu** 1998-ci il mayın 20-də Lənkəran rayonunun Tatoba kəndində anadan olub.

Əsgər Tural Hümmətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Hümmətov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Lənkəran rayonunda dəfn olunub.

Tural Hümmətov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynli Ağa Aydın oğlu** 2001-ci il sentyabrın 7-də Sabirabadın Moranlı kəndində dünyaya gəlib.

Əsgər Ağa Hüseynli 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi zamanı Ağa Hüseynlidə xidmət keçdiyi hərbi hissədən döyüş bölgəsinə gedib. Döyüşlərə qatılan Ağa Hüseynli bir çox şiddətli döyüşlərdə iştirak edib.Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edən Ağa Hüseynli şəxsən bir sıra uğurlu əməliyyatların iştirakçısı olub. Oktyabr ayının 5-də isə 19 yaşlı qəhrəmanımız şəhidlik zirvəsinə ucalır.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynli Anar Saday oğlu** 1994-cü il avqustun 13-də Şəmkir rayonunun Təzəkənd kəndində anadan olub.

Əsgər Anar Hüseynli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Qubadlı və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Anar Hüseynli noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunun Təzəkənd kəndində dəfn olunub.

Anar Hüseynli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü","Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynli Ədalət Səadət oğlu** 08 may 1992-ci ildə Cəlilabad rayonu Fərəcullalı kəndində anadan olub.

Əsgər Ədalət Hüseynli Vətən müharibəsi başlayanda 29 sentyabr 2020-ci ildə Qarabağ muharibəsinə könüllü olaraq qatılıb. İki dəfə yüngül yaralansa da yenə döyüşlərə qatılıb.

8 noyabr 2020-ci il tarixində Qubadlıda yaralı yoldaşını çıxararkən ağır yaralanıb. 4 dəfə əməliyyat keçirməsinə baxmayaraq 21 dekabrda şəhid olur.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Hüseynli Əliheydar Səlahəddin oğlu** 1994-cü il aprelin 14-də Ağstafa rayonunun Qırılı kəndində anadan olub.

Əsgər Əliheydar Hüseynli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Cəbrayıl və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Əliheydar Hüseynli noyabrın 9-da Xocavənd rayonu ərazisində gedən döyüşlər zamanı şəhid olub. Ağstafa rayonunun Qırılı kəndində dəfn olunub.

Əliheydar Hüseynli ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Hüseynli Əkbər Azər oğlu** 2001-ci il oktyabrın 15-də Cəlilabad rayonu Alar kəndində anadan olub.

Əsgər Əkbər Hüseynli 27 sentyabr 2020-ci ildə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murov istiqamətində gedən döyüşlərdə iştirak edib.

Döyüş zamanı qolundan yaralanıb, əsgər yoldaşlarının təkidinə baxmayaraq döyüşə davam edib.

27-29 sentyabr tarixlərində Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüş yoldaşları ilə xeyli irəliləyərək düşmənin çox sayda hərbi qulluqçusunu məhv edib. Murov zirvəsinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları təltif edildi.



**Hüseynli Elxan İsrayıl oğlu** 1999-cu il aprelin 4-də Beyləqan rayonunun Yuxarı Kəbirli kəndində anadan olub.

Əsgər Elxan Hüseynli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Elxan Hüseynli 9 noyabr 2020-ci ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Elxan Hüseynli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynli Əmrah Namiq oğlu** 12 oktyabr 1994-cü il Cəlilabad rayonunda anadan olub.

Baş leytenant Əmrah Hüseynli Murovdağ silsiləsinin Murov zirvəsi, Cəbrayıl, Füzuli rayonlarının düşmən işğalından azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Xocavənd rayonunun Hadrut qəsəbəsi uğunda gedən döyüşlərdə yanında mərmi partlaması nəticəsində yaralanıb (07.10.2020), amma 4 gün hospitalda qaldıqdan sonra yaralı halda silahdaşlarının yanına qayıdır. 26 oktyabr tarixində Xocalı rayonun Çanaqçı kəndi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Bir gün sonra doğulduğu Cəlilabad rayonunda torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə medalı", "İgidliyə görə" medalları ilə təltif edildi.

**Hüseynli Etiram Həsən oğlu** 1977-ci il aprelin 17-də Lənkəran şəhərində anadan olub.

Baş leytenant Etiram Hüseynli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Etiram Hüseynli oktyabrın 21-də Qubadlı döyüşləri zamanı şəhid olub. Lənkəran şəhərində dəfn olunub.

Etiram Hüseynli ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynli Fariz Dadaş oğlu** 10 noyabr 1994-cü ildə Biləsuvar rayonunun Əsgərabad kəndində anadan olub.

Fariz Hüseynli 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, Tərtər rayonu Talış kəndi, Laçın və Füzuli rayonları istiqamətində gedən döyüşlərdə vuruşub və düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Fariz Hüseynli 4 oktyabr 2020-ci il tarixində Biləsuvar rayonu Əsgərabad kənd məzarıstanlığında dəfn olunub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Hüseynli İbrahim İsa oğlu** 1992-ci il mayın 30-da Yevlax rayonunun Qoyunbinəsi kəndində anadan olub.

Kiçik çavuş İbrahim Hüseynli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İbrahim Hüseynli oktyabrın 19-da Hadrut döyüşləri zamanı şəhid olub.

İbrahim Hüseynli ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynli İlqar Şəmiyyət oğlu** 1976-cı il oktyabrın 6-da Xudat şəhərində anadan olub.

Baş gizir İlqar Hüseynli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. İlqar Hüseynli oktyabrın 9-da Ağdərə istiqamətində şəhid olub. Xudat şəhərində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi.





**Hüseynli Səbuhi Babək oğlu** 1997-ci ildə Xaçmaz rayonunun Maqsudkənd kəndində anadan olub.

Əsgər Səbuhi Hüseynli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı qəhrəmanlıqla vuruşub. Oktyabrın 26-da Xocavənddə aldığı qəlpə yarasından baş beyninin zədələnməsi səbəbindən Silahlı Qüvvələrin Baş Kliniki Hospitalında və Neyrocərrahiyyə Xəstəxanasında müalicə olunurdu. Həkimlərin səyinə baxmayaraq onun həyatını xilas etmək mümkün olmayıb. 15 aprel 2021-ci ildə Azərbaycan Ordusunun müddətdən artıq hərbi qulluqçusu, 24 yaşlı şəhid Səbuhi Babək oğlu Hüseynli 7 ay komada qalıb və şəhadətə yüksəlib. Xaçmaz rayonunun Maqsudkənd kəndinin qəbiristanlığında dəfn torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynli Şahin Vaqif oğlu** 1995-ci il mayın 4-də Beyləqan şəhərində anadan olub.

Kiçik çavuş Şahin Hüseynli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şahin Hüseynli sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şahin Hüseynli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Şahin Hüseynli ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Hüseynli Şamil Novruz oğlu** 8 yanvar 1993-cü ildə İmişli rayonunun Cəfərli kəndində dünyaya göz açıb.

Əsgər Şamil Hüseynli 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 3 noyabr 2020-ci ildə Qubadlı istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Şamil Hüseynli ölümündən sonra "Vətən uğrunda", Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynli Türkay Nizam oğlu** 1990-cı il noyabrın 25-də Bakı şəhərində anadan olub.

3 oktyabr 2020-ci il... Cəbrayıl istiqamətində gedən döyüş Türkayın son döyüşü oldu. Komandiri olduğu qrupun şəxsi heyəti ilə birgə rayonun Böyük Mərcanlı kəndi ətrafındakı yüksəklikdə düşmənin 30 il ərzində möhkəmləndirilmiş birinci müdafiə xəttini darmadağın etdi. Ermənilərin xeyli sayda canlı qüvvəsi, eləcə də 8 tankı və 1 topu məhv edildi. Lakin düşmənin bu istiqamətdəki ikinci müdafiə səddinin yarılması uğrunda gedən şiddətli döyüş zamanı erməni snayperinin açdığı atəş nəticəsində ağır yaralanan kapitan Türkay Hüseynli qəhrəmancasına şəhid oldu... Kapitan Türkay Hüseynli 2020-ci il oktyabrın 3-də Bakıdakı İkinci Fəxri Xiyabanda dəfn olundu.

O, "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Hüseynli Zahir Mahir oğlu** 2001-ci il aprelin 17-də Beyləqan rayonunun Yuxarı Aran qəsəbəsində anadan olub.

Əsgər Zahir Hüseynli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. Zahir Hüseynli oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunda dəfn olunub.

Zahir Hüseynli ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə" medalları ilə təltif edildi.



**Hüseyinov Bəhruz Yavər oğlu** 17 yanvar 1994-cü ildə Salyan rayonunun Yolüstü kəndində anadan olub.

Əsgər Bəhruz Hüseyinov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində tankçı olaraq ön cəbhə bölgəsinə göndərilib. Füzuli, Cəbrayıl və Hadrut istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 19-da Xocavənd rayonu Düdükçü kəndi üzərindəki yüksəkliklərin azad edilməsi uğrunda gedən döyüşlərdə düşmənin atdığı minaatan mərmisi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseyinov Elbrus Nadir oğlu** 1991-ci il martın 4-də Göygöl rayonunun Çaykənd kəndində anadan olub.

Baş çavuş Elbrus Hüseyinov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elbrus Hüseyinov oktyabrın 19-da Cəbrayıl döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseyinov Elbrus Laçın oğlu** 1991-ci il martın 4-də Göygöl rayonunun Çaykənd kəndində anadan olub.

Baş çavuş Elbrus Hüseyinov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elbrus Hüseyinov oktyabrın 19-da Cəbrayıl döyüşləri zamanı şəhid olub.

Elbrus Hüseyinov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Hüseynov Adil Namiq oğlu** 1995-ci il mayın 30-da Bərdə rayonunun Körpüsındıran kəndində doğulub.

Əsgər Adil Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq ordu sıralarına qatılıb. Ağdam Ağdərə Suqovuşan istiqamətində döyüşlərdə iştirak edib. 530 yüksəkliyində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynov Amil Rasim oğlu** 16.08.1986-cı ildə Füzuli rayonunun Əhmədalılar kəndində anadan olub.

Əsgər Amil Hüseynov İkinci Qarabağ müharibəsinin fəal iştirakçısı olan, Füzuli və Xocavənd uğrunda gedən döyüşlərdə sücaətlik göstərsə də, 10.10.2020-ci ildə itkin düşür. Şəhidlik zirvəsinə ucalan qəhrəmanımız 60 gündən sonra 10 dekabr 2020-ci ildə öz doğma kəndində son mənzilə yola salınır.

O, ölümündən sonra "Füzulinin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Hüseynov Anar Hüseyn oğlu** 1982-ci il oktyabrın 8-də Tovuz rayonunun Əlibəyli kəndində anadan olub.

Kiçik çavuş Anar Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Anar Hüseynov sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub.

Anar Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Hüseynov Anar Rəhim oğlu** 1997-ci il yanvarın 9-da Tərtər rayonunda anadan olub.

Anar Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində döyüşüb. Müharibənin ilk günündə başından qəlpə yarası alaraq şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Hüseynov Aqil Habil oğlu** 09.05.1995-ci ildə Beyləqan rayonunun Əhmədli kəndində anadan olub.

Əsgər Aqil Hüseynov Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edərək böyük qəhrəmanlıq göstərib, Milli Qəhrəman Şükür Həmidovla çiyin-çiyinə döyüşüb. Məhz onun peşəkarlığı nəticəsində Azərbaycan Ordusu düşmən mövqelərini məhv edib, onlara ağır zərbə vurub.

Aqil Hüseynov Cəbrayıl istiqamətində gedən ağır döyüşlərdə oktyabrın 7-i qəhrəmancasına şəhadətə yüksəlib. Şəhidimiz ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynov Aslan Malik oğlu** 1985-ci il oktyabrın 6-da Tərtər rayonunun Qaradağlı kəndində anadan olub.

Gizir Aslan Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Aslan Hüseynov sentyabrın 30-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Tərtər rayonunun Qaradağlı kəndində dəfn olunub.

Aslan Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.



**Hüseynov Cavid Habil oğlu** 1994-cü il aprelin 1-də Cəlilabad rayonunun Hamarqışlaq kəndində anadan olub.

Çavuş Cavid Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cavid Hüseynov sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub. Cəlilabad rayonunun Hamarqışlaq kəndində dəfn olunub.

Cavid Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Hüseynov Cavid Hümbət oğlu** 1993-cü ilin 12-ci ayının 12-ci günündə Tovuzun Alakol kəndində doğulub.

Cavid Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Laçın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə snayperçi kimi iştirak edib.

Cavid Hüseynov oktyabrın 27-də Qubadlı döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Alakol kəndində torpağa tapşırılıb.

Cavid Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.





**Cavid Natiq oğlu Hüseynov** 2001-ci il aprelin 3-də Tovuz şəhərində anadan olub.

Əsgər Cavid Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Cavid Hüseynov oktyabrın 31-də Xocavənd rayonunun Tuğ kəndi istiqamətində gedən döyüşlərdə şəhid olub. Tovuz şəhərində torpağa tapşırılıb.

Cavid Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ceyhun Möhübbət oğlu Hüseynov** 5 oktyabr 1991-ci ildə Ağcabədi rayonunun Arabar kəndində anadan olub.

Əsgər Ceyhun Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Topdan və minaatandan qarşı tərəfə atəş açmışdır. Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Ceyhun Hüseynov 16 oktyabr 2020-ci ildə Xocavənd rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Ağcabədi rayonunun Arazbar kəndində dəfn olunub.

Ceyhun Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynov Əfşan Əbülfəz oğlu** 1996-cı il martın 16-da Tovuz rayonunun Əsrik Cırdaxan kəndində dünyaya göz açıb.

Baş leytenant Əfşan Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Hadrutun işğaldan azad olunması uğrunda gedən döyüşlərdə savaşıb. Ermənistan Ordusunun bir neçə postunu və texnikasını ələ keçirib. Əfşan Hüseynov oktyabrın 26-da Füzuli döyüşləri zamanı Alxanlı kəndi istiqamətində şəhid olub. Tovuz rayonunun Əsrik Cırdaxan kəndində dəfn edilib.

Əfşan Hüseynov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Əfsun Mətləb oğlu** 1999-cu ilin iyun ayının 23-də anadan olmuşdur. 2020-ci il oktyabrın 1-də hərbi səfərbərliklə bağlı müharibəyə yola düşüb. Füzulinin, Cəbrayılın, Qubadlının, Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mərdlik göstərən Əfsun Hüseynov oktyabrın 21-də Qubadlının Balasoltanlı kəndinin alınması uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

Noyabrın 5-də isə Qaraağac kənd qəbiristanlığında salınmış Şəhid məzarlığında dəfn olunub.

Əfsun Mətləb oğlu Hüseynov ölümündən sonra "Vətən uğrunda" , "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Hüseynov Əkbər Bahadur oğlu** 2001-ci il 11 iyul tarixində Bakı şəhərinin Sabunçu rayonunda anadan olub.

Əsgər Əkbər Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində gedən döyüşlərdə olub. Əkbər Hüseynov sentyabr 29-da Talış kəndi istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Sabunçu rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.

Əkbər Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynov Ələm Sərvər oğlu** 03.01.1996-ci ildə Saatlı rayonunun Azadakənd kəndində anadan olub.

Əsgər Ələm Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Oktyabrın 30-da Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhid doğulduğu Azadakənd kəndində torpağa tapşırılıb. "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Hüseynov Elçin Zamin oğlu** 1992-ci il sentyabrın 9-da Bakı şəhərində anadan olub.

Əsgər Elçin Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan döyüşlərində döyüşərək, yaralanır. Yaralansa da döyüşə davam edir,"Mübariz" postundan digər posta adlayarkən qəhrəmancasına şəhid olub.

17 oktyabr 2020-ci ildə Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Eldəniz Tahir oğlu** 17 sentyabr 1996-cı ildə İmişli rayonunda anadan olub.

Əsgər Eldəniz Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində sentyabrın 29-dan qismən səfərbərlikdən yararlanaraq, könüllü kimi iştirak edib. Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub.

Eldəniz Hüseynov 9 oktyabr 2020-ci ildə Cəbrayıl rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Hüseynov Eldost Asəf oğlu** 1996-cı il dekabrın 16-da Şamaxı rayonunun Talışnuru kəndində anadan olub.

Leytenant Eldost Hüseynov Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Eldost Hüseynov oktyabrın 7-də Talış döyüşləri zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında dəfn olunub.


O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynov Elnur Əhliman oğlu** 1990-cı il aprelin 16-da Tərtər rayonunun Kəbirli kəndində doğulub.

Əsgər Elnur Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb.

Elnur Hüseynov noyabrın 11-də Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.



**Emin Fərmayıl oğlu Hüseynov** 1990-cı il avqustun 20-də Tovuz rayonunun Yanıqlı kəndində anadan olub.

Əsgər Emin Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Murovdağ döyüşləri zamanı yaralanmasına baxmayaraq yenidən döyüş meydanına qayıdıb. Qumbaraatan olan Emin Hüseynov Ermənistan Ordusunun canlı qüvvəsinin və texnikasının məhv edilməsində fərqlənib. Emin Hüseynov noyabrın 9-da Xocavənd döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Yanıqlı kəndində dəfn olunub.

Emin Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əsgər Vaqif oğlu Hüseynov** 1998-ci il dekabrın 23-də Balakən rayonunun Kortala kəndində anadan olub.

Əsgər Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Əsgər Hüseynov oktyabrın 25-də Xocavənd döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Kortala kəndində torpağa tapşırılıb.

Əsgər Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Hüseynov Eşqin Cəsarət oğlu** 1998-ci ilin 20 yanvar günündə Tərtər rayonun Hüsənli kəndində anadan olub.

Əsgər Eşqin Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı ön cəbhədə xidmət edib. Eşqin Hüseynov İkinci Qarabağ müharibəsində Suqovuşan istiqamətində gedən döyüşlərdə Artilleriya-topçu vəzifəsində iştirak edib. 29 sentyabr tarixində son damla qanına qədər vuruşaraq başından aldığı güllə yarasından şəhid olub. Eşqin Hüseynov yaşadığı Tərtər rayon Hüsənli kənd qəbiristanlığında dəfn olunub.

Eşqin Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynov Əzəmi Əli oğlu** 1992-ci il avqustun 29-da Mingəçevir şəhərində anadan olub.

Çavuş Əzəmi Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əzəmi Hüseynov oktyabrın 8-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Əzəmi Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynov Əzizağa Nizami oğlu** 01.01.1999-cu il Ağsu rayonu Bozavant kəndində dünyaya gəlib.

Əsgər Əzizağa Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Ağdərə istiqamətində gedən döyüşdə 16 oktyabr 2020 -ci ildə aldığı qəlpə yarasından qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Hüseynov Fərid Etibar oğlu** 11 iyun 1994-cü ildə Şəki rayonunun Qayabaşı kəndində dünyaya göz açıb.

Əsgər Fərid Hüseynov Vətən müharibəsi başlayanda çağırışçı kimi torpaqlarımızın azadlığı uğrunda döyüşlərə qatılıb. Xocavənd-Şuşa ətrafı döyüşlərdə fəal iştirak edib. Oktyabrın ayının 29-da mühasirəyə düşüb və düşmən artilleriyasına tuş gələrək qəhrəmancasına şəhid olub.

Noyabrın 12-də Fərid Hüseynovun nəşi öz doğma kəndinə gətirilib və böyük izdihamla Qayabaşı kənd qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Hüseynov Fərid Fətəli oğlu** 1994-cü il iyunun 23-də Cəlilabad rayonunun Bəcirəvan kəndində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu olan Fərid Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Fərid Hüseynov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Fərid Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Hüseynov Fərid Yaşar oğlu** 1997-ci il iyun ayının 17-də Sabirabad rayonunun Məmişlər kəndində dünyaya göz açıb.

İkinci Qarabağ müharibəsi başlanan zaman sentyabrın 27-dən döyüşlərə qatılıb. Fərid döyüşlərə Füzulidə başlayıb. Döyüşlərdə hava hücumundan düşmənə qarşılıq verib. Oktyabrın 31-də Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Şəhidlik zirvəsinə ucalan Fərid Hüseynov Sabirabad rayonunun Qaralar qəbiristanlığında dəfn olunub.

Fərid Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Hüseynov Fərrux Baxış oğlu** 25 aprel 1995-ci ildə Kürdəmirin Şilyan kəndində anadan olub. Baş leytenant Fərrux Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində tankçı kimi döyüşlərə qatılıb. Füzuli, Cəbrayıl, Zəngilan Qubadlı və Xocəvənd rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabrın 9-da tankı vurulur. Tankdan düşüb içərisindəki heyəti çıxarmağa çalışarkən ikinci dəfə atılan mərminin yanına düşməsi nəticəsində qəhrəmancasına şəhid olub. Kürdəmir rayonunun Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov İlham Umud oğlu** 2000-ci il sentyabr 8-də Göyçay rayonunun Qarayazı kəndində anadan olub.

Azərbaycan Ordusunun əsgəri olan İlham Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Talış və Suqovuşan istiqamətində gedən döyüşlərdə savaşıb. İlham Hüseynov oktyabrın 10-da şəhid olub. Göyçay rayonunda dəfn olunub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.

**Hüseynov İlqar Yaşar oğlu** 2001-ci il yanvarın 17-də Qazax rayonunda anadan olub.

Əsgər İlqar Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdam istiqamətində gedən döyüşlərdə vuruşub.

Sentyabrın 28-də Ağdam rayonu istiqamətində düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub. Qazax rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.

İlqar Hüseynov ölümündən sonra "Vətən müharibəsi iştirakçısı", "Ağdamın azad olunması", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**İmamalı Cəlil oğlu Hüseynov** 1992-ci il dekabrın 3-də Zəngilan rayonunun Tağlı kəndində anadan olub.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kiçik giziri olan İmamalı Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İmamalı Hüseynov oktyabrın 9-da Füzuli döyüşləri zamanı şəhid olub. Mehdiabad qəsəbəsində dəfn olunub.

İmamalı Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov İsa Sahib oğlu** 19 noyabr 2001-ci ildə Saatlı rayonunda anadan olub.

Əsgər Cavid Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Şuşa istiqmətində gedən döyüşlərdə iştirak edib.

İsa Hüseynov 9 noyabrda Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan artilleriya mərmisinin partlayışı nəticəsində aldığı çoxsaylı qəlpə zədələnməsindən şəhid olub.

İsa Hüseynov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov İsmayıl Şahvələd oğlu** 18 iyun 1993-cü ildə Bakı şəhərində anadan olub.

Əsgər İsmayıl Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin, Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. İsmayıl Hüseynov 8 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. 9 oktyabr 2020-ci ildə Bakı şəhərinin Səbail rayonunun Badamdar qəsəbəsində torpağa tapşırılıb.

İsmayıl Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.






**Hüseynov Kamran Bəhman oğlu** 1996-cı il avqustun 14-də Bakı şəhərində anadan olub.

Əsgər Kamran Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib.

Kamran Hüseynov oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. İkinci Fəxri Xiyabanda torpağa tapşırılıb.

Kamran Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kərim Tərlan oğlu Hüseynov** 1989-cu il dekabrın 30-da Qusar rayonunun Piral kəndində anadan olub.

Gizir Kərim Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Kərim Hüseynov oktyabrın 9-da şəhid olub. Qusar rayonunda dəfn olunub. Ailəli və 2 övlad atası idi.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.



**Məhəmməd Alik oğlu Hüseynov** 1993-cü il oktyabrın 28-də Beyləqan rayonu Bahar qəsəbəsində anadan olub. Əslən Cəbrayıl rayonu Horovlu kəndindən idi.

Baş çavuş Hüseynov Məhəmməd İkinci Qarabağ müharibəsində Murovdağ silsiləsində gedən döyüşlərdə iştirak edib, Murov zirvəsi azad edildikdən sonra öz doğma yurdu olan Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərə qoşulub Oktyabın 8-də Cəbrayıl rayonu ərazisində gedən döyüş zamanı qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynov Məhəmməd Qiyas oğlu** 21 mart 2001-ci ildə Gəncə şəhəri Kəpəz rayonunda doğulub.

27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində Məhəmməd Hüseynov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda vuruşub.

16 noyabr 2020-ci il tarixində Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub. Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn olunub.

Məhəmməd Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Hüseynov Mətin Ramiz oğlu** 1997-ci il oktyabrın 20-də Ordubad rayonunun Düylün kəndində anadan olub.

Leytenant Mətin Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mətin Hüseynov noyabrın 9-da Xocavənd döyüşləri zamanı şəhid olub. Ordubad rayonunda dəfn olunub. Subay idi.

Mətin Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynov Mirəli Arif oğlu** 1996-cı il oktyabrın 15-də Ağcabədi rayonunda dünyaya göz açıb.

Əsgər Mirəli Hüseynov həqiqi hərbi xidmətini snayper kimi yerinə yetirib. Prezidentin sərəncamı ilə qismən səfərbərlik elan olunan zaman isə səfərbərliyə cəlb olunub. Doğum gününü səngərdə qeyd edən igidimiz oktyabrın 28-də Füzuli istiqamətində gedən şiddətli döyüşlərdə şəhadətə yetişib.

Mirəli Hüseynov doğulduğu Ağcabədi rayonunun Şəhidlər Xiyabanında dəfn edilib.


O, ölümündən sonra "Vətən uğrunda medalı" ilə təltif edildi.



**Hüseynov Mirzə Xəlifə oğlu** 1991-ci il aprelin 3-də Kəlbəcər rayonunda anadan olub.

Əsgər Mirzə Hüseynov 28.09.2020-ci il tarixində Goranboy rayonu Buzluq kəndi yaşayış məntəqəsi istiqamətində, düşmənin "Camış aşırımı-3305 yüksəkliyi" istiqamətində hərbi əməliyyatlar nəticəsində şəhid olub.

"Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Hüseynov Nazim Yaqub oğlu** 1977-ci il oktyabrın 1-də İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olub.

Mayor Nazim Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın və Xocavənd rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Nazim Hüseynov oktyabrın 7-də Hadrut döyüşləri zamanı şəhid olub. İmişli rayonunda dəfn olunub.

Nazim Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Hüseynov Nəbi Hacıbala oğlu** 9 iyul 1992-ci ildə Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olub.

Baş leytenant Nəbi Hüseynov 09.10.2020-ci ildə Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub. 09.10.2020-ci il tarixində Birinci Şıxlı kənd qəbiristanlığında izdihamla dəfn edilib. Subay idi.

O, ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Nəcəf İlqar oğlu** 1992-ci il sentyabrın 30-da Gədəbəy rayonunun Arıqıran kəndində anadan olub.

Əsgər Nəcəf Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Nəcəf Hüseynov sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub. Gədəbəy rayonunda dəfn olunub.

Nəcəf Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Nicat Adil oğlu** 1987-ci il martın 30-da Hacıqabul rayonunun Meyniman kəndində anadan olub.

Çavuş Nicat Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nicat Hüseynov oktyabrın 21-də Qubadlı döyüşləri zamanı şəhid olub. Hacıqabul rayonunun Meyniman kəndində dəfn olunub.

Nicat Hüseynov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Nicat Ziyafət oğlu** 4 iyun 1997-ci ildə Şirvan şəhərində anadan olub.

Əsgər Nicat Hüseynov 2020-ci il 29-sentyabr tarixində döyüşə yollanmaq məqsədilə evdən çıxarkən anasına "Şəhid olsam, ağlamayın, məni atamın bayrağına bükərsiniz" deyib. Nicat Füzuli rayonunun Qaraxanbəyli kəndi uğrunda gedən döyüşlərdə xüsusi qəhrəmanlıq göstərərək ağır döyüş şəraitində 15 yaralı əsgəri neytral zonadan təkbaşına çıxarıb. 23 yaşlı Nicat Hüseynov 16-cı döyüş yoldaşını xilas edərkən qəhrəmanlıqla şəhidlik zirvəsinə ucalıb. Nicat Hüseynovun nəşi 11 oktyabr tarixində Şirvan şəhərinin Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Nicat Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Hüseynov Nurlan Madər oğlu** 1992-ci il iyulun 3-də İmişli rayonunun Göbəktala kəndində anadan olub.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri olan Nurlan Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən Müharibəsi zamanı Murovdağın, Cəbrayılın, Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. 14.10.2020-ci il tarixində Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

Nurlan Hüseynov ölümündən sonra "Rəşadət" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Orxan Bəhmən oğlu Hüseynov** 25 iyul 1991-ci ildə Suraxanı rayonunun Əmircan qəsəbəsində anadan olub.

Baş leytenant Orxan Hüseynov 27.09.2020-ci ildə Tərtər-Ağdərə rayonları istiqamətində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlər zamanı hərbi əməliyyatlarda düşmən tərəfindən açılan atəş, digər növ partlayışlarla – qəlpələrlə törənmiş zədələnmə nəticəsində şəhid olub.

O, ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Orxan Ələkbər oğlu Hüseynov** 4 mart 1996-ci ildə Balakən rayonunda dünyaya göz açıb.

Əsgər Orxan Hüseynov 21.09.2020-ci ildə hərbi xidmətə çağırılıb. Talış-Suqovuşan bölgəsində döyüşüb.

Hüseynov oktyabrın 4-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 15.01.2021-ci il tarixində Balakən rayonunda dəfn olunub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Hüseynov Pencalı Bəhmən oğlu** 7 may 2001-ci il tarixində Neftçala rayonunun Qaralı kəndində anadan olub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən Müharibəsi zamanı Murovdağ və Kəlbəcərin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Pencalı Hüseynov 28 sentyabr tarixində Murovdağ istiqamətindəki döyüşdə qəhrəmancasına vuruşaraq şəhid olub. Oktyabrın 2-də Neftçala rayonunun Qaralı kəndində dəfn olunub.

O, ölümündən sonra"Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.






**Hüseynov Rafiz Afiq oğlu** 12 oktyabr 2000-ci ildə Gədəbəy rayonu nun Şahdağ kəndində anadan olub.

Əsgər Rafiz Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Kəlbəcər, Cəbrayıl, Füzuli və Şuşa rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

28.10.2020-ci ildə Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olmuşdur.

Rafiz Hüseynov ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Hüseynov Rahib İlham oğlu** 2000-ci il aprelin 2-də Beyləqan rayonunun Birinci Şahsevən kəndində anadan olub.

Kiçik çavuş Rahib Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rahib Hüseynov oktyabrın 29-da Füzuli döyüşləri zamanı şəhid olub. Füzuli rayonunun Alxanlı kəndində dəfn olunub.

Rahib Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Hüseynov Ramin Qüdrət oğlu** 1993-cü il sentyabrın 3-də Ağsu rayonunun Çaparlı kəndində anadan olub.

2020-ci il oktyabrın 8-də Vətən müharibəsində düşmənə müqavimət göstərərkən, düşmən tərəfindən atılan minamyot qəlpəsindən qəlpə yaraları alıb və 27 yaşında şəhidlik zirvəsinə ucalıb.

Ramin Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Raqib Adil oğlu** 1993-cü ildə muxtar respublikanın Şahbuz rayonunun Mərəlik kəndində anadan olub.

Baş leytenant Raqib Hüseynov 2020-ci il sentyabrın 29-da Talış istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Naxçıvan şəhər məzarlığında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Hüseynov Rəcəb Nazim oğlu** 1996-cı il oktyabrın 15-də Tovuz rayonunun Aşağı Öysüzlü kəndində anadan olub.

Əsgər Rəcəb Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Rəcəb Hüseynov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Aşağı Öysüzlü kəndində dəfn olunub.

Rəcəb Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Rəhim Qədir oğlu** 1984-cü il iyulun 1-də Zərdab rayonunda anadan olub.

Mayor Rəhim Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Rəhim Hüseynov oktyabrın 20-də Qubadlı döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Rəhim Hüseynov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Rövşən Kazım oğlu** 21 avqust 1995-ci ildə Bakı şəhərində anadan olub.

Əsgər Rövşən Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rövşən Hüseynov 23.10.2020-ci ildə Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

Rövşən Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Sübhan oğlu** 2001-ci ilin 21 mart tarixində Gədəbəy rayonunun Parakənd kəndində anadan olub.

Əsgər Röyan Hüseynov 2020-ci ilin 10 oktyabr tarixində Xocavənd rayonunun Hadrut döyüşü zamanı düşmən snayperinin atəşi nəticəsində şəhid olub. 11 oktyabr tarixində nəşi ailəsinə təhvil verilib və böyük izdihamla Gəncə Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Hüseynov Ruslan Vəli oğlu** 1998-ci il mayın 11-də Beyləqan rayonunun Bahar qəsəbəsində anadan olub.

Kiçik çavuş Ruslan Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ruslan Hüseynov noyabrın 1-də Xocavənd döyüşləri zamanı Qırmızı Bazar istiqamətində şəhid olub.

Ruslan Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Sabir Elşən oğlu** 14 dekabr 1999-cu ildə Siyəzən rayonunun Yenikənd kəndində anadan olub.

Əsgər Sabir Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşə yollanır. Füzuli, Cəbrayıl və Zəngilan istiqamətində gedən ağır döyüşlərdə iştirak edib. Sabir daha sonra Qubadlı uğrunda gedən ağır döyüşlərdə də iştirak edib. Oktyabr ayının 27-də Qubadlı istiqamətində gedən şiddətli döyüş zamanı öz həyatını təhlükəyə ataraq mühasirədə qalan əsgər yoldaşlarını maşınla çıxartmağa çalışıb və düşmən gülləsinə tuş gələrək şəhid olub. Siyəzən rayonunun Yenikənd kəndinə kənd qəbiristanlığında böyük izdihamla dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Sahil Habil oğlu** 12 iyul 2001-ci ildə Ağcabədi rayonunun Xocavənd kəndində dünyaya göz açıb.

Əsgər Sahil Hüseynov 27 sentyabr 2020-ci ildən başnanan Vətən müharibəsində iştirak edib. O, 11 oktyabr 2020-ci ildə Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində düşmənin minaatandan açdığı güllə nəticəsində şəhid olub.

Sahil Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Şahnur Şahin oğlu** 1991-ci il noyabrın 30-da Polşanın Belqoqrad şəhərində anadan olub.

Kapitan Şahnur Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şahnur Hüseynov sentyabrın 29-da Füzuli döyüşləri zamanı şəhid olub. Astara rayonunda dəfn olunub.

Şahnur Hüseynov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Hüseynov Samir Əlizadə oğlu** 15 noyabr 1994-cü ildə Lerik rayonunun Vov kəndində anadan olub.

Əsgər Samir Əlizadə 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsində fəal iştirak edib, Zəngilan, Füzuli, Qubadlı, Xocavənd, Cəbrayıl və Şuşa istiqamətlərində gedən şiddətli döyüşlərdə yüksək igidlik və rəşadətlə döyüşüb. 8 noyabr 2020-ci ildə Şuşada atəşkəsə 13-14 saat qalmış düşmənə sarsıdıcı zərbələr endirərək xeyli sayda canlı qüvvəsini məhv edib. Qeyri-bərabər döyüşdə düşmən gülləsinə tuş gələn Hüseynov Samir qəhrəmancasına şəhid olub. Şəhidin nəşi doğulduğu Vov kəndinə gətirilərək orada torpağa tapşırılıb.

Samir Hüseynov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Hüseynov Sənan Vidadi oğlu** 1996-cı il aprel ayının 1-də Füzuli rayonu Qacar kəndində dünyaya göz açıb.

Çavuş Sənan Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sənan Hüseynov noyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub.

Sənan Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalı ilə təltif edildi.




**Hüseynov Sərhəd Fərhad oğlu** 1996-cı ilin aprel ayının 4-də Füzuli rayonunun Yağlavənd kəndində dünyaya göz açıb.

Əsgər Sərhəd Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşə ata-baba torpağı olan Füzuli istiqamətindən başlayıb. Üç gün gərgin döyüşlərdə düşmənə ağır zərbələr endirilməsində Sərhəd də döyüşçü yoldaşları ilə birgə şücaət göstərib. Sentyabrın 29-da yaralanana iki hərbçi yoldaşını xilas edib, üçünü atəş xəttindən çıxaran zaman düşmən tərəfindən açılan snayper güllələsinə tuş gələrək şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Hüseynov Şirbala Hüseynbala oğlu** 1990-cı il mayın 6-da Sumqayıt şəhərində anadan olub.

Kapitan Şirbala Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şirbala Hüseynov oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Şirbala Hüseynov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.





**Hüseynov Ülvü Möhsün oğlu** 1988-ci il aprelin 16-da Ordubad rayonunun Sabir kəndində anadan olub.

Kapitan Ülvü Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tabor komandiri olan Ülvü Hüseynov noyabrın 7-də Şuşa döyüşləri zamanı snayper gülləsi nəticəsində şəhid olub. Ülvi Hüseynov 2-ci Fəxri Xiyabanda dəfn olunub.

Ülvü Hüseynov "Qarabağ" ordeni, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynov Vaqif Asəf oğlu** 2000-ci il yanvarın 1-də Şəmkir rayonunun Qaralar kəndində anadan olub.

Əsgər Vaqif İsmayılzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ döyüşlərində, həmçinin Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vaqif Hüseynov oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunda dəfn olunub.

Vaqif Hüseynov ölümündən sonra "Vətən uğrunda","Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Vüsal Hüseyn oğlu** 1999-cu il yanvarın 1-də Gədəbəy rayonunun Novo-İvanovka kəndində anadan olub.

Əsgər Vüsal Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal Hüseynov Füzuli rayonu uğrunda aparılan döyüş əməliyyatları zamanı şəhidlik zirvəsinə ucalıb.



**Hüseynov Vüsal Nadir oğlu** 30 yanvar 1991-ci ildə Beyləqan rayonunun Qəhramanlı qəsəbəsində dünyaya gəlib.

Əsgər Vüsal Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Vüsal Hüseynov oktyabrın 20-də Xocavənd rayonunda gedən döyüşdə aldığı qəlpə yarası nəticəsində şəhid olub.

Vüsal Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Hüseynov Vusal Yəhya oğlu** 10 iyun 2001-ci ildə Lənkəran rayonunun Velədi kəndində anadan olub.

Əsgər Vusal Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Vusal Hüseynov 8 noyabr 2020-ci ildə Zəngilan rayonunda yerləşən 811.0 yüksəkliyi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi və əks-hücumun dəf edilməsi zamanı şəhid olub.

Vusal Hüseynov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Xaliq Kamil oğlu** 20 sentyabr 2001-ci ildə Bakının Nardaran qəsəbəsində dünyaya göz açıb.

Hüseynov Xaliq 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılıb, baş atıcı kimi Talış və Suqovuşan kəndlərinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib və ərazilərin düşməndən təmizlənməsində fəal rol oynayıb. Əsgər Hüseynov Xaliq 16 oktyabr tarixində şiddətli döyüşlərin getdiyi Suqovuşan qəsəbəsində düşmənin minaatandan açdığı atəş nəticəsində döyüş meydanında qəlpə yarası alaraq şəhid olub. Onun nəşi ertəsi gün – 17 oktyabr tarixində doğulub böyüdüyü Nardaran qəsəbəsinə gətirilib, ailəsi ilə vida mərasimindən sonra qəsəbə sakinlərinin müşayiəti ilə Rəhimə xanımın ziyarətgahına gətirilib və ziyarətin girişində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Hüseynov Xəyyam Hüseyn oğlu** 1996-cı il iyulun 11-də Göyçay şəhərində anadan olub.

Əsgər Xəyyam Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyyam Hüseynov sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Göyçay şəhərində dəfn olunub.

Xəyyam Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynov Zaur Eldar oğlu** 1992-ci il martın 20-də Beyləqan rayonu İmamverdilər kəndində anadan olub.

Əsgər Zaur Hüseynov 29 sentyabrdan Vətən müharibəsinə könüllü olaraq qoşulub. Zaur Cəbrayıl və Qubadlı döyüşlərində igidliyi ilə xatirələrdə qalib. 9 noyabrda Qubadlı rayonunun Qurbantəpə kəndində döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın işğaldan azad olunmasına görə", "Qubadlının işğaldan azad olunmasına görə" medalları ilə təltif edildi.





**Hüseynov Zaur Vaqif oğlu** 1995-ci il iyunun 24-də Masallı rayonunun Hışgədərə kəndində anadan olub.

Leytenant Zaur Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zaur Hüseynov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Masallı rayonunda dəfn olunub.


Zaur Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynzadə Elgiz İbrahim oğlu** 28 oktyabr 2001-ci ildə Tərtər rayon Bəyimsərov kəndində dünyaya gəlib. Əslən kəlbəcərli idi.

Əsgər Elgiz Hüseynzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. O, 22 oktyabrda Füzuli istiqamətində gedən döyüşdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynzadə Elməddin Fərman oğlu** 1998-ci il martın 24-də Bərdə rayonuda anadan olub.

Əsgər Elməddin Hüseynzadə müharibə zamanı atıcı sanitar kimi hərbi xidmətini yerinə yetirib. Talış Suqovuşan istiqamətində döyüş yolu keçib.

29.09.2020-ci ildə Talış-Suqovuşan istiqamətində döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunması" medalları ilə təltif edildi.



**Hüseynzadə Fərid Eldəniz oğlu** 2002-cü il mayın 18-də Bakı şəhərinin Suraxanı rayonunda anadan olub.


Əsgər Fərid Hüseynzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Fərid Hüseynzadə oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub.

Fərid Hüseynzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.

**Hüseynzadə Həmidağa Bağı oğlu** 1990-cı il avqustun 13-də Bakı şəhərində anadan olub.

Kapitan Həmidağa Hüseynzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonunun Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Həmidağa Hüseynzadə sentyabrın 28-də Murovdağ döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Hüseynzadə Murad Mahmud oğlu** 8 yanvar 1998-ci il tarixdə Lənkəran rayonu, Şağlasər kəndində anadan olub.

Əsgər Murad Hüseynzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının istiqamətində gedən döyüşlərdə savaşıb. 33 gün odun-alovun içində ağır döyüş yolu keçib.

Noyabrın 11-də Qubadlı istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" , "Cəbrayılın azad edilməsinə görə" və "Qubadlının azad edilməsinə görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Hüseynzadə Səməd Səttar oğlu** 18 oktyabr 1998-ci ildə İsmayıllı rayonunun Talıstan kəndində anadan olub.

Əsgər Səməd Hüseynzadə müharibə zamanı özüyeriyən artilleriya taqımının heyət nəfəri kimi hərbi xidmətini yerinə yetirib. Tərtər rayonunun Dəmirçi kəndi istiqamətində döyüş yolu keçib.

30 sentyabr 2020-ci ildə Tərtər rayonunun Dəmirçi kəndi ərazisində döyüş tapşırığını yerinə yetirərkən özüyeriyən döyüş maşının partlaması nəticəsində şəhid olub.

O, "İgidliyə görə", "Vətən uğrunda ", "Xocavəndin, Ağdam və Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xanəliyev Albaba Elşən oğlu** 2002-ci il yanvarın 22-də Salyan rayonunun Təzəkənd kəndində anadan olub.

Əsgər Albaba Xanəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Albaba Xanəliyev noyabrın 5-də şəhid olub.

Albaba Xanəliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Xanışov Əlikram Qabil oğlu** 2000-ci il fevralın 8-də Cəlilabad rayonunda dünyaya gəlib.

Əsgər Qabil Xanışov 01.05.2020-ci ildə hərbi xidmətə çağırılıb. Goranboy rayonunda döyüşüb.

02.10.2020-ci ildə Goranboy rayon istiqamətində şəhid olub. 1-ci motoatıcı tabor 2-ci motoatıcı bölük Goranboy rayonu Tapqaraqoyunlu kəndinin, Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarıyla təltif edilib.



**Xəlilzadə Əmrah İnqilab oğlu** 1997-ci il avqustun 1-də Biləsuvar şəhərində anadan olub.

Əsgər Əmrah Xəlilzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əmrah Xəlilzadə oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub. Noyabrın 29-da Biləsuvar şəhərində dəfn olunub.

Əmrah Xəlilzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbadlı Araz Babəli oğlu** 1999-cu il oktyabr ayının 25-də Lənkəran rayonunun Gəgiran kəndində dünyaya göz açıb.

Çavuş Araz İbadlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Araz İbadlı oktyabrın 9-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Araz İbadlı ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**İbadlı Ruslan Sakit oğlu** 19 fevral 1995-ci ildə Biləsuvar rayonunun Nəsimikənd kəndində anadan olub.

Əsgər Ruslan İbadlı 27 sentyabr 2020-ci il tarixindən başlanan Vətən müharibəsində iştirak edib, Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərdə vuruşub və düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Şəhid Ruslan İbadlı 10 oktyabr 2020-ci il tarixində Biləsuvar rayonunun Nəsimikənd kənd məzarıstanlığında dəfn olunub.

Ruslan İbadlı ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**İbadov Aqşin Nazim oğlu** 1984-cü il avqustun 24-də Lənkəran rayonunun Boladı kəndində anadan olub.

Mayor Aqşin İbadov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Aqşin İbadov oktyabrın 19-da Zəngilan döyüşləri zamanı şəhid olub. Lənkəran rayonunda dəfn olunub.

Aqşin İbadov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbadov Cavad Cabir oğlu** 1996-cı ildə dekabrın 10-da Masallı şəhərində doğulub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Cavad İbadov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cavad İbadov oktyabrın 16-da Hadrut döyüşləri zamanı şəhid olub.


Cavad İbadov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbadov Faiq İsmixan oğlu** 1993-cü il mayın 31-də Balakən rayonunun Sarıbulaq kəndində anadan olub.


Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Faiq İbadov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Faiq İbadov oktyabrın 1-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Sarıbulaq kəndində torpağa tapşırılıb.

Faiq İbadov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İbadov Murad Yusif oğlu** 1993-cü 29 dekabr tarixində Qobustan rayonu Cəyirli kəndində anadan olub.

Əsgər Murad İbadov 2020-ci ilin 27 sentyabr tarixində başlanan İkinci Qarabağ müharibəsində döyüşlərin ilk günlərindən etibarən baş leytenant kimi qatılıb. Vətən müharibəsinin ilk günlərindən döyüşə qatılan baş leytenant Suqovuşan istiqamətində gedən qızğın savaşda düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını məhv edib. Ağdərə istiqamətində gedən döyüşlərdə mühasirəyə düşərək ağır yaralanıb. Lakin yaralı olduğuna baxmayaraq son nəfəsinə kimi düşmənlə mübarizə aparıb, qəhrəmancasına şəhid olub. 2020-ci ilin 22 noyabr tarixində anadan olduğu Qobustan rayonunun Cəyirli kəndində dəfn edilib. O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**İbadov Rauf Məhərrəm oğlu** 4 may 1996-cı ildə Abşeron rayonunun Saray qəsəbəsində anadan olub. Sentyabr ayının 27-dən – müharibə başladığı ilk gündən Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı cəbhələrində göstərdiyi şücaətinə görə, Rauf manqa komandiri təyin olunub. 23 oktyabr tarixində, Laçın dəhlizi ərazisində mühasirəyə düşdükləri zaman üzbəüz atışma zamanı əlbəyaxa döyüşlə bir neçə düşməni məhv edib və qəhramancasına şəhid olub. 9 oktyabr 2020-ci il tarixində, Abşeron rayon, Saray qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzilinin azad olunmasına görə" medalları və Fəxri Fərman ilə təltif edildi.



**İbadov Vüqar Sadıq oğlu** 1988-ci il sentyabrın 28-də Göytəpə şəhərində anadan olub.

Əsgər Vüqar İbadov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərib və 2020-ci il oktyabrın 19-da şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbadov Rafiq Baloğlan oğlu** 1965-ci il avqustun 14-də Zəngilan şəhərində anadan olub.

Azərbaycan Ordusunun ehtiyatda olan əsgəri Rafiq İbadov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər-Suqovuşan-Talış istiqamətlərində gedən döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələrinin tanklarının saz vəziyyətə gətirilməsində xidməti olan bölmələrin heyətində yer alıb. Rafiq İbadov sentyabrın 29-da Füzuli rayonu Şükürbəyli kəndi ərazisində zirehli tank texnikalarını təmir-təxliyyə edərkən düşmən tərəfindən atılan mərminin partlaması nəticəsində şəhid olub.

Rafiq İbadov ölümündən sonra "Vətən uğrunda", "Şücaətə görə" medalları ilə təltif edildi.



**İdrisov Ruslan Qabil oğlu** 2002-ci il iyunun 6-da Qəbələ rayonunda dünyaya gəlib.

Əsgər Ruslan İdrisov 11.07.2020-ci ildə hərbi xidmətə çağırılıb. Goranboy rayonu istiqamətində döyüşüb.

Oktyabrın 1-i Goranboy rayonunun Tapqaraqoyunlu kəndinin Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü", medallarıyla təltif edildi.

**İsgəndərov Arzu Seymur oğlu** 1988-ci il oktyabrın 27-də Şəmkir rayonunun Zəyəm qəsəbəsində anadan olub.

Kapitan Arzu İsgəndərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Arzu İsgəndərov noyabrın 13-də Xocavənd rayonu istiqamətində minaya düşməsi nəticəsində şəhid olub. Şəmkir rayonunda dəfn olunub.


O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsmayılov Hüseyn Fərman oğlu** 29 iyun 1991-ci ildə Şəki rayonunun Qayabaşı kəndində anadan olub.

Əsgər Hüseyn İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Döyüşlərdə ağır yara aldığına görə xəstəxanaya yerləşdirilsə də, 4 noyabr tarixində yenidən döyüş meydanına qayıdıb. 1 gün sonra 5 noyabr 2020-ci ildə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Hüseyn İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Mirrəhim Mirmehdi oğlu** 1996-cı il sentyabrın 2-də Ağdam rayonunda dünyaya gəlib.

Əsgər Mirrəhim İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Goranboy rayonunda döyüşüb. Oktyabrın 2-də Goranboy rayonu istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarıyla təltif edildi.



**İsmayılov Ruslan Eyvaz oğlu** 1986-cı il aprelin 4-də Göygöl rayonunun Çaykənd kəndində anadan olub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Müharibənin ilk günündə Goranboy rayonunun Buzluq kəndi istiqamətində, düşmənin "Camış aşırımı-3305 yüksəkliyi" yaxınlığında hərbi əməliyyatlar nəticəsində şəhid olub.

O, ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə " medalı ilə təltif edildi.





**İsmayılov Rüstəm Üzeyir oğlu** 29 avqust 1995-ci il tarixində Daşkəsən rayonunda anadan olub.

Ali təhsilini Rusiyada Psixologiya sahəsində alsa da, yarım qoyub Vətənə qayıdaraq hərbidə MAXE vəzifəsində çalışmağı seçib.

Qısa zamanda öz xidmətində nümunəviliyi, vətənpərvərliyi, yoldaşlarına xoş davranışı ilə seçilən Rüstəm, 2 oktyabr 2020-ci il tarixində Vətən müharibəsinin Kəlbəcər-Murov istiqamətində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Şəhid olduğu gündən 70 gün sonra, 17 dekabr 2020-ci il tarixində Rüstəmin ailəsinə onun şəhidlik zirvəsinə yüksəldiyi xəbəri verildi, yaşadığı Daşkəsən rayonunun Şəhidlər Xiyabanında torpağa tapşırıldı.



**İbadzadə Zabil Fikrət oğlu** 1996-cı il dekabrın 27-də Lənkəran rayonunun Gəgiran kəndində anadan olub.

Əsgər Zabil İbadzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zabil İbadzadə noyabrın 5-də Qubadlı döyüşləri zamanı şəhid olub. Lənkəran rayonunda dəfn olunub.

Zabil İbadzadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbayev Elmar Hikmət oğlu** 29 yanvar 1978-ci ildə Lənkəranda anadan olub.

Baş leytenant Elmar İbayev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azad edilməsi uğrunda edən döyüşlərdə vuruşub. 12 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub.

Elmar İbayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbişov Nicat Vasif oğlu** 2000-ci il avqustun 27-də Mingəçevir şəhərində dünyaya gəlib.

Əsgər Nicat İbişov 21.09.2020-ci ildə hərbi xidmətə çağırılıb. Talış-Suqovuşan bölgəsində döyüşüb.

18.10.2020-ci ildə müharibənin qızğın dövründə Talış-Suqovuşan istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**Şəhid İbişov Vüsal Əli oğlu** 1999-cu il iyunun 19-da Ağsu rayonunda dünyaya gəlib.

Əsgər Vüsal İbişov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış Suqovuşan bölgəsində döyüşüb.

Oktyabrın 16-da müharibənin qızğın dövründə Talış Suqovuşan istiqamətində nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.



**İbrahimli Adil Asəm oğlu** 9 sentyabr 1992-ci ildə Sumqayıtda anadan olub.

Baş leytenant Adil İbrahimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ döyüşlərində, həmçinin Cəbrayılın, Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Adil İbrahimli noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Adil İbrahimliyə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

Adil İbrahimli ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbrahimov Cavidan Nizami oğlu** 2000-ci il martın 24-də Badamdar qəsəbəsində anadan olub.

Əsgər Cavidan İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cavidan İbrahimli 21.10.2020-ci il Füzuli rayonunun Gecəgözlü kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub. Səbail rayonunun Badamdar qəsəbəsində dəfn olunub. Subay idi.

Cavidan İbrahimov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**İbrahimli Elməddin Zeynəddin oğlu** 1999-cu il noyabrın 19-da Cəlilabad rayonunun Hacıcavadlı kəndində anadan olub.

Kiçik gizir Elməddin İbrahimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl və Xocavənd rayonunun işğaldan azad olunmasında xüsusi rəşadət, şücaət və qorxmazlıq nümayiş etdirilib. Elməddin İbrahimli oktyabrın 16-da Füzuli döyüşləri zamanı şəhid olub. Cəlilabad rayonunun Hacıcavadlı kəndində dəfn olunub.

Elməddin İbrahimli ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.





**İbrahimli Kənan Azad oğlu** 28 may 1999-cu il dünyaya göz açıb.

Əsgər Kənan İbrahimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib

Sentyabrın 27-də döyüşlərin ilk günündən ordu sıralarında olan Kənan Hadrutdakı ağır döyüşlərdən sağ çıxır. Oktyabrın 12-i Hadrutu düşməndən tam azad edib möhkəmlənmə işləri apararkən İbrahimli Kənan xüsusi şücaət göstərir. Özü səngərə çıxıb 4 düşməni məhv edən Kənan şəhidlik zirvəsinə ucalıb. Şəhidimizin peşəkarlığı və ayıq-sayıqlığı nəticəsində düşmən geri oturdulub, əks halda 24 hərbçi yoldaşı da özü ilə bərabər şəhid olacaqdı.

O, ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Məhəmmədəli İbrahimli Mütəllim oğlu** 22 noyabr 1996-cı ildə Beyləqanda doğulub. Əslən Füzulinin Cuvarlı kəndindəndir.

Kəşfiyyatçı əsgər M.İbrahimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 3-dən 4-nə keçən gecə Suqovuşan uğrunda gedən döyüşdə yaralansa da, müalicə aldıqdan sonra təkidlə yenidən cəbhəyə qayıdıb. Sonuncu dəfə yodaşlarıyla söhbətində "mən şəhid olsam, vətənim Füzulinin Cuvarlı kəndindən torpaq gətirib məzar torpağıma qatarsınız" – deyib. O, oktyabrın 13-də Ağdərə istiqamətində gedən döyüşlərdə kəşfiyyatçı əsgər kimi xidməti zamanı qəhrəmancasına şəhid olub. 63 gün heç bir xəbər ala bilməyən ailəsi 15 dekabrda övladlarının şəhid olduğunu öyrənib və həmin gün Bakıxanov qəsəbəsi Şəhidlər Xiyabanında dəfn olunub. O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbrahimli Məhərrəm Şərif oğlu** 09.04.2001-ci ildə Şəki rayonunda dünyaya gəlib.

Əsgər Məhərrəm İbrahimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Oktyabrın 5-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndinin Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarıyla təltif edildi.



**İbrahimli Nail Nəriman oğlu** 1994-cü il mayın 4-də Oğuz rayonunun Xaçmaz kəndində anadan olub.

Kiçik gizir Nail İbrahimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nail İbrahimli noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Oğuz rayonunun Xaçmaz kəndində dəfn olunub.

Nail İbrahimliyə "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

Nail İbrahimli ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**İbrahimli Qəşəm Süleyman oğlu** 20 dekabr 1995-ci ildə Ağdam rayonu Xındırıstan kəndində anadan olub.

Əsgər Qəşəm İbrahimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 9-da Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə Ağdərə rayonunun Suqovuşan qəsəbəsinin azad olunması zamanı qəhrəmancasına şəhid olub.

Qəşəm İbrahimli ölümündən sonra "Vətən müharibəsi iştirakçısı", "Ağdamın azad olması", "Suqovuşanın azad olunması", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**İbrahimov Alim Səhrab oğlu** 26.12.1993-ci ildə Mingəçevir şəhərində dünyaya gəlib.

Əsgər Alim İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsindəTalış-Suqovuşan bölgəsində döyüşüb.

Sentyabrın 29-da müharibənin qızğın dövründə Talış Suqovuşan istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**İbrahimov Atiq Ariz oğlu** 1990-ci i iyunun 24-də Mingəçevir şəhərində anadan olub.

Əsgər Atiq İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Ballıqayadan Cəbrayıl, Suqovuşan, Ağdərə, Talış uğrunda gedən döyüşlərdə torpaqlarımız uğrunda döyüşüb Oktyabr ayının 16-da Ağdərədə qəhrəmancasına şəhid olub. Atiq İbrahimov pulemyotçu idi.



**İbrahimov Ayaz Sultan oğlu** 1998-ci il 10 iyun tarixində Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Məmmədrza Dizə kəndində anadan olub.

Çavuş Ayaz İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Vətən müharibəsinə Naxçıvandan gələn XTQ heyəti ilə qoşularaq 20 gün ön cəbhədə vuruşub. Şuşa şəhərinin azad olunmasında iştirak edib, 9 noyabr 2020-ci il tarixində ağır qəlpə yarası alaraq qəhrəmancasına şəhid olur. Noyabr ayının 13-ü doğulduğu Babək rayonunun Məmmədrza Dizə kənd məzarlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**İbrahimov Bəhruz Fazil oğlu** 1983-cü il mayın 22-də Füzuli rayonunun Govşatlı kəndində anadan olub.

Kiçik çavuş Bəhruz İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bəhruz İbrahimov sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub.

Bəhruz İbrahimov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bəhram Sakit oğlu İbrahimov** 5 may 1999-cu ildə Yevlax rayonu Ərəbbəsrə kəndində dünyaya gəlib.

Əsgər İbrahimov Bəhram 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Goranboy və Tərtər istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktybarın 7-də gərgin döyüşlərin birində şəhadətə ucalıb. Bəhramın nəşi 2021-ci ilin yanvarında tapılaraq ailəsinə təhvil verilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə " medalları ilə təltif edildi.



**Elçin Rövşən oğlu İbrahimov** 1995-ci il sentyabrın 23-də Ağstafa rayonunda anadan olub.

Əsgər Elçin İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Elçin İbrahimov Şuşa döyüşləri zamanı şəhid olub. Ağstafa Şəhidlər Xiyabanında dəfn olunub.

Elçin İbrahimov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**İbrahimov Əli Bəxtiyar oğlu** 11 fevral 2002-ci ildə Quba rayonunda dünyaya gəlib.

Əsgər Əli İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb. 14 oktyabr 2020-ci ildə müharibənin qızğın dövründə 18 yaşlı gənc Əli döyüşərək şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**İbrahimov Elmar Nəriman oğlu 2 sentyabr** 1998-ci ildə Mingəçevir şəhərində dünyaya gəlib.

Əsgər Elmar İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı iştirak edib. Sentyabrın 30-da Goranboy rayonu Tapqaraqoyunlu kəndi istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", medallarıyla təltif edildi.



**İbrahimov Elnur Dönməz oğlu** 1998-ci il avqustun 29-da Qaradağ rayonu Ələt qəsəbəsində anadan olub.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kiçik giziri olan Elnur İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur İbrahimov oktyabrın 21-də Zəngilan döyüşləri zamanı şəhid olub. Hacıqabul rayonunda dəfn olunub.

Elnur İbrahimov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbrahimov Əlövsət Seyidxan oğlu** 1995-ci il aprelin 21-də Şamaxı şəhərində anadan olub.

Kiçik gizir Əlövsət İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Əlövsət İbrahimov oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub. Şamaxı şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Əlövsət İbrahimov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.




**İbrahimov Elşən Cahangir oğlu** 2002-ci il mart ayının 27-də Şəki şəhərində anadan olub.

Əsgər Elşən İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan və Qələbə ilə nəticələnən 44 günlük II Qarabağ müharibəsində iştirak edib. Elşən İbrahimov oktyabrın 4-də Tərtər istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Vətənimizin mərd oğlu doğulub boya-başa çatdığı Şəki şəhərində dəfn edildi.

Elşən İbrahimov ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.





**İbrahimov Elsevər Etibar oğlu** 6 noyabr 1999-cu ildə Şəkinin Aşağı Layısqı kəndində anadan olub.

Əsgər Elsevər İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində qəhrəmanlıqla vuruşaraq, Füzuli, Xocavənd uğrunda gedən döyüşlərdə şücaəti ilə seçilib.

Füzulidən Şuşaya qədər döyüş yolu keçmiş şəhid Elsevər İbrahimov 7 noyabr – zəfərə bir gün qalmış şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbrahimov Hikmət Zaur oğlu** 23 iyun 2001-ci ildə Ucar rayonunun Qarabörk kəndində anadan olub.

Əsgər Hikmət İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Hikmət oktyabrın 21-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**İbrahimov İbrahim Abdulla oğlu** 1999-cu il oktyabrın 10-da Bakı şəhərində anadan olub.

Əsgər İbrahim İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə qoşulub.

Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Hadrut istiqamətində gedən döyüşlərdə iştirak edib.

Noyabrın 8-də Şuşa istiqamətində gedən döyüşlərdə xüsusi şücaət göstərib. Noyabrın 9-da Şuşa şəhəri yaxınlığında snayper gülləsinə tuş gələrək şəhid olub. Noyabrın 12-də Bakı şəhərində Binəqədi qəbiristanlığında torpağa tapşırılıb.

İbrahim İbrahimov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbrahimov İbrahim Etibar oğlu** 1992-ci il fevralın 18-də Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində anadan olub.

Əsgər İbrahim İbrahimov 2020-ci ildə yenidən ordu sıralarına qayıdıb. Oktyabrın 18-də Azərbaycan Respublikası Müdafiə Nazirliyi Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun (XTQ) əsgəri kimi Qarabağda aparılan hərbi əməliyyatlara qatılıb. İ.İbrahimov Cəbrayıl, Zəngilan, Füzuli, Xocavənd uğrunda gedən döyuşlərdə iştirak edib. O, 30 oktaybr 2020-ci ildə Xocavənd uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olub. İbrahim İbrahimov Naxçıvan şəhər qəbiristlanğında dəfn edilib.

İbrahim İbrahimov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.

**İbrahimov İlqar Elçin oğlu** 2002-ci iyunun 25-də Astara rayonunun Taxtanakəran kəndində anadan olub.

Əsgər İlqar İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan-Ağdərə uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 3-də Suqovuşanda qızğın döyüşlər gedən zaman İlqar snayper güllələrinə tuş gəlib. Qarın boşluğundan, kürəyindən ağır yaralanıb. Xəstəxanaya göndərilərkən o, döyüşçü dostlarına "darıxmayın, tezliklə qayıdacağam", deyib. Lakin çoxlu qan itirən İlqar Bərdə xəstəxanasında gecənin bir aləmində əbədiyyətə qovuşub.

O, ölümündən sonra "Cəsur döyüşçü" və "Vətən uğrunda", "Suqovuşanın azad edilməsinə görə" medalları ilə təltif edildi.



**İbrahimov İmaməli Elman oğlu** 17 yanvar 1995-ci ildə Lerik rayonunun Hovil kəndində anadan olub.

Əsgər İmaməli İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Laçının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. İmaməli İbrahimov 8 noyabr 2020-ci ildə Laçın istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbrahimov İsrafil Zülfüqar oğlu** 1997-ci il oktyabrın 16-da Bakı şəhərində anadan olub.

Kiçik çavuş İsrafil İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İsrafil İbrahimov oktyabrın 26-da Laçın döyüşləri zamanı Səfiyan istiqamətində şəhid olub.

İsrafil İbrahimov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi.

İsrafil İbrahimov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbrahimov Murad Valeh oğlu** 6 sentyabr 1993-cü ildə Gəncədə anadan olub.

MAHHXHQ əsgər Murad İbrahimov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində iştirak edib, Murovdağ döyüşlərində vuruşub. O, 2020-ci il oktyabrın 1-dən 2-nə keçən gecə Murovdağdan Ağdərə istiqamətinə yollanıb, həmin istiqamətdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Murad İbrahimovun uzun müddət nəşi tapıla bilməyib. Nəhayət 111 gündən sonra tapılıb və 23 yanvar 2021-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn edildi.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**İbrahimov Mübariz Telman oğlu** 14 yanvar 1990-ci il Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. O, müddətdən artıq hərbi qulluqda olan tankist idi.

Əsgər Mübariz İbrahimov müharibədə könüllü olaraq iştirak edib. Əsgər yoldaşlarının dediyinə görə, döyüşərdə "Mübariz İbrahimov ölmədi, sağdır" deyərək verilən əmrləri qəhrəmanlıqla yerinə yetirib. Mübariz İbrahimovun qələbəyə 9 saat qalmış, 9 noyabr 2020-ci il tarixində Xocavənd istiqamətində gedən döyüşlərdə tankı vurulub - tankdan çıxa bilməyib və qəhrəmancasına şəhid olub. Noyabrın 11-də Daşkəsən rayonunun Şəhidlər Xiyabanında dəfn edildi.




**İbrahimov Müşfiq Nəbi oğlu** 11 yanvar 1995-ci il tarixində Bakı şəhər Sabunçu rayonunda anadan olub.

Əsgər Müşfiq İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Müşfiq İbrahimov oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub.

Müşfiq İbrahimov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbrahimov Qurban Namiq oğlu** 1998-ci il iyunun 4-də Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qabıllı kəndində anadan olub. Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət qulluqçusu olan Qurban İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Hadrutun, Cəbrayılın, Xocavəndin və Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Həmin döyüşlərin birində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**İbrahimov Rafael Emin oğlu** 2002-ci il mayın 28-də Bakı şəhərində anadan olub.

Əsgər İbrahimov Rafael 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqləndiyinə görə" medalları ilə təltif edildi.

**İbrahimov Röyal Qulam oğlu** 19 fevral 2002-ci il Lənkəran şəhərinin Vel kəndində anadan olub.

Əsgər Röyal İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Röyal İbrahimov noyabrın 2-də şəhidlik zirvəsinə yüksəlib. Noyabrın 6-ı Lənkəran şəhərinin Vel kəndində dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbrahimov Ruzi Əliağa oğlu** 23 fevral 1983-cü ildə Şərur rayonunun Yengicə kəndində anadan olub.

Çavuş Ruzi İbrahimov 27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ müharibəsində Zəngilan, Füzuli, Qubadlı, Hadrutun işğaldan azad olunmasında yaxından iştirak edib. Şuşa istiqamətində qolundan aldığı qəlpə yarasına baxmayaraq ilk tibbi yardım alır, "mən bu yara ilə geri dönə bilmərəm deyir" və qolunu sarıyaraq yenidən döyüşə qatılıb. 7 noyabr 2020-ci il tarixində Şuşanın işğaldan azad olunması zamanı şəhidlik zirvəsinə yüksəlib. 13 noyabr 2020-ci il tarixində Şərur Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbrahimov Seymur Zamin oğlu** 20 noyabr 2000-ci ildə Babək rayonunun Tumbul kəndində doğulub.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun əsgəri olan Seymur İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Seymur İbrahimov 1 noyabr 2020-ci ildə Şuşa döyüşləri gedişatında Şuşa rayonunun Daşaltı kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. 6 noyabr 2020-ci ildə nəşi Babək rayonunun Tumbul kəndində dəfn olunub.

Seymur İbrahimov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.



**İbrahimov Sultan Mikayıl oğlu** 24 aprel 1996-cı ildə Salyan şəhərində anadan olub.

Vətən müharibəsinin ilk günlərindən könüllü olaraq Çevik Hərəkət Dəstəsinin tərkibində cəbhəyə yollanan kiçik gizir İbrahimov Sultan döyüşlərdə əsl qorxmazlıq nümunəsi göstərib, öz fədakarlığı ilə döyüş yoldaşlarına dəstək olub. Zəngilan şəhərinin azad olunmasında rəşadət göstərən Sultan oktyabrın 21-də Zəngilan şəhərinə düşmənin əks-hucumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub. 2020-ci il oktyabrın 24-də Salyan şəhərində dəfn edilib.

Kiçik gizir İbrahimov Sultan ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**İbrahimov Tofik Polad oğlu** 1997-ci il noyabrın 1-də Qusar rayonunun Düztahir kəndində anadan olub.

Əsgər Tofik İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tofik İbrahimov oktyabrın 11-də Füzuli rayonunun Horadiz kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub. Qusar rayonunda dəfn olunub.

Tofik İbrahimov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbrahimov Xeyrulla Mais oğlu** 1971-ci il aprelin 19-da Bakı şəhərində Mais və Xalidə İbrahimovların ailəsində anadan olub.

Polkovnik-leytenant Xeyrulla İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb, Ermənistan Silahlı Qüvvələrinin canlı qüvvələrinin, dayan məntəqələrinin məhv edilməsi zamanı fərqlənib. Xeyrulla İbrahimov oktyabrın 26-da Xocavənd döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Xeyrulla İbrahimov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbrahimov Təbriz İsmayıl oğlu** 8 oktyabr 1992-ci ildə Salyan rayonunun Çadırlı kəndində dünyaya göz açıb. Əsgər Təbriz İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Sonuncu dəfə 28 sentyabr tarixində əlaqə saxlayıb. Zəngində mina partlayışı nəticəsində ayağından yaralandığını və Ağdağ adlı postdan dərənin dibinə düşdüyünü, neytral zonada olduğunu söyləyib. Çox qan itirdiyini və halsızlaşdığını da əlavə edib. Təbriz İbrahimov Murovdağ döyüşlərində itkin düşüb. 19 may 2020-ci ildə əsgər İbrahimov Təbriz İsmayıl oğlunun meyiti tapılıb, şəxsiyyəti müəyyən edildikdən sonra II Fəxri Xiyabanda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İbrahimov Zamanət Gülhəsən oğlu** 1989-cu il mayın 11-də Salyan rayonunun Sarvan kəndində anadan olub.

Gizir Zamanət İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zamanət İbrahimov sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Salyan rayonunda dəfn olunub.

Zamanət İbrahimov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.

**İbrahimxəlilov Söyxan Eldəniz oğlu** 2001-ci il avqustun 6-da Ağdaş rayonunun Ağzıbir kəndində anadan olub.

Əsgər Söyxan İbrahimxəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Söyxan İbrahimxəlilov sentyabrın 29-da şəhid olub. Ağdaş rayonunda dəfn olunub.

Soyxan İbrahimxəlilov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" , "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbrahimzadə Nahid Şahid oğlu** 1994-cü il noyabrın 1-də Ağdaş rayonunun Kotavan kəndində anadan olub.

Əsgər Nahid İbrahimzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nahid İbrahimzadə noyabrın 5-də Şuşa döyüşləri zamanı şəhid olub. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Nahid İbrahimzadə ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İbrahimzadə Sehun Rafiq oğlu** 1997-ci il yanvarın 28-də Şəmkir rayonunun Tatarlı kəndində anadan olub.

Əsgər Sehun İbrahimzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Sehun İbrahimzadə oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunun Tatarlı kəndində dəfn olunub.

Sehun İbrahimzadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**İbrahimov Elmir Akif oğlu** 2 may 1996-cı il Saatlı rayonunun Mərzəli kəndində anadan olub.

Əsgər Elmir İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Noyabrın 8-də döyüş tapşırığını yerinə yetirərkən Daşaltı kəndi istiqamətində minamyot atəşi ilə şəhidlik zirvəsinə ucalıb.Dostlarına silah-sursatı çatdırmağı isə bacarıb.

O, ölümündən sonra ""Vətən uğrunda" , "Cəsur döyüşçü" medalları ilə təltif edildi.






**İdrisov Xəyal İbrahim oğlu** 2000-ci il fevralın 24-də Ağdaş rayonunun Ərəbocağı kəndində anadan olub.

Əsgər Xəyal İdrisov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyal İdrisov oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Ağdaş rayonunun Ərəbocağı kəndində dəfn olunub.


Xəyal İdrisov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İlyasov Bəhrəm Nizam oğlu** 1998-ci il noyabrın 30-da Kəlbəcər rayonunun Bozlu kəndində anadan olub.

Əsgər İlyasov Bəhrəm Nizam oğlu 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 4-də Suqovuşan uğrunda gedən döyüşdə şəhadətə yüksəlib.

Bəhrəm İlyasov ölümündən sonra "Vətən müharibəsi iştirakçısı", "Ağdamın azad olunması", "Suqovuşanın azad olunması" və "Vətən uğrunda medalları" ilə təltif edildi.



**İlyasov Fərid İbad oğlu** 20 iyul 1999-cu ildə doğulub. Əslən Laçın rayonunun Hacılar kəndindəndir.

Əsgər Fərid İlyasov 2020-ci ilin sentyabrında başlanan Vətən müharibəsinin 12-ci günündə Naxçıvandan Qarabağa döyüşə yola düşür.

F.İlyasov 2020-ci il oktyabrın 30-da şəhidlik zirvəsinə ucalıb.

Bakı şəhərindəki İkinci Fəxri Xiyabanda general Polad Həşimovun yanında dəfn olunub.

Fərid İlyasov ölümündən sonra "Qəhrəmanlığa görə" ordeni, "Vətən uğrunda", "Hərbi xidmətdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**İlyasov Şükür Qənbər oğlu** 1991-ci il yanvarın 9-da Şabran şəhərində anadan olub.

Əsgər Şükür İlyasov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Şükür İlyasov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Şabran şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Şükür İlyasov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**İmaməliyev Elvin Elsevər oğlu** 1989-cu il mayın 9-da Ağstafa rayonunun Qırılı kəndində anadan olub.

Əsgər Elvin İmaməliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Elvin İmaməliyev noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub.

İmaməliyev Elvin ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sərraf Murtuzəli oğlu** 1996-cı il sentyabrın 10-da Qusar rayonunun Əniq kəndində anadan olub.

Leytenant Sərraf İmaməliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sərraf İmaməliyev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Qusar rayonunda dəfn olunub.

Sərraf İmaməliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**İmamov Rəhim Rauf oğlu** 1990-cı il avqustun 9-da Xaçmaz rayonunun Xaspoladov kəndində anadan olub.

Əsgər Rəhim İmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Oktyabrın 21-də Füzuli rayonu Gecəgözlü kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda","Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İmamverdiyev Elnur Vəfadar oğlu** 1 sentyabr 2001-ci ildə Kürdəmir rayonunun Carlı kəndində anadan olub.

Əsgər Elnur İmamverdiyev 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzuli, Cəbrayıl istiqamətlərində gedən ağır döyüşlərdə iştirak edib. Torpaqlarımızın işğaldan azad olunmasında, düşmənin canlı qüvvəsi və texnikasının məhv edilməsində böyük şücaətlər göstərib. Son döyüşü Füzuli istiqamətində olub. 23.10.2020-ci ildə Füzuli rayonu ərazisində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlayışı nəticəsində avtomobil qəzasına düşərək aldığı çoxsaylı qəlpə zədələnməsindən şəhid olub.


Elnur İmamverdiyev ölümündən sonra "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**İmamverdiyev Nicat Məhərrəm oğlu** 1995-ci ilin 19 fevralında anadan olub.

Əsgər Nicat İmamverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Noyabrın 20-də Suqovuşan uğrunda gedən qızğın döyüşlərdə qəhrəmancasına şəhid olub. Noyabrın 22-də torpağa tapşırılıb.



**İmanov Bayrı Mirzə oğlu** 1996-cı il fevralın 5-də Salyan rayonunun Qaraçala kəndində anadan olub.

Əsgər Bayrı İmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Bayrı İmanov noyabrın 10-da şəhid olub. Salyan rayonunda dəfn olunub.

Bayrı İmanov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İmanov Ənvər Emil oğlu** 11 yanvar 1999-cu ildə Sumqayıt şəhərində zəhmətkeş ailədə dünyaya gəlib.

Əsgər İmanov Ənvər 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Cəbrayılın, Füzulinin, Xocavəndin işğaldan azad olunmasında onun müstasna xidmətləri olur. Xocavəndin azadlığı uğrunda gedən ağır döyüşlərdə sol tərəfindən və qarın nahiyyəsindən düşmən güllələsinə tuş gələrək 21 yaşında şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İmanov Məmmədağa İqab oğlu** 2001-ci il aprel ayının 4-ü Neftçala rayonunun Dalğalı kəndində anadan olub.

Əsgər Məmmədağa İmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Sonuncu dəfə 29 sentyabr tarixində əlaqə saxlayıb. Uzun müddət nəşi tapıla bilməyib. 2021-ci il mayın 31-i Məmmədağa İmanovun nəşi tapılaraq ailəsinə təhvil verilib və Neftçala Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**İmanov Səməndər İsaxan oğlu** 1998-ci il martın 20-də Salyanın Kürsəngi kəndində dünyaya göz açıb.

Əsgər Səməndər İmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, Füzuli, Cəbrayıl və Şuşa istiqamətlərində gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Oktyabrın 21-də Cəbrayıl rayonunda Xudafərin körpüsü yaxınlığında gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İmanquliyev Ruslan Natiq oğlu** 1996-ci il 14 mart tarixində Sumqayıt şəhərində ziyalı ailəsində anadan olub.

Əsgər İmanquliyev Ruslan 2020-ci il 27 sentyabrda başlamış 2-ci Qarabağ müharibəsinin ilk gündən düşmənlə qarşı-qarşıya ön cəbhədə qəhrəmanlıqla vuruşub. Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə hərbi anda sadiq qalaraq, mətinlik və mərdlik nümayiş etdirib.

2020-ci il 2 oktyabr... Son döyüşü Füzuli istiqamətində gedən ağır döyüşlərdə şücaətlə vuruşub. Ruslan silahı əlində döyüşərək boyun nahiyəsindən vurulub, qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Ruslan İmanaquliyev 3 oktyabrda son mənzilə yola salınıb. Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İmanzadə Ayaz Daşqın oğlu** 1996-cı il dekabrın 3-də Neftçala şəhərində anadan olub.

Leytenant Ayaz İmanzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ayaz İmanzadə oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub. Neftçala şəhərində dəfn olunub.

Ayaz İmanzadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İmanzadə Hilal Sabir oğlu** 1995-ci il 23 dekabr Beyləqan rayonunun Şahsevən kəndində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Hilal İmanzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Hilal İmanzadə oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunda dəfn olunub.

Hilal İmanzadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.





**İrapov İsmayıl Nəsrulla oğlu** 2002-ci il fevralın 23-də Zaqatala rayonunun Əliabad qəsəbəsində anadan olub.

Əsgər İsmayıl İrapov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. İsmayıl İrapov oktyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunun Əliabad qəsəbəsində torpağa tapşırılıb.

İsmayıl İrapov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsaxlı Anar Rəsul oğlu** 1997-ci il mayın 30-da Tərtər rayonunun Cəmilli kəndində anadan olub.

Əsgər Anar İsaxlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb və yaralanıb. Buna görə də qısamüddətli məzuniyyətə göndərilib. Anar İsaxlı oktyabrın 20-də Ermənistan Silahlı Qüvvələrinin Tərtər rayonunu atəşə tutması nəticəsində şəhid olub. Tərtər rayonunda dəfn olunub.

Anar İsaxlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsayev Alik Şakir oğlu** 2001-ci il fevralın 23-də anadan olub.

Uşaqlıqdan vətənpərvərlik hissi ilə böyüyən Alik hərbi xidmət zamanı Xüsusi Təyinatlı Qüvvələrin sıralarına cəlb olunub və daha sonra kəşfiyyatçı kimi xidmətə davam edib. Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) şəhid olan kəşfiyyatçısı, əsgər Alik Şakir oğlu İsayev Füzuli, Cəbrayıl, Zəngilan rayonlarının və Hadrut qəsəbəsinin işğaldan azad olunmasında fəal iştirak edib.

Şuşa yolunda 32 ermənini öldürən "Canavar" ləqəbli Alik 44 günlük Vətən müharibəsində düşmənin xeyli sayda canlı qüvvəsi və hərbi texnikasının məhv edilməsində böyük rol oynayıb.

A.İsayev Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub.



**İsayev Ceyhun Rüstəm oğlu** 2001-ci il oktyabrın 26-sı Quba rayonunun Gültəpə kəndində anadan olub.

Əsgər Ceyhun İsayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 26-da Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Gültəpə kəndinin qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.

**İsayev Rahət Rafət oğlu** 2000-ci il dekabrın 26-da Biləsuvar rayonunun Əliabad kəndində anadan olub.

Əsgər Rahət İsayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rahət İsayev noyabrın 6-da Xocavənd döyüşləri zamanı şəhid olub. Noyabrın 18-də Biləsuvar rayonunda dəfn olunub.

Rahət İsayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsayev Təbriz İsabala oğlu** 12 mart 1993 -cü ildə Cəlilabad Rayon Böyük Bəcravan kəndində dünyaya göz açıb.

Kiçik gizir Təbriz İsayev 2020-ci il ikinci Qarabağ döyüşçüləri başlanan ilk gündən Vətənini qorumaq üçün ön cəbhədə vuruşub. Həmin döyüşlərdə yaralanaraq xəstəxanaya yerləşdirilib, lakin Təbriz həkimlərə döyüşə getmək istədiyini deyib və öz ərizəsi ilə təkrar döyüşlərə qatılıb. Füzuli istiqamətində Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə 10 oktyabr 2020-ci ildə düşmənin snayperdən açdığı atəş nəticəsində ürəyindən aldığı güllə yarasından şəhidlik zirvəsinə ucalıb. Şəhidimizin nəşi oktyabrın 13-ü doğulub boya-başa çatdığı Cəlilabad rayonunun Bəcravan kəndinə gətirilərək dəfn olunub.

O, "Bayraq" ordeni, "Şücaətə görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", ,Vətən uğrunda","Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsayev Toğrul Natiq oğlu** 1996-cı il dekabırın 25- də Füzuli rayonu Aybasanlı kəndində dünyaya göz açıb.

Çavuş Toğrul İsayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 1-də Füzuli rayonu uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid zirvəsinə yüksəlib. 2-ci Fəxri Xiyabanda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsayev Tural Saləddin oğlu** 1992-ci il, aprelin 11-də Siyəzən rayonunun Yenikənd kəndində anadan olub.

Çavuş Tural İsayev həqiqi hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi yenidən ordu sıralarına qayıdıb. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Düşmənin müdafiə xəttini yarmaq üçün ön cəbhəyə atılan çavuş Tural İsayev elə həmin gün Füzuli döyüşləri zamanı şəhid olub. 120 gün sürən axtarışlardan sonra nəşi tapılan şəhidimiz 2021-ci il yanvarın 31-də doğulduğu Gilgilçay kəndində dəfn edilib. Anası oğlunun nəşi tapıldığı üçün qurban kəsib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı, "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**İsayev Vüsal Firdovsi oğlu** 1983-cü il aprelin 5-də Yevlax şəhərində anadan olub.

Kiçik çavuş Vüsal İsayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal İsayev oktyabrın 5-də Talış istiqamətində şəhid olub. Yevlax şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Vüsal İsayev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsazadə Səfa Əmirxan oğlu** 17 may 1999-cü ildə Oğuz rayonunun Xaçmaz kəndində anadan olub.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri Səfa İsazadə 2020-ci il 29 sentyabrda müharibəyə yollanıb. Talış kəndinin azad olunması uğrunda əməliyyatlarda iştirak edib. Səfa İsazadə oktyabrın 14-da Suqovuşan döyüşlərində qəhrəmancasına vuruşaraq şəhid olub. Səfa İsazadə oktyabrın 19-da Oğuz rayonunun Xaçmaz kənd Şəhidlər Xiyabanında dəfn olunub.

Səfa İsazadə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İskəndərli Səbuhi Yaşar oğlu** 25 iyun 2001-ci il tarixində Tərtər rayonunda anadan olub.

Oktyabrın 22-də Zəngilan rayonu ərazisində Sığırt yüksəkliyi istiqamətində hərəkət edərkən bölüyü ilə birlikdə düşmən pusqusuna düşən Səbuhi bir neçə saat ərzində döyüşərək yoldaşlarının pusqudan çıxmasına şərait yaradıb, özü isə döyüş meydanını tərk etməyərək qəhrəmancasına şəhid olub. 29 oktyabr 2020-ci ildə Şəki şəhərində dəfn edilib.

Əsgər İskəndərli Səbuhi Yaşar oğlu ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Bəhruz Abbas oğlu İsgəndərov** 1986-cı il noyabrın 29-da Gəncə şəhərində anadan olub. Ailəli idi.

Kiçik çavuş Bəhruz İsgəndərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bəhruz İsgəndərov oktyabrın 29-da Laçın döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Bəhruz İsgəndərov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

**İskəndərov Əhmədağa Novruz oğlu** 20 sentyabr 1989-cu ildə Bakı şəhərində anadan olub.

Əsgər Əhmədağa İskəndərov 27 sentyabr 2020-ci il tarixində başlayan Vətən müharibəsinin ilk günlərindən cəbhədə dövlətimizin ərazi bütövlüyünün təmin olunması uğrunda döyüşlərə qatılıb. Cəbrayıl-Füzuli-Xocavənd istiqamətində ordumuzun uğurlu əməliyyatlarında iştirak edib. 07.10.2020-ci il tarixində Füzuli rayonu uğrunda gedən döyüşlərdə xidməti vəzifəsini icra edərkən qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsgəndərov Elvin Akif oğlu** 14 avqust 1989-cu ildə Şabran rayonunda anadan olub.

Əsgər Elvin İskəndərov Füzuli, Murov, Suqovuşan, Hadrut uğrunda gedən döyüşlərdə iştirak edib və bu torpaqların işğaldan azad olunmasında böyük şücaət göstərib. 04 oktyabr 2020-ci ildə səhər öz dəstəsiylə kəşfiyyata keçərək Cəbrayılda ön xətdə yerləşən erməni hərbi hissələrinin birini ələ keçirərək, 40-a yaxın ermənini öldürüb, 320 nəfəri mühasirəyə salıb. Bir neçə tapşırıqdan əlbəyaxa döyüşlərdən sağ çıxıb. Oktyabrın 5-də Cəbrayıl rayonunun işgaldan azad olunması uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə" medalları ilə təltif edildi.



**İsgəndərov Elvin Mətləb oğlu** 6 noyabr 1989-cu ildə Yevlax rayonunun Tanrıqullular kəndində anadan olub.

Gizir Elvin İskəndərov 27 sentyabr 2020-ci il tarixində başlayan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda qəhrəmanlıqla döyüşüb.

Sentyabrın 27-də şəhidlik zirvəsinə ucalıb. Doğulduğu kənddə dəfn olunub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**İsgəndərov Əlizamin Həmid oğlu** 1977-ci il dekabrın 6-da Beyləqan rayonunun Milabad qəsəbəində anadan olub.

Çavuş Əlizamin İsgəndərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin, Füzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əlizamin İsgəndərov noyabrın 5-də Şuşa döyüşləri zamanı Daşaltı istiqamətində şəhid olub. Beyləqan rayonunun Milabad qəsəbəsində dəfn olunub.

Əlizamin İsgəndərov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**İsgəndərov Emil Vaqif oğlu** 1990-cı il avqustun 5-də Sumqayıt şəhərində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının giziri olan Emil İsgəndərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Emil İsgəndərov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Emil İsgəndərov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsgəndərov Əsəd Bəybala oğlu** 27 oktyabr 1990-cı ildə Göygöl rayonunun Topal Həsənli kəndində anadan olub.

Gizir Əsəd İsgəndərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı özüyeriyən artilleriya taqımının top komandiri kimi hərbi xidmətini yerinə yetirib. Füzuli və Cəbrayıl rayon istiqamətlərində döyüş yolu keçib. Oktyabrın 2-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmənin top mərmisinin düşməsi nəticəsində nəticəsində şəhid olub.


O, ölümündən sonra "Vətən uğrunda ", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsgəndərov İlkin Camal oğlu** 1999-cu il martın 18-də Sumqayıt şəhərində anadan olub. Əslən Qubadlı şəhərindən idi.

Çavuş İlkin İsgəndərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Döyüşlərdə fəal iştirakına görə "çavuş" rütbəsi verilib. İlkin İsgəndərov oktyabrın 25-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

İlkin İsgəndərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsgəndərov Mikayıl Vəkil oğlu** 10 fevral 1997-ci il tarixdə Göygöl rayonunun Topalhəsənli kəndində anadan olub.

MAHHXHQ əsgər Mikayıl İsgəndərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murov-Kəlbəcər istiqamətində döyüş yolu keçib. Oktyabrın 3-də Goranboy rayonunun Buzluq kəndi yaşayış məntəqəsi istiqamətində hərbi əməliyyatlar nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

**İsgəndərov Niyaməddin Qulu oğlu** 1985-ci ilin dekabr ayının 6-da Naxçıvanın Xok kəndində dünyaya gəlib.

Əsgər Niyaməddin İsgəndərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Noyabrın 21-də ailəsinə Niyaməddinin Xocavəndin girişində mühasirəyə düşüb şəhid olduğu xəbəri gəlib. Niyaməddin düşdükləri ikinci mühasirədən azadlıq göyərçini olaraq çıxıb və onun müqəddəs ruhu Qarabağın səmasında şəhadətə yüksəlib. Noyabrın 22-də şəhidin cənazəsi Naxçıvana gətirilərək ehtiramla dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsgəndərov Pərvin Pərviz oğlu** 1995-ci il iyunun 25-də Qazax rayonunun Xanlıqlar kəndində anadan olub.

Çavuş Pərvin İsgəndərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Pərvin İsgəndərov oktyabrın 13-də Füzuli döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Qarahəsənli kəndində dəfn olunub.


Pərvin İsgəndərov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsgəndərov Şahmurad Natiq oğlu** 17 dekabr 1996-cı ildə Şamaxı rayonunun Göylər kəndində anadan olub.

Əsgər Şahmurad İsgəndərov 27 sentyabr 2020-ci ildən başlanan Vətən müharibəsində savaşıb. Şahmurad İsgəndərov Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak edib. O, 16 oktyabrda Ağdərə istiqamətində gedən döyüşlər zamanı ağır yaralanıb və 32 gün xəstəxanada müalicə aldıqdan sonra 17 noyabr tarixində şəhid olub. Şamaxı rayonunun Göylər kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.




**İsgəndərov Səməndər Vahid oğlu** 23 iyun 1996-cı ildə Masallı rayonunun Sərçuvar kəndində anadan olub.

27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində bir çox istiqamətlərdə gedən şiddətli döyüşlərdə qəhrəmanlıq və igidlik göstərən Səməndər düşmənin xeyli sayda canlı qüvvəsini məhv etdi və itkimizin az olması üçün yaralı əsgərlərimizi döyüş meydanından çıxarmaqdan ötrü əlindən gələni əsirgəmədi.

Döyüşdə böyük şücaət göstərən Səməndər İsgəndərov Şuşa uğrunda gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəhid Səməndər Vahid oğlu İsgəndərov Sərçuvar kənd qəbiristanlığında izdihamla torpağa tapşırılıb.

Səməndər Vahid oğlu İsgəndərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**İsgəndərov Vüsal Aslan oğlu** 10 sentyabr 1998-ci ildə Bərdə rayonunun Nifçi kəndində anadan olub.

Əsgər Vüsal İsgəndərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Gülüstan, Ağuçuq, istiqamətində gedən hərbi əməliyyatlarda iştirak edib. Vüsal İsgəndərov sentyabrın 29-da Ağuçuq istiqamətində gedən hərbi əməliyyat zamanı düşmən atəşi ilə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Rəfail Əhmədağa oğlu İşiyev** 4 sentyabr 1979-cu ildə Cəlilabad rayonunda dünyaya gəlib. Əsgər Rəfail İşiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib və idarə etdiyi BMP vurulub. Yaralandıqdan 2 gün sonra yenidən döyüşlərə qatılıb. Yaralı döyüş yoldaşının BMP-sini idarə edərək Cəbrayıl, Füzuli istiqamətində gedən döyüşlərdə düşmənə ağır zərbələr endirib. İkinci dəfə də texnikası vurulub və yaralanıb. Amma, bir müddət sonra yenidən erməni qəniməti olan 3-cü BMP-ilə döyüşlərə qatılıraq düşmənə qan uddurub. Son döyüşü isə Xocavənd istiqamətində olan ağır döyüşlər olub. Təcrübəli mütəxəssis 3 noyabr Xocavənd istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. O, ölümündən sonra "Vətən uğrunda","Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsizadə Elvin Azim oğlu** 2001-ci il sentyabrın 4-də Ağdam rayonunun Qaradağlı kəndində anadan olub.

Əsgər Elvin İsizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 26-da Füzuli istiqamətində gedən döyüşlərdə şəhid oldu.

O, ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsgəndərli Kamran Yaşar oğlu** 29 iyun 1997-ci ildə Cəlilabad şəhərində anadan olub.


Əsgər Kamran İsgəndərli 1 oktyabr 2020-ci ildə hərbi xidmətini bitirib könüllü olaraq müharibəyə gedib. Kamran Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb. Oktyabr ayının 22-də şiddətli döyüşlərdə 36 düşməni məhv edib və qəhrəmancasına şəhid olub. O, şəhadətə qovuşanda oruc idi.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**İskəndərov Anar Vahid oğlu** 2001-ci il avqustun 29-da Xırdalan şəhərində anadan olub.

Əsgər Anar İsgəndərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. Anar İsgəndərov oktyabrın 5-də Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub.

Anar İsgəndərov ölümündən sonra "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsgəndərov Niyazi Şahvələd oğlu** 1982-ci il oktyabrın 13-də Mingəçevir şəhərində anadan olub.

Çavuş Niyazi İsgəndərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Niyazi İsgəndərov oktyabrın 8-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Niyazi İsgəndərov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**İskəndərov Şahin Ziyad oğlu** 2001-ci il avqustun 21-də Zaqatala rayonunun Qandax kəndində anadan olub.

Əsgər Şahin İskəndərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Şahin İskəndərov oktyabrın 11-də Cəbrayıl döyüşləri zamanı snayperlə vurularaq şəhid olub. Zaqatala rayonunun Qandax kəndində torpağa tapşırılıb.

Şahin İskəndərov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**İslamov Ruhid Uğur oğlu** 1999-cu il aprelin 1-də Lerik rayonunun Çeşman kəndində dünyaya gəlib.

Əsgər Ruhid İslamov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb.

Oktyabrın 6-da müharibənin qızğın dövründə Talış-Suqovuşan istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**İslamov Bəxtiyar Saleh oğlu** 1997-ci il iyunun 11-də Şirvan şəhərində anadan olub.

Leytenant Bəxtiyar İslamov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bəxtiyar İslamov oktyabrın 12-də Xocavənd döyüşləri zamanı Hadrut istiqamətində şəhid olub. Şirvan şəhərində dəfn olunub.

Bəxtiyar İslamov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İslamov Cəlal Ağahüseyn oğlu** 2001-ci il iyulun 3-də Xaçmaz rayonu Çarxı kəndində anadan olub.

Əsgər Cəlal İslamov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Talış kənd və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 6-da Talış kənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın" azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**İslamov Daşqın Alik oğlu** 1993-cü il iyunun 11-də Sabirabad rayonunun Poladtuğay kəndində anadan olub.

Əsgər Daşqın İslamov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Daşqın İslamov oktyabrın 29-da Hadrut döyüşləri zamanı şəhid olub. Sabirabad rayonunun Poladtuğay kəndində dəfn olunub.

Daşqın İslamov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə","Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İslamov Elvin Elçin oğlu** 1995-ci il 17 fevralda Bakı şəhərində anadan olub.

Gizir Elvin İslamov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli, Cəbrayıl, Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 9-da Füzuli döyüşlərində şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**İslamov Samir Xalıq oğlu** 1983-cü il fevralın 5-də Sumqayıt şəhərində anadan olub.

Kapitan Samir İslamov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Samir İslamov oktyabrın 9-da Talış döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.


Samir İslamov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayıllı Məhəmmədəli Elxan oğlu** 6 may 1996-cı ildə Füzuli rayonunun Kürdmahmudlu kəndində anadan olub.

Əsgər Məhəmmədəli İsmayıllı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində sürücü olaraq iştirak edib. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Məhəmmədəli İsmayıllı 26 oktyabr 2020-ci ildə Füzuli şəhəri istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı minaya düşərək şəhid olub. 27 oktyabr 2020-ci ildə Füzuli rayonunun Kürdmahmudlu kəndində dəfn olunub.

Məhəmmədəli İsmayıllı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsmayıllı Şamil Kamil oğlu** 1993-cü il yanvarın 4-də Tərtər rayonunun Dəmirçilər kəndində anadan olub.

Əsgər Şamil İsmayıllı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Şamil İsmayıllı oktyabrın 10-da Suqovuşan ətrafında gedən döyüşlərdə şəhid olub.

Şamil İsmayıllı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsmayılov Abbasəli İmamqulu oğlu** 1995-ci il sentyabrın 20-də Babək rayonunun Qahab kəndində anadan olub.

Baş leytenant Abbasəli İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Abbasəli İsmayılov oktyabrın 22-də Qubadlı döyüşləri zamanı şəhid olub. Babək rayonunda dəfn olunub. Abbasəli İsmayılov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.

Abbasəli İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**İsmayılov Amid Eldar oğlu** 1988-ci il fevralın 11-də Biləsuvar rayonunun Təzəkənd kəndində anadan olub.

Kiçik çavuş Amid İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amid İsmayılov sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunun Təzəkənd kəndində dəfn olunub.

Amid İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Aqil Əli oğlu** 1996-cı il iyulun 18-də Şərur rayonunun Çomaxtur kəndində anadan olub.

Leytenant Aqil İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Aqil İsmayılov sentyabrın 28-də Murovdağ döyüşləri zamanı şəhid olub. Şərur rayonunda dəfn olunub.

Aqil İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə, "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Aslan Əvəz oğlu** 1993-cü il iyunun 1-də Salyan rayonunun Sarvan kəndində anadan olub.

Uşaqlıqdan idmana maraq göstərən Aslan Xüsusi Təyinatlı Qüvvələrin (X.T.Q) döyüş qurupunda olub. Baş leytenant Aslan İsmayılov 44 günlük Vətən müharibəsinin ilk günlərindən ön cəbhədə vuruşub. Bir sıra ərazilərin işğaldan azad olunmasında böyük şücaət göstərib. Füzuli-Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. 9 oktyabr tarixində doğulub boya-başa çatdığı Sarvan kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra"Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə","Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Bahaləddin Temraz oğlu** 1999-cu il avqustun 31-də Ağstafa rayonunun Muğanlı kəndində dünyaya göz açıb.

Əsgər Bahaləddin İsmayılov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bahaləddin İsmayılov oktyabrın 29- da Şuşa şəhəri istiqamətində gedən döyüşlər zamanı şəhid olub.

Bahaləddin İsmayılov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**İsmayılov Camal Vidadi oğlu** 1984-cü il iyulun 7-də Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olub.

XTQ kəşfiyyatçısı, baş gizir Camal İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Camal İsmayılov və döyüş yoldaşları Hadrut uğrunda gedən döyüşlər zamanı bir sıra qəhrəmanlıq nümunələri göstərib. Camal İsmayılov oktyabrın 20-də Qubadlı döyüşləri zamanı şəhid olub. Neftçala rayonunda dəfn olunub.

Camal İsmayılova "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Ceyhun Abbas oğlu** 1985-ci il dekabrın 30-da Gəncə şəhərində anadan olub.

Gizir Ceyhun İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ceyhun İsmayılov oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Ceyhun İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Ceyhun İqbal oğlu** 1996-cı il sentyabrın 25-də Tovuz rayonunda anadan olub.

Əsgər Ceyhun İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Ceyhun İsmayılov Füzuli döyüşləri zamanı şəhid olub. Tovuz rayonunda dəfn olunub.

Ceyhun İsmayılov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**İsmayılov Elçin İlqar oğlu** 17 mart 1995-ci ildə Cəlilabad rayonunun Göytəpə qəsəbəsində anadan olub.

Əsgər Elçin İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Elçin İsmayılov 2 oktyabr 2020-ci ildə Qaraxanbəyli kəndi istiqamətində gedən döyüşlərdə şəhid olub.

Elçin İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.





**İsmayılov Elçin Mikayıl oğlu** 7 fevral 1991-ci ildə İmişli şəhərində anadan olmuşdur.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Elçin İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin, Cəbrayılın, Zəngilanın, Xocavəndin, Laçının, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Noyabr ayının əvvəllərindən başlayan Şuşa döyüşlərində də iştirak edən MAHHXHQ əsgər Elçin İsmayılov 4 noyabr 2020-ci ildə Şuşa istiqamətində şəhid olub.

Elçin İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Elçin Mübariz oğlu** 1989-cu il mayın 30-da Ucar şəhərində anadan olub.

Kapitan Elçin İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə, həmçinin Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 4-də Cəbrayıl şəhəri işğaldan azad ediləndə, ora Azərbaycan bayrağını sancanlardan biri Elçin İsmayılov idi. Elçin İsmayılov oktyabrın 7-də Füzuli döyüşləri zamanı şəhid olub. Ucar şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Elçin İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Elnur Arif oğlu İsmayılov** 2001-cü il fevralın 24-də Şəki rayonunun Baş Küngüt kəndində anadan olub.

Əsgər Elnur İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Elnur İsmayılov oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub.

Elnur İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**İsmayılov Elşən İsə oğlu** 25 mart 1997-ci ildə Şəmkir rayonunun Seyfəli kəndində anadan olub.

Əsgər Elşən İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı sürücü sanitar kimi hərbi xidmətini yerinə yetirib. Şuşa şəhərinin işğaldan azad edilməsi əməliyyatında döyüş yolu keçib.

Noyabrın 8-də Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**İsmayılov Elvin Arif oğlu** 2002-ci il martın 28-də Sumqayıt şəhərində anadan olub.

Əsgər İsmayılov Elvin 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Oktyabrın 2-də Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Sumqayıtın Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Elvin Tələt oğlu** 1989-cu il martın 9-da Beyləqan rayonunun Əlinəzərli kəndində anadan olub.

Çavuş Elvin İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elvin İsmayılov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan şəhərində dəfn olunub.

Elvin İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Emin Tahir oğlu** 2001-ci il mayın 21-də Nəsimi rayonunda dünyaya gəlib.

Əsgər Emin İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı şücaətlə döyüşüb. Oktyabrın 6-da Goranboy rayonunun Tapqaraqoyunlu kəndi istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medallarıyla təltif edildi.



**İsmayılov Əmrah Xudaverdi oğlu** 1994-cü il noyabrın 10-da Şərur rayonunun Cəlil kəndində anadan olub.

Baş gizir Əmrah İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əmrah İsmayılov noyabrın 1-də Şuşa döyüşləri zamanı şəhid olub.

Əmrah İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**İsmayilov Fuad Murad oğlu** 26 oktyabr 1986-cı ildə Şərur rayonunun Qıvraq kəndində anadan olub.

Mayor 2020-ci il 27 sentyabrda başlamış İkinci Qarabağ müharibəsində iştirak edərək, Tərtər rayonunun Talış kəndinin alınmasında böyük cəsarət nümayiş etdirib. 4 oktyabr 2020-ci ildə Tərtər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalır. 10 oktyabr 2020-ci ildə İkinci Fəxri Xiyabanda dəfn olunub.

Fuad İsmayılov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" medalıları ilə təltif edildi.



**İsmayılov İlqar Mehdi oğlu** 1988-ci il avqustun 23-də Beyləqan şəhərində anadan olub.

Çavuş İlqar İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İlqar İsmayılov sentyabrın 27-də Cəbrayıl döyüşləri zamanı Nüzgar istiqamətində Piyadaların Döyüş Maşınının (PDM) vurulması nəticəsində şəhid olub.

İlqar İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov İmamverdi Yoloğlu oğlu** 1 may 1989-cu ildə Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olub.

Kapitan rütbəsi daşıyan İmamverdi İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. İmamverdi İsmayılov sentyabrın 29-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Ağköynək kəndində torpağa tapşırılıb.

İmamverdi İsmayılov ölümündən sonra "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edildi.



**İsmayılov intiqam İlqar oğlu** 1996-cı il dekabrın 24-də Yevlax rayonunun Xanabad kəndində anadan olub.

Əsgər İntiqam İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Noyabrın 9-da Şuşa şəhəri istiqamətində gedən hərbi əməliyyatlar zamanı şəhid olub.

O, ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

**İsmayılov Kamran Vaqif oğlu** 1991-ci il fevralın 9-da Yevlax şəhərində anadan olub.

Kapitan Kamran İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kamran İsmayılov oktyabrın 5-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Yevlax şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsmayılov Kənan Mənsur oğlu** 1994-cü il iktyabrın 28-də Yevlax rayonu Xanabad kəndində dünyaya gəlib.

Əsgər Kənan İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan uğrunda gedən döyüşlərdə savaşıb.

Oktyabrın 10-da müharibənin qızğın dövründə Talış-Suqovuşan istiqamətində döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**İsmayılov Natiq Əjdər oğlu** 1980-ci il martın 5-də Qəbələ rayonunun Bunud kəndində anadan olub.

Mayor Natiq İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Natiq İsmayılov oktyabrın 17-də şəhid olub. Qəbələ rayonunda dəfn olunub.

Natiq İsmayılov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsmayılov Nizaməddin İsmayıl oğlu** 1981-ci il yanvarın 10-da Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olub.

Baş gizir Nizaməddin İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nizaməddin İsmayılov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

Nizaməddin İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**İsmayılov Novruz Nürəddin oğlu** 13 oktyabr 1987-ci ildə anadan olub.

Gizir Novruz İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 30-da Xocavənd rayonunun azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Orxan Qədim oğlu** 1990-cı il sentyabrın 24-də Qusar şəhərində anadan olub.

Kiçik çavuş Orxan İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan İsmayılov oktyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub.

Orxan İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Orxan Zöhrab oğlu** 1990-cı il yanvarın 23-də Ucar rayonunun Məlikballı kəndində anadan olub.

Əsgər Orxan İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan İsmayılov oktyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub. Ucar rayonunda dəfn olunub.

Orxan İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Rabil Elbrus oğlu** 12 fevral 1980-ci ildə Gəncə şəhərində doğulub.

27 sentyabr 2020-ci il tarixində Vətən müharibəsinin başlaması ilə əlaqədar işğal altında olan rayonlarımızın azadlığı uğrunda vuruşub. Noyabrın 2-də Xocavənd rayonu uğrunda gedən döyüşlərdə şəhid olub. 3 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**İsmayılov Raqil Rafiq oğlu** 1994-cü il avqustun 16-da Salyan rayonunun Sarvan kəndində anadan olub.

Kiçik çavuş Raqil İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Raqil İsmayılov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Raqil İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**İsmayılov Rəcəb Nəcəf oğlu** 2000-ci il sentyabrın 16-da İmişli rayonunun Əliqulular kəndində anadan olub.

Əsgər Rəcəb İsmayılov 27 sentyabr 2020-ci ildən başlayan Vətən müharibəsində iştirak edib, Füzulinin, Cəbrayılın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. 30 oktyabr 2020-ci ildə Laçın rayonunun Güləbird kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Onun nəşi uzun müddət axtarışdan sonra 3 fevral 2021-ci ildə İmişli rayonunun Əliqulular kəndində torpağa tapşırılıb.

Rəcəb İsmayılov ölümündən sonra "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Rəhman Mehti oğlu** 1995-ci il avqustun 18-də Ağstafa rayonunun Muğanlı kəndində anadan olub.

Əsgər Rəhman İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Rəhman İsmayılov oktyabrın 19-da Qubadlı döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Muğanlı kəndində dəfn olunub.

Rəhman İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**İsmayılov Rövşən Məmmədağa oğlu** 1999-cu il oktyabrın 30-da Bakı şəhərində anadan olub.

Əsgər Rövşən İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə, həmçinin Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb.

Müharibə zamanı "N" saylı hərbi hissədə yaradılan "Həmlə" taborunun baş atıcısı olan Rövşən İsmayılov oktyabrın 3-də döyüşlər zamanı əlindən və üzündə qəlpə yarası alaraq hərbi hospitala aparılır, müalicəsini yarımçıq qoyaraq yenidən döyüşlərə yollanır. Rövşən İsmayılov oktyabrın 13-də snayper gülləsi nəticəsində şəhid olub. Noyabrın 19-da Binəqədi rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.

Rövşən İsmayılov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.






**İsmayılov Sabir Ədalət oğlu** 1998-ci il iyunun 16-da dünyaya göz açıb.

Əsgər Sabir İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Oktyabr ayının 8-də Qubadlı uğrunda gedən gərgin döyüşlər zamanı şəhadətə ucalıb.

O, ölümündən sonra döyüşlərdə göstərdiyi şücaətə görə "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsmayılov Sakit İsmayıl oğlu** 1985-ci il yanvarın 7-də Şəki rayonunda Aran kəndində anadan olub.

Kiçik çavuş Sakit İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sakit İsmayılov oktyabrın 23-də Ağdərə istiqamətində şəhid olub.

Sakit İsmayılov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsmayılov Sərdar Sərvər oğlu** 1995-ci il iyulun 31-də Suraxanı rayonunda anadan olub.

Kiçik çavuş Sərdar İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sərdar İsmayılov oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olub.

Sərdar İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Səxavət Sabir oğlu** 1997-ci il avqustun 19-da Beyləqanın Dünyamalılar kəndində dünyaya göz açıb.

Əsgər Səxavət İsmayılov Tovuz döyüşlərində könüllü olaraq Səfərbərlik Xidmətində qeydiyyata alınmaq üçün müraciət edib. Vətən müharibəsi ərəfəsində isə Səxavətə gələn çağırış sanki onun ən böyük arzusunun gerçəkləşməsi idi. Səxavətin ilk döyüş yolu Füzuli istiqamətində başladı. Növbəti tapşırıqlar isə Cəbrayıl istiqamətində idi. Ağır döyüşlərin birində, oktyabrın 7-də şəhidlik zirvəsinə ucaldı.

İsmayılov Səxavət Sabir oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**İsmayılov Tahir Niyazi oğlu** 1988-ci il yanvarın 30-da Qazax rayonunun Sofulu kəndində anadan olub.

Gizir Tahir İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tahir İsmayılov oktyabrın 25-də Qubadlı döyüşləri zamanı şəhid olub. Qazax rayonunda dəfn olunub.

Tahir İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Taleh Səndəl oğlu** 1986-cı il noyabrın 26-da Lənkəran rayonunun Boladi kəndində anadan olub.

Taleh Vətən müharibəsində igidlik və mərdlik göstərərək 04.11.2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

O, Vətən müharibəsində göstərdiyi igidlik və qəhrəmanlıqlara görə "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsmayılov Tural Nurəddin oğlu** 1999-cu il martın 10-da Daşkəsən rayonunun Zivlan kəndində anadan olub.

Əsgər Tural İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural İsmayılov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Tural İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılov Veyis Əflətun oğlu** 1996-cı il fevralın 23-də Yevlax rayonunda anadan olub.

Əsgər Veyis İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı manqa komandiri kimi iştirak edib. Oktyabrın 13-də Suqovuşan istiqamətində ayağından qəlpə yarası alıb və qanitirmədən şəhid olub.

Anası Zeynəb İsmayılovanın sözlərinə görə, oğlunun nəşi 35 gündən sonra tapılıb, noyabrın 17-si Bakıya gətirilərək dəfn olunub.





**İsmayılov Vüqar Eldar oğlu** 1993-cü il sentyabrın 15-i Mingəçevir şəhərində dünyaya gəlib.

Əsgər Eldar İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan istiqamətində döyüşüb.

Oktyabrın 10-da müharibənin qızğın dövründə Talış-Suqovuşan istiqamətində döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunması" medalı ilə təltif edildi.




**İsmayılov Vüqar Məhəmməd oğlu** 1998-ci il noyabrın 23-ü Sumqayıt şəhərində anadan olub.

Əsgər Vüqar İsmayılov 2020-ci il iyulun 28-i həqiqi hərbi xidmətə çağırılıb. Oktyabrın 4-ü Suqovuşan döyüşündə şəhid olub, 17-si Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilib.

İsmayılov Vüqar Məhəmməd oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsmayılov Vüsal Nəbi oğlu** 1980-cı il aprelin 9-da Oğuz rayonunun Xalxal kəndində anadan olub.

Baş gizir Vüsal İsmayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal İsmayılov oktyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub. Oğuz rayonunun Xalxal kəndində dəfn olunub.

Vüsal İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılzadə Əsgər Bəxtiyar oğlu** 2000-ci il yanvarın 22-də Yevlax rayonunun Gülövşə kəndində anadan olub.

Əsgər İsmayılzadə hərbi xidmətini bitirməyə 3 ay qalmış, 27.09.2020-ci ildə başlanan Vətən müharibəsinin ilk günündən XTQ olaraq ön cəbhəyə yollanıb.

Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. 04.10.2020-ci ildə Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub. Şəhidimiz Yevlax rayonunun Gülövşə kənd qəbiristanlığında dəfn edilib.

Əsgər İsmayılzadə ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə medalları ilə təltif edildi.

**İsmayılzadə Məhəmməd Füzuli oğlu** 1996-cı il iyunun 12-də NMR Şərur rayonunda anadan olub.

Əsgər Məhəmməd İsmayılzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib.

Universitetini yarımçıq qoyaraq ailəsindən gizlin döyüşə gedib Xüsusi təyinatlı həmlə taburuna qoşularaq pulemyotçu olub, düşmənin atdığı raket nəticəsində Füzulidə şəhid olub.

Döyüşlərdə göstərdiyi igidliyə görə "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsmayılzadə Müşfiq Xanlar oğlu** 1994-cü il oktyabrın 16-da Tovuz rayonunun Alakol kəndində anadan olub.


Əsgər Müşfiq İsmayılzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Müşfiq İsmayılzadə oktyabrın 1-də Murovdağ döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Alakol kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsmayılzadə Şəhriyar Əkbər oğlu** 7 iyul 1994-cü ildə Əli Bayramlı şəhərinin Hacıqəhrəmanlı qəsəbəsində dünyaya göz açıb.

Əsgər Şəhriyar İsmayılzadə 27 sentyabr 2020-ci il tarixində II Qarabağ müharibəsi başladıqda könüllü olaraq torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərə qatılıb. Zəngilan, Qubadlı, Füzuli, Şuşa şəhərlərinin alınmasında qəhrəmancasına vuruşub. 8 noyabr tarixində günorta saatlarında Şuşa ətrafında gedən döyüşlərdə şəhid olub. Şəhidimiz 10 noyabr 2020-ci il tarixdə Şirvan şəhər Şəhidlər Xiyabanında dəfn olunub.



**İsmayılzadə Səməndər Vahid oğlu** 1990-cı il avqusutn 25-də Yevlax şəhərində anadan olub.

Gizir Səməndər İsmayılzadə Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli və Cəbrayılın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 9-da Füzuli rayonunun Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**İsmayılzadə Sevindik Ramil oğlu** 30.11.1998-ci ildə Saatlı rayonunda anadan olub. Əslən Cəbrayıl rayonunun Soltanlı kəndindəndir.

Əsgər Sevindik İsmayılzadə İkinci Qarabağ savaşı başlanan zaman hərbi komissarlığa çağırılır. Sevindik təkidlə onu cəbhə bölgəsinə, həm də Cəbrayıl bölgəsinə aparılmasını komissardan istəyir və bu istəyinə nail olur. Füzuli istiqamətində gedən döyüşlər zamanı əsgər yoldaşının yaralandığını görür və onu xilas etmək istəyir. Elə həmin vaxt düşmən snayperi ilə amansızcasına vurulur.

Sevindik İsmayılzadə 20 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Biləsuvar qəsəbəsindəki məzarlıqda dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılzadə Tacəddin Vüqar oğlu** 1996-cı il martın 17-də Sumqayıt şəhərində anadan olub.

Əsgər Tacəddin İsmayılzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Tacəddin İsmayılzadə oktyabrın 9-da ağır yaralanıb və tibb müəssisəsinə yerləşdirilib.

Tacəddin İsmayılzadə "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Tacəddin İsmayılzadə 2021-ci il fevralın 12-də müalicə aldığı tibb müəssisəsində koma vəziyyətinin 128-ci günündə şəhid olub. Tacəddin İsmayılzadə fevralın 13-də Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.



**İsmayılzadə Şövqi Raqub oğlu** 1996-cı il fevralın 23-də Bərdə rayonunun Bəcirəvan kəndində anadan olub.

Əsgər Şövqi İsmayılzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şövqi İsmayılzadə oktyabrın 8-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Şövqi İsmayılzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsmayılzadə Uğur Hidayət oğlu** 1995-ci il iyulun 18-də Yevlax rayonunun Qaramanlı kəndində anadan olub.

Əsgər Uğur İsmayılzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Uğur İsmayılzadə oktyabrın 16-da Ağdərə ərazisində Ağaçuq adlandırılan ərazidə şəhid olub. Yevlax şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Uğur İsmayılzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**İsmayılzadə Vaqif Vüqar oğlu** 1996-cı il noyabrın 6-da Beyləqan rayonunun Şahsevən kəndində anadan olub.

Əsgər Vaqif İsmayılzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vaqif İsmayılzadə oktyabrın 20-də Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunda dəfn olunub.

Vaqif İsmayılzadə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsmayılzadə Vüsal Əlibəndə oğlu** 2001-ci il oktyabr ayının 17-də Bakı şəhəri Buzovna qəsəbəsində anadan olub.

Əsgər Vüsal İsmayılzadə 2020-ci il sentyabr ayının 27-də Vətən müharibəsi başlananda döyüş yoldaşları ilə birlikdə əvvəlcə Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad olunmasında azad edilməsində böyük şücaət və qəhrəmanlıq göstərib. Oktyabrın 22-də Füzuli istiqamətində gedən döyüşlərə əsgər yoldaşları ilə birgə Vüsal da yaralanıb. Yaralıları aparmağa maşın gələndə Vüsal əsgər yoldaşlarının maşına mindirilməsində köməklik göstərib. Ona özünün də minməsini təklif etsələr belə, o "onun daha çox yardıma ehtiyacı var" deyərək öz yerinə digər əsgəri mindirib. Yaralı halda çoxlu qan itirdiyindən Vüsal növbəti maşınla hərbi hospitala çatdırılanadək Şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsmayılzadə Zaur Nizami oğlu** 1995-ci il iyulun 29-da Lənkəran rayonunun İstisu qəsəbəsində anadan olub.

Əsgər Zaur İsmayılzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zaur İsmayılzadə oktyabrın 9-da Füzuli döyüşləri zamanı şəhid olub. Lənkəran rayonunda dəfn olunub.

İsmayılzadə Zaur ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İmanov İsmət Qismət oğlu** 2 aprel 1998-ci ildə Ağsu rayonunun Ərəbmehdibəy kəndində dünyaya göz açıb.

Əsgər İsmət İmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində 29 sentyabr 2020-ci ildən etibarən könüllü əsgər kimi iştirak edib. Füzulinin, Cəbrayılın, Hadrutun, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. İsmət İmanov 8 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

İsmət İmanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.






**İsmiyev Emil Elman oğlu** 2001-ci il avqustun 7-də Ağdaş rayonunda anadan olub.

Əsgər Emil İsmiyev 27 sentyabr 2020-ci il tarixindən başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 9-da Cəbrayıl döyüşlərində şəhid olub.


O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Yadigaroviç İsrafilov Abdulla** 1997-ci il yanvarın 27-də Qax şəhərində anadan olub.

Kiçik çavuş Abdulla İsrafilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Abdulla İsrafilov sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Abdulla İsrafilov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**İsrafilov Abdulrahman İsrafil oğlu** 1991-ci il iyunun 11-də Zaqatala rayonunun Qımır kəndində anadan olub.

Baş çavuş Abdulrahman İsrafilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Abdulrahman İsrafilov oktyabrın 22-də Qubadlı döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunda dəfn olunub.

Abdulrahman İsrafilov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsrafilzadə Elçin Bəxtiyar oğlu** 1990-cı il iyulun 11-də Şəmkir rayonunun Qədimqala kəndində anadan olub.

Əsgər Elçin İsrafilzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elçin İsrafilzadə oktyabrın 20-də Füzuli döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunun Qədimqala kəndində dəfn olunub.

Elçin İsrafilzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**İsrəfilov Anar İsrəfil oğlu** 1990-cı il yanvarın 4-də Ağdaş rayonunun Ləki kəndində anadan olub.

Əsgər Anar İsrəfilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Anar İsrəfilov oktyabrın 26-da Ağdərə istiqamətində şəhid olub. Ağdaş rayonunda dəfn olunub.

Anar İsrəfilov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**İsrafilov Kənan Faiq oğlu** 8 noyabr 1990-cı ildə Şəki rayonunun Şirinbulaq kəndində dünyaya göz açıb.

Kapitan Kənan İsrafilov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində kapitan Kənan İsrafilov tabor komandiri olaraq iştirak edib. Füzulinin, Cəbrayılın və Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirən kapitan Kənan İsrafilov 5 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**İsrəfilov Vidadi Vaqif oğlu** 18 iyun 1987-ci ildə Daşkəsən rayonunda anadan olub.

Əsgər Vidadi İsrafilov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərib. Döyüşə-döyüşə Şuşaya qədər gedib çıxıb.

Şuşa istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**İzzətli Fərid Aydın oğlu** 1994-cü il martın 21-də Şəki şəhərində anadan olub.

Leytenant Fərid İzzətli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin, Zəngilanın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə Cəbrayılda 1 dəfə yaralanmasına baxmayaraq döyüşə davam edib. Bu işğalı oğluma saxlayan deyiləm! Deyən Fərid İzzətli oktyabrın 21-də Xocavənd döyüşləri zamanı saat 13:35-də şəhid olub. Oktyabr ayının 22-də Şəki şəhərində dəfn olunub.

Fərid İzzətli ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**İzzətzadə Elgün Bəhram oğlu** 15.03.1997-ci ildə Qax rayonunda dünyaya gəlib.

Əsgər Elgün İzzətzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb.

Oktyabrın 18-də müharibənin qızğın dövründə Talış-Suqovuşan istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunması medalına görə" medalı ilə təltif edildi.



**Kamranlı Xalid Kazım oğlu** 23 sentyabr 1999-cu il tarixində İmişli rayonunda anadan olub.

Əsgər Kamranlı Xalid 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Tərxis olunmasına iki ay qalmış 15 oktyabr 2020-ci il tarixində Talış kəndi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Kazımlı Mürsəl Kamil oğlu** 1992-ci il iyulun 23-də anadan olub.

Əsgər Mürsəl Kazımlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 24-də Füzuli rayonunun azad olunması uğurunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Kazımov Elvin Ədalət oğlu** 3 dekabr 1987-ci il tarixində anadan olub.

Kapitan Elvin Kazımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elvin Kazımov oktyabrın 6-da Talış döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Elvin Kazımov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Kazımov Emin Fərman oğlu** 1987-ci il dekabrın 7-də Yevlax rayonunda anadan olub.

Əsgər Emin Kazımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Emin Kazımov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Emin Kazımov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Kazımov Əmir İlham oğlu** 1998-ci il yanvarın 1-də Xəzər rayonunda dünyaya gəlib.

Əsgər Əmir Kazımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb.

Oktyabrın 10-da Talış-Suqovuşan istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Kazımov Xuduş Həsən oğlu** 1988-ci il sentyabrın 8-də Rusiya Federasiyasının Moskva şəhərində anadan olub.

Əsgər Xuduş Kazımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub. Nəşi 110 gün sonra tapılıb və yanvarın 20-də Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.


O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Kazımov İlkin Xanməmməd oğlu** 4 avqust 1995-ci ildə Astara rayonunun Artupa kəndində dünyaya göz açıb.

Gizir İlkin Kazımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 27 sentyabr 2020-ci ildə Suqovuşan istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

İlkin Kazımov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Kazımov İlqar Nazim oğlu** 1996-cı il dekabrın 28-də Gədəbəy şəhərində anadan olub.

Əsgər İlqar Kazımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Hadrut qəsəbəsinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İlqar Kazımov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.


İlqar Kazımov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kazımov Kamran Qurbanəli oğlu** 1990-cı il dekabrın 7-də Rusiya Federasiyasının Voloqda vilayətinin Vaşhi rayonunda anadan olub.

Baş leytenant Kamran Kazımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində bir sıra strateji nöqtələrin azad olunmasında fərqlənib, həmçinin Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kamran Kazımov oktyabrın 5-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Kamran Kazımov "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kazımov Rantiq Füzuli oğlu** 1993-cü il yanvarın 8-də Beyləqan rayonunun Mayaq qəsəbəsində anadan olub.

Əsgər Rantiq Kazımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Rantiq Baxşəliyev sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Kazımov Rəşad Nüsrət oğlu** 21 dekabr 1989-cu ildə Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olub.

Əsgər Rəşad Kazımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Sonuncu dəfə ailəsi ilə 24 oktyabr tarixində əlaqə saxlayan Rəşad Kazımov 1 gün sonra, 25 oktyabr 2020-ci ildə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi uğrunda gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Rəşad Kazımov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Kazımov Rusif Yusif oğlu** 1997-ci il martın 29-da Cəlilabad rayonunun Uzuntəpə kəndində anadan olub.

Leytenant Rusif Kazımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı 5 noyabr tarixində Laçın koridoru istiqamətində gedən döyüşlərdə şəhid olub. Cəlilabad rayonunda dəfn olunub.

Rusif Kazımov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Keçiliyev Turqut Aydın oğlu** 1997-ci il noyabrın 26-da Balakən rayonunun Hənifə kəndində anadan olub.

Əsgər Turqut Keçiliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Turqut Keçiliyev oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Hənifə kəndində torpağa tapşırılıb.

Turqut Keçiliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kazımov Vüsal Kamran oğlu** 1990-cı il dekabrın 17-si Lənkəran rayonunun Yuxarı Nüvədi kəndində anadan olub.

Baş leytenant Vüsal Kazımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli əməliyyatında, Cəbrayıl uğrunda döyüşlərdə, Xocavənd rayonunun işğaldan azad olunmasında və Şuşanın azad edilməsində iştirak edib. Sonuncu dəfə 26 oktyabrda ailəsi ilə əlaqə saxlayıb. Şuşanın azad edilməsində şəhid olub. 29 noyabr 2020-ci il tarixində Lənkəran rayonunun Yuxarı Nüvədi kəndində böyük izdihamla dəfn edilib.

Kazımov Vüsal Kamran oğlu ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Kəlbəliyev Mirkazım Firuz oğlu** 1992-ci il noyabrın 5-də Bakı şəhərində anadan olub.

MAHHXHQ əsgər Mirkazım Kəlbəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı şücaətlə döyüşüb. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Mirkazım Kəlbəliyev sentyabrın 27-də Tərtər rayonunun Talış kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.






**Kəlbalıyev Səyavuş Hümbət oğlu** 1987-ci il oktyabrın 16-da Cəbrayıl rayonunun Horovlu kəndində anadan olub.

Mayor Səyavuş Kərbalıyev 2020-ci il sentyabrın 27-də səhər başlanan döyüşlər zamanı kəşfiyyat rəisi olaraq Cəbrayıl istiqamətində gedən döyüşlərdə vuruşub. Sentyabrın 29-da Cəbrayıl-Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kəlbiyev Murad Məməziyad oğlu** 1996-cı il aprelin 11-də Qusar rayonunun Cibir kəndində anadan olub.

Kəşfiyyatçı Murad Kəlbiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Murad Kəlbiyev oktyabrın 5-də Füzuli rayonunun Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub. Qusar rayonunda dəfn olunub.

Murad Kəlbiyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kəlbiyev Şaiq Namiq oğlu** 1994-cü il sentyabrın 10-da Bakı şəhərində anadan olub.

Əsgər Şaiq Kəlbiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şaiq Kəlbiyev oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub. Qaradağ rayonunun Sahil qəsəbəsində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Kəlbiyev Telman Yadigar oğlu** 24 mart 1988-ci ildə Neftçalanın Bankə qəsəbəsində anadan olub.

Gizir Kəlbiyev Telman 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsinə qatılıb. Murovdağ Canavar postunun alınmasında həmlə bölüyünün komandiri kimi yaxından iştirak edib və Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edərək yaralanıb. Sağ ayağından qəlpə yarası alsa da döyüşlərə davam edib. 2 oktyabr 2020-ci ildə minatan mərmisi ilə yaralanıb. 2 dekabr 2020-ci ildə Neftçala Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Kərəmov Zaməddin Bahadur oğlu** 24 yanvar 2001-ci ildə Oğuz rayonunun Bucaq kəndində anadan olub.

Əsgər Zaməddin Kərəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan kəndinin alınmasında iştirak edib. Kəlbəcər istiqamətində Murovdağ silsiləsində "Canavar qulağı" postunun alınması uğrunda gedən döyüşlərdə ürəyindən aldığı qəlpə yarası nəticəsində şəhid olub. Müharibə bitəndən sonra axtarışlar nəticəsində şəhid Zaməddin Kərəmovun nəşi tapılıb və 16 dekabrda doğulduğu Bucaq kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Azad Elşad oğlu Kərimli** 6 fevral 1997-ci ildə Göyçay rayonunda anadan olub.

Əsgər Azad Kərimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı manqa atıcısı kimi hərbi xidmətini yerinə yetirib. Tərtər-Ağdərə istiqamətində döyüş yolu keçib.

Oktyabrın 16-sı Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Kərimli İsmayıl Ceyhun oğlu** 1997-ci il oktyabrın 10-da Bakı şəhərində anadan olub.

Əsgər İsmayıl Kərimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Hadrut döyüşləri zamanı döyüş yoldaşlarının əhatəyə aldığı səngərə daxil olub və Ermənistan Silahlı Qüvvələrinin bir neçə əsgəri öldürüb. İsmayıl Kərimli noyabrın 4-də Daşaltı istiqamətində döyüş yoldaşlarını xilas edən zaman ağır yaralanıb, nəticədə şəhid olub. Əvvəlcə Qaradağ rayonundakı Ümumşəhər qəbiristanlığında dəfn olunub. Daha sonra məzarı II Fəxri Xiyabana köçürülüb.

İsmayıl Kərimli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Kərimli Qalası Müslüm oğlu** 2000-ci il, yanvarın 8-də Hacıqabul rayonunun Muğan qəsəbəsində anadan olub.

Qalası 2020-ci il, sentyabrın 27-də Vətən müharibəsi döyüşlərinə qoşulub. 2020-ci il, noyabrın 2-də Şuşa uğrunda gedən döyüşlərdə itkin düşüb. 5 ay axtarışlardan sonra onun nəşi Şuşanın Daşaltı kəndində tapılaraq yaxınlarına verilib.

"Ölsəm, anamın yanında dəfn edin", – deyən şəhid vəsiyyətinə uyğun olaraq doğulduğu rayonun kənd qəbiristanlığında anasının yanında torpağa tapşırılıb.

Qalası Kərimli "Cəsur döyüşçü" , "Vətən uğrunda", "İgidliyə görə" medalları ilə təltif edildi.





**Kərimli Məhəmməd Məzahim oğlu** 16 dekabr 2000-ci ildə Neftçala rayonunda anadan olub.

2 ayın əsgəri olmağına baxmayaraq, könüllü olaraq 27 sentyabr 2020-ci il səhər saatlarında başlayan 2-ci Qarabağ müharibəsində döyüşlərə gənc kəşfiyyatçı əsgər kimi qatılıb. Murovdağda gedən döyüşlərdə iştirak edib. Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. 30.09.2020-ci ildə Göygöl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub. Oktyabrın 6-da Neftçala rayonunda böyük izdihamla Şəhidlər Xiyabanında dəfn edilib.

Şəhadətindən sonra "Cəsur döyüşçü" , "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kərimli Nihat Teymur oğlu** 1996-cı il iyulun 08-də Ağdaş rayonunda anadan olub.

Nihat Kərimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. 10 oktyabrda Ağdam uğrunda gedən döyüşlər zamanı şəhid olub.


O, ölümündən sonra "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı", "Ağdamın azad olmasına görə" medalları ilə təltif edildi.



**Kərimli Orxan Akif oğlu** 2001-ci il oktyabrın 6-da Göyçay şəhərində anadan olub.

Əsgər Orxan Kərimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Orxan Kərimli oktyabrın 9-da Murovdağ döyüşləri zamanı şəhid olub. Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Orxan Kərimli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kərimli Ramin Əli oğlu** 1999-cu il dekabrın 12-də Beyləqan rayon Şərq qəsəbəsində anadan olub.

MAHHXHQ əsgər Ramin Kərimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ramin Kərimli sentyabrın 28-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə döyüş taşırığını yerinə yetirərəkən düşmən tərəfindən açılan atəş zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.

**Kərimli Səməd İkram oğlu** 16 dekabr 2000-ci ildə Biləsuvar rayonunun Əliabad kəndində anadan olub.

27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində orduya qoşularaq Cəbrayıl, Füzuli və Qubadlı rayonları istiqamətində gedən döyüşlərdə vuruşub. 8 noyabrda Şuşa şəhəri uğrunda gedən döyüşdə düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub. Səməd Kərimli 9 noyabr 2020-ci il tarixində Biləsuvar rayonunun Əliabad kənd məzarıstanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kərimov Ağamoğlan Yusif oğlu** 18 aprel 2002-ci ildə Salyan rayonu Qaraqaşlı kəndində anadan olub.

Əsgər Kərimov Ağamoğlan 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlı rayonu istiqamətində döyüş yolu keçib.

22 oktyabr 2020-ci ildə Qubadlı rayonu istiqamətində gedən döyüşlərdə düşmən diversiya qrupunu məhv edərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına" görə medalları ilə təltif edildi.



**Kərimov Asif Məmməd oğlu** 1989-cu ildə Cəlilabad rayonunun Ləzran kəndində doğulub.

Sentyabrın 27-də Vətən müharibəsi başlayanda çoxları kimi Asif Kərimov da könüllü olaraq döyüşlərə qoşulur. Baş leytenant nəinki Vətən müharibəsinin gərgin döyüşlərində daim öndə olur, həm də fədakarlığı ilə qısa zamanda nümunəvi zabitlərdən birinə çevrilir.

Bir sıra ağır döyüşlərdən üzüağ çıxan zabitimiz Şuşa ətrafında gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub. Asif Kərimov doğulduğu Ləzran kəndində torpağa tapşırılıb.

Cəsur zabitimiz göstərdiyi igidliklərə görə "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.




**Kərimov Ayaz Azər oğlu** 2002-ci il fevralın 12-də Salyan rayonunun Çadırlı kəndində doğulub.

Əsgər Ayaz Kərimov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində ilk döyüş yolu Ağdərə istiqamətindən başlayıb, cəsur topçu kimi düşmənin başına od yağdırıb. Oktyabrın 14-də Talış kəndi uğrunda gedən hərbi əməliyyat onun son döyüşü olub. Yaralanmasına baxmayaraq, cəbhə xəttindən geri çəkilməyib. Düşmənin minaatan mərmisi yaralı döyüşçümüzün həyatına son qoyub. Oktyabrın 15-də Ayazın üçrəngli bayrağa bükülmüş nəşi Çadırlı kəndinə gətirilərək torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.





**Kərimov Cavid Mərdan oğlu** 23 fevral 1999-cu ildə Yevlax rayonu nunAşağı Bucaq kəndində anadan olub.

Əsgər Cavid Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Gülüstan istiqamətində döyüşlərdə düşmənin yüksəkliklərdə yerləşən atəş mövqelərinə dəqiq zərbələr endirib. Oktyabrın 7-də Ağuçuq istiqamətində gedən döyüşlərdə fəal iştirak edib, düşmən hücumunun qarşısını alan zaman qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Kərimov Əhməd Vaqif oğlu** 1997-ci il avqust ayının 4-də Göyçay rayonunda dünyaya göz açıb.

Çavuş Əhməd Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əhməd Kərimov noyabrın 10-da Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Əhməd Kərimov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Elgün Kərimov Rauf oğlu** 1999-cu il 17 sentyabr tarixində Yevlax rayonunun Aran qəsəbəsində anadan olub.

Leytenant Elgün Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ, Talış kəndi və Suqovuşan istiqamətində gedən döyüşlərdə olub. Elgün Kərimov oktyabrın 7-də Suqovuşan istiqamətində gedən döyüşlər zamanı şəhid olub. 2020-ci il oktyabrın 17-də Yevlax rayonunun Aran qəsəbəsində dəfn edilib.

Elgün Kərimov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Kərimov Elmir Rəhim oğlu** 1998-ci il mayın 26-da Balakən rayonunun Hənifə kəndində anadan olub.

Əsgər Elmir Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.


Elmir Kərimov Suqovuşan döyüşləri zamanı 1 oktyabr tarixində şəhid olub. Balakən rayonunun Hənifə kəndində torpağa tapşırılıb.

Elmir Kərimov ölümündən sonra "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Kərimov Elşən Rövşən oğlu** 26 iyun 2001-ci il tarixində Goranboy rayonu Qızılhacılı qəsəbəsində anadan olub.

Əsgər Elşən Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elşən Kərimov oktyabrın 13-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Elşən Kərimov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Kərimov Zaur Saleh oğlu** 2 fevral 1996-ci ildə Kürdəmir rayonunun Atakişili kəndində anadan olub.

MAHHXHQ əsgər Zaur Kərimov 27 sentyabr 2020-ci ildən başlanan Vətən müharibəsində kəşfiyyatçı və snayper olaraq iştirak edib. Cəbrayılın, Füzulinin, Zəngilanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 27-də Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə ağır döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. 28 oktyabrda Kürdəmir Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kərimov Elvin Mürşüd oğlu** 13 sentyabr 1985-ci ildə Biləsuvar rayonunun Çaylı kəndində anadan olub.

Kərimov Elvin 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, 10 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Oktyabrın 11-də Biləsuvar rayonunun Çaylı kəndində dəfn olunub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Kərimov Emil İlqar oğlu** 1993-cü il sentyabrın 7-də Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olub.

Əsgər Emil Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 26-də Füzuli döyüşləri zamanı şəhid olub. Qazax rayonunun İkinci Şıxlı kəndində torpağa tapşırılıb.

Emil Kərimov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.





**Kərimov Haxverdi Sadıq oğlu** 2000-ci il dekabrın 1-də Şamaxı rayonunun Ovçulu kəndində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının əsgəri olan Haxverdi Kərimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavənd və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Haxverdi Kərimov oktyabrın 24-də Füzuli döyüşləri zamanı şəhid olub. Şamaxı rayonunun Ovçulu kəndində torpağa tapşırılıb.

Haxverdi Kərimov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kərimov İsmayıl Abbas oğlu** 3 noyabr 1990-cı ildə Qəbələ rayonunun Tüntül kəndində anadan olub.

Əsgər İsmayıl Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə könüllü olaraq iştirak edib. Oktyabr ın 5-də Qarabağ uğrunda gedən döyüşlər zamanı Tərtər rayonu istiqamətində düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub. 6 oktyabr tarixində Qəbələ rayonunun Tüntül kənd qəbristanlığında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Kərimov Mustafa Mayis oğlu** 27 noyabr 1995-ci ildə Şəkidə anadan olub.

Əsgər Mustafa Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayılın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 6-ı Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kərimov Şamo Elman oğlu** 17 dekabr 1987-ci il tarixində Cəlilabad rayonunun Maşlıq kəndində anadan olub.

Əsgər Şamo Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı şücaətlə döyüşüb.


Oktyabrın 8-də Qubadlı istiqamətində düşmən tərəfindən açılan atəş nəticəsində şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Kərimov Sənan Rəhman oğlu** 1991-ci il martın 29-da Ağdam rayonunda anadan olub.

Kapitan Sənan Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Sənan 7 oktyabr 2020-ci ildə Cəbrayıl rayonu istiqamətində aparılan döyüşlər zamanı yaxınlıqdakı tankdan atılan mərminin düşməsi nəticəsində şəhid olub. Tam arzusunun astanasında şəhadət zirvəsinə yüksəlib. Atası Rəhman Kərimovun sözlərinə görə, oğluna kapitan rütbəsi verilsə də, bunu ona təqdim etmək mümkün olmayıb. Sənan Kərimov 2-ci Fəxri Xiyabanda dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kərimov Sübhan Murtuz oğlu** 1996-cı il yanvarın 29-da Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində dünyaya göz açıb.

Əsgər Sübhan Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bir çox hərbi əməliyyat və döyüşlərdə fərqlənib. Sübhan Kərimov noyabrın 10-da Şuşa döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində dəfn edilib.

Sübhan Kərimov ölümündən sonra "Şuşanın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kərimov Taleh Adil oğlu** 1985-ci il martın 6-da Sumqayıt şəhərində anadan olub.

Mayor Taleh Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Taleh Kərimov oktyabrın 30-da Qubadlı döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Taleh Kərimov ölümündən sonra "Qarabağ" ordeni ilə təltif edildi.

Taleh Kərimov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kərimov Tərlan Daşqın oğlu** 8 avqust 1992-ci il tarixində Şabran rayonunda anadan olub.

Əsgər Tərlan Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tərlan Kərimov oktyabrın 1-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Tərlan Kərimov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", "İgidliyə görə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib.





**Kərimov Tofiq Dadaş oğlu** 7 iyul 1973-cü ildə Qaradağ rayonunun Sahil qəsəbəsində anadan olub.

Mayor Tofiq Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak edərək şücaət göstərib.

Tofiq Kərimov noyabrın 8-də Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhid olub.

Mayor Tofiq Kərimov "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Kərimov Ülvi Rövşən oğlu** 11 Sentyabr 1988-ci ildə Yevlax rayonu Salahlı kəndində anadan olub.

Kiçik Çavuş Ülvi Kərimov 2020-ci il sentyabrın 27-si II Qarabağ müharibəsi başlanan zaman öz xahişi ilə könüllü olaraq getmiş, 44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşərək oktyabrın 17-si Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib. Oktyabrın 17-si anadan olduğu Salahlı kəndində dəfn edilib.

Ülvi Kərimov ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zaur Saleh oğlu Kərimov** 2 fevral 1996-ci ildə Kürdəmir rayonunun Atakişili kəndində anadan olub.

MAHHXHQ əsgər Zaur Kərimov 27 sentyabr 2020-ci ildə başlanan Vətən Müharibəsində kəşfiyyatçı və snayper olaraq iştirak edib. Kəlbəcər, Cəbrayıl və Xocavənd rayonunun Ağoğlan qəsəbəsi, Aygestan, Vəng, Tak, Tuğ, Mamedzor, Ataqut, Temrakuç kəndlərinin və Şuşa şəhərinin işğaldan azad olunmasında xüsusi rəşadət, şücaət və qorxmazlıq nümayiş etdirib. O, 26 oktyabr 2020-ci ildə Xocəvənd rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub. 28 oktyabrda Kürdəmir Şəhidlər Xiyabanında dəfn olunub. O, ölümündən sonra "Rəşadət" ordeni, "İgidliyə görə", "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.




**Kərimov Kamil Ələddin oğlu** 2 iyul 1995-ci il tarixində Qazax rayonunun Ürkməzli kəndində anadan olub.

O, Kəlbəcər rayonu uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə 1 oktyabr tarixində qəhrəmancasına şəhid olub.

Ölümündən sonra şəhid Kərimov Kamil "Kəlbəcərin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.

**Kərimzadə Mirxəyal Valeh oğlu** 10 yanvar 1999-cu ildə Lənkəranda anadan olub. Əsgər Mirxəyal Kərimzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü iştirak edərək sentyabrın 28-i cəbhəyə yollanıb. Əvvəl Gəncəyə, oradakı 3 günlük xüsusi təlimdən sonra isə Murovdağa göndərilib. Füzuli əməliyyatında və Xocavənd rayonunun işğaldan azad olunmasında iştirak edib. Zirehli üst geyimini çıxardaraq yaralı komandirinin üstünə atıb və onu xilas edə bilib. Özü isə yenidən döyüşə qayıdıb, az sonra 5.45 çaplı açılan silahdan qarın boşluğuna dəyən güllə nəticəsində şəhid olub. Noyabrın 9-da Lənkəran şəhərinin Kiçik Bazar qəbiristanlığında dəfn olunub.


O, ölümündən sonra "Cəbrayılın azad olunmasına görə","Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Kirxlarov Nazim Nadır oğlu** 1993-cü il dekabrın 20-də Suraxanı rayonunun Əmircan qəsəbəsində anadan olub.

Əsgər Nazim Kirxlarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nazim Kirxlarov oktyabrın 22-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Nazim Kirxlarov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.




**Kürəbəyov Mayıl Kamran oğlu** 2 aprel 2001-ci ildə Qusar rayonunun Urva kəndində dünyaya göz açıb.

Kürəbəyovun xidmətinin bitməsinə az qalmış Vətən müharibəsi başlayıb. Gənc əsgər Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Amma təəssüf ki, müharibənin ilk günlərində 2 oktyabr tarixində döyüş tapşırıqlarını yerinə yetirərkən şəhid olub.

Qeyd edək ki, Vətən müharibəsində onun daha iki sinif yoldaşı şəhid olub: İkrameddin Arazov və Cumart Əlimuradov.

Mayıl Kürəbəyov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Laçınov Əhməd Qurban oğlu** 1999-cu il iyulun 28-də Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndində anadan olub.

Xüsusi Təyinatlı Qüvvələrin əsgəri olan Əhməd Laçınov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ, Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Əhməd Laçınov 2 oktyabr 2020-ci ildə Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub. Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndində torpağa tapşırılıb.

O, "Vətən uğrunda","Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə","Cəbrayılın azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə" və "Füzulinin azad edilməsinə görə" medalları ilə təltif edildi.





**Lələyev İbrahim Həzrətqulu oğlu** 1996-cı il avqustun 25-də Masallı rayonunun Hışgədərə kəndində anadan olub.

Əsgər İbrahim Lələyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İbrahim Lələyev oktyabrın 11-də Füzuli döyüşləri zamanı şəhid olub. Masallı rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Lətifli Orxan Xancan oğlu** 1996-cı il iyulun 19-da İsmayıllı rayonunun Diyallı kəndində anadan olub.

Əsgər Orxan Lətifli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Lətifli noyabrın 7-də döyüş zamanı şəhid olub. İsmayıllı rayonunda dəfn olunub.

Orxan Lətifli ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Lətifov Eynulla Niyətulla oğlu** 8 sentyabr 2001-ci ildə Quba rayonu İkinci Nügədi kəndində doğulub.

Eynulla Lətifov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl rayonlarındakı döyüşlərdə iştirak edib. Oktyabrın 19-da Xocavənd uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Lətifov Rəşid Güləhməd oğlu** 14 yanvar 2000-ci ildə Masallı rayonunun Tatyanoba kəndində anadan olub.

Çavuş Rəşid Güləhməd oğlu Lətifov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun işğaldan azad edilməsində böyük şücaət göstərib.

Sonra Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edərək 1 oktyabr tarixində şəhidlik zirvəsinə ucalıb. 29 dekabr 2020-ci il tarixində doğulduğu Tatyanoba kənd qəbiristanlığında izdihamla torpağa tapşırılıb.

O, ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə", "Vətən uğrunda" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.

**Lətifov Rəvan Ömür oğlu** 26 avqust 1991-ci ildə Oğuz rayonunun Xaçmaz kəndində dünyaya göz açıb.

Rəvan Lətifov 29 oktyabr tarixində tank əleyhinə batareyanın əsgəri vəzifəsində Füzuli rayonunun İkinci Mahmudlu kəndinin düşmən işğalından azad edilməsində iştirak edib. Şuşa uğrunda gedən qanlı döyüşlərdə – 8 noyabr tarixində Rəvan Lətifov qəhrəmancasına şəhid olub. Onun ölüm xəbəri hər kəsi sarsıtdı. O, 15 noyabr tarixində Xaçmaz kənd Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Lillahov Fərid Loğman oğlu** 1999-cu il martın 6-da Oğuz rayonunun Baş Daşağıl kəndində Loğman və İntizar Lillahovların ailəsində anadan olub.

Baş əsgər Fərid Lillahov sentyabrın 30-da müharibəyə yollanıb. Müharibənin ilk günlərindən sona kimi müxtəlif yerlərdə döyüşən Fəridin son döyüş meydanı Şuşa olub. O və yoldaşları ən çətin ərazilərdə döyüşüb, qələbələr qazanıb. Qrmızı Bazar və Daşaltı istiqamətindəki qızğın döyüşlərdən sağ çıxmağı bacaran Fərid noyabrın 8-də Şuşanın azad olunduğu gün şəhid olub.


O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mahmudlu Babək Süleyman oğlu** 1995-ci il noyabrın 27-də Biləsuvar şəhərində anadan olub.

27 sentyabr tarixindən torpaqlarımızın işğaldan azad olunması uğrunda mübarizədə Babəkin Cəbrayıldan başlayan döyüş yolu Zəngilana, Qubadlıyadək uzanır. Cəsur döyüşçü çətin döyüş əməliyyatlarının iştirakçısı olmaqla, 89 düşmən əsgərini "İstiqlal"ı ilə məhv etdi. Babək Mahmudlu Şuşa uğrunda gedən döyüşlərdə – 31 oktyabrda şəhidlik zirvəsinə ucalıb. 1 noyabr 2020-ci il tarixində doğulduğu Biləsuvar şəhərində torpağa tapşırılıb.

Babək Mahmudlu ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Mahmudov Cavid Hilal oğlu** 1989-cu il fevralın 6-da Biləsuvarın Aşağı Cürəli kəndində anadan olub.

Vətən müharibəsi başlayanda kapitan C.Mahmudovun komandiri olduğu həmlə taboru Füzulinin Əhmədbəyli kəndi istiqamətində əks hücum əməliyyatları keçirib. Onun taborunun şəxsi heyəti düşmənin Füzuli rayonu istiqamətində alınmaz hesab etdiyi yüksəkliklərdə bayrağımızı dalğalandırıb. Qəhrəmanımız sayca 5-ci yüksəkliyə bayrağımızı sancarkən düşmən snayperi tərəfindən vurulub. Əsgərlərinə "Yalnız irəli!" əmrini verən komandir komandanlığın qarşıya qoyduğu tapşırığın icrasını canından üstün tutub.

Kapitan Cavid Mahmudov ölümündən sonra "Vətən müharibəsi qəhrəmanı", "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə də təltif edildi.





**Mahmudov Cəmil Elçin oğlu** 7 iyun 1998-ci il tarixində Daşkəsən rayonunda anadan olub.

MAHHXHQ əsgər Cəmil Mahmudov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cəmil Mahmudov oktyabrın 1-də Füzuli rayonu istiqamətində gedən döyüş əməliyyatlarında döyüş taşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş zamanı şəhid olub.

Cəmil Mahmudov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Mahmudov Elşad Suliddin oğlu** 12 iyul 1997-ci ildə Gəncə şəhərində anadan olub.

Əsgər Elşad Mahmudov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı motoatıcı kimi hərbi xidmətini yerinə yetirib. Laçın rayonu istiqamətində döyüş əməliyyatlarında iştirak edib.

6 noyabr 2020-ci ildə Laçın rayonu istiqamətində gedən döyüşlərdə artilleriya atəşi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə" ,"Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mahmudov Emin Pünhan oğlu** 1994-cü il iyun ayının 1-i Tovuzun Abulbəyli kəndində doğulub.

Baş leytenant Emin Mahmudov 2020-i il sentyabrın 27-də Azərbaycan Böyük Vətən müharibəsi başlayınca Emin Mahmudov da ilk günlərdən döyüşlərə qatılıb. Suqovuşan qəsəbəsinin azad edilməsində fədakarlıqla iştirak edib. Eləcə də Cəbrayılın, Füzulinin bir sıra kəndlərinin azad edilməsində iştirak edən Emin Hadrut qəsəbəsinin düşməndən təmizlənməsində xüsusi xidmətlər göstərib. Oktyabrın 11-də Hadrut döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda","Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Mahmudov Etibar Aleksandr oğlu** 2 aprel 1987-ci ildə Mingəçevir şəhərində anadan olub.

Əsgər Etibar Mahmudov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Cəbrayılın, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Etibar Mahmudov 8 noyabr 2020-ci ildə Qubadlı istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Mingəçevir Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə, "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Mahmudov İbrahim Ağagül oğlu** 23.11.1998-ci il tarixdə Bakının Maştağa qəsəbəsində anadan olub.

Əsgər İbrahim Mahmudov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq ordu sıralarına qoşulub. Oktyabrın 11-də Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Mahmudov Murad Mahir oğlu** 1995-ci il aprelin 12-də Şəki rayonunun Çayqaraqoyunlu kəndində anadan olub.

Çavuş Murad Mahmudov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərdə savaşıb. Murad Mahmudov oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Şəki rayonunda dəfn olunub.

Murad Mahmudov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mahmudov Natiq Ramazan oğlu** 1998-ci il fevralın 2-də Zaqatala rayonunun Muxax kəndində anadan olub.

Əsgər Natiq Mahmudov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib. Natiq Mahmudov noyabrın 5-də Şuşa döyüşləri zamanı ağır yaralanıb. Uzun müddət Respublika Neyrocərrahiyə Xəstəxanasında komada qalıb. Dekabrın 26-da şəhid olub. Zaqatala rayonunun Muxax kəndində torpağa tapşırılıb.

Natiq Mahmudov ölümündən sonra "Vətən uğrunda" , "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" , "Xocavəndin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edildi.



**Mahmudov Tamerlan Fuad oğlu** 1995-ci il martın 21-də Bakıda anadan olub.

Əsgər Tamerlan Mahmudov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tamerlan Mahmudov oktyabrın 18-də Füzuli döyüşləri zamanı şəhid olub. Suraxanı rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Mahmudov Vüsal Xəyyam oğlu** 2002-ci il martın 10-da Şabran rayonunun Ağalıq kəndində anadan olub.

Əsgər Vüsal Mahmudov Goranboy rayonu Buzluq kəndi yaşayış məntəqəsi istiqamətində, gedən döyüşlərdə iştirak edib. O, oktyabr ayının 2-si Goranboy rayonunun Buzluq kəndi yaşayış məntəqəsi istiqamətində, düşmənlə təmas xəttində bizim "Cəngavər" döyüş mövqeyi istiqamətində hərbi əməliyyatlar yerinə yetirən zamanı şəhid olub.

O, ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.




**Mamedov Elmar Elçin oğlu** 2001-ci il iyulun 7-də Balakən rayonunun Mahamalar kəndində anadan olub.

Əsgər Elmar Mamedov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Elmar Mamedov oktyabrın 6-da Tərtər istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Balakən Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Elmar Mamedov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Mamedov Əmrah Qaraş oğlu** 1998-ci il mayın 20-də Ağcabədi rayonunun Poladlı kəndində anadan olub.

Kiçik çavuş Əmrah Mamedov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əmrah Mamedov sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Ağcabədi rayonunun Poladlı kəndində dəfn olunub.

Əmrah Mamedov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "İgidliyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə də təltif edildi.



**Mamedov İlahəddin Dilamuddinoviç** 2 iyul 2001-ci ildə Xaçmazda anadan olub.

Əsgər İlahəddin Mamedov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

2020-ci ildə oktyabr ayının 12-si Xocavənd rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

İlahəddin Mamedov ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə" və "Şücaətə görə" medalları ilə təltif edildi.

**Manafov Cavid Faiq oğlu** 04 fevral 1999-cu ildə Bakı şəhəri Nizami rayonunda anadan olub.

Əsgər Cavid Manafov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edib.

31 oktyabr 2020-ci il tarixində Batareya komandirini xilas edib və digər döyüş yoldaşlarını xilas edərkən ağır yaralanıb. 07 noyabr 2020-ci il tarixində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Manafov Osman Natiq oğlu** 1991-ci il noyabrın 24-də Suraxanı rayonunda anadan olub.

Əsgər Osman Manafov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Osman Manafov oktyabrın 27-də Xocavənd döyüşləri zamanı şəhid olub. Suraxanı rayonunda dəfn olunub.

Osman Manafov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Manafov Zahir Zakir oğlu** 1993-cü il dekabrın 12-də Rusiya Federasiaysının Moskva şəhərində anadan olub.

Əsgər Zahir Manafov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Zahir Manafov oktyabrın 9-da Ağdərə istiqamətində şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında dəfn olunub.

Zahir Manafov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Mansurov Elçin Elşən oğlu** 1984-cü il noyabrın 25-də Bakıda anadan olub.

Mayor "Tənha canavar" ləqəbli 36 yaşlı kəşfiyyatçı Elçin Mansurov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

Elçin Mansurov oktyabrın 11-də II Fəxri Xiyabanda, general Polad Həşimovun məzarının yaxınlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə medalı" və "Xocavəndin azad olunmasına görə" medalları ilə də təltif edildi.





**Məlikov Nurlan Dünyamalı oğlu** 1996-ci il sentyabrın 19-da Masallı rayonunun Öncəqala kəndində anadan olub.

Əsgər Nurlan Məlikov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 21-də Qubadlı cəbhəsində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib. O, yaşadığı Masallı rayonu Öncəqala kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Maşıyev Asəf Volodya oğlu** 1982-ci il noyabrın 26-da Samux rayonunun Füzuli kəndində anadan olub.

Mayor Asəf Maşıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb.

Sentyabrın 30-da Murovdağ döyüşləri zamanı itkin düşüb. 72 gündən sonra onun nəşi tapılıb və dəfn olunub.

Asəf Maşıyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Maxsudov Bəxtiyar Mansur oğlu** 17 oktyabr 1996-ci ildə Ağdaş rayonunun Tofiqi kəndində anadan olub.

Əsgər Bəxtiyar Maxsudov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib.

Oktyabrın 24-də Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Mayılov Bəxtiyar İxtiyar oğlu** 1995-ci il aprelin 13-də Sabirabad rayon Surra kəndində dünyaya gəlib.

Əsgər Bəxtiyar Mayılov hələ iyul hadisələrində könüllü olaraq ordu sıralarına yazılmaq üçün müraciət etmişdi. Vətən müharibəsində gələn çağırışla o, Bakıdakı işini yarımçıq qoyaraq döyüşə yollanıb. Cəbrayıl, Zəngilan, Füzuli və Qubadlı uğrunda gedən döyüşlərdə pulemyotçu olaraq düşmənə ağır zərbələr endirib. Sonuncu dəfə oktyabrın 19-da ailəsi ilə əlaqə saxlayıb. Oktyabrın 21-də isə Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" , "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Mayılov Murad Gülümxan oğlu** 1998-ci il mayın 10-da Qobustan rayonu Nabur kəndində anadan olub. 2020-ci il sentyabrın 23-ü hərbi təlimlərə çağırılıb.

Əsgər Murad Mayılov Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli, Cəbrayıl, Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

18 noyabr tarixində Qırmızı bazarın azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mayılov Namiq Abış oğlu** 1983-cü ildə Biləsuvar rayonunda anadan olub.

Baş leytenant Namiq Mayılov 2020-ci il 27 sentyabrda başlanan döyüşlər zamanı bölük komandiri idi. Füzuli istiqamətində bir neçə kənd irəlilədikdən sonra gedən şiddətli döyüşlərdə canına bərabər tutduğu tankı ilə birlikdə qəhrəmancasına şəhid olub. Namiq Mailov oktyabrın 4-də doğulduğu Biləsuvar şəhər qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Rafael İlqar oğlu Mailov** Mailov Rafael İlqar oğlu 16 aprel 1994-cü ildə anadan olub.

Əsgər Rafael Mayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rafael Mailov 14 oktyabrda Füzuli rayonu Yuxarı Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mayılov Rüfət Bəhram oğlu** 2001-ci il yanvarın 31-də Göyçay rayonunun Kürdəmiş kəndində anadan olub.

Əsgər Rüfət Mayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Rüfət Mayılov sentyabrın 30-da şəhid olub. Göyçay rayonunda dəfn olunub.

Rüfət Mayılov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Mayılxanlı İlqar Nadir oğlu** 24 iyul 1998-ci ildə Beyləqan rayonunun Milabad kəndində dünyaya göz açıb.

Əsgər İlqar Mayılxanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə döyüşən İlqar müharibənin ilk günü qarşı tərəfin texnikasını, silah-sursatını, canlı qüvvəsini məhv edib. İlqarın idarə etdiyi tank hədəf alınır. O, yaralı döyüş yoldaşlarını xilas edir. İlqar Mayılxanlı 27 sentyabr 2020-ci ildə minaatandan açılan atəş nəticəsində şəhid olub.

İlqar Mayılxanlı ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Mecdunov Xalid Zahir oğlu** 1995-ci il fevralın 20-də Qobustan rayonunun Poladlı kəndində anadan olub.

Çavuş Xalid Mecdunov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xalid Mecdunov oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub. Qobustan rayonunun Poladlı kəndində dəfn olunub.

Xalid Mecdunov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məcidov Aqil Aydın oğlu** 1998-ci il aprelin 3-də Tovuz şəhərində anadan olub.

Leytenant Aqil Məcidov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Aqil Məcidov sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub. Tovuzda dəfn olunub. Şəhidimiz doğulub boya-başa çatdığı Tovuz rayonunda dəfn edilib.

Aqil Məcidov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mecidov Müşfiq Bayram oğlu** 1997-ci il martın 8-də Şamaxı rayonunun Göylər kəndində anadan olub.

Əsgər Müşfiq Mecidov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Müşfiq Mecidov oktyabrın 8-də Ağdərə döyüşləri zamanı şəhid olub. Şamaxı rayonunun Göylər kəndində torpağa tapşırılıb.

Müşfiq Mecidov ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məcidov Rafiq Rasim oğlu** 2 iyul 1996-cı ildə Xızı Rayon Giləzi kəndində anadan olub.

Gizir Rafiq Məcidov Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli, Cəbrayıl, Xocavənd və Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Şuşanın azad olunmasında fəal iştirak edib. 9 noyabrda Şuşa şəhərinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medallları ilə təltif edildi.



**Məcidov Səbuhi Ağalətif oğlu** 28 aprel 2002-ci ildə Abşeron rayonunun Aşağı Güzdək qəsəbəsində dünyaya gəlib.

Əsgər Səbuhi Məcidov Qarabağın azad olunması uğrunda gedən Suqovuşan və Talış kəndləri istiqamətində döyüşlərdə iştirak edib. Sentyabrın 27-də Talış kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Məcidzadə Saleh Nəriman oğlu** 16 iyul 1994-cü ildə Biləsuvar rayonunun Nəsimikənd kəndində anadan olub.

Əsgər Saleh Məcidzadə də Vətən müharibəsində şücaəti ilə seçilənlərdəndir. Çətin tapşırıqların öhdəsindən bacarıqla gələn Saleh Məcidzadə oktyabrın 10-da Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhid olub. Yaxınlarının sözlərinə görə, Saleh çox qapalı insan olub və işi haqqında çox danışmayıb. Lakin həmişə hərbidən və müharibədən söhbət düşəndə "Bu yolda şəhid olmağa hazıram, siz də hazır olun" – deyib.

Saleh Məcidzadə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", Vətən müharibəsi iştirakçısı", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məcidzadə Teymur Tehran oğlu** 1992-ci il oktyabrın 10-da Füzuli rayonunun Gecəgözlü kəndində anadan olub.

Leytenant Teymur Məcidzadə II Qarabağ müharibəsində Teymur Məcidzadə öz doğulduğu kəndə yollanır. O, 2020-ci il 9 noyabr tarixində Vətən müharibəsinin 43-cü günündə, Şuşanın alınmasına saatlar qalmış, Xocavənd-Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. III Fəxri Xiyabanda dəfn olunub.


O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Mədədov Asif Nəsir oğlu** 1988-ci il iyunun 1-də Ağstafa rayonunun Kolxəlfəli kəndində anadan olub.

Əsgər Asif Mədədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Asif Mədədov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Kolxəlfəli kəndində dəfn olunub.

Asif Mədədov ölümündən sonra "Vətən uğrunda, "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Mədətli Zülal Rəhim oğlu** 1991-ci il avqustun 14-də Naxçıvan Muxtar Respublikasının Şərur şəhərində anadan olub.

Əsgər Zülal Mədətli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Zülal Mədətli oktyabrın 10-da Zəngilan döyüşləri zamanı şəhid olub. Şərur şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Rövşən Vüqar oğlu Mədətov** 1998-ci il iyulun 7-də Şəmkir şəhəridə anadan olub.

Əsgər Rövşən Mədətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabrın 9-u şəhidlik zirvəsinə ucalıb. 20 noyabr tarixində dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqləndiyinə görə" medalları ilə təltif edildi.



**Mədətov Röyal Şahin oğlu** 1992-ci il mayın 14-də Qazax rayonunun Hüseynbəyli kəndində anadan olub.

Kiçik gizir Röyal Mədətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Röyal Mədətov oktyabrın 22-də Qubadlı döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Hüseynbəyli kəndində dəfn olunub.

Röyal Mədətov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Mədətov Zaur Kamal oğlu** 1999-cu il noyabrın 16-da Sumqayıt şəhərində anadan olub

Əsgər Zaur Mədətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayılın azad olunmasında fəal iştirak edib.

Zaur Mədətov idmançı olub. Cüdo idman növü üzrə Respublika və Dünya yarışlarında qalibiyyət əldə edərək medallar qazanıb.

Cəsurluğu ilə döyüş yoldaşlarına örnək olan Zaur Mədətov oktyabrın 8-də Füzulidə qəhrəmancasına şəhid olub. 21 yaşlı şəhid Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunub.

Ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mədinov Rəşid Nəzər oğlu** 1996-cı il 24 apreldə Xaçmaz rayonunun Yeni Həyat qəsəbəsində dünyaya göz açıb. Əslən Qubanın Qrız kəndindəndir.

Əsgər Rəşid Mədinov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ, daha sonra isə Füzuli uğrunda gedən döyüşlərdə artilleriya bölmələrinin tərkibində böyük qəhrəmanlıqlar göstərib. Cəsur bir döyüşçü olmaqla yanaşı eyni zamanda etibarlı yoldaş olan Rəşid oktyabrın 13-də Füzuli uğrunda gedən gərgin döyüşlərdə ağır yaralanır. Oktyabrın 14-ü şəhidlik zirvəsinə yüksələn igidimiz oktyabrın 14-ü doğulub boya-başa çatdığı Xaçmaz rayonunun Yeni Həyat qəsəbə qəbiristanlığında böyük izdihamla son mənzilə yola salınır.

Rəşid Mədinov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mehbalıyev Elşən Təvəkgül oğlu** 1994-cü il iyunun 23-də Bərdə rayonunun Otuzikilər kəndində anadan olub.

Kiçik gizir Elşən Mehbalıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elşən Mehbalıyev noyabrın 4-də Ağdərə istiqamətində şəhid olub. Bərdə rayonunun Otuzikilər kəndində dəfn olunub.

Elşən Mehbalıyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mehbalıyev Vasif Gülhəsən oğlu** 1994-ci il martın 26-da Neftçala rayonunun Aşağı Surra kəndində anadan olub.

Azərbaycan Ordusunun XTQ giziri Vasif Mehbalıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrutun, Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 15-də Füzulinin yaşayış məntəqələri uğrunda gedən qanlı savaşlarda gizir Vasif Mehbalıyev tabeliyində olan yaralı əsgərini güllə yağışları altından çıxarmaq istəyib. Elə bu zaman düşmən gülləsinə tuş gəlib və 26 yaşında ən ali məqama – şəhidlik zirvəsinə ucalıb. O, ölümündən "Azərbaycan Bayrağı ordeni","Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", Xocavəndin azad olunmasına görə","Füzulinin azad olunmasına görə", "Şücaətə görə" medalları ilə təltif edildi.





**Mehdili Niftalı Qnyaz oğlu** 1996-cı il mayın 15-də Ucar rayonunun Bərgüşad kəndində anadan olub.

Gizir Niftalı Mehdili 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə könüllü şəkildə qatılıb. Gərgin döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini məhv edib. Suqovuşan qəsəbəsinin azad edilməsində göstərdiyi şücaətə görə ona gizir rütbəsi verilib. Həmin döyüşdə 20 erməni əsgərini məhv edib.

Oktyabrın 13-də Ağdərə uğrunda gedən döyüşlərdə düşmən güllələsinə tuş gələrək şəhidlik zirvəsinə yüksəlib. Oktyabrın 16-da doğulduğu kəndin qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mehdiyev Anar İlham oğlu** 2001-ci il dekabrın 16-da Şabran rayonunun Zeyvə kəndində anadan olub.

Əsgər Anar Mehdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Anar Mehdiyev oktyabrın 18-də Füzuli döyüşləri zamanı şəhid olub. Şabran rayonunda dəfn olunub.

Anar Mehdiyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Mehdiyev Əhliman Rəhman oğlu** 2002-ci il may ayının 17-də İmişlinin Məzrəli kəndində dünyaya göz açıb.

Əsgər Əhliman Mehdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murov dağı istiqamətində döyüşüb. Əhliman həmin ərazidə yerləşən Koroğlu yüksəkliyinin azad edilməsində böyük şücaət göstərib. Növbəti tapşırıq zamanı döyüşçü yoldaşları ilə birgə Ömər Aşırımı adlanan mövqeyi ələ keçirmək üçün hücuma keçib. İki güllə yarası alsa da, döyüşə davam edib. Lakin düşmən tərəfindən atılan artilleriya mərmisi onun yaxınlığına düşüb və Əhliman Mehdiyev 2020-ci il oktyabrın 2-də cəbhənin Murov dağı istiqamətində gedən döyüşlərdə şücaət göstərərək şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Mehdiyev İsmayıl Davud oğlu** 2002-ci il yanvarın 23-ü Bakı şəhərində dünyaya gəlib. Əslən Zəngilan rayonunun Mincivan qəsəbəsindəndir.

Əsgər İsmayıl Mehdiyev 27 sentyabrda başlayan II Qarabağ müharibəsində iştirak etmək üçün könüllü olaraq döyüşə yollanıb. Noyabrın 3-ü Xocavənd uğrunda gedən döyüşlərdə şəhadətə yüksəlib. II Fəxri Xiyabanda dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Mehdiyev Nüsrət Telman oğlu** 1999-cu il yanvarın 3-də Sabirabad rayonunun Bala Həşimxanlı kəndində anadan olub.

Əsgər Nüsrət Mehdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Nüsrət Mehdiyev sentyabrın 29-da Murovdağ döyüşləri zamanı şəhid olub. Sabirabad rayonunda dəfn olunub.

Nüsrət Mehdiyev ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Mehdiyev Paşa Ehtibar oğlu** 1978-ci il noyabrın 24-də Füzuli rayonunun Dövlətyarlı kəndində anadan olub.

Baş gizir Paşa Mehdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Paşa Mehdiyev oktyabrın 7-də Füzuli döyüşləri zamanı şəhid olub.

Paşa Mehdiyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Vətən Müharibəsi Qəhrəmanı" medalları ilə təltif edildi.



**Mehdiyev Rəşad Rəhman oğlu** 24 aprel 1997-ci ildə Xırdalan şəhərində anadan olub.

Əsgər Rəşad Mehdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq Füzuli rayonunun azad olunması uğurunda gedən döyüşlərdə iştirak edib. Rəşad Mehdiyev 21.10.2020-ci ildə Ərgünəş yüksəkliyi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Rəşad Mehdiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Qeyd edək ki, Rəşadın atası Rəhman Mehdiyev də Birinci Qarabağ müharibəsi qazisidir.




**Mehdiyev Rövşən Mehdi oğlu** 1996-cı il dekabrın 1-də Goranboy rayonunda anadan olub.

Əsgər Rövşən Mehdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər-Ağdərə bölgəsində döyüşüb.

Oktyabrın 25-i düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Mehdiyev Samir Valeh oğlu** 1990-cı il dekabrın 11-də Şirvan şəhərində anadan olub.

Kapitan Samir Mehdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Samir Mehdiyev oktyabrın 23-də Füzuli döyüşləri zamanı şəhid olub. Salyan rayonunda dəfn olunub.


Samir Mehdiyev ölümündən sonra "Vətən uğrunda" , "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mehdiyev Samir Vaqif oğlu** 1993-cü il noyabrın 8-də Xəzər rayonunun Zirə qəsəbəsində anadan olub.

Kiçik gizir Samir Mehdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Samir Mehdiyev noyabrın 5-də Şuşa döyüşləri zamanı şəhid olub.

Samir Mehdiyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mehdiyev Seymur Hüseyn oğlu** 1995-cı il aprelin 20-də Tovuz rayonunun Aşağı Öysüzlü kəndində anadan olub.

Əsgər Seymur Mehdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Seymur Mehdiyev oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Aşağı Öysüzlü kəndində dəfn olunub.

Seymur Mehdiyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mehdiyev Surxay Zülfi oğlu** 1985-ci il dekabrın 7-də Ağdam rayonunun Xıdırlı kəndində anadan olub.

Baş çavuş Surxay Mehdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Surxay Mehdiyev oktyabrın 19-da Füzuli döyüşləri zamanı şəhid olub.

Surxay Mehdiyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Mehtiyev Taleh Musa oğlu** 2001-ci il oktyabrın 28-də Bakının Sabunçu qəsəbəsində anadan olub.

Əsgər Taleh Mehtiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər-Ağdərə bölgəsində döyüşüb.

7 oktyabr 2020-ci ildə düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Mehdiyev Zöhrab İlham oğlu** 1998-ci il martın 30-da Zaqatala rayonunun Aşağı Çardaxlar kəndində anadan olub.

Əsgər Zöhrab Mehdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

O, ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mehdizadə Əli Məcid oğlu** 15 avqust 2001-ci ildə Lənkəranda dünyaya göz açıb.

XTQ əsgəri olan Əli Mehdizadə 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Murovdağın, Cəbrayılın, Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Cəbrayıl istiqamətində çiynindən qəlpə yarası alarkən hospitala yerləşdirilib. Müalicəsi bitdikdən sonra yenidən döyüşə yollanıb Əli Mehdizadə 1 noyabr 2020-ci ildə axşam saatlarında Şuşa döyüşləri gedişatında Şuşa rayonunun Daşaltı kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.


O, ölümündən sonra "Şücaətə görə","Vətən uğrunda","Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mehdizadə Mərdan Əhməd oğlu** 1979-cu il martın 25-də Şəki rayonunun Göybulaq kədində anadan olub.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin baş miçmanı olan Mərdan Mehdizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mərdan Mehdizadə oktyabrın 12-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Şəki rayonunun Göybulaq kəndində dəfn olunub.

Mərdan Mehdizadə ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.





**Mehtizadə Rüfət İsrayıl oğlu** 1996-cı il aprelin 4-ü İmişli rayonunun Qulubəyli kəndində anadan olub.

MAHHXHQ Rüfət Mehdizadə 2020-ci ilin sentybarında başlanan Vətən müharibəsinə qatılır. O Füzuli və Cəbrayıl rayonları uğrunda gedən döyüşlərdə xüsusi qəhrəmanlıqlar göstərərək düşmənin canlı qüvvəsini və texnikasını məhv edir. Dəfələrlə anasına, qardaşına ''torpaqlarımızı azad edəcəm'' deyən Rüfət Mehdizadə oktyabrın 29-da qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", ''Xocavəndin azad olunmasına görə', ''Füzulinin azad olunmasına görə'' və ''Zəngilanın azad olunmasına görə'' medalları ilə təltif edilib.



**Məhəmmədəlizadə Məhəmmədəli Asif oğlu** 1992-ci il aprelin 28-də Ağdam rayonunda anadan olub.

Əsgər Məhəmmədəli Məhəmmədəlizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak edib və oktyabrın 10-u Ağdamda gedən döyüşlərdə şəhid olub.

Məhəmmədəli Məhəmmədəlizadə ölümündən sonra "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məhəmmədli İsmayıl Mahir oğlu** 1996-cı il yanvarın 1-də Gəncə şəhərində anadan olub.

Gizir İsmayıl Məhəmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. İsmayıl Məhəmmədli sentyabrın 29-da Murovdağ döyüşləri zamanı şəhid olub.

İsmayıl Məhəmmədli ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məhəmmədov Alim Qəmərşo oğlu** 2001-ci il sentyabrın 28-də Zaqatala rayonunun Fındıqlı kəndində anadan olub.

Əsgər Alim Məhəmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Alim Məhəmmədov oktyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunun Fındıqlı kəndində torpağa tapşırılıb.

Alim Məhəmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məhərli Muraz Baxşalı oğlu** 1993-cü il dekabrın 21-də Yevlax rayonunun Salahlı kəndində anadan olub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Çaylı kənd istiqamətində gedən döyüşdə iştirak edib. 28 sentyabr 2020-ci ildə iki düşmən postunu aldıqdan sonra düşmən tərəfindən snayperlə sinəsindən vurularaq şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məhərrəmli Fuad Fizuli oğlu** 2001-ci il mayın 10-da Tərtər rayonunun Bəyimsarov kəndində anadan olub.

Əsgər Fuad Məhərrəmli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Fizuli istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına vuruşub.

Füzulinin 5 kəndinin alınmasında igidliklə iştirak edib. Cəbrayılın Nüzgar kəndi yaxınlığında Nüzgar dərəsi adlı yerdə yaralı əsgər yoldaşlarını xilas edərkən yanına minomyot düşüb və ağır xəsarət alıb. Sentyabrın 29-da şəhidlik zirvəsinə ucalıb.

O, "Füzulinin işğaldan azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Məhərrəmli Fuad Habil oğlu** 1994-cü il noyabrın 28-də Tərtər rayonunun Evoğlu kəndində anadan olub.

Kiçik çavuş Fuad Məhərrəmli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Fuad Məhərrəmli oktyabrın 12-də Ağdərə istiqamətində "Tülkü dərəsi" adlandırılan ərazidə şəhid olub.

Fuad Məhərrəmli ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məhərrəmov Ariz Fərzulla oğlu** 1982-ci il dekabrın 10-da Saatlı rayonunun Qara Nuru kəndində anadan olub.

Gizir Ariz Məhərrəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ariz Məhərrəmov oktyabrın 20-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Saatlı rayonunun Qara Nuru kəndində dəfn olunub.

Ariz Məhərrəmov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Məhərrəmov Əli Kamal oğlu** 15 aprel 2001-ci idlə Bərdə rayonunun Mirzalıbəyli kəndində anadan olub.

Əsgər Fərid Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə savaşıb.

27 sentyabrda Füzuli rayonunun Horadiz qəsəbəsində şəhid olub.

Əli Məhərrəmov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Elməddin Məhərrəmov Şahlar oğlu** 13 noyabr 1999-cu ildə Siyəzən rayonunun Məşrif kəndində anadan olub.

Əsgər Elməddin Məhərrəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında rəşadətlə döyüşüb.

6 noyabr 2020-ci ildə Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

Elməddin Məhərrəmov ölümündən sonra "Vətən uğrunda","Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad olunmasına görə" , "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məhərrəmov Fərid Asif oğlu** 8 fevral 2002-ci ildə Bakı şəhərində anadan olub. Əslən Zəngilan rayonunun Cahangirbəyli kəndindən idi.

2020-ci ilin may ayında Bərdə rayonuna həqiqi hərbi xidmətə yollanıb. Xidməti borcunu ləyaqətlə yerinə yetirən igid əsgər torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən Vətən müharibəsində Goranboy, Tərtər və Ağdərə istiqamətindəki döyüşlərdə iştirak edib.

Məhərrəmov Fərid Asif oğlu 07 oktyabr 2020-ci il tarixində Ağdərə və Talış kəndi uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhid olub. Sumqayıt şəhər qəbiristanlığında dəfn edilib.

Məhərrəmov Fərid ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Fuad İmaməddin oğlu Məhərrəmov** 5 aprel 1998-ci ildə Goranboy rayonunun Zeyvə kəndində anadan olub.

Baş leytenant Fuad Məhərrəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Fuad Məhərrəmov 15 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Fuad Məhərrəmov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məhərrəmov İsa Məhərrəm oğlu** 1999-ci il fevralın 15-də Bakı şəhərində anadan olub.

Əsgər İsa Məhərrəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 19-u Füzuli döyüşlərində şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məhərrəmov Niyaməddin Əmiraslan oğlu** 1986-cı il yanvarın 11-də Beyləqan rayonunun Eyvazalılar kəndində doğulub.

Əsgər Niyaməddin Məhərrəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərdə iştirak edib. Müharibənin ilk günündən düşmənin müdafiə xəttinin yarılmasında qəhrəmanlıqla döyüşüb. Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində gedən döyüşlərdə şücaət göstərib. Oktyabrın 6-da Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medallarla təltif edildi.



**Məhərrəmov Niyaməddin İsrayıl oğlu** 1993-cü il yanvarın 5-i Şəmkir rayonunun Kür qəsəbəsində anadan olub.

Əsgər Niyaməddin Məhərrəmov 2011-2012-ci illərdə müddətli həqiqi hərbi xidmətdə olub. 21 sentyabr 2020-ci il tarixində ordu sıralarına cəlb edilib. II Qarabağ müharibəsində iştirak edib və 29 sentyabr 2020-ci il tarixində Murovdağ istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Hərbi xidmətlərə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məhərrəmov Orxan Binət oğlu** 25 avqust 1994-cü ildə anadan olub. Əslən Marneuli rayonunun Qaçağan kəndindən idi.

Əsgər Orxan Məhərrəmov 27 sentyabr 2020-ci il tarixində başlanan İkinci Qarabağ müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb və torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 6 oktyabrda Füzuli və Cəbrayılın azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.





**Məhərrəmov Şamo Mətləb oğlu** 1997-ci il aprel ayının 26-sı Qax rayonunun Ləkit kəndində anadan olub.

Əsgər Şamo Məhərrəmov 27 sentyabr 2020-ci ildə ikinci Qarabağ müharibəsi başlanan zaman Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ayın 7-si Şuşada olan əlbəyaxa döyüşlərdə şəhidlik zirvəsinə ucaldığı xəbəri bir müddət sonra ailəsinə çatıb. Noyabrın 17-də Qax rayonu Ləkit kəndində xalqın böyük izdihamı ilə torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda","Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məhərrəmov Ülvü Tahir oğlu** 1997-ci il iyulun 5-də Sumqayıt şəhərində anadan olub. Əslən Qubadlı rayonundan idi.

Leytenant Ülvü Məhərrəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülvü Məhərrəmov oktyabrın 14-də Füzuli döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Ülvü Məhərrəmov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məhərrəmov Vüsal Aslan oğlu** 1979-cu il dekabrın 10-da Masallı rayonunun Hışgədərə kəndində anadan olub. Ailəli idi. 2 oğlu yadigar qaldı.

Leytenant Vüsal Məhərrəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal Məhərrəmov noyabrın 4-də Şuşa döyüşləri zamanı şəhid olub. Masallı rayonunda dəfn olunub.

Vüsal Məhərrəmov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məhərzadə Taleh Oqtay oğlu** 10 dekabr 1995-ci il tarixində Tərtər rayonunun Qaynaq kəndində anadan olub.

O, müharibənin ilk günündən döyüşlərdə fəal iştirak edib və ilk şəhidlərdən olub. 28 sentyabr 2020-ci il tarixdə Talış kəndinin azad olunması uğrunda gedən döyüşlərdə həlak olub.

Taleh Məhərzadə ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.

**Mehtili Eşqin Tərlan oğlu** 2001-ci il oktyabrın 20-də Beyləqan rayonunun Əlinəzərli kəndində anadan olub.

Əsgər Eşqin Mehtili 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Murovdağ, Cəbrayıl və Füzuli rayonu istiqamətində gedən döyüşlərdə savaşıb. Rayonun Merdinli, Şükürbəyli, Aşağı Əbdürrəhmanlı və Yuxarı Əbdürrəhmanlı, Zərgər, Qaraxanbəyli və digər kəndlərin işğaldan azad olunmasında onun da özünəməxsus şəkildə rolu və xüsusi xidmətləri olub. Eşqinin son döyüşü isə 14 oktyabr 2020-ci il tarixində olub. Füzuli şəhərinin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub.

Eşqin Mehtili ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.




**Mehtiyev Elgiz Şahin oğlu** 1 mart 1999-cu il martın 1-də Saatlı rayonunun Bəylər kəndində anadan olub.

Əsgər Elgiz Mehtiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elgiz Mehtiyev noyabrın 5-də. Qubadlı döyüşləri zamanı şəhid olub.

Elgiz Mehtiyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.



**Mehdiyev Səttar Rafiq oğlu** 1993-cü il avqust ayının 18-də Hacıqabul şəhərində dünyaya gəlib.

2011-2013-cü illərdə Goranboy rayonu ərazisində həqiqi hərbi xidmətdə olduqdan sonra Tərtər rayonunda kəşfiyyat taborunda müddətdən artıq hərbi qulluqçu kimi xidmət edib.

2020-ci il sentyabrın 29-da Murovdağ zirvəsinin alınması ilə nəticələnən döyüşdə rəşadət göstərib. Madagiz-Suqovuşan kəndinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məlikməmmədov Elvin Elçin oğlu** 20 may 2002-ci ildə Xaçmaz rayonunun Xudat qəsəbəsində anadan olub.

Əsgər Elvin Məlikməmmədov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 4-də Suqovuşan döyüşlərində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Məlikov Aqil Niyaz oğlu** 1986-cı il aprelin 6-da Quba rayonunun Alpan kəndində anadan olub.

Kapitan Aqil Məlikov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Aqil Məlikov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Quba rayonunda dəfn olunub.

Aqil Məlikov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Məlikov Əhməd Məmməd oğlu** 1999-cu ilin dekabrın 23-də Hacıqabulun Qarasu kəndində dünyaya gəlib.

Əsgər Xəyal Ağaməmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əhməd Məlikov oktyabrın 28-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Əhməd Məlikov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Məlikov Elvin İlham oğlu** 20 mart 2001-ci ildə Bakı şəhərində doğulub. Şəhidimiz ailənin ilk övladı olub.

Əsgər Elvin Məlikov XTQ-də xidmət edib, snayperdə yaxşı atıcılıq qabiliyyəti ilə seçilib. Xidmətinə Ağcabədidə başlayan qəhrəmanımız Vətən müharibəsi zamanı ön cəbhədə vuruşub. Füzulinin azad olunması istiqamətində aparılan əməliyyatlarda iştirak edib. 5 gün yatmadan Füzuli rayonunun Qaraxanbəyli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb. Elvin Məlikov oktyabrın 2-də Xocavənd rayonunda gedən döyüşdə aldığı qəlpə yarası nəticəsində qəhrəmancasına şəhid olub.

Ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məlikov Mahmud Təhmasib oğlu** 1994-cü il aprelin 3-ü Neftçala rayonunda Xol Qaraqaşlı kəndində anadan olub.

2-ci Qarabağ müharibəsi başlayandan döyüşlərə qatılıb. Sonuncu dəfə ailəsi ilə oktyabr ayının 11-i əlaqə saxlayıb, hər şeyin yaxşı olacağını deyib.


Döyüş zamanı bir çox qəhrəmanlıq göstərmiş və 29 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub və doğulub boya-başa çatdığı Neftçala rayonunda son mənzilə yola salınıb.

Mahmud Məlikov ölümündən sonra "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.

**Məlikov Rauf Mahir oğlu** 1988-ci il dekabrın 14-də Ağsuda anadan olub.

Əsgər Rauf Məlikov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak edib. Sentyabrın 28-də Vətən uğrunda gedən döyüşlər zamanı Talış yüksəkliyində qəhrəmancasına Şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunması" medalı ilə təltif edildi.



**Məlikov Rəvan Əliabbas oğlu** 26 noyabr 1993-cü ildə Kürdəmir rayonunun Şıxımlı kəndində anadan olub.

Əsgər Rəvan Məlikov Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Cəbrayıl uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 1-də Cəbrayıl rayonunun Rüzgar kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Məlikov Rəvan Əliabbas oğlu ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Məlikzadə Fərhad Nadir oğlu** 20 avqust 1997-ci ildə Sabirabad rayonunun Şıx Salahlı kəndində dünyaya göz açıb.

Əsgər Fərhad Məlikzadə 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin, Cəbrayılın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Füzuli döyüşlərində düşmən hücumunun qarşısını alarkən ağır yaralanmış və xəstəxanaya yerləşdirilib. Bir neçə günlük müalicədən sonra yenidən döyüş meydanına qayıdıb. Fərhad Məlikzadə 5 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. 12 noyabr tarixində torpağa tapşırılıb.

O, ölümündən sonra Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmişli Sahil Ağaverdi oğlu** 21 avqust 1991-ci ildə Biləsuvar rayonunun Çaylı kəndində anadan olub.

Gizir Sahil Məmişli 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. 11 noyabr 2020-ci il tarixində Şuşa uğrunda döyüşlərdə şəhid olub. Şəhid Sahil Məmişli 12 noyabr 2020-ci il tarixində doğulduğu Çaylı kəndində dəfn olunub.

Sahil Məmişli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Məmişov Nurlan İlqar oğlu** 29 sentyabr 2000-ci ildə Mingəçevir şəhərində anadan olub.

Əsgər Nurlan Məmişov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı pulemyotçu kimi hərbi xidmətini yerinə yetirib. Talış Suqovuşan istiqamətində döyüş yolu keçib.

28 sentyabr 2020-ci ildə Talış-Suqovuşan istiqamətində döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Məmişov Qədir Zülfəli oğlu** 1989-cu ildə Saatlı rayonunun Mircəlal kəndində anadan olub.

Əsgər Qədir Məmişov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Noyabrın 2-də qəhrəmancasına şəhid olub. 3 noyabr tarixində doğulduğu Mircəlal kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" , "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmişov Tural Tələt oğlu** 1992-ci il aprelin 5-də Gədəbəy rayonunun Maarif kəndində anadan olub.

Əsgər Tural Məmişov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Məmişov noyabrın 5-də Laçın döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Məmiyev Elmin Zamin oğlu** 22 dekabr 2001-ci ildə Yardımlı rayonunda anadan olub.

Əsgər Məmiyev Elmin 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib və 2 oktyabr 2020-ci ildə Ağdam döyüşlərində şəhid olub. 3 oktyabrda Yardımlı rayon Kürəkçi kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmiyev Valeh İsbat oğlu** 1994-cü il martın 27-də Yardımlı rayonunun Küräçi kəndində anadan olub.

Baş leytenant Valeh Məmiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə cəsur komandir kimi iştirak edib. Valeh Məmiyev oktyabrın 19-da Qubadlı döyüşləri zamanı ağır yaralanıb. Oktyabrın ayının 23-də isə aldığı yaradan şəhid olub. Doğulduğu Yardımlı rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda","Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədbəyli Natiq Vahid oğlu** 18.07.1993-cü ildə Xəzər rayonunun Şağan qəsəbəsində anadan olub.

Əsgər Natiq Məmmədbəyli 29 sentyabr 2020-ci ildə könüllü olaraq Vətən müharibəsinə qatılıb. Füzuli, Cəbrayıl, Zəngilan, Hadrut və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib. 20.10.2020-ci ildə Xocavənd döyüşlərində qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda","Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Məmmədəliyev Saday Rza oğlu** 1 mart 1998-ci ildə Ordubad rayonunun Darkənd kəndində anadan olub.

Əsgər Saday Məmmədəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı XT qrup kəşfiyyatçı-radioteleqrafçı kimi hərbi xidmətini yerinə yetirib. Şuşa şəhəri Istiqamətində döyüş yolu keçib.

09.11.2020-ci ildə Şuşa şəhəri istiqamətində gedən döyüşlər nəticəsində şəhid olub.

ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədli Cavid Natiq oğlu** 1999-cu il yanvarın 16-da Şirvan şəhərində anadan olub.

Əsgər Cavid Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cavid Məmmədli 27 sentyabr 2020-ci ildə şəhid olub.

Cavid Məmmədli ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.





**Məmmədli Cavidan Valeh oğlu** 1997-ci il, sentyabrın 20-də İmişli şəhərində anadan olub.

Əsgər Cavidan Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. 2020-ci il oktyabrın 7-də sonuncu dəfə ailəsi ilə əlaqə saxlayan Cavidan Məmmədli elə həmin gün Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Nəşi 13 fevral 2021-ci ildə İmişli rayonunun Şahverdili kənd qəbiristanlığında torpağa tapşırılıb.

Cavidan Məmmədli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədli Cəmil Habil oğlu** 28 iyul 1999-cu ildə İsmayıllı rayonunda anadan olub.

Əsgər Cəmil Məmmədli Füzuli rayonunun işğaldan azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edib. "Atıcılıq" – bu söz onun qəhrəmanlıq şücaətində də böyük rol oynadı. Oktyabr ayının 14-dən 15-ə keçən gecə Hadrut döyüşü (Füzuli rayonu) zamanı qəhrəmancasına vuruşaraq Şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədli Elməddin Anar oğlu** 2000-ci il avqust ayının 10-da Lənkəran rayonu Velədi kəndində dünyaya göz açıb.

Əsgər Elməddin Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Elməddin Məmmədov noyabrın 8-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Elməddin Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalı ilə təltif edildi.



**Məmmədli Elməddin Ələddin oğlu** 1995-ci il aprelin 26-da Lənkəran şəhəri Göyşaban kəndində anadan olub.

Əsgər Elməddin Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabr ayının 25-də Qubadlı istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisi (digər növ partlayışlarla və ya qəlpələrlə törədilmiş zədələnmələr, baş beynin diffuz travması nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmmədli Əşrəf Elman oğlu** 1999-cu il sentyabrın 15-də İsmayıllı rayonunun Maçaxı kəndində anadan olub.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kiçik giziri olan Əşrəf Məmmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əşrəf Məmmədli oktyabrın 17-də Cəbrayıl döyüşləri zamanı Səyyad Şıxıyev və Aşur Cəmiyev ilə birgə şəhid olub. İsmayıllı rayonunun Maçaxı kəndində dəfn olunub.

Əşrəf Məmmədli ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədli Fazil Razim oğlu** 1998-ci il iyulun 18-də Ağstafa rayonunun Vurğun qəsəbəsində anadan olub.

Əsgər Fazil Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə savaşıb. Fazil Məmmədli oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunda dəfn edilib.

Fazil Məmmədli ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədli Həsən Qəhrəman oğlu** 1995-ci il iyulun 8-də Samux rayonunun Çobanabdallı kəndində anadan olub.

Əsgər Həsən Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı heç kimə heç nə demədən çalışdığı Çobanabdallı orta məktəbindən birbaşa hərbi komissarlığa yollanıb. Həsən 5 noyabr 2020-ci ildə Laçın istiqamətində şəhid olub.

O, ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.



**Məmmədli İmran Cahangir oğlu** 1985-ci il avqustun 9-da Beyləqan rayonunun Birinci Şahsevən kəndində anadan olub.

Çavuş İmran Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İmran Məmmədli oktyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

İmran Məmmədli ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.






**Məmmədli İsa Sarı oğlu** 2002-ci il yanvarın 1-də İmişli rayonu Otuz iki kəndində anadan olub.

Əsgər İsa Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı motoatıcı manqasının komandiri kimi hərbi xidmətini yerinə yetirib. Laçın istiqamətində döyüş yolu keçib.

Noyabrın 3-də Laçın uğrunda gedən döyüşlərdə artilleriya atəşi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədli Kənan Vəfadar oğlu** 2002-ci il mayın 30-da Qax rayonunun Tasmalı kəndində anadan olub.

Əsgər Kənan Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Talış kəndinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Sentyabrın 30-da Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Məmmədli Nicat Rizvan oğlu** 1999-cu il iyulun 31-də Culfa şəhərində anadan olub.

Leytenant Nicat Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nicat Məmmədli oktyabrın 9-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Culfa şəhərində dəfn olunub.

O, ölümündən sonra "Vətən müharibəsi iştirakçısı", "Ağdamın azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" və "Rəşadət ordeni" medalları ilə təltif edildi.



**Məmmədli Pərviz Həsən oğlu** 30 mart 1996-cı ildə Neftçala rayonunda anadan olub.

Kiçik gizir Məmmədli Pərviz 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində XTQ ilə birlikdə müharibəyə yollanır. Füzuli, Cəbrayıl, Hadrut, Laçın, Xankəndi və Şuşa uğrunda döyüşlərdə qəhrəmancasına döyüşüb.

Oktyabrın 24-də Şuşa uğrunda gedən döyüşlərdə snayperlə vurularaq şəhid olub. O doğma Neftçala rayonunda dəfn olunub.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Hərbi xidmətlərə görə", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.

**Məmmədli Rüfət Vidadi oğlu** 1993-cü il noyabrın 23-də Ağstafa rayonunun Saloğlu qəsəbəsində anadan olub.

Gizir Rüfət Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə snayperçi kimi savaşıb. Sərrast atışlarına görə döyüş yoldaşları ona "Əjdaha" ləqəbini qoyub. Rüfət Məmmədli noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Saloğlu qəsəbəsində dəfn olunub.

Rüfət Məmmədli ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədli Sənan Səlim oğlu** 1997-ci il sentyabrın 14-də Tərtər rayonunun Qaradağlı kəndində anadan olub.

Leytenant Sənan Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sənan Məmmədli oktyabrın 19-da Füzuli döyüşləri zamanı şəhid olub. Tərtər rayonunda dəfn olunub.

Sənan Məmmədli ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədli Seymur Hacırəsul oğlu** 19 oktyabr 1996-cı ildə Qax rayonunun Ağçay kəndində doğulub.

Əsgər Seymur Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl-Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 11-də yaralı döyüş yoldaşlarını ərazidən çıxaran zaman Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Məmmədli Sübhan Səbuhi oğlu** 1994-cü il avqustun 12-də Kəngərli rayonunun Xıncab kəndində anadan olub.

2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsində, cəbhənin ön xəttinə yollanaraq orada qəhrəmanlıq göstərib. Düşmənin keçilməz hesab edilən bir neçə postunu ələ keçirib. 2020-ci il oktyabrın 6-da düşmənlə döyüşdə, Füzuli rayonu ərazisində, yaxınlığına atılan mərmi qəlpəsi nəticəsində qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Rəşadət" ordeni ,"Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.






**Məmmədov Tural Aqil oğlu** 1998-ci il martın 22-də Tərtər rayonunda dünyaya gəlib.

Tural Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb.

Oktyabrın 9-da müharibənin qızğın dövründə Talış-Suqovuşan istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Məmmədov Çingiz İlham oğlu** 1992-ci il iyulun 9-da Şəmkir rayonunun Mahmudlu kəndində anadan olub. Onun qardaşı – Cavid Məmmədov da Vətən müharibəsində şəhid olub.

Gizir Çingiz Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Çingiz Məmmədov oktyabrın 1-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 2020-ci il dekabrın 18-də dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Tural Elxan oğlu** 1990-cı il sentyabrın 17-də Qazax rayonunun Qızılhacılı kəndində anadan olub.

Əsgər Tural Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Tural Məmmədov sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 11.12.2020-ci il tarixində Qazax rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Məmmədov Abid Asif oğlu** 4 aprel 1994-cü ildə Oğuz rayonunun Dəymədərə kəndində anadan olub.

Əsgər Abid Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsində Murovdağ döyüşlərində iştirak edib. Abid Məmmədov oktyabrın 4-də Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olub. Abid Məmmədov oktyabrın 4-də Oğuz rayonunun Dəymədərə kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmmədov Altun Nüsrət oğlu** 1999-cu il avqustun 21-də Gəncə şəhərində anadan olub.

Əsgər Altun Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Altun Məmmədov oktyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Altun Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Amid Müqabil oğlu** 1987-ci il aprelin 2-də Qazax rayonunun Xanlıqlar kəndində anadan olub.

Gizir Amid Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin, Füzulinin, Şuşanın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amid Məmmədov noyabrın 3-də Xocavənd döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Xanlıqlar kəndində dəfn olunub.

Amid Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Anar Elşad oğlu** 1986-cı il mayın 2-də Sabirabad şəhərində anadan olub.

Mayor Anar Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Döyüşlər zamanı yaralansa da, bir gün hospitalda müalicə aldıqdan sonra döyüş meydanına geri dönüb. Anar Məmmədov oktyabrın 20-də Xocavənd döyüşləri zamanı 26 əsgərini mühasirədən çıxarıb, sona qədər döyüşüb, sonda bir gülləsi qalanda isə onu özünə vuraraq şəhid olub. Sabirabad rayonunun Cavad kəndində dəfn olunub.

Anar Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Məmmədov Anar Kərəm oğlu** 1984-cü il iyunun 6-sı Bakı şəhərində anadan olub. Əslən Cəbrayıl rayonunun Dağ Tumas kəndindən idi.

Tibb xidməti kapitanı Anar Məmmədov 2020-ci il sentyabr ayının 26-da evə gələrək "poliqona gedirik" deyərək yaxınlarıyla sağollaşıb və evdən çıxıb. Oktyabrın 29-da evlə əlaqə saxlayıb, "Cəbrayılın Dağ Tumas kəndini işğaldan azad etmişik" deyə sevincini bölüşüb. Ailəsi o zaman başa düşüb ki, Anar onlarla xudahafizləşəndə poliqona yox, cəbhə bölgəsinə yola düşüb. Anar Məmmədov 3 noyabrda Xocavənd istiqamətində gedən döyüşlər zamanı yaralı yoldaşlarına yardım göstərməyə gedərkən mühasirəyə düşüb. Elə orada da qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb. Şəhid kapitan 2-ci Fəxri Xiyabanda dəfn edildi. O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" və Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Məmmədov Anar Qəhrəman oğlu** 1995-ci il avqustun 12-də Gəncə şəhərində anadan olub.

Əsgər Anar Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Anar Məmmədov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Anar Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Anar Zəhəddin oğlu** 1992-ci il oktyabrın 25-də Saatlı rayonunun Azad kəndində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının kiçik gizir olan Anar Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Anar Məmmədov oktyabrın 17-də Füzuli döyüşləri zamanı şəhid olub.

Anar Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Araz Adil oğlu** 1994-cü il mayın 2-də Tovuz rayonunun Kirən kəndində anadan olub.

Azərbaycan Ordusunun ehtiyatda olan əsgəri Araz Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq müharibəyə yollanıb. Vətən müharibəsi zamanı o, Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əvvəlcə snayper, sonra isə Xüsusi Təyinatlı Qüvvələrin heyətində döyüşüb. Suqovuşan istiqamətində Ermənistan Silahlı Qüvvələrinin pulemyotçularının məhv edilməsində fərqlənib. Araz Məmmədov noyabrın 4-də Suqovuşan istiqamətində şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Araz Qəhrəman oğlu** 16 iyul 1997-ci ildə Naxçıvan şəhərinin Tumbul kəndində anadan olub.

Müharibə zamanı XT qrup kəşfiyyatçı-qumbaraatanı kimi hərbi xidmətini yerinə yetirib. Xocavənd rayonu istiqamətində döyüş yolu keçib.

09.11.2020-ci ildə Xocavənd rayonu istiqamətində gedən döyüşlər nəticəsində şəhidlik zirvəsinə ucalıb.


O, ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmmədov Araz Telman oğlu** 1980-ci il noyabrın 18-də Şəmkir şəhərində anadan olub.

Çavuş Araz Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb.

Araz Məmmədov sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Asəf Mehman oğlu** 1995-ci il iyulun 1-də Ağstafa rayonunun Poylu qəsəbəsində anadan olub.

Əsgər Asəf Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Asəf Məmmədov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Poylu qəsəbəsində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Ayxan Rəfail oğlu** 1998-ci il sentyabrın 14-də Şərur rayonunun Xanlıqlar kəndində dünyaya gəlib.

Leytenant Məmmədov Ayxan 44 günlük Vətən müharibəsinə Cəlilabaddan yollanıb. Oktyabrın 21-i Cəbrayıl, Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid olsa da, Ayxanın şəhid olduğu xəbəri oktyabrın 23-də yayılır. Şərur rayon Xanlıqlar kənd qəbiristanlığında torpağa tapşırıldı.

O, şəhadətindən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən müharibəsi iştirakçısı", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Azad Tahir oğlu** 16 dekabr 1995-ci ildə anadan olub. Evin tək oğlu idi.

Əsgər Azad Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 14-də Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Məmmədov Bayram Elnur oğlu** Samux rayonunun Karayeri kəndində anadan olub.

Əsgər Fərid Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə savaşıb.

20.10.2020-ci ildə Füzuli rayonu Gecəgözlü kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Bəhruz Tahir oğlu** 7 sentyabr 1991-ci ildə Yevlax rayonunda anadan olub.

Bəhruz Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində savaşıb. Bəhruz Məmmədov Azərbaycanın işğalda olan torpaqlarının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. O, noyabrın 10-da, Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Məmmədov Bəxtiyar Bayramşah oğlu** 1996-cı il avqustun 16-da Qobustan rayonunun Nabur kəndində anadan olub.

Çavuş Bəxtiyar Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bəxtiyar Məmmədov sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Cavad Səfiyar oğlu** 25 may 1980-ci ildə Göyçə mahalında doğulub. 1996-cı ildə Azərbaycan Dövlət Aqrar Universitetində, ikinci təhsilini isə Gəncə Dövlət Universitetində alıb. İsmayıllı rayonunda 3 il kimya və biologiya müəllimi işləyib. 2007-ci ildən Gəncə şəhərinə köçüb.

Baş leytenant 28 sentyabr 2020-ci ildə Murovdağ istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib.

Cavad Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Məmmədov Cavid İlham oğlu** 1990-cı il oktyabrın 18-də Şəmkir rayonu Yeniabad kəndində dünyaya göz açıb.

Gizir Cavid Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış kəndinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 28 sentyabr 2020-ci ildə kəndin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

Şəhadətindən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" , "Vətən uğrunda" medalları ilə təltif edildi.

Qeyd edək ki, şəhidin qardaşı Məmmədov Çingiz İlham oğlu da 2-ci Qarabağ müharibəsində şəhid olub.



**Məmmədov Cəlil Qəhrəman oğlu** 20 sentyabr 1999-cu ildə Quba rayonunun Qonaqkənd qəsəbəsində anadan olub.

Əsgər Cəlil Məmmədov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. 8 noyabr 2020-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə yanlarına düşən minamyot mərmisi komandirini ağır yaralayıb. Cəlil komandirini ərazidən çıxararkən daha bir mərminin onun yanında partlaması nəticəsində şəhid olub. 12 noyabr 2020-ci ildə Qonaqkənd qəsəbəsində dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Cəmaləddin Türbəndə oğlu** 1988-ci il aprelin 21-də Ağcabədi rayonunun Kürdlər kəndində anadan olub.

Kiçik çavuş Cəmaləddin Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cəmaləddin Məmmədov sentyabrın 27-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Ağcabədi rayonunun Kürdlər kəndində dəfn olunub.

Cəmaləddin Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Ceyhun Qafar oğlu** Agcabədi rayonunun Qaraxanlı kəndində anadan olub.

Əsgər Ceyhun Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub.

Oktyabrın 25-də Füzulidə gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Məmmədov Coşqun Elnur oğlu** 1994-cü il martın 9-da Ucar rayonunun Qarabörk kəndində anadan olub.

Gizir 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə-Xocavənd uğrunda gedən döyüşlərdə savaşıb. Noyabrın 22-də qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad edilməsinə görə" medalları ilə təltif edildi.



**Dostəli Seymur oğlu Məmmədov** 28 iyun 1998-ci ildə Bakı şəhərinin Suraxanı qəsəbəsində dünyaya göz açıb.

Ailənin yeganə övladı olmasına baxmayaraq Dostəli Vətənin dar günündə yaxınları ilə vidalaşaraq, cəbhəyə yollanıb.

Əsgər Dostəli Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Dostəli Məmmədov oktyabrın 18-də Füzuli döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Xocavəndin azad olunmasına görə", " Vətən uğrunda" medalları ilə təltif edildi.



**Məmmədov Əhməd Nazim oğlu** 1994-cü il avqustun 25-də Qazax rayonunun Fərəhli kəndində anadan olub.

Kiçik çavuş Əhməd Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əhməd Məmmədov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Fərəhli kəndində dəfn olunub.

Əhməd Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Etibar Səday oğlu** 1994-cü il iyunun 22-də Ağstafa rayonunun Yaradullu kəndində anadan olub.

Əsgər Etibar Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Etibar Məmmədov sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb. Ağstafa rayonunun Yaradullu kəndində dəfn olunub.

Etibar Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmmədov Ehtiram Mehman oğlu** 1995-ci il oktyabrın 13-də Goranboy rayonunun Muzdurlar kəndində anadan olub.

Əsgər Ehtiram Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı tuşlayıcı operator kimi hərbi xidmətini yerinə yetirib. Talış-Suqovuşan istiqamətində döyüş yolu keçib.

Oktyabrın 3-də Talış-Suqovuşan istiqamətində döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunması" medalı ilə təltif edildi.



**Məmmədov Elcan Zöhrab oğlu** 1989-cu il avqustun 9-da Tərtər şəhərində Zöhrab və Sahilə Məmmədovların ailəsində anadan olub.

Elcan Məmmədov 2020-ci ilin 12-15 iyulunda Azərbaycan və Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində baş verən Tovuz döyüşlərində savaşıb.

Leytenant Elcan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elcan Məmmədov sentyabrın 27-də Talış döyüşləri zamanı şəhid olub. Ramana qəsəbəsində dəfn olunub.

Elcan Məmmədov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Əli Abbas oğlu** 4 dekabr 1997-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Maxta kəndində dünyaya göz açmışdır.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri olan Əli Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Hadrut və Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 24-də Qubadlı döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Məmmədov Əli Əvəz oğlu** 1998-ci il sentyabrın 1-də Kürdəmir rayonunun Atakişili kəndində anadan olub.

Kiçik çavuş Əli Məmmədov 2020-ci il sentyabrın 27-si başlanan Vətən müharibəsi zamanı cəsur kəşfiyyatçı kimi Suqovuşan, Talış, Tərtər-Ağdərə, Kəlbəcər, Füzuli istqamətlərində düşmənə sarsıdıcı zərbələr endirərək qəhrəmanlıq göstərib. Noyabrın 4-də Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhidlik məqamına ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Məmmədov Əli Zeynal oğlu** 2000-ci il aprelin 13-də Yevlax şəhərində anadan olub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsindən kənarda qala bilməyən Əli ilk günlərdən döyüş meydanına yollandı. Xocavənd rayonunun bir sıra yaşayış məntəqələrinin azad olunmasında iştirak edən Əli fədakarlığı və qorxmazlığı ilə fərqlənib. Oktyabrın 9-da Hadrut istiqamətində gedən gərgin döyüşlərdə Əli qəhrəmancasına şəhid olub. 16 oktyabr 2020-ci ildə Yevlax şəhərində dəfn olunub.

Kiçik gizir Məmmədov Əli ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Məmmədov Əliağa Eldəniz oğlu** 2001-ci il iyulun 26-da Bakı şəhərinin Sabunçu rayonunda anadan olub.

Əsgər Əliağa Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Əliağa Məmmədov oktyabrın 6-da Ağdərə döyüşləri zamanı şəhid olub. Sabunçu rayonunun Maştağa qəsəbəsində dəfn olunub.

Əliağa Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Əlihüseyn Elşad oğlu** 1998-ci il yanvarın 24-ü Bakıda anadan olub.

Əsgər Əlihüseyn Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli- Cəbrayıl-Xocavənd istiqamətində gedən döyüşlərdə vuruşub. Oktyabrın 9-da Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Elman Bəhmən oğlu** 17 avqust 1991-ci il tarixində Tərtər rayonunun Borsunlu kəndində anadan olub.

MAHHXHQ Elman Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elman Məmmədov oktyabrın 3-də Füzuli rayonu istiqamətində gedən döyüş əməliyyatlarında döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.

**Məmmədov Elmar Saleh oğlu** 1999-cu il avqustun 18-də Gəncə şəhərində doğulub.

Əsgər Elmar Məmmədov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda vuruşub. O, Xocavənd, Füzuli, Qubadlı rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə yer alıb.

Noyabrın 9-da Xocavənd uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Noyabrın 21-də Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqləndiyinə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Elməddin Mikayıl oğlu** 1995-ci il iyulun 30-da Şəki rayonunda dünyaya gəlib.

Əsgər Elməddin Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb.

Oktyabrın 18-də müharibənin qızğın dövründə Talış-Suqovuşan istiqamətində gedən döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Məmmədov Elmir Arzu oğlu** 1999-cu il iyunun 3-də Salyan rayonunun Xocalı kəndində anadan olub.

Əsgər Elmir Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Elmir Məmmədov sentyabrın 27-də şəhid olub. Salyan rayonunun Xocalı kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Məmmədov Elmir Nadir oğlu** 1988-ci il oktyabrın 5-də Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olub.

Baş gizir Elmir Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Elmir Məmmədov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Cəlilabad rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Məmmədov Elnur İsrafil oğlu** 1989-cu il sentyabrın 16-da Daşkasən rayonunda anadan olub.

Əsgər Elnur Məmmədov 27 sentyabr 2020-ci il səhər saatlarında İkinci Qarabağ müharibəsi başladı. Vətəninin bu dar günlərində ürəyi dözməyən, iki əkiz qız atası olan Elnur sevdikləri ilə vidalaşdı, çünki Vətənin onun kimi mərd oğullara ehtiyacı olduğunu bilirdi. Uşaqlarının gözlərindən öpüb anasından halallıq alan Elnur, Vətənin keşiyinə yollandı. Bu şanlı qələbədə onunda payı olmalı idi və oldu da. Elnur Məmmədov 2020-ci il oktyabrın 2-də Kəlbəcər rayonu istiqamətində şərti adı "Ağdağ" döyüş mövqeyi istiqamətində döyüşlər zamanı şəhid oldu.

O, ölümündən sonra "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Elnur Xurşud oğlu** 1982-ci il oktyabrın 21-də Gəncədə anadan olub.

Əsgər Elnur Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ yüksəkliyi uğrunda gedən qanlı döyüşlərə qatılıb. Hərbi birləşmələrimiz düşmənə, sözün əsl mənasında, qan uddurur, yağını o zirvəyə çıxdığına peşman edir. Qəhrəman döyüşçülərimiz Murovdağ yüksəkliyini fəth edəndə Elnur da şəhidlik zirvəsinə yetişir. Düşmənin atdığı mərminin partlaması nəticəsində ağır yaralanan Elnur xəstəxanaya çatdırılır. Lakin həkimlərin səyinə baxmayaraq onun həyatını xilas etmək mümkün olmur. Oktyabrın 26-da həyata gözlərini əbədi yumur. Elnur Məmmədov oktyabrın 27-də Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. O, ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Məmmədov Ələvsət Əli oğlu** 1988-ci il fevralın 28-də Goranboy rayonunun Muzdurlar kəndində anadan olub.

Mayor Ələvsət Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Xocavənd uğrunda gedən döyüşlərdə savaşıb. Ələvsət Məmmədov noyabrın 8-də Xocavənd döyüşləri zamanı şəhadətə qovuşub.

Ələvsət Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Elşad Əvəz oğlu** 1990-cı il iyulun 7-də Beyləqan rayonunun Təzəkənd kəndində dünyaya gəlib. Əslən Ağdamın Mərzili kəndindəndir.

Gizir Elşad Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq ön cəbhədə döyüşüb. Oktyabrın 26-da Füzuli rayonunun Əbdülrəhmanlı kəndi istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmmədov Elşən Dağıstan oğlu** 1996-cı il fevralın 6-da Tərtər rayonunun Hacıqərvənd kəndində anadan olub.

Əsgər Elşən Məmmədov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 19-u Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Elşən Əziz oğlu** 21 aprel 1999-cu ildə Şərur rayonunun Danyeri kəndində anadan olub.

Leytenant Elşən Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. 21 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub.

Elşən Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Elton Ramil oğlu** 2000-ci il aprelin 14-də Bərdə rayonunda anadan olub.

Əsgər Elton Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Elton Məmmədov oktyabrın 10-da Suqovuşan ətrafında gedən döyüşlərdə şəhid olub.

Məmmədov Elton Ramil oğlu ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Elvin Dayandur oğlu** 1988-ci il sentyabrın 5-də Beyləqan rayonunun Milabad qəsəbəsində anadan olub.

Çavuş Elvin Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elvin Məmmədov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub.

Elvin Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə", "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalları ilə təltif edildi.





**Məmmədov Elvin Eldəniz oğlu** 2001-ci il iyunun 25-də Ağdaş şəhərində anadan olub.

Əsgər Məmmədov Elvin 2020-ci il sentyabrın 21-də könüllü olaraq yenidən hərbi xidmətə yollanıb, sentyabr ayının 27-də Vətən müharibəsi başlayanda Ağdərə uğrunda gedən döyüşlərdə vuruşub. Qızğın döyüşlər zamanı ön cəbhədə xidmət edib. 15 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində yaralı əsgər yoldaşlarını döyüş bölgəsindən çıxardarkən özü də qəhrəmancasına şəhid olub. Ağdaş şəhər qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", medalları ilə təltif edildi.



**Məmmədov Elvin Etibar oğlu** 1997-ci il oktyabr ayının 1-də Naxçıvan Muxtar Respublikasının Babək rayonu Nəzərabad kəndində anadan olub.

Leytenant Elvin Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elvin Məmmədov oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



Məmmədov Elvin Mahmud oğlu 1992-ci il oktyabr ayının 3-də Zaqatala şəhərində anadan olub.

Əsgər Məmmədov Elvin 2020-ci il sentyabrın 21-də könüllü olaraq yenidən hərbi xidmətə yollanıb, sentyabr ayının 27-də Vətən müharibəsi başlanan zaman torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına vuruşub. Qızğın döyüşlər zamanı ön cəbhədə xidmət edib. 15 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində yaralı əsgər yoldaşlarını döyüş bölgəsindən çıxardarkən özü də qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Elvin Mübariz oğlu** 1996-cı il fevralın 26-da Göyçay rayonunun Ləkçıplaq kəndində dünyaya göz açıb.

Əsgər Elvin Məmmədov 27 sentyabrda başlanan II Qarabağ müharibəsində iştirak etmək üçün könüllü olaraq ön cəbhəyə yollanıb. Oktyabrın 1-də Ağdərə uğrunda gedən döyüşdə şəhadət şərbətini içərək şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.

**Elvin Tərlan oğlu Məmmədov** 1992-ci il dekabrın 12-də Biləsuvar rayonunun Xırmandalı kəndində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Elvin Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb . Elvin Məmmədov oktyabrın 3-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunda dəfn olunub.

Elvin Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Elxan Bədəl oğlu** 1998-ci il mayın 15-də Qobustan rayonunun Cəyirli kəndində anadan olub.

Əsgər Elxan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elxan Məmmədov oktyabrın 11-də Füzuli döyüşləri zamanı ağır yaralanıb və 18 gün xəstəxanada müalicə aldıqdan sonra oktyabrın 29-da şəhid olub . Qobustan rayonunun Cəyirli kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Elyar Elbəyi oğlu** 22 avqust 1990-cı ildə Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olub.

Elyar Məmmədov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində Füzuli, Cəbrayıl uğrunda gedən döyüşlərdə vuruşub, 27 okytabr 2020-ci ildə Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. O, doğulduğu kənd qəbiristanlığında torpağa tapşırılıb.

Elyar Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.




**Məmmədov Emin Fazil oğlu** 1997-ci il oktyabrın 11-də Beyləqan rayonu 1-ci Şahsevən kəndində anadan olub.

Əsgər Emin Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı savaşıb. Emin Məmmədov noyabrın 2-də Şuşa şəhəri istiqamətində gedən hərbi əməliyyatlar zamanı şəhid olub.

Emin Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Məmmədov Emin Vətən oğlu** 1992-ci il avqustun 15-də Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində anadan olub.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri olan Emin Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Emin Məmmədov oktyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunda dəfn olunub.

Emin Məmmədov ölümündən sonra "Vətən uğrunda", 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Əsgər Zaur oğlu** 2002-ci il martın 15-də Cəlilabad rayonunda dünyaya gəlib.

Əsgər Məmmədov Əsgər 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər-Ağdərə bölgəsində döyüşüb.

Oktyabrın 23-də müharibənin qızğın dövründə Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Əvəz Elnur oğlu** 1 iyun 2001-ci ildə Qazax rayonunun Bala Çaylı kəndində dünyaya gəlib.

Əsgər Əvəz Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdam rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Əvəz Məmmədov oktyabrın 7-də Ağdam istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Qazax rayonunun Çaylı kəndində torpağa tapşırılıb.

Əvəz Məmmədov ölümündən sonra "Vətən uğrunda" , "Vətən müharibəsi iştirakçısı" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Fəqan Vahid oğlu** 1998-ci il iyunun 27-də Zaqatala rayonunun Yeni Suvagil kəndində anadan olub.

Əsgər Fəqan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdamın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Fəqan Məmmədov oktyabrın 6-da Ağdam döyüşləri zamanı şəhid olub.

Fəqan Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmmədov Fərid Eyvaz oğlu** 12 oktyabr 2000-ci ildə Kürdəmir rayonunun Şıxımlı kəndində anadan olub.

Əsgər Fərid Məmmədov 27 sentyabr İkinci Qarabağ müharibəsi başlayanda böyük şücaətlə döyüşlərdə iştirak edib. Oktyabrın 15-i günorta saatlarında Suqovuşan ərazisində qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunması görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Fərid Vəlhəd oğlu** 29 aprel 1990-cu il tarixində Abşeron rayonunun Xırdalan şəhərində anadan olub.

Leytenant Fərid Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli-Cəbrayıl istiqamətində gedən ezam olunmuş və oktyabr ayının 25-də Xocavənd istiqamətində gedən döyüşlərdə vuruşub və qəhrəmancasına şəhid olub. 26 oktyabr tarixində Bakı şəhəri 2-ci Fəxri Xiyabanda dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Fəxri Habil oğlu** 2000-ci il iyulun 27-də Bakı şəhərində anadan olub.

Əsgər Fəxri Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl rayonunun azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. Fəxri Məmmədov sentyabrın 27-də Cəbrayıl rayonun Nüzgar kəndi uğrunda gedən döyüşlər zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Fikrət Elşad oğlu** 29 iyun 1997-ci ildə Ucar rayonunun Müsüslü kəndində anadan olub.

Əsgər Fikrət Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Şuşa, Xocavənd uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 31-də 31 nəfər döyüş yoldaşı ilə Şuşa istiqamətində düşmənlə döyüşə girirlər. Ağır gedən döyüşlərdən ayağından yaralanıb çoxlu qan itirən Fikrət şəhidlik zirvəsinə ucalıb. Noyabrın 8-i Fikrətin şəhid xəbəri gəlir. Noyabrın 11-i cənazəsi doğulub-böyüdüyü Müsüslü kəndinə gətirilib. Noyabrın 12-də kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.






**Məmmədov Fikrət Sulduz oğlu** 1982-ci il yanvarın 20-də Füzuli rayonunun Kürdmahmudlu kəndində anadan olub.

Çavuş Fikrət Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlərdə vuruşub. Cənub istiqamətində gedən döyüşlərdə onun tankı düşmən tərəfindən vurulub. Sentyabrın 28-də Fikrət şəhidlik zirvəsinə ucalaraq müharibənin ilk şəhidləri sırasına daxil olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Fuad Valeryeviç** 1 avqust 1998-ci ildə Bakı şəhərində hərbçi ailəsində anadan olub. Milli Aviasiya Akademiyasında "Helikopter pilotu" ixtisası üzrə təhsil alıb.

Əsgər Fuad Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

21 oktyabr 2020-ci ildə işğal olunmuş ərazilərin azad edilməsi üçün mübarizə apararkən cəbhənin Xocavənd istiqamətindəki döyüşdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə","Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Hikmət Lətif oğlu** 1993-cü il noyabrın 19-da Gəncə şəhərində anadan olub.

Əsgər Hikmət Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

O, 2020-ci il oktyabrın 2-də Goranboy rayonunun Buzluq kəndi yaşayış məntəqəsi istiqamətində, düşmənlə təmas xəttində bizim "Cəngavər" döyüş mövqeyi istiqamətində hərbi əməliyyatlar yerinə yetirən zamanı şəhid olub.

Hikmət Məmmədov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov İbrahim Azər oğlu** 2000-ci il fevralın 25-də Gəncə şəhərində anadan olub.


Əsgər İbrahim Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İbrahim Məmmədov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

İbrahim Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmmədov İbrahim Nadir oğlu** 1985-ci il aprelin 1-də Goranboy rayonunda dünyaya gəlib.

Kiçik çavuş İbrahim Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. İbrahim Məmmədov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Məmmədov İbrahim Nakam oğlu** 1985-ci il aprelin 3-də Şəki rayonunda anadan olub. Füzuli istiqamətində döyüş yoldaşları ilə birgə çətin xüsusi əməliyyatları uğurla nəticələndirib. Məhz bu qəhrəmanlığına görə oktyabrın 9-da Hadrutda Azərbaycan bayrağı qaldıran hərbçilərdən biri də gizir İbrahim Məmmədov idi. Hadrutdan sonrakı döyüşlərdə göstərdiyi xüsusi rəşadət və şücaətinə görə oktyabrın 17-də Füzulidə Azərbaycan bayrağını yüksəltmək, eləcə də Ali Baş Komandana bu şəhərin azad olunmasını məruzə etmək də ona həvalə edilib. İbrahim oktyabrın 25-də Laçın istiqamətində olub. Xüsusi əməliyyatı icra edərkən qəhrəman gizir boynundan yaralanaraq şəhid olub və Şəkidə şəhidlər üçün ayrılmış yerdə dəfn edilib. O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə","Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov İkram Ehtiram oğlu** 2002-ci il iyunun 8-də Xaçmaz rayonunun Çiləngir kəndində anadan olub.

Əsgər İkram Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Düşmənə sarsıdıcı zərbələr endirib və xeyli sayda canlı qüvvəsini məhv edib. Qəhrəman İkram 13 oktyabr 2020-ci ildə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən şiddətli döyüşlərdə itkin düşüb. Onun nəşi uzun müddət tapıla bilməyib. İkram Məmmədov oktyabrın 13-dən itkin düşmüş hesab olunurdu. Üç ay sonra, yanvar ayının 13-də DNT analizi ilə İkramın şəhid olduğu məlum olur. Şəhid doğulduğu Çiləgir kənd qəbiristanlığında torpağa tapşırılıb. İ.Məmmədov Vətən müharibəsində itkin düşən 64 hərbçidən biri idi.



**Məmmədov İlham Elxan oğlu** 1992-ci il fevralın 23-də Yevlax rayonunun Nemətabad kəndində anadan olub.

Kiçik çavuş İlham Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Sentyabrın 27-də Talış kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.






**Məmmədov İlham Rauf oğlu** 1999-cu il fevralın 14-də Gəncə şəhərində anadan olub.

Əsgər İlham Məmmədov 2020-ci il sentyabrın 22-si könüllü olaraq cəbhəyə yollanıb. 9 noyabr Xocavənd rayonunun azad olunması uğrunda şəhid olub. Noyabrın 21-i Gəncə şəhəri Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Məmmədov İlkin Abdulla oğlu** 1990-cı il noyabrın 26-da anadan olub.

Kiçik çavuş İlkin Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İlkin Məmmədov noyabrın 2-də Şuşa döyüşləri zamanı şəhid olub. Abşeron rayonunun Saray qəsəbəsində dəfn olunub.


O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov İlkin Cəmil oğlu** 1993-cü il yanvarın 7-də Gəncə şəhərində anadan olub.

İlkin Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak edib. O, Murov zirvəsinin və Kəlbəcər rayonunun azadlığı uğrunda gedən döyüşlərə qatılıb. İlkin Məmmədov 2020-ci il oktyabrın 3-də Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Yanvarın 20-də Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Məmmədov İlkin Fərhad oğlu** 2002-ci il martın 27-də Biləsuvar rayonunda anadan olub.

Əsgər İlkin Məmmədov 2020-ci il 27 sentyabrdan başlanan Vətən müharibəsində iştirak iştirak edib və düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub. Noyabrın 6-sı Biləsuvar şəhər məzarıstanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Məmmədov İsa Nazim oğlu** 2000-ci il iyunun 12-də Bakı şəhərinin Suraxanı rayonunda anadan olub.

Əsgər İsa Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

O, 2020-ci il noyabrın 2-də Goranboy rayonunun Buzluq kəndi yaşayış məntəqəsi istiqamətində düşmənin "Camış aşırımı-3305 yüksəkliyi" yaxınlığında hərbi əməliyyatları nəticəsində şəhid olub.

İsa Məmmədov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Məmmədov İsmayıl Fərhad oğlu** 1992-ci il martın 10-da Sabirabad rayonunun Cəngan kəndində anadan olub.

Əsgər İsmayıl Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

İsmayıl Məmmədov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov İsmayıl Fazil oğlu** 2001-ci il oktyabrın 27-də Quba rayonunda dünyaya gəlib.

Əsgər İsmayıl Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb.

Oktyabrın 14-də müharibənin qızğın dövründə Talış-Suqovuşan istiqamətində döyüşlər nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Məmmədov İsmayıl Vahid oğlu** 1997-ci il iyunun 14-də Yevlax rayonunda anadan olub.

Əsgər İsmayıl Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Sentyabrın 29-da Murovdağ döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.






**Məmmədov İsmət Hikmət oğlu** 1993-cü ildə Sor-Sor kəndində anadan olub.

Vətən müharibəsi başlayanda ön cəbhədə manqa komandiri olan gizir İsmət Məmmədov bir sıra ərazilərimizin, o cümlədən Suqovuşanın azad olunmasında böyük fədakarlıq göstərib, düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhv edib. Oktyabrın 8-də isə gərgin döyüşlərin birində şəhidlik zirvəsinə ucalıb. O, doğulub boya-başa çatdığı Sor-Sor kənd qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Kamal Şamil oğlu** 1998-ci il iyulun 30-da Balakən rayonunun Qullar kəndində anadan olub.

Əsgər Kamal Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış və Suqovuş kəndlərinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 16-da Talış kəndi istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Balakən Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Kamil Mübariz oğlu** 1996-cı il iyulun 11-də Gəncə şəhərində anadan olub. Kamil işğal olunmuş torpaqların azadlığı uğrunda haqq savaşının ilk günlərindən qardaşı Ramil ilə birlikdə könüllü olaraq cəbhəyə yollanıb.

Əsgər Kamil Məmmədov Füzuli və Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına düşmənə qarşı mübarizə aparıb, xeyli sayda düşmən qüvvəsini məhv edib. 2020-ci il noyabrın 5-də Xocavənd rayonu uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Noyabrın 19-da Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Kəmaləddin İsrail oğlu Məmmədov** 10 sentyabr 1996-cı ildə Kəngərli rayonunun Xok kəndində anadan olub.

Əsgər Kəmaləddin Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı XT qrup kəşfiyyatçı-pulemyotçu kimi hərbi xidmətini yerinə yetirib. Şuşa şəhəri istiqamətində döyüş yolu keçib.

Noyabrın 10-da Şuşa şəhərində gedən döyüşlər nəticəsində şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmmədov Kənan Bəhruz oğlu** 1999-cu il aprelin 22-də Ağdaşın Xosrov kəndində anadan olub.

Əsgər Kənan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı rabitə taqımının radio manqasının elektrik-doldurucusu kimi xidmət aparıb. Oktyabrın 29-da Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub. Xosrov kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Kənan Hüseyn oğlu** 17 iyul 1993-cü ildə Kotavan kəndində anadan olub.

Gizir Kənan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib.

Sentyabrın 28-də Fizuli rayonunun Alxanlı kəndi istiqamətdində düşmən üzərinə hücuma keçərkən şəhid olub. Kotavan kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra " Vətən uğrunda", "Hərbi xidmətə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Kənan Niftalı oğlu** 1993-cü il oktyabrın 22-də Ucar rayonunun Alpout kəndində anadan olub.

Kənan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımız uğrunda gedən döyüşlərdə iştirak edib. Kəşfiyyatçı Kənan Murovdağa ilk ayaq basanlardan biridir. O, ən önə gedərək Murovdağı düşməndən qəhrəmancasına azad edib. Başqa bir çox əməliyyatlarda, tapşırıqlarda qəhrəmancasına iştirak edən Kənan sentyabrın 29-da şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları və "Rəşadət" ordeni ilə təltif edildi.



**Məmmədov Kənan Tofik oğlu** 5 yanvar 1998-ci ildə Cəlilabad rayonunun Məmmədrzalı kəndində anadan olub.

Əsgər Kənan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan uğrunda gedən döyüşlərdə şücaət göstərib. "Mübariz postu" adlandırılan postda şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Məmmədov Kərim Namil oğlu** 1989-cu il aprelin 5-də Gəncə şəhərində anadan olub.

Gizir Kərim Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərə qatılıb.

Kərim Məmmədov oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Məmmədov Lətif Faiq oğlu** 1998-ci il avqustun 26-da Goranboy rayonunun Qarasuçu kəndində anadan olub.

Əsgər Lətif Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağuçuq istiqamətində gedən döyüşlərdə fədakarlıq göstərdi. Lətif Məmmədov sentyabrın 30-da Murovdağ döyüşləri zamanı düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub. Şəhid Goranboy rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Maarif Məmməd oğlu** 1986-cı il fevralın 28-də Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub.

Baş gizir Maarif Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Maarif Məmmədov oktyabrın 8-də Ağdərə istiqamətində gedən döyüşlər zamanı şəhid olub.

Maarif Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Mahir Ağasəlim oğlu** 1981-ci il yanvarın 28-də Xaçmaz rayonunun Şıxhaput kəndində anadan olub.

Baş gizir Mahir Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Mahir Məmmədov oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmmədov Maqsud Vüqar oğlu** 1992-ci il yanvarın 1-də Göygöl rayonunda anadan olub. Atası Vüqar Məmmədov I Qarabağ döyüşləri iştirakçısı olub.

Əsgər Maqsud Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə tankçı kimi iştirak edib. Maqsud Məmmədov 08 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı şəhid olub. Tovuz rayonunun Koxa Nəbi kəndində dəfn olunub.

Maqsud Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Məmmədov Məcid Rafiq oğlu** 2002-ci il yanvarın 1-də Cəlilabad rayonunun Hacıavad kəndində doğulub.

Əsgər Məcid Məmmədov Talış kəndinin və Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. 1 oktyabr tarixində kəşfiyyat müşahidə bölüyünün tərkibində Talış kəndi istiqamətində 482 yüksəkliyinin azad edilməsi uğrunda gedən şiddətli döyüşdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Məmmədov Mehti Elçin oğlu** 1995-ci il aprelin 6-də Tərtərin Sarıcalı kəndində anadan olub.

Əsgər Mehdi Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə könüllü qatılıb. Mehdi Məmmədov Ağdərə-Suqovuşan uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Şəhidimiz oktyabr ayının 13-də doğulduğu Sarıcalı kəndində torpağa tapşırılıb. Dəfn mərasimi başa çatmamış xəbər gəlib ki, şəhidimizin nişanlısı Mehdinin yoxluğu ilə barışa bilməyərək özünə qəsd edib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Məhəmməd Abbas oğlu** 1998-ci il noyabrın 13-də Ağcabədi rayonunda dünyaya göz açıb.

Əsgər Məmmədov Məhəmməd 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb. Minaatan Məhəmməd Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı istiqamətində gedən gərgin döyüşlərdə fəal iştirak edib. 7 noyabr 2020-ci ildə Qubadlıda düşmən mərmisinin qəlpəsi ondan yan keçməyib. Məhəmməd yaralansa da, son nəfəsinədək vuruşaraq şəhid olub. Noyabr ayının 7-də doğulduğu Ağcabədi rayonunun Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda medalı" ilə təltif edildi.





**Məmmədov Məhəmməd Zakir oğlu** 1994-cü il yanvarın 27-də Qazax rayonunun Alpout kəndində anadan olub.

Leytenant Məhəmməd Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Məhəmməd Məmmədov oktyabrın 6-da Ağdərə istiqamətində şəhid olub. Qazax rayonunda dəfn olunub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Məmmədov Məhyəddin Yaşar oğlu** 1998-ci il avqustun 17-də Ağdaş rayonunun Aşağı Nemətabad kəndində anadan olub.

Kiçik çavuş Məhyəddin Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Məhyəddin Məmmədov sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Münasib Elman oğlu** 1996-cı il yanvarın 15-də Şəmkir rayonunun Yuxarı Seyfəli kəndində anadan olub.

Əsgər Münasib Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq vuruşub.

Münasib Məmmədov 2020-ci il oktyabrın 26-da Qubadlı döyüşləri zamanı şəhid olub. Oktyabrın 27-də Seyfəli kənd qəbiristanlığında dəfn edilib. Qeyd edək ki, Münasib Məmmədovun atası oğlunun şəhid xəbərini alandan 10 gün sonra, övladının yoxluğuna dözməyərək dünyasını dəyişib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Murad Elşən oğlu** 1996-cı il sentyabrın 25-də Bakı şəhərində anadan olub.

Əsgər Murad Elşən oğlu Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Murad Məmmədov oktyabrın 15-də Hadrut döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmmədov Murad Əzizulla oğlu** 1995-ci il martın 31-də Qusar rayonunun İmamqulukənd kəndində dünyaya göz açıb.

Əsgər Murad Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Murad Məmmədov oktyabrın 12-də şəhid olub. Qusar rayonunda dəfn olunub.

İyirmi beş yaşında şəhidlik zirvəsinə ucalan Murad ölümündən sonra "Laçının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Məmmədov Murad İlham oğlu** 2000-ci il dekabrın 15-də Bakı şəhərində anadan olub.

Əsgər Murad Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə şücaət göstərib. Murad Məmmədov oktyabrın 22-də Qubadlının azad edilməsi zamanı qəhrəmancasına şəhid olub.

Murad Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Murad Yusif oğlu** 7 dekabr 1995-ci ildə Sumqayıt şəhərində anadan olub.

Əsgər Murad Məmmədov 1 oktyabr 2020-ci ildə qardaşının İkinci Qarabağ müharibəsində olmasına baxmayaraq könüllü olaraq adını yazdırıb döyüşlərə qoşulub. Döyüşlər zamanı Murad torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən bir çox döyüş bölgələrində döyüşüb və 25 oktyabrda Qubadlının azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Elə həmin gün Qubadlı şəhəri düşmən işğalından azad olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.



**Məmmədov Mürşüd Zülfüqar oğlu** 27 iyul 1998-ci ildə Beyləqan rayonunda anadan olub.

Əsgər Mürşüd Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə kəşfiyyatçı-qumbaraatan kimi qatılıb.

Füzuli, Cəbrayıl və Qubadlı döyüşlərində iştirak edib. Noyabrın 6-sı Qubadlı uğrunda gedən döyüşdə snayperlə vurularaq şəhid olub. Beyləqan rayonunun Birinci Şahsevən kəndində dəfn olunub.

O, ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Məhəmmədov Musa Bəhrəm oğlu** 2002-ci il iyunun 18-i Quba rayonunun Zərdabi qəsəbəsində anadan olub.

Əsgər Musa Məhəmmədov oktyabrın 2-də Goranboy rayonunun Buzluq kəndi yaşayış məntəqəsi istiqamətində, düşmənlə təmas xəttində bizim "Cəngavər" döyüş mövqeyi istiqamətində hərbi əməliyyatlar yerinə yetirən zamanı şəhid olub.

O, ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Məmmədov Nahid Vahid oğlu** 1996-cı il iyunun 11-də Xəzər rayonunun Binə qəsəbəsində anadan olub.

Əsgər Nahid Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə, həmçinin Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Nahid Məmmədov oktyabrın 14-də Ağdərə istiqamətində şəhid olub. Xəzər rayonunun Binə qəsəbəsində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Natiq İltifat oğlu** 1993-cü il iyulun 20-də Neftçala rayonunun Bankə qəsəbəsində anadan olub.

Əsgər Natiq Məmmədov 2020-ci il 30 sentyabrdan II Qarabağ müharibəsinə yollanıb. Füzuli, Zəngilan, Laçın, Qubadlı istiqamətlərində rəşadətlə vuruşub. Bu döyüşlərdə göstərdiyi qəhrəmanlıqlar silahdaşları tərəfindən qürurla dilə gətirilir. Noyabrın 6-da Qubadlı istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində şəhid olub. Noyabrın 8-i Neftçalanın Fəxri Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Natiq Sahib oğlu** 29 avqust 1997-ci ildə Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olmuşdu.

Gizir Natiq Məmmədov 2020-ci il sentyabr ayının 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımız uğrunda gedən döyüşlərdə savaşıb. Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Oktyabrın 30-da Aşağı Cürəli kənd qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.

**Məmmədov Nemət Faxrəddin oğlu** 2000-ci il iyulun 1-də Goranboyun Xoylu kəndində anadan olub.

Çavuş Nemət Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

17 oktyabr 2020-ci ildə Qubadlı uğrunda gedən döyüşlərdə artilleriya atəşi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Nicat Şamxal oğlu** 1993-cü il mayın 18-də Beyləqan rayonu SMD-42 qəsəbəsində anadan olub.

Əsgər Nicat Məmmədov Vətən müharibəsi başlanan zaman Səfərbərlik Xidməti tərəfindən döyüşlərə cəlb edilib. Oktyabrın 21-də Zəngilan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Novruz İnqilab oğlu** 1991-ci il martın 20-də Sumqayıt şəhərində anadan olub.

Əsgər Novruz Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 24-də Cəbrayıl döyüşləri zamanı ürəyindən snayperlə vurularaq şəhid olub.



**Məmmədov Oktay Namiq oğlu** 1994-cü il yanvarın 1-də Gəncə şəhərində anadan olub.

Əsgər Oqtay Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə könüllü olaraq qoşulub. Oktay Ana Yurdu olan Füzulinin işğaldan azad edilməsində dərin şücaət göstərib. Ailəsi ilə ən son 6 noyabrda əlaqə saxlayıb. 8 gün ondan heç bir xəbər almaq mümkün olmayıb. 15 noyabrda Oqtayın Şəhidlik zirvəsinə ucalması xəbəri gəlib. Məlum olub ki, Oqtay Şuşanın işğaldan azad edildiyi gün – 8 noyabr tarixində Şuşanın Daşaltı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhid olub. Noyabrın 16-da isə Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda","Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Məmmədov Pənah İslam oğlu** 2000-ci il avqustun 26-da Şəki rayonunnun Orta Zəyzid kəndində anadan olub.

Əsgər Pənah Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Pənah Məmmədov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhadətə yüksəlib. Şəki rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Məmmədov Pərvin Natiq oğlu** 1998 ci il iyunun 20-də Şəmkir rayonunun Zəyəm qəsəbəsində anadan olub. 2 noyabrda Şuşa uğrunda gedən döyüşlərdə şəhid olub.

Əsgər Pərvin Məmmədov 2020-ci il sentyabrın 20-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli və Xocavənd uğrunda gedən döyüşlərdə savaşıb. Pərvin Məmmədov noyabrın 3-də döyüş tapşırığını qəhrəmanlıqla yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb.

Noyabrın 7-də Şəmkirdə Zəyəm qəbirsanlığında son mənzilə yola salınıb.

O, ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" "Füzulinin azad olunmasına görə" "Xocavəndin azad olunmasına görə" "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Məmmədov Pərvin Natiq oğlu** 2001-ci il avqustun 4-də Xaçmaz rayonunun Şıxlar kəndində dünyaya göz açıb.

27 sentyabr 2020-ci ildə başlayan II Qarabağ müharibəsində ilk gündən iştirak edib. Döyüş zamanı ayağından yaralansa da geri çəkilməyib. Oktyabrın 1-də Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhadət şərbətini içərək şəhidlik zirvəsinə yüksəlib. Xaçmaz rayonunun Şıxlar kəndində dəfn edilib.

O, şəhadətindən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Pərvin Rza oğlu** 1994-cü il martın 30-da Göyçay rayonunun Yeniarx kəndində anadan olub.

Gizir Pərvin Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə şəhəri istiqamətində gedən döyüşlərdə savaşıb. Pərvin Məmmədov oktyabrın 2-də Ağdərə döyüşləri zamanı şəhid olub. Göyçay rayonunda dəfn olunub.

Pərvin Məmmədov ölümündən sonra "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edildi.

**Məmmədov Pərviz Ələddin oğlu** 1989-cu il avqustun 9-da Tovuz rayonunun Çeşməli kəndində anadan olub.

Kapitan Pərviz Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xocavənd rayonunda gedən döyüşdə aldığı qəlpə yarası nəticəsində şəhid olub. Qaradağ rayonunda dəfn olunub.

Pərviz Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mayıllı Mahmud Əflatun oğlu** 2002-ci il 12 iyul tarixində Yardımlı rayonunun Avaş kəndində anadan olub.

Əsgər Mahmud Mayıllı Bakıda hərbi xidmətdə olub, oradan könüllü olaraq 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsinə yollanıb. 2020-ci ilin 12 oktyabr tarixində sonuncu dəfə ailəsi ilə əlaqə saxlayıb, oktyabrın 13-ü Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub. 30 noyabr tarixində doğulduğu kənddə dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda","Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mehdiyev Zahir Zakir oğlu** 1984-cü il aprelin 27-də Kürdəmir rayonunun Qarabucaq qəsəbəsində anadan olub.

Gizir Zahir Mehdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zahir Mehdiyev noyabrın 1-də Xocavənd döyüşləri zamanı şəhid olub.

Zahir Mehdiyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mehdizadə Qurban Aydın oğlu** 1996-cı il dekabrın 16-da Ağstafa rayonunun Göycəli kəndində anadan olub.

Çavuş Qurban Mehdizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Qurban Mehdizadə sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Qurban Mehdizadə ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Məmmədli Məhəmməd Murad oğlu** 1994-cü il avqustun 22-də Mingəçevir şəhərində dünyaya gəlib.

Əsgər Məhəmməd Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 2-də Goranboy rayonunun Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Məmmədli Murad Teymurşah oğlu** 27 yanvar 1996-cı ildə Bakı şəhəri, Biləcəri qəsəbəsində anadan olub.

Əsgər Murad Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq ön cəbhəyə yollanıb. Döyüş yolu Füzuli-Qubadlı istiqamətində olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədli Şahı Eman oğlu** 1995-ci il iyunun 6-da Ucar rayonunun Bərgüşad kəndində anadan olub.

Əsgər Şahı Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə könüllü şəkildə qatılan qəhrəman döyüşə gedərkən oğlu 22 günlük olub.

Şahı Məmmədli gərgin döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini məhv edib. Döyüş zamanı 16 yaralı hərbçi dostunun həyatını xilas edib. Suqovuşan və Ağdərə uğrunda gedən döyüşlərdə mühasirəyə düşərək şəhidlik zirvəsinə yüksəlib. Şahı Məmmədli dekabrın 1-i doğulduğu kəndin qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədli Turan Raqif oğlu** 1993-cü il dekabrın 7-də Ağstafa rayonunun Göycəli kəndində anadan olub.

Gizir Turan Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edib. O, Xocavənd ətrafında keçirilən hərbi əməliyyatda şəhid olub. Zəfər günündən 20 gün sonra nəşi torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmmədov Elkiyar Abdulla oğlu** 1992-ci ildə avqustun 7-də Astara rayonunun Ərçivan qəsəbəsində anadan olub.

Əsgər Elkiyar Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd uğrunda gedən döyüşlərdə savaşıb. Elkiyar Məmmədov oktyabrın 30-da Xocavənd döyüşləri zamanı şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Rəşad Asif oğlu** 1987-ci il aprelin 8-də Bakı şəhərində anadan olub.

Gizir Rəşad Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlı, Füzuli, Şuşa uğrunda döyüşlərdə savaşıb. Qubadlı döyüşləri zamanı yaralanıb. Noyabrın 6-sı Şuşanın azad olunması uğrunda gedən döyüş əməliyyatlarında komandiri olduğu döyüş maşınının şəxsi heyəti ilə birlikdə şəhid olub. Dekabrın 3-də ailəsinə təhvil verilib. Əhmədli qəbiristanlığında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Sahil Rasim oğlu** 1995-ci il iyunun 7-də Naxçıvan Muxtar Respublikası Naxçıvan şəhər Qaraçuq qəsəbəsində anadan olub.

Gizir Sahil Məmmədov Tovuz döyüşlərində və II Qarabağ müharibəsində iştirak edib. Murov dağın alınmasında şücaət göstərib.

Sentyabrın 28-də Murovdağ Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Məmmədov Turan Nadir oğlu** 1993-cü il avqustun 29-da Qazax rayonunun Dəmirçilər kəndində anadan olub.

Gizir Turan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Turan Məmmədov oktyabrın 7-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Dəmirçilər kəndində torpağa tapşırılıb.

Turan Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.






**Məmmədov Turxan Rizvan oğlu** 1998-ci il avqustun 9-da Gəncə şəhərində anadan olub.

Əsgər Turxan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Turxan Məmmədov sentyabrın 29-da Murovdağ döyüşləri zamanı Gamışdağ istiqamətində şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 08.12.2020-ci il tarixində Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra " Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", medalları ilə təltif edildi.



**Məmmədov Vüsal Aftandil oğlu** 1997-ci il iyunun 2-də Bakı şəhərində dünyaya gəlib.

Əsgər Vüsal Məmmədov 2020-ci il 27 sentyabr tarixində başlanan Vətən müharibəsi zamanı igidliklə döyüşüb. Suqovuşan uğrunda gedən döyüşlərdə yaralansa da müalicə almaqdan imtina edir və yenidən döyüşlərə qayıdır. Suqovuşanı döyüş yoldaşları ilə birlikdə azad etdikdən sonra Ağdərə uğrunda gedən döyüşlərə qoşulub. Elə bu döyüşlərin birində – oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb. Onun nəşi noyabr ayının 28-də döyüş meydanından götürülərək noyabrın 29-da Binqədi qəsəbəsi qəbiristanlığı ərazisində yerləşən Vətən Müharibəsi Şəhidlərinin Xiyaban kompleksində dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Vüsal Aydın oğlu** 1995-ci il avqustun 29-da Şəmkir rayonunun Abbaslı kəndində anadan olub.

Əsgər Vüsal Məmmədov 2020-ci il 27 sentyabr tarixində başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Xocavənd uğrunda gedən döyüşlərdə vuruşub. Noyabrın 4-ü Füzuli rayonu uğrunda aparılan döyüş əməliyyatları zamanı şəhid olub.

O, ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Məmmədov Vüsal Elşən oğlu** 3 avqust 1998-ci ildə Gəncə şəhərində anadan olub.

Əsgər Vüsal Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq xüsusi təyinatlı qrupun tərkibində iştirak edib. Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub.

Vüsal Məmmədov 9 noyabr 2020-ci ildə Xocavənd rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 17 mart 2021-ci ildə nəşi aşkar edilib və Gəncə Şəhidlər Xiyabanında dəfn olunub.

Vüsal Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Mirzəyev Ceyhun Zirəddin oğlu** 1996-cı il avqustun 12-də Tovuz rayonunun Əyyublu kəndində anadan olub.

Əsgər Ceyhun Mirzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Zəngilan, Qubadlı və Laçının azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Ceyhun Mirzəyev noyabrın 9-da Laçın rayonu istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Tovuz rayonunun Əyyublu kəndində dəfn olunub.

Ceyhun Mirzəyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Mirzəmmədov Sərxan Osman oğlu** 1998-ci il avqustun 3-də Xaçmaz rayonunun Mirzəməmmədqışlaq kəndində anadan olub.

Kiçik çavuş Sərxan Mirzəmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ, Talış-Suqovuşan istiqamətində gedən hərbi əməliyyatlarda iştirak edib.

Sərxan Mirzəmmədov oktyabrın 10-da tarixində Suqovuşan istiqamətində düşmən mövqeyinə hücum zamanı düşmənin 5 hərbi qulluqçusunu məhv edərək şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Musayev Ayxan Mehman oğlu** 22 sentyabr 2000-ci ildə Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olub. 27 sentyabr 2020-ci ildə İkinci Qarabağ müharibəsində fəal iştirak edib. 1 oktyabr 2020-ci il tarixində onurğasından və qolundan yaralandığına görə hospitalda müalicə olunub. Ayxan Musayev yenidən cəbhəyə yollanaraq Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa rayonları uğrunda gedən döyüşlərdə böyük şüçaət göstərib. Noyabrın 8-də Şuşa rayonu uğrunda gedən döyüşlərdə Ayxan Musayev ağır yaralanaraq 20 günə yaxın ağır koma vəziyyətində qalıb. 28 noyabr 2020-ci il tarixində şəhidlik zirvəsinə ucalıb. 29 noyabrda böyük izdihamla Gəncə şəhər Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Musazadə Azər Çingiz oğlu** 25 iyun 1998-ci ildə Qəbələ rayonunun Şəfili kəndində anadan olub.

Əsgər Azər Musazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Azər Musazadə 13 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Qəbələ rayonunun Şəfili kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Məmmədov Pərviz Şakir oğlu** 2001-ci il martın 25-də Bərdə rayonunda anadan olub.

Əsgər Pərviz Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb. 29 sentyabr 2020-ci ildə Füzuli-Cəbrayıl istiqamətində "Nüzgar postu"nda qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Qəhrəman Qürbət oğlu** 1996-cı ildə Goranboy rayonunun Yolqular kəndində anadan olub.

MAHHXHQ əsgər Qəhrəman Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşüb. Vətən müharibəsində ilk olaraq Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Suqovuşan döyüşləri zamanı yaralanıb. Oktyabrın 16-da Suqovuşan istiqamətində düşmən üzərinə hücum zamanı belindən yaralanıb, lakin döyüş mövqeyindən çıxmayıb. 12 nəfərlik qrupu düşmən mühasirəsindən çıxaran qəhrəmanımız başından aldığı güllə yarasından şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Qəzənfər Habil oğlu** 1996-cı il avqustun 23-də Gəncə şəhərinin Gülüstan qəsəbəsində anadan olub.

Leytenant Qəzənfər Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Qəzənfər Məmmədov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Qəzənfər Məmmədov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Ramal Məhəmməd oğlu** 1 yanvar 2000-ci il tarixində Gəncə şəhərində anadan olub.

Döyüşlərin ilk başladığı tarixdən, könüllü olaraq ön cəbhəyə yola düşüb. Xocavənd və Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak edib, böyük şücaət göstərib. Oktyabrın 2-də Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ramal Məmmədov böyük izdihamla Bakı şəhəri Qaradağ rayonunun Lökbatan qəsəbəsində Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.

**Məmmədli Ramin Aydın oğlu** 14 noyabr 1997-ci ildə Şəki rayonu nun Babaratma kəndində anadan olub.

Əsgər Ramin Məmmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Goranboy-Ağdərə istiqamətində olan döyüşlərdə şücaətlə vuruşub. Döyüşlərdən birində qəlpə yarası almasına baxmayaraq Ramin yaralı halda neytral zonada olan digər bir silah yoldaşına yardım etmək üçün irəli qaçıb. Ancaq bu anda snayper gülləsinə tuş gəlib və Suqovuşan ərazisində qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib. O, 18 oktyabr 2020-ci il tarixində doğulduğu Babaratma kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Rəcəb Xalid oğlu** 22 iyul 1995-ci ildə Ucar rayonunda anadan olub.

Əsgər Rəcəb Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günündən könüllü olaraq cəbhəyə döyüş bölgəsinə gedib. Füzuli istiqamətində gedən gərgin döyüşlərdə bir neçə erməni canlı qüvvəsini məhv edib.

Oktyabrın 6-da Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Məmmədov Rəcəb Yolçu oğlu** 1996-cı il noyabr ayının 23-ü Ağdaş rayonunun Ləki kəndində anadan olub.

Əsgər Rəcəb Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdam, Füzuli, Qubadlı, Zəngilan uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub.

Noyabrın 7-i Xocavənd döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Rəhman Natiq oğlu** 1997-ci il fevralın 13-də Sumqayıt şəhərində anadan olub.

Əsgər Rəhman Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rəhman Məmmədov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Rəhman Məmmədov Xocavəndin alınmasında fəal iştirak edib. O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə medalları ilə təltif edildi.





**Məmmədov Rəşad Fərəməz oğlu** 4 sentyabr 1989-cu ildə Gəncə şəhərində doğulub.

Əsgər Rəşad Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Qubadlı və Xocavənd rayonları uğrunda gedən döyüşlərdə iştirak edib.

8 noyabr 2020-ci ildə Şuşa şəhəri uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Noyabrın 17-də Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Rəşid Rəşad oğlu** 1997-ci il noyabrın 20-də Lənkəran rayonunun Sütəmurdov kəndində anadan olub.

Əsgər Rəşid Məmmədov 27 sentyabr 2020-ci il tarixində başlayan və 44 gün davam edən Vətən müharibəsinə qatılıb. Rəşid Füzuli uğrunda gedən şiddətli döyüşlərdə xüsusi əməliyyat üçün seçilən 16 nəfər könüllünün arasından biri olub. Məmmədov Rəşid 2020-ci il oktyabrın 30-da kəşfiyyatda olarkən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidimizin nəşi doğulub boya-başa çatdığı Lənkəran rayonunun Sütəmurdov kəndinə gətirilərək orada torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Rəvan İntiqam oğlu** 1998-ci il fevralın 17-də Cəlilabad rayonunun Novruzallı kəndində anadan olub.

Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılıb. Bir sıra uğurlu əməliyyatlarda yaxından iştirak edib. Eyni zamanda şəxsi şücaətlər göstərərək hərbçi yoldaşları ilə birlikdə düşmənə sarsıdıcı zərbələr endirib, onun canlı qüvvəsini məhv edib. Füzuli istiqamətində gedən hərbi əməliyyat Rəvanın son döyüşü olub. Rəvan Məmmədov oktyabrın 10-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub. Novruzallı kənd qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Məmmədov Rövlan Qurban oğlu** 2001-ci il mayın 24-də anadan olub.

Əsgər Rövlan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. Rəşadətlə döyüşüb.

2020-ci il oktyabrın 15-də Füzulini azad edəndən sonra Rövlan və döyüşçü yoldaşları Cəbrayıl istiqamətinə keçib. "Vışka" deyilən yerdə açıq döyüşdə yanında minaatan mərmisinin partlaması nəticəsində şəhid olub.

Rövlan Məmmədov ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmmədov Rövşən Müşfiq oğlu** 1995-ci il oktyabr 29-da Mingəçevir şəhərində anadan olub.

Əsgər Rövşən Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

Oktyabrın 17-də Suqovuşanda qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Röyad Famil oğlu** 2000-ci il oktyabr ayının 25-də Masallı rayonunun Mahmudavar kəndində anadan olub.

Əsgər Röyad Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Şuşa uğrunda gedən döyüşlərdə vuruşub.

Röyad Məmmədov noyabrın 10-da Laçından Şuşaya gedən yolu ələ keçirmək uğrunda döyüşlər zamanı şəhid olub. Doğulub boya-başa çatdığı Masallı rayonunun Mahmudavar kəndində, 11 noyabr 2020-ci il tarixində dəfn olunur.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Məmmədov Röyal Misil oğlu** 12 oktyabr 1990-cı ildə Şamaxı rayonunun Kürdəmic kəndində anadan olub.

Əsgər Röyal Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq cəbhəyə yollanıb. Qubadlı uğrunda gedən döyüşlərdə düşmən gülləsi ürəyinə dəyib və Röyal müqəddəs şəhidlik məqamına yüksəlib. İgid Vətən oğlu 24 oktyabr 2020-ci il tarixində Şirvan şəhər Şəhidlər Xiyabanında izdihamla dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Ruslan Ramiz oğlu** 1997-ci il iyunun 6-da Sumqayıt şəhərində anadan olub.

Leytenant Ruslan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Ruslan Məmmədov noyabrın 1-də Suqovuşan bölgəsində qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.





**Məmmədov Rüstəm İbrahim oğlu** 1998-ci ilin avqust ayının 10-da Mingəçevir şəhərində dünyaya gəlib.

MAHHXHQ əsgər Rüstəm Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Və qanlı döyüşlərin 3-cü günündə, sentyabrın 29-da Suqovuşan-Ağdərə istiqamətində şəhidlik zirvəsinə yüksəlib. Amma uzun müddət onun nəşini götürmək mümkün olmayıb.

Noyabrın 22-də isə şəhidimizin nəşi Mingəçevirə gətirilərək Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Rüstəm Müsəllim oğlu** 2001-ci il oktyabrın 3-də Şəmkir rayonunun Təzəkənd kəndində anadan olub.

Əsgər Rüstəm Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rüstəm Məmmədov noyabrın 3-də Xocavənd rayonu ərazisində gedən döyüşlər zamanı mühasirədə qalıb. Əsir düşməmək üçün döyüş yoldaşları ilə birlikdə özlərini və onlara hücum edən Ermənistan Ordusunun hərbçilərini partladaraq şəhidlik zirvəsinə ucalib. Şəmkir rayonunun Təzəkənd kəndində dəfn olunub.

Rüstəm Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Rza Əsgər oğlu** 2001-ci il yanvarın 23-də Şamaxı rayon Göylər kəndində anadan olub.

Rza 27 sentyabrda Füzuli istiqamətində gedən əks-hücum əməliyyatları nəticəsində elə səhər saatlarında təxminən 6:30 radələrində 44 günlük Vətən müharibəsində Azərbaycanın ilk şəhidi olaraq tarix yazıb. Rza Vətənə bağlı insan olub. Bu bağlılıq ona bəlkə də atasından keçib. Çünki Rzanın atası birinci Qarabağ müharibəsinin qazisidir. Rza 28 sentyabr yaşadığı Göylər kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", " Füzulinin azad olunmasına görə","Hərbi xidmətlərə görə", "Cəsur döyüşçü" medalları ilə də təltif edildi.



**Məmmədov Sadiq Mübariz oğlu** 1991-ci ilin avqust ayının 15-də Siyəzən şəhərində anadan olub.

MAHHXHQ əsgər Məmmədov Sadiq 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı 7 günlük döyüş yolu keçib. Sadiq 8 yaralı əsgər yoldaşını döyüş zonasından çıxararaq həyatını xilas edib. Oktyabrın 4-də Murovdağ bölgəsində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.

**Məmmədov Sadiq Sadəddin oğlu** 1981-ci il iyunun 23-də Qax şəhərində dünyaya göz açıb.

Polkovnik-leytenant Sadiq Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 24-də Xocavənd döyüşləri zamanı şəhid olub. Qax şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Azərbaycan Bayrağı"ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Sahib Yaşar oğlu** 1989-cu il noyabrın 13-ü Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Yaycı kəndində anadan olub.

Baş-çavuş Məmmədov Sahib 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı 23 gün qəhrəmancasına vuruşub. Oktyabrın 19-u Füzulinin Cəmilli kəndində şəhidlik zirvəsinə ucalıb. Oktyabrın 24-də Culfa rayonunun Yaycı kənd qəbirsanlığında torpağa tapşırılıb.


O, şəhadətindən sonra da "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Sahil Ədalət oğlu** 12 iyul 1996-cı ildə Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olub.

Gizir Sahil Məmmədov 27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ müharibəsində iştirak edib. Oktyabrın 25-də Qubadlıda şəhid olur. Ağcabədi Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Şahlar Şahin oğlu** 1995-ci il noyabrın 1-də Neftçala rayonunun Ərəbqardaşbəyli kəndində anadan olub.

Baş çavuş Şahlar Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Məmmədov Şahmar Ağasəf oğlu** 1977 ci il iyul ayının 12-i Mingəçevir şəhərində anadan olub.

Məmmədov Şahmar 2020-ci il 27 sentyabrda başlanan İkinci Qarabağ müharibəsində iştirak edib və müharibənin ilk şəhidlərindən biri olub. 27 sentyabr-da başlanan döyüş əməliyyatlarında Gülüstan istiqamətində PDM-2 zirehli texnikası ilə düşmənin 1 minaatan heyətini və 3 atəş mövqeyini dəqiq atəşlə məhv edib və qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Şaiq Şükür oğlu** 26 dekabr 1999-cu ildə Gəncə şəhərində anadan olub.

Əsgər Şaiq Məmmədov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib. Noyabrın 9-da Şuşanın Daşaltı kəndi istiqamətində şəhadətə qovuşub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Saleh Mustafa oğlu** 1995-ci il fevralın 9-da Şəki rayonunun Aşağı Göynük kəndində anadan olub.

Baş çavuş Saleh Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Saleh Məmmədov oktyabrın 24-də Qubadlı döyüşləri zamanı şəhid olub. Şəki rayonunun Aşağı Göynük kəndində dəfn olunub.

Saleh Məmmədov ölümündən sonra "Vətən uğrunda", 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Samir Ramiz oğlu** 1996-cu il fevralın 10-da Göygöl rayonunda anadan olub.

Kiçik çavuş Samir Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Samir Məmmədov oktyabrın 3-də Füzuli rayon istiqamətində gedən döyüş əməliyyatlarında döyüş tapşırığını yerinə yetirərəkən düşmən tərəfindən açılan atəş zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.

**Məmmədov Səbuhi Hümbət oğlu** 1995-ci il martın 6-da Qazax rayonunun Bala Çaylı kəndində anadan olub.

Gizir Səbuhi Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib.

Səbuhi Məmmədov oktyabrın 1-də Murovdağ döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Çaylı kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Səbuhi Şakir oğlu** 1982-ci il 21-də Mingəçevir şəhərində anadan olub.

MAHHXHQ əsgər Səbuhi Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı tuşlayıcı operator kimi hərbi xidmətini yerinə yetirib. Talış-Suqovuşan istiqamətində döyüş yolu keçib.

Sentyabrın 30-da Talış-Suqovuşan döyüşləri zamanı şəhidlik zirvəsinə ucalib.

O, ölümündən sonra "Suqovuşanın azad olunması" medalı ilə təltif edildi.



**Məmmədov Səbuhi Zahid oğlu** 2000-ci il oktyabrın 17-də Tərtər rayonunda dünyaya gəlib.

Əsgər Səbuhi Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb.

Sentyabrın 28-də müharibənin qızğın dövründə Talış-Suqovuşan istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad edilməsinə görə" medalı ilə təltif edildi.



**Məmmədov Şəhriyar Müzəffər oğlu** 1999-cu il fevralın 22-də Naxçıvan şəhərində anadan olub.

Leytenant Şəhriyar Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şəhriyar Məmmədov oktyabrın 11-də Xocavənd döyüşləri zamanı şəhid olub. Naxçıvan şəhərində dəfn olunub.

Şəhriyar Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Məmmədov Sənan Tehran oğlu** 2000-ci il iyulun 27-də Göyçay rayonunun Çaxırlı kəndində anadan olub.

Əsgər Sənan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Sənan Məmmədov oktyabrın 21-də şəhid olub. Göyçay rayonunda dəfn olunub.

Sənan Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Sərxan Elxan oğlu** 1993-cü il noyabrın 4-də Yevlax rayonunun Nemətabad kəndində dünyaya gəlib.

Sərxan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb.

Oktyabrın 19-da müharibənin ən qızğın dövründə Talış-Suqovuşan istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Məmmədov Sərxan Sahil oğlu** 09.05.2001-ci ildə Daşkəsən rayonunun Qabaqtəpə kəndində dünyaya gəlib.

Əsgər Sərxan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Sərxan Məmmədov noyabrın 9-da Xocavənd rayonunda gedən döyüşdə alıdığı qəlpə yarası nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Səxavət Adıgözəl oğlu** 24 may 1991-ci ildə Ağdam rayonunun Papravənd kəndində anadan olub.

Əsgər Səxavət Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak edərək şücaət göstərib. 29 sentyabr 2020-ci ildə xidməti vəzifəsini yerinə yetirərkən əbədiyyətə qovuşub.

Noyabrın 19-da Ağdam rayonunun Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

**Məmmədov Səxavət Vahab oğlu** 1996-cı il sentyabrın 12-də Ağdam rayonunda dünyaya gəlib.

Əsgər Səxavət Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Suqovuşanın, Füzulinin, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Səxavət Məmmədov 9 noyabr 2020-ci ildə Laçın rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Ağdam Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Sinan Məhəmməd oğlu** 2000-ci il oktyabrın 9-da Bakı şəhərində anadan olub.

Əsgər Sinan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Sinan Məmmədov Vətən müharibəsində igidlik və mərdlik göstərərək 2020-ci il sentyabrın 29-da Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Məmmədov Soltan Akif oğlu** 1981-ci il iyulun 21-də Yevlax rayonunun Səmədabad kəndində anadan olub.

Polkovnik-leytenant Soltan Məmmədov 2020-ci il sentyabrın 27 başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Soltan Məmmədov oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Yevlax şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Soltan Məmmədov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Taleh Arif oğlu** 1999-cu il yanvarın 16-da Tərtər rayonunda anadan olub.

Taleh Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Taleh Məmmədov 2020-ci il sentyabrın 29-da Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

Taleh Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Məmmədov Tərlan Müşviq oğlu** 1996-cı il avqustun 31-də Sumqayıt şəhərində anadan olub.

Əsgər Tərlan Məmmədov 2020-ci il sentyabrın 21-i könüllü olaraq II-ci Vətən müharibəsinə görə yenidən xidmətə yollanıb. Sentyabrın 27-si artıq Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. Səngərdə boynundan qəlpə yaraları alaraq oktyabrın 8-si saat 1-2 radələrində qəhrəmancasına şəhid olub.

24 yaşlı şəhid Tərlan Məmmədov Abşeron rayon Saray qəsəbəsində Şəhidlər Xiyabanında dəfn olunub. Yaşadığı Hacı Zeynalabdin qəsəbəsində adına bulaq tikilib. Barelyefi vurulub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Məmmədov Tural Arif oğlu** 1995-ci il mayın 1-də Oğuz rayonunun Sincan kəndində dünyaya gəlib.

Gizir Tural Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edib. Tank komandiri kimi Ohanyan səddini aşanlardan olub.

Tural Məmmədov Suqovuşanın, Talış kəndinin azad olunması uğrundakı döyüşlərdə iki dəfə yaralanıb, həkimdən icazəsi olmasına baxmayaraq yenidən döyüşlərə qatılıb. Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olub. Oktyabrın 29-da Oğuz rayonunun Sincan kəndində dəfn olunub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Məmmədov Tural Taryel oğlu** 1999-cu il noyabrın 5-də Daşkəsən şəhərində anadan olub.

Əsgər Tural Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Məmmədov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub.

Tural Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Məmmədov Türkman Yolçu oğlu** 1998-ci ildə Gədəbəy rayonunun Hacılar kəndində anadan olub.

Əsgər Türkman Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 27-də əsgər yoldaşının qayıtmamasını görüb komandirindən xahiş edir ki, dostunun axtarışına o da getsin. Bir neçə yaralını xilas edir. Sonuncu dəfə yaralını xilas etmək istəyəndə erməni separatçılarının top, raket atəşinə məruz qalır və ağır yaralanır. Türkman Yolcu oğlu Məmmədov Füzuli-Cəbrayıl rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur.

O, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmmədov Ülvü Vüqar oğlu** 1997-ci il iyulun 29-da Quba rayonunun Alekseyevka kəndində anadan olub.

Əsgər Ülvü Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülvü Məmmədov oktyabrın 21-də Xocavənd döyüşləri zamanı şəhid olub. Quba rayonunda dəfn olunub.

Ülvü Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Ümid Bəkir oğlu** 2001-ci il avqustun 11-də Zaqatala rayonunun Bəhmətli kəndində anadan olub.

Əsgər Ümid Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Ümid Məmmədov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunda dəfn olunub.

Ümid Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Ümid Fərman oğlu** 14.03.1999-cu ildə Naxçıvan Muxtar Respublikası Babək rayonunun Nehrəm kəndində anadan olub.

Gənc leytenant Ümid Məmmədov 27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ müharibəsində iştirak edib. Oktyabr ayının 5-də Suqovuşan istiqamətində şəhid olub.

Şəhidin nəşi 18 oktyabr 2020-ci ildə Nehrəm qəsəbə şəhidliyində torpağa tapşırılıb.


O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Ürfan Çingiz oğlu** 1994-cü il iyunun 28-də Quba rayonunun Çartəpə kəndində şəhid ailəsində dünyaya göz açıb.

Gizir Ürfan Məmmədov 2020-ci sentyabr ayının 27-dən başlanan Vətən müharibəsinin ilk günündən bu döyüşlərdə iştirak edib. 28 sentyabr saat 12 radələrində sonuncu dəfə ailəsi ilə danışıb və qardaşından halallıq istəyib. 28 sentyabr saat 15:00 radələrində Talış kənddə düşmən postunda yemək yeyərkən döyüş yoldaşları ilə birlikdə düşmən pusqusuna düşüblər. Kürəyindən aldığı qəlpə yarasına baxmayaraq bir neçə saat qəhrəmancasına döyüşüb. Döyüş yoldaşından sursat almaq istəyən zaman düşmən snayperinə tuş gəlib. Boyun nahiyəsindən aldığı güllə yarasından şəhid olub. Sentyabr ayının 30-da yaşadığı Quba rayonu Çartəpə kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Məmmədov Vacib Zabit oğlu** 2001-ci il fevralın 27-də Şəmkir rayonunun Morul kəndində anadan olub.

Əsgər Vacib Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vacib Məmmədov sentyabrın 30-da Talış döyüşləri zamanı şəhidlik zirvəsinə ucalib. Şəmkir rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Vasif Əlibala oğlu** 1994-cü il, noyabrın 12-də Göyçay şəhərində anadan olub.

Əsgər Vasif Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Vasif Məmmədov noyabrın 4-də şəhid olub. Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Vasif Rəfail oğlu** 2001-ci il mayın 1-də Mingəçevirdə anadan olub.

Əsgər Vasif Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində fəal iştirak edib. İkinci Qarabağ müharibəsində Xüsusi Təyinatlının kəşfiyyatçısı olan Vasifə milli ordumuzun əsgərləri ilə birgə Füzulini düşməndən azad etmək, həm də Füzulidə bulaqdan ilk suyu içmək nəsib olub. Hadrut döyüşlərində isə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalı, "Cəsur döyüşçü", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı və "Kəlbəcərin azad edilməsinə görə" medalları ilə təltif edildi.



**Məmmədov Vidadi Etibar oğlu** 1996-ci il mayın 6-da Zaqatala rayonunun Muxax kəndində anadan olub.

Əsgər Vidadi Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Vidadi Məmmədov oktyabrın 13-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunun Muxax kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Məmmədov Vüqar Elxan oğlu** 28 mart 1991-ci ildə Göyçayda anadan olub.

Əsgər Vüqar Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Sentyabrın 30-da Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Vüqar İlqar oğlu** 1994-cü ilin 9 yanvar tarixində Sumqayıt şəhərində anadan olub.

2020-ci ilin 27 sentyabr tarixində İkinci Qarabağ müharibəsi başladıqdan sonra könüllü olaraq Füzuli rayonu istiqamətindəki döyüşlərə yollanıb.

Oktyabrın 6-da Füzuli şəhər mərkəzinin azad edilməsi uğrunda aparılan Füzuli əməliyyatının gedişatında baş verən şiddətli döyüşlər zamanı düşmən snayperinin açdığı atəş nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Vüqar Xaləddin oğlu** 1990-cı il yanvarın 23-də Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində anadan olub.

Gizir Vüqar Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Vüqar Məmmədov oktyabrın 20-də Qubadlı döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Vüsal Nəsib oğlu** 1998-ci il martın 15-də Zaqatala rayonunun Lahıc kəndində anadan olub.

Əsgər Vüsal Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Vüsal Məmmədov oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunun Lahıc kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Məmmədov Vüsal Qüdrət oğlu** 1990-cı il iyunun 3-də Füzuli rayonunda anadan olub.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin miçmanı olan Vüsal Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal Məmmədov oktyabrın 12-də Qubadlı döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Xaqani Mürşüd oğlu** 2000-ci il mayın 15-də Kürdəmir şəhərində anadan olub.

Əsgər Xaqani Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xaqani Məmmədov noyabrın 2-də Xocavənd döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Xəqani Füzuli oğlu** 2002-ci il martın 30-da Şirvan şəhərində anadan olub.

Əsgər Xəqani Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəqani Məmmədov oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədov Xəyal Ağabəy oğlu** 1986-cı il noyabrın 18-də Şəki şəhərində anadan olub.

Mayor Xəyal Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb, həmçinin döyüşlər zamanı yaralı hərbçiləri döyüş meydanından çıxararaq fərqlənib. Xəyal Məmmədov oktyabrın 20-də Qubadlı döyüşləri zamanı snayper gülləsi nəticəsində şəhid olub. Şəki şəhərində dəfn olunub.

O, ölümündən sonra sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Məmmədov Xəyal Arif oğlu** 1989-cu il fevralın 13-də İsmayıllı rayonunun Qubaxəlilli kəndində anadan olub.

Kiçik çavuş Xəyal Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərə qatılıb.

Xəyal Məmmədov oktyabrın 2-də Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub. O, Göyçay rayonunun Birinci Ərəbcəbirli kəndində dəfn olunub.


O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medaları ilə təltif edildi.



**Məmmədov Xəyal Xaliq oğlu** 2001-ci il fevralın 12-də Sumqayıt şəhərində anadan olub.

Əsgər Xəyal Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. Xəyal Məmmədov oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub. Füzuli rayonunda dəfn olunub.

Xəyal Məmmədov ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Məmmədov Yasin İman oğlu** 1998-ci il mayın 3-də Gədəbəy rayonunun Ağamalı kəndində anadan olub.

Əsgər Yasin Məmmədov 2020-ci il oktyabrın 27-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub.

Vətən torpaqlarının düşmən işğalından azad olunmasında qəhrəmanlıq göstərən bütün şəhidlərimiz kimi şəhid Yasin Məmmədovun şücaəti dövlətimiz tərəfindən yüksək qiymətləndirildi.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Yusif Vaqif oğlu** 1995-ci il yanvarın 16-da Yevlax şəhərində anadan olub.

2020-ci il sentyabrın 28-də Vətən müharibəsində iştirak etmək üçün Ağcabədidəki hərbi xidmətə yollanıb. Füzulinin Şükürbəyli və digər kəndlərinin düşmən işğalından azad edilməsində ön cəbhədə iştirak edib. 2020-ci il oktyabrın 26-da Veysəlli kəndində yerləşən 102-ci erməni postunun ələ keçirilməsində iştirak edib, Azərbaycan bayrağını posta sancıb və düşmənin ağır artilleriya atəşi nəticəsində qəlpə yarası ilə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Məmmədov Zaman Habil oğlu** 1995-ci ilin avqust ayının 3-də Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olub.

Kiçik çavuş Zaman Məmmədov müharibə başlayanda Naxçıvandan yollanan ilk xüsusi təyinatlı qüvvələrin dəstəsində döyüşlərə qatılıb. Bir çox uğurlu əməliyyatlarda iştirak edib. Füzulidən Şuşaya qədər döyüş yolu keçib. Döyüş yoldaşlarının dediyinə görə ayağından yaralanmağına baxmayaraq döyüşu davam etdirib. Və sonda 28 oktyabrda Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Doğuldugu Şahtaxtı kəndində son mənzilə yola salınıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədov Zəbiyulla Şahin oğlu** 2000-ci il aprelin 14-də Sabunçu rayonunun Maştağa qəsəbəsində anadan olub.

Əsgər Zəbiyulla Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan və Talış qəsəbələrinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zəbiyulla Məmmədov noyabrın 4-də Ağdərə istiqamətində şəhid olub. Maştağa qəsəbəsində dəfn olunub.

Zəbiyulla Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədquliyev Ağabəy Zaur oğlu** 2001-ci il iyunun 15-də Qaradağ rayonunun Korgöz qəsəbəsində anadan olub.

Əsgər Ağabəy Məmmədquliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

O, müharibə zamanı atıcı qumbaraatan köməkçisi kimi hərbi xidmətini yerinə yetirib. Talış və Suqovuşan kəndləri istiqamətində döyüş yolu keçib. Ağabəy Məmmədquliyev 2020-ci il sentyabrın 29-da həmin istiqamətdə döyüşlər zamanı şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Məmmədsalahov Kazım Sahib oğlu** 1989-cu il mayın 7-də Şəki rayonunun Qoxmuq kəndində anadan olub.

Əsgər Kazım Məmmədsalahov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Müharibə zamanı mexanik sürücü kimi hərbi xidmətini yerinə yetirən Kazım Talış və Suqovuşan istiqamətlərində döyüş yolu keçib.

2020-ci il oktyabrın 7-də Talış və Suqovuşan istiqamətlərində gedən döyüşlər zamanı şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**Məmmədyarov Mürvət Güloğlan oğlu** 1996-cı il sentyabrın 20-də Ağsu rayonunda anadan olub.

Əsgər Mürvət Məmmədyarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Mürvət Talış və Suqovuşan kəndləri istiqamətində döyüşüb. O, 2020-ci il oktyabrın 6-da həmin istiqamətdə gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Məmmədzadə Anar Nazim oğlu** 1999-cu il avqustun 3-də anadan olub.

Əsgər Anar Məmmədzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə qoşulub.

Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edib. Anar Məmmədzadə oktyabrın 8-də Füzuli döyüşlərində şəhid olub. Noyabrın 19-da Zərdab rayonunun Gəlmə kəndində torpağa tapşırılıb.


O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədzadə Bəhram Elman oğlu** 2000-ci il aprelin 18-də Lerik rayonunun Kəlvəz kəndində anadan olub.

Əsgər Bəhram Məmmədzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bəhram Məmmədzadə noyabrın 2-də Qırmızı Bazar döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Məmmədzadə Cahan Saleh oğlu** 1994-cü il avqustun 24-də İsmayıllı rayonunun Təzəkənd kəndində anadan olub.

Gizir Cahan Məmmədzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Cahan Məmmədzadə noyabrın 7-də Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.






**Məmmədzadə Əli Turan oğlu** 2002-ci il fevralın 15-də Bərdə şəhərinin Mirzəbəyli kəndində anadan olub.

Əsgər Əli Məmmədzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Kəlbəcər, Cəbrayıl, Füzuli və Şuşa rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

Əli Məmmədzadə 7 noyabr 2020-ci ildə Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində yaralanmış, 12 noyabr 2020-ci il tarixində aldığı qəlpə yarasından Silahlı Qüvvələrin Baş Klinik hospitalında şəhid olub.

Əli Məmmədzadə ölümündən sonra "Hərbi xidmətlərə görə", Vətən müharibəsi iştirakçısı, "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədzadə Elvin İlham oğlu** 1996-cı il noyabrın 22-də Samux rayonunda anadan olub.

Leytenant Elvin Məmmədzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Elvin Məmmədzadə noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Samux rayonunda torpağa tapşırılıb.

O, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədzadə Fərid Mehman oğlu** 2000-ci il avqustun 20-də Ağdaş rayonunda dünyaya gözlərini açıb.

Əsgər Fərid Məmmədzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

04.10.2020-ci ildə Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədzadə İlkin Əzizağa oğlu** 19 dekabr 1991-ci ildə Sumqayıt şəhərində anadan olub.

Baş leytenant İlkin Məmmədzadə 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak edib. 21 nəfərə yaxın yaralı hərbçini döyüş meydanından çıxardıb. 7 oktyabr 2020-ci ildə saat 10:00 radələrində Tərtər-Ağdərə istiqamətində "Tülkü Dərəsi" adlanan ərazidə açıq döyüşdə hücum zamanı qəhrəmancasına şəhid olub. 8 oktyabrda 2020-ci ildə Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Məmmədzadə İman Elman oğlu** 1998-ci il sentyabrın 13-də Lerik rayonunun Kəlvəz kəndində anadan olub.

Əsgər İman Məmmədzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İman Məmmədzadə noyabrın 2-də Qırmızı Bazar döyüşləri zamanı şəhid olub.

İman Məmmədzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Məmmədzadə Kamran Füzuli oğlu** 24 mart 1996-ci ildə Biləsuvar rayonunun Çaylı kəndində anadan olub.

Əsgər Kamran Məmmədzadə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, Cəbrayıl və Füzuli rayonları istiqamətində gedən döyüşlərdə vuruşub və düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Sentyabrın 29-da Biləsuvar rayonu Çaylı kənd məzarıstanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədzadə Mikayıl İlqar oğlu** 1994-cü il oktyabrın 10-da Sumqayıt şəhərində anadan olub.

Baş leytenant Mikayıl Məmmədzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Mikayıl Məmmədzadə sentyabrın 28-də Murovdağ döyüşləri zamanı şəhid olub. Nəşi uzun müddət döyüş meydanından götürülə bilməyib. Dekabrın 28-də Sumqayıt Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Məmmədzadə Kəmaləddin Vüqar oğlu** 1999-cu ildə sentyabrın 14-ü Bakıda anadan olub.

Əsgər Kəmaləddin Məmmədzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində işğal olunan torpaqların geri qaytarılması uğrunda döyüşüb. O, Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı, Laçın, Xocavəndin kəndləri, Şuşa şəhəri və bütün qəsəbə və yüksəkliklərin işğaldan azad edilməsində qəhrəmancasına vuruşub. Döyüşün 44-cü günü - noyabrın 9-u səhər saat $5^{00}$ radələrində Şuşa şəhərində boynundan snayperlə vurularaq qəhrəmancasına şəhid olub. Saatlı rayonunun Xələfli kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Məmmədzadə Pərviz Zahid oğlu** 2001-ci il iyulun 31-də Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində anadan olub.

Əsgər Pərviz Məmmadzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Noyabrın 6-da Xocavəndin işğaldan azad olunması uğrunda döyüşlərdə şəhid olub. Noyabrın 19-da Qaraçuq kənd məzarlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", " Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məmmədzadə Qüdrət Tofiq oğlu** 2001-ci il sentyabrın 10-da Lənkəran rayonunda dünyaya gəlib.

Qüdrət Məmmadzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Oktyabrın 16-da Goranboy rayonunun Tapqaraqoyunlu kəndinin Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.


O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarıyla təltif edildi.



**Məmmədzadə Toğrul Pərviz oğlu** 2001-ci il oktyabrın 1-də Sabirabad rayonunun Qaratəpə kəndində anadan olub.

Əsgər Toğrul Məmmədzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Toğrul Məmmədzadə oktyabrın 18-da Ağdərə istiqamətində şəhid olub. Sabirabad rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Mənəfli Əli Əflan oğlu** 2001-ci ilin oktyabrın 12-də Şirvan şəhərində dünyaya göz açıb.

Əsgər Əli Mənəfli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Cəbrayılın, Füzulinin, Hadrutun işğaldan azad olunması uğrunda gedən döyüşlərdə şücaət və cəsarət nümunələri göstərib. Noyabrın 14-də Şuşakənd yaxınlığında qəhrəmancasına şəhid olub. Qələbədən 4 gün sonra doğulub boya-başa çatdığı Şirvan şəhərində Şəhidlər Xiyabanında izdihamla dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Mənəfov Nicat Azad oğlu** 18 yanvar 2000-ci ildə Qax rayonunun Qaradolaq kəndində anadan olub.

Əsgər Nicat Mənəfovun Vətənə hərbi xidməti məhz İkinci Qarabağ müharibəsinə təsadüf edib.

O da digər Vətən oğullarımız kimi torpaqlarımızın düşmən tapdağından azad olunması üçün qəhrəmancasına döyüşüb. Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib. 4 noyabr 2020-ci ildə Şuşanın alınması uğrunda gedən döyüşlərdə isə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Mənəfov Şahmar Vidadi oğlu 1**990-cı il martın 20-də Neftçala rayonunun Cəngan kəndində anadan olub.

Kiçik gizir Şahmar Mənəfov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şahmar Mənəfov oktyabrın 21-də Xocavənd döyüşləri zamanı Qırmızı Bazar istiqamətində şəhid olub. Neftçala rayonunun Cəngan kəndində dəfn olunub.

O, ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda","Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mənsimli İntiqam Rövşən oğlu** 1998-ci il iyunun 5-də Tərtər rayonunda dünyaya gəlib.

Əsgər İntiqam Mənsimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Oktyabrın 16-da Goranboy rayonunun Tapqaraqoyunlu kəndi istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Məsimov Əkbər Yunis oğlu** 1994-cü il oktyabrın 5-də Ağdaş rayonunun Qaradeyin kəndində anadan olub.

Əsgər Əkbər Məsimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Əkbər Məsimov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı itkin düşüb.

İyunun 7-də şəhidimizin nəşi tapılıb və ailəsinə təhvil verilib.





**Məsimov Rauf Qafar oğlu** 1992-ci ildə Tovuz rayonunun Çataq kəndində anadan olub.

Əsgər Rauf Məsimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Zəngilan və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Rauf Məsimov noyabrın 9-da Xocavənd rayonu istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Tovuz rayonunun Çataq kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mərdanov Vaqif Ədalət oğlu** 2001-ci il oktyabrın 10-da Suraxanı rayonunun Hövsan qəsəbəsində anadan olub.

Əsgər Vaqif Mərdanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vaqif Mərdanov noyabrın 3-də Qubadlı döyüşləri zamanı şəhid olub. Hövsan qəsəbəsində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məstəliyev Nurəddin Hasil oğlu** 2000-ci il fevralın 13-də Qaradağ rayonu, Qızıldaş qəsəbəsində dünyaya göz açıb.

Əsgər Nurəddin Məstəliyev 2020-cil sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşə yollanıb. Cəbrayıl və Xocavənd uğrunda gedən döyüşlərdə şücaət göstərib. Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb. Döyüş meydanında düşmən snayperinin güllələsinə tuş gəlib. Aldığı xəsarətdən yerindəcə şəhidlik zirvəsinə ucalıb. Noyabrın 13-də doğulub boya-başa çatdığı Qızıldaş qəsəbəsinə gətirilib, qəsəbə sakinləri tərəfindən izdihamla qarşılanıb və təntənəli surətdə torpağa tapşırılıb.

O, ölümündən sonra Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Meydanov Elməddin Bahaddin oğlu** 11 sentyabr 1989-cu ildə Şərur rayonunun Vərməziyar kəndində anadan olub.

Kapitan Elməddin Meydanov 27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ Müharibəsində öz döyüş yoldaşları ilə qəhrəmanlıq salnaməsi yazan Elməddin 26 oktyabr 2020-ci il tarixində Zəngilan rayonunun Ağbənd qəsəbəsinin işğaldan azad olunmasında böyük şücaət göstərib, elə orada da şəhidlik zirvəsinə ucalıb. Şərur rayon Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.

**Mikayıllı Elgün Aqil oğlu** 2001-ci il mayın 13-də Masallı rayonunun Xıl kəndində anadan olub.

Əsgər Elgün Mikayıllı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elgün Mikayıllı oktyabrın 14-də Füzuli döyüşləri zamanı şəhid olub. Masallı rayonunda dəfn olunub.

Elgün Mikayıllı ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Mikayıllı Mikayıl Miğfər oğlu** 1993-cü il sentyabrın 24-də Qəbələ rayonunun Mıxlıqovaq kəndində anadan olub.

Gizir Mikayıl Mikayıllı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Mikayıl Mikayıllı sentyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub.

Mikayıl Mikayıllı ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mikayıllı Samir Sabir oğlu** 1993-cü il yanvarın 1-də Ağcabədi rayonunun Salmanbəyli kəndində anadan olub.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin kapitanı olan Samir Mikayıllı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Samir Mikayıllı noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Ağcabədi rayonunda dəfn olunub.

Samir Mikayıllı ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mikayılov Azər Əmrah oğlu** 1980-ci il avqustun 1-də Kəlbəcər rayonunun Quzeyçirgin kəndində anadan olub.

Mayor Azər Mikayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Azər Mikayılov oktyabrın 12-də Cəbrayıl döyüşləri zamanı şəhid olub.

Azər Mikayılov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Mikayılov Cəbrayıl Valeh oğlu** 2000-ci il sentyabrın 22-də Bakı şəhəri Nəsimi rayonunda anadan olub.

Əsgər Cəbrayıl Mikayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cəbrayıl Mikayılov oktyabrın 9-da Füzuli döyüşləri zamanı şəhid olub. Masallı rayonunda dəfn olunub.

Cəbrayıl Mikayılov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mikayılov Elvin Nizami oğlu** 1986-cı il avqustun 1-də Göyçay rayonunun Alpout kəndində anadan olub.

Əsgər Elvin Mikayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Talış kəndi və Suqovuşan yaşayış məntəqəsi uğrunda savaşıb. Elvin Mikayılov oktyabrın 15-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Göyçay rayonunda dəfn olunub.

Elvin Mikayılov ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın" azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Mikayılov Nahid Sovqat oğlu** 1982-ci il aprelin 25-də Kürdəmir rayonunun Şilyan kəndində dünyaya göz açıb.

Baş gizir Nahid Mikayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində ön xətdə düşmənlə üz-üzə döyüşən igidlərimizdən biri olub. Bir neçə rayonumuzun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. Lakin təəssüflər olsun ki, düşmən mərmisi gizir Mikayılovu hədəf alıb və o ağır qəlpə yaralarından həyatını itirib, şəhid olub. Şəhidimizin nəşi doğulduğu Kürdəmir rayonuna gətirilib və Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı", "Ağdamın azad olması medalları ilə təltif edildi.



**Mikayılov Rahim Qalib oğlu** 1990-cı il 3 sentyabr tarixində Quba rayonunun İkinci Nügədi kəndində doğulub.

Baş leytenant Rahim Mikayılov 2020-ci il 27 sentyabrda başlanan İkinci Qarabağ Müharibəsinin ilk günlərində Murov-Kəlbəcər istiqamətində gedən şiddətli döyüşlərdə böyük şücaət göstərib və Murov zirvəsinin azad olunmasında iştirak edib.

Senyabrın 27-də Kəlbəcərin Camışdağ zirvəsində şəhid olan hərbçimizin nəşi 117 gündən sonra tapılaraq Quba rayonuna gətirilib və doğulduğu İkinci Nügədi kəndində torpağa tapşırılıb.

Rahim şəhid olandan sonra oğlu Əhməd doğuldu. Oğlunun üzünü görməyən şəhid Rahim Mikayılov İkinci Nügədi kəndinin İkinci Qarabağ müharibəsində sayca dördüncü şəhididir.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Mikayılov Ramiq Namiq oğlu** 1993-cü il yanvarın 25-də Şamaxı rayonunun Ovçulu kəndində anadan olub.

Baş leytenant Ramiq Mikayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Ramiq Mikayılov sentyabrın 30-da Xocavənd döyüşləri zamanı şəhid olub. Şamaxı rayonunun Ovçulu kəndində torpağa tapşırılıb.

Ramiq Mikayılov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Şöhrət İkram oğlu Mikayılov** 26 fevral 2002-ci il Qəbələ rayonunun Zərgərli kəndində anadan olub.

Əsgər Şöhrət Mikayılov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Şöhrət Mikayılov 31 oktyabr 2020-ci ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Şöhrət Mikayılov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Mikayılzadə Mikayıl Vidadi oğlu** 1992-ci il yanvarın 4-də Beyləqan rayonunun Şərq qəsəbəsində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının kiçik çavuşu olan Mikayıl Mikayılzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mikayıl Mikayılzadə noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Mikayıl Mikayılzadə ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mikayılzadə Rəşad İlham oğlu** 30 sentyabr 1995-ci ildə Lerik rayonunun Camaşəir kəndində anadan olub.

Kiçik gizir Rəşad Mikayılzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq Füzulinin və Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə vuruşub. Noyabrın 9-da Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə komandirini xilas edərkən snayperlə açılan atəş nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Mirəşrəfbəyli Mirsəfa Mirbaba oğlu** 27 iyul 1994-cü ildə Cəlilabad rayonunun Badamağac kəndində doğulub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Mirsəfa Mirəşrəfbəyli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mirsəfa Mirəşrəfbəyli Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhid olub. Cəlilabad rayonunda dəfn olunub.

Mirsəfa Mirəşrəfbəyli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mirişli Şəhriyar Bəxtiyar oğlu** 1 mart 2002-ci ildə Biləsuvar şəhərində anadan olub.

Əsgər Şəhriyar Mirişli 27 sentyabr 2020-ci il tarixdən başlanan Vətən müharibəsində Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad edilməsində fəal iştirak edib.

Oktyabrın 21-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub. Oktyabrın 23-də Biləsuvar şəhər məzarıstanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Miriyev Sənan Arif oğlu** 1998-ci il mart ayının 1-də Beyləqan rayonunun Allahyarlı kəndində anadan olub. Xocalı şəhər sakinidir.

Əsgər Sənan Miriyev 2020-ci il tarixdən başlanan Vətən müharibəsində iştirak edib. Talış kəndi və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub.

Sənan Miriyev Tərtər rayonunun Talış kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirilməsi zamanı şəhid olub. Sentyabrın 28-i Ağcabədi Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Mirzəli Rəşad Hafiz oğlu** 1995-ci il mayın 26-da Tərtər rayonunun Hacıqərvənd kəndində anadan olub.

Gizir Rəşad Mirzəli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış kəndi və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Rəşad Mirzəli oktyabrın 1-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Mirzəliyev Aqil Mehman oğlu** 1999-cu il avqust ayının 27-də İsmayıllı rayonunda anadan olub.

Əsgər Aqil Mirzəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Müharibə dövründə ailəsindən döyüşlərdə olduğunu gizlin saxlamağa çalışıb. Telefon danışıqlarının birində anasına "Murovu biz almışıq" deyib. Ailəsi Aqilin döyüşlərdə olduğunu belə öyrənib. Aqil Mirzəliyev Murov, Hadrut, Xocavənd, Cəbrayıl, Füzuli istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Aqil Mirzəliyev 20 oktaybr 2020-ci ildə Xocavənd rayonunun Tuğ kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub və oktyabr ayının 23-ü Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mirzaliyev Kamal Əjdər oğlu** 1996-cı il avqustun 30-u Şamaxının Çarhan kəndində anadan olub.

Əsgər Kamil Mirzəliyev 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ savaşı başlayanda könüllü olaraq cəbhəyə gedib və kəşfiyyat bölüyündə xidmət edib.

Talış kəndi və strateji əhəmiyyətli Suqovuşan istiqamətində gedən döyüşlərdə yaralansa da, tibbi yardım aldıqdan sonra özünün qətiyyətli təkidi ilə yenidən ön cəbhəyə qayıdıb. Orada yaralı əsgər yoldaşlarını döyüş meydanından çıxaran zaman düşmənin artilleriya zərbəsi nəticəsində qəhrəmancasına şəhid olub. Lökbatandakı Şəhidlər Xiyabanında uyuyur.



**Mirzəyev Araz Namiq oğlu** 2002-ci il yanvarın 19-da Lənkaran rayonunun Şağlasır kəndində anadan olub.

Əsgər Araz Mirzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 10 oktyabrda Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Laçının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Mirzəyev Aslan Maqsud oğlu** 2000-ci il iyulun 17-də Kəngərli rayonunun Xok kəndində anadan olub.

Əsgər Aslan Mirzəyev 27 sentyabrda başlanan və 44 gün davam edən II Qarabağ müharibəsində XTQ-nin sıralarında Qarabağa yollanmaq üçün könüllü olur. 10 oktyabrda Xüsusi Təyinatlı Qüvvələrin sıralarında Qarabağa yollanır. Həmin döyüşlərdə iki dəfə yaralanmasına baxmayaraq, döyüş yoldaşlarını tək buraxmayıb və düşmənə ağır zərbələr endirərək yenə də döyüşə davam edib. Noyabrın 8-də düşmənin atdığı minamyot nəticəsində qəlpə yarası alaraq gözlərini əbədi yumub. 13 noyabrda doğulduğu Xok kəndində son mənzilə yola salınıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Mirzəyev Elçin Maqsud oğlu** 31 iyul 1985-ci ildə Tərtər rayonunun Qərvənd kəndində dünyaya gəlib.

Əsgər Elçin Mirzəyev 2020-ci il sentyabrın 27-də başlanan İkinci Vətən müharibəsinin ilk günündən döyüşlərdə olub, ağır döyüşlərdən birində yaralanıb və oktyabrın 10-da, təxminən 12-nin yarısı radələrində Tərtər-Ağdərə-Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Nəşi 3 gün sonra Yevlax şəhər Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mirzəyev Elmar Şahin oğlu** 1995-ci il mayın 1-də Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olub.

Baş leytenant Elmar Mirzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ döyüşlərində, həmçinin Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elmar Mirzəyev oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunda dəfn olunub.

Elmar Mirzəyev ölümündən sonra "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı; "İgidliyə görə", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Vətən iştirakçısı" medalları ilə təltif edildi.



**Mirzəyev Elmin Əvəz oğlu** 1995-ci il fevralın 20-də Xocavənd rayonunda anadan olub. Əslən Xocavənd rayonunun Əmiranlar kəndindən idi.

Çavuş Elmin Mirzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elmin Mirzəyev oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub.

Elmin Mirzəyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mirzəyev Eltac Füzuli oğlu** 2000-ci il avqustun 18-də Tovuz rayonunun Məşədilər kəndində anadan olub.

Əsgər Eltac Mirzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Eltac Mirzəyev noyabrın 6-da Xocavənd döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Məşədilər kəndində dəfn olunub.

Eltac Mirzəyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Mirzəyev Eltun Vüqar oğlu** 1998-ci il yanvarın 2-də Minbaşı kəndində dünyaya gəlib.

Əsgər Eltun Mirzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Qubadlı istiqamətində döyüşlərə qatılıb. O, Qubadlı uğrunda gedən ağır döyüşlərin birində ayağından yaralansa da geri çəkilmədən döyüşləri davam etdirib. Elə həmin gün – 30 oktyabr 2020-ci ildə şəhidlik zirvəsinə yüksəlib. Oktyabr ayının 12-də Qarağac kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda, "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mirzəyev Elyar Cəlal oğlu** 1984-cü il senytabrın 6-da Beyləqan rayonunun Bahar qəsəbəsində dünyaya gəlib.

Əsgər Elyar Mirzəyev 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsində döyüşlərə ilk olaraq Füzuli istiqamətindən başlayıb. Füzuli, Cəbrayıl və Ağoğlan (Hadrut) istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. Daim düşmənin hədəfində olan qəhrəman pulemyotçumuz oktyabrın 14-də səhər saatlarında Ağoğlan istiqamətində yerləşən Şaban dağının ətəklərində başlanan açıq döyüşdə snayper gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalıb. Oktyabrın 16-da Bahar qəsəbəsində Vətən torpağına tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mirzəyev Hüseyn Elsevər oğlu** 19 iyul 2001-ci ildə Gəncə şəhərində doğulub.

Əsgər Hüseyn Mirzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. 12 oktyabr 2020-ci ildə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub.

Şəhid sonuncu dəfə ailəsi ilə oktyabrın 11-də danışıb. Həmin vaxtdan bir daha əsgərin taleyi barədə heç kim məlumat əldə edə bilməyib. 21 dekabrda Hüseynin şəhid olduğu məlum olub. Dekabrın 22-də Gəncənin Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Mirzəyev İbad Mənsur oğlu** 1999-cu il aprelin 25-də Ağsu rayonunun Kəndoba kəndində anadan olub.

Əsgər İbad Mirzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı ön cəbhəyə yollanıb. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan istiqamətlərində gedən ağır döyüşlərdə fədakarlığı ilə seçilib. Cəbhə yoldaşları İbadın 20-dək düşmən əsgərini məhv etdiyini bildiriblər.

Oktyabrın 20-də Füzulinin işğaldan azad edilməsi uğrunda gedən ağır döyüşlər zamanı düşmən snayperinin gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Oktyabrın 21-də Ağsunun Kəndoba kənd qəbiristanlığında torpağa tapşırılıb.

Cəsur döyüşçümüz göstərdiyi igidliyə görə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Mirzəyev Kamran Araz oğlu** 1996-cı il yanvarın 5-də Cəlilabad rayonunun Qarğılı kəndində anadan olub.

Əsgər Kamran Mirzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Kamran Mirzəyev Füzuli döyüşləri zamanı şəhid olub. Oktyabrın 30-da doğulduğu Qarğılı kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Mirzəyev Məsud Fazil oğlu** aprelin 9-u 2002-ci ildə Hacıqabul rayonunda dünyaya gəlib.

Əsgər Məsud Mirzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Oktyabrın 10-u müharibənin qızğın dövründə Talış-Suqovuşan istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Mirzəyev Nuran Akif oğlu** 27 iyul 1999-cu ildə Quba rayonunun Dağlı kəndində ləzgi ailəsində anadan olub.

Əsgər Nuran Mirzəyev 28 sentyabr 2020-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən səfərbərliyə çağırılıb və 29 sentyabr 2020-ci ildə Vətən müharibəsinə yollanıb. 19 oktyabr 2020-ci ildə Füzuli, Cəbrayıl, Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 21 oktyabr 2020-ci ildə Quba rayonunun Qımıl kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Mirzəyev Orxan Əli oğlu** 12 iyul 2001-ci ildə Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olub.

Orxan Mirzəyev 27 sentyabr 2020-ci il tarixdə başlanan Vətən müharibəsində iştirak edib, Laçın rayonu istiqamətində gedən döyüşlərdə şücaət göstərib və düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Noyabrın 2-də Biləsuvar rayonu Aşağı Cürəli kənd məzarıstanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Mirzəyev Orxan Mehman oğlu** 1993-cü il sentyabrın 15-də Biləsuvar rayonunun Zəhmətabad kəndində anadan olub.


Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Orxan Mirzəyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Mirzəyev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. 10 noyabr 2020-ci il tarixində Biləsuvar rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mirzəyev Rasim Fəttah oğlu** 1998-ci ildə Lənkəranın ucqar dağ kəndi Gəgiranda doğulub. Vətən müharibəsi başlayan gündən ordu sıralarına çağırılan 22 yaşlı cəsur əsgərimizin döyüş yolu Füzulidən başlayır. Cəbrayıl və Qubadlının azad olunması uğrunda qəhrəmancasına vuruşan Rasimin sonuncu döyüşü oktyabrın 19-da olur. Qubadlı istiqamətində adsız yüksəklikləri işğalçılardan azad edən rəşadətli Ordumuzun əsgəri Rasim qəhrəmancasına şəhid olur. Vətən müharibəsində 25 gün igidliklə vuruşan Rasim döyüşə girdiyi hər günü şəxsi kitabçasında qeydə alır. Şəhidin atası Fətta Xosrovov: "Cibində gəzdirdiyi şəxsi kitabçasında iştirak etdiyi döyüşləri yazıb. Kitabçaya oktyabrın 19-dək qeydlər edib. Həmin gündən sonra vərəqlər qeydsiz idi. Ondan bildim ki, elə həmin gün oğlum qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mirzəyev Şamil Afiq oğlu** 1996-cı il martın 2-də Yardımlı şəhərində anadan olub.

Əsgər Şamil Mirzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Şamil Mirzəyev noyabrın 10-da şəhid olub. Yardımlı şəhərində dəfn olunub.

Şamil Mizəyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Mirzəyev Şirzad Mirzə oğlu** 1996-cı il avqustun 1-də Göygöl şəhərində anadan olub.

Əsgər Şirzad Mirzəyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə şücaətlə savaşıb.

Şirzad Mirzəyev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Şəhid Göygöl şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Mirzəyev Sarvan Əli oğlu** 1 yanvar 1995-ci ildə Yardımlı rayonunun Zevin kəndində anadan olub.

Əsgər Sarvan Mirzəyev 27 sentyabr 2020-ci il tarixdən başlanan İkinci Qarabağ müharibəsində iştirak edib, Şuşa istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Noyabrın 11-də Biləsuvar rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mirzəyev Ülvi Üzeyir oğlu** 2000-ci il may ayının 10-da Siyəzən rayonunun Yenikənd kəndində anadan olub.

Əsgər Ülvi Mirzəyev 27 sentyabr 2020-ci il tarixdən başlanan İkinci Qarabağ müharibəsi zamanı Vətənin çağırışına biganə qalmayaraq müharibənin ilk günündən döyüşlərdə iştirak edib. Ata-ananın tək oğul övladı olan Ülvi oktyabr ayının 5-də Füzulinin Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Misirli Fərid Eldəniz oğlu** 2001-ci il yanvarın 1-də Füzuli rayonu Yuxarı Kürdmahmudlu kəndində anadan olub.

Əsgər Misirli Fərid 27 sentyabr 2020-ci il tarixdən başlanan İkinci Qarabağ müharibəsində qəhrəmanlıqla döyüş əməliyyatlarında iştirak edir. Oktyabrın 8-də şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Möhsümov Elmar Rövşən oğlu** 1997-ci il dekabrın 3-də Kəngərli rayonunun Xok kəndində anadan olub.

Leytenant Elmar Möhsümov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elmar Möhsümov sentyabrın 29-da Suqovuşan döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.

**Mollaçiyev Əhməd Rəcəb oğlu** 1997-ci il noyabrın 2-də Balakən rayonunun Mollaçıbinə kəndində anadan olub.

Əsgər Əhməd Mollaçiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib.

Əhməd Mollaçiyev oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Mollaçıbinə kəndində torpağa tapşırılıb.

Əhməd Mollaçiyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mollayev İslam Şəmsəddin oğlu** 1996-cı il yanvarın 18-də Balakən rayonunun Püştətala kəndində anadan olub.

Əsgər İslam Mollayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib.

İslam Mollayev oktyabrın 13-də Ağdərə döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Püştətala kəndində torpağa tapşırılıb.

İslam Mollayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Mönsümzadə Orxan Səfiyar oğlu** 993-cü il sentyabrın 17-də Ağdam rayonunun Birinci Baharlı qəsəbəsində anadan olub.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Orxan Mönsümzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində savaşıb. Topçu olan Orxan Mönsümzadə sentyabrın 28-də Ağdam istiqamətində şəhid olub.


Orxan Mönsümzadə ölümündən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mövlanov Altay Tahir oğlu** 2000-ci il avqustun 5-də Lerik şəhərində anadan olub. Qardaşı Elgün Mövlanov da Vətən müharibəsində şəhid olub.

Əsgər Altay Mövlanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Altay Mövlanov oktyabrın 18-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.





**Mövlanov Elgün Tahir oğlu** 2002-ci il aprelin 5-də Lerik şəhərində anadan olub. Qardaşı Altay Mövlanov da Vətən müharibəsində şəhid olub.

Əsgər Elgün Mövlanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Sentyabrın 30-da şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Mövlanov Vüqar Tumarxan oğlu** 10 dekabr 1994-cü ildə Lerik rayonunun Günəşli kəndində anadan olub. 2020-ci il 27 sentyabrda başlanan II Qarabağ müharibəsində iştirak etmək istəyən Vüqar həmin ayın 27-də könüllü olaraq Lerik rayonunun hərbi komissarlığında qeydiyyatdan keçib və müharibəyə yollanıb. Füzuli, Hadrut və Şuşa uğrunda gedən ağır döyüşlərdə böyük şücaət və qəhrəmanlıqlar göstərib. Düşmənə sarsıdıcı zərbələr endirən və xeyli sayda canlı qüvvəsini məhv edən qəhrəman Vüqar Mövlanov noyabrln 7-də Şuşa uğrunda gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidin nəşi doğulduğu Lerik rayonunun Günəşli kəndinə gətirilib və böyük izdihamla kənd qəbiristanlığında torpağa tapşırılıb. O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə","Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mövsümov Fərid Zakir oğlu** 1987-ci ildə Göycay rayonunda anadan olub. Cəbhəyə könüllü olaraq yollanıb.

Əsgər Fərid Mövsümov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Fərid Mövsümov oktyabrın 30-da şəhid olub. Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Mövsümov Səyyad Mübariz oğlu** 2000-ci il noyabrın 5-də Salyan şəhərində anadan olub.

Əsgər Səyyad Mövsumov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı pulemyotçu kimi hərbi xidmətini yerinə yetirib. Talış-Suqovuşan istiqamətində döyüş yolu keçib.

Sentyabrın 28-də Talış-Suqovuşan uğrunda gedən döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**Muradlı İlkin İlyas oğlu** 1995-ci il sentyabrın 27-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda dünyaya göz açıb. Tovuz döyüşləri zamanı təyinatını döyüş bölgəsinə alan İlkin İkinci Qarabağ xidmətini burada davam etdirir. Baş leytenant İlkin Muradlı Murov yüksəkliyinin, Hadrutun, Şuşanın işğaldan azad olunması uğrunda şücaət göstərib. Şuşanın azad olunmasında xüsusi təyinatlı dəstənin tərkibində çox ağır döyüş sınaqlarından keçib. İlkin Muradlının döyüşdüyü dəstə 8 noyabr Şuşa azad olunandan sonra Kəlbəcər istiqamətinə irəliləyir. O, noyabrın 9-u davam edən döyüşlərdə bədəninin müxtəlif yerlərindən qəlpə yarası alaraq Kəlbəcər yaxınlığında şəhid olub. 26 noyabr 2020-ci ildə Şahbuz rayon məzarlığında dəfn olunub. Muradlı İlkin ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Muradlı Tacir Hasil oğlu** 2000-ci il sentyabrın 25-də Beyləqan rayonunun Mil qəsəbəsində anadan olub.

Əsgər Tacir Muradlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. O, həmdə 2-ci Ordu Korpusunun Komandir müavini – Qərargah rəisi Şükür Həmidovun şəxsi mühafizə heyətinin üzvü idi. Tacir Muradlı oktyabrın 22-də Qubadlı döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunda dəfn olunub.

Tacir Muradlı ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Muradov Elcan Eldəniz oğlu** 3 iyul 2001-ci ildə Gəncə şəhərində doğulub.

Əsgər Elcan Muradov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, "N" saylı hərbi hissənin əsgəri kimi Füzuli uğrunda gedən döyüşlərdə yer alıb.

Oktyabrın 1-də Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb. Şəhidin nəşi bir müddət neytral zonada qaldıqdan sonra götürülüb. Noyabrın 9-da Gəncə şəhərinin Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Muradov Elgün Etibar oğlu** 26 aprel 1998-ci ildə Şabran rayonunun Daşlıyataq kəndində anadan olub.

2020-ci ilin iyul ayında baş verən Tovuz döyüşlərindən sonra Əsgər Elgün Muradov da adını könüllülər sırasına yazdırıb. Sentyabrın 29-da Vətən Müharibəsinə çağırılıb. Könüllü əsgər Elgün Muradov Cəbrayılın, Füzulinin, Hadrutun azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub və fəal iştirak edib. Oktyabrın 21-də Füzuli rayonunun Gecəgözlü kəndi istiqamətində gedən döyüşlərdə şəhid olub. Oktyabrın 30-da Şabran rayonunun Daşlıyataq kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Muradov Elxan Murad oğlu** 15 may 2001-ci ildə Sabirabadda doğulub.

Əsgər Elxan Muradov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı elə hərbi hissədə onunla birgə xidmət edən əsgər yoldaşları ilə bərabər Vətən qarşısında borcunu döyüş meydanında ödəməyə başlayıb.

Oktyabrın 8-də Füzuli uğrunda gedən qanlı döyüşlərin birində şəhadətə yetişib və Əhmədabad kənd qəbristanlığında dəfn edilib.

O, ölümündən sonra isə "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Muradov Emin İbrahimağa oğlu** 1986-cı il fevralın 27-də Lənkəran rayonunun Biləsər kəndində anadan olub.

Əsgər Emin Muradov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub.

Oktyabrın 22-də Qubadlı istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Muradov Habil Tahir oğlu** 12 mart 2002-ci ildə Neftçala rayonu Beştalı kəndində anadan olub.

Əsgər Habil Muradov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Hüseyn Fərhad oğlu Muradov** 1994-cü il mayın 10-da Saatlı rayonu Cəfərxan kəndində anadan olub.


Əsgər Hüseyn Muradov Qarabağ Vətən Müharibəsi başlamazdan bir neçə gün öncə sentyabrın 21-də Müdafiə Nazirliyinin çağırışı ilə ehtiyatda olan hərbçi kimi təlimlərdə iştirak etmək üçün hərbi hissəyə yola düşüb. 27 sentyabrda Füzuli istiqamətində başlayan döyüşlərə şücaətlə qatılıb. Qarabağ Vətən Müharibəsində pulemyotçu kimi döyüşüb. Dəfələrlə döyüşlərdə böyük qəhrəmanlıqlar göstərib. Oktyabrın 8-də Hadrut uğrunda döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Muradov Kənan Cavid oğlu** 2002-ci il iyulun 16-da Balakən rayonunun Gərəkli kəndində anadan olub.

Əsgə Kənan Muradov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Kənan Muradov oktyabrın 6-da Cəbrayıl döyüşləri zamanı şəhid olub. Balakən Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Kənan Muradov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Muradov Nadir Əhməd oğlu** 1996-cı il noyabrın 18-də Göygöl rayonunun Gəncə qəsəbəsində anadan olub.

Əsgər Nadir Muradov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Nadir Muradov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 12 yanvar 2021-ci ildə dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda"medalı ilə təltif edildi.



**Muradov Samir Tahir oğlu** 1995-ci ilin dekabr ayının 30-da Siyəzən şəhərində anadan olub.

Əsgər Samir Muradov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı  Füzuli və Cəbrayıl rayonları uğrunda gedən döyüşlərin iştirakçısı olub. Oktyabr ayının 22-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə öz şirin canını Vətənə fəda edərək şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Muradov Siyavuş Akif oğlu** 1991-ci il avqustun 5-də Beyləqan rayonunda anadan olub.

Baş leytenant Siyavuş Muradov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Siyavuş Muradov oktyabrın 25-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Siyavuş Muradov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Muradov Turan Vaqif oğlu** 5 dekabr 1994-cü ildə Zərdab rayonu Körpükənd kəndində anadan olub.

Gizir Turan Muradov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı manqa komandiri kimi hərbi xidmətini yerinə yetirib. Talış-Suqovuşan kəndi istiqamətində döyüş yolu keçib.

Oktyabrın 14-də Talış-Suqovuşan kəndi istiqamətində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlər zamanı hərbi əməliyyatda düşmən tərəfindən açılan odlu silahla törənmiş zədələnmə nəticəsində şəhid olub.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.




**Muradov Vüsal Cəsarət oğlu** 1999-cu il mayın 19-da Sumqayıt şəhərində anadan olub. Əslən Ağdam rayonunun Qasımbəyli kəndindən idi.

Kiçik leytenant Vüsal Muradov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal Muradov oktyabrın 29-da Xocavənd döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Vüsal Muradov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Muradov Vüsal Əlifağa oğlu** 1985-ci il fevralın 2-də Cəlilabad rayonunun Babaxanlı kəndində anadan olub.

MAHHXHQ əsgər Muradov Vüsal Əlifağa oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

MAXE əsgər Vüsal Muradov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Muradov Ziyad Muradxan oğlu** 1991-ci il fevralın 3-də Nərimanov rayonunda anadan olub.


Çavuş Ziyad Muradov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ziyad Muradov oktyabrın 20-də Hadrut döyüşləri zamanı şəhid olub. Nərimanov rayonunda dəfn olunub.

Ziyad Muradov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Mürsəliyev Anar Səfər oğlu** 21 noyabr 2001-ci ildə Xaçmaz şəhərində anadan olub.

Əsgər Anar Mürsəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Anar Mürsəliyev 22 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. 25 oktyabrda torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mürsəliyev Sübhi Balamirzə oğlu** 1979-cu il dekabrın 28-də İsmayıllı rayonunda anadan olub.

Mayor Sübhi Mürsəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sübhi Mürsəliyev sentyabrın 30-da Suqovuşan döyüşləri zamanı şəhid olub. İsmayıllı rayonunda dəfn olunub.

Sübhi Mürsəliyev ölümündən sonra "Vətən uğrunda" medalı, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi.



**Mürsəlzadə Elməddin Cəsur oğlu** avqustun 7-si 2000-ci ildə Samux rayonunun Əhmədbəyli kəndində anadan olub.

Elməddin döyüşlərə könüllü yollanıb. Vəzifəsi kəşfiyyatçı-radiotelefonçu idi. 2020-ci ilin oktyabrın 15-dən 16-na keçən gecə Cəbrayıl uğrunda gedən döyüşlərdə iştirak edərək qəhrəmancasına şəhid olub.

Ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Murtuzayev Toğrul Tahir oğlu** 1997-ci il noyabrın 1-də Ağdam rayonunun Quzanlı qəsəbəsində anadan olub.

Əsgər Toğrul Murtuzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Toğrul Murtuzayev sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Ağdam rayonunda dəfn olunub.

Toğrul Murtuzayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Murtuzəliyev Xəqani İsa oğlu** 1984-cü il oktyabrın 11-də Zaqatala rayonunun Qımır kəndində anadan olub.

Kiçik çavuş Xəqani Murtuzəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəqani Murtuzəliyev oktyabrın 20-də Füzuli döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunun Qımır kəndində dəfn olunub.

Xəqani Murtuzəliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Murtuzov Mehdi Muxtar oğlu** 1997-ci il iyul ayının 10-da Quba rayonun Alpan kəndində anadan olub.

Əsgər Mehdi Murtuzov 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlanan zaman döyüşlərə yollanıb. Sentyabrın 29-da qolundan yaralanmasına baxmayaraq öz təkidi ilə yenidən döyüşlərə qatılıb. Murovdağ-Kəlbəcər istiqamətində gedən ağır döyüşlər nəticəsində oktyabr ayının 2-də snayper atəşi nəticəsində şəhadətə ucalıb. Qızğın döyüşlərin getməsi səbəbindən Mehdinin nəşini ərazidən götürmək mümkün olmayıb. 23 noyabr 2020-ci ildə döyüş bölgəsindən çıxarmağa nail olunub. Mehdi doğulub böyüdüyü Alpan kəndində, 24 noyabr tarixində Subaba qəbiristanlığında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə","Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Murtuzov Məhəmməd Ramazan oğlu** 2002-ci il iyunun 24-də Balakən rayonunun Xalatala kəndində anadan olub.

Əsgər Məhəmməd Murtuzov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Məhəmməd Murtuzov oktyabrın 9-da Füzuli döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Xalatala kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Musaoğlu Ataməli Seyidməmməd oğlu** 1995-ci il martın 5-də Bakının Lökbatan qəsəbəsində anadan olub.

Azərbaycan Silahlı Qüvvələrinin Baş Kəşfiyyatçısı olan Ataməli Musaoğlu 2020-ci il oktyabrın 16-da Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Ağdərənin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ataməli Musaoğlu oktyabrın 16-da Ağdərə döyüşləri zamanı şəhid olub. Lökbatan rayonunda Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edildi.

**Mustafayev Elnur Nəcəf oğlu** 9 fevral 2002-ci ildə Bakı şəhərində anadan olub.

Əsgər Elnur Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Şuşa istiqamətindəki döyüşlərdə iştirak edib. Oktyabrın 30-da Qırmızı Bazar istiqamətindəki şiddətli döyüşlərə qatılıb. Şəhid silahdaşının döyüş meydanında qalan nəşini gətirərkən xain düşmənin gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalıb. Oktyabrın 31-də Elnur böyük izdihamla Sulutəpədə yerləşən Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mustafayev Elvin Fəxrəddin oğlu** 1992-ci il martın 14-də Gəncə şəhərində anadan olub.

Əsgər Elvin Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Elvin Mustafayev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Onun nəşi uzun müddət tapıla bilməyib. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunub. O, Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu – əsgər kimi xidmət edib.

Elvin Mustafayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Musayev Alik Rafiq oğlu** 1987-ci il avqustun 7-də İmişli rayonunun Sarıxanlı kəndində anadan olub.

Baş çavuş Alik Musayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Alik Musayev oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub. İmişli rayonunda dəfn olunub.

Alik Musayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Musayev Bayram Mehman oğlu** 20 mart 2001-ci il Qasımbəyli kəndində dünyaya gəlib.

Əsgər Bayram Musayev 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlanan kimi hərbi hissədən birbaşa cəbhəyə yollanıb. Cəbrayıl uğrunda döyüşlərdə fəal iştirak edən Bayram 7 oktyabarda elə həmin ağır döyüşlərin birində də şəhid olub. Yuxarı Axtaçı kənd qəbristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı", "Ağdamın azad olmasına görə" medalları ilə təltif edildi.





**Musayev Elşən Hüseyn oğlu** 21 iyun 1988-ci ildə Ağsu rayonunda anadan olub.

Kiçik çavuş Elşən Musayev 27 sentyabr 2020-ci il tarixində başlanan II Qarabağ müharibəsində Cəbrayıl uğrunda gedən şiddətli döyüşlərdə iştirak edib və düşmənin 14 postunu məhv edib. Düşmənə sarsıdıcı zərbələr endirən və xeyli sayda canlı qüvvəsini məhv edən qəhrəman Elşən 30 oktyabr 2020-ci ildə Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidimizin nəşi yaşadığı Bakı şəhəri, Qaradağ rayonu, Müşviqabad qəsəbəsinə gətirilib və orada torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Musayev Ələkbər Ələvsət oğlu** 1999-cu il iyunun 16-da Cəlilabad rayonunun Mollalı kəndində anadan olub.

Əsgər Ələkbər Musayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Ələkbər Musayev sentyabrın 29-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Onun nəşi uzun müddət tapıla bilməyib. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunub. 2021-ci il aprelin 27-də nəşi tapılıb və Cəlilabad rayonunun Mollalı kəndində dəfn olunub.

Ələkbər Musayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Murad Polad oğlu Musayev** 2001-ci il oktyabr 1-də Mingəçevir şəhərində dünyaya gəlib.

Əsgər Murad Musayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Murad Musayev 28 sentyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Musayev Niyaməddin Zirəddin oğlu** 1997-ci il martın 10-da Şəmkir rayonunun Mahmudlu kəndində anadan olub.

Əsgər Niyaməddin Musayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Niyaməddin Musayev oktyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunun Mahmudlu kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Musayev Ramil Aydın oğlu** 1991-ci il mayın 6-da İsmayıllı şəhərində anadan olub.

Kiçik gizir Ramil Musayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ramil Musayev oktyabrın 3-də Cəbrayıl döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Musayev Ramiz Kamil oğlu** 1989 cu il avqustun 2-də Hacıməlik kəndində anadan olub.

MAHHXHQ əsgər Ramiz Musayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murov zirvəsinin və Kəlbəcər rayonun alınmasında iştirak edib. Noyabrın 25-də Kəlbəcərdə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Musayev Rəşadət Vüqar oğlu** 2002-ci il 20 iyun tarixində Şəki rayonunun Baş Göynük kəndində anadan olub.

Əsgər Rəşadət Musayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli, Xocavənd və Qubadlı istiqamətində gedən döyüşlərdə olub. Rəşadət Musayev oktyabrın 25-də Qubadlı istiqamətində gedən döyüşlər zamanı şəhid olub.

Rəşadət Musayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Musayev Rüfət Ülfət oğlu** 2001-ci il oktyabrın 8-də Şəki rayonunda dünyaya gəlib.

Əsgər Rüfət Musayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb.

Oktyabrın 24-də Talış-Suqovuşan istiqamətində döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.





**Musayev Sahib Musa oğlu** 1984-cü il iyulun 21-də Qax rayonunun Şotavar kəndində anadan olub.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin "Su Altı Hücum" (SAH) Xüsusi Təyinatlı Qüvvələrinin miçmanı olan Sahib Musayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrutun, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Sahib Musayev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Musayev Sədi Süleyman oğlu** 1978-ci il aprelin 1-də Kəngərli rayonunun Qıvraq qəsəbəsində anadan olub.

Polkovnik-leytenant Sədi Musayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sədi Musayev sentyabrın 28-də Füzuli döyüşləri zamanı Yuxarı Əbdürrəhmanlı istiqamətində şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Sədi Musayev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Musayev Vüsal Zakir oğlu** 12 iyun 1996-cı ildə Abşeron rayonunun Xırdalan şəhərində anadan olub. Əslən Masallı rayonunun Təzə Alvadı kəndindəndir.

Əsgər Vüsal Musayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb. İlk döyüş yolu Füzuli cəbhəsindən başlayıb. Torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə şücaət göstərərək düşmənin canlı qüvvəsini və texnikasını məhv edib. Xocəvənd-Füzuli istiqamətində keçirilən döyüş əməliyyatlarında sona qədər düşmənə qan uddurmağa davam edib. Oktyabrın 13-də Ərgünəş dağında şəhidlik məqamına yüksəlib. Xırdalan şəhərində Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən ugrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Müseyibli Ülvi Şakir oğlu** 1991-ci il noyabrın 27-də İsmayıllı rayonunun Xəlilli kəndində anadan olub.

Əsgər Ülvi Müseyibli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülvi Müseyibli noyabrın 5-də Xocavənd döyüşləri zamanı şəhid olub. İsmayıllı rayonunda dəfn olunub.

Ülvi Müseyibli ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Musibov Veysəl Yadulla oğlu** 15 fevral 1989-cu il Qazaxıstan SSR Taldı-Kurqan vilayətinin Kirov qəsəbəsində anadan olub.

Kapitan Veysəl Musibov 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsində iştirak edərək Kəlbəcər rayonu istiqamətində Murov yüksəkliyinin alınmasında fəal iştirak edib. Həmçinin Füzuli rayonunun bəzi kəndlərinin alınmasında iştirak edib, Cəbrayıl rayonunun alınması zamanı 7 oktyabr 2020-ci ildə Şəhidlik zirvəsinə ucalıb. Oktyabrın 8-də Xırdalan şəhər Şəhidlər xiyabanında dəfn olunub.

O, ölumunden sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Müslümov Elşən Habil oğlu** 1995 ci il sentyabrn 2-də Ağsu rayonunun Kalva kəndində anadan olub.

Çavuş Elşən Müslümov 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsində könüllü olaraq döyüşə gedib. Oktyabrın 13-də Suqovuşanın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə qəhramancasına şəhid olub.

O, ölumunden sonra "Suqovuşanın azad olunması" medalı ilə təltif edildi.



**Mustafalı Əlizamin Valeh oğlu** 1997-ci il 1 sentyabr tarixində Beyləqan rayonunda anadan olub.

Əsgər Əlizamin Mustafalı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Cəbrayıl, Füzuli və Hadrut istiqamətində gedən döyüşlərdə olub. Əlizamin Mustafalı oktyabrın 21-də Hadrut istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunub.

Əlizamin Mustafalı ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mustafayev Əkbər Natiq oğlu** 2 iyul 2000-ci ildə Bərdə rayonunun Mirzəxan kəndində anadan olub.

Kiçik gizir Əkbər Mustafayev 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlanan kimi digər silah yoldaşları kimi o da ön cəbhəyə yollanıb. Müharibənin ilk günlərində cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərində gedən döyüşlərə qoşulub. Döyüşlərdə özünün fəallığı ilə seçilən Əkbər bir sıra yaşayış məntəqələrimizin azad olunmasında yaxından iştirak edib. Oktyabrın 10-da Hadrut istiqamətində gərgin keçən döyüşlərdə düşmən gülləsinə sinəsini sipər edən Əkbər gözlərini əbədi yumub. 2020-ci il oktyabrın 16-da Bərdə rayonunun Mirzəxan kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Mustafayev Əlizamin Baxış oğlu** 1999-cu il iyul ayının 6-da Tərtər rayonunun Bəyimsarov kəndində anadan olub.

Əsgər Əlizamin Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Gülüstan, Ağuçuq və Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edib. 29.09.2020-ci il tarixində Ağuçuq istiqamətində gedən döyüşlərdə iştirak edib. 02.10.2020-ci il tarixində Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Məhəmməd Elməddin oğlu Mustafayev** 2001-ci il mayın 1-də Qəbələ rayonunda dünyaya göz açıb.

Əsgər Elməddin Mustafayev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 10-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub. Qəbələ şəhər qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə də təltif edildi.



**Mustafayev Elvin Qiyas oğlu** 1993-cü ildə Gədəbəy rayonunun Çalburun kəndində anadan olub.

Əsgər Elvin Mustafayev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi zamanı könüllü olaraq ordu sıralarına yazılıb. Oktyabrın 27-də Zəngilan uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mustafayev Elvin Fuad oğlu** 7 avqust 1997-ci ildə Gəncə şəhərində doğulub.

Əsgər Elvin Mustafayev 27 sentyabr 2020-ci il tarixində Vətən müharibəsinin başlaması ilə əlaqədar döyüşlərə qatılıb. Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 30-da şəhidlik zirvəsinə ucalıb. 28 mart 2021-ci il tarixində Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Mustafayev İsmayıl Elmar oğlu** 22 sentyabr 1996-cı ildə Gəncə şəhərində doğulub.

Əsgər İsmayıl Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı işğal altında olan torpaqlarımızın azadlığı uğrunda vuruşub. O, Füzuli və Cəbrayıl rayonları, Şuşa və Xankəndi şəhərləri istiqamətində gedən döyüşlərdə iştirak edib. Noyabrın 8-də Xankəndi ərazisində gedən döyüşlərdə düşmən gülləsinə tuş gələrək şəhidlik zirvəsinə yüksəlib.

Noyabrın 17-də Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mustafayev Merik Musa oğlu** 1995-ci il noyabrın 5-də Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olub.

Əsgər Merik Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Birinci Şıxlı kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mustafayev Musa Əlövsət oğlu** 2001-ci il martın 23-də Masallı rayonunun Xoşçobanlı kəndində anadan olub.

Əsgər, ailənin tək oğlu olan Musa Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı II Qarabağ döyüşlərində Füzulinin azadlığı uğrunda gedən vuruşmalarda böyük şücaət göstərib, düşmənin bir sıra mövqelərinə sarsıdıcı zərbələr endirib. Cəsur əsgər oktyabrın 6-da Füzuli döyüşləri zamanı torpaqlarımızın ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olub.

Musa Mustafayev Xoşçobanlı kənd qəbiristanlığında, boy atdığı torpaqda, 7 oktyabr 2020-ci il tarixində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mustafayev Nicat Bəkir oğlu** 2001-ci il oktyabrın 28-də anadan olub.

Kəşfiyyatçı əsgər Mustafayev Nicat 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı kəşfiyyatçı-pulemyotçu kimi döyüşlərə qatılıb. Oktyabrın 5-də ağır döyüşlərin birində şəhidlik zirvəsinə ucaldı. Yaşadığı məhəllədə Nicatın adına bulaq da inşa edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olmasına görə" medalları ilə təltif edildi.





**Mustafayev Nurlan Ağa oğlu** 1991-ci il noyabrın 8-də Xızı rayonunda dünyaya gəlib.

Əsgər Nurlan Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Nurlan Mustafayev 2020-ci il oktyabrın 20-də Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.


Nurlan Mustafayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mustafayev Nurlan Hamlet oğlu** 1990-cı il iyulun 22-də Hamlet və Rahilə Mustafayevlərin ailəsində anadan olub.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin kapitanı olan Nurlan Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın, Füzulinin və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Mustafayev oktyabrın 12-də Hadrut döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.


Nurlan Mustafayev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mustafayev Ömər Əbdül oğlu** 1998-ci il oktyabrın 1-də Quba rayonunun Zeyid kəndində anadan olub.

Əsgər Ömər Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ömər Mustafayev oktyabrın 21-də Xocavənd döyüşləri zamanı şəhid olub. Quba rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mustafayev Rasim Ərziman oğlu** 28 mart 1990-cı ildə Oğuz rayonunun Xaçmaz kəndində anadan olub.

Əsgər Rasim Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Murovdağ döyüşlərində savaşıb. Rasim Mustafayev oktyabrın 7-də Murovdağ döyüşlərində qəhrəmancasına vuruşan zaman minamyot birbaşa Rasimin üzərinə düşərək şəhidlik zirvəsinə ucalıb. O, oktyabrın 7-də Xaçmaz kənd Şəhidlər Xiyabanında dəfn olunub. Rasim İkinci Qarabağ müharibəsinin Xaçmaz kəndi üzrə ilk şəhididir.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Mustafayev Rüfət Zöhrab oğlu** 12 mart 1996-cı il Sumqayıt şəhərində dünyaya göz açıb.

27 sentyabr tarixində başlanmış İkinci Qarabağ müharibəsinə əsgər Rüfət Mustafayev də qatılıb. Döyüşlərin ən qaynar nöqtələrində xidmətinə davam edib. 2020-ci il oktyabrın 9-dan 10-a keçən gecə Ağdərə istiqamətində gedən şiddətli döyüşlər zamanı Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısını alarkən idarə etdiyi minik avtomobili ilə minaya düşərək komandiri Polkovnik-leytenant Cəfərov Zaur ilə birlikdə qəhrəmancasına şəhid olub.

Oktyabrın 13-də əsgər Rüfət Mustafayevin nəşi əvvəlcə valideynlərinin yaşadığı Sumqayıt şəhərinə gətirilib. O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı medalları ilə təltif edildi.



**Mustafayev Samir Azər oğlu** 2000-ci il martın 10-da Xaçmaz rayonunda dünyaya gəlib.

Əsgər Samir Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb.

Oktyabrın 28-də müharibənin qızğın dövründə Talış-Suqovuşan istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Mustafayev Samir Elşən oğlu** 1995-ci il martın 15-də Salyan rayonunun Qarabağlı kəndində anadan olub.

Əsgər Samir Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Samir Mustafayev 2020-ci il noyabrın 5-də döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mustafayev Sərxan İslam oğlu** 1994-cü il martın 21-də Qazax rayonunun Aslanbəyli kəndində anadan olub.

Kiçik çavuş Sərxan Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sərxan Mustafayev oktyabrın 31-də Füzuli döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Aslanbəyli kəndində dəfn olunub.

Sərxan Mustafayev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Mustafayev Siyasət Akif oğlu** 1996-cı il mayın 2-də Ağdaş rayonunun Pirəyir kəndində anadan olub.

Kiçik çavuş Siyasət Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Siyasət Mustafayev sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Ağdaş rayonunun Pirəyir kəndində dəfn olunub.

Siyasət Mustafayev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mustafayev Təhmasib Sərməst oğlu** 1989-cu il avqustun 30-da Cəbrayıl rayonunun Hasanlı kəndində anadan olub.

Baş leytenant Təhmasib Mustafayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Təhmasib Mustafayev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Təhmasib Mustafayev ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mustafazadə Ceyhun Şükür oğlu** 1997-ci il yanvar ayının 27-də Ağcabədi rayonunun Sarıcalı kəndində anadan olub.

Əsgər Ceyhun Mustafazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murov yüksəklikləri, Cəbrayıl, Füzuli, Ağdərə istiqamətində Suqovuşan kəndi və Mübariz İbrahimov postu uğrunda döyüşlərdə və başqa yüksəkliklərin alınmasında yüksək səviyyədə iştirak edib. Oktyabrın 10-da Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ağcabədi rayon Sarıcalı kənd qəbiristanlığında dəfn edilib.

Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Mustafazadə Taleh Qənimət oğlu** 1995-ci il dekabrın 17-də Gəncə şəhərində anadan olub.

Əsgər Taleh Mustafazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Taleh Mustafazadə noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Taleh Mustafazadə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Mütəllimov Qəzənfər Ədalət oğlu** 1992-ci il yanvarın 27-də Sumqayıt şəhərində anadan olub.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri olan Qəzənfər Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl rayonunun azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. Qəzənfər Vətən müharibəsində döyüşçüləri silah-sursat və ərzaqla təmin etməklə yanaşı, ağır döyüşlərdə də iştirak edib. 300-dən çox yaralını və xeyli şəhidi döyüş meydanından çıxaran Qəzənfərə "Pələng" ləqəbi qoyublar. Qəzənfər Mütəllimov oktyabrın 5-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərində dəfn olunub.

Qəzənfər Mütəllimov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.



**Mütəllimzadə Ağacavad Ələsgər oğlu** 1997-ci il avqustun 14-də Bakının Maştağa qəsəbəsində anadan olub.

Düşmən ötən il sentyabrın 27-də 44 gün davam edən müharibənin ilk günündə Mütəllimzadə Ağacavad Ələsgər oğlu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sabunçu rayon şöbəsinə gələrək könüllü cəbhəyə yola düşüb. İlk döyüş yolu Füzulidən başladı Ağacavadın. Cəbrayılın, Zəngilanın, Xocavəndin və başqa yaşayış məntəqələrimizin ermənilərdən azad edilməsi uğrunda qətiyyətlə döyüşdü. Ağacavadın son döyüşü oktyabrın 22-də Xocavənd yaxınlığında "Ziyarət dağ" adlanan yüksəklik uğrunda oldu. Düşmən snayperi igid döyüşçümüzün həyatını yarıda qoydu.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Zəngilanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Muxtarov Taleh Həşim oğlu** 1985-ci il dekabrın 1-də Kəlbəcərdə anadan olub. Vətən müharibəsi başlayandan qardaşı ilə birgə döyüşə yollanan Taleh Muxtarov Tərtər rayonunun Suqovuşan və Talış istiqamətlərində gedən döyüşlərdə igidlik göstərib. Oktyabrın 18-də isə ən uca zirvəyə – şəhidliyə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Müzəffərli Kənan Azər oğlu** 22 dekabr 1995-ci ildə Gədəbəy rayonun Çalburun kəndində anadan olub.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayanda könüllü olaraq ordu sıralarına yazılıb. 27 oktyabr 2020-ci ildə Zəngilan uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Nadirli Ərtoğrul Hümbət oğlu** 31 mart 1997-ci il Sədərək rayonunun Qaraağac kəndində anadan olub.

Leytenant Ərtoğrul Nadirli 27 sentyabrda Vətən müharibəsində iştirak etmək üçün Goranboy rayonuna ezam olunub. Murovdağ yüksəkliyinin alınmasında döyüş yoldaşları ilə birgə çətin əməliyyatlarda iştirak edib, qəhrəmanlıq göstərib. Eyni zamanda onlarla yaralı yoldaşını döyüş bölgəsindən çıxarıb. Orada xeyli sayda erməni faşistlərini məhv edib-lər. Ərtoğrul Nadirli oktyabrın 2-də Murovdağ döyüşləri zamanı uzaq məsafədən snayperdən açılan atəşlə şəhid olub. 52 gün sonra yüksək rütbəli hərbçilərin köməkliyi ilə tapılıb. Sədərək rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nadirli Kənan İlqar oğlu** 2000-ci il fevralın 2-də Cəlilabad rayonunun Kövüzbulaq kəndində anadan olub.

Əsgər Kənan Nadirli Kənan 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq Füzuli, Qubadlı, Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edib. 2020-ci il noyabrın 6-da Qubadlı istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində şəhid olmuşdur.

O, ölümündən sonra "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Nadirli Nadir Arzu oğlu** 1992-ci il martın 23-də Şəmkir rayonunun Qasımalılar kəndində anadan olub.

Əsgər Nadir Nadirli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nadir Nadirli oktyabrın 10-da Füzuli döyüşləri zamanı şəhid olub.

Nadir Nadirli ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nadirov Elçin Nadir oğlu** 1987-ci il dekabrın 5-də Şəki rayonunun Qoxmuq kəndində anadan olub.

Baş çavuş Elçin Nadirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elçin Nadirov oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub.

Elçin Nadirov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Nadirov Fədail Fərhad oğlu** 1999-cu il iyulun 23-də Qobustan rayonunun Bədəlli kəndində anadan olub.

Əsgər Fədail Nadirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Fədail Nadirov oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub. Qobustan rayonunun Bədəlli kəndində dəfn olunub.

Fədail Nadirov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

Qeyd edək ki, şəhidimiz döyüşə gedərkən yolda avtomobili saxlatdırıb və rəqs edib. O, bu videosu ilə sosial şəbəkələrin diqqət mərkəzinə düşüb.



**Nadirov Rəşad Nadim oğlu** 20 sentyabr 1999-cu ildə Bərdə rayonunda anadan olub.

Kiçik çavuş Rəşad Nadirov 27 sentyabr 2020-ci il tarixindən etibarən İkinci Qarabağ müharibəsində qardaşı ilə birlikdə iştirak edib. Füzuli rayonu uğrunda gedən döyüşlərdə böyük şücaət göstəriblər. 29 oktyabr 2020-ci il tarixində, Füzuli rayonunun Gecəgözlü kəndi istiqamətində gedən döyüş zamanı yanında partlayan mərmi nəticəsində şəhid olub. Qardaşı isə yaralanıb. Bərdə Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nadirov Samir Əlicəttar oğlu** 1992-ci il avqustun 16-da Sumqayıt şəhərinin Corat qəsəbəsində anadan olub.

Kiçik çavuş Samir Nadirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şəhidimizin dəstəsi düşmən hücumlarından qorunmaq üçün Hadruta giriblər, bu zaman ermənilər tunelin qarşısını kəsərək içərisinə qrantamyot atıblar. Partlayış zamanı Samirlə birlikdə sağ qalanları da güllələyiblər. Həmlə taborunun bütün şəxsi heyəti Vətən üçün canını fəda edərək şəhid olub. Samir Nadirov oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nadirov Siyasət Kami oğlu** 2001-ci il fevralın 18-də Sabirabad rayonunun Şəhriyar kəndində anadan olub.

Oktyabrın 1-də tərxis olunmalı idi, amma 27 sentyabrda Vətən müharibəsi başladığından elə birbaşa döyüşlərə qatılıb və Ağdərə-Talış istiqamətində gedən döyüşlərdə şəhidlik məqamına qalxıb. 16 oktyabrda yaralansa da uzun müddət dəqiq məlumat əldə etmək mümkün olmayıb. Noyabrın 21-də şəhid olub. Əvvəl itkin hesab olunan şəhidin nəşi anasının dediyinə görə ondan götürülən qan analizinin nəticəsinə əsasən müəyyənləşdirilib. Siyasət Nadirov Şəhriyar kənd qəbristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Nağıyev Anar Sahib oğlu** 1989-cu il oktyabrın 30-da Gəncə şəhərində anadan olub.

Gizir Anar Nağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Anar Nağıyev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Ürkməzli kəndində dəfn olunub.

Anar Nağıyev ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə","Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nağıyev Baloğlan Müdahət oğlu** 1996-cı il oktyabrın 29-də Bərdə rayonu Güloğlular kəndində anadan olub.

Əsgər Baloğlan Nağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə vuruşub.

Oktyabrın 24-də qızğın döyüşlər zamanı 530 yüksəkliyində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Nağıyev Elfaq Azad oğlu** 1996-cı il dekabrın 26-da Gədəbəy rayonunun Parakənd kəndində anadan olub.

Gizir Elfaq Nağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Hadrut uğrunda gedən döyüşlərdə şücaət göstərib. Elfaq Nağıyev bir çox şəhərlərin, kəndlərin, strateji yüksəkliklərin azad edilməsində fəal iştirak edib. Oktyabrın 9-da Hadrut qəsəbəsinə bayraq sancan əsgərlərdən biri olub. "Qorxmaz gizir" ləqəbli hərbçimiz oktyabrın 21-də Xocavəndin Tuğ kəndi yaxınlığındakı "Qırmızı bazar" adlanan ərazidə qəhrəmanlıqla şəhid olub. Gədəbəy rayonunun Parakənd kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nağıyev Əli Mehman oğlu** 1991-ci il dekabrın 25-də Bakı şəhərində anadan olub.

Baş çavuş Əli Nağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xovavənd rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Əli Nağıyev 22.10.2020 Xocavənd rayonu alban kilsəsinin qarşısında düşmənin əks hücumunun qarşısını alarkən şəhid olmuşdur

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Nağıyev Pərviz Güloğlan oğlu** 1991-ci il yanvarın 1-də Tovuz rayonunun Aşağı Öysüzlü kəndində anadan olub.

Çavuş Pərviz Nağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Pərviz Nağıyev sentyabrın 29-da Murovdağ istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 22 may 2021-ci ildə Tovuz rayonunda dəfn olunub.

Pərviz Nağıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Nağıyev Fərid Poladxan oğlu** 1999-cu il avqustun 8-də Sabirabad rayonunun Zəngənə kəndində anadan olub.

Əsgər Fərid Nağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Fərid Nağıyev sentyabrın 27-də şəhid olub. Sabirabad rayonunda dəfn olunub.

Fərid Nağıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Murad Mayıl oğlu Nağıyev** 1997-ci il fevralın 9-da Qazax şəhərində anadan olub.

Leytenant Murad Nağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Müharibənin birinci dəqiqələrində Kənd Horadizin azad edilməsində, həmçinin Ermənistan Ordusunun strateji hədəflərinin, canlı qüvvəsinin məhv edilməsi zamanı fərqlənib. Murad Nağıyev oktyabrın 11-də Cəbrayıl rayonu istiqamətində şəhid olub. Onun şəhid olduğu ərazi 8 gün sonra nəzarətə götürülə bilib və o, oktyabrın 20-də II Fəxri Xiyabanda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.



**Nicat Azad oğlu Nağıyev** 1995-ci il fevralın 21-də Yevlax rayonunun Əcəmi kəndində anadan olub.

Əsgər Nicat Nağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, Kəhrilər xarabalığı, Dostagir, Talış və Suqovuşan yaşayış məntəqələri istiqamətində gedən döyüşlərdə şücaətlə döyüşüb. Nicat Nağıyev 2020-ci il oktyabrın 16-da Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Nağıyev Şahlar Nüsrət oğlu** 31 dekabr 1987-ci ildə Gəncədə, Kəpəz rayonunda anadan olub.

MAHHXHQ əsgər Şahlar Nağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 2-də Tərtər rayonun Əskipara kəndi istiqamətində düşmən təxribatının qarşısını alarkən düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nağıyev Toğrul Həsənbala oğlu** 2020-ci il iyunun 8-də Şəki şəhərində anadan olub.

Əsgər Toğrul Nağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak edib.

Toğrul Nağıyev oktyabrın 13-də Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub. O, Şəki şəhərində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Nağıyev Vüsal Əmirastan oğlu** 1990-cı il yanvarın 1-də Goranboy rayonunda dünyaya gəlib.

Gizir Vüsal Nağıyev 2020-ci il sentyabrın 27-də başlayan 2-ci Qarabağ müharibəsi zamanı Talış kəndi, Suqovuşan, Murovdağ döyüşlərində iştirak edib. Oktyabrın 30-u Murovdağ yüksəkliyində yaralıları çıxartmağa çalışarkən düşmənin atdığı artilleriya mərmisi nəticəsində şəhid olub. Oktyabrın 31-i Goranboy rayonunun Balakürd kənd Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.




**Nağıyev Yusif Bərxudar oğlu** 1996-cı il yanvarın 1-də Bərdə rayonunun Əyricə kəndində anadan olub. Əsgər Yusif Nağıyev 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsinə qatılıb. Kəlbəcər, Cəbrayıl və Xocavənd rayonunun işğaldan azad olunmasında xüsusi rəşadət, şücaət və qorxmazlıq nümayiş etdirib. Döyüş meydanından şəhid və yaralıların çıxarılmasında xüsusi şücaət göstərib. Hadrut istiqamətində gedən döyüşlərdə yüksəkliklərin ələ keçirilməsində və düşmənin əks-həmlələrinin qarşısının alınmasında iştirak edib. Yusif Nağıyev 2020-ci il oktyabrın 21-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub. Doğulduğu Əyricə kəndində torpağa tapşırılıb. Yusif Nağıyev ölümündən sonra Rəşadət" ordeni, "İgidliyə görə", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.

**Namazov Babək Səhman oğlu** 1994-cü il mayın 15-də Şəmkir rayonunun Əliyaqublu kəndində anadan olub.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri olan Babək Namazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. B.Namazov oktyabrın 4-dən 5-ə keçən gecə Cəbrayıl istiqamətində gedən döyüşlərdə itkin düşüb. Uzun müddət axtarışlardan sonra Babək Namazovun nəşi 20 fevral 2021-ci ildə tapılaraq ailəsinə təhvil verilib.

O, ölümündən sonra "Xocavəndin azad edilməsinə görə" və "Şücaətə görə" medalları ilə təltif edildi.



**Namazov Elcan Hidayət oğlu** 1997-ci il iyunun 1-də Qazax rayonunun Dəmirçilər kəndində anadan olub.

Kiçik gizir Elcan Namazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi başlanan zaman digər sərhədçi yoldaşları kimi ön cəbhəyə yollanıb. Füzuli və Cəbrayıl istiqamətlərində ağır döyüşlərdə iştirak edib. Ancaq, təssüf ki, Elcanın döyüş yolu qısa oldu. O, oktyabrın 9-da Xocavənd rayonunun Hadrut qəsəbəsi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nəsibov Elməddin Yusif oğlu** 1983-cü il avqustun 8-də Qazax rayonunun Ağköynək kəndində anadan olub.

Elməddin Nəsibov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, oktyabrın 27-də Füzulinin işğaldan azad olunması uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Qazax rayonunun Ağköynək kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Namazov İsmət Nüsrət oğlu** 1996-cı il iyulun 17-si Şəmkir rayonunun Mahmudlu kəndində anadan olub.

İsmət Namazov oktyabrın 27-də Füzulinin işğaldan azad olunması uğrunda gedən döyüşlər zamanı şəhid olub. O, Şəmkir rayonunun Mahmudlu kəndində dəfn olunub.

İsmət Namazov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Namazov Mahmud Ələsgər oğlu** 1992-ci il martın 1-də Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində anadan olub.

Onun bibisi oğlu əsgər Adil Tatarov 2018-ci ilin Günnüt əməliyyatı zamanı şəhid olub.

Kiçik çavuş Mahmud Namazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Mahmud Namazov oktyabrın 30-da Füzulinin işğaldan azad olunması uğrunda gedən döyüşlər zamanı şəhid olub. Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində dəfn olunub.

Mahmud Namazov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Namazov Orxan Ceyhun oğlu** 1994-cü il noyabr-ın 24 də Gəncə şəhərində anadan olub.

Əsgər Orxan Namazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə yüksək peşəkarlıq, igidlik və mərdlik nümunəsi göstərib. Qəhrəman igidimiz Murovdağ yüksəkliyi, Talış dağ zirvəsi, Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak edərək onlarla erməni faşistini məhv etdi. O, 10 oktyabr tarixində Suqovuşan istiqamətində gedən hərbi əməliyyat zamanı düşmən atəşi ilə şəhidlik zirvəsinə ucaldı.

O, ölümündən sonra "Suqovuşanın azad olunması" və "Vətən uğrunda" medalları ilə təltib edildi.



**Namazov Taleh Zülfəli oğlu** 1999-cu il iyulun 28-də Ağstafa rayonunun Düzqışlaq kəndində anadan olub.

Kiçik çavuş Taleh Namazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Taleh Namazov sentyabrın 30-da Füzulinin azadlığı uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Ağstafa rayonunun Düzqışlaq kəndində dəfn olunub.

Taleh Namazov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Namazov Xəyal Xudaverdi oğlu** 1986-cı il mayın 23-də Füzuli şəhərində anadan olub.

Çavuş Xəyal Namazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Xəyal Namazov oktyabrın 3-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş zamanı partlayışla zədələnmə nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.

**Nadirov Fərid İlyas oğlu** 2000-ci il sentyabrın 21-də Göyçay rayonunda anadan olub.

Əsgər Fərid Nadirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli, Hadrut istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 4-də ailəsi ilə əlaqə saxlayıb və ailəsinə bildirib ki, üç yüksəklik alınıb. İgidimiz oktyabrın 13-də Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Noyabrın 28-i Fərid Nadirovun nəşi son dəfə olaraq doğulub boya-başa çatdığı kəndə gətirilib. Daha sonra isə Göyçay Şəhidlər Xiyabanına aparılaraq orada böyük izdihamla son mənzilə yola salınıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Nağıyev Nicat İbrahim oğlu** 2001-ci il sentyabr-ın 7-də Salyan rayonunun Qızılağac kəndində anadan olub.

Əsgər Nicat Nağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

O, Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərə qatılıb və 2020-ci il sentyabrın 30-da qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edildi.



**Namazov Təbriz Ələmdar oğlu** 1994-cü il martın 14-də Şəmkir rayonunun Aşağı Seyfəli kəndində anadan olub.

Əsgər Təbriz Namazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər və Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Təbriz Namazov sentyabrın 29-da Kəlbəcər rayonu istiqamətində şərti adı "Üçtəpələr" döyüş mövqeyi istiqamətində hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub. Nəşi uzun müddət tapıla bilməyib. O, dekabrın 6-da Şəmkir rayonunun Aşağı Seyfəli kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Şücaətə görə" medalları ilə təltif edildi.




**Nəbiyev Ruslan Muhuma oğlu** 1996-cı il iyulun 16-da Zaqatala rayonunun Danaçı kəndində anadan olub.

Əsgər Ruslan Nəbiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib.

Ruslan Nəbiyevlə Suqovuşan döyüşlərindən sonra əlaqə saxlamaq mümkün olmayıb. Dekabrın 10-da şəhid olduğu müəyyənləşib. O, Zaqatala rayonunun Danaçı kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.





**Nəbiyev Yusif Elton oğlu** 2002-ci il mayın 27-də Ağdaş rayonunda anadan olub.

Yusif Nəbiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Yusif Nəbiyev oktyabrın 9-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub. O, Masallı rayonunda dəfn olunub.


Yusif Nəbiyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Nurməmmədov Ziya Zabil oğlu** 2001-cü ildə Kürdəmirin Sığırlı kəndində anadan olub.

Əsgər Ziya Nurməmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı cəbhənin Füzuli istiqamətindən döyüşə başlayıb, düşmənin xeyli sayda canlı qüvvəsi və texnikasının məhv edilməsində əvəzsiz xidmətlər göstərib. Oktyabr ayının 13-də elə orada da qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nuruyev Cavid Əşirəf oğlu** 1998-ci il mart ayının 3-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Oğuz kəndində anadan olub.

27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ müharibəsinin iştirakçısı olan leytenant Nuruyev Murovdağ silsiləsi, Suqovuşan, Ağdərənin bəzi yüksəkliklərinin alınması uğrunda ən qızğın döyüşlərdə iştirak edir. Oktyabrın 15-i tarixində bu istiqamətdə də qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

30 noyabr 2020-ci il tarixində Şərur rayonunun Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları təltif edildi.



**Namətov Naib Firqət oğlu** 1998-ci il 11 fevral tarixində Ağdaşın Kotanarx kəndində anadan olub.

Əsgər Naib Namətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli və Xocəvənd istiqamətində gedən döyüşlərdə olub. Naib Namətov oktyabrın 3-də Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Ağdaş rayonunun Qarağan Sədi kəndində dəfn olunub.

Naib Namətov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Nayıbov Devran Fazil oğlu** 1993-cü il noyabrın 30-da Bərdə şəhərində anadan olub.

Kiçik gizir Devran Nayıbov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Devran Nayıbov oktyabrın 8-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Bərdə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nəbiyev Çilingir Azad oğlu** 1996-cı il sentyabrın 1-də Tovuz rayonunun Şıxheybət kəndində anadan olub.

Gizir Çilingir Nəbiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Çilingir Nəbiyev oktyabrın 28-də Qubadlı döyüşləri zamanı şəhid olub. Tovuz rayonunda dəfn olunub.

Çilingir Nəbiyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nəbiyev Elmar Elman oğlu** 2001-ci il martın 22-də Pirallahı rayonunda anadan olub.

Vətənə xidmətini Füzuli rayonunda edən igidimiz sərrast atıcı olub. Hərbi xidmətini Manqa komandiri olaraq yerinə yetirən qəhrəmanımızın tərxis olunmasına 3 ay qalmış İkinci Qarabağ müharibəsi başlayır. Noyabrın 4-ü ailəsi ilə, 5-i isə dostu ilə danışan qəhrəmanımız elə həmin gecə yanlarına düşən minamyot nəticəsində yaralanıb. Təxliyə olunub xəstəxanaya aparılsa da çoxlu qan itirdiyindən xəstəxanaya çatmamış şəhidlik zirvəsinə ucalıb. Oktyabrın 16-da doğulduğu Pirallahı rayonunda xalqın böyük izdihamı ilə dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulunin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.




**Nəbiyev Nicat Ramil oğlu** 16 dekabr 2000-ci ildə Sumqayıt şəhərində anadan olub.

Kiçik çavuş Nicat Nəbiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 1-də minamyot qəlpəsindən şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edildi.





**Nəbiyev Orxan Rza oğlu** 1995-ci il yanvarın 22-də Şamaxı rayonunun Qurdtəpə kəndində anadan olub.

Leytenant Orxan Nəbiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Orxan Nəbiyev oktyabrın 14-də Talış-Suqovuşan kəndi istiqamətində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlər zamanı hərbi əməliyyatlarda düşmən tərəfindən açılan atəş partlayışlarla-qəlpələrlə törənmiş zədələnmə nəticəsində şəhidlik zirvəsinə ucalıb. O, noyabrın 3-də Şamaxı rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə də təltif edildi.



**Nəbiyev Zaur Ələddin oğlu** 2001-ci il iyulun 1-də Şəmkir rayonunun Ələsgərli kəndində anadan olub.

Əsgər Zaur Nəbiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Zaur Nəbiyev oktyabrın 3-də Talış və Suqovuşan yaşayış məntəqələri istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən açılan artilleriya atəşi nəticəsində şəhid olub. O, Masallı rayonunda dəfn olunub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Nəcəfli Oruc Rövşən oğlu** 1989-cu il oktyabrın 6-da Yevlax rayonunun Tanrıqulular kəndində anadan olub.

Oruc Nəcəfli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda və Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak edib.

Oruc Nəcəfli oktyabrın 17-də Ağdərə istiqamətində "Tülkü dərəsi" adlandırılan ərazidə şəhid olub. O, noyabrın 6-da Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Nəcəfli Sadiq Nüsrət oğlu** 2000-ci il iyunun 22-də Biləsuvar rayonunun Yuxarı Cürəli kəndində anadan olub.

Əsgər Sadiq Nəcəfli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Sadiq Nəcəfli noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub . O, Biləsuvar rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Nəcəfov Bəhruz Əli oğlu** 9 mart 1996-cı il tarixində Neftçala rayonu Qaralı kəndində anadan olub.

Əsgər Bəhruz Nəcəfov 2020-ci ilin sentyabr ayının 27-dən başlanan Vətən müharibəsi zamanı könüllü olaraq cəbhəyə yollanıb. Cəbrayıl rayonunun Dostlar bulağı adlanan yerdə gedən döyüş zamanı oktyabr ayının 7-si şəhidlik zirvəsinə yüksəlib. 2 gün neytral ərazidə qaldıqdan sonra oktyabrın 9-da nəşi götürülüb və Neftçala rayonunda dəfn edilib.

O, şəhadətindən sonra "Vətən uğrunda","Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Nəcəfov Cəmil Nəcəf oğlu** 1993-cü il iyunun 24-də Bakının Binəqədi rayonunda anadan olub.

Baş leytenant Cəmil Nəcəfov 2020-ci ilin sentyabr ayının 27-dən başlanan 44 günlük Vətən müharibəsində Suqovuşan, Füzuli, Cəbrayıl və Hadrutun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. O, Sonuncu dəfə oktyabrın 7-də ailəsi ilə danışıb.

Cəmil Nəcəfov oktyabrın 9-da Cəbrayılın azadlığı uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Qarabağ" ordeni və "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.




**Nəcəfov Əli Seyran oğlu** 24 may 1998-ci ildə Masallı rayonunun Tüklə kəndində anadan olub.

Əsgər Əli Nəcəfov 2020-ci ilin sentyabr ayının 27-dən başlanan Vətən müharibəsi zamanı Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə düşmənə qarşı böyük mərdliklə döyüşüb. İgid döyüşçü qəhrəmanlığı ilə öz adını tarixə yazdı.

2020-ci il oktyabrın 20-si Əli Seyran oğlu Nəcəfov qəhrəmancasına şəhidlik məqamına əbədi ucaldı. Oktyabrın 22-də doğulub boya-başa çatdığı Masallı rayonunun Tüklə kənd qəbiristanlığında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nəcəfov Elmin Saleh oğlu** 1999-cu il yanvarın 30-da Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olub.

Əsgər Elmin Nəcəfov 2020-ci ilin sentyabr ayının 27-dən başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Oktyabrın 9-u Cəbrayıl istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Nəcəfov Elmir Vidadi oğlu** 2002-ci il martın 21-də Gəncə şəhərində doğulub.

Əsgər Elmir Nəcəfov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 2-də Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Nəcəfov Etibar Mehman oğlu** 14 noyabr 1998-ci ildə Ağcabədi rayonunun Aran kəndində anadan olub.

2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsində iştirak etmək üçün könüllü olaraq orduya yazılıb. Oktyabrın 1-dən Cəbrayıl, Füzuli, Zəngilan, və Qubadlı rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. Qubadlıda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nəcəfov Fərid Fərman oğlu** 2001-ci il noyabrın 5-də Ağsu rayonunda dünyaya gəlib.

Əsgər Fərid Nəcəfov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Goranboy rayonunun Gülüstan kəndi istiqamətində döyüşüb.

Oktyabrın 10-da Goranboy rayonunun Gülüstan kəndi istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Nəcəfov Fuad Taleh oğlu** 1990-cı il oktyabrın 1-də İsmayıllı rayonunda anadan olub.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin miçmanı olan Fuad Nəcəfov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Fuad Nəcəfov oktyabrın 7-də Zəngilanın işğaldan azad olunması uğrunda gedən döyüşlər zamanı şəhid olub. İsmayıllı rayonunda dəfn olunub.

O, ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Nəcəfov İlkin Misir oğlu** 1989-cu il noyabrın 17-də Salyan rayonu Şikarlı kəndində anadan olub.

Kapitan İlkin Nəcəfov 2020-ci il sentyabr ayının 27-i xidmət etdiyi hərbi hissədən cəbhəyə yollanıb və Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına iştirak edib. İlkinin ailəsi onun cəbhədə olmasından xəbərsiz olub. Anası ilə telefonla danışan zaman təlim keçdiyini bildirib.

Oktyabrın 16-də Hadrut istiqamətində gedən döyüşlərdə yaralanmış əsgərini döyüş meydanından çıxararkən qərəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Nəcəfov Şamil Rəfi oğlu** 1997-ci il fevralın 4-də Bakı şəhərinun Abşeron rayonunda anadan olub.

Əsgər Şamil Nəcəfov 2020-ci il sentyabr ayının 27-də başlanan Vətən müharibəsinin ilk günlərində döyüşə qatılıb. Oktyabr ayının 1-də Murovdağ istiqamətindəki döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Hərbi xidmətlərə görə" və "Kəlbəcərin azad olunmasına görə" medaları ilə təltif edildi.



**Nəcəfov Vüqar Aydın oğlu** 1988-ci il oktyabrın 8-də Ordubad rayonunun Dırnıs kəndində anadan olub.

İkinci Qarabağ Savaşının ilk günlərindən döyüşlərə qatılan kapitan Nəcəfov Vüqar Füzuli, Xocavənd və Cəbrayl uğrunda gedən döyüşlərdə qəhramancasına vuruşub. Oktyabrın 1-də Cəbrayılın Nüzgar kəndi uğrunda gedən döyüşdə yaralı əsgərini qurtararkən snayper gülləsinə tuş gəlib və şəhidlik zirvəsinə ucalıb. Oktyabrın 3-də Bakıdakı İkinci Fəxri Xiyabanda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda","Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Nəcəfov Yaqub Məhəmməd oğlu** 2000-ci il iyulun 7-də Culfa şəhərində anadan olub.

Kiçik leytenant Yaqub Nəcəfov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Yaqub Nəcəfov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Culfa şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Yaqub Nəcəfov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Nəcəfov Yusif Nadir oğlu** 14 oktyabr 2001-ci ildə Bakı şəhərinin Yasamal rayonunda doğulub.

Əsgər Yusif Nəcəfov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində döyüşüb.

Oktyabrın 1-i cəbhədə yaralanıb, daha sonra 12 gün müalicə alıb, ardınca 13-cü gün təkrar döyüşə qayıdıb elə həmin gün də cəbhənin Kəlbəcər rayonu istiqamətində şəhidliyə ucalıb. Yusif Nəcəfov 2020-ci il oktyabrın 13-də Murovdağ uğrunda gedən döyüşlər zamanı şəhid olub.

Əvvəlcə Qaradağ rayonundakı Ümumşəhər qəbiristanlığında dəfn olunub. Daha sonra məzarı II Şəhidlər Xiyabanına köçürülüb.

Yusif Nəcəfov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", Hərbi xidmətlərə görə" və "Azərbaycan Bayrağı ordeni" medalları ilə təltif edildi.



**Nəciyev Xalid Qabil oğlu** 1992-ci il iyulun 3-də Saatlı şəhərində anadan olub.

Leytenant Xalid Nəciyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xalid Nəciyev noyabrın 5-də Laçın döyüşləri zamanı Səfiyan istiqamətində şəhid olub. Saatlı şəhərində dəfn olunub.

Xalid Nəciyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nefesov Murad Ocaqdurdu oğlu** 2001-ci il fevralın 9-da Masallı şəhərində anadan olub.

Əsgər Murad Nefesov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Xocavənd və Şuşanın alınması uğrunda aparılan döyüşlərdə iştirak edib.

Murad Nefesov 7 noyabr tarixində Şuşa şəhərinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidin nəşi 9 noyabr 2020-ci il tarixində doğulduğu Masallı şəhər qəbiristanlığında izdihamla torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunması" medalları ilə təltif edildi.



**Nəhmətov Ceyhun Ehtiqad oğlu** 8 sentyabr 1994-cu ildə Bakı şəhərində anadan olmuşdur.

Baş leytenant Nəhmətov Ceyhun 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı qəhrəmanlıq, qorxmazlıq və vətənpərvərlik kimi keyfiyyətlərini üzə çıxardı. Bütün müharibəni alnı açıq üzü ağ keçən Nəhmətov Ceyhun düşmən üzərində böyük zəfərə 1 gün qalmış – noyabrın 7-də Zəngilan rayonu ərazisində Ermənistanla sərhəddə yerləşən 812.0 yüksəkliyinin azad edilməsi uğrunda döyüşdə qəhrəmancasına şəhid olub. Noyabrın 9-da Bakı şəhərində 2-ci Şəhidlər Xiyabanda dəfn edilib.

O, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, Vətən uğrunda" və "Zəngilanın azad olunmasına görə medalları ilə təltif edildi.

**Nəhmətov Telman Təyyar oğlu** 1990-cı il aprelin 29-da Astara rayonunun Alaşa kəndində anadan olub.

Kiçik çavuş Telman Nəhmətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Telman Nəhmətov oktyabrın 31-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı şəhid olub. Astara rayonunun Alaşa kəndində dəfn olunub.


Telman Nəhmətov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Nəhmətov Vüsal Üzeyr oğlu** 1987-ci il oktyabrın 2-də Astara rayonunun Alaşa kəndində anadan olub.

Gizir Vüsal Nəhmətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal Nəhmətov oktyabrın 4-də Füzuli rayonu istiqamətində gedən döyüş əməliyyatlarında döyüş taşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş zamanı şəhid olub. Astara rayonunun Alaşa kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nərimanov İdris Nazim oğlu** 2000-ci il iyulun 10-da Bərdə rayonunun Xanağalı kəndində anadan olub.

Müharibə zamanı baş atıcı kimi hərbi xidmətini yerinə yetirib. Talış Suqovuşan istiqamətində döyüş yolu keçib.

Oktyabrın 10-da Talış-Suqovuşan istiqamətində döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra Suqovuşanın azad olunması medalı ilə təltif edildi.



**Nərimanzadə Ruslan İlqar oğlu** 1995-ci il aprelin 23-də Şəmkir rayonunun Zəyəm Cırdaxan kəndində anadan olub.

Əsgər Ruslan Nərimanzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Ruslan Nərimanzadə oktyabrın 13-də Füzuli döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunun Zəyəm Cırdaxan kəndində dəfn olunub.

Ruslan Nərimanzadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Nəsibov Asəf Səfəralı oğlu** 25 fevral 1994-cü ildə Qazax rayonunun Qaymaqlı kəndində anadan olub.

Əsgər Asəf Nəsibov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Qubadlı və Laçın rayonları istiqamətində gedən döyüşlərdə vuruşub. Oktyabrın 29-da və düşmən hücumunun qarşısını alarkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Nəsibov Elmar Şirzad oğlu** 1987-ci il sentyabrın 19-da Sumqayıt şəhərində anadan olub.

Gizir Elmar Nəsibov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elmar Nəsibov oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub.

Elmar Nəsibov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nəsibov Elməddin Yusif oğlu** 1983-cü il avqustun 8-də Qazax rayonunun Ağköynək kəndində anadan olub.

Çavuş Elməddin Nəsibov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, oktyabrın 27-də Füzulinin işğaldan azad olunması uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Qazax rayonunun Ağköynək kəndində dəfn olunub.

Elməddin Nəsibov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nəsibov Nicat Nəriman oğlu** 1986-cı ilin 9 may tarixində Azərbaycan SSR-nin Goranboy rayonunun Borsunlu kəndində anadan olub.

Nicat Nəsibov 27 sentyabr tarixində başlanmış İkinci Qarabağ müharibəsində ilk günlərdən etibarən iştirak edib. MAXE hərbi qulluqçu Nicat Nəsibov Füzuli şəhərinin azad edilməsi uğrunda keçirilən Füzuli əməliyyatının gedişatında baş verən şiddətli döyüşlərdə, 30 sentyabr tarixində şəhid olub.

2020-ci ilin 1 oktyabr tarixində Azərbaycan Respublikasının Goranboy rayonunun Borsunlu kənd məzarlığında dəfn edilib.

O, ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**Nəsibov Nicat Qəşəm oğlu** 1998-ci il yanvarın 1-də Qazax rayonunun Cəfərli kəndində anadan olub.

Leytenant Nicat Nəsibov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonunun Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nicat Nəsibov oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub. Noyabrın 1-də Qazax rayonunda dəfn olunub.

Nicat Nəsibov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə","Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nəsibov Nicat Səməd oğlu** 1996-cı il oktyabrın 3-də Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olub.

Əsgər Nicat Nəsibov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd, Laçın və Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Nicat Nəsibov oktyabrın 27-də Qubadlı döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Birinci Şıxlı kəndində torpağa tapşırılıb.

Nicat Nəsibov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nəsibov Xaliddin Vaqif oğlu** 1998-ci il iyulun 17-də Qazax rayonunun Qarapapaq kəndində anadan olub.

Baş leytenant Xaliddin Nəsibov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xaliddin Nəsibov noyabrın 5-də Xocavənd döyüşləri zamanı şəhid olub. Qazax rayonunda dəfn olunub.

Xaliddin Nəsibov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Nəsibov Xaqani Aydın oğlu** 1991-ci il mayın 1-də Balakən rayonunun Kortala kəndində anadan olub.

Əsgər Xaqani Nəsibov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xaqani Nəsibov oktyabrın 19-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Kortala kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə də təltif edildi.





**Nəsirov Əfqan Ramil oğlu** 29 mart 2020-ci ildə Bakı şəhərində dünyaya gəlib.

Əsgər Əfqan Nəsirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Əfqan Nəsirov 14 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nəsirov Elçin Ramiz oğlu** 13 yanvar 1988-ci ildə Füzulinin Əhmədalılar kəndində doğulub.

Kiçik çavuş Elvin Nəsirov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 24-də Füzuli rayon Qorqan kəndi istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub. Doğulduğu Əhmədalılar kənd qəbiristanlığında torpağa tapşırılıb.

O, şəhadətindən sonra "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Nəsirov Elmir Zülfü oğlu** 1991-ci ilin 13 iyul tarixində Füzuli rayonunun Əhmədbəyli kəndində anadan olub.

Kiçik çavuş Elmir Nəsirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi uğrunda gedən şiddətli döyüşlərdə şəhid olub. Kiçik çavuşun nəşini 31 gün sonra 28 oktyabr tarixində qarşı tərəfdən götürmək mümkün olub. Elmir Nəsirov Füzuli rayonunun Əhmədbəyli kənd qəbristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Nəsirov İlyas Arzuman oğlu** 4 iyul 1985-ci ildə Beyləqan rayonunun Milabad kəndində anadan olub.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri olan İlyas Nəsirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın və Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edin. İlyas Nəsirov oktyabrın 21-də Qubadlı döyüşləri zamanı şəhid olub.

İlyas Nəsirov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Nəsirov Nahid Əlizamin oğlu** 11 dekabr 1995-ci ildə Saatlı rayonunun Ağarəhimli kəndində anadan olub.

2020-ci il, İkinci Qarabağ müharibəsi zamani hərbi xidmətə çağırılıb, Xocavənd, Cəbrayıl, Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib.

Noyabrın 10-da Şuşa uğrunda gedən döyüşlər zamanı düşmənin atdığı mərmi nəticəsində aldığı qəlpə yarasından şəhidlik zirvəsinə ucalıb.

Nahid Nəsirov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edildi.



**Nəsirov Qara Eldəniz oğlu** 5 yanvar 1999-cu ildə Beyləqan rayonunda dünyaya göz açıb.

Əsgər Qara Nəsirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Xocavənd döyüşlərində vuruşub. Noyabrın 7-də Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nəsirov Qəhrəman Fərman oğlu** 28 dekabr 2000-ci ildə Mingəçevir şəhərində anadan olub.

Əsgər Qəhrəman Nəsirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

10 oktyabrda Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub.

Qəhrəman Nəsirov ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə" medalları ilə təltif edildi.



**Nəsirov Xəqani Kamran oğlu** 1982-ci il iyunun 29-da Xankəndi şəhərində anadan olub.

Kiçik çavuş Xəqani Nəsirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəqani Nəsirov sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Xəqani Nəsirov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edildi.





**Nəsrullayev Rəşid Qəzənfər oğlu** 1993-ci il iyulun 11-də Qəbələ rayonu Nic kəndində anadan olub.

Əsgər Rəşid Nəsrullayev Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Talış kənd və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 2 noyabrda Talış kənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Nəzərli Vasif Zahid oğlu** 2000-ci il martın 4-də Ağstafa rayonunun Vurğun qəsəbəsində anadan olub.

Əsgər Vasif Nəzərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Vasif Nəzərli noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Vurğun qəsəbəsində dəfn olunub.

Vasif Nəzərli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nəzərov Elməddin İsmayıl oğlu** 1996-cı il noyabrın 22-də Masallı rayonunun Binə Xocavar kəndində anadan olub.

Əsgər Elməddin Nəzərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elməddin Nəzərov oktyabrın 30-da Qubadlı döyüşləri zamanı şəhid olub. Masallı rayonunda dəfn olunub.

Elməddin Nəzərov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Nəzərov Emin Zahir oğlu** 20 fevral 1992-ci il tarixində Salyan rayonunun 2-ci Varlı kəndində anadan olub.

MAHHXHQ əsgər Emin Nəzərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. 30 sentyabr 2020-ci il tarixində Kəlbəcər rayonunun "Üçtəpələr" döyüş mövqeyi istiqamətində hərbi əməliyyatlar nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edildi.

**Niftəlizadə Niyamin Xaliq oğlu** 1997-ci il yanvar ayının 15-də Şahbuz rayonunun Nursu kəndində anadan olub.

Əsgər Niyamin Niftəlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində gedən döyüşlərdə savaşıb. Niyamin Niftəlizadə oktyabr ayının 7-də Cəbrayıl uğrunda gedən döyüşlərdə şəhid olub.

Niyamin Niftəlizadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Niftəliyev Ceyhun Bahadur oğlu** 1972-ci il noyabrın 5-də Göygöl şəhərində anadan olub.

Leytenant Ceyhun Niftəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Ceyhun Niftəliyev sentyabrın 29-da Murovdağ döyüşləri zamanı şəhid olub. Göygöl şəhərində dəfn olunub.

Ceyhun Niftəliyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Niftəliyev İlyas Güloğlan oğlu** 1999-cu il aprelin 12-də Qusar rayonunun Bədirqala kəndində anadan olub.

Leytenant İlyas Niftəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı qəhrəman döyüşçü kimi Murovdağ zirvəsi, Cəbrəyıl rayonu və Hadrut qəsəbəsinin azad edilməsində əsl fədakarlıq nümayiş etdirib. Sentyabrın 27-də Vətən müharibəsinin başlaması İlyas Niftəliyevin sanki çoxdan gözlədiyi an idi. İlyas Niftəliyev oktyabrın 14-də Füzuli döyüşləri zamanı şəhid olub. Qusar rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Niftəliyev Mehrab Söhrab oğlu** 1985-ci il mayın 13-də Quba rayonunun Qam-qam kəndində anadan olub.

Baş gizir Mehrab Niftəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mehrab Niftəliyev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Mehrab Niftəliyevə "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

Mehrab Niftəliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Niftullayev Elşən Əfqan oğlu** 1999-cu il mayın 27-də Cəlilabad rayonunun Musalı kəndində anadan olub.

Gizir Elşən Niftullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elşən Niftullayev oktyabrın 10-da Ağdərə istiqamətində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Novruzlu Pərviz Qorxmaz oğlu** 15 oktyabr 1997-ci ildə Şərur rayonunun Çərçiboğan kəndində anadan olub.

Əsgər Pərviz Novruzlu 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin, Cəbrayılın, Xocavəndin, Laçının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə kəşfiyyatçı-qumbaraatan olaraq vuruşub. Pərviz Novruzlu 9 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. 09.11.2020-ci ildə Şuşa şəhəri istiqamətində gedən döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Novruzlu Ümid Bahadur oğlu** 1992-ci il iyunun 7-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Babək qəsəbəsində anadan olub.

2020-ci ildə Naxçıvanda baş tutan hərbi təlimlərdə ayağından zədələnsə də, İkinci Qarabağ Müharibəsində döyüşmək Ümidə də qismət olur. Belə ki, zədəli olmasına baxmayaraq Vətən Müharibəsi üçün döyüşə yollanır. 24 oktyabr 2020-ci il tarixindən döyüşlərə qatılan Ümid Novruzlu 5 noyabr 2020-ci il tarxində xarıbülbülün yurdu olan Şuşada Şəhidlik zirvəsinə ucalıb. 13 noyabr 2020-ci il tarixində cənazəsi doğulduğu Babək şəhərinə gətirilən Ümid Bahadur oğlu Novruzlu elə həmin qəsəbənin məzarlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Novruzov Allahverdi Bəhram oğlu** 1994-cü ildə Salyan şəhərində anadan olub.

Əsgər Allahverdi Novruzov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. O, müharibə başlanan ilk gündən Füzuli uğrunda gedən döyüşlərin önündə olub. Lakin xain düşmənin atdığı mərmi yaxınlığına düşdüyündən şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

**Novruzov Amin Tacəddin oğlu** 16 avqust 1996-cı ildə Balakən rayonunun Qullar kəndidə anadan olub.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kiçik giziri olan Amin Novruzov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amin Novruzov noyabrın 2-də Zəngilan döyüşləri zamanı şəhid olub. Balakən şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Amin Novruzova "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

Amin Novruzov ölümündən sonra "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Novruzov Aqşin Şahin oğlu** 1998-ci il avqustun 15-də Bakı şəhərində anadan olub.

Əsgər Aqşin Novruzov 2020-ci ilin yayında həqiqi hərbi xidmətə çağırılıb, 2-ci Qarabağ müharibəsində iştirak edib. Döyüşlərin əvvəlində ayağından yaralanıb, müalicə olunduqdan sonra yenidən ön cəbhəyə yollanıb. Topçu olaraq briqadası ilə birlikdə döyüşlər zamanı 2 düşmən tankını məhv edib. 13 oktyabr 2020-ci ildə Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Novruzov Elçin Qismət oğlu** 9 avqust 1989-cu ildə Rusiyanın Voronej şəhərində anadan olub.

Əsgər Elçin Novruzov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Elçin Novruzov Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. 16 noyabr 2020-ci ildə Masallı rayonunun Hüseynhacılı kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Novruzov Elvin Ziyafət oğlu** 2001-ci il mayın 3-ü Sumqayıt şəhərində anadan olub.

Əsgər Elvin Novruzov 2020-cil sentyabrın 27-si başlanan Vətən müharibəsində iştirak edib. Qubadlının azad edilməsi uğrundan gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhid olub. Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Novruzov Pərviz Natiq oğlu** 2 fevral 2002-ci ildə Kürdəmir rayonunun Ərəbxana kəndində anadan olub.

Əsgər Pərviz Novruzov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli və Xocavənd istiqamətində erməni silahlı terror dəstələrinin müdafiə istehkamlarını, düşmənin keçilməz zənn etdiyi maneləri aşaraq uşaqlıq illərində ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri amansızlıqların qisasını aldıqdan sonra şəhidlik zirvəsinə yüksəlib. Kürdəmir rayonunun Ərəbxana kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Novruzov Rəşad Elşad oğlu** 2001-ci il aprelin 3-də anadan olub.

Əsgər Rəşad Novruzov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Kəlbəcər, Cəbrayıl, Füzuli və Şuşa rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

2020-ci ilin 9 noyabrında Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Xocavəndin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Kəlbəcərin azad edilməsinə görə", "Şuşanın azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Novruzov Şəhnin Şahlar oğlu** 3 fevral 1998-ci ildə Astaranın Səncərədi kəndində anadan olub.

Əsgər Şəhnin Novruzov 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan 2-ci Qarabağ müharibəsi zamanı cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə iştirak edib. 20 oktyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə şəhid olub.

Ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Noçuyev Surxay Əbdul oğlu** 1988-ci il dekabrın 19-da Zəngilan rayonunun Məmmədbəyli kəndində anadan olub.

Kapitan Surxay Noçuyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə tabor komandiri kimi ön xətdə döyüşüb. Düşmənin çoxsaylı canlı qüvvəsini və texnikasını məhv edib və noyabr ayının 9-u Şuşa şəhərində Vətən müharibəsinin sonuncu günündə qəhrəmancasına Şəhid olub. 12 noyabr 2020-ci il tarixində II Fəxri Xiyabanda dəfn olunub.

O, ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi. Surxay Noçuyev ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Nudirəliyev Zaur İsmayıl oğlu** 1978-ci il sentyabrın 1-də Bakı şəhərində anadan olub.

Polkovnik Zaur Nudirəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində qəhrəmancasına döyüşüb. Ağır yaralanmasına baxmayaraq Zaur Nudirəliyev təyyarədən hatapult edə bilərdi. Amma o, Ermənistan tərəfinə əsir düşməməsi üçün təyyarəni Ermənistan Silahlı Qüvvələrinin canlı qüvvəsinin cəmləşdiyi səngərə çırparaq şəhid olub.

Zaur Nudirəliyevə "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nuhiyev Musa Nüsrət oğlu** 1998-ci il oktyabrın 2-də Zaqatala rayonunun Qımır kəndində dünyaya göz açıb.

Əsgər Musa Nuhiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdam istiqamətində gedən döyüşlərdə iştirak edib.

Musa Nuhiyev oktyabrın 16-da Ağdam istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Zaqatala rayonunun Qımır kəndində torpağa tapşırılıb.

Musa Nuhiyev ölümündən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Nurəhmədov Ramin Maarif oğlu** 1990-cı il sentyabrın 18-də Qusar rayonunun Nəcəfkənd kəndində anadan olub.

Əsgər Ramin Nurəhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Ramin Nurəhmədov noyabrın 2-də Xocavənd rayonu istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub. Qusar rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Nurəliyev Elşən Rövşən oğlu** 16 dekabr 1997-ci ildə Oğuz rayonunun Sincan kəndində anadan olub.

Əsgər Elşən Nurəliyev 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsində Füzuli döyüşlərində savaşıb. Füzuli uğrunda gedən döyüşlərdə düşmən snayperindən açılan atəşlə Elşən Nurəliyev şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Nuri Xəyal Şakir oğlu** 1997-ci il fevralın 12-də Biləsuvar rayonunun Ağayrı kəndində anadan olub.

Əsgər Xəyal Nuri 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyal Nuri noyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunun Ağayrı kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.




**Nuriyev Əfqan Rövşən oğlu** 11 aprel 1997-ci ildə Samux rayonunun Sarıqamış kəndində anadan olub.

Müharibə zamanı motoatıcı manqasının komandiri kimi hərbi xidmətini yerinə yetirib. Laçın istiqamətində döyüş yolu keçib.

3 noyabr 2020-ci ildə Laçın uğrunda gedən döyüşlərdə artilleriya atəşi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Hərbi xidmətlərə görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Nuriyev Hikmət Mübariz oğlu** 2002-ci il fevralın 1-də Lerik rayonunda anadan olub.

Əsgər Hikmət Nuriyev 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə başladı.

Hikmət Nuriyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Hikmət Nuriyev sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Nuriyev Nofəl Xaliq oğlu** 9 yanvar 1988-ci ildə Goranboy rayonunun Qızılhacılı kəndində dünyaya göz açıb.

Çavuş Nofəl Nuriyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində hərbi həkim – feldşer kimi iştirak edib. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərin ən qızğın nöqtələrində yaralanan hərbçilərə yardım göstərib. 29 sentyabr 2020-ci ildə Ağdərə-Suqovuşan döyüşləri gedişatında "Qaranlıq meşə" adlanan ərazidə hərbi tibbi vəzifəsini yerinə yetirərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Nuriyev Saleh Səxavət oğlu** 18 iyul 2002-ci ildə Sumqayıt şəhərində doğulub. Əslən Qubadandır.

Əsgər Saleh Nuriyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 16-da Qubadlı uğrunda gedən döyüşlərdə artilleriya atəşi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Cəbrayılın azad olunmasına görə, "Qubadlı azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Nuriyev Vüqar Hafis oğlu** 29 sentyabr 2000-ci ildə İmişli rayonunda anadan olub.

Əsgər Vüqar Nuriyev 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Qubadlının, Zəngilanın, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şuşa döyüşləri zamanı vuruşaraq şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nurməmmədov Nurlan Niyazi oğlu** 20 may 2002-ci il tarixində Şabran rayonunun (o vaxtlar Dəvəçi adlandırılırdı) Sincanboyad kəndində anadan olub.

Əsgər Nurlan Nurməmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Nurlan Nurməmmədov Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. O, oktyabrın 13-də, Füzuli rayonu ərazisində şəhid olub. Nurlan Nurməmmədov oktyabrın 14-də Şabran Şəhər Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Nurmətov Çoban Razəddin oğlu** 23 noyabr 1984-cü ildə Qusar rayonunun Cibir kəndində doğulub. 27 sentyabr 2020-ci ildə başlanan 2-ci Qarabağ müharibəsində baş gizir Nurmətov Çoban elə ilk gündən iştirak edərək mərdliklə döyüşüb. Döyüş vaxtı neçə-neçə yaralını xilas edib.

Baş gizir Nurmətov Çoban "Kəşfiyyatın ürəyi" ləqəbini almışdı. O, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Füzulidə, Şuşa şəhərinin alınması uğrunda gedən döyüşlərdə vuruşub. Nurmətov Çoban 23 oktyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Nurizadə Qalib Habil oğlu** 10 iyun 1996-cı ildə Lənkəran rayonunun Gərgiran kəndində dünyaya gəlib.

Əsgər Qalib Nurizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Qalib Nurizadə noyabrın 11-də Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub. Qalibin 40-ı olmamış, atası oğul itkisinə dözməyərək vəfat edib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Nuruzadə Elşən Əlisa oğlu** 13 iyun 1996-cı ildə Göyçay rayonunda dünyaya gəlib.

Əsgər Elşən Nuriyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Elşən Nuriyev oktyabrın 4-də şəhid olub. Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Nuruzadə Nurlan Tofiq oğlu** 2001-ci ilin avqust ayının 9-da Sumqayıt şəhərində doğulub.

Zabitlər tərəfindən həmişə təqdir görən gənc topçu, əsgər yoldaşları arasında da hörmət sahibi olub. Azərbaycan Böyük Vətən müharibəsinin ilk günündən döyüşlərə cəlb olunan topçumuz Füzuli istiqamətində gedən ağır döyüşlərdə – 2020-ci il oktyabrın 1-də şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medaları ilə təltif edildi.



**Nurullayev Anar Siyavuş oğlu** 2001-ci il yanvarın 19-da Sabirabad rayonunun Osmanlı kəndində anadan olub.

Kiçik çavuş Anar Nurullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Anar Nurullayev sentyabrın 30-da Talış istiqamətində şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 2021-ci il fevralın 17-də Sabirabad rayonunun Osmanlı kəndində dəfn olunub.

Anar Nurullayev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Nurullayev Elnur Fərhad oğlu** 8 oktyabr 2000-ci ildə Şəkinin Kiş kəndində doğulub.

Əsgər Elnur Nurullayev sentyabrın 29-da ordu sıralarına qoşulub. Əsasən Laçın istiqamətində gedən qızğın döyüşlərdə iştirak edib. Oktyabrın 28-də Laçın uğrunda gedən döyüşlərdə artilleriya atəşi nəticəsində şəhidlik zirvəsinə ucalıb.


O, ölümündən sonra "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nurzadə Rövşən Əli oğlu** 1975-ci il martın 24-də Sumqayıt şəhərində anadan olub.

Baş leytenant Rövşən Nurzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rövşən Nurzadə noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Rövşən Nurzadə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Nurzaliyev Elməddin Səfər oğlu** 1996-cı il noyabrın 22-də anadan olub.

Əsgər Elməddin Nurzaliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Kəlbəcər, Cəbrayıl, Füzuli və Şuşa rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. Müharibənin başa çatmasına saatlar qalmış, noyabrın 9-u axşam Şuşada qəhrəmancasına şəhidlik məqamına ucalıb. Şuşa fatehimiz Şuşanın azad edilməsindən bir gün sonra Şuşada da Şəhadətinə qovuşub və nəşi noyabrın 10-da Hacıqabula gətirilərək rayon qəbiristanlığında dəfn edilib.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Şuşanın azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Nüsrətbəyli Ülvi Arif oğlu** 1999-cu il fevralın 14-də Masallı rayonunun Güllütəpə kəndində anadan olub.

Əsgər Ülvi Nüsrətbəyli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülvi Nüsrətbəyli oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub. Masallı rayonunda dəfn olunub.

Ülvi Nüsrətbəyli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Nüsrətli Ceyhun Aqil oğlu** 8 aprel 1995-ci ildə Bakıda doğulub. Ceyhunun ailəsi Füzuli rayonunun Dilağarda kəndindəndir.

Əsgər Ceyhun Nüsrətli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Sentyabrın 29-da Ağdərə istiqamətində gedən döyüşlərdə aldığı mərmi zərbələri nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Omarov Elmar Elvar oğlu** 2001-ci il martın 23-də Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olub.

2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət edib.

Əsgər Elmar Omarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Şuşa istiqamətində gedən döyüşlərdə xüsusi şücaət göstərib. Noyabrın 9-da Şuşa döyüşlərində şəhid olub.

Qazax rayonunun İkinci Şıxlı kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Omarov Vüsal Şəmsəddinoviç** 1989-cu il iyulun 7-də Kemerovo vilayətinin Prokopyevsk şəhərində anadan olub.

Gizir Vüsal Omarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Vüsal Omarov sentyabrın 27-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Balakən Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Vüsal Omarov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Ömərli Kənan Elxan oğlu** 1999-cu ilin mart ayının 8-də Göyçay rayonunun Cəyirli kəndində dünyaya göz açıb.

Kənan Ömərli Ağdam uğrunda gedən döyüşlərdə oktyabrın 6-da şəhid olub. Göyçay rayonunda doğulduğu kənddə torpağa tapşırılıb.

Kənan Ömərli ölümündən sonra "Vətən müharibəsi iştirakçısı", "Ağdamın azad olunması", "Vətən uğrunda" medalları ilə təltif edildi.

**Ömərov Elvin Xeybər oğlu** 1991-ci il avqustun 18-də Kürdəmir rayonunun Qarasu kəndində anadan olub.

Baş gizir Elvin Ömərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Elvin Ömərov oktyabrın 10-da Hadrut döyüşləri zamanı şəhid olub. Kürdəmir rayonunun Qarasu kəndində dəfn olunub.

Elvin Ömərov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ömərov Orxan İmran oğlu** 1991-ci il oktyabrın 17-də Quba rayonunun Qonaqkənd qəsəbəsində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Orxan Ömərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Ömərov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Quba rayonunun Qonaqkənd qəsəbəsində dəfn olunub.

Orxan Ömərov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ömərov Qoşqar Səxavət oğlu** 9 fevral 1994-cü ildə Kürdəmir rayonunun Şilyan (Qarasu) kəndində müəllim ailəsində anadan olub.

Əsgər Qoşqar Ömərov 21 sentyabr 2020-ci ildə Vətənin çağırışına qoşularaq Ordu sıralarına daxil olub. 27 sentyabrda Füzuli cəbhəsindən müharibəyə qatılıb, döyüşlərdə xüsusi fəallığı və igidliyi ilə seçilərək kəşfiyyat bölüyünə daxil edilib. Bir sıra yüksəkliklər uğrunda döyüşlərdə iştirak edib. Noyabrın 4-də Şuşanın Daşaltı kəndinin ətrafında gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Orucov Afər Yafət oğlu** 1996-cı il martın 13-də Quba rayonunun Aşağı Atuc kəndində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Afər Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Afər Orucov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Afər Orucov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Orucov Bayram Çərkəz oğlu** 2001-ci il fevral 17-də Göyçay rayonunun Alpout kəndində anadan olub.

Əsgər Bayram Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Bayram Orucov oktyabrın 24-də şəhid olub. Göyçay rayonunda dəfn olunub.

Bayram Orucov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Orucov Ceyhun Namaz oğlu** 1996-cı il dekabrın 17-də Şamaxı rayonunun Nağaraxana kəndində anadan olub.

Gizir Ceyhun Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Ceyhun Orucov oktyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Ceyhun Orucov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Orucov Coşqun Oruc oğlu** 2001-ci ildə Naxçıvanın Culfa rayonunda anadan olub.

Əsgər Coşqun Orucov Vətən müharibəsinin ilk günlərindən döyüşlərə könüllü qoşulub. Coşqun orduda müvəqqəti hərbi xidməti bitirdikdən sonra, MAHHXHQ (kəşfiyyatçı) vəzifəsində işləməyə başlayıb. Yaxşı snayperçi olub. İgid döyüşçü oktyabrın 21-də Hadrud istiqamətində gedən ağır döyüşlərdə düşmənin snayper gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalıb. Onun nəşi ötən ilin oktyabrında Bakının Suraxanı rayonuda yerləşən Dədə Qorqud qəsəbə qəbiristanlığında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Orucov Elmir Elyar oğlu** 2002-ci il yanvarın 4-də Ağstafa rayonunun Poylu kəndində anadan olub.

Əsgər Elmir Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elmir Orucov noyabrın 6-da Xocavənd rayonu ərazisində gedən döyüşlər zamanı şəhid olub. Binə Şəhidlər Xiyabanında dəfn olunub.

Elmir Orucov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Orucov Elşən Ehtiram oğlu** 6 avqust 1991-ci ildə Qazax rayonunun Xanlıqlar kəndində anadan olub.


Çavuş Elşən Orucov 5 noyabr 2020-ci il tarixində Füzuli rayonu istiqamətində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Noyabrın 6-da doğulduğu Qazax rayonunun Xanlıqlar kənd qəbiristanlığında izdihamla dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Orucov Elşən Yavər oğlu** 1985-ci il avqustun 11-də Ayrınc kəndində anadan olub. Mayor Elşən Orucov 2020-ci ilin sentyabrında başlayan Vətən Müharibəsində Füzuli-Cəbrayıl-Zəngilan-Qubadlı istiqamətindəki döyüşlərdə öz əsgərləri ilə böyük qəhrəmanlıq göstərərək düşmənin xeyli canlı qüvvəsini məhv edib, onlarla döyüş texnikasını ələ keçirib, bu ərazilərdə yerləşən 4 strateji yüksəkliyi öz hərbi məharətindən istifadə edərək təkbaşına azad edib. Oktyabrın 22-də Qubadlının Muradbəyli kəndinin azad olunmasında xüsusi rəşadət göstərib, öz əsgərləri ilə birlikdə erməni ordusunun 137 nəfər canlı qüvvəsini məhv edib. Bu döyüşdə Muradbəyli kəndi düşməndən azad olunsa da, mayor Elşən Orucov və 22 əsgəri qəhrəmancasına şəhid olub.

O, şəhadətindən sonra da "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Orucov Elvin Rövşən oğlu** 1991-ci il dekabrın 18-də Qazax rayonunda anadan olub.

Gizir Elvin Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Elvin Orucov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Qazax rayonunda torpağa tapşırılıb.

Elvin Orucov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Orucov İsə Razim oğlu** 20 iyun 2001-ci ildə Şəmkir rayonunun Seyfəli kəndində anadan olub.

Orucov İsə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, igidlik və mərdlik göstərərək oktyabrın 27-də Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümüdən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə","Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Orucov Kinyaz Zirəddin oğlu** 2000-ci il mayın 10-da Gəncə şəhərində anadan olub.

Əsgər Kinyaz Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kinyaz Orucov oktyabrın 7-də Füzuli döyüşləri zamanı şəhid olub.

Kinyaz Orucov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Orucov Mirzəcan Araz oğlu** 2001-ci il sentyabrın 14-də Şamaxı rayonunun Sis kəndində anadan olub.

Əsgər Mirzəcan Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Mirzəcan Orucov oktyabrın 7-də şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında dəfn olunub.


Mirzəcan Orucov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Orucov Nail Rəfail oğlu** 1978-ci il iyunun 11-də Astara rayonunun Məsçitməhəllə kəndində anadan olub.

Polkovnik-leytenant Nail Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nail Orucov oktyabrın 31-də Qubadlı döyüşləri zamanı şəhid olub. Astara rayonunda dəfn olunub.

Nail Orucov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Orucov Nemət Əkbər oğlu** 1994-cü il 15 noyabr tarixində Goranboy rayonunun Qaraçılar kəndində anadan olub.

Leytenant Nemət Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nemət Orucov sentyabrın 27-də Xocavənd döyüşləri gedişatında rayonda yerləşən Nərgiztəpə ərazisində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Goranboy rayonunda dəfn olunub.

Nemət Orucov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Orucov Nicat Niyadxan oğlu** 20 iyul 1999-cu ildə anadan olub.

Əsgər Nicat Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

Oktyabrın 26-da Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən Uğrunda", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Şuşanın azad edilməsinə görə" medalları ilə təltif edildi.



**Orucov Şakir Bakir oğlu** 1999-cu il martın 24-də Beyləqan rayonunun Qəhrəmanlı kəndində anadan olub.

Əsgər Şakir Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Şakir Orucov oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunun Qəhrəmanlı kəndində torpağa tapşırılıb.

Şakir Orucov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Osmanov Ərzuman Kamran oğlu** 1990-cı 25 dekabr tarixində Ağdaş rayonunun Orta Ləki kəndində anadan olub.

Əsgər  Ərzuman Osmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı şücaətlə döyüşüb. Əsgər yoldaşları arasında "Aliço" ləqəbi ilə tanınan Ərzuman Osmanov oktyabrın 1-də Madagiz uğrunda döyüşlərdə ağır yaralanıb və ondan bir daha xəbər alınmayıb.

İtkin düşən Ərzuman Osmanovun nəşi dekabrda aparılan axtarışlar zamanı tapılıb və DNT analizindən sonra 9 dekabr 2020-ci il tarixində ailəsinə təhvil verilib. Ərzuman Osmanov 10 dekabr tarixində Mingəçevir şəhər şəhidlər xiyabanında böyük izdihamla dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" , "Cəsur döyüşçü" , "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Osmanov Əyyub Azər oğlu** 15 oktyabr 1995-ci ildə Ağdaş rayonunun Şıxlı kəndində anadan olub.

Əsgər Əyyub Osmanov sentyabrın 29-da Vətənin müdafiəsinə yollanıb. Əyyub Osmanov Qubadlı şəhəri uğrunda olan döyüşlərdə qəhrəmanlıq göstərib. Hərəkət etdikləri avtomobilin vurulması nəticəsində itkin düşən şəhidin nəşi 16 dekabrda ailəsinə təhvil verilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Osmanov Nizami Elşad oğlu** 2002-ci il martın 29-da Kürdəmir rayonunda dünyaya gəlib.

Əsgər Nizami Osmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 14-də müharibənin ən qızğın dövründə Talış-Suqovuşan istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Orucov Səbuhi Vahid oğlu** 1993-cü il yanvarın 20-də Bakı şəhərində anadan olub.

Çavuş Səbuhi Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının və Laçın rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Səbuhi Orucov oktyabrın 26-da Laçın döyüşüşləri zamanı şəhid olub.

Səbuhi Orucov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə", "Azərbaycan Bayrağı" ordenləri, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Orucov Tural Əmir oğlu** 1993-cü il yanvarın 1-də Mingəçevir şəhərində anadan olub.

Kiçik çavuş Tural Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Orucov noyabrın 5-də Qubadlı döyüşləri zamanı şəhid olub. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Tural Orucov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Orucov Ürfan Firdovsi oğlu** 1996-cı il oktyabrın 9-da Şabran şəhərində anadan olub.

Əsgər Ürfan Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ürfan Orucov oktyabrın 11-də Füzuli döyüşləri zamanı şəhid olub. Şabran şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Ürfan Orucov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Orucov Xalid Saleh oğlu** 1996-cı il avqustun 7-də Neftçalanın Aşağı Surra kəndində anadan olub.

Leytenant Xalid Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xalid Orucov oktyabrın 12-də Xocavənd döyüşləri zamanı şəhid olub. Neftçala rayonunda dəfn olunub.

Xalid Orucov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Orucov Xudayət Vilayət oğlu** 1987-ci il sentyabrın 4-də Ağstafa rayonunun Aşağı Kəsəmən kəndində anadan olub.

Kiçik çavuş Xudayət Orucov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xudayət Orucov noyabrın 4-də Laçın döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Aşağı Kəsəmən kəndində dəfn olunub.

Xudayət Orucov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Orucov Yunis Şaiq oğlu** 2001-ci il mayın 1-də Neftçalanın Aşağı Qaramanlı kəndində doğulub.

Əsgər Yunis Orucov 2020-ci ilin sentyabrın 27-si Vətən müharibəsi başlayanda ön cəbhəyə yollanıb. Tovuz döyüşlərində qəhrəmanlıqla iştirak etdikdən sonra Talış kəndi və Suqovuşan istiqamətində gedən şiddətli döyüşlərdə vuruşub. 2020-ci ilin oktyabr ayının 14-ü Ağdam-Ağdərə istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb, Aşağı Qaramanlı kəndində dəfn olunub.

Şəhadətindən sonra Yunis Orucov "Suqovuşanın azad olunmasına görə " və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Osmanlı Teymur Saday oğlu** 1995-ci il mayın 31-də İsmayıllı rayonunun Cülyan kəndində anadan olub.

Əsgər Teymur Osmanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Teymur Osmanlı oktyabrın 17-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Teymur Osmanlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Osmanov Məhəmməd Seymur oğlu** 27 oktyabr 1994-cü ildə Ağdaş rayonunun Ərəbocağı kəndində anadan olub.

Əsgər Məhəmməd Osmanov Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 4-də Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olub.


O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Osmanov Nəzir Rahib oğlu** 1998-ci il yanvarın 1-də Qax rayonunun Qıpçaq kəndində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının əsgəri olan Nəzir Osmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nəzir Osmanov noyabrın 1-də Şuşa döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Osmanov Orxan Mənsur oğlu** 1999-cu il noyabrln 25-də Xaçmaz rayonunun Murşudoba kəndində anadan olub.

Əsgər Orxan Osmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı baş atıcı kimi hərbi xidmətini yerinə yetirib. Talış-Suqovuşan istiqamətində döyüş yolu keçib.

Oktyabrın 1-də Talış Suqovuşan istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Paşayev Abdulla Sultan oğlu** 1998-ci il iyulun 24-də Gəncə şəhərində anadan olub.

Əsgər Abdulla Paşayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Abdulla Paşayev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Abdulla Paşayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.

**Paşayev Cavid Vəlican oğlu** 1997-ci il yanvarın 1-də Cəlilabad rayonunun Gülməmmədli kəndində anadan olub.

Əsgər Cavid Paşayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Qubadlı və Füzuli uğrunda gedən döyüşlərdə savaşıb.

Cavid Paşayev oktyabrın 21-də Qubadlı istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Paşayev Daşdəmir Əlizaman oğlu** 1982-ci ildə Bakı şəhərində anadan olmuşdur.

Mayor Daşdəmir Paşayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı ehtiyatda olan bir zabit kimi könüllülər üzərində komandir vəzifəsinə təyin olunub. Füzuli uğrunda gedən şiddətli döyüşlərdə fəal iştirak edib, düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını məhv edib. Qəhrəman komandir 13 oktyabrda qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Paşayev Elgün İlham oğlu** 1994-cü il martın 4-də Sabirabad şəhərində anadan olub.

Kiçik çavuş Elgün Paşayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elgün Paşayev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Paşayev Elsevər Vaqif oğlu** 1988-ci il iyul ayının 1-də Cəbrayıl rayonunun Qovşudlu kəndində anadan olub.

Vətənin bölünməzliyi və müstəqilliyi uğrunda gedən İkinci Qarabağ savaşında 400-ə yaxın əsgərimizi mühasirədən çıxaran Mayor E. Paşayev Xudafərin körpüsünə Azərbaycan bayrağını sancıb. Oktyabrın 25-də Qubadlı rayonunun azadlığı uğrundakı döyüşlərdə qəhrəmancasına şəhid olub. II Fəxri Xiyabanda dəfn edilib.

O, ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə də təltif edildi.





**Paşayev Əvəz Telman oğlu** 1995-ci il 17 avqustda Yevlaxın Marzılı kəndində anadan olub.

2020-ci il sentyabrın 21-də ölkədə qismən səfərbərlik elan olunur. Əvəz bütün işlərini yarımçıq qoyub səfərbərliyə yazılır və təlimlərə cəlb olunur. Sentyabrın 27-də təlimlərdən birbaşa müharibəyə yollanır. İlk gündən Tərtər-Ağdərə istiqamətində döyüşlərə qatılır və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb.

Əvəz Paşayev sentyabrın 29-da Suqovuşanda şəhid olub. Oktyabrın 12-də şəhidin nəşi ailəsinə təhvil verilib. Həmin gün Hacışelli kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Paşayev Firdovsi Afiq oğlu** 2000-ci il noyabr ayının 14-də Gədəbəy rayonunun Kələman kəndində doğulub.

Elə xidmətə başladığı ilk aylardan komandirləri tərəfindən ailəsinə təşəkkür məktubları gəlir və zamanı gəlincə Firdovsi silahdaşları ilə birgə hünər meydanına atılır. O da qəhrəman qardaşları kimi İkinci Qarabağ müharibəsində Füzuli uğrunda döyüşür. 2020-ci il oktyabrın 18-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhadət zirvəsinə yüksəlir.

Firdovsi Paşayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Paşayev Mahir Bəxtiyar oğlu** 1997-ci il iyulun 1-də Cəlilabad rayonunun Əsədli kəndində anadan olub.

Kiçik çavuş Mahir Paşayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Hadrut qəsəbəsinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mahir Paşayev oktyabrın 9-da Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub.

Mahir Paşayev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Paşayev Məhəbbət Vaqif oğlu** 5 avqust 1999-cu ildə Şəki rayonunun Bolludərə kəndində anadan olub.

Azərbaycan Silahlı Qüvvələrinin müddətdən artıq xidmət edən hərbi qulluqçusu olan Məhəbbət Paşayev 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan 2-ci Qarabağ müharibəsi zamanı Suqovuşan uğrunda gedən döyüşlərdə savaşıb. Məhəbbət Paşayev sentyabrın 30-da Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Məhəbbət Paşayev Oğuz Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Paşayev Ramil Şakir oğlu** 1994-cü il iyulun 28-də Bərdə rayonunun Əyricə kəndində anadan olub.

Kiçik çavuş Ramil Paşayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ramil Paşayev oktyabrın 27-də Ağdərə istiqamətində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Paşayev Samir Adışirin oğlu** 1999-cu il oktyabrın 7-də Bakı şəhərinin Binəqədi rayonunda anadan olub.

Müharibə zamanı baş atıcı kimi hərbi xidmətini yerinə yetirib. Talış-Suqovuşan istiqamətində döyüş yolu keçib.

Sentyabrın 28-də Talış-Suqovuşan istiqamətində gedən döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Paşazadə Cavid Telman oğlu** 2001-ci il avqustun 27-də Bakı şəhərində anadan olub.

Əsgər Cavid Paşazadə 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı verilən tapşırığa əsasən əsgər yoldaşları ilə birgə ön cəbhəyə yola düşüb. O, Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Paxırov Elsevər Eyvaz oğlu** 19 iyul 1997-ci ildə Balakən rayonunun Hənifə kəndində anadan olub.

Kiçik gizir Paxırov Elsevər 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində ilk döyüşlərə qatılan sərhədçilərdən biri olub. Cəsur bir kəşfiyyatçı kimi uğurlu əməliyyatlarda iştirak edən Elsevər verilən döyüş tapşırıqlarını layiqincə yerinə yetirib. Cəbhənin Xocavənd rayonu ərazisində gedən döyüşlərdə Elsevər xüsusi fərqlənib. Oktyabrın 9-da Hadrut istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub. Oktyabrın 16-da Balakən rayonunun Hənifə kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Pənahov Bəhram Xıdır oğlu** 2 iyul 1987-ci ildə Şeyx Nizaminin adına olan Nizamikənd kəndində doğulub.

Əsgər Bəhram Pənahov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Ağır və çətin sınaqlardan keçən əsgər oktyabrın 9-u Xocavənd uğrundakı qanlı döyüşlərin birində şəhid olub. Oktyabarın 20-də kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Pənahov Əkbər Bəylər oğlu** 1990-cı il avqustun 12-də anadan olub.

Kapitan Əkbər Pənahov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Əkbər Pənahov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı itkin düşüb. Uzun müddət davam edən axtarış əməliyyatlarından sonra 10 iyul 2021-ci il tarixində nəşi tapılıb. Şəhid 12 iyul tarixində 2-ci Fəxri Xiyabanda dəfn edilib.

Əkbər Pənahov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Pənahov Elməddin Məqsəd oğlu** 1983-cü il sentyabrın 7-də Qazax rayonunun Ürkməzli kəndində anadan olub.

Çavuş Elməddin Pənahov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elməddin Pənahov oktyabrın 13-də Füzuli döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Ürkməzli kəndində dəfn olunub.

Elməddin Pənahov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Pənahov Roman Sərkər oğlu** 31 avqust 1995-ci ildə Ağsu rayonunun Yenilik kəndində dünyaya göz açıb.

Əsgər Roman Pənahov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində iştirak edərək Füzulinin, Cəbrayılın, Qubadlının azad olunması uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirib. Noyabr ayının əvvəllərindən başlayan Şuşa döyüşlərində də iştirak edən əsgər Roman Pənahov 4 noyabr 2020-ci ildə Şuşa rayonunun Daşaltı kəndi istiqamətində şəhid olub. 10 noyabr 2020-ci ildə Ağsu rayonu Yenilik kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə","Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Pənahov Rövşən Mahmud oğlu** 1989-cu il oktyabrın 2-də Qazax rayonunun Birinci Şıxlı kəndində dünyaya göz açıb.

Azərbaycan Silahlı Qüvvələrinin kapitanı olan Rövşən Pənahov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Rövşən Pənahov oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Birinci Şıxlı kəndində torpağa tapşırılıb.

Rövşən Pənahov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Pənahov Ülvi Nizami oğlu** 2001-ci il martın 4-də Nizami rayonunun Keşlə qəsəbəsində anadan olub.

Əsgəri Ülvi Pənahov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülvi Pənahov oktyabrın 2-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Nizami rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.

Ülvi Pənahov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Piriyev Elsevər Mahir oğlu** 1995-ci il iyunun 12-də Ağcabədi rayonunun Arazbar kəndində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Elsevər Piriyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elsevər Piriyev oktyabrın 16-da Hadrut döyüşləri zamanı şəhid olub.

Elsevər Piriyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Piriyev Elşən Şəfalət oğlu** 1989-cu il sentyabrın 24-də Ağstafa rayonunun Kolxəlfəli kəndində anadan olub.

Kiçik çavuş Elşən Piriyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elşən Piriyev oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Kolxəlfəli kəndində dəfn olunub.

Elşən Piriyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Piriyev Raul Zabid oğlu** 04 iyun 1997-ci il tarixdə Şəmkir rayonu Kür qəsəbəsində anadan olub.

Əsgər Raul Piriyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qoşulub. Murovdağ, Füzuli və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərib.

Oktyabrın 13-də Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə","Cəbrayılın azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Piriyev Səttər Fuad oğlu** 1998-ci il oktyabrın 25-də Quba rayonunun Zərdabi qəsəbəsində anadan olub.

Leytenant Səttər Piriyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə bölmələrin mühasirədən çıxarılmasında, həmçinin yaralı hərbçilərin döyüş meydanından təxliyəsində fərqlənib. Səttər Piriyev noyabrın 7-də Xocavənd döyüşləri zamanı "Qızılqaya" və "Üçtəpə" adlandırılan ərazilər istiqamətində şəhid olub. Quba rayonunda dəfn olunub.

Səttər Piriyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Pirvələdov Famil Teyfur oğlu** 1995-ci il mayın 30-da Qusar rayonunun Yuxarı Zeyxur kəndində anadan olub.

Kiçik çavuş Famil Pirvələdov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Famil Pirvələdov oktyabrın 18-də Füzuli döyüşləri zamanı şəhid olub.

Famil Pirvələdov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Poladov Aynur Şıxbaba oğlu** 1980-ci il oktyabrın 20-də Şabran rayonunun Zeyvə kəndində anadan olub.


Baş gizir Aynur Poladov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Aynur Poladov oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub. Şabran rayonunun Zeyvə kəndində dəfn olunub.

Aynur Poladov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.

**Pirseyidov Elnur Nasir oğlu** Qusar rayonunun Avaran kəndində anadan olub.

Gizir Elnur Pirseyidov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur Pirseyidov oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Poladov Elçin Adil oğlu** 2001-ci noyabrın 27-də Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olub.

ƏsgərElçin Poladov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Elçin Poladov noyabrın 6-da Qırmızı Bazar qəsəbəsi istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Tovuz rayonunun Aşağı Quşçu kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Putiyev Əhməd Şamil oğlu** 2001-ci il avqustun 12-də Zaqatala rayonunun Mazıx kəndində anadan olub.

Əsgər Əhməd Putiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Əhməd Putiyev oktyabrın 23-də Füzuli döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunun Mazıx kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Qaçayev İntizam Əkbər oğlu** 2001-ci il dekabrın 14-də Göyçay rayonunun 2-ci Ərəbcəbirli kəndində anadan olub.

Əsgər İntizam Qaçayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. İntizam Qaçayev oktyabrın 23-də şəhid olub. Göyçay rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Qaçayev Röyal Fərman oğlu** 2002-ci il yanvarın 5-də Qobustan rayonunda dünyaya gəlib.

Əsgər Röyal Qaçayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan istiqamətində döyüşüb.

Oktyabrın 14-də Talış-Suqovuşan istiqamətində döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Qafarov Elnur Mirzəxan oğlu** 1981-ci il dekabrın 21-də Siyəzən şəhərində anadan olub.

Çavuş Elnur Qafarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur Qafarov oktyabrın 16-da Hadrut döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qafarov Kənan Siyaqif oğlu** 1996-cı il avqustun 6-da Göyçay rayonunun Yalman kəndində anadan olub.

Əsgər Kənan Qafarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. Çiynindən və ayağından yaralanmasına baxmayaraq döyüşlərə davam edib. Kənan Qafarov oktyabrın 7-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan artilleriya mərmi-sinin partlayışı nəticəsində aldığı çoxsaylı qəlpə zədələnməsindən şəhid olub. Göyçay rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qafarov Zərbəli Vidadi oğlu** 13 iyun 1990-cı ildə Gəncə şəhərində anadan olub.

Əsgər Zərbəli Qafarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə, Tərtər və Goranboy rayonları istiqamətində vuruşub. Zərbəli Qafarov 8 oktyabr 2020-ci ildə Suqovuşan qəsəbəsi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. 9 oktyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Qaflanov Şixamir Oruc oğlu** 1986-cı il dekabrın 7-də Zaqatala rayonunun Dombabinə (hal-hazırda Üçüncü Tala) kəndində anadan olub.

Mayor Qaflanov Şixamir 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub.

Xüsusi təyinatlılar arasında "Əfsanəvi Rembo" ləqəbini qazanıb. Qaflanov Şixamir Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

Şixamir Qaflanova "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Qalayçiyev Faiq İsrafil oğlu** 2001-ci il dekabrın 16-da Balakən rayonunun Kortala kəndində anadan olub.

Əsgər Faiq Qalayçiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Faiq Qalayçiyev noyabrın 2-də Zəngilan döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Kortala kəndində torpağa tapşırılıb.

Faiq Qalayçiyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qəniyev İsaxan İsaman oğlu** 1985-ci il noyabrın 11-də Şamaxı şəhərində anadan olub.

Gizir Qəniyev İsaxan 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb.

İsaxan Qəniyev sentyabrın 27-də Tərtər istiqamətində gedən döyüşlərdə şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında dəfn olunub.

İsaxan Qəniyev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Qaracayev Nurlan Ömər oğlu** 1999-cu il mayın 10-da Balakən rayonunun Kortala kəndində anadan olub.

Əsgər Nurlan Qaracayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Nurlan Qaracayev oktyabrın 8-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Nurlan Qaracayev ölümündən sonra "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Qaraxanov Səfa Yenişər oğlu** 1994-cü il fevralın 22-də Salyan rayonunun Xalac kəndində anadan olub.

Əsgər Səfa Qaraxanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 1-də Füzuli döyüşləri zamanı qəhramancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Qarayev Amal Ədalət oğlu** 2001-ci il yanvarın 23-də Yardımlı rayonunun Ərus kəndində anadan olub.

Əsgər Amal Qarayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amal Qarayev oktyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub. Yardımlı rayonunda dəfn olunub.

Amal Qarayev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qarayev Anar Çingiz oğlu** 1998-ci il iyunun 16-da Qax rayonunun Almalı kəndində anadan olub.

Əsgər Anar Qarayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Anar Qarayev oktyabrın 4-də Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qarayev Cavid Əmirxan oğlu** 1984-cü il sentyabrın 5-də Füzuli rayonunun Kərimbəyli kəndində anadan olub.

Çavuş Cavid Qarayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cavid Qarayev oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub. Füzuli rayonunun Kərimbəyli kəndində dəfn olunub.

Cavid Qarayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Qarayev Elnur Qalib oğlu** 13 noyabr 1996-cı ildə Şirvanda anadan olub.

Əsgər Elnur Qarayev 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan 2-ci Qarabağ müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. 2020-ci il noyabrın 2-də qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Qarayev Elyaz Vəli oğlu** 1998 ci il oktyabrın 20-də Bərdə rayonunun Dəymədağlı kəndində anadan olub.

Əsgər Elyaz Qarayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının və yüksəkliklərinin azad edilməsində vuruşub. Oktyabrın 28-də Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən Uğrunda" , "Füzulinin azad olunmasına görə" və "Xocavənd azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qarayev Namiq Qarakişi oğlu** 1979-cu il aprelin 21-də Ucar rayonunun Qazıqumlaq kəndində anadan olub.

Əsgər Namiq Qarayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Oktyabrın 1-də Kəlbəcər rayonu uğrunda aparılan döyüş əməliyyatları zamanı şəhid olub.

O, ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" , "Vətən uğrunda", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Qarayev Süleyman Əlbağış oğlu** 1995-ci il iyulun 3-də Sabirabadın Qalağayın kəndində doğulub.

Süleyman Qarayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə qoşulub. Oktyabrın 7-də Ağdamın azadlığı uğrunda qəhrəmancasına döyüşüb və şəhidlik zirvəsinə ucalıb. Doğulduğu Qalağayın kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Qarayev Təhmasib Hikmət oğlu** 1996-cı il mayın 18-də Ağcabədi rayonunun Kəbirli kəndində anadan olub.

Çavuş Təhmasib Qarayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Çiyin-çiyinə döyüşdüyü hərbçi yoldaşlarının dediyinə görə 22 oktyabr 2020-ci ildə Qırmızı bazar deyilən ərazidə gedən qızğın döyüşlər zamanı qəhrəmancasına şəhid olub. 23 oktyabr 2020-ci ildə Ağcabədi rayonunun Kəbirli kənd qəbiristanlığında dəfn olunub.


O, ölümündən sonra "Rəşadət" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları təltif edildi.



**Qarayev Telman Əli oğlu** 1999-cu il dekabrın 15-də Şəmkir rayonunda anadan olub.

Əsgər Telman Qarayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Telman Qarayev noyabrın 8-də Xocavənd rayonu ərazisində gedən döyüşlər zamanı ağır yaralanıb. Noyabrın 25-də Füzuli rayon Hərbi Xəstəxanasında şəhid olub. Şəmkir rayonunda dəfn olunub.

Telman Qarayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qarayev Tural Şahin oğlu** 1991-ci il aprel ayının 29-da Bakının Binəqədi rayonunun 28 May qəsəbəsində anadan olub.

Kiçik çavuş Tural Qarayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Qarayev oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub. Qobustan rayonunun Bəklə kəndində dəfn olunub.

Tural Qarayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qardaşxanov Qismət Qərib oğlu** 30 avqust 2020-ci ildə Füzuli rayonunun Mahmudlu kəndində dünyaya gəlib.

Əsgər Qismət Qardaşxanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Qismət Qardaşxanov 5 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Qismət Qardaşxanov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəsur döyüşçü","Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Qasımlı Mir Həmid Nazim oğlu** 29 sentyabr 1994-cü ildə Bakı şəhərində anadan olub. Əslən Xızı rayonundan idi.

Əsgər Mir Həmid Qasımlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzuli rayonları istiqamətində döyüşüb.

Mir Həmid Qasımlı 2020-ci il oktyabrın 21-də Füzuli uğrunda döyüşlər zamanı şəhid olub.

Əvvəlcə Qaradağ rayonundakı Ümumşəhər qəbiristanlığında dəfn olunub. Daha sonra məzarı II Şəhidlər Xiyabanına köçürülüb.

Mir Həmid Qasımlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Qasımlı Muxtar Əli oğlu** 23 fevral 1993-cü ildə Bakı şəhərində anadan olub.

Baş leytenant olan Muxtar Qasımlı 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 2-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olub. Bakı şəhəri Qala qəbiristanlığında dəfn olunub.

Muxtar Qasımlı ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Abbas Rza oğlu** 1986-cı il martın 17-də Masis rayonunun (Zəngibasar rayonu) Rəhimabad kəndində anadan olub.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının mayoru olan hərbi pilot Abbas Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Abbas Qasımov sentyabrın 27-də Füzuli döyüşləri zamanı baş leytenant Xalid Gözəlov ilə birgə şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub. Vətən müharibəsinin başladığı birinci dəqiqələrdə şəhid olan Abbas Qasımov və baş leytenant Xalid Gözəlov müharibənin birinci şəhidləri oldular.

O, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Azər Yaqub oğlu** 1979-cu ildə Tərtər rayonunun Yenikənd kəndində anadan olub.

Əsgər Azər Qasımov Tərtərin Suqovusan kəndi uğrunda və ətraf yüksəkliklərin alınmasında iştirak edib. Azər döyüşlərdə iki dəfə yaralanıb, amma yenidən döyüşlərə qatılıb. Sonuncu dəfə öz yaralı komandirini döyüş meydanından çıxararkən düşmən ordusu tərəfindən açılan snayper gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub.

O, "Vətən uğrunda", və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.






**Qasımov Baba Əhməd oğlu** 1989-cu il noyabrın 1-də Astara rayonunun Ərçivan qəsəbəsində anadan olub.

Gizir Baba Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Baba Qasımov oktyabrın 21-də Qubadlı döyüşləri zamanı şəhid olub. Astara rayonunda dəfn olunub.

Baba Qasımov ölümündən sonra "Vətən uğrunda", 3-cü dərəcəli "Vətənə xidmətə görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Bayram Arzu oğlu** 2001-ci il martın 21-də Gədəbəy rayonunun Novoivanovka kəndində anadan olub.

Əsgər Bayram Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bayram Qasımov oktyabrın 5-də Füzuli döyüşləri zamanı şəhid olub. Gədəbəy rayonunda dəfn olunub.

Bayram Qasımov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Cəbrayıl Baloğlan oğlu** 1996-cı il iyulun 19-da Masallı rayonunun Ərəb kəndində anadan olub.

Əsgər Cəbrayıl Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cəbrayıl Qasımov oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub. Masallı rayonunda dəfn olunub.

Cəbrayıl Qasımov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Qasımov Elvar Eldar oğlu** 1995-il fevralın 7-də Ağdamda anadan olub.

Əsgər Elvar Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb.

Oktyabrın 5-də Ağdam uğrunda gedən döyüşlərdə Artilleriya Divizionunun 2-ci batareyasının döyüş mövqeyində avtomobil texnikasının mühafizəsi zamanı düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən müharibəsi iştirakcısı", "Ağdamın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.

**Qasımov Əli İbrahim oğlu** 2001-ci may ayının 20-də Bakı şəhərində anadan olub.

Əsgər Əli Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub.

Oktyabrın 23-də İkinci Qarabağ müharibəsində Talış kəndi istiqamətində gedən döyüşlərdə şəhid olub. Əli Qasımov Tovuz rayonunun Hazalı kəndində dəfn edilib. Onun adına Bakının Nərimanov rayonunda yaşadığı məhəllədə bulaq tikilib.



**Qasımov Elməddin Aqil oğlu** 1999-cu il avqust ayının 9-da Salyan rayonunun Qarabağlı kəndində doğulub.

Əsgər Elməddin Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı qəhrəmancasına savaşıb. Elməddin Qasımov 27 oktyabr 2020-ci ildə Füzuli döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Qasımov Eltun Vüqar oğlu** 18 oktyabr 1994-cü ildə, Bakı şəhərində anadan olub, əslən Qərbi azərbaycanlıdır.

Əsgər Eltun Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Eltun Qasımov oktyabrın 14-ü Füzuli rayonun azad olunması uğurunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Qasımov Faiq Mayıl oğlu** 27 noyabr 1983-cü ildə Beyləqan rayonunun Bolsulu kəndində anadan olub.

Gizir Faiq Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Faiq Qasımov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub.

Faiq Qasımov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.





**Qasımov Faiq Qaçay oğlu** 1974-cü il fevralın 10-da Qubadlı rayonunun Qayalı kəndində anadan olub.

Polkovnik-leytenant Faiq Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Faiq Qasımov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Faiq Qasımova "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Gülverdi Abil oğlu** 1997-ci il noyabrın 15-də Abşeron rayonunun Qobu qəsəbəsində anadan olub.


Əsgər Gülverdi Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Gülverdi Qasımov oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub. Abşeron rayonunda dəfn olunub.

Gülverdi Qasımov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov İsmayıl Sadiq oğlu** 1989-cu il dekabrın 17-də anadan olub. O, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli, Cəbrayılın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabrın 9-u Füzuli rayonunun Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən Uğrunda", "Cəbrayılın azad olunmasına" və "Füzuli rayonlarının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Hafis Cavanşir oğlu** 1998-ci il iyulun 18-də Culfa rayonunun Camaldın kəndində anadan olub.

Leytenant Hafis Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Hafis Qasımov oktyabrın 14-də Füzuli döyüşləri zamanı şəhid olub. Culfa rayonunun Camaldın kəndində dəfn olunub.

Hafis Qasımov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.

**Qasımov Həmid Oruc oğlu** 1994-cü il dekabrın 11-də Şərur rayonunun Qabıllı kəndində anadan olub.

Baş leytenant Həmid Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Həmid Qasımov oktyabrın 3-də Talış istiqamətində gedən döyüşlərdə şəhid olub. Kəngərli rayonunun Qabıllı kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Həsən Şöhrət oğlu** 27 may 1997-ci ildə Hacıqabul rayonunun Tağılı kəndində anadan olub.

Əsgər Həsən Qasımov müharibə başlanan gündən ön xəttə ən qızğın döyüşlərdə – Füzuli istiqamətində mərdliklə son damla qanına qədər döyüşüb. Xəstə olduğu halda, komandirinin təkid etməsinə baxmayaraq, döyüş yoldaşlarını saxlayıb müalicə almaq üçün hərbi hospitala getməkdən imtina edib. Oktyabr ayının 27-də, səhər saat 09:22 radələrində qəhrəmancasına şəhidlik zirvəsinə ucalan Qasımov Həsən Şöhrət oğlunun nəşi noyabr ayının 7-də doğulub, boya-başa çatdığı Hacıqabul rayonunun Tağılı kəndinə gətirilib və kənd qəbiristanlığında böyük izdihamla torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Hikmət Vidadi oğlu** 11 fevral 1990-cı ildə Şabran (keçmiş Dəvəçi) rayonunun Çöl Quşçu kəndində anadan olub.

Əsgər Hikmət Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq Vətənin müdafiəsinə yollanıb. O, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Xocavənd uğrunda gedən əsl hünər, rəşadət və qəhrəmanlıq göstərib.

Ən çətin əməliyyatlarda iştirak edən kəşfiyyatçı, döyüş yoldaşlarının "Qoca" adlandırdığı Hikmət Qasımov 24 oktyabrda yaralı yoldaşlarını döyüş meydanından çıxararkən düşmənin artilleriya atəşinə tuş gələrək şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Hüseyn Kamil oğlu** 1984-cü il mayın 13-də Füzuli rayonunun Qaraxanbəyli kəndində dünyaya gəlib.

Gizir Hüseyn Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Hüseyn Qasımov oktyabrın 2-də Cəbrayıl döyüşləri zamanı şəhid olub.

Hüseyin Qasımov ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Qasımov Kamil Nüsrət oğlu** 5 fevral 1995-ci ildə Goranboy rayonunun Safıkürd kəndində anadan olub. O, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 10 oktyabrda Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Qasımov Kamran Fazil oğlu** 2001-ci il fevralın 2-də Gədəbəy rayonunda anadan olub.

Əsgər Kamran Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. O, Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub.


O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Mirağa Hafiz oğlu** 1995-ci il avqustun 1-də Cəlilabad rayonunun Moranlı kəndində anadan olub.

Kiçik gizir Mirağa Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mirağa Qasımov oktyabrın 26-da Zəngilan döyüşləri zamanı ağır yaralanıb və Hərbi Hospitala aparılıb. 20 gün Koma vəziyyətində qaldıqdan sonra noyabrın 12-də şəhid olub. Cəlilabad rayonunun Moranlı kəndində dəfn olunub.

Mirağa Qasımov "Qarabağ" ordeni, "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Mustafa Dadaş oğlu** 1995-ci il oktyabrın 2-də Tovuz rayonunun Qaralar kəndində anadan olub.

Əsgər Mustafa Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mustafa Qasımov oktyabrın 1-də Murovdağ döyüşləri zamanı şəhid olub. Nəşi uzun müddət tapıla bilməyib. Dekabrın 22-də Tovuz rayonunun Qaralar kəndində dəfn olunub.

**Qasımov Mürtaza Elman oğlu** 2 oktyabr 2001-ci ildə Cəlilabad rayonunun Gülməmmədli kəndində anadan olub.

Əsgər Mürtaza Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Mürtaza Qasımov 8 noyabr 2020-ci ildə Zəngilan rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. 9 noyabr 2020-ci il tarixində Cəlilabad rayonunun Gülməmmədli kəndində dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Nayib Akif oğlu** 1997-ci il iyunun 12-də Masallı rayonunun Mahmudavar kəndində anadan olub.

Baş çavuş Qasımov 2020-ci il sentyabrın 27-də başlanan "Vətən müharibəsində Cəbrayıl, Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. Nayib Qasımov oktyabrın 5-də Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub. Doğulub boya-başa çatdığı Masallı rayonu Mahmudavar kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Nicat Elşən oğlu** 1991-ci il oktyabrın 17-də Gəncə şəhərinin Kəpəz rayonunda anadan olub.

Əsgər Nicat Qasımov 2020-ci il sentyabrın 27-də başlanan "Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub.

Oktyabrın 2-də Goranboy rayonunun Buzluq kəndi yaşayış məntəqəsi istiqamətində, düşmənlə təmas xəttində bizim "Cəngavər" döyüş mövqeyi istiqamətində hərbi əməliyyatlar yerinə yetirən zamanı şəhadətə qovuşub.

O, ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə " medalı ilə təltif edildi.



**Qasımov Oruc Afiq oğlu** 1996-cı il oktyabrın 26-da Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olub.

Əsgər Oruc Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oruc Qasımov oktyabrın 13-də Füzuli döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Ağköynək kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Qasımov Orxan Rizvan oğlu** 21 yanvar 1996-cı ildə Bakıda doğulub.

Əsgər Orxan Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə qatılıb və 27 sentyabrda Füzulinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib.

O, şəhadətindən sonra "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Qismət Yolçu oğlu** 1993-cü il martın 5-də Göyçay rayonunun Məlikkənd kəndində anadan olub.

Əsgər Qismət Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Qismət Qasımov oktyabrın 25-də şəhid olub. Göyçay rayonunda dəfn olunub.

Qismət Qasımov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Qasımov Qoşqar Atakişi oğlu** 1995-ci il yanvarın 16-da Beyləqan rayonunun Aşağı Çəmənli kəndində anadan olub.

Gizir Qoşqar Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Qoşqar Qasımov oktyabrın 24-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Qoşqar Qasımov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Ramiz Vaqif oğlu** 1975-ci il fevralın 17-də Beyləqan şəhərində anadan olub.

Polkovnik-leytenant Ramiz Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 25 gün komada qaldıqdan sonra oktyabrın 22-də şəhid olub.


Ramiz Qasımova "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Qasımov Rəmal Saleh oğlu** 1992-ci il aprelin 15-də Gəncə şəhərində anadan olub.

Baş gizir Rəmal Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rəmal Qasımov sentyabrın 29-da Talış döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Rəmal Qasımov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif olundu.



**Qasımov Səbuhi Telman oğlu** 2001-ci il noyabrın 12-də Şəmkir rayonunda anadan olub.

Əsgər Səbuhi Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Səbuhi Qasımov Xocavənd rayonu ərazisində gedən döyüşlər zamanı şəhid olub. Noyabrın 18-də Şəmkir rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Qasımov Şəhriyar Vəzir oğlu** 1995-ci il noyabrın 7-də Bərdə rayonu Hüseyinbəyli kəndində anadan olub.

Çavuş Şəhriyar Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Zəngilan, Qubadlı və Füzuli rayonu uğrundakı döyüşlərində fəal iştirak edib. Şəhriyar Qasımov oktyabrın 25-də Qubadlı uğrunda gedən döyüşlərin birində qəhrəmancasına şəhid olub .

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.




**Qasımov Şöhrət Şakir oğlu** 16 avqust 1992-ci ildə Gədəbəy rayonunda anadan olub.

Baş leytenant Şöhrət Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə iştirak edərək şücaət göstərib. 29 sentyabrda hərbi həkim baş leytenant Şöhrət Qasımov şəhid olub.

9 oktyabr 2020-ci ildə Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" medalları ilə təltif edildi.





**Qasımov Təbriz Ramiz oğlu** 13 avqust 1993-cü ildə Qəbələ rayonunda anadan olub.

Gizir Təbriz Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü iştirak edib. Xocavənd və Füzuli istiqamətində gedən döyüşlərdə şücaət göstərib. Təbriz Qasımov 5 noyabrda Xocavənd döyüşləri zamanı qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Tural Yelmar oğlu** 1991-ci il mayın 23-də Goranboy rayonunun Düzqışlaq kəndində doğulub.

Əsgər Tural Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub.

Oktyabrın 11-də Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Qasımov Xalid Rafik oğlu** 12 iyul 1996-cı ildə Cəlilabad rayonunun Moranlı kəndində anadan olub.

Kiçik gizir Qasımov Xalid Vətən müharibəsinin gedişində döyüş yoldaşları ilə bir sıra uğurlu əməliyyatlarda iştirak edən Xalid ona bəslənən ümidləri doğrultdu. Cəbrayıl istiqamətində döyüşlərin başlanması haqqında əmr alan Xalid çox böyük qürur hissi ilə döyüşlərə qatıldı. Lakin bu onun son döyüşü oldu. 12 oktyabr 2020-ci il tarixində Cəbrayıl rayonu istiqamətində növbəti döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına əbədiyyətə qovuşdu. Oktyabrın 14-də Cəlilabad rayonunun Moranlı kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Xaspolad Fikrət oğlu** 1993-cü ildə Xızı rayonunun Giləzi qəsəbəsində doğulub.

Kiçik gizir Xaspolad Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xaspolad Qasımov oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhid olub.

Xaspolad Qasımov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.

**Qasımzadə Hüseyn Həsənxan oğlu** 8 iyul 2001-ci ildə Cəlilabad rayon Sərhədabad kəndində doğulub.

Əsgər Hüseyn Qasımzadə 2020-cil sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. O, Vətən müharibəsinin ən gənc iştirakçılarından olub.

6 oktyabr 2020-ci ildə Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından əbədiyyətə qovuşub.

Həqiqi hərbi xidmətdən evə buraxılmağın 2 ay qalmış ŞƏHİDLİK zirvəsinə ucalan Qasımzadə peşəkar boksla məşğul idi, arzuları var idi.



**Qasımzadə Nicat Höccət oğlu** 2000-ci il noyabrın 10-da Biləsuvar rayonunun Zəhmətabad kəndində anadan olub.

Kiçik çavuş Nicat Qasımzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nicat Qasımzadə noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunun Zəhmətabad kəndində dəfn olunub.

Nicat Qasımzadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımzadə Ümüd İlqar oğlu** 2001-ci il aprelin 13-də Cəlilabad rayonunun Göytəpə qəsəbəsində anadan olub.

Əsgər Ümüd Qasımzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ümüd Qasımzadə oktyabrın 13-də Füzuli döyüşləri zamanı şəhadətə yüksəlib. Cəlilabad rayonunda dəfn olunub.

Ümüd Qasımzadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəsul Kamaləddin oğlu Qazımətov** 2001-ci il iyunun 14-də Qusar rayonunun Qayakənd kəndində anadan olub.

Əsgər Rəsul Qazımətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 14-də Hadrut döyüşləri zamanı bədənindən üç güllə yarası almasına baxmayaraq döyüşməyə davam edən Rəsul Qazımətov, Ermənistan tərəfinin atdığı sonuncu, dördüncü güllənin başına dəyməsi nəticəsində şəhid olub. Bir həftə nəşi neytral ərazidə qaldıqdan sonra oktyabrın 21-də Qusar rayonunda dəfn olunub.

Rəsul Qazımətov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Qədirbəyli İnqilab Tofiq oğlu** 1995-ci il martın 10-da Salyan şəhərində anadan olub.

Əsgər İnqilab Qədirbəyli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İnqilab Qədirbəyli noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Salyan şəhərində dəfn olunub.

İnqilab Qədirbəyli ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**İsmayıl Elçin oğlu Qədirli** 1998-ci il sentyabrın 16-da Biləsuvar rayonunda anadan olub.

Əsgər İsmayıl Qədirli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 9-da cəbhəyə yola düşüb. İlkin olaraq Ağcabədiyə, oktyabrın 14-u isə Cəbrayıl uğrunda gedən döyüşlərə qoşulub. İsmayıl Qədirli daha sonra Qubadlı, Füzuli, Hadrut və Xocavənd uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Xocavəndin Qırmızı Bazar qəsəbəsi yaxınlığında gedən döyüşdə şəhidlik zirvəsinə ucalıb. Oktyabrın 28-də Biləsuvar şəhərində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qədirov Elvin Azər oğlu** 2001-ci il mayın 5-də Zaqatala rayonunun Yeni Suvagil kəndində anadan olub.

Əsgər Elvin Qədirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdamın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Elvin Qədirov sentyabrın 27-də Ağdam döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunun Yeni Suvagil kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Emin Asif oğlu Qədirov** 1995-ci il aprelin 25-də Bakı şəhəri Xəzər rayonunun Zirə qəsəbəsində dünyaya göz açıb.

Əsgər Emin Qədirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Döyüş zamanı düşmənin bir neçə texnikasını məhv edib.

Emin Qədirov oktyabrın 21-də Füzuli rayonunun Gecəgözlü kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Qədirov Müqəddəs Nail oğlu** 1992-ci il 14 may tarixində Xaçmaz rayon Dədəli kəndində anadan olub.

Əsgər Müqəddəs Qədirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Cəbrayıl və Füzuli istiqamətində gedən döyüşlərdə vuruşub. Müqəddəs Qədirov oktyabrın 5-də Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Qədirov Şahin Bayram oğlu** 1990-cı il yanvarın 3-də Qaradağ rayonunun Çeyildağ qəsəbəsində anadan olub.

Gizir Şahin Qədirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şahin Qədirov oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhidlik zirvəsinə yüksəlib. Qaradağ rayonunda dəfn olunub.


Şahin Qədirov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qədirzadə Aqşin Elman oğlu** 10 mart 1999-cu ildə Qəbələ rayonunun Seyidqışlaq kəndində anadan olub.

Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olan Aqşin Qədirzadə 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Murovdağ döyüşlərində savaşıb. Murovdağda gedən döyüşlər zamanı oktyabrın 4-də itkin düşüb. Oktyabrın 18-i şəhid olduğu xəbəri gəlib. Aqşin Qədirzadə dekabrın 18-də Qəbələ rayonunun Seyidqışlaq kəndində dəfn olunub.

O, ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Qəfərli Samir Möhlət oğlu** 1 noyabr 1994-cü ildə Ucar rayonunun Bərgüşad kəndində anadan olub.

Əsgər Samir Qəfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Sonuncu dəfə ailəsi ilə 15 oktyabrda əlaqə saxlayıb. Cəbrayılın, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Samir Qəfərli 30 oktyabr 2020-ci ildə Laçın istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. 30 oktyabr 2020-ci ildə Ucar rayonunun Bərgüşad kəndində anasının yanında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Qəfərov Rəvan Elxan oğlu** 1991-ci il iyulun 10-da Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olub.

Baş gizir Rəvan Qəfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rəvan Qəfərov oktyabrın 29-da Füzuli döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb. Ağstafa rayonunun Dağ Kəsəmən kəndində dəfn olunub.

Rəvan Qəfərov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qəfərov Samәddin Rasim oğlu** 23 yanvar 1993-cü ildə İsmayıllı rayonu Qubaxəlilli kəndində anadan olub.

Gizir Samәddin Qəfərov Müharibə zamanı Feldşer kimi hərbi xidmətini yerinə yetirib. Tərtər-Ağdərə rayonları istiqamətində döyüş yolu keçib.

Sentyabrın 28-də Tərtər-Ağdərə rayonları istiqamətində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlər zamanı hərbi əməliyyatlarda düşmən tərəfindən odlu silah və digər silah növlərindən törədilmiş zədələnmə nəticəsində şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətənə xidmətlərə görə 3-cü dərəcəli ordeni", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qəhrəmanov Elməddin Niyaməddin oğlu** 1997-ci il yanvarın 26-da Kəngərli rayonunun Qıvraq qəsəbəsində anadan olub.

Leytenant Elməddin Qəhrəmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Elməddin Qəhrəmanov oktyabrın 6-da Ağdam rayonu istiqamətində şəhidlik zirvəsinə ucalıb. Kəngərli rayonunda dəfn olunub.

Elməddin Qəhrəmanov ölümündən sonra "Rəşadət" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qəhrəmanov Gülalı Aydın oğlu** 1986-cı il fevralın 17-də Ağcabədi rayonunun Minaxorlu kəndində anadan olub.

Əsgər Gülalı Qəhrəmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Gülalı Qəhrəmanov sentyabrın 29-da Füzuli döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb. Ağcabədi rayonunda dəfn olunub.

Gülalı Qəhrəmanov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Qəhrəmanov Məkan Mübariz oğlu** 1999-cu il fevralın 3-də Ağcabədi rayonunun Minaxorlu kəndində anadan olub.

Əsgər Məkan Qəhrəmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Məkan Qəhrəmanov 12 oktyabr 2020-ci ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhidlik zirvəsinə yüksəlib. Minəxorlu kənd qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə","Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qəhrəmanov Orxan Səlvər oğlu** 1991-ci il martın 28-də Bakı şəhərində anadan olub.

Əsgər Orxan Qəhrəmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Orxan Qəhrəmanov oktyabrın 6-da Füzuli döyüşləri zamanı əbədiyyətə qovuşub. Bakı şəhərində torpağa tapşırılıb.

Orxan Qəhrəmanov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qəhrəmanov Ruslan Mehman oğlu** 1988-ci il oktyabrın 6-da Almaniyanın Maqdeburq şəhərində anadan olub.

Kapitan Ruslan Qəhrəmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ruslan Qəhrəmanov oktyabrın 5-də Füzuli döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunun Keçili kəndində dəfn edilib.

Ruslan Qəhrəmanov ölümündən sonra "Vətən uğrunda", "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.



**Qənbərli Elton Baba oğlu** 1997-ci il fevralın 1-də Şərur rayonunun Ələkli kəndində anadan olub.

Leytenant Elton Qənbərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elton Qənbərli oktyabrın 20-də Qubadlı döyüşləri zamanı şəhid olub. Şərur şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Elton Qənbərli ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.






**Qənbərli Mehdi Sübhi oğlu** 27 avqust 2001-ci ildə Lənkəran rayonunun Osaküçə kəndində anadan olub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 05.10.2020-ci ildə Füzuli rayonunun Horadiz kəndi istiqamətində düşmən həmləsinin qarşısını alarkən əbədiyyətə qovuşub.

Mehdi Qənbərli ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qənbərli Vüsal İlkin oğlu** 30 mart 1995-ci il Biləsuvar rayonunun Günəşli kəndində anadan olub.

Vüsal Qənbərli Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixində başlayan Vətən müharibəsinin əvvəlində ilk qoşulan könüllülərdəndir. Qubadlı və Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhidlik zirvəsinə ucalib.

Şəhid Vüsal Qənbərli 20 dekabr 2020-ci il tarixində doğulduğu Biləsuvar rayonunun Günəşli kənd məzarıstanlığında dəfn olunub.

Vüsal Qəmbərli ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qənbərli Taleh Abil oğlu** 1994-cü il oktyabrın 17-də İsmayıllı rayonunun Quşencə kəndində anadan olub.

Əsgər Taleh Qənbərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Taleh Qənbərli noyabrın 5 -də Şuşa döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb.

Taleh Qənbərli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qənbərli Qənbər Bəhruz oğlu** 1993-cü il sentyabrın 10-da Tərtər rayonunun Kəngərli kəndində anadan olub.

Baş leytenant Qənbər Qənbərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Qənbər Qənbərli sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhadətə qovuşub. Uzun müddət nəşi tapıla bilməyib. 22 may 2021-ci ildə nəşi tapılıb və ailəsinə təhvil verilib.


Vətən müharibəsində itkin düşdükdən 8 ay sonra nəşi tapılan Azərbaycan Ordusunun baş leytenantı Qənbərli Qənbər Bəhruz oğlu Tərtər rayonunun Kəngərli kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Qənbərov Bilal Xanlar oğlu** 1993-cü il sentyabrın 29-da Bakı şəhərində anadan olub.

Əsgər Bilal Qənbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrutun, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bilal Qənbərov noyabrın 3-də Şuşa döyüşləri zamanı şəhid olub. Səbail rayonunun Badamdar qəsəbəsində dəfn olunub.

Bilal Qənbərov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Qənbərov Əli Mahir oğlu** 2002-ci il martın 4-də Cəlilabad rayonunun Uzuntəpə kəndində anadan olub.

Sentyabrın 27-də xidmət etdiyi səngərdə "İrəli" əmrini alanlardan olub. Əli Qəmbərov bir neçə gərgin döyüşdə şücaətləri ilə seçilib. O, hətta ağır əməliyyatlarda belə, daim öndə olub. Cəsur döyüşçümüz oktyabrın 6-da Füzuli rayonu ərazisində növbəti ağır döyüşlərdən birində şəhidlik zirvəsinə ucalıb.

Əli Qənbərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə də təltif edildi.



**Qənbərov Elnur Novruz oğlu** 1990-cı il iyunun 8-də Beyləqan rayonunun Şərq qəsəbəsində anadan olub.

Əsgər Elnur Qənbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb. Oktyabrın 25-də Qubadlı rayonunun işğaldan azad edərkən qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Beyləqan rayonunun "Peyğəmbər ziyarətgahı" adlı yerdə dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Qənbərov Mədət Əzim oğlu** 1995-ci il sentyabrın 26-da Ağdam rayonunda dünyaya gəlib.

Əsgər Mədət Qənbərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Suqovuşan-Talış istiqamətində gedən döyüşlərdə iştirak edib. Mədət Qənbərov oktyabrın 16-da Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" , "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Qənbərov Mehman Nəriman oğlu** 1981-ci il mayın 27-də Ağdam rayonunda anadan olub.

Polkovnik-leytenant Mehman Qənbərov oktyabrın 1-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub. Bərdə rayonunda dəfn olunub. Özündən sonra iki oğul övladı yadigar qalıb.

Mehman Qənbərov "Qarabağ" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qənbərzadə Heydər oğlu Ağahüseyn** 10 oktyabr 1997-ci ildə Lənkəran rayonunun Cil kəndində dünyaya göz açıb.

Əsgər Heydər Qənbərzadə 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Füzuli və Hadrut döyüşlərində vuruşub. Heydər Qənbərzadə 7 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qənimətov Ətraf Oktay oğlu** 20 mart 1997-ci ildə Şəki şəhərinin Dəmiryol köçkünlər qəsəbəsində anadan olub. Əslən Laçın rayon Vəlibəyli kəndindən idi.

Quru Qoşunlarının leytenantı Ətraf Qənimətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda döyüşüb. Oktyabrın 13-də Füzuli döyüşləri zamanı şəhid olub. Şəki rayonunda dəfn olunub.

Ətraf Qənimətov "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qəniyev Cahid Şaiq oğlu** 18 fevral 1994-cü ildə Biləsuvar rayonunun Çaylı kəndində anadan olub.

Gizir Cahid Qəniyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmənin 1 ədəd avtomobil texnikasını və 20 nəfərə yaxın canlı qüvvəsini məhv edib. Cahid Qəniyev sentyabrın 29-da Talış döyüşləri zamanı şəhid olub. Şəhid Cahid Qəniyev 13 oktyabr 2020-ci il tarixində Biləsuvar rayonunun Çaylı kənd məzarıstanlığında dəfn olunub.

Cahid Qəniyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Qəribov Asif Səxavət oğlu** 2000-ci ilin sentyabrın 10-da Şirvan şəhərində dünyaya göz açıb.

Asif Qəribov 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsi zamanı Füzulinin işğaldan azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. İgid Vətən oğlu 30 sentyabr 2020-ci il tarixində Şirvan şəhər Şəhidlər Xiyabanında izdihamla dəfn edilib. Beləcə uğrunda canından keçdiyi Vətən torpağına qovuşub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Qəribov Pəhli Xaləddin oğlu** 1993-cü il sentyabrın 17-də Kürdəmir rayonunda anadan olub.

Pəhli Qəribov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak edib.

O, Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində gedən döyüşlərdə şücaət göstərib. Pəhli Qəribov 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Onun nəşi Kürdəmir Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Pəhli Qəribov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Qəribzadə Fəxri Elmir oğlu** 1993-cü il dekabrın 15-də Bərdə rayonunun Güloğlular kəndində anadan olub.

Əsgər Fəxri Qəribzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 10-da Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Fəxri Qəribzadə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə də təltif edildi.



**Qəribzadə Hüseyn Qədir oğlu** 2001-ci il mayın 1-də Şəmkir rayonunun Çinarlı qəsəbəsində anadan olub.

Əsgər Hüseyn Qəribzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Hüseyn Qəribzadə sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunda dəfn olunub.

Hüseyn Qəribzadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Qəsəbov İsmayıl Nəbi oğlu** 1991-ci il iyulun 6-da Qazax rayonunun Çaylı kəndində anadan olub.

Baş çavuş İsmayıl Qəsəbov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İsmayıl Qəsəbov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

İsmayıl Qəsəbov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qeybiyev Arif İsmayıl oğlu** 1997-ci il iyunun 6-da Astara rayonunun Səncərədi kəndində anadan olub.

Arif Qeybiyev 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə savaşıb. Sentyabrın 27-də Füzuli döyüşlərində Arif Qeybiyevin dostu, tankçı Mirrahil Teymurlunun tankı minaya düşüb və Arif öz tankından düşüb, 100-200 metr aralıda olan dostunun tankına çatıb onu xilas etmək istəyərkən erməni snayperinin gülləsinə tuş gəlib və şəhid olub. Astara rayonunun Ərçivan qəsəbəsində dəfn olunub.

Arif Qeybiyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qəzənfərli Qurban Qiniyaz oğlu** 1997-ci il yanvarın 15-də Şəmkir rayonunun Ağlavaşlı kəndində anadan olub.

Əsgər Qurban Qəzənfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Qurban Qəzənfərli sentyabrın 29-da Kəlbəcər rayonu istiqamətində şərti adı "Koroğlu -3" döyüş mövqeyi istiqamətində hərbi əməliyyatlar zamanı şəhid olub.

Şəmkir rayonunun Ağlavaşlı kəndində dəfn olunub.

Qurban Qəzənfərli ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qocayev Asif Yolçu oğlu** 1991-ci il martın 1-də Gəncə şəhərində anadan olub.

Əsgər Asif Qocayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, Xocavəndin Ağoğlan (Hadrut) qəsəbəsi, Füzuli, Qubadlı və Laçın rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Döyüşlər zamanı bir çox yaralı əsgər yoldaşını xilas edib. Asif Qocayev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Gəncə şəhərində dəfn olunub.

Asif Qocayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Qocayev Günəş Əfqan oğlu** 1996-cı il noyabrın 12-də Xaçmaz rayonunun Palçıqoba kəndində anadan olub.

Əsgər Günəş Qocayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Günəş Qocayev oktyabrın 31-də Xocavənd döyüşləri zamanı şəhid olub. Xaçmaz rayonunda dəfn olunub.

Günəş Qocayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qocayev Niftalı Zakir oğlu** 20 noyabr 1994-cü ildə Qazax rayonunun Çaylı kəndində anadan olub.

Əsgər Niftalı Qocayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Cəbrayıl istiqamətində gedən döyüşlərdə xüsusi şücaət göstərib. Noyabrın 1-də Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Noyabrın 2-də Çaylı kəndindəki Şəhidlər xiyabanında izdihamla dəfn edilib.


Niftalı Qocayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Qocayev Seymur Mahir oğlu** 29 yanvar 1996-cı ildə Quba rayonunun Bağbanlı qəsəbəsində dünyaya gəlib.

44 günlük Vətən müharibəsində peşəkar kəşfiyyatçı kimi ən öndə savaşan 24 yaşlı Seymur Qocayev Murovdağ zirvəsi, Cəbrayıl və Xocavənd istiqamətində gedən döyüşlərdə, eləcə də Hadrut qəsəbəsinin düşməndən azad olunmasında böyük şücaət göstərib. O, noyabrın 7-də Şuşa uğrunda döyüşlərdə şəhid olub.

Seymur Qocayev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə də təltif edildi.



**Qorçuyev Anar Nadir oğlu** 1987-ci il yanvarın 4-də Qubadlı rayonunun Çardaqlı kəndində anadan olub.

Leytenant Anar Qorçuyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Anar Qorçuyev oktyabrın 7-də Füzuli döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Anar Qorçuyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə də təltif edildi.





**Qubadlı Fuad Cahangir oğlu** 27 oktyabr 1995-ci ildə Beyləqan rayonunda dünyaya gəlib.

Əsgər Fuad Qubadlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Fuad Qubadlı noyabrın 3-də Xocavənd rayonunda gedən döyüşdə alıdığı qəlpə yarası nəticəsində şəhid olub.

Fuad Qubadlı ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qubatov Tural Firəddin oğlu** 4 iyul 1998-ci ildə Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olub.

Əsgər Tural Qubatov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Alxanlı istiqamətindən başlayan əks-hücum zamanı pulemyotçu olaraq düşmənə qarşı mərdliklə vuruşub. O və hərbçi yoldaşları 30 illik erməni səddinin yarılmasında şücaət göstəriblər. Daha sonra Tural və döyüşçü yoldaşları Cəbrayıl istiqamətində düşmənə qarşı mərdliklə vuruşublar. Sentyabrın 28-də Gərgin döyüşlərdən birində Tural qəhrəmancasına həlak olaraq şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Qubadov Zülfüqar İsmi oğlu** 1975-ci il sentyabrın 25-də Ağsu rayonunun Dilman kəndində anadan olub.

Kapitan Zülfüqar Qubadov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zülfüqar Qubadov oktyabrın 13-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Ağsu rayonunda dəfn olunub.

Zülfüqar Qubadov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Qulamlı Afiq Fərhad oğlu** 1996-cı il dekabrın 24-də Xırdalan şəhərində dünyaya göz açıb.


Əsgər Afiq Qulamlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. 19 oktyabrda Füzuli rayonu Gecəgözlü kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub. Şəhidin nəşi oktyabrın 24-də gecə saatlarında ailəsinə təhvil verilib və bir gün sonra Xırdalan Şəhidlər Xiyabanında dəfn edilib.

Afiq Qulamlı ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Qulamlı Ülvi Şahin oğlu** 1994-cü il mayın 24-də Mingəçevir şəhərində anadan olub.

Kiçik çavuş Ülvi Qulamlı 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi zamanı Suqovuşan, Talış kəndi, Ağdərə istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. Oktyabrın 19-da Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub. Mingəçevir Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə, "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə də təltif edildi.



**Qulamzadə Afərin Müqəddəs oğlu** 13 iyul 1999-cu ildə Lənkəran rayonunun Mamusta kəndində anadan olub.

Əsgər Afərin Qulamzadə 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. 3 noyabr tarixində Xocavənd istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. 19 noyabr 2020-ci ildə torpağa tapşırılıb.

Afərin Qulamzadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qulamov Rəcəb Xaydaroviç** 1996-cı il martın 31-də anadan olub.

Müddətdən artıq həqiqi hərbi qulluqçu əsgər Rəcəb Qulamov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Rəcəb Qulamov 1 oktyabrda Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidin nəşi 5 aydan sonra Murov istiqamətində gedən axtarışlar zamanı tapılıb.

Şəhid hərbçimiz Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunub.

Rəcəb Qulamov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Quliyev Ağamirzə İlham oğlu** 2001-ci il mayın 2-də Gəncə şəhərində anadan olub.

Əsgər Ağamirzə Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Noyabrın 6-da Xocavənd döyüşlərində şəhid olub. 19 noyabrda Gəncə Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Quliyev Aqil Mətləb oğlu** 03 dekabr 2000-ci il Bərdə rayonunda anadan olmuşdur.

Əsgər Aqil Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan istiqamətlərində olan döyüşlərdə fəal iştirak edib. Noyabrın 8-də Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Quliyev Aqşin Dilavər oğlu** 1996-cı il dekabrın 12-də Sabirabad rayonunun Çiçəkli kəndində anadan olub.

Kiçik gizir Aqşin Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Aqşin Quliyev oktyabrın 16-da Füzuli döyüşləri zamanı şəhid olub. Sabirabad rayonunun Çiçəkli kəndində dəfn olunub.

Aqşin Quliyev ölümündən sonra Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda"," "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qabilov İsmayıl Əli oğlu** 1983-cü il iyulun 15-də Kəlbəcər rayonunun Mozqaraçanlı kəndində anadan olub.

Çavuş İsmayıl Qabilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. İsmayıl Qabilov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 05.12.2020-ci il tarixində dəfn olunub.

İsmayıl Qabilov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qasımov Elman Yunis oğlu** 8 noyabr 1999-cu ildə Azərbaycan Respublikasının Hacıqabul rayonunda anadan olub.

Əsgər Elman Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə qatılaraq düşmən tapdağı altında olan torpağlarımızın azadlığı uğrunda böyük şücaət göstərib. Elman Qasımov Tərtər rayonunun Talış və Suqovuşan kəndləri uğrunda gedən döyüşlərdə iştirak edib və böyük şücaət göstərib. Oktyabrın 9-da Tərtər rayonunun Suqovuşan kəndində düşmən ordusu tərəfindən mühasirəyə düşürək şəhidlik zirvəsinə ucalıb.

Noyabrın 28-də nəşi ailəsinə təhvil verilib və böyüyüb-başa çatdığı Hacıqabul rayonunun Udulu kəndində izdihamla dəfn edilib.

**Qasımov Nurlan Vadər oğlu** 1998-ci il iyunun 25-də Salyan rayonunun Marışlı kəndində anadan olub.

Əsgər Nurlan Qasımov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Qasımov oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub. Salyan rayonunun Marışlı kəndində dəfn olunub.

Nurlan Qasımov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Qasımzadə Tahir Sərdar oğlu** 2001-ci il oktyabrın 31-də Bakı şəhərinin Suraxanı rayonunda anadan olub.

Əsgər Tahir Qasımzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımız uğrunda gedən döyüşlərdə savaşıb. Sentyabrın 29-da Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonr "Döyüşdə fərqləndiyinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Qədimov Ayxan Fikrət oğlu** 1999-cu il aprelin 30-da Şəmkir rayonunun Morul kəndində anadan olub.

Əsgər Ayxan Qədimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Bir çox hərbi əməliyyatlarda vuruşub. Noyabr ayının əvvəllərində Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşan Ayxan Qədimov döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Onun nəşi 30 noyabr 2020-ci ildə tapılmış və Şəmkir rayonunun Morul kəndində torpağa tapşırılıb.

Ayxan Qədimov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qədimov Güloğlan Nurəddin oğlu** 1997-ci il iyulun 18-də Kəngərli rayonunun Qıvraq qəsəbəsində anadan olub.

Leytenant Güloğlan Qədimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Güloğlan Qədimov sentyabrın 27-də şəhid olub.

Güloğlan Qədimov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət ordeni", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.





**Quliyev Elçin Rövşən oğlu** 1992-ci il noyabrın 18-də Bərdə rayonunun Qaradağlı kəndində anadan olub.

Elçin Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Elçin Quliyev, sentyabrın 29-da Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub. O, düşmən bölmələrinin yerləşdiyi 1444.0 yüksəkliyində düşmənin çoxlu sayda canlı qüvvəsini məhv edib və şücaət göstərib.

Elçin Quliyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Quliyev İman Kürdoğlu oğlu** 1999-cu il iyulun 11-də Yevlax rayonunda anadan olub.

Əsgər İman Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, Laçın istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Boya-başa çatdığı Salahlı kəndinin qəbiristanlığında dəfn olunub.

İman Quliyev ölümündən sonra "Vətən uğrunda" , "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qumaşov Anar Saleh oğlu** 10 oktyabr 1997-ci ildə anadan olub. Əslən Cəbrayıl rayonundan olan şəhidimiz uşaq yaşlarında atasını itirib, nənəsinin himayəsində böyüyüb.

Əsgər Anar Qumaşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonunun azad olunması uğurunda gedən döyüşlərdə iştirak edib. Anar Qumaşov 20 oktyabr 2020-ci ildə Xocavənd döyüşləri zamanı şəhid olub.

Anar Qumaşov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Quliyev Aqşin Mehdi oğlu** 1992-ci il iyunun 9-da Goranboy şəhərində anadan olub.


Gizir Aqşin Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Aqşin Quliyev sentyabrın 30-da Suqovuşan döyüşləri zamanı şəhid olub.

Aqşin Quliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Quliyev Asim Bəkir oğlu** 1996-cı il martın 2-də Bakı şəhərində anadan olub.

Əsgər Asim Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, Füzuli, Cəbrayıl və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Asim Quliyev oktyabrın 11-də Hadrut döyüşləri zamanı snayper gülləsinə tuş gələrək şəhid olub. Bakıxanov qəsəbəsindəki Şəhidlər məzarlığında dəfn edilib.

Asim Quliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Barat Nizami oğlu** 22 dekabrın 1991-ci ildə Beyləqan şəhərində anadan olub.

Əsgər Barat Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Barat Quliyev sentyabrın 28-də Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edildi.



**Quliyev Bəhruz Firuz oğlu** 1990-cı il mayın 9-da Goranboy rayonunda anadan olub.

Bəhruz Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan ətrafında döyüşüb.

Müharibənin 15-ci günü, oktyabrın 11-də – Suqovuşan istiqamətində döyüşlərdə qəhrəmancasına şəhid olub. Naftalana gətirilərək dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə də təltif edildi.



**Quliyev Daşqın Nəcməddin oğlu** 2001-ci il dekabrın 20-də Şabran şəhərində anadan olub.

Əsgər Daşqın Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Daşqın Quliyev oktyabrın 16-da Füzuli döyüşləri zamanı şəhid olub. Şabran şəhərində dəfn olunub.

Daşqın Quliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə","Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Quliyev Elçin Etibar oğlu** 2001-ci il noyabrın 10-da İmişli rayonunun Məzrəli kəndində anadan olub.

Əhliman Mehdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak edib.

O, oktyabrın 10-da Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

Elçin Quliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Quliyev Elgün Fuad oğlu** 2000-ci il yanvarın 1-də İmişli rayonunun Qaragüvəndikli kəndində anadan olub.

Əsgər Elgün Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak edib.

Elgün Quliyev oktyabrın 6-da Qubadlı istiqamətində gedən döyüşlər zamanı düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində şəhid olub.

Elgün Quliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Quliyev Elgün Vasif oğlu** 17.09.1992-ci ildə Şamaxının Göylər kəndində anadan olub.

Əsgər Elgün Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılmaq üçün müraciət etdi. Nəhayət, istəyinə çatdı. Füzuli, Xocavənd, Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşdu. Şuşada da şəhidlik zirvəsinə ucaldı.

Elgün Quliyev noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Şamaxı rayonunun Göylər kəndində torpağa tapşırılıb.

Şəhidimiz ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Quliyev Əkbər Güləhməd oğlu** 2000-ci il avqustun 18-də Neftçala rayonunun Xıllı qəsəbəsində anadan olub.

Kiçik çavuş Əkbər Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə vuruşub. Əkbər Quliyev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapılmayıb. 2021-ci il fevralın 16-da II Şəhidlər Xiyabanında dəfn olunub.

Əkbər Quliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Quliyev Əli Tədbir oğlu** 1984-cü il sentyabrın 9-da İmişli rayonunun Otuziki kəndində anadan olub.

Sentyabrın 27-dən Vətən müharibəsinin ön cərgələrində yer alan Gizir Əli Quliyev bacarıqlı və təcrübəli snayper kimi düşmənin yüzlərlə canlı qüvvəsini məhv edib. Cəbrayıl, Xocavənd, Hadrut uğrunda gedən döyüşlərdə fəallıq göstərərək torpaqlarımızın işğaldan azad olunmasında birbaşa iştirakçı olub. Şəhid olacağını hiss edən Əli ömrünün son günlərində anasına zəng vuraraq anasından və atasından halallıq istəyib. O, oktyabrın 26-dan 27-ə keçən gecə Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.


Əli Quliyev ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Əli Turac oğlu** 20 oktyabr 2001-ci ildə İran İslam Respublikasının Məşhəd şəhərində dünyaya göz açıb.

İkinci Qarabağ müharibəsinə qatılaraq düşmənin Azərbaycan torpaqlarından qovulmasında iştirak edib. Oktyabrın 26-dan 27-ə keçən gecə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 29 oktyabr 2020-ci ildə Kolatan kəndinə gətirilərək torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Quliyev Elnur Eldar oğlu** 1984-cü il iyulun 25-də Füzuli rayonunda anadan olub.

Mayor Elnur Quliyev oktyabrın 2-də Füzuli döyüşləri zamanı mühasirəyə düşən şəxsi heyətin xilas edilməsi üçün tabor komandiri və 4 nəfər döyüş yoldaşı ilə birgə döyüşə daxil olub. Ermənistan Ordusunun səngərinə daxil olaraq onların xeyli sayda canlı qüvvəsinin məhv edilməsində, həmçinin şəxsi heyətin xilas edilməsində və Ermənistan Ordusunun irəliləməsinin qarşısının alınmasında fərqlənib. Döyüşlər zamanı Elnur Quliyev və tabor komandiri Orxan Əkbərov, həmçinin digər 4 döyüş yoldaşı şəhid olub. Elnur Quliyev Füzuli rayonunda dəfn olunub.

O, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Elnur Sərdar oğlu** 1998-ci il dekabrın 3-də Beyləqan rayonunun Kəbirli kəndində anadan olub.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Elnur Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Elnur Quliyev sentyabrın 27-də Füzuli və Cəbrayıl istiqamətində gedən döyüş zamanı şəhid olub.

Elnur Quliyev ölümündən sonra "Vətən uğrunda","Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.





**Quliyev Eltac Azər oğlu** 1998-ci il martın 6-da Gəncə şəhərində doğulub.

Əsgər Eltac Quliyev 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. O, 30 sentyabr 2020-ci il tarixində döyüşlərə qatılıb, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi və işğal altında olan rayonlarımızın azadlığı uğrunda vuruşub. 1 noyabr 2020-ci il tarixində Laçın rayonu uğrunda gedən döyüşlərdə şəhid olub. 2 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətdə fərqlənməyə görə"medalları təltif edildi.




**Quliyev Eltay Əli oğlu** 1989-cu il iyunun 7-də Goranboy rayonunun Quşçular kəndində anadan olub.

Kiçik çavuş Eltay Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Eltay Quliyev sentyabrın 29-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Eltay Quliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Elvin Amil oğlu** 1999-cu il aprelin 24-də Daşkəsən rayonunun Əhmədli kəndində anadan olub.

Əsgər Elvin Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

1 oktyabrda Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub.

Elvin Quliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Quliyev Əvdil Qardaşxan oğlu** 1972-ci il iyulun 31-də Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub.

Baş leytenant Əvdil Quliyev 2020-ci ilin iyul ayında Tovuz hadisələrindən sonra orduya yazılmaq üçün könüllü müraciət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başladıqdan sonra oktyabrın 1-də SHXÇDX-nin Beyləqan rayon şöbəsi tərəfindən xidmətə çağırılıb. O, Füzuli, Cəbrayıl, Qubadlı, Hadrut və Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib. Əvdil Quliyev noyabrın 6-da Şuşakənd istiqamətində gedən döyüşlərdə şəhid olan zabit yoldaşına kömək etmək istəyərkən düşmən tərəfindən açılan snayper atəşi ilə şəhid olub. O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", "İgidliyə görə" medalları və "Vətənə xidmətə görə" 3-cü dərəcəli ordeni ilə təltif edildi.

**Quliyev Fəhmin Yunis oğlu** 1998-ci il noyabrın 22-də Yevlax şəhərində anadan olub.

Əsgər Fəhmin Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak edib. O, oktyabrın 7-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhidlik zirvəsinə ucaldı.


Fəhmin Quliyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.




**Quliyev Fərid Ayazxan oğlu** 28 oktyabr 1994-cü ildə Cəlilabad rayonunun Babalı kəndində anadan olub.

Kiçik gizir Fərid Quliyev 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlanan zaman birbaşa döyüşlərə yollanıb. Xocavənd rayonu ərazisində bir sıra uğurlu döyüş əməliyyatlarının iştirakçısı olan Fərid vətən torpaqlarının işğaldan tam azad olunması arzusu ilə alışıb yanırdı. Lakin onun döyüş yolu qısa oldu və böyük Zəfəri görə bilmədi. Oktyabrın 9-da Hadrut uğrunda döyüşlərdə fərqlənən Fərid düşmən gülləsinə sipər olaraq gözlərini əbədi yumdu və şəhidlik zirvəsinə ucaldı. 16 oktyabr 2020-ci ildə Cəlilabad rayonunun Babalı kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Həsən Adışirin oğlu** 1996-cı il oktyabrın 11-də Ağcabədi rayonunun Sarvanlar kəndində dünyaya göz açıb.

Əsgər Mərahim Abdullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. 3 noyabr 2020-ci ildə Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub, döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. 21 noyabr 2020-ci ildə Ağcabədi rayonunun Sarvanlar kəndində torpağa tapşırılıb.

Həsən Quliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.




**Quliyev Həsən İbrahim oğlu** 1996-cı il sentyabrın 30-da Şərur rayonunun Qarahəsənli kəndində anadan olub.

Azərbaycan Ordusunun hərbçisi, leytenant Həsən Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak edib. O, sentyabrın 29-da Goranboy rayonunun Gülüstan kəndi ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan odlu güllə nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.






**Quliyev Həsən Yalçın oğlu** 9 iyul 2002-ci ildə Qobustan rayonunun Sündü kəndində anadan olub.

Əsgər Həsən Quliyev sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd uğrunda gedən döyüşlərdə şücaətlə iştirak edib. Noyabrın 1-i Şuşa istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Ailəsi onun ölümündən 10 gün sonra xəbərdar olub. Noyabrın 12-si şəhid Həsən Quliyev xalqın böyük izdihamı ilə uğrunda can verdiyi torpağa tapşırılıb.

O, ölümündən sonra "Füzulinin azad olunmasına görə" , "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Quliyev Hətəmxan Məti oğlu** 1990-cı il martın 24-də Sumqayıt şəhərində anadan olub.

Kapitan Hətəmxan Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Hətəmxan Quliyev oktyabrın 10-da Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhidlik zirvəsinə ucaldı.

Hətəmxan Quliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Quliyev Hüseyn Aydın oğlu** 1991-ci il avqustun 25-də Beyləqan rayonu Örənqala qəsəbəsində anadan olub.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Hüseyn Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Hüseyn Quliyev oktyabrın 8-də Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlər zamanı şəhid olub.

Hüseyn Quliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Quliyev Hüseyn Həsən oğlu** 1999-cu il martın 4-də Gəncə şəhərində anadan olub.

Əsgər Hüseyn Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak edib. O, sentyabrın 28-də Murovdağ istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Hüseyn Quliyev ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.

**Quliyev İlkin Rəfail oğlu** 2002-ci il aprelin 15-də Moskva şəhərində anadan olub.

Əsgər İlkin Quliyev Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib, 8 oktyabrda yaralanıb. Təcili olaraq Hərbi Hospitala çatdırılsa da, 10 oktyabr 2020-ci il tarixində şəhidlik zirvəsinə ucalıb. Sabunçu rayon Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev İlqar Akif oğlu** 1973-cü il fevralın 3-də Goranboy rayonunda anadan olub.

Mayor İlqar Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda döyüşlərdə savaşıb. İlqar Quliyev sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub. Goranboy rayonunda dəfn olunub.

İlqar Quliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Kamran Dadaş oğlu** 1992-ci il mayın 11-də Salyan rayonunda anadan olub.

Gizir Kamran Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli uğrunda gedən döyüşlərdə savaşıb. Füzuli istiqamətində aparılan hərbi əməliyyatlarda şəhid olub. Oktyabrın 6-da onun ön cəbhədə son döyüşü olub. Quliyev Kamran torpaqlarımızın işğalçılardan azad olunması uğrunda şəhid olub.


O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Kənan Vaqif oğlu** 11 sentyabr 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa şəhərində anadan olub.

Əsgər Kənan Quliyev 2020-ci il sentyabrın 27-də başlanan və müzəffər Ordumuzun qələbəsilə başa çatan Vətən müharibəsində xüsusi şücaətləri ilə fərqlənib. Naxçıvandan döyüşə yollanan K.Quliyev 21 oktyabrda Xocavənd istiqamətində şəhidlik zirvəsini fəth edib.

İgid hərbçimiz döyüşlərdə göstərdiyi şücaətə görə ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.





**Quliyev Məhəbbət Arzu oğlu** 1993-cü il noyabrın 17-də Ağcabədi rayonunun Qiyaməddinli (Aşağı Qiyaməddinli) kəndində anadan olub.

Əsgər Məhəbbət Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Bir çox hərbi əməliyyatlarda savaşıb. O, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə polkovnik Şükür Həmidovla bir yerdə vuruşub. Məhəbbət Quliyev 2020-ci il noyabrın 5-də Qubadlı istiqamətində gedən döyüşlər zamanı şəhid olub.

Məhəbbət Quliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Quliyev Mehman Telman oğlu** 1992-ci il martın 29-da Bərdənin Əyricə kəndində anadan olub. Xüsusi Təyinatlıların kəşfiyyatçısı, snayperi çavuş Quliyev Goranboy, Tərtər, Ağdam, Murovda daim düşmənlə üzüzə olub. Onun vətən sevgisi, yurd bağlılığı, dostcanlılığı bu müharibədə də özünü ən yüksək şəkildə göstərib. Mehman döyüş yoldaşlarıyla birlikdə Suqovuşanın azad edilməsində misilsiz şücaət göstərib. Komandirinin sözlərinə görə, onlar oktyabrın 5-də sadəcə bıçaqla, əliyalın, səssiz 21 düşmən postunu ələ keçirib, yüzlərlə düşməni məhv ediblər. Mehman döyüşlərin birində çiynindən yaralansa da, bütün təkidlərə baxmayaraq, geri qayıtmır, oradaca yarasını bağlayıb döyüşə davam edib. Oktyabrın 6-da isə Ağdamda kəşfiyyat zamanı şəhidlik zirvəsinə ucalıb. O, ölümündən sonra "Vətən müharibəsi iştirakçısı", "Ağdamın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Quliyev Mehtab Ənvər oğu** 1997-ci il oktyabrın 6-da Gədəbəy rayonunun Kiçik Qaramurad kəndində anadan olub.

Əsgər Mehtab Quliyev 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlanan zaman digər əsgər yoldaşları kimi o da ön cəbhəyə yollanıb. O, Zəngilan rayonu ərazisində Ermənistanla sərhəddə yerləşən yüksəkliklərin düşməndən azad olunması uğrunda döyüşlərdə xüsusi rəşadət göstərib. Belə döyüşlərdən birində – azad edilmiş 1117.0 yüksəkliyində düşmənin əks hücumunun qarşısını alarkən 2020-ci il oktyabrın 30-da Mehtab qəhrəmancasına şəhid olub. Mehtab Quliyev noyabrın 3-də Gədəbəy rayonunun Kiçik Qaramurad kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Murad Şahin oğlu** 1998-ci il avqustun 11-də Beyləqan rayonunun 1-ci Şahsevən kəndində anadan olub.

MAHHXHQ əsgər Murad Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

O, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Murad Quliyev oktyabrın 4-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Murad Quliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Quliyev Namiq Natiq oğlu** 2001-ci il dekabrın 31-də Sumqayıt şəhərində anadan olub.

Əsgər Namiq Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Quliyev Namiq Natiq oğlu** 1994-cü il dekabrın 29-da Bakı şəhərində anadan olub.

Əsgər Namiq Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Qanunlara əsasən, tək övladlara edilən mümkün güzəştlərin ona olunmaması üçün, ailəsində tək övlad oluğunu hər kəsdən gizlədir, könüllü olaraq ön cəbhədə vuruşur.

Namiq Quliyev noyabrın 8-də Xocavənd döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Namiq Quliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Natiq Ramiz oğlu** 2001-ci il fevralın 19-da Sumqayıt şəhərində anadan olub.

Əsgər Natiq Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Natiq Quliyev oktyabrın 6-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Natiq Quliyev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.




**Quliyev Nicat Nüşrəvan oğlu** 1985-ci il aprelin 8-də Yevlax şəhərində anadan olub.

Kiçik çavuş Nicat Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Nicat Quliyev oktyabrıın 30-da Murovdağ döyüşləri zamanı qəhrəmancasına şəhid olub.

Nicat Quliyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.






**Quliyev Nurlan Şükür oğlu** 1995-ci il dekabrın 4-də Ağcabədi rayonunun Qaraxanlı kəndində anadan olub.

Əsgər Nurlan Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Quliyev noyabrın 1-də Şuşa döyüşləri zamanı şəhid olub. Ağcabədi rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Quliyev Orxan Bəxtiyar oğlu** 1995-ci il iyulun 25-də Beyləqan rayonunun Aşqalılar kəndində anadan olub.

Əsgər Orxan Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Orxan Quliyev oktyabrın 14-də Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Rahim Yalçın oğlu** 2001-ci il iyunun 18-i Cəlilabad rayonunun Həziabad kəndində anadan olub.

Əsgər Quliyev Rahim 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak edib. O, oktabrın 2-də Füzuli və Cəbrayil istiqamətində gedən döyüşlər zamanı son damla qanına kimi vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

Rahim Quliyev ölümündən sonra "Vətən uğrunda medalı" ilə təltif edildi.



**Quliyev Ramil Elşən oğlu** 1991-ci ilin yanvar ayının 4-də Qubadlı rayonunda anadan olub.

Əsgər Ramil Quliyev İkinci Qarabağ müharibəsi başlanan tarixdən iki gün sonra 29 sentyabrda müharibəyə gedib. Ən böyük arzularından biri Qubadlıda bayrağımızı ən uca zirvəyə sancmaq olan igidimiz 22 oktyabrda Hadrut uğrunda gedən döyüşlərdə verilən tapşırığı yerinə yetirərkən düşmənin snayper gülləsi ilə vurularaq qəhrəmancasına şəhid olub. 12 gün neytral zonada qalıb. Sonra Ülvi adlı əsgər yoldaşı onu 4 km çiynində daşıyaraq arxa cəbhəyə təhvil verib. Oktyabr ayının 22-si Sumqayıtda Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Quliyev Ramil Nuralı oğlu** 1981-ci il yanvarın 28-də Kürdəmir rayonunun Qarasu kəndində anadan olub.

Baş gizir Ramil Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak edib.

O, sentyabrın 29-u Füzulinin azadlığı uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Kürdəmir rayonunun Qarasu kəndində dəfn olunub.

Ramil Quliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Ramin Rizvan oğlu** 1998-ci il noyabrın 7-də Bakı şəhərinin Binəqədi rayonunda anadan olub.

Leytenant Samir Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ramin Quliyev oktyabrın 5-də Füzuli döyüşləri zamanı şəhid olub. Binəqədi rayonunda dəfn olunub.

Ramin Quliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Quliyev Rəcəb Elşən oğlu** 1997-ci il dekabrın 5-də Şamaxı rayonunun Dəmirçi kəndində anadan olub.

Çavuş Rəcəb Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Zəngilanın, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rəcəb Quliyev noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Şamaxı şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Rəcəb Quliyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü","Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Rəşad Əfras oğlu** 1988-ci il iyulun 5-də Cəlilabad rayonunun Uzuntəpə kəndində anadan olub.

Kapitan Rəşad Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rəşad Quliyev oktyabrın 4-də Talış döyüşləri zamanı şəhid olub. Cəlilabad rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Quliyev Rəşad Rəşid oğlu** 23 sentyabr 1983-cü ildə Bakı şəhərində anadan olub. Əslən Quba şəhərindəndir.

Polkovnik-leytenant Rəşad Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Döyüş yoldaşları tərəfindən "Canavar" ləqəbini qazanıb. Rəşad Quliyev oktyabrın 7-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Rəşad Quliyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Rəvan Mərdan oğlu** 17 iyul 2001-ci ildə Neftçala rayonunun Aşağı Qaramanlı kəndində anadan olub.

Əsgər Rəvan Quliyev 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsinə qatılıb və Cəbrayılın, Füzulinin, Zəngilanın, Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Rəvan Quliyev oktyabrın 24-də Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olub. Oktyabrın 25-də Neftçala rayonunun Astanlı kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Rusif Asim oğlu** 1989-cu il sentyabrın 9-da Ağstafa rayonunun Yenigün kəndində anadan olub.

Əsgər Rusif Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, noyabrın 4-də Şuşa döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Yenigün kəndində dəfn edilib.

Rusif Quliyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Quliyev Ruslan Şaxsəddin oğlu** 1984-cü il noyabrın 20-də Tovuz rayonunun Dondar Quşçu kəndində anadan olub.

Əsgər Ruslan Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ruslan Quliyev oktyabrın 11-də Murovdağ döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Dondar Quşçu kəndində dəfn olunub.

Ruslan Quliyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Quliyev Şahmar Kəmaləddin oğlu** 1991-ci il noyabrın 7-də Naxçıvan şəhərində anadan olub.

Kapitan Şahmar Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

O, Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə şücaət göstərib. Şahmar Quliyev sentyabrın 28-də Suqovuşan döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Şahmar Quliyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Quliyev Samir Məhərrəm oğlu** 2001-ci il noyabrın 25-də Lənkəran rayonunun Velədi kəndində anadan olub.

Əsgər Samir Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, sentyabrın 28-də Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid oldu. Şəhid Lənkəran rayonunda dəfn olunub.


Samir Quliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalı ilə təltif edildi.



**Quliyev Şəhriyar Nəsib oğlu** 1998-ci il avqustun 31-də Ucar rayonunun Alpout kəndində anadan olub.

Kiçik gizir Kərim Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kərim Əliyev oktyabrın 31-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Kərim Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Sehrulla Xeyrulla oğlu** 1999-cu il oktyabrın 2-də Beyləqan rayonunun Birinci Şahsevən kəndində anadan olub.

Əsgər Sehrulla Quliyev 2020-ci il sentyabrın 24-də səfərbərlik üzrə hərbi xidmətə çağırılıb. Atası Xeyrulla Quliyevin sözlərinə görə, sevinərək cəbhəyə yollanıb.

Qardaşı ilə birlikdə Vətən müharibəsində torpaqlarımızın azad olunması uğrunda vuruşub.

2020-ci il oktyabrın 21-də Qubadlı istiqamətində gedən döyüşlərdə şəhid olub.

Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edildi.





**Quliyev Şirxan İsmixan oğlu** 1995-ci il sentyabrın 28-də Xocavənd rayonunda anadan olub.

Kiçik çavuş Şirxan Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində bir çox uğurlu tapşırıqların icrasında fəallığı ilə seçilib. Cəbrayıl, Füzuli, Qubadlı uğrunda gedən döyüşlərdə Şirxan əsl qəhrəmanlıq nümayiş etdirib. Noyabrın 2-də Daşaltı uğrunda gedən döyüşlərdə yaralanmasına baxmayaraq, o, geri çəkilməyib. Son damla qanına qədər döyüşən Şirxan noyabrın 7-də Şuşa uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

Şirxan Quliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Qubadlının azad olunmasına görə", " Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Təbriz İlqar oğlu** 1994-cü il avqustun 5-də Ağstafa rayonunun Qırılı kəndində anadan olub.

Gizir Təbriz Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, Zəngilanın azadlığı uğrunda gedən döyüşlər zamanı şəhid olub. Ağstafa rayonunun Qırılı kəndində dəfn olunub.

Təbriz Quliyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tərlan Bəxtiyar oğlu Quliyev** dekabrın 22-si 1999-cu ildə Cəlilabadın Tahirli kəndində doğulub.

Əsgər Tərlan Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Murov, Kəlbəcər, Hadrut, Xocavənd istiqamətlərindəki döyüşlərdə igidliyi və qorxmazlığı ilə fərqlənib. Gənc yaşında ömrünü vətənə xidmətə həsr edən Tərlan Quliyev oktyabrın 17-də ağır döyüşlərin birində qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb və doğulduğu Tahirli kəndində torpağa tapşırılıb.

Tərlan Quliyev ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Tərlan Mehman oğlu** 2000-ci il yanvarın 26-da Astara rayonunun Ərçivan qəsəbəsində anadan olub.

Əsgər Tərlan Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tərlan Quliyev oktyabrın 14-də Füzuli döyüşləri zamanı şəhid olub. Astara rayonunda dəfn olunub.

Tərlan Quliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

**Quliyev Teymur Zamin oğlu** 29.10.2001-ci ildə Abşeronun Saray qəsəbəsində anadan olub.

Əsgər Teymur Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Qubadlı istiqamətində gedən savaşlarda böyük şücaət göstərib. Amma qismətinə qısa və şərəfli döyüş yolu yazılıbmış. Teymur oktyabrın 24-də Füzulidə qəhrəmancasına şəhid olub.

Novxanı kəndində dəfn edilib. Təltif olduğu "Vətən uğrunda", ''Füzulinin azad olunmasına görə'' və ''Qubadlının azad olunmasına görə'' medalları onun cəsurluğunun, vətən sevgisinin bariz təsdiqidir.



**Quliyev Tural Mustafa oğlu** 1995-ci il oktyabrın 25-də Yevlax şəhərində anadan olub.

MAHHXHQ əsgər Tural Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Tural Quliyev oktyabrın 1-də Goranboy rayonunun Murov yüksəkliyi istiqamətində hərbi əməliyyatlar zamanı digər növ partlayışlarla və qəlpələrlə törədilmiş zədələnmə nəticəsində şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Tural Quliyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Quliyev Turab Əlisafa oğlu** 1990-cı il aprelin 10-da Sabirabad rayonunun Xilə Mirzəli kəndində anadan olub.

Əsgər Turab Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Turab Quliyev oktyabrın 4-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Hacıqabul şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Turab Quliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Vasif Tahir oğlu** 1988-ci il fevralın 19-da Beyləqan şəhərində anadan olub.

Çavuş Vasif Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vasif Quliyev sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub.

Vasif Quliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.







**Quliyev Vəli Vəli oğlu** 1997-ci il avqustun 30-da Culfa rayonunun Qazançı kəndində anadan olub.

Leytenant Vəli Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

O, Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vəli Quliyev noyabrın 6-da Qubadlı döyüşləri zamanı şəhid olub. Culfa rayonunda dəfn olunub.

Vəli Quliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edildi.



**Quliyev Vüqar Füzuli oğlu** 2001-ci il dekabrın 11-də Ağsunun Qaraqaşlı kəndində anadan olub.

Əsgər Vüqar Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Noyabrın 3-də Xocavənddə gedən döyüş zamanı düşmənin xain atışı zamanı igid əsgərimiz şəhadət şərbətini içib.

2020-ci il 8 may Şuşanın işğalı günü xidmətə gedən İgidimiz 2020-ci il 8 noyabr Şuşanın azad olduğu gün Ağsu Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Ölümündən sonra "Vətən uğrunda" , "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Quliyev Vüsal Tahir oğlu** 1985-ci il iyunun 6-sı Lənkəran şəhərində dünyaya göz açıb.

Kapitan Vüsal Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Tərtər rayonunun Suqovuşan kəndinin azad olunması uğrunda gedən döyüşlərdə sentyabrın 27-də qəhrəmancasına şəhid olub.

Vüsal Quliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" , "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quliyev Azər Zakir oğlu** 10 oktyabr 1996-cı ildə Sumqayıt şəhərində anadan olub. Əslən Qubadlı rayonunun Xallava kəndindən idi.

Əsgər Quliyev Azər 2020-ci il sentyabrın 29-da II Qarabağ – Vətən müharibəsinə könüllü olaraq qatılıb, şərəfli bir döyüş yolu keçib.

O, oktyabrın 23-də Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla şəhidlik zirvəsinə ucalıb. Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn olunub.

Quliyev Azər Zakir oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Quliyev Elşən Natiq oğlu** 1992-ci il dekabrın 21-də Daşkəsən rayonunda anadan olub.

Çavuş Elşən Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

O, sentyabrın 30-da Kəlbəcər rayonu istiqamətində şərti adı "Üçtəpələr" döyüş mövqeyi istiqamətində hərbi əməliyyatlar zamanı şəhidlik zirvəsinə ucalıb.

Elşən Quliyev ölümündən sonra "Döyüşdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edildi.



**Quliyev Hüseyn Həbib oğlu** 2002-ci il iyunun 26-da Tovuz rayonunun Quşçu kəndində anadan olub.

Əsgər Hüseyn Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, oktyabrın 24-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı şəhidlik zirvəsinə ucalıb.

Hüseyn Quliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Quluyev Nofəl İlham oğlu** Gədəbəy rayonunun Qoşabulaq kəndində 1994-cü il iyunun 11-də anadan olub.

Əsgər Nofəl Quluyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 27-də Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Əlimərdan Fəttah oğlu Quluzadə** 1993-cü il fevralın 14-də Masallı rayonunun Birinci Yeddioymaq kəndində anadan olub.

Baş leytenant Əlimərdan Quluzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əlimərdan Quluzadə oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhid olub. Masallı rayonunda dəfn olunub.

Əlimərdan Quluzadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Quluzadə Elşən Qulu oğlu** 20 oktyabr 1998-ci ildə Füzuli rayonunun II Mahmudlu kəndində anadan olub.

Çavuş Elşən Quluzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 13-də Füzuli döyüşləri zamanı ağır yaralanıb və tibb müəssisəsinə yerləşdirilib. Elşən Quluzadə 2021-ci il yanvarın 21-də müalicə aldığı tibb müəssisəsində koma vəziyyətinin 100-cü günündə şəhid olub. Vida mərasiminə daxili işlər naziri Vilayət Eyvazov və birinci müavini general-leytenant Seyfulla Əzimov qatılıb. Elşən Quluzadə Füzuli rayonunun Mahmudlu kəndində dəfn olunub. O, "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə", ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quluzadə Elmin Şəmsi oğlu** 1998-ci il noyabrın 1-də Tərtər rayonunun Kəngərli kəndində anadan olub.

Əsgər Elmin Quluzadə Sentyabrın 21-də könüllü olaraq döyüşə yollanıb. Cəbhənin Ağdam və Tərtər rayonu istiqamətində gedən ağır döyüşlərdə iştirak edib. Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə düşmənin müdafiə xəttini yarıb, istehkamlarını məhv edib və ağır zərbələr endirib. 17 oktyabr tarixində şəhidlik zirvəsinə ucalıb.

Şəhidimiz doğulub boya-başa çatdığı Tərtər rayonunda dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Quluzadə Kamran Pərviz oğlu** 1998-ci il avqustun 14-də Ağsu rayonunun Gəgəli kəndində anadan olub.

Leytenant Kamran Quluzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kamran Quluzadə oktyabrın 21-də Xocavənd döyüşləri zamanı şəhid olub. Ağsu rayonunda dəfn olunub.

Kamran Quluzadə ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Quluzadə Məhəmməd Cəlal oğlu** 7 avqust 1999-cu ildə Biləsuvar rayonunun Bəydili kəndində dünyaya gəlib.

Əsgər Məhəmməd Quluzadə 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə 27 sentyabr tarixində qəhrəmancasına şəhid olub.

Məhəmməd Quluzadə 28 sentyabr 2020-ci il tarixində Biləsuvar rayonunun Bəydili kənd məzarıstanlığında dəfn olunub.

O, "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "İgidliyə görə" və "Suqovuşanın azad olunması" medalları ilə təltif edildi.

**Quluzadə Orxan Elxan oğlu** 1994-cü ilin 29 iyun tarixində Lənkəran şəhərində anadan olub. Kiçik gizir Orxan Quluzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonunun yaşayış məntəqələrinin və Zəngilan şəhərinin azad olunması əməliyyatlarında fəal iştirak edib. Oktyabrın 21-də çevik hərəkət taboru ilə Zəngilan istiqamətində bir sıra yüksəkliklərinin azad edilməsi uğrunda döyüşlərə qatılıb, şəxsi igidlik nümunəsi göstərib. Böyük zəfərə 1 gün qalmış – noyabrın 8-də Zəngilan rayonu ərazisində Ermənistanla sərhəddə yerləşən 812.0 yüksəkliyi düşməndən azad edilərkən Orxan qəhrəmancasına şəhid olub. Noyabrın 8-də Lənkəran şəhərində Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quluzadə Qurbanəli Elşad oğlu** 2001-ci il iyunun 25-də Xəzər rayonunun Binə qəsəbəsində dünyaya göz açıb.

Əsgər Qurbanəli Quluzadə Vətən müharibəsi başlanandan cəbhənin Füzuli, Hadrut və Xocavənd istiqamətlərində gedən şiddətli döyüşlərdə fəal iştirak edib, bir sıra ərazilərimizin işğladan azad olunmasında xüsusi şücaət göstərib. Qurbanəli oktyabrın 21-də Füzuli rayonu uğrunda gedən döyüşlərdə yanında minaatan mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Quluzadə Vəfadar Fəqan oğlu** 2001-ci il avqustun 19-da Beyləqan rayonunun Bünyadlı kəndində anadan olub.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində iştirak edib, Suqovuşanın və Talışın işğaldan azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 3 oktyabr 2020-ci ildə Talış kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Qurbanəliyev Tapdıq Dövlətxan oğlu** 1978-ci il dekabrın 21-də Şəki rayonunun Aydınbulaq kəndində anadan olub.

Baş gizir Tapdıq Qurbanəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tapdıq Qurbanəliyev sentyabrın 30-da Tərtər rayonunun Çaylı kəndi istiqamətində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlər zamanı düşmən tərəfindən açılan atəş nəticəsində partlayış travması, bədənin bir neçə nahiyəsinin travmatik amputasiyası, bədənin termiki yanığı nəticəsində şəhid olub.

O, "Cəsur döyüş", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.





**Qurbanlı Elvin Mehman oğlu** 1999-cu il fevralın 10-da Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olub.

Əsgər Elvin Qurbanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcərin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Elvin Qurbanlı oktyabrın 1-də Kəlbəcər rayonu istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Tovuz rayonunun Aşağı Quşçu kəndində dəfn olunub.

Elvin Qurbanlı ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qurbanlı Nurlan Süleyman oğlu** 2001-ci il sentyabrın 27-də Xırdalan şəhərində anadan olub.

Əsgər Nurlan Qurbanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdam, Füzuli, Cəbrayıl uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 5-də Cəbrayıl uğrunda gedən döyüşlərdə iki snayper gülləsi ilə ağır yaralanıb. Yaralı olmasına baxmayaraq, şəhid olmuş yoldaşlarını döyüş bölgəsindən çıxarıb. Sonra özü də təxliyə olunaraq xəstəxanaya yola salınıb. Amma vəziyyəti ağır olduğu və çox qan itirdiyinə görə xəstəxanaya çatmamış şəhidlik zirvəsinə ucalıb. Nurlan 2020-ci il oktyabrın 6-da Şamaxıda yerləşən Şəhidlər Xiyabanında dəfn edilərək torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalı ilə təltif edildi.



**Qurbanov Büsat Əfsər oğlu** 10 sentyabr 2000-ci ildə Füzuli rayonunun Aşağı Kürdmahmudlu kəndində dünyaya göz açıb.

Əsgər Büsat Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində tuşlayıcı olaraq iştirak edib. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub, postların yarılmasında iştirak edib. O, 10 oktyabr 2020-ci ildə Füzuli döyüşlərində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Büsat Qurbanov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qurbanov Cahangir Məmməd oğlu** 1994-cü il senytabrın 23-də Goranboy Rayonunun Borsunlu kəndində anadan olub.

Əsgər Cahangir Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış istiqamətində gedən döyüşlərdə savaşıb. Talış döyüşləri zamanı düşmənin iki postunun ələ keçirilməsində xidmətləri olub. Cahangir Qurbanov sentyabrın 27-də Talış döyüşləri zamanı şəhid olub.

Sentyabrın 29-da Goranboy rayonunun Borsunlu kənd qəbiristanlığının Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Qurbanov Davud Tariyel oğlu** 1996-cı il fevralın 15-də Bakı şəhərində anadan olub.

Əsgər Davud Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Davud Qurbanov oktyabrın 3-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Birinci Şıxlı kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Qurbanov Elçin Məcid oğlu** 2002-ci il yanvarın 22-də Qazax rayonunun Xanlıqlar kəndində anadan olub.

Əsgər Elçin Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edib.

Elçin Qurbanov noyabrın 4-də Şuşa döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Xanlıqlar kəndində torpağa tapşırılıb.

Elçinin döyüşlərdə göstərdiyi qəhrəmanlıqlar "Vətən uğrunda" və "Şuşanın azad olunmasına" görə medalları ilə dəyərləndirilib.



**Qurbanov Elvin Elmar oğlu** 1999-cu ildə aprelin 29-da Qusar şəhərində doğulub.

Elvin Cəbrayıl və Füzulinin yaşayış məntəqələrinin azad olunmasında fəal iştirak edib. Füzuli şəhəri uğrunda gedən şiddətli döyüşdə artilleriya mərmisinin yaxınlığında partlaması nəticəsində şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Qurbanov Emil Rafael oğlu** 10 dekabr 1999-cu ilde Ağdam rayon Çəmənli kəndində anadan oub.

Əsgər Emil Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı ərazilərimizin işğaldan azad olunmasında fəal iştirak edib. Emil və onun döyüş yoldaşları olan kəşfiyyat bölüyü 50 dən çox postlarımızı işğaldan azad ediblər.

Onlar düşmənin gözləmədiyi istiqamətdən ermənilərə hücum edib. Bu hücum zamanı Murovdağ istiqamətində bir neçə post işğaldan azad edilib. Döyüş yoldaşlarının sözlərinə görə, Emil şəhid olana qədər 50 dən çox ermənini snayperlə məhv edib. Oktyabrın 10-u tarixində Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Qurbanov Emil Vaqif oğlu** 1980-ci il avqustun 25-də Lənkəranda anadan olub.

Leytenant Emil Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində taqım komandiri kimi Füzuli, Xocavənd və Qubadlı uğrunda gedən döyüşlərdə iştirak edərək şücaətlə döyüşüb. Qubadlının düşməndən azad olunması uğrunda döyüşdə iki güllə yarası alaraq 29 oktyabr tarixində qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qurbanov Fariz Məhəmməd oğlu** 28 iyun 1998-ci ildə Goranboy rayonunun Qızılhacılı qəsəbəsində anadan olub.

Fariz Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı kəşfiyyatçı istehkamçı kimi hərbi xidmətini yerinə yetirib. Talış-Suqovuşan istiqamətində döyüş yolu keçib. Sentyabrın 28-də Talış-Suqovuşan istiqamətindəki döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Qurbanov İmran İlqar oğlu** 23 may 1989-cu ildə Bakı şəhərində, Sabunçu rayonunun Ramana qəsəbəsində dünyaya göz açıb.

Kapitan İmran Qurbanov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. 29 sentyabr 2020-ci ildə Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. II Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

İmran Qurbanov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qurbanov İsmayıl Yaşar oğlu** 6 mart 2001-ci ildə Qəbələ rayonunun Böyük Pirəli kəndində anadan olub.

Əsgər İsmayıl Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İsmayıl Qurbanov 27 sentyabr 2020-ci ildə Füzuli, Cəbrayıl istiqamətində döyüş zamanı şəhid olub. 28 sentyabr 2020-ci ildə Qəbələ rayonunun Soltannuxa kəndində dəfn olunub.

İsmayıl Qurbanov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.

**Qurbanov İsmət Firuz oğlu** 1998-ci il aprelin 22-də Şəmkir rayonunun Varlı Həyat kəndində anadan olub.

Əsgər İsmət Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İsmət Qurbanov noyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub.

İsmət Qurbanov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qurbanov Masim Hafiz oğlu** 7 yanvar 2001-ci ildə Masallı rayonunun Ərəb kəndində anadan olub.

Əsgər Masim Hafiz oğlu Qurbanov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edib. İgid döyüşçü Qubadlı istiqamətində gedən döyüşlərdə 30 oktyabr tarixində düşmən güllələsinə tuş gəlib, şəhidlik zirvəsinə ucalıb.

Şəhidin nəşi 10 yanvar 2021-ci il tarixdə doğulduğu Masallı rayonunun Ərəb kənd qəbiristanlığında torpağa tapşırılıb. Subay idi.

Şəhid Qurbanov Masim ölümündən sonra Preziden İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Qurbanov Mayıl Mayis oğlu** 1996-cı il iyunun 8-i İmişli rayonunun Xoşçobanlı kəndində anadan olub.

Əsgər Mayıl Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mayıl Qurbanov noyabrın 3-də Qubadlı döyüşləri zamanı Qubadlı rayonu ərazisində şəhid olub. İmişli rayonunun Xoşçobanlı kəndində dəfn olunub.

Mayıl Qurbanov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qurbanov Murad Asif oğlu** 23 mart 1996-cı ildə Salyanda anadan olub.

Əsgər Murad Qurbanov 2020-ci il sentyabr ayının 29-da döyüşə yollanıb. Murad evin tək oğlu olub. Cəbrayıl, Füzuli, Hadrut rayonu ərazilərində gedən döyüşlərdə qəhrəmancasına döyüşüb. Döyüş yoldaşlarını 2 dəfə yaxın kəndlərdən ərzaq gətirməklə aclıqdan qurtarıb. Muradın yaralı olan döyüş yoldaşı Hüseyn onun haqqında Muradın qorxmazlığından, ürəkli olmağından ağız dolusu danışıb. Murad Hadrut döyüşlərində mərdlik göstərərək qəhrəmancasına şəhid olub. Muradına çatmayan Muradın cənazəsi böyük izdiham içində Badamdar qəsəbəsində təzə salınan Şəhidlər Xiyabanında dəfn edilib.

Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Qurbanov Qamət Şəmşir oğlu** 25 iyul 2001-ci ildə Ağsu rayonunun Keçdiməz kəndində anadan olub.

Əsgər Qamət Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı pulemyotçu kimi hərbi xidmətini yerinə yetirib. Talış Suqovuşan istiqamətində döyüş yolu keçib.

29 sentyabr 2020-ci ildə Talış Suqovuşan istiqamətində döyüşlər nəticəsində şəhid olub.


O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Qurbanov Ramil Sudeyif oğlu** 1987-ci il 6 yanvar tarixində Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olub.

Əsgər Ramil Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Ramil Qurbanov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

Ramil Qurbanov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Qurbanov Rauf Vahid oğlu** 1995-ci il oktyabrın 5-də Şərur rayonunun Ələkli kəndində anadan olub.

Leytenant Rauf Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rauf Qurbanov oktyabrın 18-də Füzuli döyüşləri zamanı şəhid olub. Şərur şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Rauf Qurbanov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qurbanov Rəcəb Elşən oğlu** 1 yanvar 2001-ci ildə Bərdə rayonunun Kələntərli kəndində anadan olub.

Əsgər Rəcəb Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

5 oktyabr 2020-ci ildə Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub. Doğulduğu Kələntərli kəndində dəfn olunub.

Rəcəb Qurbanov ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.

**Qurbanov Röyal Ziyad oğlu** 21 avqust 2001-ci ildə Siyəzən rayonunun Beşdam kəndində anadan olub.

Əsgər Röyal Qurbanov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində Suqovuşanın azad edilməsində şücaət göstərib, oktyabrın 5-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qurbanov Ruslan Üzeyir oğlu** 1991-ci il sentyabrın 7-də Biləsuvar rayonunun Ağalı kəndində anadan olub.

Baş çavuş Ruslan Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Ruslan Qurbanov sentyabrın 28-də Murovdağ döyüşləri zamanı şəhid olub. O, 2 oktyabr 2020-ci ildə Biləsuvar rayonunun Ağalıkənd qəbiristanlığında dəfn olunub.

Ruslan Qurbanov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qurbanov Tərxan Zabit oğlu** 1996-cı il iyunun 29-da Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olub.

Əsgər Tərxan Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq noyabrın 6-da şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qurbanov Vahid Elşad oğlu** 2001-ci il yanvarın 27-də Tovuz rayonunun Əyyublu kəndində anadan olub.

Əsgər Vahid Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Vahid Qurbanov oktyabrın 30-da Xocavənd döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Əyyublu kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Qurbanov Xansu Elsevər oğlu** 2000-ci il sentyabrın 23-də Naxçıvan şəhərində anadan olub.

Əsgər Xansu Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub.

Şuşanın alınması Vətən müharibəsinin qəhrəmanlıq dastanının ən şərəfli, ən qürurlu və ən ağrılı səhifəsidir. Noyabrın 8-i Şuşa şəhəri azad edilir. Və səhərisi gün müharibənin dayanmasına saatlar qalmış Xansu əsgər yoldaşları ilə birlikdə düşmənin xain gülləsinə tuş gəlir.

O, ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Qurbanzadə Ayxan Fariz oğlu** 25 iyul 1998-ci il tarixində Azərbaycanın Lənkəran rayonunun Şağlaküçə kəndində anadan olub.

Əsgər Ayxan Qurbanzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Ayxan Qurbanzadə Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. O, oktyabrın 26-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Ayxan Qurbanzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Qurbanzadə Mövlud Söhbət oğlu** 1996-cı il avqustun 2-də Beyləqan rayonunun Aşağı Çəmənli kəndində anadan olub.

Əsgər Mövlud Qurbanzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mövlud Qurbanzadə sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunda dəfn olunub.

Mövlud Qurbanzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Qurdayev Ömər Şəhmir oğlu** 2002-ci il iyulun 13-də Balakən rayonunun Meşəşambul kəndində anadan olub.

Əsgər Ömər Qurdayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ömər Qurdayev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Meşəşambul kəndində dəfn olunub.

Ömər Qurdayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Qureşli Firuz Əli oğlu** 3 dekabr 1993-cü ildə Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun Külüs kəndində anadan olub.

Baş leytenant Firuz Qureşli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə fəal iştirak edib. 10 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətdə gedən döyüşlərdə şəhid olub. Külüs kənd məzarlığında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Rəcəbov Əmrah** 11 dekabr 2000-ci ildə Gəncə şəhərində anadan olub. Kiçik yaşlarında atasını itirib. Anası tərəfindən Gəncə şəhərində yerləşən internat tipli məktəbə verilib. Əsgər Əmrah Rəcəbov 2020-ci ilin 27 sentyabr tarixində İkinci Qarabağ müharibəsinin başlamasından sonra Füzuli əməliyyatına cəlb olunub və Füzuli rayon mərkəzinin azad edilməsi uğrunda aparılan şiddətli döyüşlərdə iştirak edib. Əmrah Rəcəbov 2020-ci ilin 8 oktyabr tarixində Füzuli əməliyyatının gedişatında yaralanmış əsgər yoldaşını döyüş mövqeyindən çıxartmağa çalışarkən yaxınlığına düşən mərmi nəticəsində şəhid olub. Uzun müddət itkin olaraq axtarılan Əmrah Rəcəbovun nəşi 23 fevral 2021-ci ildə tapılıb və Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Əmrah Rəcəbov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Ramaldanov Babək Meyvəddin oğlu** 1982-ci il avqustun 9-da Bakı şəhərində anadan olub. Əslən Qusar rayonunda idi.

Polkovnik-leytenant Babək Ramaldanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Babək Ramaldanov oktyabrın 16-da Füzuli döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Babək Ramaldanov ölümündən sonra "Vətən uğrunda", "Azərbaycan Bayrağı" ordeni, "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ramazanlı Əlizamin Umud oğlu** 2000-ci il mayın 9-da Bərdə rayonunun Şirvanlı kəndində anadan olub.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kiçik giziri olan Əlizamin Ramazanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əlizamin Ramazanlı oktyabrın 16-da Hadrut döyüşləri zamanı şəhid olub. Bərdə rayonunda dəfn olunub.

Əlizamin Ramazanlı ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Ramazanlı İlqar Etibar oğlu** 2 noyabr 1994-cü ildə anadan olub. Əslən Qərbi Azərbaycanın Pəmpək mahalı, Qursalı kəndindəndir.

Əsgər İlqar Ramazanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. İlqar Ramazanlı noyabrın 3-də Şuşa uğurunda gedən döyüşlərdə şəhid olub.

İlqar Ramazanlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Ramazanov Elxan Ramazan oğlu** 2000-ci il yanvarın 25-də Zaqatala rayonunun Danaçı kəndində anadan olub.

Əsgər Elxan Ramazanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan və Ağdam istiqamətində gedən döyüşlərdə iştirak edib.

Elxan Ramazanov oktyabrın 18-də cəbhənin Ağdam istiqamətində gedən döyüşlər zamanı yaralanıb. Bakı şəhərində yerləşən hərbi hospitalda komada olub. Dörd dəfə əməliyyat olunmasına baxmayaraq oktyabrın 22-də şəhid olub. Zaqatala rayonunun Danaçı kəndində torpağa tapşırılıb.

Elxan Ramazanov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Ramazanov Fərid Ömər oğlu** 1991-ci il dekabrın 23-də Qax rayonunun Qum kəndində anadan olub.

Gizir Fərid Ramazanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Fərid Ramazanov oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Qax rayonunda dəfn olunub.

Fərid Ramazanov ölümündən sonra "Vətən uğrunda" medalı, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.



**Ramazanov Rail Arif oğlu** 1997-ci il aprelin 15-də Qusar rayonunun Hil kəndində anadan olub.


Kiçik çavuş Rail Ramazanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Rail Ramazanov noyabrın 1-də Xocavənd Maçkalaşen kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub. Qusar rayonunun Hil kəndində dəfn olunub.

**Ramazanov Rasim İsmayıl oğlu** 1998-ci il iyulun 26-da Babək rayonunun Babək qəsəbəsində anadan olub.

Rasim Ramzanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Rasim Ramazanov oktyabr 19-da Xocavənd döyüşləri zamanı şəhid olub.

Rasim Ramazanov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ramazanov Rövşən Qardaşxan oğlu** 14 aprel 1995-ci ildə Astara rayonunun Burzubənd kəndində anadan olub.

Əsgər Rövşən Ramazanov 2020-ci il 27 sentyabrdan etibarən başlanan Vətən müharibəsində oktyabr ayının 9-da könüllü olaraq iştirak edib və Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində gedən şiddətli döyüşlərdə savaşıb. Düşmənin xeyli sayda canlı qüvvəsini məhv edən Rövşən Ramazanov 2020-ci il 1 noyabrda Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçməklə qəhrəmancasına şəhid olub. Noyabr ayının 1-də şəhidin nəşi doğulub boya-başa çatdığı Astara rayonunun Burzubənd kəndinə gətirilərək orada torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ramazanov Vüsal Vahid oğlu** 1994-cü il iyulun 10-da Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndində anadan olub.

Əsgər Vüsal Ramazanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Vüsal Ramazanov ilə oktyabrın 27-dən sonra əlaqə saxlamaq mümkün olmayıb. Təxminən iki aydan sonra V.Ramazanovun meyiti tapılıb. Vüsal Ramazanovun 1 noyabrda Qırmızı Bazar qəsəbəsi istiqamətində gedən döyüşlərdə şəhid olduğu məlum olub. Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndində torpağa tapşırılıb.



**Rəcəbalıyev Tural Həmid oğlu** 1990-cı il oktyabrın 4-də İsmayıllı rayonunun Qalınçaq kəndində anadan olub.

Çavuş Tural Rəcəbalıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Rəcəbalıyev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. İsmayıllı rayonunun Qalınçaq kəndində dəfn olunub.

Tural Rəcəbalıyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.






**Rəcəbov Ruslan Rəcəb oğlu** 1984-cü il avqustun 1-də anadan olub.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin miçmanı olan Ruslan Rəcəbov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ruslan Rəcəbov oktyabrın 31-də Xocavənd döyüşləri zamanı şəhid olub.

Ruslan Rəcəbov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəfiyev Seyfəli Musa oğlu** 1997-ci il dekabrın 21-də Siyəzən rayonunda anadan olub.

Gizir Seyfəli Rəfiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş meydanında xidməti vəzifələrinin icrası zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən odlu silahdan açılan atəş nəticəsində şəhid olub.

Göstərdiyi qəhrəmanlıqlara görə "Vətən uğrunda" , "Füzulinin azad olunmasına görə" , "Xocavəndin azad olunmasına görə" , "Şuşanın azad olunmasına görə" , "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Rəfiyev Ülvi Rəfail oğlu** 1996-cı il 16 avqust tarixində Ordubad rayonunda anadan olub.

İkinci Qarabağ savaşı başlayanda könüllü olaraq Vətənin müdafiəsinə qoşulub, 2020-ci ilin 25 oktyabr tarixində Qarabağ uğrunda gedən müharibədə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Suraxanı rayonundakı "Dədə Qorqud" qəbiristanlığında dəfn olunub.

Ülvi Rəfiyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəhimli Baxış İlqar oğlu** 19 fevral 1996-cı ildə Bərdə rayon, Bala Qacar kəndində anadan olub.

Əsgər Baxış Rəhimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azad olunması uğurunda gedən döyüşlərdə iştirak edib.

Noyabrın 9-da saat 17:00 radələrində Şuşa uğrunda gedən döyüşlərdə, müharibənin bitməsinə saatlar qalmış qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Rəhimli Bəxtiyar Nəsimi oğlu** 2001-ci il martın 18-də Tərtər rayonunda anadan olub.

Əsgər Bəxtiyar Rəhimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Oktyabrın 5-də Füzuli rayonu Yuxarı Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəhimli Elcan Ədalət oğlu** 1992-ci il avqustun 26-da Bərdə rayonunda dünyaya gəlib.

Əsgər Elcan Rəhimli 020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Goranboy rayonunda döyüşüb.

Oktyabrın 16-da Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.


O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Rəhimli Kamil Vəli oğlu** 1993-cü il aprelin 19-da Yardımlı rayonunda anadan olub.

Baş leytenant Kamil Rəhimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kamil Rəhimli sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Yardımlı rayonunda dəfn olunub.

Kamil Rəhimli ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Rəhimli Murad İlqar oğlu** 1991-ci il oktyabrın 31-də Sumqayıt şəhərində dünyaya gəlib.

Əsgər Murad Rəhimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Oktyabrın 7-də düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Rəhimli Ömər Rəşad oğlu** 2002-ci il fevralın 1-də Ağcabədi rayonunun Hindarx qəsəbəsində anadan olub.

Əsgər Ömər Rəhimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Hadrut qəsəbəsinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ömər Rəhimli noyabrın 8-də Şuşa döyüşləri zamanı ağır yaralanıb və noyabrın 22-də Bakı şəhərində Hərbi Hospitalda şəhid olub.


Ömər Rəhimli ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəhimli Orxan Rəşid oğlu** 1994-cü il aprelin 28-də Oğuz rayonunun Xaçmaz kəndində anadan olub.

Əsgər Orxan Rəhimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Şuşa uğrunda gedən döyüşlərdə savaşıb. Döyüşlər zamanı bir neçə dəfə yaralansa da, döyüşməyə davam edib. Orxan Rəhimli noyabrın 8-də Şuşa-Xankəndi istiqamətində şəhid olub. Noyabrın 16-da Oğuz rayonunun Xaçmaz kənd Şəhidlər Xiyabanında dəfn olunub.

Orxan Rəhimli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəhimli Tural Gəray oğlu** 2001-ci il oktyabrın 27-də Xırdalan şəhərində anadan olub.

Əsgər Tural Rəhimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Rəhimli sentyabrın 30-da Suqovuşan döyüşləri zamanı şəhid olub.

Tural Rəhimli ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Rəhimli Xəyal Rahil oğlu** 1992-ci il iyunun 9-da Beyləqan rayonunun Əlinəzərli kəndində anadan olub.

Əsgər Xəyal Rəhimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyal Rəhimli oktyabrın 7-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Beyləqan şəhərində dəfn olunub.

Xəyal Rəhimli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Rəhimov Asif Həsrət oğlu** 1993-cü il aprelin 17-də Şəki rayonunun Çayqaraqoyunlu kəndində anadan olub.

MAHHXHQ əsgər Asif Rəhimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı tuşlayıcı operator kimi hərbi xidmətini yerinə yetirib. Talış-Suqovuşan istiqamətində döyüş yolu keçib.

Oktyabrın 3-də Talış-Suqovuşan istiqamətində döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəhimov Elvin Ehtiram oğlu** 1991-ci il noyabrın 20-də Füzuli rayonunun Zərgər kəndində anadan olub.

Baş leytenant Elvin Rəhimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elvin Rəhimov noyabrın 4-də Şuşa döyüşləri zamanı şəhid olub.

Elvin Rəhimov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəhimov Fariz Zahir oğlu** 2001-ci il 20 sentyabr tarixində Qəbələ rayonunun Əmirvan kəndində anadan olub.

Əsgər Fariz Rəhimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli, Cəbrayıl, Xocavənd, Laçın, Şuşa istiqamətində gedən döyüşlərdə savaşıb. Fariz Rəhimov Şuşa uğrunda gedən döyüşlərdə şəhid olub. Əmirvan kəndində yerləşən Şəhidlər Xiyabanında dəfn olunub.


Fariz Rəhimov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Rəhimov Nurlan Əlövsəd oğlu** 1981-ci il noyabrın 22-də Astara şəhərində anadan olub.

Kiçik çavuş Nurlan Rəhimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Rəhimov sentyabrın 30-da Xocavənd rayonunun Üçtəpə adlanan ərazisində şəhid olub.

Nurlan Rəhimov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Rəhimov Rəşad İlqar oğlu** 1985-ci il iyulun 16-da Yevlax şəhərində anadan olub.

Leytenant Rəşad Rəhimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Zəngilanın, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rəşad Rəhimov noyabrın 9-da Şuşa-Xankəndi istiqamətində şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Rəşad Rəhimov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəhimov Ruslan Tanrıverdi oğlu** 1986-cı il iyulun 7-də Beyləqan rayonunun Kəbirli kəndində anadan olub.

Çavuş Ruslan Rəhimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ruslan Rəhimov oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunun Kəbirli kəndində dəfn olunub.

Ruslan Rəhimov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəhimov Sadiq Nadir oğlu** 10 dekabr 1997-ci ildə Lerik rayonunun Veri Əliabadı kəndində anadan olub.

Əsgər Sadiq Rəhimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd uğrunda gedən ağır döyüşlərdə böyük şücaət və qəhrəmanlıqlar göstərib. Düşmənə sarsıdıcı zərbələr endirən və xeyli sayda canlı qüvvəsini məhv edən qəhrəman Sadiq 3 noyabr 2020-ci il tarixində Xocavənd istiqamətində gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidin nəşi doğulduğu Lerik rayonu Veri Əliabadı kəndinə gətirilir və 6 noyabr tarixində kənd qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Füzulinin azad olumasına görə", "Vətən uğrunda","Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəhimov Şamo Heydər oğlu** 1992-ci il sentyabrın 8-də Füzuli rayonunda anadan olub.

Kiçik çavuş Şamo Rəhimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şamo Rəhimov Füzuli uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Rəhimov Tural Arif oğlu** 1993-cü il yanvarın 1-də Cəlilabad rayonunun Söyüdlü kəndində anadan olub.

Leytenant Tural Rəhimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Rəhimov oktyabrın 22-də Qubadlı döyüşləri zamanı şəhid olub. Cəlilabad rayonunda dəfn olunub.

Tural Rəhimov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəhimov Ülvi Rabil oğlu** 2002-ci il iyulun 17-də Abşeron rayonu Məhəmmədli kəndində anadan olub.

Əsgər Ülvi Rəhimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülvi Rəhimov oktyabrın 5-də Füzuli döyüşləri zamanı şəhid olub. Abşeron rayonunda dəfn olunub.

Ülvi Rəhimov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəfibəyli Əbdülrza Şamməd oğlu** 2 iyun 1998-ci ildə Xətai rayonunda anadan olub.

Əsgər Əbdülrza Rəfibəyli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 23-də Xocavənd-Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı başından qəlpə yarası alaraq şəhid olub.

Əbdülrza Rəfibəyli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Rəhimov Elnur Məmmədkərim oğlu** 2000-ci il iyulun 25-də Qəbələ rayonunun Mıxlıqovaq kəndində anadan olub.

Əsgər Elnur Rəhimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur Rəhimov noyabrın 1-də Xocavənd döyüşləri zamanı şəhid olub. Dekabrın 1-də Qəbələ rayonunda dəfn olunub.

Elnur Rəhimov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Rəşidov Natiq Məmmədrza oğlu** 2 sentyabr 1991-ci ildə Saatlı rayonunun Dədə Qorqud kəndində doğulub.

21 sentyabr 2020-ci il tarixində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi təlimlərə cəlb olunmuşdur. Natiq Xocavənd rayonunun Hadrut qəsəbəsi uğrunda döyüşlərdə iştirak edib. Döyüş yoldaşlarının dediyinə görə Natiq döyüşlərdə böyük qəhrəmanlıq göstərib və bir neçə düşmən tankını məhv edib. Hadrut uğrunda döyüşlərdə itkin düşüb. Təxminən bir ay sonra qəhrəmancasına şəhid olduğu məlum olub və 30 noyabrda doğulduğu Dədə Qorqud kəndində dəfn edilib.

Natiq Rəşidov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rüstəmov Ruslan Nüsrət oğlu** 1981-ci il oktyabrın 23-də Hacıqabul rayonunda dünyaya gəlib.

Baş leytenant Rüstəmov Ruslan 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb. Oktyabrın 3-də 9-cu motoatıcı bölük Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", " Vətən uğrunda" medallarıyla təltif edildi.



**Rüstəmov Zamin Səxavət oğlu** 2000-ci il oktyabrın 17-də Füzuli rayonunun Aşağı Yağlıvənd kəndində anadan olub.

Əsgər Zamin Rüstəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq Dövlət Sərhəd Xidmətinin Xüsusi Təyinatlı Qüvvələrinə qoşularaq ön cəbhəyə yollanıb. Oktyabrın 23-də Zəngilan rayonunun Ağbənd qəsəbəsində şəhid olub. Düşmən mühasirəsinə alınan hərbçimiz əsir düşməmək üçün son gülləsi ilə özünə vuraraq şəhidlik zirvəsinə ucalıb. Ailəsi ilə sonuncu dəfə oktyabrın 21-də əlaqə saxlaya bilib. Dekabrın 3-də isə şəhid xəbəri gəlib. Dekabrın 4-də doğulduğu Füzuli rayonunun Araz Yağlıvənd kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rzayev Adil Akif oğlu** 1999-cu il avqustun 20-də Qobustan rayonunun Xilmilli kəndində anadan olub.

Adil Rzayev sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti çağırışı ilə cəbhəyə yolanır. Öncə isə bir neçə gün Qusarda təlim keçir. O, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli, Cəbrayıl, Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Ailənin 5-ci övladı olan Adillə əlaqə oktyabrın 10-da kəsilib. 21 yaşlı əsgərin axtarışlarına başlanılıb. Nəşi tapılandan sonra şəhidin kimliyinin müəyyənləşməsi üçün anadan Bakıda DNT analizi götürülüb. Noyabrın 30-da Sumqayıtdakı Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Rzayev Əli Rəsul oğlu** 1988-ci il aprelin 14-də Gədəbəy rayonunun Novosaratovka kəndində anadan olub.

Əsgər Əli Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Əli Rzayev oktyabrın 1-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. Dekabrın 18-də Gədəbəy rayonunda dəfn olunub.

Əli Rzayev ölümündən sonra "Kəlbəcərin azadlığı uğrunda", "Vətən müharibəsi iştirakçısı" , "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Rzayev İlkin Cəfər oğlu** 1984-cü il iyulun 28-də Şərur rayonu Ələkli kəndində anadan olub.

Mayor Rzayev İlkin 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. "Murovun Aslanı" kimi tanınan mayor İlkin Rzayev Murov yüksəkliyinin alınmasında böyük şücaət göstərərək, bizə qələbə sevincini yaşadıb. İrəli getməyə çalışan digər dəstənin mühasirəyə düşdüyünü görən kimi köməyə gedib və oktyabrın 2-də şəhidlik zirvəsinə ucalıb. 60 gün itkin kimi bilinən şəhidimiz 2 ay qar altında qalıb və nəhayət, tapılaraq ailəsinə təhvil verilib. Mayor İlkin Rzayev İkinci Fəxri Xiyabanda dəfn edilib.

İlkin Rzayev ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Rzayev Səməd Fizuli oğlu** 1995-ci il aprelin 19-da Goranboy rayonunun Səfikürd kəndində anadan olub.

Kiçik çavuş Səməd Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Səməd Rzayev sentyabrın 29-da Murovdağ döyüşləri zamanı şəhid olub. Goranboy rayonunun Səfikürd kəndində dəfn olunub.


Səməd Rzayev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Rzayev Vüsal Tofiq oğlu** 1994-cü il aprelin 14-də Şabran rayonunda anadan olub.

Əsgər Vüsal Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüş meydanında şücaət göstərərək bir neçə məntəqənin düşmən işğalından azad edilməsində iştirak edib. Oktyabrın 14-də Füzuli istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Rəhimov Yalçın Elçin oğlu** 2000-ci il iyulun 25-də Ağsu rayonunun Çaparlı kəndində anadan olub.

Əsgər Yalçın Rəhimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Yalçın Rəhimov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Ağsu rayonunun Çaparlı kəndində dəfn olunub.

Yalçın Rəhimov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəhimov Zamin Vahid oğlu** 21 aprel 1988-ci ildə Cəbrayıl rayonunun Məzrə kəndində anadan olub.

Əsgər Zamin Rəhimov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb. Oktyabrın 7-də Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə şəhid olub. Binəqədi rayonunun Biləcəri qəsəbəsində yerləşən qəbiristanlıqda dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Rəhmanov Samiq Rizvan oğlu** 1989-cu ildə Astaranın Səncərədi kəndində dünyaya gəlib.

Çavuş Samiq Rəhmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Samiq Rəhmanov oktyabrın 25-də Qubadlı döyüşləri zamanı şəhid olub. Astara rayonunun Səncərədi kəndində dəfn olunub.

Samiq Rəhmanov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəhmətov Əbülfəz Hüseynverdi oğlu** 3 iyul 1989-cu ildə Lerik rayonunun Anbu kəndində anadan olub.

Kapitan Əbülfəz Rəhmətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində kəşfiyyatçı və motoatıcı taborun qərargah rəisi kimi iştirak edib. Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 16-da Cəbrayıl istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olub. 7 may 2021-ci ildə Lerik rayonunda dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Rəşidov İlham Tahir oğlu** 1983-cü il martın 1-də Marı vilayətində anadan olub.

Baş gizir İlham Rəşidov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. İlham Rəşidov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Xudat şəhərində dəfn olunub.

İlham Rəşidov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəşidov Tural Fazil oğlu** 30 may 1989-cu ildə anadan olub.

Gizir Tural Rəşidov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Tural Rəşidov oktyabrın 16-da Füzuli döyüşləri zamanı şəhid olub. Balakən Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Tural Rəşidov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəşidov Ziyəddin Arzu oğlu** 1997-ci il avqustun 28-də Xırdalan şəhərində anadan olub

Əsgər Ziyəddin Rəşidov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ziyəddin Rəşidov oktyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub.

Ziyəddin Rəşidov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəşidzadə Səid Nofəl oğlu** 1990-cı il yanvarın 28-də Füzuli rayonunun Horadiz şəhərində anadan olub.

Səid Rəşidzadə könüllü olaraq 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə yollanıb. Səid Rəşidzadə Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Səid Rəşidzadə oktyabrın 11-də Hadrut qəsəbəsində Azərbaycan bayrağını sancan zaman şəhid olub. Füzuli rayonunda dəfn olunub.

Səid Rəşidzadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görüldü.





**Rəsulov Ağacan Əfsər oğlu** 1997-ci il sentyabrın 10-da Sabirabad rayonunun Xəlfəli kəndində anadan olub.

Əsgər Ağacan Rəsulov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Ağacan Rəsulov noyabrın 8-də şəhid olub. Sabirabad rayonunda dəfn olunub.

Ağacan Rəsulov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəsulov Elxan Ayaz oğlu** 1989-cu il aprelin 6-da Goranboy rayonunda dünyaya gəlib.

Əsgər Elxan Rəsulov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan bölgəsində döyüşüb.

Oktyabrın 16-da müharibənin qızğın dövründə Talış-Suqovuşan istiqamətində gedən döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Rəsulov Mirbala Əmirağa oğlu** 1989-cu il oktyabrın 17-də Şabran rayonunun Rəhimli kəndində anadan olub.

Kiçik gizir Mirbala Rəsulov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 5-də yaralı yoldaşlarını döyüş meydanından çıxararkən snayper gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub . Şabran rayonunun Rəhimli kəndində dəfn olunub.

Mirbala Rəsulov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəsulov Nərman Fəzaim oğlu** 23 oktyabr 1993-cü ildə Yevlax rayonunun Aşağı Bucaq kəndində dünyaya göz açıb.

Əsgər Nərman Rəsulov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Nərman Rəsulov 16 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.


O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Rəsulov Sahil Sərvan oğlu** 1999-cu il iyulun 24-də Səfikürd kəndində anadan olub.

Əsgər Sahil Rəsulov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub.

Oktyabrın 10-da Suqovuşan istiqamətində gedən döyüşlərdə tank mərmisinə tuş gələrək qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Rəsulov Teymur Yavus oğlu** 1998-ci il martın 23-də Qaradağ rayonunun Sahil qəsəbəsində anadan olub.

Əsgər Teymur Rəsulov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Teymur Rəsulov oktyabrın 21-də Cəbrayıl döyüşləri zamanı şəhid olub.

Teymur Rəsulov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəsulov Xəzər Mail oğlu** 1987-ci il oktyabrın 7-də Yevlax rayonunun Xanabad kəndində anadan olub.

Əsgər Xəzər Rəsulov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəzər Rəsulov oktyabrın 8-də Ağdərə istiqamətində şəhid olub. Yevlax rayonunda dəfn olunub.

Xəzər Rəsulov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rəsulzadə Təbriz Əfrayim oğlu** 1993-cü il fevralın 5-də Qax rayonunun Cəlayir kəndində anadan olub.

Baş leytenant Təbriz Rəsulzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərdə savaşıb. Təbriz Rəsulzadə sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Qax rayonunda dəfn olunub.

Təbriz Rəsulzadə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Rzalı Əli Nuru oğlu** 2002-ci il aprelin 17-də Yardımlı rayonunun Bilnə kəndində anadan olub.

Əsgər Əli Rzalı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. Əli Rzalı oktyabrın 2-də şəhid olub. Yardımlı rayonunda dəfn olunub.

Əli Nuru oğlu Rzalı "Cəsur döyüşçü", "İgidliyə görə", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Rufullayev Rasim Yadigar oğlu** 1997-ci il avqustun 31-də Yardımlı rayonunun Zevin kəndində anadan olub.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri olan Rasim Rufullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində savaşıb. Rasim Rufullayev noyabrın 6-da şəhid olub. Yardımlı rayonunda dəfn olunub.

Rasim Rufullayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Rükabzadə İbrahim Rasif oğlu** 14 oktyabr 2000-ci ildə Masallı rayonu Boradigah qəsəbəsində anadan olub.

Əsgər İbrahim Rükabzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. O, Cəbrayıl, Zəngilan, Qubadlı və Xocavəndin alınmasında fəal iştirak edib.

İbrahim Rükabzadə 18 oktyabr Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub. Oktyabr ayının 23-ü şəhid Masallı rayonunun Boradigah qəsəbəsində dəfn edilib.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Rüstəmli Əmrah Natiq oğlu** 5 iyul 2001-ci ildə Bərdə rayonunda anadan olub.


Əsgər Əmrah Rüstəmli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Əmrah Rüstəmli oktyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub.

Əmrah Rüstəmli ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Rüstəmli İbrahim Mirzağa oğlu** 18 iyul 1993-cü ildə Zərdab rayonunun Şahhüseynli kəndində anadan olub.

Bir müddət müalicə alıb, sağaldıqdan sonra yenidən cəbhəyə yollanıb. Xocavənd rayonunun bir neçə kəndinin alınmasında fəal iştirak edib. Noyabrın 4-də Xocavənd uğrunda gedən döyüşlərdə yaralanan bir neçə əsgər yoldaşının mühasirədən çıxmasına kömək edərkən qəhrəmancasına şəhid olub. Zərdab rayonunun Şahhüseynli kənd qəbiristanlığında dəfn edilib.

İbrahim Rüstəmli ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rüstəmli Kənan Yalçın oğlu** 1999-cu il noyabrın 19-u Biləsuvar rayonunun Əsgərabad kəndində anadan olub.

Əsgər Kənan Rüstəmli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Murovdağ silsiləsindəki yüksəkliklərin işğaldan azad edilməsində və Suqovuşan döyüşündə iştirak edib.

Rüstəmli Kənan Yalçın oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rüstəmov Amil Bədrəddin oğlu** 1995-ci il dekabrın 10-da Tovuz rayonunun Bayramlı kəndində anadan olub.


Əsgər Amil Rüstəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amil Rüstəmov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Tovuz rayonunda dəfn olunub.

Amil Rüstəmov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rüstəmov Arif Seymur oğlu** 11 oktyabr 2001-ci ildə Salyan şəhərində anadan olub.

Əsgər Arif Rüstəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlının azad olunması uğrunda döyüşlərdə iştirak edib. Arif Rüstmov oktyabrın 27-də Füzuli rayonunda gedən döyüşlərdə şəhid olub.






**Rüstəmov Aydın Elxan oğlu** 17 avqust 1997-ci ildə Gəncə şəhərində anadan olub.

Əsgər Aydın Rüstəmov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib. O, Füzuli istiqamətində gedən döyüşlərdə vuruşub. Oktyabrın 8-də Füzuli rayonu ərazisində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib. 7 noyabrda Gəncə şəhərinin Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rüstəmov Basid İdris oğlu** 2 iyun 1996-ci ildə Kəngərli rayonunun, Xok kəndində anadan olub.

Əsgər Basid Rüstəmov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsi zamanı XST qumbaraatan kimi hərbi xidmətini yerinə yetirib. Xocavənd rayonu istiqamətində döyüş yolu keçib.

09.11.2020-ci ildə Xocavənd rayonu istiqamətində gedən döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rüstəmov Ələs Vidadi oğlu** 1998-ci il noyabrın 24-ü Goranboy rayonunun Dəliməmmədli kəndində anadan olub.

Əsgər Rüstəmov Vidadi 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Murovdağ silsiləsindəki yüksəkliklərin ələ keçirilməsində iştirak edib. 2020-ci il oktyabrın 2-si şəhid olub, doğulduğu tarixdə – noyabrın 24-ü dəfn edilib.

Rüstəmov Ələs Vidadi oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Rüstəmov Əli Yağınəli oğlu** 1992-ci il avqustun 15-də Cəlilabad rayonunun Çünzəli kəndində anadan olub.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri olan Əli Rüstəmov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Əli Rüstəmov oktyabrın 9-da Hadrut döyüşləri zamanı şəhid olub.

Əli Rüstəmov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Rüstəmov Elnur İsmayıl oğlu** 1 dekabr 2020-ci ildə Beyləqan rayonunun Kəbirli kəndində dünyaya gəlib.

Əsgər Elnur Rüstəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Elnur Rüstəmov 8 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Elnur Rüstəmov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rüstəmov Emin Səid oğlu** 1992-ci il mayın 2-də Yevlax rayonunda anadan olub.

Əsgər Emin Rüstəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan istiqamətində döyüş yolu keçib. Oktyabrın 1-də Talış-Suqovuşan istiqamətində döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Rüstəmov Üzeyir Əyyub oğlu** 1997-ci il mayın 17-də Şəmkir rayonunun Qılıncbəyli kəndində anadan olub.

Gizir Üzeyir Rüstəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Üzeyir Rüstəmov oktyabrın 1-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Üzeyir Rüstəmov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rüstəmov Pərviz Tufan oğlu** 6 may 1992-ci ildə Azərbaycan Respublikasının Samux rayonunda anadan olub.

27 sentyabr 2020-ci il tarixində başlayan İkinci Qarabağ müharibəsinin hələ ilk günlərindən könüllü olaraq ordu sıralarına qatılıb və müxtəlif istiqamətlərdə döyüşərək böyük şücaət göstərib. Füzuli və Cəbrayıl rayonu istiqamətlərində döyüş yolu keçib. Ən son 15 oktyabr 2020-ci il tarixində Füzuli rayonunun Qaraxanbəyli kəndinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərib, lakin düşmən pusqusuna düşərək şəhidlik zirvəsinə ucalıb. Bir müddət nəşi neytral zonada qalıb. Oktyabrın 30-da ailəsinə təhvil verilib və Samux Şəhidlər Xiyabanında böyük izdihamla dəfn edilib.

O, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.





**Rüstəmov Rövşən Orxan oğlu** 1999-cu il aprelin 11-də Bakı şəhərində anadan olub.

Əsgər Rövşən Rüstəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Rövşən Rüstəmov oktyabrın 6-da şəhid olub.

Rövşən Rüstəmov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rüstəmov Vüqar Kamil oğlu** 1994-cü il mayın 1-də Gədəbəy rayonunun Xarxar kəndində anadan olub.

Əsgər Vüqar Rüstəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Vüqar Rüstəmov Xocavənd rayonu ərazisində gedən döyüşlər zamanı şəhid olub. Noyabrın 16-da Gədəbəy rayonunun Xarxar kəndində dəfn olunub.

Vüqar Rüstəmov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rüstəmov Vüsal Valeh oğlu** 1993-cü il martın 12-də Cəbrayıl rayonunun Maşanlı kəndində anadan olub.

Gizir Vüsal Rüstəmov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal Rüstəmov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub.

Vüsal Rüstəmov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rüstəmzadə Emin Firqət oğlu** 23 fevral 1991-ci ildə Mingəçevirdə anadan olub.

Əsgər Emin Rüstəmzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 12-də 530 yüksəkliyində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Rzalı Daşqın Elşad oğlu** 1993-cü il mayın 27-də Culfa rayonunun Yaycı kəndində anadan olub.

Kiçik gizir Daşqın Rzalı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Zəngilan istiqamətində gedən döyüşlərdə iştirak edib.

Daşqın Rzalı oktyabrın 21-də Zəngilan döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb. Culfa rayon Yaycı kənd məzarlığında dəfn olunub.

O, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Rzaxanov Nihat Natiq oğlu** 18 aprel 2001-ci ildə Biləcəri qəsəbəsində anadan olub.

27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsinə qatılıb. Cəbhənin Cəbrayıl, Füzuli, Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak edib. 6 noyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə şəhid olub. 7 noyabr 2020-ci ildə dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rzayev Amin Qurban oğlu** 2000-ci il yanvarın 1-də Gədəbəy rayonunun Çobankənd kəndində anadan olub.

Əsgər Amin Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amin Rzayev oktyabrın 1-də Talış kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub. Gədəbəy rayonunda dəfn olunub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Rzayev Aslan Süleyman oğlu** 1995-ci il yanvarın 21-də Sabunçu rayonunun Maştağa qəsəbəsində anadan olub.

Çavuş Aslan Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Aslan Rzayev oktyabrın 13-də Hadrut döyüşləri zamanı şəhid olub. Sabunçu rayonunun Maştağa qəsəbəsində dəfn olunub.

Aslan Rzayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Rzayev Bilal Novruz oğlu** 1997-ci ildə Cəlilabadın Alar kəndində anadan olub.

Əsgər Bilal Rzayev sentyabrın 28-də Cəlilabad rayonundan könüllü olaraq orduya yola salınıb. 2020-ci il noyabrın 24-də Azərbaycan ərazisinin erməni işğalından azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olub. Doğma kəndində dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rzayev Ceyhun İsmayıl oğlu** 1994-cü il sentyabrın 16-da Bərdə şəhərində anadan olub.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Ceyhun Rzayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ceyhun Rzayev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Bərdə şəhərində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rzayev Əli Nəsib oğlu** 1992-ci il iyulun 9-da Mingəçevir şəhərində anadan olub.

Kiçik çavuş Əli Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əli Rzayev oktyabrın 6-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Əli Rzayev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rzayev Əlirza Mehman oğlu** 29 sentyabr 2000-ci il tarixində Salyan şəhərində anadan olub. Vətən müharibəsi başlanan andan Əlirza da topçu kimi döyüş mövqeyində olub, Murov dağı yüksəkliyinin Kəlbəcər istiqamətində ağır döyüşlərdə topçu kimi iştirak edib. Sərrast atəşlə düşmən mövqelərinə sarsıdıcı zərbələr vurub. Əlirza Rzayev 2020-ci il sentyabrın 29-da Goranboy rayonu istiqamətində şəhid olub. 20 yaşı tamam olan gün düşmənin atdığı mərmi nəticəsində aldığı qəlpə xəsarətlərindən dünyasını dəyişib. Şiddətli döyüş getdiyi üçün ağır yaralanan Əlirzanı 4 saata yaxın ərazidən çıxarmaq mümkün olmadığından o, çoxlu qan itirib. Sanitar hissəyə çatdırılanda isə artıq gec olub, "Ana" deyərək gözlərini əbədi yumub.

Əlirza Rzayev ölümündən sonra "Vətən uğrunda" , "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Rzayev Elxan Ariz oğlu** 1994-cü il aprelin 15-də Sabirabad rayonunun Qəzli kəndində anadan olub.

Əsgər Elxan Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Elxan Rzayev noyabrın 1-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Elxan Rzayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilib.



**Rzayev Hacırza Fikrət oğlu** 7 yanvar 1992-ci ildə Bakı şəhərində anadan olub.

Əsgər Hacırza Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib. Füzuli, Cəbrayıl, Hadrut istiqamətində gedən döyüşlərdə vuruşub. Noyabrın 26-da Şuşada qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rzayev Hüseyn Aslan oğlu** 1996-cı il may ayının 14 də Gədəbəy rayonunun Novo-Saratovka kəndində anadan olub.

Əsgər Hüseyn Rzayev 21 sentyabr 2020-ci ildə könüllü olaraq hərbiyə yola düşüb. Başkənd, Füzuli bölgələrində qəhrəmanlıqlarıyla seçilib. 27 sentyabr 2020-ci il tarixində "Motoatıcı manqa komandiri" vəzifəsi üzrə sertifikata yiyələnib.

26 oktyabr 2020-ci ildə Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olub. 23 noyabr 2020-ci ildə doğulduğu kənddə dəfn edilib.

O, ölümündən sonra "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rzayev Kənan Əbdürrəhman oğlu** 12 sentyabr 1995-ci ildə Culfa rayonunun Qızılca kəndində anadan olub.

Əsgər Kənan Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı kəşfiyyatçı-istehkamçı kimi hərbi xidmətini yerinə yetirib. Xocavənd rayonu istiqamətində döyüş yolu keçib.

Oktyabrın 21-də Tuğ dağı istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Rzayev Məhəmməd-Nadir İlqar oğlu** 18 noyabr 1994-cü ildə Sumqayıt şəhərində anadan olub.

Əsgər Məhəmməd Nadir Rzayev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Oktyabrın 15-də Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rzayev Mirsəfa Mircəlil oğlu** 1995-ci il 9 fevral tarixində Sumqayıt şəhərində anadan olub.

Əsgər Mirsəfa Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli, Cəbrayıl və Zəngilan istiqamətində gedən döyüşlərdə olub. Mirsəfa Rzayev oktyabr 27-də Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid olub. 27 oktyabrın 2020-ci il tarixində Qaradağ rayonundakı Ümumşəhər qəbiristanlığında dəfn olunub. Daha sonra məzarı II Şəhidlər Xiyabanına köçürülüb.

Mirsəfa Rzayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Rzayev Nurlan Yusif oğlu** 1991-ci il mayın 23-də Füzuli rayonunun Aşağıveysəlli kəndində anadan olub.

Əsgər Nurlan Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Rzayev oktyabrın 17-də Füzuli döyüşləri zamanı şəhid olub.

Nurlan Rzayev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.




**Rzayev Qəhrəman Bəhmən oğlu** 1996-cı il oktyabrın 16-da Beyləqan rayonunun Kəbirli kəndində anadan olub.

Əsgər Qəhrəman Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Qubadlı rayonu istiqamətində gedən döyüşlərdə 120-lik minomyot düşməsi nəticəsində 7 noyabrda şəhidlik zirvəsinə ucalıb. Beyləqan rayonunun Kəbirli kənd Şəhidlər Xiyabanında dəfn edilib.

Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Rzayev Tərlan Rövşad oğlu** 2001-ci il mayın 21-də Sumqayıt şəhərində anadan olub.

Əsgər Tərlan Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə savaşıb. Döyüşlər zamanı mühasirəyə düşən yoldaşlarının köməyinə yetişməyə çalışan Tərlan Rzayev sentyabrın 27-də Füzuli istiqamətində son damla qədər qanınadək döyüşərək şəhidlik zirvəsinə yüksəlib. Şəhid Tərlan Rzayev Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Rzayev Ülfət Novruz oğlu** 2001-ci il fevralın 11-də Tərtər rayonunun Cəmilli kəndində anadan olub.

Əsgər Ülfət Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli Şuşa rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. Ülfət Rzayev noyabrın 5-də Şuşa döyüşləri zamanı şəhid olub. Tərtər rayonunda dəfn olunub.

Ülfət Rzayev ölümündən sonra "İgidliyə görə", "Vətən müharibəsi iştirakçısı, "Kəlbəcərin azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Şuşanın azad edilməsinə görə" medalları ilə təltif edildi.



**Rzayev Zülfü Zeyni oğlu** 1993-cü ilin may ayının 9-u Şahbuz rayonunun Külüs kəndində anadan olub.

Baş leytenant Zülfü Rzayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə savaşıb. İkinci Qarabağ müharibəsinin başlandığı ilk gün – 27 sentyabr tarixində yaralı əsgərini xilas edərkən aldığı snayper yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rzazadə Fərhad Mirzə oğlu** 12 oktyabr 2001-ci ildə Füzulinin Bala Bəhmənli kəndində doğulub.

Əsgər Elvin 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. Fərhad ilk olaraq Kəlbəcər-Murovdağ istiqamətində döyüşüb. Oktyabrın 1-də Füzuli istiqamətində gedən döyüşlərə qatılıb. Daşkəsən kəndində düşmən mövqeyi məhv edildikdən sonra düşmən artilleriyasından atılan mərminin yaxınlıqda partlaması nəticəsində oktyabrın 3-də Cəbrayıl uğrunda döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksələn qəhrəmanımız oktyabrın 14-də Füzuli rayonunun Bala Bəhmənli kənd qəbiristanlığında dəfn olunub.

O, şəhadətindən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Rzazadə Həsən Vüqar oğlu** 1994-cü il iyunun 15-də anadan olub.

Baş leytenant Həsən Rzazadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Həsən Rzazadə noyabrın 1-də Laçın döyüşləri zamanı şəhid olub.

Həsən Rzazadə ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rzazadə Mirməhəmmədəli Tərlan oğlu** 1997-ci il iyulun 13-də Lənkəran rayonunun Şilavar kəndində anadan olub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Əsgər Mirməhəmmədəli Rzazadə oktyabrın 17-də Cəbrayıl döyüşləri zamanı şəhid olub.


Şəhid Rzazadə Mirməhəmmədəli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Rzazadə Murad Ağamməməd oğlu** 21 sentyabr 1993-cü il tarixində Salyan rayonunun Marışlı kəndində anadan olub.

04.10.2020-ci ildə Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində hərəkət edən zaman düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Ağdamın azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Şabanov Fuad Rasim oğlu** 1997-ci il iyulun 11-də Balakən rayonunun Qaravəli kəndində anadan olub.

Əsgər Fuad Şabanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib.

Fuad Şabanov oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Püştətala kəndində torpağa tapşırılıb.

Fuad Şabanov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Şabanov Kamran Elşən oğlu** 21 noyabr 1995-ci ildə Qax rayonunun Marsan kəndidə anadan olub.

Əsgər Kamran Şabanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Baş atıcı kimi hərbi xidmətini yerinə yetirib. Döyüş bölgəsində müxtəlif ərazilərdə qəhrəmancasına vuruşub. Füzuli şəhərinin azad olunmasında xüsusilə igidlik göstərib. Şuşa şəhərinin işğaldan azad edilməsi əməliyyatında döyüş yolu keçib.

8 noyabr 2020-ci ildə Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" , "Cəsur döyüşçü" , "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şabanov Rüfət Rauf oğlu** 2001-ci il fevralın 24-də Abşeron rayonunun Ceyranbatan qəsəbəsində anadan olub.

2020-ci il oktyabrın 18-də Murovdağ zirvəzi ətrafında gedən döyüşlərdə iştirak edib və bu zaman şəhidlik zirvəsinə ucalıb.

Rüfət Şabanov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sabirli Əjdər Xanlar oğlu** 1996-cı il dekabrın 22-də Tərtər rayonunun Hacallı kəndində anadan olub.

Kiçik çavuş Əjdər Sabirli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əjdər Sabirli oktyabrın 8-də Talış istiqamətində şəhid olub.

Əjdər Sabirli ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sadıqlı İbrahim Şahin oğlu** 1993-cü il iyunun 28-də Bakı şəhərində anadan olub.

Gizir İbrahim Sadıqlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə, həmçinin Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İbrahim Sadıqlı oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

İbrahim Sadıqlı ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Sadıqlı Məmmədhəsən Meydan oğlu** 1992-ci il 21 fevralda Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Dəmirçi kəndində anadan olub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Naxçıvan XTQ heyəti ilə birlikdə 25 oktyabr 2020-ci ildə Füzuli istiqamətində yola düşüb. Oktyabrın 27-də Şuşa döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb. Şərur rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sadıqov Elgün Heydər oğlu** 2000-ci il yanvarın 11-də Ağdam rayonunun Sarıçoban kəndində anadan olub.

Elgün Sadıqov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdamın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Minaatan batareyasının sürücüsü olub. Şəhid olduğu günə kimi gecə gündüz ön cəbhədə yerləşən ordunu hərbi silah-sursat və ərzaqla təmin edib. Ermənilər bir neçə dəfə onun maşınını hədəf alsalar da, çətin vəziyyətdən çıxmağı bacarıb. Vətən müharibəsinin 27-ci günü mənfur düşmən onun maşınını hədəf alıb. Elgün Sadıqov 23 oktyabr 2020-ci ildə şəhid olub.

Elgün Sadıqov ölümündən sonra "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sadıqov Elnur Kərim oğlu** 2001-ci ildə Cəlilabad rayonunun Təzəkənd kəndində anadan olub.

Əsgər Elnur Sadıqov oktyabr ayının 16-da Ağdərə istiqamətində gedən ağır döyüşlərdə düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Onun nəşi ötən ilin oktyabrında Cəlilabada gətirilib və doğulduğu kənddə dəfn edilib. Şəhidin atası Kərim Sadıqov deyir ki, oğlu döyüşlərə müharibənin ilk günlərindən qoşulub. Döyüşlərdə yaralansa da ailəsinə deməyib və yenidən döyüşlərə qayıdıb.

Elnur Kərimov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Sadıqov Elvin Namiq oğlu** 3 noyabr 1998-ci ildə Goranboy rayonunun Qaradağlı kəndində anadan olub.

Əsgər Elvin Sadıqov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsindən bir həftə əvvəl əməliyyat olunub. Müharibə başlanan zaman Elvin də müharibədə iştirak etmək istəyib, lakin səhhətindəki vəziyyətə görə həkimlər ona fikrindən çəkinməyi məsləhət görüb. Elvin isə "mən neçə ildir bu vaxtı gözləyirdim, Vətənimizin bizlərə ehtiyacı var", – deyərək Füzulinin döyüş bölgəsinə yollanıb.

Müharibə zamanı XT qrup kəşfiyyatçı-pulemyotçu kimi hərbi xidmətini yerinə yetirib. Elvin Sadıqov doğulduğu gün – noyabrın 3-də Şuşa şəhəri istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

Elvin Sadıqov ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və " Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Sadiqov Emin Rəşadət oğlu** 21 iyul 1998-ci ildə Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun Şahbuz kəndində anadan olub.

Leytenant Emin Sadıqov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə Füzuli istiqamətində qoşulub. 26 oktyabr 2020-ci ildə şəhidlik zirvəsinə ucalıb. 30 oktyabr 2020-ci ildə doğulduğu Şahbuz kənd məzarlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sadıqov Rəşad Xanlar oğlu** 11 oktyabr 1978-ci ildə Laçın rayonunda anadan olub.

Polkovnik-leytenant Sadıqov Rəşad 2020-ci il 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Qubadlı, Laçın istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 30-da doğulduğu Laçın rayonu istiqamətində qəhrəmancasına şəhid olub. Şəmkir rayonunun Çaparlı kəndində dəfn olunan şəhidimizin şəhadətindən 13 gün sonra atası onun ağrı-acısına dözməyib və dünyasını dəyişib.


Rəşad Sadıqov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sadıqov Rəsul Həşim oğlu** 2001-ci il martın 3-də Bakı şəhərində anadan olub.

Əsgər Rəsul Sadıqov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Hərbi xidmət müddətinin başa çatmasına baxmayaraq, könüllü olaraq II Qarabağ müharibəsində iştirak edib, minomyot tuşlayıcısı olub. Ağdərə, Suqovuşan, Murov yüksəkliyi uğrunda gedən döyüşlərdə yüksək şücaət göstərib, olduğu ərazidə döyüşü idarə edən ikinci şəxs olub. Oktyabrın 10-da Suqovuşan istiqamətində qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Mehdiabadda Şuşa Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra döyüşlərdə fəal iştirakına görə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sadıqov Ruslan Amiraslan oğlu** 1987-ci il dekabrın 31-də Şəki rayonunun Cəfərabad kəndində anadan olub.

Baş çavuş Ruslan Sadıqov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ruslan Sadıqov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Ruslan Sadıqov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Sadıqov Rüfət Vaqif oğlu** 13 noyabr 1995-ci ildə Daşkəsən rayonunun Quşçu kəndində anadan olub.

Çavuş Rüfət Sadıqov 2020-ci il oktyabrın 4-də Kəlbəcər uğrunda gedən döyüşlərdə şəhid olub. Nəşi tapılaraq dekabrın 19-da Daşkəsən rayonunun Şəhidlər Xiyabanında dəfn edilib.

Rüfət Sadıqov ölümündən sonra "Vətən müharibəsi iştirakçısı", "Cəsur döyüşçü" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Salamov Taleh Ədalət oğlu** 1992-ci il yanvarın 16-da Quba rayonunun Güləzi kəndindən anadan olub.

Kiçik çavuş Taleh Salamov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Talış kənd və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə 2020-ci il oktyabrın 10-da qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib. Xırt kənd qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Salmanov Paşa Həkim oğlu** 1995-ci il avqustun 18-də Göyçay rayonunda anadan olub.

Paşa Salmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdamın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ağdam döyüşlərində düşmən tərəfindən atılan artilleriya atəşi zamanı ağır yaralanıb. Paşa Salmanov dekabrın 6-da Hərbi hospitalda şəhid olub.

Paşa Salmanov ölümündən sonra "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı", "Ağdamın azad olmasına görə", "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Cavid Xaliq oğlu Səfərli** 1993-cü ildə mayın 31-də İmişli rayonunun Əliqulular kəndində dünyaya göz açıb.

Baş leytenant Cavid Səfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzuli, Cəbrayıl, və Hadrut döyüşlərində vuruşub. Cavid Səfərli 20 oktyabr 2020-ci ildə Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Bir aya yaxın müddətdə itkin olaraq axtarılan Cavid Səfərlinin nəşi noyabrın 17-də ana torpağa tapşırılıb.

Cavid Səfərli ölümündən sonra "Vətən uğrunda", İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Səfərov Hikmət İdırım oğlu** 1 yanvar 1972-ci ildə Ağdam rayonunun Yusifcanlı kəndində anadan olub.

Baş-leytenant Hikmət Səfərov könüllü olaraq 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində qəhrəmancasına iştirak edib. Hikmət Səfərov Suqovuşan uğrunda döyüşdə ağır yaralanıb, uzun müddət komada qalandan sonra dekabın 8-də şəhid olub. Dekabrın 9-da yüksək rütbəli ordu mənsublarının, müvafiq rayon – şəhər icra nümayəndələrinin və ailə üzvlərinin iştirakı ilə II Fəxri Xiyabanda dəfn olunub.

Hikmət Səfərov ölümündən sonra "Rəşadət" ordeni, "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", "Cəsur döyüşçü" medalları ilə də təltif edildi.



**Səfərov Nicat Vaqib oğlu** 1992-ci il may ayının 4-də Yevlax rayonunda dünyaya gəlib.

Gizir Nicat Səfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Nicat Səfərov Kəhrilər xarabalığı, Dostagir, Talış və Suqovuşan istiqamətində döyüşüb.

Döyüş mövqeyinə düşmən tərəfindən edilən hücumun qarşısını alıb və düşmənin canlı qüvvəsinin məhv edərək böyük şücaət göstərib. Oktyabrın 3-də Goranboy rayonu Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində döyüşdə şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Səfərov Tamerlan Cavad oğlu** 6 yanvar 2001-ci ildə Azərbaycanın Quba rayonunun Səbətlər kəndində anadan olub.

Əsgər Tamerlan Səfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Gülüstan kəndi, Kəhrilər xarabalığı, Dostagir, Talış və Suqovuşan istiqamətlərində döyüşüb.

Oktyabrın 1-də Goranboy rayonunun Gülüstan kəndi istiqamətində hərbi əməliyyatlar zamanı şəhid olub.

Tamerlan Səfərov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" , "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülüb.




**Elçin Tehran oğlu Süleymanov** 1991-ci il noyabrın 29-də Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olub.

Elçin Süleymanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. O, sentyabrın 30-da Cəbrayılda minamyot qəlpəsindən aldığı yaradan şəhid olub.

Elçin Süleymanov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Sadıqov Səbuhi Rövşən oğlu** 9 may 1996–cı ildə Biləsuvar rayonunda anadan olmub.

Əsgər Səbuhi Sadıqov 28 sentyabr 2020-ci ildə Vətən müharibəsində könüllü olaraq Azərbaycan Respublikası Xüsusi Təyinatlı Qüvvələrində kəşfiyyatçı kimi 37 gün xidmət edib. Füzuli, Xocavənd, Hadrut, Cəbrayıl, Qubadlı, Laçın istiqamətində gedən döyüşlərdə iştirak edib və Laçında qəhrəmancasına şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Səbuhi Sadıqov ölümündən sonra "Vətən uğrunda" , "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.




**Sadıqov Surac Ədalət oğlu** 15 iyul 2001-ci ildə Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olub.

Surac Sadıqov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 10-da düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Şəhid Surac Sadıqov 11 oktyabr 2020-ci il tarixində Biləsuvar rayonunun Ağalıkənd kənd məzarıstanlığında dəfn olunub.

Surac Sadıqov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sadıqov Vüqar İlqar oğlu** 2001-ci il aprelin 30-da Xaçmaz rayonunun Qusarçay kəndində anadan olub.

Əsgər Vüqar Sadıqov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüqar Sadıqov oktyabrın 13-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Vüqar Sadıqov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Sadıqov Vüsal İsmayıl oğlu** 1990-cı il dekabrın 24-də Füzuli rayonunun Əhmədbəyli kəndində anadan olub.

Çavuş Vüsal Sadıqov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal Sadıqov sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub.

Vüsal Sadıqov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.

**Sadıqov Yaşar Füzuli oğlu** 10 avqust 1975-ci ildə Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olub.

Polkovnik-leytenant Yaşar Sadıqov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. O, oktyabrın əvvəlində Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapılmayıb.

2021-ci il fevralın 27-də II Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Sadıqzadə Emil Əziz oğlu** 21 iyun 2000-ci ildə Samux rayonun Qovlarsarı kəndində anadan olub.

Əsgər Emil Sadıqzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günündən ön cəbhədəki qızğın döyüşlərdə vuruşub. Cəbrayıl, Füzuli və Murovdağ istiqamətində gedən şiddətli döyüşlərdə yaxından iştirak edib. Oktyabrın 14-də isə Füzuli şəhərinin işğaldan azad olması uğrunda gedən döyüşlər zamanı düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sadıxov Rahid Vahid oğlu** 13 fevral 2001 ci il tarixində Rusiya Federasiyasının Saratov şəhərində anadan olub.

Əsgər Rahid Sadıxov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sonuncu dəfə ailəsi ilə 26 sentyabrda əlaqə saxlayıb.

Sentyabrın 28-də Suqovusan və Talış kəndi ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Oktyabrın 29-da Abşeron rayonunun Saray qəsəbəsində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Şahbabayev Güləddin Zəfər oğlu** 21 may 2001-ci ildə Şabran rayonunun Düz Bilici kəndində anadan olub.

Əsgər Güləddin Şahbabayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. Güləddin Şahbabayev oktyabrın 17-də Füzuli döyüşləri zamanı şəhid olub. Şabran rayonunda dəfn olunub.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şücaətə görə" medalları ilə təltif edildi.





**Şahbazlı Əlikram Novruz oğlu** 1 oktyabr 2001-ci ildə Şabran rayonunun Borbor kəndində dünyaya göz açıb.

Əsgər Əlikram Şahbazlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Suqovuşanın və Hadrutun azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. 7 oktyabr 2020-ci ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Əlikram Şahbazlı ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şahbazov Abas Cavad oğlu** 1996-cı il noyabrın 13-də İmişli rayonunun Qulubəyli kəndində anadan olub.

Çavuş Abas Şahbazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Abas Şahbazov 2020-ci il noyabrın 5-də Cəbrayıl-Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub.

Abas Şahbazov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şahbazov Aqif Hasif oğlu** 1991-ci il martın 10-da Saatlı rayonu Soltanabad kəndində dünyaya gəlib.

Əsgər Aqif Şahbazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Aqif Şahbazov 2020-ci il oktyabrın 18-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub.

Aqif Şahbazov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şahbazov Elnur Qədir oğlu** 20 avqust 2001-ci ildə Suraxanı rayonunun Yeni Suraxanı qəsəbəsində anadan olub.

22 oktyabr 2020-ci ildə Laçın dəhlizi uğrunda gedən döyüşlərdə 6 şəhidi döyüş meydanından çıxararaq özü şəhid olub.

Ölümün gözünə dik baxan şəhidimiz Elnur Şahbazov böyüyüb boya-başa çatdığı Yeni Suraxanı qəsəbəsində dəfn edilib.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Şahbazov Kənan Natiq oğlu** 23 iyul 2002-ci il tarixində Masallı rayonunun Kəlbəhüseynli kəndində anadan olub.

Əsgər Kənan Şahbazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonunun Koroğludağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Kənan Şahbazov 28.09.2020-ci ildə Göygöl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub. Masallı rayonunda dəfn olunub.

Şəhidin nəşi 2 oktyabr 2020-ci il tarixində doğulduğu Masallı rayonunun Çaxırlı kənd qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Şahbazov Ruslan Mahir oğlu** 1991-ci il iyulun 14-də Tərtər rayonunun Ələsgərli kəndində anadan olub.

Kiçik gizir Ruslan Şahbazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Ruslan Şahbazov sentyabrın 29-da Talış döyüşləri zamanı şəhid olub.


Ruslan Şahbazov ölümündən sonra "Vətən uğrunda" medalı, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.



**Şahbazov Sərvan Əliməmməd oğlu** 14 iyul 1993-cü ildə Qusar rayonunun Gündüzqala kəndində anadan olub.

Əsgər Sərvan Şahbazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Sərvan Şahbazov 1 noyabr 2020-ci ildə Xocavənd rayonunun Cütcü kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 7 yanvar 2021-ci ildə Qusar rayonunun Gündüzqala kəndində dəfn olunub.

Sərvan Şahbazov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şahbazov Şahbaz Mirzə oğlu** 1996-cı il iyunun 22-də Şəmkir rayonunun Qaracəmirli kəndində anadan olub.

Əsgər Şahbaz Şahbazov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şahbaz Şahbazov oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub.

Şahbaz Şahbazov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Şahmalıyev Əzim Namiq oğlu** 1990-cı il dekabrın 20-də Goranboy rayonunda dünyaya gəlib.

Əsgər Əzim Şahmalıyev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Oktyabrın 15-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndi istiqamətində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.




**Şahmarlı Elvin Malik oğlu** 15 fevral 2002-ci ildə Biləsuvar rayonunun Əliabad kəndində anadan olub.

Əsgər Elvin Şahmarlı 27 sentyabr 2020-ci il tarixdən başlanan Vətən müharibəsində iştirak edib. Suqovuşan istiqamətində gedən döyüşlərdə vuruşub və düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Şəhid Elvin Şahmarlı 13 oktyabr 2020-ci il tarixində Biləsuvar rayonunun Əliabad kənd məzarıstanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şahmarlı Vüsal Mərdan oğlu** 11 oktyabr 1996-cı ildə İmişli rayonunun Sarıxanlı kəndində dünyaya göz açıb.

Əsgər Vüsal Şahmarlı 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində 5 oktyabr tarixindən iştirak edib. Topatıcı əsgər olaraq hərbi əməliyyatlarda, xüsusilə də, Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə vuruşub. 18 oktyabr 2020-ci ildə Füzulinin azad edilməsi münasibətilə ailəsi ilə əlaqə saxladıqdan 40 dəqiqə sonra snayper atəşi nəticəsində şəhid olub.

Vüsal Şahmarlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Şərifov Turan Vidadi oğlu** 20 iyun 2001-ci ildə Bakı şəhərində dünyaya göz açıb.


Əsgər Turan Şərifov 27 sentyabr 2020-ci ildə müharibənin ilk günündən döyüşlərdə fəal iştirak edib. Murovdağ, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan şəhərləri istiqamətində vuruşub. Noyabrın 5-də Laçın şəhərində qəhrəmancasına döyüşərkən düşmən gülləsinə tuş gələrək şəhidlik zirvəsinə yüksəlib. Turan Şərifov 2-ci Fəxri Xiyabanda dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.

**Şahmuradov Rəvan Dilşad oğlu** 14 iyul 1999-cu ildə Xaçmaz rayonunda anadan olub.

Əsgər Rəvan Şahmuradov 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rəvan Şahmuradov oktyabrın 15-də Füzüli döyüşləri zamanı şəhid olub. Xaçmaz rayonunda dəfn olunub.

Rəvan Şahmuradov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sahratov Cavid Əlikömək oğlu** 1981-ci il dekabrın 23-də Yardımlı rayonunun Əsədabad kəndində anadan olub.

Gizir Cavid Sahratov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cavid Sahratov oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub. Yardımlı rayonunda dəfn olunub.

Cavid Sahratov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şahvələdov İlyas Etibar oğlu** 6 avqust 1996-cı ildə Bərdə rayonunda doğulub. Əslən Laçın rayonunun Qorçu kəndindəndir.

Əsgər İlyas Şahvələdov 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə savaşıb. İlyas Şahvələdov oktyabrın 10-u Füzuli uğrunda gedən döyüşlərdə şəhid olub. İlyas Şahvələdovun əmisi Şahvələdov İlyas Nəriman oğlu da 1994-cü ildə torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Onun adını daşıyırdı.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şahverdiyev Böyükağa Savalan oğlu** 15 iyun 1998-ci ildə Biləsuvar rayonunda məcburi köçkünlər üçün salınmış çadır şəhərciyində anadan olub. Böyükağa Şahverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Böyükağanın müharibədəki vəzifəsi minaatan olub. Çox sayda düşmənin canlı qüvvəsinin və texnikasının məhv edilməsində iştirak edib. Böyükağa Şahverdiyev 2020-ci il oktyabrın 8-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Oktyabrın 9-da Biləsuvardakı "Cəbrayıl qəsəbəsi"ndə salınmış Şəhidlər Xiyabanında dəfn olunub.

Böyükağa Savalan oğlu Şahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Salahlı Elgiz Nurəddin oğlu** 1992-ci il sentyabr ayının 11-də Beyləqan rayonunda anadan olub. Döyüşə könüllü olaraq getmişdir.

Əsgər Elgiz Salahlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Füzuli, Hadrut istiqamətlərində şücaətlə döyüşüb. 27 yaralı əsgərimizi döyüş bölgəsindən çıxarmaqda iştirak edib. Oktyabrın 6-da Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Oktyabrın 18-də nəşi doğulduğu Beyləqan rayonunun Cərciz Peyğəmbərliyində torpağa tapşırılıb.



**Salahov Elvin Sabir oğlu** 17 sentyabr 2001-ci ildə Bakıda doğulub.

Əsgər Elvin Salahov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

Oktyabrın 22-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub. Cəmi 19 yaşlı şəhidimiz oktyabrın 24-də Bakıda Badamdar qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Salahov Kamil Mətləb oğlu** 1998-ci il iyulun 30-da Yevlax rayonunun Aran qəsəbəsində anadan olub.

MAHHXHQ əsgər Kamil Salahov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış-Suqovuşan istiqamətində döyüş yolu keçib. Sentyabrın 28-də Talış-Suqovuşan istiqamətində döyüşlər nəticəsində şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Salahov Sabir Hikmət oğlu** 1999-cu il avqustun 15-də Salyan şəhərində anadan olub.

Əsgər Sabir Salahov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli rayonunun Horadiz kəndinin işğaldan azad olunması uğrunda gedən şiddətli döyüşlərin qəhrəmanlarından biri olub. Horadizə Azərbaycan Bayrağını da yoldaşları ilə birgə sancıb. Oktyabr ayının 5-də Sabir Füzuli şəhərinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə, Buqra dərəsi deyilən yerdə şəhid olub. Sabir Salahov oktyabr ayının 6-da Salyan şəhərində torpağa tapşırılıb.

O, ölümündən sonra"Vətən uğrunda" medalı ilə təltif edildi.

**Salahov Sərxan Həsənqulu oğlu** 1991-ci il mart ayının 1-də, Şərur rayonunun Ələki kəndində anadan olub.

Əsgər Sərxan Salahov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sərxan Salahov noyabr ayının 2-də Xocavənd döyüşlərində şəhid olub. Noyabr ayının 6-da Şərur şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Sərxan Salahov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Salamov Vüsal Yəhya oğlu** 1993-cü il sentyabrın 21-də Bakı şəhərinin Buzovna qəsəbəsində anadan olub.

Əsgər Vüsal Salamov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə könüllü qatılıb. Füzuli uğrunda aparılan hərbi əməliyyatlarda fəal iştirak edib, rəşadət göstərib, qəhrəmanlıq salnaməsinə adını həkk etməyi bacarıb. Vüsalın ailəsi ilə son əlaqəsi 15 oktyabr saat 14:20-də olub. Suqovuşanda şəhadətə yüksələn Vüsal 6 gün neytral ərazidə qalıb. Vüsal müxtəlif layihələrdə, müsabiqələrdə iştirak edib qalib olan, elmi məqalələrlə müəllif hüququna layiq görülən istedadlı gənc olub. Ömrünün ən uca məqamı isə şəhidlik zirvəsi olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Salayev Amid Yadulla oğlu** 2002-ci il fevralın 10-da Masallı rayonunun Sığdaş kəndində anadan olub.

Əsgər Amid Salayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amid Salayev oktyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub. Masallı rayonunun Sığdaş kəndində dəfn olunub.

Amid Salayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Salayev Elşən Fuad oğlu** 8 iyun 1998-ci ildə Bakı şəhərində anadan olub.

Əsgər Elşən Salayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış kəndi istiqamətində olan ağır döyüşlərdə iştirak edib. 15 oktyabr tarixindən sonra Elşəndən heç bir xəbər almaq mümkün olmayıb. Təxminən 1 ay sonra Elşən Salayevin Vətən müharibəsində qəhrəmancasına şəhid olduğu xəbəri gəlib. 18 noyabrda Bakı şəhərində dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Salehov Orxan Fikrət oğlu** 1999-cu il noyabrın 14-də Şamaxı şəhərində anadan olub.

Əsgər Orxan Salehov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Orxan Salehov oktyabrın 14-də Ağdərə istiqamətində şəhid olub. Şamaxı şəhərində Yeddi Günbəz qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə" medalı, "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Şalıyev Ceyhun Nüsrət oğlu** 1994-cü il mayın 20-də Gəncə şəhərində anadan olub.

Əsgər Ceyhun Şalıyev 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsi zamanı könüllü qaydada ordu sıralarına yazılaraq Füzuli uğrunda gedən döyüşlərdə savaşıb.

Oktyabrın 1-də Füzuli rayonu Yuxarı Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma kecərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunması uğrunda" medalları ilə təltif edildi.



**Salıyev Əfsan İlkin oğlu** 24 iyun 2002-ci ildə Quba rayonunun İkinci Nügədi kəndində doğulub.

Əsgər Əfsan Salıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində fəal iştirak edib. Oktyabrın 3-də Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunması uğrunda" medalları ilə təltif edildi.



**Salmanov Aslan İsrafil oğlu** 5 aprel 1988-ci ildə Beyləqan rayonunun Tatalılar kəndində anadan olub.

Əsgər Aslan Salmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Sentyabrın 27-də Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Salmanov Azər Vəfadar oğlu** 1991-ci il aprelin 29-da Abşeron rayonunun Saray qəsəbəsində anadan olub.

Əsgər Azər Salmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 30-da Qubadlı istiqamətində düşmənin açdığı atəş nəticəsində (yuxarı arteriyasının travması) şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Salmanov İsmayıl Rəhman oğlu** 1997-ci il mayın 17-də Füzuli rayonunun Alxanlı kəndində anadan olub.

MAHHXHQ əsgər İsmayıl Salmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə könüllü olaraq qatılıb. Oktyabrın 25-də Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Füzuli rayonu Alxanlı kənd qəbirstanlığında ermənilərin 2 yaşında qətlə yetirdiyi Zəhra və 1992-ci ildə şəhid olmuş dayısı ilə yanaşı uyuyur.

O, ölümündən sonra "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Salmanov Razik Telman oğlu** 24 yanvar 2000-ci ildə Qusar rayonunun Gündüzqala kəndində anadan olub.

MAHHXHQ əsgər Razik Salmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Razik Salmanov 27 oktyabrda Xocavəndin Maçkalaşen kəndi uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və Füzulinin azad olunmasına görə , "Vətən uğrunda" medalları ilə təltif edildi.




**Salmanov Sahil Vüqar oğlu** 2002-ci il martın 11-də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olub.

Əsgər Sahil Salmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sahil Salmanov oktyabrın 20-də Füzuli döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Düz Qırıqlı kəndində dəfn olunub.

Sahil Salmanov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Salmanov Tariyel Allahverdi oğlu** 1988-ci il fevralın 7-də Ağcabədi şəhərində anadan olub.

Leytenant hərbi tibb qulluqçusu Tariyel Salmanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə yaralanan hərbçilərə yerindəcə yardım edib. Tariyel Salmanov oktyabrın 8-də Cəbrayıl döyüşləri zamanı şəhid olub.

Tariyel Salmanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Salmanzadə Pərvin Təbriz oğlu** 17 sentyabr 1991-ci ildə Astara rayonunun Pensər kəndində anadan olub.

Çavuş Pərvin Salmanzadə 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib və Ağdərə və Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərib. Noyabrın 6-da Şuşa şəhərinin azadlığı uğrunda gedən şiddətli döyüşlərdə komandiri və əsgər yoldaşlarını xilas edərkən özü qəhrəmancasına şəhid olub. Şəhidin nəşi 6 noyabr 2020-ci il doğulduğu Astara rayonunun Pensər kəndi gətirilib və Seyid Camaləddin türbəsində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Salyayev Aqil Anar oğlu** 1996-cı il oktyabrın 23-də Ağstafa rayonunun Qarayazı qəsəbəsində dünyaya göz açıb.

Əsgər Aqil Salyayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə savaşıb. Aqil Salyayev oktyabrın 26-da Qubadlı döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Köçvəlili kəndində dəfn edilib.

Aqil Salyayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səmidli Babək Mətləb oğlu** 7 yanvar 1974-cü ildə Göyçay rayonunda anadan olub.

Polkovnik Babək Səmidli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Onun rəhbərliyi altında Madagiz (Suqovuşan) qısa müddət ərzində işğaldan azad edilib.

Noyabrın 23-də Babək Səmidli Suqovuşan ərazisində minaya düşüb və şəhid olub. Noyabrın 24-də Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Zəfər" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şamilov Emil Rafiq oğlu** 3 iyul 1996-cı ildə Bakı şəhəri Sabunçu rayonunda anadan olub.

Əsgər Emil Şamilovun ən böyük arzularından biri, bəlkə də, birincisi Şuşanı azad görmək idi. Bu arzu ilə də 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərə qatılıb. Cəbhənin bir neçə istiqamətində misilsiz qəhrəmanlıqlar göstərib. Sonuncu döyüşü isə Hadrutun düşmənlərdən azad edilməsi uğrunda olub.

Ailəsiylə son dəfə oktyabrın 22-də danışan E.Şamilov oktyabrın 27-də Xocavənd rayonu uğrunda gedən döyüşlərdə düşmənin açdığı snayper güllәsiylə şəhidlik zirvəsinə ucalıb.

Şəhadətindən sonra "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Şamilov Fərid Mirzə oğlu** 4 may 1999-cu ildə Sumqayıt şəhərində zəhmətkeş bir ailədə dünyaya gəlib.

Əsgər Fərid Şamilov 2020-ci il sentyabrın 27-də cəbhə bölgəsinə yollanıb. Füzuli istiqamətində gedən döyüşlərdə şücaətlə vuruşub. Cəbrayıl, Zəngilan, Xocavənd, Şuşa, Laçın rayonları uğrunda gedən döyüşlərdə igidlik göstərərək vətənə layiqincə xidmət edib. 2020-ci il noyabrın 8-dən 9-na keçən gecə Fərid Şamilovun Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsindəs son döyüşü olub. Ağır döyüşdə minomyot atəşi nəticəsində Fərid yaralayıb, köməyinə çatmaq istəyən döyüş yoldaşı Famil Məmmədov düşmən güllәsinə tuş gəlib. Fərid döyüş yoldaşı Qubad Əliyevlə birgə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sarıyev Samir Əli oğlu** 1993-cü il noyabrın 26-da Şirvanda dünyaya gəlib.

O, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzulinin və Cəbrayılın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 23 oktyabrda Füzuli rayonunun Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sarıyev Tural İsmayıl oğlu** 10 may 1993-cü ildə Tovuz rayonunun Cirdək kəndində doğulub.

Əsgər Tural Sarıyev 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi zamanı öncə Füzuli və Cəbrayıl rayonu, sonra isə Qubadlı istiqamətində gedən şiddətli döyüşlərdə iştirak edib. Tural oktyabr ayının 16-da Vətən torpaqlarının azad edilməsi uğrunda qəhrəmancasına şəhid olub. Şəhidimiz 17 oktyabrda doğma Cirdək kəndində böyük izdiham-la torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sarıyev Vüqar Fikrət oğlu** 26 noyabr 1990-cı ildə Biləsuvar rayonunun Amankənd kəndində anadan olub.

Əsgər Vüqar Sarıyev 27 sentyabr 2020-ci il tarixdən başlanan Vətən müharibəsində iştirak edib, Murovdağ, Talış kəndi, Cəbrayıl, Füzuli və Laçın rayonları istiqamətində gedən döyüşlərdə vuruşub və Suqovuşan istiqamətində düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub. Oktyabrın 10-da Biləsuvar rayonu Amankənd kənd məzarıstanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sarıyev Xəzri Elnur oğlu** 2000-ci il oktyabrın 15-də Saatlı rayonunun Orta Muğan kəndində anadan olub.

Əsgər Xəzri Sarıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə qatılıb. Murovdağ istiqamətində düşmənə ilk zərbələr endirən qəhrəmanlarımızdan biri olub. Döyüşlər zamanı düşmənin xeyli sayda canlı qüvvəsinin məhv edilməsində iştirak edib.Qəhrəmanımız sentyabrın 27-də Murovdağ istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Qəhrəman şəhidimiz böyüyüb boya-başa çatdığı Orta Muğan kənd qəbiristanlığında dəfn olunub.

Xəzri Sarıyev ölümündən sonra "Rəşadət" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Sarkayev Nəcməddin Əli oğlu** 1999-cu il oktyabrın 9-da Balakən rayonunun Şərif kəndində anadan olub.

Əsgər Nəcməddin Sarkayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Nəcməddin Sarkayev noyabrın 5-də Ağdərə döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Şərif kəndində torpağa tapşırılıb.

Nəcməddin Sarkayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Şəbiyev Məhəmməd Vaqif oğlu** 1998-ci il avqustun 6-da Bakı şəhərində anadan olub.

Leytenant Məhəmməd Şəbiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Məhəmməd Şəbiyev oktyabrın 4-də Suqovuşan döyüşləri zamanı şəhid olub. II Fəxi Xiyabanda dəfn olunub.

Məhəmməd Şəbiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Səfərçinov Xeyirbəy Cəlil oğlu** 1993-cü il oktyabrın 5-də Qəbələ rayonunun Yeni Dizaxlı kəndində anadan olub.

Əsgər Xeyirbəy Səfərçinov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xeyirbəy Səfərçinov oktyabrın 22-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Qəbələ rayonunun Yeni Dizaxlı kəndində dəfn olunub.

Xeyirbəy Səfərçinov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səfərəliyev Rəşad Fərman oğlu** 2001-ci il oktyabrın 2-də Xaçmaz rayonunda dünyaya gəlib.

Əsgər Rəşad Səfərəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində igidliklə döyüşüb. Vətən müharibəsinin elə ilk günündə həlak olan şəhidimiz anadan olduğu Xaçmaz rayonunda Ana torpağa tapşırılıb.

Rəşad Səfərəliyev ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Səfərli Amil Nizami oğlu** 1994-cü il sentyabrın 29-da İmişli rayonunun Çahar kəndində anadan olub.

Əsgər Amil Səfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Amil Səfərli noyabrın 6-da Qubadlı döyüşləri zamanı şəhid olub.


O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səfərli Əmrah Çingiz oğlu** 2 aprel 1998-ci ildə İmişli rayonunun Göbəktala kəndində dünyaya gəlib.

Əsgər Əmrah Səfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Əmrah Səfərli 4 noyabr 2020-ci ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Əmrah Səfərli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Səfərov Ceyhun Akif oğlu** 12 iyun 1995-ci ildə Lerik rayonunun Cənginəvud kəndində anadan olub.

Əsgər Ceyhun Səfərov 2020-ci ildə könüllü olaraq Lerik rayonunun Hərbi Komissarlığında qeydiyyatdan keçib və 27 sentyabrda başlanan İkinci Qarabağ müharibəsində iştirak edib. Füzuli, Cəbrayıl, Zəngilan uğrunda gedən ağır döyüşlərdə böyük şücaət və qəhrəmanlıq göstərib. Düşmənə sarsıdıcı zərbələr endirən və xeyli sayda canlı qüvvəsini məhv edən Ceyhun 20 oktyabr 2020-ci il tarixində Cəbrayıl istiqamətində gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidin nəşi doğulduğu Lerik rayonunun Cənginəvud kənd qəbiristanlığında torpağa tapşırılıb.

Ceyhun Səfərov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səfərov Cəsarət Xaliq oğlu** 2001-ci il iyunun 27-də Bakının Suraxanı rayonunda anadan olub.

Əsgər Cəsarət Səfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cəsarət Səfərov noyabrın 5-də Laçın uğrunda gedən döyüşlərdə şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Cəsarət Səfərov "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlınn azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səfərov Coşqun Əhməd oğlu** 1997-ci ildə Salyan rayonunda anadan olub.

Əsgər Coşqun Səfərov 21 sentyabr 2020-ci il tarixində səfərbərlik çağrışı ilə orduya ilk yola düşənlərdən olub. Manqa komandiri kimi təlimlərdə iştirak edib. Müharibənin ilk günündən ən qanlı döyüşlərin iştirakçısı olub. Coşqun Səfərov sentyabrın 28-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" , "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Səfərov Əfəndi Cahangir oğlu** 1 yanvar 1996-cı il tarixində Qax rayonunun Qaxbaş kəndində anadan olub.

Əsgər Əfəndi Səfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Noyabrın 9-da Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.


Şəhidimiz böyük izdihamla Qax şəhərində Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Səfərov Əfqan Nadir oğlu** 8 mart 1997-ci ildə Ağstafa rayonu Həsənsu kəndində anadan olub.

Əsgər Əfqan Səfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Əfqan Səfərov oktyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Həsənsu kəndində dəfn olunub.

Əfqan Səfərov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səfərov Elvin Ramiz oğlu** 1989-cu il dekabrın 10-da Lerik rayonun Soru kəndində anadan olub.

Miçman Elvin Səfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Xocavəndin, Qubadlının, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına savaşıb. Elvin Səfərov oktyabrın 31-də Füzulinin sonuncu kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Elvin Səfərov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səfərov İntiqam Əlihüseyn oğlu** 4 noyabr 1998-ci il Rusiya Federasiyasının Saransk şəhərində anadan olub.

Əsgər İntiqam Səfərov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad edilməsi uğrunda mərdliklə döyüşüb. 6 oktyabr 2020-ci il tarixində Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Şəhid Səfərov İntiqam Əlihüseyn oğlu Maştağa kəndində yerləşən Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Səfərov Maarif Mikayıl oğlu** 1997-ci il mayın 21-də Cəlilabad şəhərində anadan olub.

Əsgər Maarif Səfərov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Maarif Səfərov Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib.

Oktyabrın 21-də Qubadlı istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Səfərov Mais Şakir oğlu** 1999-cu il iyulun 20-də Nefçala rayonunun Dördlər kəndində dünyaya gəlib.

Əsgər Mais Səfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Kəhrillər xarabalığı, Dostagir, Talış və Suqovuşan yaşayış məntəqəsi istiqamətində döyüşlərdə iştirak edib. Mais Səfərov oktyabrın 1-də qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Səfərov Məmmədağa Balakişi oğlu** 1997-ci il mayın 10-da Bakı şəhərində anadan olub.

Əsgər Məmmədağa Səfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının alınmasında iştirak edib. Oktyabrın 21-də Xocavəndin Düdüklü kəndinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səfərov Oktay Əhməd oğlu** 1993-cü il mayın 15-də Saatlı rayonunun Qaralar kəndində anadan olub.

Əsgər Oqtay Səfərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oqtay Səfərov noyabrın 3-də Xocavənd döyüşləri zamanı şəhid olub. Saatlı rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları təltif edildi.



**Səfərov Qəşəm Taməddin oğlu** 1 noyabr 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Yuxarı Qışlaq kəndində anadan olub.

Əsgər Qəşəm Səfərov 2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsində iştirak üçün könüllü komandanlığa ərizə ilə müraicət etsə də, gözlərinin zəif görməsi səbəb gətirilib və müraciəti geri çevirilib. Sonradan müraciəti qəbul edilib və o döyüşlərə qatılıb.

Oktyabr ayının 31-də Xocavənd uğrunda gedən döyüşlərdə şəhid olub. Noyabrın 3-də Şahbuz rayonunun Yuxarı Qışlaq kənd məzarlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Səfərov Şahmar Nazim oğlu** 1997-ci il sentyabr ayının 1-də Şərur rayon Siyaqut kəndində dünyaya göz açıb.

Leytenant Şahmar Səfərov 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində iştirak edib. Sentyabrın 27-də Kəlbəcər rayonu istiqamətində "Şahin-93" döyüş mövqeyi uğrunda gedən döyüşlərdə şəhid olub. Savaşın ilk günü şəhidlik zirvəsinə ucalan Şahmarın adı Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Şəhidimizin nəşi 52 gün sonra tapılaraq ailəsinə təhvil verilib. Səfərov Şahmar Nazim oğlu 18 noyabr 2020-ci il tarixində Bakıdakı İkinci Fəxri Xiyabanda torpağa tapşırılıb.

O, ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə də təltif edildi.



**Səfərov Saleh İrzəxan oğlu** 31 avqust 1983-cü ildə Yardımlı rayonunda anadan olub.

Əsgər Saleh Səfərov başlanan Vətən müharibəsində iştirak edib. Saleh sentyabrın 29-da Füzuli, Cəbrayıl istiqamətində gedən döyüşlər zamanı şəhid olub. 11 oktyabr 2020-ci ildə Yardımlı rayonunun Ünəc qəsəbəsində dəfn olunub.

Saleh Səfərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Şəfiyev Daşqın Hidayət oğlu** 22 avqust 1989-cu ildə Rusiyanın Krasnodar şəhərində anadan olub.

Əsgər Daşqın Şəfiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Noyabrın 5-də Laçın rayonu istiqamətində gedən döyüşlərdə düşmənin diversiya qrupunu məhv edərkən şəhid olub. Samux rayonunun Seyidlər kəndində dəfn olunub.


Daşqın Şəfiyev ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalına layiq görülüb.



**Şəfiyev Rəşad Vaqif oğlu** 13 oktyabr 1991-ci ildə Gəncə şəhərində anadan olub.

Əsgər Rəşad Şəfiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı axtarış-xilasetmə çalışmalarında iştirak edib. 27 oktyabr 2020-ci il tarixində Bərdənin raket atəşinə tutulmasından sonra oradakı axtarış-xilasetmə əməliyyatlarına qatılıb. Rəşad Şəfiyev 28 oktyabr 2020-ci il tarixində Bərdənin növbəti dəfə raket atəşinə tutulması nəticəsində aldığı yaralardan şəhid olub. Oktyabrın 29-da Gəncə Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Səidov Ələddin Azər oğlu** 17 iyun 1992-ci ildə Bakı şəhərinin Nərimanov rayonunda anadan olub.

Əsgər Ələddin Səidov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak edərək şücaət göstərib. Ələddin Səidov noyabrın 3-də Füzuli rayonunun azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olub. Şəhid Bakı şəhərində dəfn olunub.


Ələddin Səidov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalına da layiq görülüb.



**Şəkərov Xəyal İman oğlu** 1998-ci il oktyabrın 1-də Tovuz rayonunun Əsrik Cırdaxan kəndində anadan olub.

Gizir Xəyal Şəkərov 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlanan zaman döyüşə ilk qatılanlardan olub. O, Cəbrayıl şəhərinə bayraq sancan cəngavərlərin sırasında olub. Kəlbəcər, Cəbrayıl və Xocavənd rayonunun işğaldan azad olunmasında xüsusi rəşadət, şücaət və mərdlik nümayiş etdirib. Eləcə də bir sıra kəndlərin alınmasında xüsusi xidmətləri olan Xəyal 2020-ci il oktybarın 10-da Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Səlifov Murad Nəbi oğlu** 1989-cu il yanvarın 21-də Göytəpə şəhərində anadan olub.

Baş çavuş Murad Səlifov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərə qatılıb. Murad Səlifov sentyabrın 30-da Füzuli, Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhid olub.

Murad Səlifov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səlimli Bakıxan Alim oğlu** 1993-cü il avqustun 31-də Şəki rayonunun Əliyar kəndində anadan olub.


Baş gizir Bakıxan Səlimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bakıxan Səlimli oktyabrın 24-də Füzuli döyüşləri zamanı şəhid olub. Şəki rayonunun Əliyar kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Səlimov Cəmil Oqtay oğlu** 1991-ci il yanvarın 15-də Xəzər rayonunun Binə qəsəbəsində anadan olub.

Gizir Cəmil Səlimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağuçuq istiqamətində gedən döyüşlərdə onlarla hərbi qulluqçuya ilk tibbi yardım göstərib və döyüş meydanından təxliyyə edib. Cəmil Səlimov sentyabrın 29-da Ağuçuq istiqamətində gedən hərbi əməliyyat zamanı şəhid olub. Binə qəsəbəsində dəfn olunub.

Cəmil Səlimov ölümündən sonra "Vətən uğrunda" medalı, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.



**Səlimov Sənan Nasif oğlu** 2001-ci il aprelin 1-də Masallı rayonunun Təzə Alvadı kəndində anadan olub.

Əsgər Sənan Səlimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərə qatılıb. Sənan Səlimov oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub. Masallı rayonunda dəfn olunub.

Sənan Səlimov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səlimov Şiralı Vüqar oğlu** 2000-ci il yanvarın 1-də Kürdəmir rayonunun Sor Sor kəndində anadan olub.

Əsgər Şiralı Səlimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Şiralı noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Kürdəmir rayonunda dəfn olunub.

Şiralı Səlimov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Səlimzadə Kənan Məmiş oğlu** 1997-ci il noyabrın 25-də İsmayıllı rayonunda dünyaya göz açıb.

Gizir Kənan Səlimzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 4-də Füzuli döyüşləri zamanı yaralı əsgəri xilas edərkən düşmən snayperinin güllələsinə tuş gələrək şəhid olub.

Kənan Səlimzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Səlimzadə Ramil Raqif oğlu** 1 may 1995-ci ildə Ağdaşın Yuxarı Ağcayazı kəndində anadan olub.

Əsgər Ramil Səlimzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı toy gününə 2 gün qalmış "öncə Vətən" deyərək torpaqlarımızı azad etmək üçün müharibəyə yollanıb. O, Füzuli, Cəbrayıl, Zəngilan və Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 14-də Tərtər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Qeyd edək ki, Ramil Səlimzadə Ağdaş rayonundan Vətən müharibəsi zamanı şəhid olan 27 nəfərdən biridir. Yuxarı Ağcayazı kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Səmədli Sənan Fikrət oğlu** 27 dekabr 1997-ci ildə Yevlax rayonunun Kolani kəndində anadan olub.

Gizir Sənan Səmədli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı özüyeriyən artilleriya taqımının top komandiri kimi hərbi xidmətini yerinə yetirib. Tərtər rayonunun Dəmirçi kəndi istiqamətində döyüş yolu keçib. Suqovuşan istiqamətində gedən döyüşlərdə top komandiri kimi verilən hədəflərin susdurulmasında fəal iştirak edib.

30 sentyabr 2020-ci ildə Tərtər rayonunun Dəmirçi kəndi ərazisində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səmədli Vüqar Vaqif oğlu** 20 fevral 1992-ci ildə Qəbələ rayon Yengicə kəndində anadan olub.

Əsgər Vüqar Səmədli 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin başladığını eşidib Vətənə qayıdıb. O, evinə gəlməzdən öncə Qəbələ rayon Hərbi Komissarlığına gedərək könüllü orduya yazılıb. 5 oktyabr 2020-ci ildə döyüşlərə qoşulur. Füzuli, Qubadlı uğrunda döyüşlərdə iştirak edib. Noyabrın 3-də Şuşa şəhəri istiqamətində döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səmədov Elgün İlham oğlu** 2001-ci il avqustun 28-də Şəmkir rayonunun Mehrili kəndində anadan olub.

Əsgər Elgün Səmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Elgün Səmədov oktyabrın 6-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunun Mehrili kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.

**Səmədov Hüseyn Müşviq oğlu** 1997-ci ilin avqust ayının 30-da Bərdə rayonunun Mirzalıbəyli kəndində anadan olub.

Əsgər Hüseyn Səmədov O, 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib.

08.10.2020-ci ildə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Səmədov İsmayıl Məhəmməd oğlu** 1990-cı il avqustun 9-da Zaqatala rayonunun Lahıc kəndində anadan olub.

Kapitan İsmayıl Səmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İsmayıl Səmədov oktyabrın 11-də Füzuli döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunun Lahıc kəndində torpağa tapşırılıb.

İsmayıl Səmədova ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

İsmayıl Səmədov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səmədov Kamran Ceyhun oğlu** 1997-ci il fevralın 28-də Lənkəran rayonunun Liman şəhərində anadan olub.

Əsgər Kamran Səmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 22-də Qubadlı döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səmədov Mayis Şadıbəy oğlu** 1977-ci il iyulun 28-də Xaçmaz rayonunun Qadaş-Oba kəndində anadan olub.

Gizir Mayis Səmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 5-də Cəbrayıl-Füzuli rayonları istiqamətində gedən döyüş onun sonuncu döyüşü oldu. Mayis Səmədov son damla qanlarınadək vuruşaraq əbədi ölümsüzlüyə – şəhidlik zirvəsinə yüksəldi. Oktyabrın 6-da Xaçmaz rayonunun Qadaş-Oba kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Səmədov Məhəmməd Niman oğlu** 2001-ci ilin iyun ayının 13-də Pirşağı qəsəbəsində anadan olub.

Əsgər Məhəmməd Səmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 6-da Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səmədov Məhərrəm Elxan oğlu** 27 mart 2001-ci ildə Bakıda, Maştağa qəsəbəsində dünyaya gəlib.

Əsgər Səmədov Məhərrəm 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 30-da Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Səmədov Nicat Şahin oğlu** 26 dekabr 1992-ci ildə Bakı şəhərində anadan olub.

Gizir Səmədov Nicat 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 22-də Zəngilan rayonunun ərazisində Ermənistanla sərhəddə yerləşən Sığırd yüksəkliyinin azad olunması uğrunda gedən döyüşlərdə bölükləri ilə birlikdə düşmən pusqusuna düşüb, yaralanmasına baxmayaraq 2 saat ərzində düşmənlə mətinliklə vuruşub, yoldaşlarının pusqudan çıxmasına şərait yaradıb, mənfur düşmənlə son ana qədər döyüşərək qəhrəmancasına şəhid olub. Oktyabrın 29-da Binəqədi rayonunun Sulutəpə qəsəbəsində dəfn edilib. O, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Zəngilanın azad olunmasına görə" medalları ilə də təltif edildi.



**Səmədov Səbuhi İbrahim oğlu** 23 iyun 1985-ci ildə Neftçala rayonunun Xıllı qəsəbəsində anadan olub.

Gizir Səbuhi Səmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 9-da Cəbrayıl rayonunun azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Belə ki, döyüşdə mərmi Səbuhinin komandiri olduğu tankın bir metrliyinə düşüb. Zərbədən tank qalxıb yerə çırpılıb. Daxilindəki qəlpə öz işini görməklə bərabər, bu zərbədən də aldığı ürək travması tank komandirinin arzularını yarımçıq qoyub. Vətən müharibəsində düşmənin onlarla hərbi texnikasını sıradan çıxaran, canlı qüvvəsini məhv edən tank komandiri gizir Səbuhi Səmədov şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Səmədov Sadiq İbrahim oğlu** 2000-ci il iyulun 13-də Yevlax rayonunda anadan olub.

Əsgər Sadiq Səmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Sadiq Səmədov oktyabrın 10-da Suqovuşan ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Sadiq Səmədov ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Samir Mətləb oğlu Səmədov** 2002-ci il yanvar ayının 18-də Astara rayonunun Pensər kəndində anadan olub.

Əsgər Samir Səmədov 2020-ci il sentyabr ayının 27-də başlanan II Qarabağ müharibəsində Talış kəndi və Ağdərə rayonu istiqamətində gedən şiddətli döyüşlərdə iştirak edib və düşmənə sarsıdıcı zərbələr endirməklə böyük şücaət və qəhrəmanlıq göstərib. Düşmənin canlı qüvvəsini məhv edən qəhrəman Samir oktyabr ayının 10-dan etibarən itkin düşüb. Nəhayət 18 noyabrda Samirin nəşi tapılıb və 10 oktyabr tarixində şəhid olduğu bilinib. Şəhidin nəşi 19 noyabr 2020-ci ildə böyüyüb, boya-başa çatdığı Astara rayonunun Pensər kəndinə gətirilib və orada torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Səmədov İkram Şirvan oğlu** 21 fevral 1991-ci ildə Saatlı rayonunun Əlisoltanlı kəndində dünyaya gəlib.

Əsgər İkram Səmədov 27 sentyabr 2020-ci ildən başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. O, Hadrutun, Füzulinin, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Noyabrın 9-da Şuşa döyüşlərində şəhid olub. Doğulduğu Saatlı rayonunun Əlisoltanlı kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şəmilov Azər Elyas oğlu** 1971-ci il avqustun 13-də Tərtər rayonunun Qapanlı kəndində anadan olub.

Leytenant Azər Şəmilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın və Talış kəndinin azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçiləri döyüş meydanından çıxarıb.

Azər Şəmilov oktyabrın 14-də Talış döyüşləri zamanı şəhid olub. Bərdə rayonunun Kələntərli kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.






**Sərdarlı Rahim Rafiq oğlu** 1996 ci il avqustun 13-də Xaçmaz rayonunun Canaxir kəndində anadan olub.

Əsgər Rahim Sərdarlı 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsinin ilk günlərindən könüllü olaraq cəbhəyə yollanıb. Cəbrayıl, Qubadlı döyüşlərində fəal iştirak edib.

Noyabrın 8-də Şuşa azad olunan gün Rahimin ailəsinə şəhid olması barədə məlumat verilib. Vətən müharibəsinin qəhrəman şəhidi doğulub boya-başa çatdığı Canaxır kəndinin qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Şəfizadə Saleh Samir oğlu** 2001-ci ildə Bakının Maştağa qəsəbəsində anadan olub.

Əsgər Saleh Şəfizadə 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə vuruşub elə həmin döyüşlər zamanı yaralanıb. Silahlı Qüvvələrin Baş Kliniki Hospitalında müalicə alan qazimiz 8 fevral 2021-ci ildə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" , "Vətən uğrunda" , "Füzulinin azad olunmasına görə" , "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şərifov Mirnağı Qasım oğlu** 20 avqust 1995-ci ildə Cəlilabad rayonunun Bəcirəvan kəndində dünyaya göz açıb.

Gizir Mirnağı Şərifov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Kəlbəcər, Cəbrayıl və Xocavənd rayonunun işğaldan azad olunmasında xüsusi rəşadət, şücaət və qorxmazlıq nümayiş etdirmişdir. 21 oktyabr 2020-ci ildə Fizuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

Mirnağı Şərifov ölümündən sonra "Rəşadət" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Serov Mütəllib Arif oğlu** 2000-ci il iyunun 9-da Zaqatala rayonunun Ziliban kəndində anadan olub.

Əsgər Mütəllib Serov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

Mütəllib Serov oktyabrın 10-da Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub. Zaqatala rayonunun Car kəndində torpağa tapşırılıb.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.

**Sərxoşov Seymur Ramiz oğlu** 1987-ci ildə Qaradağ rayonunun Qızıldaş qəsəbəsində dünyaya göz açıb.

Əsgər Seymur Sərxoşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli-Cəbrayıl-Xocavənd-Hadrut istiqamətlərində qəhrəmancasına vuruşub. O, Hadrut istiqamətində gedən döyüşlərdə şəhid olub. Seymur Sərxoşov doğulduğu Qızıldaş qəsəbəsində dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Səttarov Emin Ramin oğlu** 2001-ci il mayın 25-də Bakı şəhərində anadan olub.

Əsgər Emin Səttarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Fizuli, Cəbrayıl, Xocavənd, Hadrut uğrunda gedən döyüşlərdə iştirak edib. Qubadlı döyüşlərində qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.


O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Səttarov Səxavət Qüdrət oğlu** 2001-ci il iyunun 15-də Astara rayonu Səncərədi kəndində anadan olub.

Əsgər Səxavət Səttarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Zəngilan, Qubadlı rayonları uğrunda gedən döyüşlərdə vuruşub. Ürəyinin istəyini əsas götürərək Şuşa döyüşlərinə girən zamanda sona qədər vuruşub faşistlərdən qisas alacağına and içib. Və sərrast atəşlə düşmənin neçə-neçə texnikasını sıradan çıxarıb, canlı qüvvəsini sarsıdıb. Xocavənd rayonunda gedən döyüşdə əsl qəhrəman kimi vuruşaraq noyabrın 3-də şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Şeydayev Rəfail İldam oğlu** 2000-ci il avqustun 1-də Quba rayonunun Nütəh kəndində anadan olub.

Əsgər Rəfail Şeydayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rəfail Şeydayev oktyabrın 8-də Füzuli döyüşləri zamanı şəhid olub.

Rəfail Şeydayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.





**Seyfullayev Araz Elsevər oğlu** 2001-ci il mayın 28-də Masallı şəhərində anadan olub.

Əsgər Araz Seyfullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Araz Seyfullayev oktyabrın 7-də Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub. Masallı şəhərində dəfn olunub.

Araz Seyfullayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edildi.



**Seyfullayev Fərid Xeyrulla oğlu** 1991-ci ildə Xaçmaz şəhərində dünyaya gəlib.

Əsgər Fərid Seyfullyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Füzulidən Şuşayadək ağır döyüş yolu keçən Fərid Seyfullyev noyabrın 7-də Şuşa uğrunda gedən döyüşlərdə yaxınlığında mərmi partlaması nəticəsində şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Sənan Mətləb oğlu Seyfullyev** 1998-ci il sentybrın 26-da Masallı rayonunun Kərkivan qəsəbəsində anadan olub.

Əsgər Sənan Seyfullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günündən könüllü olaraq müharibəyə yollanıb. O, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarının azad edilməsində böyük şücaət göstərib. O, oktyabrın 30-da Qubadlı rayonu istiqamətində gedən döyüşlərdə, "Qanlı Təpə" yüksəkliyinin düşməndən azad edilməsi zamanı şəhid olub. 71 gün itkin kimi axtarılan və 2021-ci il yanvarın 10-da şəhid olaraq tapılan Sənan Seyfullayev yanvarın 12-də dünyaya göz açdığı Ərkivan qəsəbəsində Ana torpağa tapşırılıb.

Sənan Seyfullayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Seyfullazadə Kamran Cəlal oğlu** 14 yanvar 1999-cu ildə Astara rayonunda anadan olub.

Əsgər Kamran Seyfullzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Hadrut, Cəbrayıl istiqamətində döyüşlərdə iştirak edib və dəfələrlə yaralı yoldaşlarını döyüş meydanından çıxarıb. Sonda isə Şuşaya ilk daxil olan Xüsusi Təyinatlı Dəstənin könüllüsü Kamran 4 noyabrda Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. 2020-ci il noyabrın 5-də doğulduğu Astara rayonunda dəfn olunub. Kamran Seyfullazadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Seyidov Əli Rahim oğlu** 1999-cu il iyulun 11-də Bakı şəhərində anadan olub.

Əsgər Əli Seyidov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi zamanı Tərtər-Suqovuşan döyüşlərdə savaşıb. 21 ermeni postunu və 7 erməni qəsbkarı ilə əlbəyaxa döyüşdə onları məhv edib. Döyüşlərdə qəhrəmancasına vuruşan igidimiz yaralansa belə yenə də qabağa gedərək hər kəsə səslənirmiş ki, "sonacan kişi kimi vuruşun!". Əli Seyidov oktyabrın 4-də Tərtər-Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olub. Oktyabrın 10-da Bakıda Bülbülə Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən müharibəsi iştirakcısı", "Ağdamın azad olunması", Suqovuşanın azad olunması" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Seyidov Miryasin Mirqafar oğlu** 1998-ci il dekabrın 23-də Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Əbrəqunus kəndində dünyaya göz açıb.

Əsgər Miryasin Seyidov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Xocavənd döyüşləri gedişatında Qırmızı Bazar qəsəbəsinin azad olunması uğrunda gedən döyüşlərdə vuruşub. 2020-ci il oktyabrın 21-də hərbi əməliyyatlarda döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.


Miryasin Seyidov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Seyidov Nihat Mehman oğlu** 12 iyun 1998-ci ildə Culfa rayon Teyvaz kəndində anadan olub.

Leytenant Nihad Seyidov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nihat Seyidov oktyabrın 15-də Suqovuşanın azadlığı uğrunda döyüşlərdə şəhid olub. Noyabrın 2-də cənazəsi Naxçıvana gətirilərək şəhər məzarlığında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Seyidov Şahmar Fikrət oğlu** 1997-ci il fevralın 21-də Mingəçevir şəhərində dünyaya gəlib.

MAHHXHQ əsgər Şahmar Seyidov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi zamanı Talış- Suqovuşan istiqamətində döyüşüb. Oktyabrın 11-də həmin istiqamətdə gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.





**Seyidzadə Mirhüseyin Miryunis oğlu** 1991-ci il fevralın 11-də Gəncə şəhərində anadan olub.

Əsgər Mirhüseyn Seyidzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl uğrunda gedən döyüşlərdə misilsiz xidmətlər göstərib.

Mirhüseyn Seyidzadə Vətən müharibəsində Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətənə xidmətə görə" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Seymur Hüseyn** 1993-cü il oktyabrın 20-də Ordubad rayon Şəhriyar qəsəbəsində anadan olub.

Baş leytenant Seymur Hüseyn 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Seymur Hüseyn oktyabrın 16-da Cəbrayıl döyüşləri zamanı ağır yaralanıb. Noyabrın 26-da Bakı şəhərində müalicə aldığı Respublika Neyrocərrahiyyə Xəstəxanasında şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Seymur Hüseyn ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Şikarov Nəcəf Şikar oğlu** 1985-ci il yanvarın 24-də Şamaxı şəhərində anadan olub.

Kapitan Şikarov Nəcəf 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımız uğrunda gedən döyüşlərdə xüsusi şücaəti ilə seçilib. Şuşa-Xocavənd döyüşlərində iştirak edib. Füzuli rayon Alxanlı kəndi istiqamətində mühasirəyə düşən əsgər və zabit heyətinə yardım etmək üçün düşmən səngərinə daxil olub. İki ermənini silahla, digərini əlləri ilə boğaraq öldürüb. Lakin düşmənin atdığı güllə onu şəhidlik zirvəsinə ucalıb. İkinci Fəxri Xiyabanda dəfn edilib.

O, ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları lə təltif edildi.



**Şindiyev Elməddin Həmid oğlu** 1995-ci il martın 6-da Balakən rayonunun Talalar kəndində anadan olub.

Elməddin Şindiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Elməddin Şindiyev oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Balakən Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Şirbəyli Sirus Hamil oğlu** 20 fevral 1996-cı ildə Yardımlı rayonunun Zevin kəndində dünyaya göz açıb.

Əsgər Sirus Şirbəyli 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. 7 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. 11 noyabr 2020-ci ildə Yardımlı rayon Zevin kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Şirəliyev İntiqam Bəxtiyar oğlu** 1997-ci il noyabrın 3-də Göyçay rayonunun Potu kəndində anadan olub.

Baş əsgər İntiqam Şirəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. İntiqam Şirəliyev sentyabrın 28-də Kəlbəcər rayonu istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Göyçay rayonunun Potu kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şirəliyev Kənan Telman oğlu** 2001-ci il fevralın 3-də Salyan rayonunun Qarabağlı kəndində anadan olub.

Əsgər Kənan Şirəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Kənan Şirəliyev noyabrın 1-də Xocavənd rayonunda gedən döyüşlərdə aldığı qəlpə yarası nəticəsində şəhid olub. Salyan rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şirəliyev Niyət İmran oğlu** 1990-cı ildə Şamaxı rayonunun Ovculu kəndində anadan olub.

Kapitan Niyət Şirəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Səngərlərdə düşmənin canlı qüvvəsi və texnikasının məhv edilməsində böyük şücaətlər göstərərək qəhrəmancasına şəhid olub. Niyət Şirəliyev sentyabrın 27-si şiddətli döyüşlərin birində şəhadətə yüksəlsə də nəşi 86 gün sonra tapılaraq Şamaxının Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Rəşadət" ordeni, "Kəlbəcərin azadlığı uğrunda", "Vətən müharibəsi iştirakçısı" "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Şirəliyev Sahib Yusif oğlu** 1995-ci il oktyabrın 18-də Masallı rayonunun Ərkivan qəsəbəsində anadan olub.

Baş leytenant Sahib Şirəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sahib Şirəliyev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Masallı rayonunun Ərkivan qəsəbəsində dəfn olunub.

Sahib Şirəliyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şirəlizadə Süleyman İlham oğlu** 6 iyun 2001-ci ildə Oğuz rayonunun Padar kəndində doğulub.

Əsgər Süleyman Şirəlizadə Ağdərə istiqamətində savaşıb. Ağdərə istiqamətində "Tülkü dərəsi" deyilən ərazidə 5 oktyabr 2020-ci il tarixində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub və 6 oktyabrda Oğuz rayonunun Padar kənd Şəhidlər xiyabanında dəfn edilib.

Süleyman Şirəlizadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Şirinli Nurlan Qədir oğlu** 1996-cı ilin oktyabr ayının 16-da Tərtər rayonunun Sarov kəndində anadan olub.

MAHHXHQ əsgər Nurlan Şirinli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı sürücü-mexanik kimi hərbi xidmətini yerinə yetirib. Talış-Suqovuşan istiqamətində döyüş yolu keçib. Yaxınları onu hər an Vətəni üçün sinəsini sipər etməyi bacaran əsl qəhrəman bilirdi. İgid hərbçi oktyabrın 7-də Talış-Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Şirinov Etibar Fazil oğlu** 27 avqust 1993-cü ildə İsmayıllı rayonunun İvanovka kəndində anadan olub.

Əsgər Etibar Şirinov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq ordu sıralarına yazılıb və döyüşlərə qatılıb. Hadrut Füzuli, Cəbrayıl və Zəngilan uğrunda döyüşlərdə qəhrəmancasına iştirak edib. Noyabrın 9-da Zəngilan ərazisində azad olunmuş kəndlərin birində öz döyüşçü yoldaşları ilə nəzarət işini təşkil edərkən, orada gizlənmiş mənfur düşmənin gülləsinə tuş gəlib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Şirinov Eldar Bağır oğlu** 2001-ci il iyulun 12-də Göyçay rayonunda anadan olub.

Əsgər Eldar Şirinov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Eldar Şirinov oktyabrın 6-da şəhid olub. Göyçay rayonunda dəfn olunub.

Eldar Şirinov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Şirinov Elmar Cəbrayıl oğlu** 2002-ci il martın 9-da Tovuz rayonunun Xatınlı kəndində anadan olub.

Əsgər Elmar Şirinov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Elmar Şirinov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Qaraxanlı kəndində dəfn olunub.

Elmar Şirinov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şirinov Elvin Elsevən oğlu** 1997-ci il mart ayının 12-də Beyləqan rayonu Birinci Şahsevən kəndində anadan olub.

Gizir Elmin Şirinov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli rayonu istiqamətində gedən döyüşlərədə iştirak edib. Oktyabrın 26-da Füzulidə qəhrəmancasına şəhid olub.


O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Şirinov Kamil Altay oğlu** 1999-cu il avqustun 9-da Kürdəmir rayonunun Ərəb Qubalı kəndində anadan olub.

Çavuş Kamil Şirinov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kamil Şirinov oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub. Kürdəmir rayonunun Ərəb Qubalı kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Şirinov Kamil Əliş oğlu** 1991-ci il aprelin 9-da Salyan rayonunun Çuxanlı kəndində anadan olub.

Kapitan Kamil Şirinov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kamil Şirinov sentyabrın 29-da Füzuli döyüşləri zamanı snayper güllәsi nəticəsində şəhid olub.

O, ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Şirinov Orxan Elxan oğlu** 1998-ci il sentyabrın 14-də İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olub

Əsgər Orxan Şirinov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Şirinov oktyabrın 21-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Orxan Şirinov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şirinov Tale Qadir oğlu** 21 noyabr 1996-cı ildə Qəbələ rayonunun Çuxur-Qəbələ kəndində anadan olub.

Kiçik çavuş Tale Şirinov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində gedən döyüşlərdə olub. Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 6-da Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın" azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Şirinov Vüsal Novruz oğlu** 2002-ci il martın 26-da Qusar rayonunun Ləgərqışlaq kəndində anadan olub.

Əsgər Vüsal Şirinov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Oktyabrın 25-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar nəticəsində digər növ adi partlayışlarla və ya qəlpələrlə törədilmiş zədələnmələr, ürəyin travması diaqnozu ilə şəhid olub. Qusar rayonunda dəfn olunub.

Vüsal Şirinov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Şirinzadə Elnur Xalıqverdi oğlu** 1998-ci il fevralın 10-da Yevlax rayonunda anadan olub.

Əsgər Elnur Şirinzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Oktyabrın 7-də Talış, Suqovuşan istiqamətində döyüşlərdə şəhid olub. Yevlax rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.

Elnur Şirinzadə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şiriyev Rəşad Rasim oğlu** 5 dekabr 2001-ci ildə Lerik rayonunun Bürsülüm kəndində anadan olub.

Əsgər Rəşad Şiriyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 6-da düşmənlə üz-üzə vuruşarkən Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.


O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Şirvani Həsənağa Bəhruz oğlu** 23 aprel 2002-ci ildə Xəzər rayonunun Binə qəsəbəsində anadan olub.

Əsgər Şirvani Həsənağa 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsinə qatılıb. Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 1-də Murovdağ döyüşlərində şəhid olub.

O, ölümündən sonra sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Şirvanov Davud Xeyrulla oğlu** 1994-cü il aprelin 1-də Lerik rayonunun Livədirqə kəndində anadan olub.

Əsgər Davud Şirvanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb . Davud Şirvanov oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub. Lerik rayonunun Livədirqə kəndində dəfn olunub.

Davud Şirvanov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Şirvanov Mehman Mirəziz oğlu** 1980-ci il fevralın 24-də Lənkəran rayonunun Ürgə kəndində anadan olub.

Polkovnik-leytenant Mehman Şirvanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Mehman Şirvanov sentyabrın 27-də şəhid olub. Lənkəran rayonunda dəfn olunub.

Mehman Şirvanov ölümündən sonra"Qarabağ" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Şıxaliyev Fariz Şahverdi oğlu** 1987-ci il dekabrın 10-da Xabarovski vilayətində anadan olub.

Gizir Fariz Şıxaliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Fariz Şıxaliyev oktyabrın 27-də Xocavənd istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında dəfn olunub.

Fariz Şıxaliyev ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif edildi.



**Şıxəliyev Elvin Sarvan oğlu** 6 iyun 1995-ci ildə Şirvan şəhərində anadan olub.

Əsgər Elvin Şıxəliyev 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində könüllü iştirak edib. Füzuli, Cəbrayıl və Hadrut uğrunda gedən döyüşlərdə şücaət göstərib. Oktyabrın 14-də şəhid olub. Şirvan şəhər Şəhidlər Xiyabanında dəfn olunub.

Elvin Şıxəliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şıxəliyev Ənvər Vadim oğlu** 2001-ci il fevralın 24-də Qusar rayonunun Xürəl kəndində anadan olub.


Əsgər Ənvər Şıxəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Ənvər Şıxəliyev noyabrın 10-da şəhid olub. Qusar rayonunda dəfn olunub.

Ənvər Şıxəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Şıxəliyev Mehti Yalçın oğlu** 1996-cı il fevralın 16-da Hacıqabul rayonunun Meyniman kəndində anadan olub.

Kiçik gizir Mehti Şıxəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mehti Şıxəliyev noyabrın 7-də Şuşa döyüşləri zamanı Daşaltı istiqamətində şəhid olub. Hacıqabul rayonunun Meyniman kəndində dəfn olunub.

Mehti Şıxəliyev ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şıxəliyev Nurəddin Əfrəddin oğlu** 29 dekabr 1998-ci ildə Salyan rayonunun Qızılağac kəndində anadan olub.

Əsgər Nurəddin Şıxəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Nurəddin Şıxəliyev müharibə boyunca ön cəbhədə vuruşub, Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. O, döyüşlərdə yaralanıb, buna rəğmən digər yaralı əsgərlərə yardım edib. Nurəddin Şıxəliyev noyabrın 5-də Şuşa yaxınlığında şəhid olub.


Nurəddin Şıxəliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şıxəlizadə Emil Şahin oğlu** 10 mart 1998-ci ildə Lənkəran rayonunun Gərmətük qəsəbəsində anadan olub.

Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olan Emil Şıxəliyev 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Füzuli istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisi (digər növ partlayışlarla və ya qəlpələrlə törədilmiş zədələnmələr, aşağı ortanın qarın hissəsinin travması) nəticəsində oktyabrın 22-də şəhid olub.

Emil Şıxəliyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.




**Şıxıyev Orxan Rafiq oğlu** 1989-cu il sentyabrın 29-da Daşkəsən rayonunun Dəstəfur kəndində anadan olub.

Əsgər Orxan Şıxıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xocavənd rayonunun erməni işğalçılarından alınmasında fəal iştirak edib. Orxan Şıxıyev noyabrın 1-də Xocavənd Maçkalaşen kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

Orxan Şıxıyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Şıxıyev Şahəli Əflatun oğlu** 1999-cu il may ayının 1-də İmişli rayonunun Qaraqaşlı kəndində anadan olub.

Əsgər Şahəli Şıxıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şahəli Şıxıyev oktyabrın 20-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Şahəli Şıxıyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Şıxıyev Səyyad Abdul oğlu** 1999-cu il sentyabrın 4-də Saatlı rayonunun Qaralar kəndində anadan olub.

Kiçik gizir Səyyad Şıxıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Səyyad Şıxıyev oktyabrın 17-də Cəbrayıl döyüşləri zamanı Əşrəf Məmmədli və Aşur Cəmiyev ilə birgə şəhid olub. Saatlı rayonunun Qaralar kəndində dəfn olunub.

Səyyad Şıxıyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni , "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Şıxızadə Tural Ətraf oğlu** 2002-ci il mayın 30-da İsmayıllı rayonunun Diyallı kəndində anadan olub.

Əsgər Tural Şıxızadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəhrillər xarabalığı, dostagir, Talış və Suqovuşan yaşayış məntəqəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Şıxızadə oktyabrın 1-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" , "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şıxməmmədov Hikmət Azər oğlu** 1995-ci il dekabrın 6-da Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olub.

Əsgər Hikmət Şıxməmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Hikmət Şıxməmmədov noyabrın 8-də Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə şəhid olub. Ağstafa rayonunun Dağ Kəsəmən kəndində dəfn olunub.

Hikmət Şıxməmmədov ölümündən sonra "Vətən uğrunda","Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Şıxməmmədov Natiq Zakir oğlu** 1991-ci il aprelin 20-də Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olub.

Əsgər Natiq Şıxməmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Natiq Şıxməmmədov oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Dağ Kəsəmən kəndində dəfn olunub.

Natiq Şıxməmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Şixmuradov Kamil Şixəmməd oğlu** 25 dekabr 1978-ci ildə Xaçmaz rayonu Xudat şəhərində anadan olub.

MAHHXHQ əsgər Kamil Şixmuradov 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun Alxanlı kəndi istiqamətində gedən döyüşlərdə savaşıb.

Noyabrın 6-da düşmənin artilleriya atəşi nəticəsində aldığı ağır xəsarətlərdən döyüş meydanında qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Noyabrın 7-də Xaçmaz rayonunun Fərzəlioba kənd qəbiristanlığında dəfn edilib.


O, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Solnsev Dmitri Aleksandr oğlu** 1995-ci il aprelin 15-də Bakı şəhərində anadan olub.

Əsgər Dmitri Solnsev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin, Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Dmitri Solnsev oktyabrın 25-də Qubadlı döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Dmitri Solnsev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Soltanlı Şahmar Qinyaz oğlu** 20 fevral 1996-cı ildə Şəkidə anadan olub.

Əsgər Şahmar Soltanlı 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsində Suqovuşan və Ağdərə uğrunda gedən döyüşlərdə şücaət göstərib. 27 oktyabr 2020-ci ildə Ağdərə döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Şəki Şəhidlər Xiyabanında dəfn olunub.

Şahmar Soltanlı ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalı ilə təltif edildi.





**Soltanov Oruc Fərhad oğlu** 1999-cu il yanvarın 1-də Kürdəmir rayonunun Sovla kəndində anadan olub.

Əsgər Oruc Soltanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oruc Soltanov oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub. Kürdəmir rayonunda dəfn olunub.

Oruc Soltanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Şükürani Şükran Rüfət oğlu** 2001-ci il dekabrın 4-də Xətai rayonunda anadan olub.

Əsgər Şükran Şükürani 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şükran Şükürani oktyabrın 8-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Şükran Şükürani ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Şükürlü Elvin Azad oğlu** 1997-ci ildə Cəlilabad rayonunda anadan olub.

Leytenant Elvin Şükürlü 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində iştirak edib. Murovdağ uğrunda gedən döyüşlərdə itkin düşüb. 2021-ci il yanvar ayının 22-də 2-ci Fəxri Xiyabanda dəfn olunub.

Elvin Şükürlü ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Şükürlü Nicat Ayaz oğlu** 1991-ci il oktyabrın 23-də Səbail rayonunun Badamdar qəsəbəsində anadan olub.

Çavuş Nicat Şükürlü 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nicat Şükürlü oktyabrın 11-də Hadrut döyüşləri zamanı şəhid olub. Səbail rayonunun Badamdar qəsəbəsində dəfn olunub.

Nicat Şükürlü ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Şükürov Alim Davud oğlu** 1998-ci il mayın 23-də Cəlilabad rayonunun Ağdaş kəndində anadan olub.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kiçik giziri olan Alim Şükürov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Alim Şükürov noyabrın 9-da Zəngilan döyüşləri zamanı Bartaz istiqamətində şəhid olub. Cəlilabad rayonunda dəfn olunub.

Alim Şükürov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şükürov Anar Mehman oğlu** 1977-ci il yanvarın 20-də Sumqayıt şəhərində anadan olub.

Mayor Anar Şükürov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Anar Şükürov oktyabrın 16-da Suqovuşan döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn edilib.

Anar Şükürova "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şükürov Azər Cahid oğlu** 1994-cü il fevralın 11-də Beyləqan rayonunun Birinci Şahsevən kəndində anadan olub.

Əsgər Azər Şükürov 44 günlük Vətən müharibəsi başlanan zaman könüllü olaraq döyüşlərə qatılıb. Yaxınlarının sözlərinə görə, müraciətinə baxmayaraq onu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən çağırmasalar da, cəbhə bölgəsinə hələlik aparmaq istəməsələr də, qəhrəmanımız xeyli təkid etdikdən sonra döyüşə yollana bilib. Döyüşlərə qatılan kimi şücaət göstərən Azər düşmən güllələsinə tuş gələrək Qubadlıda şəhid olub.

Göstərdiyi qəhrəmanlıqlara görə, "Vətən uğrunda", "Cəsur döyüşçü", Qubadlının və Cəbrayılın azad olunmasına görə medalları ilə təltif edildi.



**Şükürov İlkin Aslan oğlu** 1995-ci il avqustun 27-də Qazax rayonunun Ürkməzli kəndində anadan olub.

Gizir İlkin Şükürov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

İlkin Şükürov oktyabrın 14-də Füzuli döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Ürkməzli kəndində torpağa tapşırılıb.

İlkin Şükürov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.






**Şükürov Samir Teyyub oğlu** 7 noyabr 1974-cü ildə Lerik rayonunun Kəlvəz kəndində anadan olub.

Baş leytenant Samir Şükürov 27 sentyabr 2020-ci il İkinci Qarabağ müharibəsində könülü olaraq cəbhəyə yollanıb. Oktyabrın 25-i müharibəyə yollanan qəhrəmanımızın ailəsi noyabrın 10-u Samir Sükürovun şəhid olduğu xəbərini alıb.

Qəhrəmanımız Bakı şəhəri Binə qəsəbəsində yerləşən Şəhidlər Xiyabanında torpağa tapşırılıb. Şeirə, ədəbiyyata bağlı olan şəhidimizin ən böyük arzusu yazdığı şeirlərini toplayaraq kitab nəşr etdirmək olub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Şükürov Sərvan Sərxan oğlu** 26 avqust 1998-ci ildə Bərdə rayonunun Kələntərli kəndində anadan olub.

MAHHXHQ əsgər Sərvan Şükürov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Murovdağ, Talış-Suqovuşan istiqamətində gedən hərbi əməliyyatlarda iştirak edib. Sərvanın axırıncı döyüş yolu Suqovuşan istiqamətində olub. O, oktyabrın 3-də döyüş tapşırığını yerinə yetirən zaman düşmən snayperindən açılan atəş nəticəsində şəhid olub.

Sərvan Şükürov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Şükürov Vüsal Zahir oğlu** 14 noyabr 1995-ci ildə Ağcabədi rayonunun Şahmallar kəndində anadan olub.

Əsgər Vüsal Şükürov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Vüsal Şükürov 8 noyabr 2020-ci ildə Şuşa şəhəri istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Ağcabədi Şəhidlər Xiyabanında dəfn olunub.

Vüsal Şükürov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Süleymanlı Elmir Aqil oğlu** 2001-ci il mayın 11-də Ağsu rayonunun Gəgəli kəndində dünyaya göz açıb.

Əsgər Elmir Süleymanlı 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi zamanı döyüşlərə aktiv şəkildə qatılaraq şücaət göstərib. Elmir düşmənə sarsıdıcı zərbələr endirərək Vətən torpağını işğalçılardan xilas etmək üçün son nəfəsinə qədər vuruşub. Oktyabrın 21-də qəhrəmanımız şəhadət zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.

**Süleymanlı Kənan Sadıq oğlu** 30 yanvar 1991-ci ildə Bakı şəhərində anadan olub.

Baş leytenant Kənan Süleymanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü ehtiyatda olan zabit kimi iştirak edib. Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Kənan Süleymanlı 9 noyabr 2020-ci ildə Xocavənd rayonu ərazisində Üçtəpə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Şəhid olduğu 21 noyabr tarixində müəyyənləşib, nəşi II Şəhidlər Xiyabanında dəfn olunub.

Kənan Süleymanlı ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Süleymanlı Rəsul Kamil oğlu** 2002-ci il yanvarın 19-da Zaqatala şəhərində anadan olub.

Əsgər Rəsul Süleymanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonu istiqamətində gedən döyüşlərdə snayperçi kimi iştirak edib.

Rəsul Süleymanlı sentyabrın 27-də Tərtər rayonu istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Oktyabrın 25-də Zaqatala şəhərində torpağa tapşırılıb.

Rəsul Süleymanlı ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Süleymanov Arif Ramiz oğlu** 1994-cü il yanvarın 5-də Goranboyda anadan olub.

Kiçik çavuş Arif Süleymanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı bir sıra mövqelərdə savaşıb. Qəhrəmanımız Kəhrillər xarabalığı, Dostagir, Talış və Suqovuşan yaşayış məntəqəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Arif Süleymanov oktyabrın 8-də düşmən bölmələrinin yerləşdiyi 1444.0 yüksəkliyində düşmənin çoxlu sayda canlı qüvvəsini məhv edib və şücaət göstərərək şəhid olub.

Arif Süleymanov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə də təltif edildi.



**Süleymanov Asim Məhərrəm oğlu** 18 fevral 2001-ci ildə Daşkəsən rayonunun Xoşbulaq kəndində doğulub.

Əsgər Süleymanov Asim 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan kəndi, Xocavən rayonunun Ağoğlan (Hadrut) qəsəbəsi, Cəbrayıl və Xocavənd rayonlarının azadlığı uğrunda vuruşub.

Noyabrın 4-də Xocavəndin Zoğalbulaq kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Noyabrın 5-də Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Süleymanov Azər Haqverdi oğlu** 1982-ci il oktyabrın 26-da Xəzər rayonunun Şüvəlan qəsəbəsində anadan olub.

MAHHXHQ əsgər Azər Süleymanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Azər Süleymanov oktyabrın 10-da Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Xəzər rayonunun Şüvəlan qəsəbəsində dəfn olunub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Süleymanov Emin Bəhmən oğlu** 21 iyul 1977-ci ildə İmişli rayonunun Xubyarlı kəndində anadan olub.

Mayor Emin Süleymanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Laçın dəhlizi istiqamətində gedən döyüşlərdə savaşıb. Emin Süleymanov Murovdağ, Şuşa, Daşaltı əməliyyatlarında iştirak edib, noyabrın 9-da düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində şəhid olub.

Emin Süleymanov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Süleymanov Əyyub Rasim oğlu** 2001-ci il aprelin 9-da İmişli rayonunda anadan olub. Əslən Cəbrayıl rayonunun Qumlaq kəndindən idi.

Əsgər Əyyub Süleymanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə şücaətlə vuruşub.

Əyyub Süleymanov noyabrın 1-i Laçın rayonu istiqamətində gedən döyüşlər zamanı artilleriya atəşi nəticəsində qəhrəmancasına şəhid olur. Biləsuvar qəsəbəsində dəfn olunub.

O, "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Süleymanov Fizuli Bahadur oğlu** 1992-ci il fevralın 20-də Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olub. Əsgər Füzuli Süleymanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə tankçı kimi iştirak edib. O, məlum istiqamətdə gedən döyüşlərdə mexanik-sürücüsü kimi döyüş maşınını atəş mövqeyində məharətlə idarə etməsində fəal iştirak edib. Füzuli Süleymanov sentyabrın 30-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Qəhrəmanımız Tərtər rayonunun Dəmirçi kəndi ərazisində döyüş tapşırığını yerinə yetirərkən özüyeriyən döyüş maşınının partlaması nəticəsində şəhid olub. Tovuz rayonunun Aşağı Quşçu kəndində dəfn edilib. O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", Ağdamın azad olunmasına görə" medalları ilə də təltif edildi.

**Süleymanov Həsən İsmayıl oğlu** 1991-ci il avqustun 8-də Ağcabədidə dünyaya göz açıb.

Əsgər Həsən Süleymanov 2020-ci il 29 sentyabrda səfərbərliyə cəlb olunub. Oktyabrın 26-da Qubadlı istiqamətində gedən şiddətli döyüşlərdə şəhid olub. Qəhrəmanımız Ağcabədi rayonunun Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

O ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə də təltif edildi.



**Süleymanov İlkin Mahir oğlu** Bərdə rayonunun Kələntərli kəndində anadan olub.

Baş gizir İlkin Süleymanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İlkin Süleymanov oktyabrın 9-da Suqovuşan döyüşləri zamanı şəhid olub. O Tərtər rayonu Talış kənd ərazisində, döyüş mövqeyində döyüş tapşırığını yerinə yetirərkən avtomobilin yanında düşmən tərəfindən atılan mərmi partlayışı nəticəsində yaralanaraq şəhid olub.


İlkin Süleymanov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Süleymanov İsmayıl Kamal oğlu** 1997-ci il aprelin 19-da Neftçala rayonunun İkinci Qaralı kəndində anadan olub.

Əsgər İsmayıl Süleymanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İsmayıl Süleymanov oktyabrın 9-da Cəbrayıl döyüşləri zamanı şəhid olub.

İsmayıl Süleymanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Süleymanov Mirsüleyman Aydın oğlu** 1998-ci il martın 30-da Bakı şəhərində anadan olub. Əsləm İsmayıllı rayonunun Lahıc kəndindən idi.

Əsgər Mirsüleyman Süleymanov 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsində böyük şücaətlə döyüşüb.

O, cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 20 noyabr 2020-ci il tarixində isə yaşadığı Bakı şəhəri Bakıxanov qəsəbəsində dəfn edilib.

Döyüşlər zamanı göstərdiyi qəhrəmanlıq və şücaətə görə qəhrəmanımız ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Süleymanov Orxan Oruc oğlu** 1990-cı il iyunun 10-da Ağstafa rayonunun Saloğlu qəsəbəsində anadan olub.

Gizir Orxan Süleymanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Süleymanov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Saloğlu qəsəbəsində dəfn olunub.

Orxan Süleymanov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Süleymanov Rauf Allahverdi oğlu** 29 may 1987-ci ildə Neftçala rayonunun Abasallı kəndində anadan olub.

MAHHXHQ çavuş Rauf Süleymanov 26 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlar-başlamaz ön cəbhəyə yollanıb. İxtisasca atıcı-snayperçi imiş. 5 oktyabr tarixində Cəbrayıl uğrunda gedən döyüşlərdə şəhid olub. Mühasirəyə alındıqda düşmənə əsir düşməməsi üçün özü-özünü vurub. 12 oktyabr 2020-ci ildə Neftçala rayonu Abasallı kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə də təltif edildi.



**Süleymanov Samir Çingiz oğlu** 9 mart 1998-ci ildə Qubada anadan olub.

Əsgər Samir Süleymanov 2020-ci il sentabrın 27-də başlanan Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli, Cəbrayıl, Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Samir Süleymanov 7 noyabrda Xocavənd Şəxər kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

Samir Süleymanov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Süleymanov Səbuhi Ələkbər oğlu** 19 aprel 1997-ci ildə Ucar rayonunun Bərgüşad kəndində anadan olub.

Əsgər Səbuhi Süleymanov Vətən müharibəsinin ilk günündən Qələbə gününədək şərəfli döyüş yolu keçib, 09 noyabr 2020-ci ildə Şuşa şəhərində şəhid olub. 12 noyabr 2020-ci il tarixində Bərgüşad kənd qəbiristanlığında dəfn olunub.


Səbuhi Süleymanov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.

**Süleymanov Tamerlan Xankişi oğlu** 1992-ci il martın 1-də Lerik rayonunun Tikəband kəndində anadan olub.

Kiçik gizir Tamerlan Süleymanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Tamerlan Süleymanov oktyabrın 27-da Füzuli döyüşləri zamanı şəhid olub. Binə Şəhidlər Xiyabanında dəfn olunub.

Tamerlan Süleymanov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medallarına layiq görüldü.



**Süleymanov Vasif Akif oğlu** 2002-ci il fevral ayının 24-ü Qəbələ rayonunun Bum qəsəbəsində anadan olub.

Əsgər Vasif Süleymanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı ilk gündən döyüşlərdə iştirak edib. 2020-ci il oktyabrın 6-da Füzuli rayonunda şəhidlik zirvəsinə ucalıb. Komandirini xilas edərkən başından və sinəsindən aldığı qəlpə yarasından həlak olub. 2020-ci il oktyabrın 7-də Qəbələ rayonunun Bum qəsəbəsində dəfn edilib.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sultanlı Elşən Nazim oğlu** 2001-ci il fevralın 15-də Yardımlının ən ucqar kiçik bir kəndi olan Teşkanda anadan olub.

Əsgər Elşən Sultanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib.

Elşənin Tərtər rayonunun Qapanlı kəndindən başlanan döyüş yolu Talış və Suqovuşan kəndlərinə qədər davam edib. O, noyabrın 12-də 530 yüksəkliyində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

Elşən Nazim oğlu Sultanlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Soltanov Gəray Xəlil oğlu** 1993-cü il oktyabrın 29-da Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olub.

Əsgər Gəray Soltanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə könüllü yollanıb. 44 günlük Vətən müharibəsində Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Gəray Soltanov oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunda dəfn olunub. Gəray Cəbrayıl istiqamətində gedən döyüşlərdə son damla qanına qədər vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" ,"Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Sultanov Hüseyn Fərhad oğlu** 6 aprel 1992-ci ildə Xaçmazın Hacıqurbanoba kəndində anadan olub.

Əsgər Hüseyn Sultanov 2020-ci il sentabrın 27-də başlanan Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli, Cəbrayıl, Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 21 oktyabrda Xocavəndin Düdüklükəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Soltanov Nadir Nəzir oğlu** 1984-cü il yanvarın 11-də Şamaxı rayonunun Qələybuğurd kəndində anadan olub.

Gizir Nadir Soltanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Nadir Soltanov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Nadir Soltanov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Sultanov Nurlan Yaşar oğlu** 1996-cı il dekabrın 9-da Tovuz rayonunun Dönük Qırıqlı kəndində anadan olub.

Əsgər Nurlan Sultanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Noyabrın 4-də Qubadlı döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Sultanov Səlim Sultan oğlu** 15 iyun 2002-ci ildə Quba rayonu Zərqala kəndində anadan olub.

Əsgər Səlim Sultanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Səlim noyabrın 2-də Xocalı rayonunun Çanaqçı kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən mərmisinin partlaması nəticəsində şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Sultanov Zaminəli Nazim oğlu** 25 dekabr 1994-cü ildə Saatlının Qara Nuru kəndində dünyaya göz açıb.

Əsgər Zaminəli Sultanov Füzuli-Cəbrayıl istiqamətlərində gedən ağır döyüşlərdə iştirak edən Əlizamin sonuncu dəfə oktyabrın 18-də ailəsi ilə əlaqə saxlayıb. 3 gün sonra isə – ayın 21-i şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Sultanzadə Niyaməddin Hüsaməddin oğlu** 10 sentyabr 1998-ci ildə Masallı şəhərində anadan olub.

Əsgər Niyaməddin Sultanzadə 27 sentyabr 2020-ci il tarixdə başlanan Vətən müharibəsində könüllü olaraq qoşulub, Cəbrayıl və Füzuli rayonlarında düşmən hücumunun qarşısının alınmasında şücaət göstərib, 22 noyabr 2020-ci il tarixində Qubadlı rayonu istiqamətində düşmənin atdığı artilleriya mərmisinin partlaması nəticəsində şəhid olub.

Niyaməddin Sultanzadə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edidi.



**Surxayev Yunis Rafik oğlu** 2002-ci il yanvarın 20-də Qobustan Qəsəbəsinin Şıxlar kəndində anadan olub.

Əsgər Yunis Surxayev 27 sentyabr 2020-ci il tarixindən başlanan Vətən müharibəsində Goranboy, Tərtər, Ağdərə, Madagiz, Cəbrayıl və Suqovuşan istiqamətlərində döyüşüb.

Oktyabrın 8-də müharibənin qızğın dövründə Talış-Suqovuşan istiqamətində döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Surxayzadə Cahangir Hətəm oğlu** 1996-cı il iyulun 9-da Tərtər rayonunun Qaynaq kəndində anadan olub.

MAHHXHQ əsgər Cahangir Surxayzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda döyüşüb. Cahangir Surxayzadə noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Cahangir Surxayzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Surxayzadə Zəfər Şəmsəddin oğlu** 5 avqust 2001-ci ildə Şəkidə anadan olub.

Əsgər Zəfər Surxayzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak edərək şücaət göstərib.

Zəfər Surxayzadə noyabrın 9-da Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhid olub. 10 noyabr 2020-ci ildə doğulduğu kənddə torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" , "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tağıyev Allahverdi Əkbər oğlu** 1992-ci il mayın 24-də İmişli rayonunda anadan olub.

MAHHXHQ əsgər Əkbər Tağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Şəhidimiz Allahverdi Tağıyev Vətən muharibəsinin 31-ci günündə, oktyabr ayının 27-də Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Tağıyev Anar Zakir oğlu** 1996-cı il oktyabrın 14-də Beyləqan rayonunun Kəbirli kəndində anadan olub.

MAHHXHQ əsgər Anar Tağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Anar Tağıyev oktyabrın 3-də Füzuli rayon istiqamətində gedən döyüş əməliyyatlarında döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edildi.



**Tağıyev Asif Zakir oğlu** 1985-ci il fevralın 23-də Daşkəsən şəhərində anadan olub.

Kiçik çavuş Asif Tağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində döyüşüb. Asif Tağıyev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Asif Tağıyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Tağıyev Azər Kamil oğlu** 1999-cu il dekabr ayının 20-si Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olub.

MAHHXHQ əsgər Azər Tağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı ön cəbhədə döyüşlərə qatılıb. Hadrut, Xankəndi istiqamətində döyüşlərdə iştirak edib. Şuşaya ilk ayaq basan igidlərimizdən olan Azər Şuşa uğrunda gedən əlbəyaxa döyüşlərdə iştirak edib. Noyabr ayının 9-u minomyot mərmisinin partlayışı nəticəsində qəhrəmancasına şəhid olub. Azər Tağıyev noyabrın 13-də doğulduğu Şahtaxtı kəndində son mənzilə yola salınıb.

Tağıyev Azər ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tağıyev Əkbər Məhəmməd oğlu** 07 fevral 1994-cu ildə Yevlax rayonunda anadan olub.

Əsgər Əkbər Tağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Ağdərə istiqamətində böyük şücaətlə vuruşub. Noyabrın 19-da Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Tağıyev Əli Aydın oğlu** 1997-ci il avqustun 8-də İmişli rayonunda anadan olub.

Əsgər Əli Tağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzuli rayonları istiqamətində gedən döyüşlərdə iştirak edib. Əli Tağıyev oktyabrın 13-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olub.

Əli Tağıyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tağıyev Əli Rahil oğlu** 2001-ci il avqustun 29-u Salyan rayonunda anadan olub.

Əsgər Əli Tağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Çaylı və Talış kəndləri istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 3-ü yaralanaraq qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Tağıyev Elnur Aydın oğlu** 10 iyun 1997-ci ildə Sumqayıt şəhərində doğulub.

Əsgər Elnur Tağıyev 29 sentyabr 2020-ci ildə Füzuli, Cəbrayıl, Qubadlı istiqamətində döyüşlərə qatılıb. 26 oktyabr 2020-ci il tarixində Qubadlı uğrunda gedən ağır döyüşlərin birində qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tağıyev Elxan Fəxrəddin oğlu** 1990-ci il fevralın 26-da Goranboy rayonunun Fəxralı kəndində anadan olub.

MAHHXHQ əsgər Elxan Tağıyev Suqovuşan kəndinin azadlığı uğrunda gedən döyüşlər zamanı düşmən mövqeyinə basqın edən zaman əl qumbarası vasitəsilə düşmənin 5-ə yaxın canlı qüvvəsini məhv edib. Yaralı olmasına baxmayaraq döyüş meydanından çıxmaqdan imtina edib. Oktyabrın 1-də qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Elzamin Eyvaz oğlu Tağıyev** 11 avqust 1992-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində dünyaya göz açıb.

MAHHXHQ əsgər Elzamin Tağıyev 27 sentyabr 2020-ci ildən isə Vətən müharibəsinə qatılmaqla, oradakı bir çox döyüşlərdə, xüsusilə, Füzulinin, Cəbrayılın, Hadrutun və Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib və döyüş tapşırıqlarını yerinə yetirib.

Elzamin Tağıyev noyabr ayının əvvəllərində başlanan Şuşa döyüşündə də iştirak edib. Noyabrın 9-da Şuşada döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edildi.



**Tağıyev Elçin Ağaqulu oğlu** 1989-cu il iyulun 1-də Biləsuvar rayonunun Zəhmətabad kəndində anadan olub.

Kapitan Elçin Tağıyev 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Elçin Tağıyev oktyabrın 1-də Talış döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunda dəfn olunub.

Şəhid olmazdan öncə ona mayor rütbəsi təqdim olunsa da, bu rütbəni çiyinlərinə taxmaq qismət olmayıb. Talış və Suqovuşan istiqamətində döyüşən qəhrəman zabitimiz həmin strateji ərazilərin işğaldan azad olunmasında taboru ilə birlikdə şücaət göstərib və bu döyüşlərdə şəhid olub.

Elçin Tağıyev ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Tarverdiyev Feyruz İslam oğlu** 1996-cı il iyulun 22-də Kürdəmir rayonunun Sığırlı kəndində anadan olub.

Əsgər Feyruz Tarverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı heç tərəddüd etmədən ön cəbhəyə yollandı. Vətən müharibəsində də snayperçi kimi iştirak edirdi.

Feyruz noyabrın 6-da Xocavənddə yaxınlığına minaatan mərmisinin düşməsi nəticəsində qəlpə yarası alaraq şəhid olub. Noyabrın 30-da Feyruzun nəşi ailəsinə təhvil verildi.


Feyruz Tarverdiyev ölümündən sonra "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Təhməzov Pərvin İlqar oğlu** 1997-ci ilin 22 yanvarında Sumqayıt şəhərində doğulub.

Əsgər Pərvin Təhməzov Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılıb. Kəlbəcər, Ağdərə, Suqovuşan, Ağuçuq istiqamətində gedən döyüşlərdə mərdliklə vuruşub. O, düşmən bölmələrinin yerləşdiyi 1444.0 yüksəkliyində düşmənin çoxlu sayda canlı qüvvəsini məhv edib və oktyabrın 1-də Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

Şəhadətindən sonra "Vətən uğrunda", "Suqovuşanın azad edilməsinə görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.



**Təmirov Yusif Azər oğlu** 1995-ci ilin sentyabrın 28-də Balakən rayonunun Katex kəndində anadan olub.

Əsgər Yusif Təmirov 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi döyüşlərinə qatılıb, Ağdərə və Suqovuşanın azadlığı uğrunda vuruşub.

Qəhrəman əsgər oktyabrın 14-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Katex kəndində dəfn edilib.

Yusif Təmirov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tağıyev Eşqin Asif oğlu** 18 mart 1998-ci ildə Göygöl rayonu Üçtəpə kəndində anadan olub.

MAHHXHQ, əsgər Eşqin Tağıyev, Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 30-da Şuşa şəhərinin azad olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Hərbi xidmətlərə görə", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Tağıyev Fuad Mərdan oğlu** 1996-cı il noyabrın 1-də Sabirabad rayonunun Ətcələr kəndində anadan olub. Kiçik gizir Fuad Tağıyev 2020-ci il 27 sentyabr günündən döyüşlərə qatılıb. O, Füzuli, Cəbrayıl, Zəngilan, Tərtər rayonunun Talış və Suqovuşan kəndlərinin, Hadrut qəsəbəsi və tarixi Şuşa şəhərinin azad olunması uğrunda gedən şiddətli döyüşlərdə qəhrəmanlıq göstərib. Tağıyev Fuad on iki nəfərlik qrupla birgə Qırmızı bazar ərazisində komandanlığın xüsusi tapşırığını yerinə yetirərkən ağır yaralansa da döyüşə davam edib. Oktyabrın 24-də Xocavənd döyüşləri zamanı Qırmızı Bazar istiqamətində şəhid olub. Sabirabad rayonunun Ətcələr kəndində dəfn olunub.

O, ölümündən sonra "Hərbi xidmətlərə görə", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Tağıyev Hüseyn Oktay oğlu** 1991-ci il avqustun 8-də Bakı şəhərində anadan olub. Əslən İrəvan şəhərindən idi.

Kiçik çavuş Hüseyn Tağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Hüseyn Tağıyev oktyabrın 5-də Füzuli rayonu Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tağıyev İmdad Rövşən oğlu** 2002-ci il aprelin 25-də Göygöl rayonunun Mollacəlilli kəndində anadan olub.

Əsgər İmdad Tağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İmdad Tağıyev oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olub. Göygöl rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tağıyev Kamran Fikrət oğlu** 2001-ci il 27 sentyabrda Maştağa qəsəbəsində dünyaya gəlib.

Əsgər Kamran Tağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər rayonu istiqamətində döyüşüb. Oktyabrın 31-də Tərtər rayonunun Talış kəndi istiqamətində hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Tağıyev Nurağa Davud oğlu** 20 aprel 2001-ci ildə Xaçmaz rayonunda anadan olub.

Əsgər Nurağa Tağıyev 2020-ci il 27 sentyabrda könüllü olaraq Vətən müharibəsi döyüşlərinə qatılıb. Qarabağ uğrunda gedən qızğın döyüşlər zamanı Gülüstan yaşayış məntəqəsində yerləşən batareyanın əsas atəş mövqeyində düşmən artilleriya hücumundan şəxsi heyəti qoruyarkən şücaət göstərib və düşmən zərbəsinə tuş gəlib. Oktyabrın 10-da qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tağıyev Pərviz Hafiz oğlu** 1990-cı il martın 22-də Mingəçevir şəhərində anadan olub. MAHHXHQ əsgər Pərviz Tağıyev 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsi zamanı Murov yüksəkliyi, Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən ağır döyüşlərdə iştirak edib. Pərviz Tağıyev sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Pərvizlə yaxınları müharibənin ilk günlərində əlaqə saxlaya biliblər. Sonra isə ondan heç bir xəbər ala bilməyiblər. Onun nəşi uzun müddət tapılmayıb. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunub. Nəşi ölümündən təxminən 220 gün sonra 2021-ci il mayın 5-də Tərtər-Suqovuşan istiqamətində tapılaraq ailəsinə təhvil verilib. Otuz bir yaşlı Pərviz Tağıyev Mingəçevir Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Tağıyev Ramid Yaqub oğlu** 1994-cü il fevralın 25-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub.

Kiçik çavuş Ramid Tağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Ramid Tağıyev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tağıyev Ramiq Teymur oğlu** 1998-ci il oktyabrın 31-də Lerik rayonunun Kəlvəz kəndində anadan olub.

Kiçik gizir Ramiq Tağıyev Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ramiq Tağıyev noyabrın 9-da Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan artilleriya mərmisinin partlayışı nəticəsində aldığı çoxsaylı qəlpə zədələnməsindən şəhid olub. Lerik rayonunun Kəlvəz kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Tağıyev Röyal Tağı oğlu** 13 may 1995-ci ildə Hacıqabul rayonunun Qubalıbalaoğlan kəndində anadan olub.

Əsgər Röyal Tağıyev 2020-ci il sentyabrın 27-də başlanan II Qarabağ müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. 6 oktyabr 2020-ci ildə Cəbrayıl döyüşləri zamanı vuruşaraq şəhid olub. Röyal Tağıyev Hacıqabul rayonunun Qubalıbalaoğlan kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tağıyev Ruslan Fuad oğlu** 1982-ci il iyunun 12-də İsmayıllı şəhərində anadan olub.

Polkovnik-leytenant Ruslan Tağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Tərtər, Suqovuşan döyüşlərində tabeliyində olan hərbi hissənin önündə şərəflə vuruşub və noyabrın 4-də Laçın istiqamətindəki döyüşlərdə şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tağıyev Şahin Rəhim oğlu** 3 iyul 2000-ci ildə Goranboy rayonunun Qaradağlı kəndində anadan olub.

Kiçik gizir Şahin Tağıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə fərqlənib. Oktyabrın 9-da Hadrut qəsəbəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 20 oktyabr 2020-ci ildə Goranboy rayonunun Qaradağlı kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tağızadə Bəhruz Azər oğlu** 14 sentyabr 1999-cu ildə Qax rayonunda anadan olub.

Əsgər Bəhruz Tağızadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Cəbrayılın, Füzulinin, Hadrutun və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Bəhruz Tağızadə 8 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. 16 noyabr 2020-ci ildə dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Tağızadə Cahid Vahid oğlu** 1988-ci il fevralın 12-də Bərdə rayonunun Mirzalıbəyli kəndində anadan olub.

Gizir Cahid Tağızadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cahid Tağızadə oktyabrın 3-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Bərdə rayonunda dəfn olunub.

Cahid Tağızadə ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tağızadə Dünyamin Ramin oğlu** 2001-ci il yanvarın 21-də Beyləqan rayonunun Günəş qəsəbəsində anadan olub.

Əsgər Dünyamin Tağızadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Dünyamin Tağızadə sentyabrın 30-da Cəbrayıl döyüşləri zamanı şəhid olub. Şəhidimiz Beyləqan rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tahirli Şahin Afat oğlu** 17 sentyabr 2001-ci ildə Lerik rayonunun Züvüç kəndində anadan olub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı yüksək şücaətlər göstərərək düşmənə sarsıdıcı zərbələr endirib. Füzuli, Qubadlı və Şuşa istiqamətlərində döyüşən Şahin Tahirli 7 noyabr 2020-ci il tarixində Şuşanın Daşaltı kəndi uğrunda gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olub. O, doğulduğu Lerik rayonunun Züvüç kəndinə gətirilərək kənd qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tahirov Firdovsi Balaxan oğlu** 1997-ci il fevralın 18-də Lerik rayonunun Dico kəndində anadan olub.

Əsgər Firdovsi Tahirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Firdovsi Tahirov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Lerik rayonunun Dico kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Tahirov Rəşid Loğman oğlu** 1989-cü il oktyabrın 31-də Beyləqan rayonunun Qaradağlı kəndində anadan olub.

Əsgər Rəşid Tahirov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi zamanı ilk gündən könüllü olaraq cəbhəyə yollanıb. Noyabrın 6-da Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə düşmənin artilleriya atəşi nəticəsində şəhid olub.

Rəşid Tahirov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Tahirov Vüsal Mehdi oğlu** 1997-ci il mayın 1-də Şərur rayonunun Danyeri kəndində anadan olub.

Gizir Vüsal Tahirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal Tahirov noyabrın 16-da Şuşa döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Talıblı Asif Arif oğlu** 1993-cü il aprelin 26-da Biləsuvar rayonunun Zəhmətabad kəndində anadan olub.

MAHHXHQ çavuş Asif Talıblı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində ön sıralarda döyüşüb. Murovdağ, Füzuli, Cəbrayıl istiqamətlərində ağır döyüşlərdə iştirak edib. Döyüşlər zamanı bir çox yaralı yoldaşını da xilas edib. O, Hadrut uğrunda döyüşlərə cəlb edilən ən elit hərbçilərimizdən idi. Hətta bu döyüşlərdə düşmənlə əlbəyaxa olub və qəhrəmanlıq göstərərək şəhid olub. Hərbçimiz oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunda dəfn olunub.

Asif Talıblı ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Talıbov Elməddin Məmməd oğlu** 1998-ci il sentyabrın 26-da Yardımlı rayonunun Şıxlar kəndində anadan olub.

Əsgər Talıbov Elməddin 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. O, noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Yardımlı rayonunda dəfn olunub.

Elməddin Talıbov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Talıbov Elnur Gəgiş oğlu** 1996-cı ilin 26 dekabrında Lerik şəhərində anadan olub.

Əsgər Elnur Talıbov 2020-ci il sentyabr ayının 27-də Vətən müharibəsi zamanı döyüşlərdə yüksək qəhrəmanlıq və şücaət göstərib. Qəhrəman Elnur oktyabr ayının 5-də Xocavənd istiqamətində gedən şiddətli döyüşlərdə şəhid olub. Bütün şəhidlər Füzuli xəstəxanasına gətirildiyi üçün Elnur də ora gətirilib, lakin Elnur naməlum şəhidlərin sırasında olub. Nəhayət, Elnurun nəşi dəqiqləşib və noyabr ayının 1-də Lənkəran şəhərində, "Kiçik Bazar" adlanan qəbiristanlıqda böyük izdihamla dəfn edilib.

O, ölümündən sonra "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Talıbov Məhəmməd Aydın oğlu** 10 mart 1996-cı ildə Füzuli rayonunun Böyük Bəhmənli kəndində dünyaya göz açıb.

Əsgər Məhəmməd Talıbov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Noyabrın 3-də döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Talıbov Şirnalı Aqil oğlu** 16 sentyabr 1997-ci ildə Nəcəfqulubəyli kəndində dünyaya göz açıb.

Əsgər Şirnalı Talıbov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Füzuli, Cəbrayıl, Qubadlı uğrunda gedən döyüşlərin fəal iştirakçısı olub. Oktyabr ayının 22-də gərgin döyüşdə əlində silah vuruşa-vuruşa qəhrəmanlıq göstərərək şəhid olub. Şəhadətə qovuşub şəhidlik zirvəsini fəth edən Şirnalı Talıbov doğma kəndləri Nəcəfqulubəyli kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Talıbov Tahir İdris oğlu** 2002-ci ildə Quba rayonunun ucqar Çiçi kəndində dünyaya göz açıb.

Əsgər Tahir Talıbov Vətən müharibəsi başlanan kimi öz xahişi ilə ön cəbhəyə yollanıb. O, Cəbrayıl və Füzulidə şiddətli döyüşlərdə iştirak edib. Bir sıra yaşayış məntəqələrimizin işğaldan azad olunmasında şücaət göstərərək komandirlərinin rəğbətini qazanıb.

Tahir Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub. Tahir Talıbov Çiçi kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Talıbov Təbriz Məhərrəməli oğlu** 11 iyun 1994-cü ildə Lerik rayonunun Ləkər kəndində anadan olub.

Kiçik gizir Təbriz Talıbov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Zəngilan rayonlarında döyüşüb. Bir sıra düşmən hədəflərini məhv edən Təbriz döyüş yoldaşları ilə birlikdə 2020-ci il oktyabrın 22-də Zəngilan rayonu ərazisində Sığırd yüksəkliyinin azad olunması uğrunda gedən döyüşlərdə düşmən puqusuna düşüb. İki saat ərzində düşmənlə mətanətlə vuruşaraq yoldaşlarının pusqudan çıxmasına şərait yaradan Təbriz qəhrəmancasına şəhid olub.

2020-ci il oktyabrın 29-da Lerik rayonunun Ləkər kəndində dəfn edilib.

Talıbov Təbriz ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Talıbzadə Ceyhun Aqil oğlu** 1994-cü il dekabrın 1-də Salyan rayonunun Şorsulu kəndində anadan olub.

Əsgər Vətən müharibəsində Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Ceyhun Talıbzadə 18 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Ceyhun Talıbzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Talıbzadə Səxavət Zeyniş oğlu** 1998-ci il yanvarın 1-də Saatlı rayonunun Qaracalar kəndində dünyaya göz açıb.

MAHHXHQ əsgər Səxavət Talıbzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə şücaətlə döyüşüb.

Səxavət Talıbzadənin son döyüşü Suqovşanda olub. Silahdaşları ilə birgə düşmənə ağır zərbələr vuran igid döyüşçümüz Vətən müharibəsinin yeddinci günündə 22 yaşında şəhidlik zirvəsinə ucalıb. Səxavət Talıbzadə Qaracalar kənd qəbiristanlığında torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Tapdıqov Azad Azər oğlu** 1997-ci ilin 1 fevralında Ağcabədi rayonunun Yuxarı Avşar kəndində dünyaya gəlib.

Əsgər Azad Tapdıqov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayl rayonlarındakı əks hücum əməlyyatları ilə başlayıb. O, oktyabrın 9-da Füzuli və Cəbrayıl uğrunda gedən döyüşlərdə düşmən güllələsinə tuş gələrək şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Tarıverdiyev Nicat Şöhrət oğlu** 1998-ci il noyabrın 17-də Bakıda anadan olub.

Əsgər Nicat Tarıverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Talış-Suqovuşan istiqamətində savaşıb. O, elə bu istiqamətdə gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhid olub.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Tanrıverdiyev Cabir Səmid oğlu** 1987-ci il fevralın 2-də Füzuli rayonunun Araz Dilağarda kəndində anadan olub.

Gizir Cabir Tanrıverdiyev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində fəal iştirak edib, 2 dəfə yaralanıb. Sağalandan sonra yenidən döyüşlərə qatılıb. O, tankçı kimi düşmənə sarsıdıcı zərbələr endirib və xeyli sayda canlı qüvvəsini məhv edib. Cabir noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub və Füzuli rayonunda dəfn olunub.

Ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Tarverdiyev Qürbət Rasim oğlu** 1998-ci il mayın 21-də Xaçmaz rayonunun Nərəcan kəndində doğulub.

MAHHXHQ əsgər Qürbət Tarverdiyev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində silaha sarılaraq Xocavənd və Füzuli istiqamətində şiddətli döyüşlərin iştirakçısı olub.

Qürbət Tarverdiyev Füzuli rayonunun Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

Ölümündən sonra "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Təhməzov Cavid Əvəz oğlu** 1994-cü ilin iyun ayının 25-i Yevlax şəhərində anadan olub.

Baş kəşfiyatçı olan Cavid canından artıq sevdiyi Vətənin işğaldan azad olunması uğrunda gedən döyüşlərə ilk günlərdən qatılıb.

O, kəşfiyyat bölüyünün tərkibində Talış kəndi istiqamətində 482 yüksəkliyinin azad edilməsi uğrunda gedən döyüşdə qəhrəmancasına döyüşüb və şəhadətə yüksəlib.

Cavid Təhməzov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Təhməzov Elzamin Kamal oğlu** 1979-cu il oktyabrın 26-da Bərdə rayonunun Şirvanlı kəndində anadan olub.

Vətən müharibəsi başlanan zaman Elzamin Təhməzov briqadanın kəşfiyyat rəisi idi. O, Murov yüksəkliyi və Suqovuşan istiqamətində gedən ağır döyüşlərdə bir çox erməni postlarının alınmasında böyük şücaətlər göstərib. Talış yüksəkliyi istiqamətində gedən döyüşlər zamanı isə düşmən tərəfindən mühasirəyə alınan 400 əsgərimizi mühasirədən xilas edib. Komandanlıq etdiyi briqadanı qələbəya doğru uğurla aparıb. Polkovnik-leytenant sentyabrın 29-da düşmən tərəfindən atılan minomyot mərmisinin yaxınlığına düşməsi nəticəsində şəhidlik zirvəsinə ucalıb.

O, "Vətən uğrunda", ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edildi.



**Təhməzov Rəşad Qərib oğlu** 2002-ci ilin yanvar ayının 12-də Qobustan rayonunda dünyaya gəlib.

Əsgər Rəşad Qəriboğlu 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. O, sentyabrın 29-da Goranboy rayonu, Gülüstan kəndi istiqamətində hərbi əməliyyatlar zamanı digər növ partlayışlarla və qəlpələrlə törədilmiş zədələnmə nəticəsində şəhid olub.

Təhməzov Rəşad ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Təhməzov Rövşən Zahid oğlu** 1997-ci il dekabr ayının 19-da Sumqayıt şəhərində anadan olub.

Əsgər Rövşən Təhməzov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Füzuli şəhərinin azad olunması uğrunda gedən döyüşdə fəal iştirak edib. Şücaəti və igidliyi ilə həmişə qəlblərdə yaşayacaq Rövşən oktyabrın 5-də Füzulinin Alxanlı kəndinin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub.

Rövşən Təhməzov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Təhməzov Şəmsəddin Sərvər oğlu** 2001-ci il mart ayının 3-də Masallı rayonunun Güllütəpə kəndində anadan olub.

Əsgər Şəmsəddin Təhməzov 2020-ci il sentyabrın 27-də müharibənin ilk günlərindən döyüşlərə qatılıb və Ağdərə uğrunda vuruşub. O, oktyabrın 8-də Ağdərə istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub və Masallı rayonunda dəfn olunub.

Şəmsəddin Təhməzov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Telmanlı Allahyar Elman oğlu** 1992-ci il sentyabrın 1-də Şərur rayonunun Yengicə kəndində anadan olub.

Baş leytenant Allahyar Telmanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb və oktyabrın 9-da Cəbrayıl döyüşləri zamanı şəhid olub.

Allahyar Telmanlı ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" medalları və 3-cü dərəcəli Rəşadət ordeni ilə təltif edildi.



**Teymurlu Mirrahil Ramiz oğlu** 16 oktyabr 1991-ci ildə Füzuli rayonunun Mahmudlu-1 kəndində anadan olub.

MAHHXHQ əsgər Mirrahil Teymurlu 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Mirrahil Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş meydanında xidməti vəzifələrinin icrası zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən odlu silahdan açılan atəş nəticəsində şəhid olub.

Ölümündən sonra "Vətən uğrunda" "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Teymurlu Orxan Şaiq oğlu** 1996-cı il iyulun 27-də Gədəbəy rayonunun Şınıx kəndində anadan olub.

Əsgər Orxan Teymurlu 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə, Hadrut, Suqovuşan istiqamətində gedən döyüşlərdə savaşıb.

İgid əsgər 530 yüksəkliyində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhidlik zirvəsinə ucalıb.

Orxan Teymurlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Teymurov Elvin Mustafa oğlu** 1999-cu il mayın 20-də Babək rayonunun Nehrəm kəndində dünyaya göz açıb.

MAHHXHQ əsgər Elvin Teymurov 2020-ci il oktyabr ayının 10-da Qarabağda hərbi əməliyyatlara qatılıb. Füzuli, Xocavənd və Hadrut istiqamətində döyüşlərdə iştirak edən Elvin oktyabrın 21-i Tuğ dağı istiqamətində gedən döyüşlərdə həlak olub. O, oktyabrın 26-da Naxçıvan MR -nin Nehrəm qəsəbəsində torpağa tapşırılıb.

Ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Teymurov Fərid Fizuli oğlu** 1999-cu il noyabr ayının 2-də Cəlilabad rayonunun Qarğılı kəndində anadan olub.

MAHHXHQ əsgər Fərid Teymurov 2020-ci il sentyabrın 27-də müharibənin ilk günlərindən döyüşlərə qatılıb.

O, Talış kəndi istiqamətində 457 yüksəkliyinin azad edilməsi zamanı fəal iştirak edib. Suqovuşan istiqamətində 951 yüksəkliyində pusquya düşmüş döyüş yoldaşlarını pusqudan çıxardıb və düşmən qüvvələrini geri çəkilməyə məcbur edib. Fərid Kəşfiyyat bölüyünün tərkibində Suqovuşan yüksəkliyinin azad edilməsi uğrunda gedən döyüşdə şəhid olub. Onun nəşi doğulduğu Cəlilabad rayonunun Qarğılı kənd qəbiristanlığında torpağa tapşırılıb.

Ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Teymurov Mansur Elnur oğlu** 1999-cu ilin 5 iyununda Beyləqan rayonunun İkinci Şahsevən kəndində anadan olub.

MAHHXHQ əsgər Mansur Teymurov 2020-ci il sentyabrın 27-də müharibənin ilk günlərindən döyüşlərə qatılıb. Füzuli, Qubadlı rayonları uğrunda gedən ağır döyüşlərdə iştirak edib və böyük qəhrəmanlıqlar göstərib. Qəhrəman Mansurun döyüş yolu Xocavənd istiqamətində də davam edib və o, oktyabr ayının 18 -də Xocavənd rayonunun azad olunması uğrunda şəhid olub. Şəhidin nəşi səhərisi gün doğulub, boya-başa çatdığı Beyləqan rayonunun İkinci Şahsevən kəndinə gətirilib və böyük izdihamla torpağa tapşırılıb.

Ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Teymurov Şaiq Vidadi oğlu** 1992-ci il noyabrın 6-da İmişli rayonunun Aranlı kəndində anadan olub.

MAHHXHQ əsgər Şaiq Teymurov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. O, sentyabrın 29-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş zamanı qəlpələrlə zədələnmə nəticəsində şəhid olub.

Şaiq Teymurov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Teymurov Vüsal Zakir oğlu** 1991-ci il martın 4-də Bakı şəhərində anadan olub.

Vüsal Vətən müharibəsində Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. O, noyabrın 8-də Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub. Şəhidin nəşi Bakı şəhərində torpağa tapşırılıb.

Vüsal Teymurov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.

**Teymurzadə Nahid Üzeyir oğlu** 1997-ci ilin 23 iyununda Biləsuvar rayonu Günəşli kəndində anadan olub.

Əsgər Nahid Teymurzadə 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin ilk günlərindən döyüşlərə könüllü qatılıb və Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində gedən döyüşlərdə göstərdiyi şücaətlərlə yadda qalıb. İgid əsgər Xocavəndin Düdüklü kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhadətə yüksəlib. Onun nəşi Biləsuvar rayonunun Günəşli kənd qəbiristanlığında dəfn olunub.

Nahid Teymurzadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" , "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Teyyublu Çərkəz Vidadi oğlu** 1996-cı ildə Lerik rayonunun Züvüç kəndində dünyaya göz açıb.

MAHHXHQ kiçik çavuş Teyyublu Çərkəz 2020-ci ilin sentyabr ayının 27-də başlanan Vətən müharibəsində Cəbrayıl, Hadrut, Füzuli rayonu istiqamətində gedən döyüşlərdə iştirak edən və bir neçə kəndlərimizin azad olunmasında böyük qəhrəmanlıq göstərən kiçik çavuş erməni postunu ələ keçirərək üçrəngli Azərbaycan bayrağını həmin posta sancıb. Çərkəz oktyabrın 21-də Füzuli rayonunun Gecəgözlü kəndi uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidin nəşi yaşadığı Qaradağ rayonunun Şonqar qəsəbəsinə gətirilib və orada yerləşən Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Turabov Rüstəm Fərman oğlu** 1998-ci ilin sentyabr ayının 22-də Qaradağ rayonunun Güzdək qəsəbəsində anadan olub. Vətən müharibəsi başlanan zaman digər qəhrəman oğullarımız kimi Rüstəm də könüllü olaraq sentyabrın 29-da döyüşlərə qatılıb.

Füzuli, Cəbrayıl rayonları istiqamətində gedən döyüşlərdə şücaət göstərib. 2020-ci ilin oktyabr ayının 10-da Füzulinin azad olunması uğrunda aparılan döyüş əməliyyatlarında qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb.

Rüstəm Turabov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Ulubəyov Nurəhməd Hacıbəy oğlu** 2 iyun 1996-cı ildə Bakı şəhərində anadan olub.

Əsgər Nurəhməd Ulubəyov 2020-ci ilin sentyabrın 27-də başlanan Vətən müharibəsinə könüllü qoşularaq torpaqlarımızın erməni işğalından azad olunmasında iştirak edib. Füzuli-Cəbrayıl-Xocavənd istiqamətində döyüşlərə qatılıb. Oktyabrın 7-də Füzuli rayonu Horadiz kəndi istiqamətində düşmən həmləsinin qarşısını alarkən şəhid olub. 9 oktyabr 2020-ci ildə Bakıda II Fəxri Xiyabanda dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.






**Umarov Anar Məhəmməd oğlu** 1991-ci il mayın 12-də Yevlax şəhərində anadan olub.

Kiçik çavuş Anar Umarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Anar Umarov oktyabrın 30-da Murovdağ döyüşləri zamanı şəhid olub. Yevlax şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Anar Umarov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Umudlu Elmir Pərviz oğlu** 25 mart 2001-ci ildə Şəki şəhərinin Zunud kəndində anadan olub.

Əsgər Umudlu Elmir xidmətini bitirməyə 4 gün qalmış 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Xocavənd rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Cəbrayıl döyüşlərində ayağından yaralanan Elmir bir müddət döyüş yoldaşlarından ayrı düşüb. Lakin o, təkid edərək yenidən müharibəyə üz tutub. 28 oktyabr 2020-ci ildə Xocavənd uğrunda gedən şiddətli döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb. Umudlu Elmir Şəki rayonunun Zunud kənd qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Useynov Ceyhun Elşad oğlu** 1990-cı il martın 9-da Abşeron rayonunda anadan olub.

Kapitan Ceyhun Useynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər və Cəbrayıl rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. Ceyhun Useynov oktyabrın 6-da Cəbrayıl döyüşləri zamanı şəhid olub. Abşeron rayonunda dəfn olunub.

Ceyhun Useynov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Üsüfov Şahadət Qalib oğlu** 2000-ci il dekabrın 13-də Şamaxı rayonunun Göylər kəndində anadan olub.

MAHHXHQ əsgər Şahadət Üsüfov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. Ailəsi ilə sonuncu dəfə oktyabrın 8-də danışan Şahadət 2 gün sonra yenidən zəng edəcəyini deyib. Oğul zəngi gözləyən ailə oktyabrın 10-da şəhidlik xəbərini eşidib. Oktyabrın 10-da Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub. Şamaxı rayonunun Göylər kəndində dəfn edilib.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şücaətə görə" medalları ilə təltif edildi.

**Qoşqar Müşviq oğlu Üzeyirov** 2002-ci il 26 yanvar tarixində Qəbələ rayonunun Soltannuxa kəndində anadan olub.

Əsgər Qoşqar Üzeyirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. O, Ağcabədi, Ağdam və Xocavənd istiqamətində gedən döyüşlərdə vuruşub.

Qoşqar Üzeyirov noyabrın 3-də Xocavənd istiqamətində gedən döyüşlər zamanı şəhid olub. 21 noyabr 2020-ci ildə Soltannuxa kənd qəbiristanlığında dəfn olunub.

Qoşqar Üzeyirov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vahabov Yadigar Mahir oğlu** 16 avqust 1996-cı ildə Ağsu rayonunun Xatman kəndində anadan olub.

Əsgər Yadigar Vahabov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Yadigar Vahabov oktyabrın 31-də Qubadlı döyüşləri zamanı şəhid olub.

O, ölümündən sonra "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Vəkilov Elməddin Nizami oğlu** 1988-ci il avqustun 21-də Daşkəsəndə anadan olub.

Baş əsgər Elməddin Vəkilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə vuruşub . Elməddin Vəkilov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı itkin düşüb. Elməddin Vəkilovun nəşi 7 may 2021-ci ildə tapılıb və 8 may tarixində Daşkəsəndə dəfn olunub.

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu, baş əsgər Vəkilov Elməddin Nizami oğlunun nəşi Daşkəsən Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Elməddin Vəkilov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Vəlişov Elməddin Fuad oğlu** 1996-cı il martın 21-də Cəlilabadda anadan olub.

Əsgər Elməddin Vəlişov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Qubadlı eləcə də Xocavəndin bir sıra kəndlərinin işğaldan azad olunması uğrunda gedən döyüş əməliyyatlarında öz şücaəti ilə fərqlənib. Elməddinin son döyüş yolu isə Qubadlı istiqamətində olub , 11 noyabr 2020-ci ildə şəhid olub.

Elməddin Vəlişov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Vəlişov Zahir Arif oğlu** 1983-cü il fevralın 17-də Beyləqan rayonunun Kəbirli kəndində anadan olub.

Çavuş Zahir Vəlişov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zahir Vəlişov sentyabrın 29-da Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunun Kəbirli kəndində dəfn olunub.

Zahir Vəlişov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Vəliyev Anar Həmzə oğlu** 2002-ci il iyulun 21-də Qazax rayonunun Orta Salahlı kəndində anadan olub.

Əsgər Anar Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Anar Vəliyev oktyabrın 11-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Orta Salahlı kəndində torpağa tapşırılıb.

Anar Vəliyev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vəliyev Ayxan Kamil oğlu** 1995-ci il 14 dekabrda Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olub.

Əsgər Ayxan Vəliyev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsinə könüllü olaraq qoşulub. Şuşanın azad olunması uğrunda döyüşlərdə iştirak edib. Ayxan Vəliyev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Dağ Kəsəmən kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vəliyev Azər Vəli oğlu** 1998-ci il sentyabrın 20-də Ağdaş rayonunun Ləki kəndində anadan olub.

Əsgər Azər Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Azər Vəliyev oktyabrın 17-də Ağdərə istiqamətində şəhid olub. Ağdaş rayonunda dəfn olunub.

Azər Vəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Vəliyev Balaqardaş Fərhad oğlu** 24 mart 2002-ci ildə Masallı rayonunun Viləş kəndində anadan olub.

Əsgər Balaqardaş Fərhad oğlu Vəliyev 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı böyük mərdliklə döyüşüb. Talış kəndi istiqamətində gedən döyüşlərdə ayağından yaralanıb və müalicə üçün hospitala göndərilib. Qısamüddətli müalicədən sonra şəxsi müraciəti ilə yenidən döyüş meydanına atılıb. Beləliklə, gənc əsgər Oktyabrın 1-də Hadrut istiqamətində gedən döyüşlərin birində düşmənin snayper atəşinə tuş gələrək şəhidlik zirvəsinə ucalıb. Şəhidin nəşi 15 dekabr 2020-ci il tarixində doğulduğu Viləş kənd qəbiristanlığında izdihamla torpağa tapşırılıb.

O, ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Vəliyev Elmir Məmmədqulu oğlu** 1986-cı il aprelində 13-də Füzuli rayonunun Kərimbəyli kəndində anadan olub.

Kiçik çavuş Elmir Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elmir Vəliyev oktyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Füzuli rayonunun Kərimbəyli kəndində dəfn olunub.

Elmir Vəliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Vəliyev Elnur Əli oğlu** 1997-ci il aprelin 14-də Ucar şəhərində anadan olub.

Leytenant Elnur Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur Vəliyev oktyabrın 27-də Xocavənd döyüşləri zamanı şəhid olub. Ucar şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Elnur Vəliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vəliyev Elnur Mirsiyab oğlu** 30 avqust 1999-cu ildə Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub.

MAHHXHQ əsgər Vəliyev Elnur 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. 29 sentyabr 2020-ci il tarixində Murov istiqamətində gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhid olub.

Elnur Vəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Vəliyev Elyar Arif oğlu** 1991-ci il oktyabrın 17-də Qobustan rayonunun Sədəfli kəndində anadan olub.

Gizir Elyar Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 19-da Qubadlı döyüşləri zamanı şəhid olub.

Elyar Vəliyevə "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

Elyar Vəliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vəliyev Fərid Güloğlan oğlu** 1993-cü il sentyabrın 1-də Beyləqan rayonunun Əhmədli kəndində anadan olub.

MAHHXHQ əsgər Fərid Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Fərid Vəliyev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Fərid Vəliyev ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.




**Vəliyev Hidi Bəxtiyar oğlu** 1994-cü il martın 2-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndində anadan olub.

MAHHXHQ əsgər Hidi Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Hidi Vəliyev Vətən müharibəsinin ilk günündə Tərtər-Suqovuşan uğrunda gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vəliyev İlkin Səfail oğlu** 1996-cı il mayın 18-də Goranboy rayonunun Qızılhacılı qəsəbəsində dünyaya göz açıb.

Əsgər İlkin Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Suqovuşan istiqamətində gedən döyüşlərdə vuruşaraq qəhrəmancasına şəhid olub. Şəhidimizin nəşi neytral zonada olduğundan onu oktyabrın 26-sı doğulub boya-başa çatdığı Goranboy rayonunun Qızılhacılı qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Vəliyev İlqar Cahid oğlu** 12 oktyabr 1973-cü ildə Bakı şəhərində doğulub.

Baş leytenant İlqar Vəliyev 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsinə könüllü olaraq kəşfiyyatçı kimi qatılıb. Cəbrayıl-Füzuli istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib. Şəhid olmazdan 1 həftə əvvəl yaralı əsgərini xilas edərkən ayağından yaralanır, lakin israrla yenidən döyüşə qayıdıb. Oktyabrın 21-də Vətən müharibəsinin Füzuli cəbhəsində gedən döyüşlərdə düşmənlə əlbəyaxa döyüşüb, bir əliylə düşməni boğarkən, digər əliylə onu bıçaqlayaraq məhv edib. Elə həmin gün qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vəliyev İsmayıl Mehman oğlu** 24 mart 1993-cü ildə Naxçıvan şəhərində anadan olub. Baş leytenant İsmayıl Vəliyev 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın və Şuşa istiqamətində gedən döyüşlərdə tankıyla birlikdə şücaətlə xidmət edib. İsmayıl Vəliyevin xüsusən Zəngilanın işğaldan azad edilməsində önəmli xidmətləri olub. Döyüşlərin birində Vəliyevin tankı vurulub, özü isə yüngül yaralansa da sağalmağı gözləmədən 3 nəfər komanda heyəti ilə birgə, başqa tankla Laçın istiqamətində gedən döyüşlərə qatılıb. Ancaq noyabrın 5-də onun tankı Şuşa istiqamətində gedən döyüşlərdə yenidən vurulub. Raket birbaşa tankın üzərinə düşdüyü üçün qəhrəman hərbçimiz tank heyəti ilə birgə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Vəliyev Məhəmməd Nail oğlu** 27 iyun 1996-cı ildə Masallı rayonunun İmanlı kəndində anadan olub.

Əsgər Məhəmməd Vəliyev 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı Füzuli və Qubadlı rayonlarının alınması uğrunda gedən döyüşlərdə düşmənlərə qarşı böyük mərdliklə döyüşərək şəhidlik zirvəsinə ucalıb.

Məhəmməd Vəliyevin nəşi 23 oktyabr 2020-ci il tarixində Sarıcəfərli kənd qəbiristanlığında izdihamla torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vəliyev Murad Süleyman oğlu** 11 fevral 1997-ci ildə dünyaya gəlib.

Əsgər Murad Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Murad Vəliyev sentyabrın 27-də şəhid olub. Biləcəri qəsəbəsində dəfn olunub.

Murad Vəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Vəliyev Müslüm Vəliağa oğlu** 2001-ci il iyulun 7-də Bakı şəhərinin Şüvəlan qəsəbəsində dünyaya göz açıb.

Əsgər Müslüm Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. O, Tərtər rayonu ərazisində yerləşən Suqovuşan uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Müslüm Vəliyev ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vəliyev Nurlan Habil oğlu** 1994-cü il aprelin 4-də Tovuz rayonunun Qovlar kəndində anadan olub.

Əsgər Nurlan Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Sentyabrın 29-da Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. Dekabrın 25-də dəfn olunub.



**Vəliyev Oruc Ramiz oğlu** 1994-cü il iyulun 13-də Gəncə şəhərində anadan olub.

Əsgər Oruc Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı şücaətlə döyüşüb, Murov zirvəsinin işğaldan azad edilməsində yaxından iştirak edib.

1 oktyabr 2020-ci il tarixində yaralı yoldaşını döyüş bölgəsindən çıxarmaq istəyərkən şəhidlik zirvəsinə yüksəlib. Uzun müddət nəşi tapılmayıb. Dekabrın 18-də Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Vəliyev Ramazan Hilal oğlu** 18 iyun 1995-ci ildə Türkmənistanın Aşqabad şəhərində anadan olub.

MAHHXHQ çavuş Ramazan Vəliyev 2020-ci ilin sentyabr ayının 27-də başlanan Vətən müharibəsinə qoşulur. Füzuli uğrunda gedən döyüşlərdə düşmənə qarşı böyük mərdliklə döyüşüb.

İgid döyüşçü qəhrəmanlığı ilə öz adını tarixə yazdı. Ramazan Vəliyev noyabrın 29-da Şuşa istiqamətində şəhid olub. Masallı rayonunun Şərəfə kəndində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Vəliyev Sadiq Ayaz oğlu** 2001-ci il fevralın 19-da Ağdaş rayonunun Xosrov kəndində anadan olub.

Əsgər Sadiq Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

Oktyabrın 3-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

Sadiq Vəliyev ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə" və "Şücaətə görə" medalları ilə təltif edildi.



**Vəliyev Sehran Nizami oğlu** 23 fevral 1993-cü ildə Biləsuvar rayonunun Nəsimi kəndində anadan olub.

Gizir Sehran Vəliyev 27 sentyabr 2020-ci il Füzuli, Ağdərə, Qubadlı istiqamətindəki əməliyyatlarda və döyüşlərdə iştirak edib və 2 oktyabr 2020-ci ildə Füzuli istiqamətindəki ağır döyüşlərin birində qəhrəmanlıqla vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

Sehran Vəliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vəliyev Əli Kamran oğlu** 2002-ci il iyunun 6-da Sumqayıt şəhərində dünyaya gəlib.

Əsgər Əli Vəliyev 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində iştirak edib, Goranboy rayonu istiqamətində gedən döyüşlərdə yaxından iştirak edib.

Sentyabrın 30-da Goranboy rayonu Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən odlu silahla və digər silah növlərindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

Vəliyev Əli Kamran oğlu ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Vəlizadə İbrahim Malik oğlu** 1997-ci il aprelin 2-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunda anadan olub.

Leytenant İbrahim Vəlizadə 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində Murovdağ, Suqovuşan istiqamətində bir çox yerlərdə döyüşüb. Murovdağa ilk bayraq sancanlardan olub.

Oktyabr ayının 6-da Suqovuşan istiqamətində gedən döyüşlərdə yaralı yoldaşını çıxararkən, snayper güllәsinə tuş gəlib. İlk dəfə qarın nahiyəsindən, sonra isə başından vurulub. Oktyabrın 6-da şəhid olan qəhrəmanımızın nəşi noyabrın 30-da yoldaşının ad günündə ailəsinə təhvil verilib.

O, ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.






**Vəliyev Şəmsəddin Adil oğlu** 22 yanvar 2001-ci ildə Sabirabad rayonunun Dadaşbəyli kəndində dünyaya göz açıb.

Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri olan Şəmsəddin Vəliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak edib. Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə vuruşub. 21 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Tuğ kəndi istiqamətində gedən döyüşlərdə şəhid olub.

Şəmsəddin Vəliyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Vəliyev Tural İlham oğlu** 9 may 2001-ci ildə İmişli rayonunun Xəlfəli kəndində anadan olub.

Əsgər Tural Vəliyev sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Tural Vəliyev 27 sentyabr 2020-ci ildə Murovdağ istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Tural Vəliyev ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vəliyev Vüqar Emin oğlu** 22 oktyabr 1995-ci ildə Ağdam rayonunun Rzalar kəndində anadan olub.

Əsgər Vüqar Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlərdə vuruşub. 17 oktyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan qəsəbəsi yaxınlığında xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vəliyev Vüsal İslam oğlu** 1988-ci il iyulun 15-də Şərur rayonunun Dizə kəndində anadan olub.

Mayor Vüsal Vəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal Vəliyev noyabrın 9-də Şuşa döyüşləri zamanı şəhid olub. Şərur şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Vüsal Vəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Vəlixanov Rövşən Aydın oğlu** 1994-cü il oktyabrın 15-də Tovuz rayonunun Qaraxanlı kəndində anadan olub.

Əsgər Rövşən Vəlixanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Rövşən Vəlixanov oktyabrın 2-də Murovdağ döyüşləri zamanı itkin düşüb. Dekabrın 18-də şəhid olduğu müəyyənləşib. Tovuz rayonunun Qaraxanlı kəndində dəfn olunub.



**Vəlizadə Anar Afət oğlu** 1994-cü il iyulun 3-də Salyan rayonunun Cəngan kəndində anadan olub.

Baş çavuş Anar Vəlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Anar Vəlizadə noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Salyan rayonunda dəfn olunub.

Anar Vəlizadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vəlizadə Faiq Bayraməli oğlu** 1997-ci il fevralın 1-də Zərdab rayonunun Əlicanlı kəndində anadan olub.

Gizir Faiq Vəlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Faiq Vəlizadə oktyabrın 17-də Suqovuşan döyüşləri zamanı şəhid olub.


Faiq Vəlizadə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vəlizadə Kamran Əkpər oğlu** 14 sentyabr 1996-cı ildə Lənkəran rayonunun Balıqçılar qəsəbəsində anadan olub.

Əsgər Kamran Vəlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak edib. Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Kamran Vəlizadə 23 oktyabr 2020-ci ildə Qubadlı rayonu istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.





**Verdiyev Bəhman Dilqəm oğlu** 1995-ci il oktyabrın 12-də Tovuz rayonunun Çeşməli kəndində anadan olub.

Əsgər Bəhman Verdiyev Binəqədi rayonunun Mehdiabad qəsəbəsində boya-başa çatıb. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günlərindən qardaşı ilə birlikdə orduya könüllü olaraq müraciət edib və müharibəyə yollanıb. Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Laçın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Bəhman Verdiyev noyabrın 9-da Laçın istiqamətində gedən döyüşlər zamanı şəhid olub.

Bəhman Verdiyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Verdiyev Elburus İlyas oğlu** 1993-cü il mayın 1-də Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olub.

Əsgər Elburus Verdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə könüllü olaraq qatılıb. O, Füzuli və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Elburus Verdiyev noyabrın 6-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub. Tovuz rayonunun Aşağı Quşçu kəndində dəfn olunub.

Elburus Verdiyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Verdiyev Eldəniz Rabil oğlu** 1999-cu il oktyabrın 4-də Göygöl şəhərində anadan olub.

Əsgər Eldəniz Verdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Eldəniz Verdiyev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı itkin düşüb. Eldəniz Verdiyevin nəşi 2021-ci il iyunun 4-ü tapılıb və ailəsinə təhvil verilib. İyunun 5-də Göygöl şəhər Şəhidlər Xiyabanında torpağa tapşırılıb.



**Verdiyev İsax Ədalət oğlu** 1997-ci il sentyabrın 21-də Tərtər şəhərində anadan olub. Evin tək övladı idi.

Əsgər İsax Verdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Oktyabrın 5-də Füzuli rayonu istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Verdiyev Natiq Əlimurad oğlu** 1995-ci il fevralın 5-də Xızı rayonunun Xələc kəndində anadan olub.

Gizir Natiq Verdiyev 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Sentyabrın 27-də döyüş yoldaşları ilə birlikdə işğaldan azad olunan Murov yüksəkliyinə bayrağımızı azan səsləri altında sancaraq xalqımıza ilk qələbə sevincini yaşadıb. Natiq çətin şərtlərdə, soyuq havada 3 gün ac-susuz qalaraq bayrağı müdafiə edib və bayrağın müdafiəsi uğrunda gedən döyüşlərdə oktyabrın 1-də qəhrəmancasına şəhid olub. Oktyabrın 3-də Xələnc kənd qəbiristanlığında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Veyisli Xaliddin Zəkər oğlu** 1981-ci il sentyabrın 14-də Qazax şəhərində anadan olub.

MAHHXHQ çavuş Xaliddin Veyisli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xaliddin Veyisli oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub. Qazax şəhərində dəfn olunub.

Xaliddin Veyisli ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Veyisov Kərəm Səttər oğlu** 1998-ci il dekabrın 11-də Xaçmaz şəhərində anadan olub.

Əsgər Kərəm Veyisov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kərəm Veyisov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub.

Kərəm Veyisov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Vəzirov Cəlal Bədirxan oğlu** 5 dekabr 1993-cü ildə Beyləqan rayonunun Qarallar kəndində anadan olub.

Əsgər Cəlal Vəzirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub.

Cəlal Vəzirov 3 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Xaməmmədov Şirxan Xaməmməd oğlu** 1998-ci il fevralın 9-da Şamaxı rayonunun Məlikçobanlı kəndində anadan olub.

MAHHXHQ əsgər Şirxan Xaməmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Qubadlı, Zəngilan və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə snayperçi kimi iştirak edib.

Şirxan Xaməmmədov noyabrın 3-də Şuşa döyüşləri zamanı şəhid olub. Şamaxı rayonunun Məlikçobanlı kəndində torpağa tapşırılıb.

Şirxan Xaməmmədov ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xanalıyev Ziyəddin Ariz oğlu** 1999-cu il yanvarın 16-da Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olub.

Əsgər Ziyəddin Xanalıyev 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsinə könüllü olaraq qatılıb. Düşmən tapdağı altında olan torpaqlarımızın erməni işğalından azad olunması uğrunda həyata keçirilən bir sıra uğurlu hərbi əməliyyatlarda fəal iştirak edib. Ziyəddin Xanalıyev ağır döyüşlərdə belə şücaətlər göstərib. O, 6 noyabrda Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhid olub.

O, ölümündən "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xancanov Təbriz Məhəmmədəli oğlu** 1996-cı il iyunun 9-da Göyçay rayonunun Qəbələ Müsgürlü kəndində anadan olub.

Əsgər Təbriz Xancanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Təbriz Xancanov oktyabrın 19-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Göyçay rayonunda dəfn olunub.

Təbriz Xancanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Xankişiyev Fuad Şöhrət oğlu** 12 iyun 1996-cı ildə Mingəçevir şəhərində anadan olub.

Əsgər Fuad Xankişiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd istiqamətindəki döyüşlərdə fəal iştirak edərək şücaət göstərib. Noyabrın 4-də Xocalı rayonunun Çanaqçı kəndi uğrunda gedən döyüşlərdə şəhid olub.

Şəhid 6 noyabr tarixində Mingəçevir Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

**Xankişiyev Mədət Vəkil oğlu** 1998-ci il yanvarın 15-i Cəlilabad rayonunun Çünzəli kəndində dünyaya göz açıb.

Gizir Mədət Xankişiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Kəlbəcər, Cəbrayıl və Xocavənd rayonunun işğaldan azad olunmasında xüsusi rəşadət, şücaət və qorxmazlıq nümayiş etdirib.

Oktyabrın 15-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhidlik zirvəsinə ucalıb.


O, ölümündən sonra "Rəşadət" və "Azərbaycan Bayrağı" ordenləri, "İgidliyə görə", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Xankişiyev Nicat Aşur oğlu** 27 yanvar 1999-cu il tarixində Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olub.

Əsgər Nicat Xankişiyev 21 sentyabr 2020-ci il tarixində cəbhəyə yollanıb. O, 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb, Füzuli, Cəbrayıl, Suqovuşan, Xocavənd, Qubadlı, Hadrut döyüşlərində yaxından iştirak edib. N.Xankişiyev 7 oktyabr 2020-ci il tarixində Hadrut uğrunda gedən döyüşlərdə şəhid olub və Həsənabad qəsəbəsində dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xasayev Elmədin Qoçu oğlu** 12 fevral 1980-ci ildə Beyləqan rayonunun Milabad kəndində dünyaya göz açıb.

Çavuş Elməddin Xasayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçiləri döyüş meydanından çıxarıb. Elməddin Xasayev sentyabrın 27-də müharibənin birinci saatlarında Füzuli döyüşləri zamanı Qaraxanbəyli istiqamətində gedən şiddətli döyüşlər nəticəsində şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. Dekabrın 31-də nəşi tapılaraq ailəsinə təhvil verilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Xasıyev Röyal Abuzər oğlu** 1993-cü il aprelin 19-da Şəki rayonunun İkinci Biləcik kəndində anadan olub.

Baş leytenant Röyal Xasıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Röyal Xasıyev oktyabrın 7-də Füzuli döyüşləri zamanı şəhid olub. Şəki rayonunun İkinci Biləcik kəndində dəfn olunub.

Röyal Xasıyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Xələfli Mahir Muxtar oğlu** 8 aprel 2001-ci ildə Sumqayıt şəhərində anadan olub.

Əsgər Mahir Xələfli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Mahir Xələfli 27 sentyabr 2020-ci ildə Murovdağ istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilib.

Mahir Xələfli ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Xələfov Cəmil Fikrət oğlu** 1997-ci il fevral ayının 25-də Quba rayonunun Nərimanabad kəndində anadan olub.

Əsgər Cəmil Xələfov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə savaşıb. Cəmil oktyabrın 5-də Füzulinin Alxanlı kəndinin azad olunması zamanı qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Xələfov Nicat İlqar oğlu** 2001-ci il avqustun 4-də Siyəzən şəhərində anadan olub.

Kiçik çavuş Nicat Xələfov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına savaşıb. Füzuli, Cəbrayıl, Xocavənd rayonu Sığnaq kəndi istiqamətlərində döyüşlərdə rəhbərlik etdiyi döyüş maşının heyəti ilə düşmənin xeyli sayda canlı qüvvəsini artilleriya atəşləri ilə məhv edib. Siyəzən şəhərində dəfn olunub.

O, ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xəlilbəyli Turqut Nadir oğlu** 1993-cü il iyulun 4-də Şərur şəhərində anadan olub.

T/X leytenantı Turqut Xəlilbəyli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə yaralanan hərbçilərə yerindəcə yardım edib. Turqut Xəlilbəyli oktyabrın 7-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Turqut Xəlilbəyli ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Xəlili Samir Əhməd oğlu** 1997-ci il sentyabrın 6-da Bakıda doğulub.

Əsgər Samir Xəlili 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb.

Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən sentyabrın 9-da şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xəlilli Murad Vəli oğlu** 1994-cü il iyulun 14-də Şərur rayonunun Çomaxtur kəndində anadan olub.

Kiçik çavuş Murad Xəlilli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Murad Xəlilli oktyabrın 30-da Xocavənd döyüşləri zamanı şəhid olub. Şərur rayonunun Çomaxtur kəndində dəfn olunub.

Murad Xəlilli ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xəlilli Namiq Həsən oğlu** 1994-cü il fevral ayının 25-də Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Azadkənd kəndində dünyaya göz açıb.

Baş leytenant Namiq Xəlilli 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsinə qatılan qəhrəmanımız 23 oktyabr 2020-ci il tarixində Laçın istiqamətində gedən döyüşlərdə şəhid olub.

Döyüşlərdə böyük uğurlar əldə edən Namiq Xəlilli və dostları bir çox erməni postunu darmadağın edib.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xəlilli Nicat Əli oğlu** 1994-cü il dekabrın 9-da Zaqatala rayonunun Muğanlı kəndində anadan olub.

Əsgər Nicat Xəlilli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər və Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Nicat Xəlilli oktyabrın 9-da Goranboy rayonu Gülüstan kəndi istiqamətində hərbi əməliyyatlar zamanı şəhid olub. Zaqatala rayonunun Muğanlı kəndində torpağa tapşırılıb.

Nicat Xəlilli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə də təltif edildi.






**Xəlilov Ayaz Qnyaz oğlu** 1998-ci il yanvarın 25-də Ucarda doğulub.

Əsgər Ayaz Xəlilov 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ Müharibəsi başlanan zaman könüllü olaraq səfərbərliyə yazılıb, sentyabrın 29-da ordu sıralarına cəlb edilib. O 44 günlük Vətən müharibəsi zamanı pulemyotçu kimi düşmənə meydan oxuyub.

Oktyabrın 6-da Tərtər-Ağdərə istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

Qəhrəmanımız ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Xəlilov Ələddin Əlizaman oğlu** 2001-ci il iyunun 29-da Qobustan qəsəbəsində dünyaya gəlib.

Əsgər Ələddin Xəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Goranboy rayonunun Tapqaraqoyunlu kəndi istiqamətində döyüşüb.

Oktyabrın 1-də Tapqaraqoyunlu, Kəhrilər xarabalığı istiqamətində düşmən tərəfindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.




**Xəlilov Ceyhun Azər oğlu** 2001-ci il sentyabrın 22-də Ağsu rayonu Padarqışlaq kəndində anadan olub.

Əsgər Ceyhun Xəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə şücaətlə vuruşub.

Sentyabrın 28-də Tərtərin Talış kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Xəlilov Coşqun Mikayıl oğlu** 1998-ci il oktyabrın 29-da Neftçala rayonunun Xol Qaraqaşlı kəndində anadan olub.

Leytenant Coşqun Xəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Coşqun Xəlilov oktyabrın 5-də Füzuli döyüşləri zamanı şəhid olub. Neftçala rayonunda dəfn olunub.

Coşqun Xəlilov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Xəlilov Elnur Ramiz oğlu** 1990-cı il aprelin 21-də Beyləqan rayonunun Bolsulu qəsəbəsində anadan olub.

Kiçik çavuş Elnur Xəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərib. Elnur Xəlilov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub.

Elnur Xəlilov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Xəlilov Fəryad Fəxri oğlu** 1 noyabr 1999-cu il tarixində Ağcabədi rayonunun Hüsülü kəndində dünyaya göz açıb.

Əsgər Fəryad Xəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərdə şücaətlə vuruşub.

O, Vətən müharibəsində Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Qəhrəmanımız 27 oktyabr 2020-ci il tarixində Ağcabədi şəhərinin Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xəlilov Gülşad Elşad oğlu** 2001-ci il martın 27-də Masallı rayonunun Kürdəbazlı kəndində anadan olub.

Əsgər Gülşad Xəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Gülşad Xəlilov oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub. Qəhrəmanımız Masallı rayonunda dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Xəlilov Hüseyn Rasim oğlu** 2002-ci il martın 27-də Sabunçu rayonunun Nardaran qəsəbəsində dünyaya göz açıb.

Əsgər Hüseyn Xəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində böyük şücaətlə vuruşub.

O, noyabrın 7-də Şuşa uğrunda gedən döyüşlərdə ağır yaralanıb və komaya düşüb. 5 ay mübarizə aparandan sonra aprelin 25-də şəhidlik məqamına yüksəlib. Xəlilov Hüseynin nəşi Nardaran qəsəbəsinə gətirilərək torpağa tapşırılıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Xəlilov Nadir Ağadadaş oğlu** 1984-cü il noyabrın 3-də Astara rayonunun Artupa kəndində anadan olub.

Gizir Nadir Xəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nadir Xəlilov sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub.

Nadir Xəlilov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

Şəhid Nadir Xəlilova məxsus materiallar ailəsi tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fonduna təhvil verilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xəlilov Namiq İlyas oğlu** 1992-ci il iyunun 15-də Şirvan şəhərində anadan olub.

Gizir Namiq Xəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə, həmçinin Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Namiq Xəlilov oktyabrın 16-da Murovdağ döyüşləri zamanı şəhid olub.

Namiq Xəlilov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xəlilov Ruhin Müzəffər oğlu** 1987-ci il aprelin 13-də Cəbrayıl rayonunun Məzrə kəndində anadan olub.

Əsgər Ruhin Xəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

Ruhin Xəlilov 21 oktyabr 2020-ci ildə Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. II Fəxri Xiyabanda dəfn edilib.

O, "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Xəlilov Vidadi Vaqif oğlu** 1982-ci il iyulun 16-da Göyçayda ziyalı ailəsində doğulub.

Polkovnik-leytenant Vidadi Xəlilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vidadi Xəlilov oktyabrın 31-də Laçın döyüşləri zamanı məşhur Laçın Dəhlizində şəhid olub. Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Murovdağ zirvəsinin, Qubadlı, Füzuli, Cəbrayıl və Zəngilanın azad olunması uğrunda gedən döyüşlərdə 100-dən çox erməni əsgərini və zabitini məhv edib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.

**Xəmmədov Əmral Zaur oğlu** 2 oktyabr 2001-ci ildə İmişli rayonunun Çaxırlı kəndində dünyaya göz açıb.

Əsgər Əmral Xəmmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Murovdağ və Cəbrayıl döyüşlərində vuruşub. Cəbrayılın girişində bayraq dalğalandırıb. Əmral Xəmmədov 15 oktyabr 2020-ci ildə Hadrutun azad olunması uğrunda gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Əmral Xəmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Xəncəlov Ümüd Radif oğlu** 10 aprel 1994-cü ildə Qusar rayonunun Hil kəndində anadan olub.

MAHHXHQ əsgər Ümüd 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

O oktyabrın 6-da Füzuli rayonunun Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub. Qusar rayonunda dəfn olunub.

Ümüd "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xeyirbəyov Malik Samik oğlu** 19 mart 2002-ci ildə Qusar rayonunun Cibir kəndində dünyaya göz açıb.

Əsgər Malik Xeyirbəyov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində kəşfiyyatçı olaraq iştirak edib. Füzuli, Cəbrayıl, və Hadrut döyüşlərində vuruşub. Malik Xeyirbəyov 26 oktyabr 2020-ci ildə Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Malik Xeyirbəyov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xeyrullayev Cəlil Mürvət oğlu** 1989-cu il mayın 16-da Quba rayonunun II Nügədi kəndində anadan olub.

Çavuş Cəlil Xeyrullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə, həmçinin Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cəlil Xeyrullayev oktyabrın 15-də Füzuli döyüşləri zamanı şəhid olub. Quba rayonunda dəfn olunub.

Cəlil Xeyrullayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Xıdırov Elgün Fuad oğlu** 1989-cu il dekabrın 23-də Goranboy rayonunun Xoylu kəndində anadan olub.

Baş leytenant Elgün Xıdırov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elgün Xıdırov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Goranboy rayonunun Xoylu kəndində dəfn olunub.

Elgün Xıdırov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xıdırov Ərəstun Arif oğlu** 1998-ci ildə martın 18-də Bərdə rayonunda dünyaya gəlib.

MAHHXHQ əsgər Ərəstun Xıdırov sentyabrın 27-də başlanan Vətən müharibəsində Suqovuşanın azad edilməsində aktiv şəkildə iştirak edib. Oktyabrın 15-də müharibənin qızğın dövründə Suqovuşan istiqamətində döyüşlər nəticəsində şəhid olub.

Xıdırov Ərəstun Arif oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Xosizadə Müşfiq Zakir oğlu** 1993-cü il aprelin 14-də Biləsuvar rayonunun Günəşli kəndində anadan olub.

Gizir Müşfiq Xosizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sentyabrın 27-da Füzuli döyüşləri zamanı şəhid olub.

Müşfiq Xosizadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Xosrovzadə İlkin Azay oğlu** 1 dekabr 1997-ci ildə Abşeron rayonunun Ceyranbatan qəsəbəsində anadan olub.

Kiçik gizir İlkin Xosrovzadə Füzuli və Cəbrayıl istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Zəngilan şəhəri və ətraf ərazilərin, İran İslam Respublikası ilə dövlət sərhədinin işğaldan azad olunmasında rəşadət göstərib. Oktyabrın 22-də Zəngilan rayonu ərazisində Sığırd yuksəkliyinin azad olunması uğrunda döyüşdə başından qəlpə yarası alan İlkini xilas etmək mümkün olmayıb və o qəhrəmancasına şəhid olub. 25 oktyabr 2020-ci il tarixində Sulutəpə qəsəbəsində dəfn edilib.

O, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Xudaverdiyev Mahmud Əhməd oğlu** 2001-ci il iyulun 19-da Zaqatala rayonunun Dardoqqaz kəndində anadan olub.

Əsgər Mahmud Xudaverdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Mahmud Xudaverdiyev oktyabrın 17-də 530 yüksəkliyində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub. Zaqatala rayonunun Dardoqqaz kəndində torpağa tapşırılıb.

Mahmud Xudaverdiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.




**Xudayev Yaşar Əli oğlu** 1999-cu il noyabrın 1-də Quba şəhərində anadan olub.

Əsgər Yaşar Xudayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. Yaşar Xudayev sentyabrın 27-də Göygöl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub. Quba şəhərində dəfn olunub.

Yaşar Xudayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalı ilə təltif edildi.



**Xudiyev Mütalib Ələsgər oğlu** 03 mart 1993-cü il tarixdə Göyçay rayon Bəydövülü kəndində anadan olub.

Əsgər Mütalib Xudiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində bir sıra qəhrəmanlıqlar göstərib. Noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Döyüşlərdə göstərdiyi şücaətə görə, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xudiyev Toğrul Habil oğlu** 1999-cu il dekabrın 29-da Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində anadan olub.

Əsgər Toğrul Xudiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Toğrul Xudiyev noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunda dəfn olunub.

Toğrul Xudiyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.





**Xudiyev Tural Rəfayıl oğlu** 1998-ci il noyabrın 27-də Bakı şəhərində anadan olub. Əsgər Tural Xudiyev hərbi xidmətinin bitməsinə dörd gün qalmış 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşmağa başlayıb. Tural Xudiyev Vətən müharibəsi zamanı Kəlbəcərin, Suqovuşanın, Ağdərənin, Hadrutun, Cəbrayılın, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Daşaltı və digər istiqamətində gedən döyüşlərdə yaralı hərbçilərə döyüş meydanında tibbi yardımın göstərilməsində, həmçinin döyüş meydanından təxliyə edilməsində fərqlənib. Tural Xudiyev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Ağdam rayonunun Quzanlı qəsəbəsində dəfn olunub.

Tural Xudiyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Xurşudov Nazir Müxənnət oğlu** 1985-ci il fevralın 1-də Xaçmaz rayonunun Çaykənarı kəndində anadan olub.

Kiçik çavuş Nazir Xurşudov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Ağdam, Füzuli, Cəbrayıl və Xocavənd rayonları uğrunda gedən hərbi əməliyyatlarda iştirak edib. O, oktyabrın 21-də Xocavənd istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Şəhidimiz oktyabrın 28-də doğulduğu Xaçmaz rayonunun Çaykənarı kəndində dəfn olunub.

O, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Yaqublu Əliqismət Mükafat oğlu** 1992-ci il aprelin 18-də Lerik rayonunun Kələxan kəndində anadan olub. Baş leytenant Əliqismət Yaqublu 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Murovdağ yüksəkliyi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonunun və Laçının bir neçə kəndlərinin işğaldan azad olunmasında xüsusi qəhrəmanlıq göstərib. Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsini məhv edərək sıradan çıxarıb. Noyabrın 5-də Şuşa uğrunda gedən döyüşlərdə, Daşaltı kəndində qəhrəmancasına şəhid olub. Lerik rayonunun Kələxan kəndində dəfn olunub. O, "Azərbaycan Bayrağı ordeni", "Vətən müharibəsi iştirakçısı", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" , "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Şücaətə görə" və "Vətən uğrunda"medalları ilə təltif edildi.



**Yaqubov Mayis Rəhim oğlu** 1998-ci il aprelin 20-də Qazax rayonunun Daş Salahlı kəndində anadan olub.

Leytenant Mayis Yaqubov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mayis Yaqubov oktyabrın 17-də Xocavənd döyüşləri zamanı şəhid olub. Qazax rayonunda dəfn olunub.

Mayis Yaqubov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Yaqubov Yaqub İlham oğlu** 1997-ci ildə iyunun 1-də Bərdə rayonunun Kələntərli kəndində doğulub.

MAHHXHQ əsgər Yaqub Yaqubov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılıb. Talış -Suqovuşan bölgəsində böyük qəhrəmanlıqlara imza atıb. Oktyabrın 15-də elə bu istiqamətdə gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Yaqub Yaqubov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.



**Yaqubzadə Yaqub Eldəniz oğlu** 1999-cu il aprelin 22-də Bərdə rayonunun Alaçadırlı kəndində anadan olub.

Əsgər Yaqub Yaqubzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib və oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub. Xəzər rayonunun Qala qəsəbəsində dəfn olunub.


Yaqub Yaqubzadə ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Yarıyev Elsevər Qalib oğlu** 1986-cı il sentyabrın 25-də Xudat şəhərində anadan olub.

MAHHXHQ çavuş Elsevər Yarıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə sentyabrın 28-i qatılıb. Elə həmin ayın 30-u Füzuli rayonunun Alxanlı kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub. Onun nəşi bir aydan sonra tapılaraq Xudat şəhərində dəfn edilib.

Elsevər Yariyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Azad Nizami oğlu Yolçuyev** 1985-ci il aprelin 11-də Ağstafa rayonunun Ağstafa kəndində anadan olub.

Gizir Azad Yolçuyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ döyüşlərində, həmçinin Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Azad Yolçuyev noyabrın 4-də Şuşa döyüşləri zamanı Daşaltı istiqamətində şəhid olub. Ağstafa rayonunda dəfn olunub.

Azad Yolçuyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.






**Yoldaşov Alim Mirzə oğlu** 1997-ci ilin mart ayının 10-da Biləsuvar rayonunun Nəsimikənd kəndində anadan olub.

Əsgər Alim Yoldaşov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulidən başladığı döyüşlərdə peşəkar pulemyotçu kimi düşmənə qan uddurub. Bir ay boyunca Xocavənd, Hadrut istiqamətində düşmənin xeyli sayda canlı qüvvəsini və ön xəttə yerləşən artilleriya və minaatan batareyalarını dəqiq atəşlə məhv edib. Alim Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində oktyabrın 28-i şəhid olub və Biləsuvar rayonunun Nəsimikənd kənd məzarıstanlığında dəfn olunub.

Alim Yoldaşov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Yunisli Elşən Fazil oğlu** 1995-ci il oktyabrın 22-də Şəmkir rayonunun Təzəkənd kəndində anadan olub.

Əsgər Elşən Yunisli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Elşən Yunisli Murovdağ döyüşləri zamanı döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Uzun müddət tapıla bilməyib. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunub. Onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülüb. Onun nəşi 26 iyun 2020-ci ildə tapılıb və ailəsinə təhvil verilib. 27 iyun tarixində Şəmkir rayonunun Təzəkənd kəndində dəfn olunub.



**Yunisli Ruslan Elçin oğlu** 1996-cı il oktyabrın 10-da Beyləqan rayonunun Təzəkənd kəndində dünyaya göz açıb.

MAHHXHQ əsgər 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edib və oktyabrın 25-də Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Ruslan Yunisli ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Yunusov Alxas Mirxas oğlu** 1986-cı il yanvarın 18-də Cəlilabad rayonunun Həziabad kəndində anadan olub.

Gizir Yunusov Alxas 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edib. Talış-Suqovuşan kəndi istiqamətində düşmən tərəfindən açılan atəş, digər növ partlayışlarla, qəlpələrlə törənmiş zədələnmə nəticəsində şəhid olub. Cəlilabad şəhərində dəfn olunub.

Alxas Yunusov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Yunisov Ramil Qardaşxan oğlu** 1977-ci il mayın 26-da Beyləqan rayonunun Yeni-Mil qəsəbəsində anadan olub.

MAHHXHQ əsgər Ramil Yunisov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Artilleriya divionunun tibb məntəqəsi sürücüsü olan Ramil Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. O, noyabrın 8-də Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Ramil Yunisov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə", "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalları ilə təltif edildi.



**Yunusov Amrid Zaur oğlu** 1995-ci il oktyabrın 12-də Qusar rayonunun Əniq kəndində anadan olub.

Çavuş Amrid Yunusov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amrid Yunusov oktyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub. Qusar rayonunun Əniq kəndində dəfn olunub.

Amrid Yunusov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Yunusov Elgün Yadulla oğlu** 1986-cı il iyunun 30-da Beyləqan rayonunun Yeni Mil kəndində anadan olub.

MAHHXHQ əsgər Elgün Yunusov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Şuşa şəhəri istiqamətində gedən hərbi əməliyyatlar zamanı şəhid olub və nəşi düşmən tərəfində qalıb. Noyabrın 10-da imzalanan üçtərəfli bəyanatın 8-ci maddəsinə (Hərbi əsirlərin və digər saxlanılan şəxslərin və ölülərin cəsədlərinin mübadiləsi aparılır) əsasən nəşi qarşı tərəfdən götürülüb və ailəsinə təhvil verilib. Beyləqan rayonunda dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.




**Yunusov Murad Bayram oğlu** 2001-ci ildə Kürdəmirin Şahsevən kəndində dünyaya göz açıb.

Əsgər Murad Yunusov 2020-ci ilin sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulidən döyüşlərə başlayıb. O, Xocavəndin, Cəbrayılın, Zəngilanın, Qubadlının azad edilməsi uğrunda igidliklə vuruşub. Son döyüşü Şuşa istiqamətində olub və noyabrın 4-də şəhidlik zirvəsinə ucalıb. Şahsevən kənd qəbiristanlığında dəfn edilib.

Murad Yunusov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.






**Yusibli Böyükağa Elbrus oğlu** 2000-ci il sentyabrın 1-də Beyləqan rayonunun Kəbirli kəndində anadan olub.

MAHHXHQ əsgər Böyükağa Yusibli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Böyükağa sentyabrın 30-da Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Böyükağa Yusibli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Yusibov Elməddin Mahir oğlu** 1995-ci il aprelin 28-də Bərdə rayonunda dünyaya gəlib. O, sentyabrın 21-də hərbi xidmətə çağırılıb.

Vətən müharibəsində Talış və Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 16-da Murov yüksəkliyi istiqamətində hərbi əməliyyatlar zamanı digər növ partlayışlarla və qəlpələrlə törədilmiş zədələnmə nəticəsində şəhid olub.

Ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Yusibov Kənan Fehruz oğlu** 1999-cu ildə iyulun 10-da Goranboy rayonunun Səfikürd kəndində anadan olub.

Kiçik çavuş Kənan Yusibov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış kəndinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Ordumuzun əsgəri sentyabrın 27-də Talış kəndi uğrunda gedən döyüşlərdə şəhid olub.

Kənan Yusibov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Yusibov Rəşad Nazim oğlu** 1996-cı ildə avqustun 19-da Şəmkir rayonunda anadan olub.

MAHHXHQ əsgər Rəşad Yusibov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 1-də Kəlbəcər döyüşlərində şəhid olub.

Ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.

**Yusifbəyli Yusif Sabir oğlu** 1993-cü ilin 22 avqustunda Yevlax rayonunda doğulub.

Gizir Yusif Yusifbəyli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Yusif Yusifbəyli oktyabrın 1-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Yusif Yusifbəyli ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə medalları ilə təltif edildi.



**Yusifli Azər Nazim oğlu** 1994-cü il martın 28-də Ağstafa rayonunun Böyük Kəsik kəndində anadan olub.

Baş gizir Azər Yusifli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı, Zəngilanın azad edilməsində böyük şücaət və qəhrəmanlıq göstərib. Onun döyüşlərdə necə mətinliklə vuruşduğu, göstərdiyi rəşadəti haqqında qazi olan döyüş yoldaşları ağızdolusu danışıblar. Cəbrayıl azad ediləndə Xudafərin körpüsünün, Zəngilan azad ediləndə isə Zəngilan Prokurorluğu binasının üstünə bayrağı məhz Azər sancıb. Azər düşmənin atdığı qumbaradan ağır yaralanıb. Məsafə uzaq olduğuna görə, tibb məntəqəsinə təxliyə olunana qədər hədsiz qan itirmədən şəhid olub.

O, ölümündən sonra isə "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medallları ilə təltif edildi.



**Yusifli Məhəmməd Rəhman oğlu** 2001-ci il avqustun 23-də Qax rayonunun Almalı kəndində anadan olub.

Əsgər Məhəmməd Yusifli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış kəndinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Talış kəndi istiqamətində gedən döyüşlərdə oktyabrın 2-də qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Yusifli Müzəffər Ziyəddin oğlu** 2000-ci il 22 oktyabrda Beyləqan rayonun Kəbirli kəndində anadan olub.

MAHHXHQ çavuş Müzəffər Yusifli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli rayonu istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 9-da Füzuli uğrunda gedən döyüşdə 5-45 gülləsinin qarın boşluğuna dəyməsi nəticəsində şəhidlik zirvəsinə ucalıb. Beyləqan rayonu, Kəbirli kənd Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Ağaəli Vaqif oğlu Yusifov** 1997-ci il sentyabrın 8-də Xəzər rayonunun Mərdəkan qəsəbəsində anadan olub.

Əsgər Ağaəli Yusifov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ağaəli Yusifov oktyabrın 20-də Xocavənd döyüşləri zamanı şəhid olub. Xəzər rayonunun Mərdəkan qəsəbəsində dəfn olunub.

Ağaəli Yusifov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Yusifov Anar Sərxan oğlu** 1991-ci ilin 9 mayında Ağdam rayonunun Sarıcalı kəndində anadan olub.

Əsgər Anar Yusifov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə könüllü olaraq qatılıb, bir çox qəhrəmanlıqlar göstərərək mənfur düşməni məhv edib. O, oktyabrın 30-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub.

O, ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.



**Yusifov Əli Sülhəddin oğlu** 1997-ci il avqustun 14-də Şərur rayonunun Oğuz kəndində anadan olub.

Leytenant Əli Yusifov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əli Yusifov oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olub.

Onun nəşi uzun müddət tapıla bilməyib. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunub. 2021-ci il aprelin 29-da nəşi tapılıb və Şərur rayonunun Oğuz kəndində dəfn olunub.

Əli Yusifov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Yaqubov Hümmət Mərhəmət oğlu** 1998-ci ildə sentyabrın 4-də Hacıqabul rayonunun Meyniman kəndində anadan olub.

Əsgər Hümmət Yaqubov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı oktyabrın 9-da döyüşlərə qatılıb. Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində döyüşlərdə pulemyotçu kimi iştirak edib. Döyüş yoldaşları ilə birgə Qırmızı Bazar kəndi ətrafında mühasirəyə düşüb və qızğın döyüşlərdə son damla qanına kimi vuruşub. 22 yaşlı Hümbət oktyabrın 27-də şəhid olub və noyabrın 30-da Hacıqabul qəbiristanlığında dəfn olunub.

O, ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.

**Yusifli Özal İdris oğlu** 1992-ci il oktyabrın 11-də Yevlax şəhərinin Aşağı Qarxum kəndində anadan olub.

MAHHXHQ kiçik çavuş Özal Yusifli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış kəndinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 2-də şəhidlik zirvəsinə ucalıb.

Özal Yusifli ölümündən sonra "Cəsur döyüşçü", "Suqovuşanın azadlığına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Yusifzadə Ramil Adəm oğlu** 22 may 1998-ci ildə Bakı şəhərində anadan olub.

Baş gizir Ramil Yusifzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Ramil Yusifzadə 13 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşdə yaralanmasına baxmayaraq döyüşə davam edib. İkinci dəfə ayağından yara aldıqdan sonra ona ilkin tibbi yardım edilib. Lakin sonda qarşı tərəfin atdığı artilleriya mərmisinin dəyməsi nəticəsində həmin gün şəhidlik zirvəsinə yüksəlib.

Ramil Yusifzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Yusifov Elburus Şəmsi oğlu** 1985-ci il mayın 12-də Tovuz rayonunun Ağdam kəndində anadan olub.

Kiçik çavuş Elburus Yusifov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Elburus Yusifov oktyabrın 1-də Murovdağ döyüşləri zamanı şəhid olub. Nəşi uzun müddət tapıla bilməyib. 2020-ci il dekabrın 21-də Tovuz rayonunun Ağdam kəndində dəfn olunub.



**Yusifov Hüseyn İsaq oğlu** 12 iyul 2002-ci il tarixində Ağstafa rayonunun Poylu kəndində dünyaya gəlib.

Əsgər Hüseyn Yusifov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Sentyabrın 29-da axrıncı dəfə atasıyla danışıb və hər şeyin yaxşı olacağını bildirib.

2020-ci il oktyabrın 2-də isə Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 88 gün itkin düşmüş sayılan əsgərimizin nəşi dekabrın 26-da aşkarlanıb. Hüseyn Yusifov Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn edilib.

O, "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Vətən uğrunda" medalları ilə təltif edildi.





**Yusifov İmaməddin Niyaməddin oğlu** 2002-ci il iyul ayının 22-si Qəbələ rayonunun Mıxlıqovaq kəndində anadan olub.

Əsgər İmaməddin Yusifov 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsində Füzuli rayonunda yerləşən N saylı hərbi hissənin tərkibində döyüşlərdə iştirak edib. 2020-ci il 10 oktyabr tarixində Füzuli-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Qəbələ rayonunun Mıxlıqovaq kənd qəbristanlığında dəfn olunub.


O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Yusifov Kərim Həsrət oğlu** 1995-ci il avqustun 1-də Goranboy rayonunun Fəxralı kəndində anadan olub.

MAHHXHQ əsgər Yusifov Kərim 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış və Suqovuşan kəndlərinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb və döyüşlərin ilk günündə, sentyabrın 27-də şəhid olub. Goranboy rayonunun Fəxralı kəndində dəfn olunub.


O, ölümündən sonra "İgidliyə görə" , "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olumasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Yusifov Mehman Musa oğlu** 1979-cu il iyulun 18-də Tovuz rayonunun Bayramlı kəndində Musa və Gülsüm Yusifovların ailəsində anadan olub.

Baş gizir Mehman Yusifov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mehman Yusifov oktyabrın 5-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Bayramlı kəndində dəfn olunub.

Mehman Yusifov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Yusifov Münasib Mübariz oğlu** 2000-ci il mayın 14-də Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində anadan olub.

MAHHXHQ əsgər Mübariz Münasib 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Qubadlı, Laçın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə tankçı kimi iştirak edib. Münasib Yusifovun son döyüşü Laçın dəhlizində olub. Noyabrın 6-da Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə şəhid olub. Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində torpağa tapşırılıb.

Münasib Yusifov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edildi.

**Yusifov Ramil Mürşid oğlu** 1978-ci il aprelin 24-də İsmayıllı şəhərində anadan olub.

Baş gizir Ramil sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Talış təpə ətrafındakı döyüşlər zamanı tankda yanaraq yaralanıb. Şəhidimiz ağır yaralanmağına baxmayaraq, axıra qədər insanlıq borcunu yerinə yetirib və onunla birgə 3 döyüş yoldaşına tankdan çıxmağa kömək edib və xilas olunmalarına vəsilə olub. Prezidentin xüsusi tapşırığı ilə qəhrəmanımız helikopterlə Bakıya müalicəyə göndərilib, onun üçün bir neçə mütəxəssis həkim ayrılıb. Lakin yanıq daxili orqanlarını zədələdiyi səbəbindən oktyabrın 18-i- 42 yaşında şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Taleh Gündüz oğlu Yusifov** 1994-cü il noyabrın 18-də Samux rayonunun Ziyadlı kəndində anadan olub.

Əsgər Taleh Yusifov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Taleh Yusifov noyabrın 1-də Laçın döyüşləri zamanı şəhid olub.

Taleh Yusifov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



**Yusifov Taleh Gündüz oğlu** 1994-cü il noyabrın 18-də Samux rayonunun Ziyadlı kəndində doğulub. Əsgər Taleh Yusifov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib və noyabrın 5-də Laçın döyüşləri zamanı şəhid olub. Ailəsi ilə son dəfə noyabrın 3-də danışan Talehdən ailəsi 2 həftə heç bir xəbər ala bilməyib. Günbəgün ümidləri üzülən doğmaların son ümidinə 26 noyabrda nöqtə qoyulub. Onun nəşi noyabrın 26-da ailəsinə verilib. Noyabrın 27-də isə kənd qəbirisanlığında canını qurban etdiyi torpağa tapşırılıb.

Taleh Yusifov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.




**Yusifov Yusif Oqtay oğlu** 2002-ci il yanvarın 31-də Goranboy rayonunun Faxralı kəndində doğulub.

Əsgər Yusif Yusifov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. Onun son döyüşü Zəngilan rayonunun azadlığı uğrunda olub. Oktyabrın 29-da xain düşmənin snayper gülləsi ilə Yusif Yusifov şəhidlik məqamına ucalıb.

O, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Yusifzadə Xudayar Müslüm oğlu** 1998-ci il iyulun 15-də Bərdə şəhərində anadan olub.

Gizir Xudayar Yusifzadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı əvvəlcə Füzuli rayonunda sərhəd məntəqəsində xidmət edib, daha sonra isə Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xudayar Yusifzadə oktyabrın 22-də Zəngilan döyüşləri zamanı Ağbənd istiqamətində şəhid olub. Bərdə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Xudayar Yusifzadə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Yusubov Elzar Süleyman oğlu** 1989-cu il yanvarın 9-da Dmanisi rayonunun Qəmərli kəndində anadan olub.

Leytenant Elzar Yusubov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elzar Yusubov oktyabrın 8-də Füzuli döyüşləri zamanı yaralansa da, döyüşməyə davam edib. Döyüşlər başa çatdığdan sonra təcili tibbi yardım göstərilib, döyüş meydanından təxliyyə edilsə də, qanitirmə nəticəsində şəhid olub. Hövsan qəsəbəsində dəfn olunub.

Elzar Yusubov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Yusubov Orxan Allahverdi oğlu** 1992-ci il yanvarın 19-da Gəncə şəhərində anadan olub.

Əsgər Orxan Yusubov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Yusubov sentyabrın 27-də Murovdağ istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Uzun müddət tapıla bilməyib. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunub. Onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülüb. Onun nəşi 3 iyun 2021-ci ildə tapılıb və 4 iyun tarixində Gəncə Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Yusubov Sabir Firdovsi oğlu** 1990-cı ildə Göygölün Topalhəsənli kəndində anadan olub.


Əsgər Sabir Yusubov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. O, qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

O, ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.

**Yüzbaşiyev Cavid Cavanşir oğlu** 20 iyul 1995-ci ildə Balakən rayonunun Hənifə kəndində dünyaya göz açıb.

Əsgər Cavid Yüzbaşiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Cavid Yüzbaşiyev oktyabrın 17-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Balakən rayonunun Hənifə kəndində Ana torpağa tapşırılıb.

Cavid Yüzbaşiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Yüzbaşyev İsmayıl Fəzayıl oğlu** 1997-ci il aprelin 1-də Kəngərli rayonunun Böyükdüz kəndində anadan olub.

MAHHXHQ əsgər İsmayıl Yüzbaşyev Vətən müharibəsi zamanı XT bölük radiotelefonçu kimi hərbi xidmətini yerinə yetirib. Şuşa şəhəri Istiqamətində gedən vuruşmalarda döyüş yolu keçib. 2020-ci il noyabrın 9-da bu istiqamətdə gedən döyüşlərdə şəhid olub.

O, "İgidliyə görə", "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zairli Zahid Azad oğlu** 10 may 2000-ci ildə Yardımlı rayonunun Dəlləkli kəndində anadan olub.

Əsgər Zahid Zairli sentyabrın 27-də Vətən müharibəsi başlayan andan ön cəbhədə düşmənlə üz-üzə vuruşub. Döyüşlərdə fəal iştirak etdiyinə görə yoldaşları arasında "Canavar" ləqəbi ilə tanınıb. Vətən müharibəsi zamanı Murovdağ, Suqovuşan, Füzuli, Cəbrayıl, Hadrut uğrunda gedən döyüşlərdə iştirak edib. Zahid Zairli oktyabrın 7-də Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə yaralı yoldaşlarını xilas edərkən ürəyindən snayperlə vurularaq şəhid olub. Yardımlı rayonunda dəfn edilib.

Zahid Zairli "Vətən müharibəsi iştirakçısı'", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zakirov Elvin Ağasəlim oğlu** 1980-ci il avqustun 15-də Sumqayıt şəhərində anadan olub.

Baş leytenant Elvin Zakirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə şücaət göstərib. Noyabrın 9-da Xocavənd döyüşləri zamanı şəhid olub.

Elvin Zakirov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**Zalov Elçin İslam oğlu** 1995-ci il iyunun 6-da Beyləqanın Dünyamalılar kəndində dünyaya göz açıb.

Əsgər Elçin Zalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə Füzuli istiqamətindən başlayıb. Bir çox tapşırıqların icrasını uğurla yerinə yetirib, düşmənin texnika və canlı qüvvəsini məhv edib. Daha sonra Cəbrayıl istiqamətində gedən qanlı döyüşlərdə düşmənə ağır zərbələr vurub. Oktyabr ayının 21-də isə Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda", "Qubdlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Zalov Fəqan Amil oğlu** 1997-ci il aprelin 4-də Sabirabad rayonunun Qalaqayın kəndində qaçqın düşərgəsində anadan olub. Kiçik miçman Fəqan Zalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının, Xocavəndin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Yaralansa da müalicə alaraq yenidən döyüşlərə qatılıb. Fəqan Zalov 9 noyabr 2020-ci ildə Xocavənd rayonunun (601 və 436 metr) yüksəkliklərinin cənub istiqamətində "Qızılqaya" adlı ərazidə düşmənin atdığı mərmilərin partlayışı nəticəsində qəlpə yarası alaraq şəhidlik zirvəsinə ucalıb. Fəqan Zalov Füzuli rayonunun Babı kəndində yerləşən qəbiristanlıqda torpağa tapşırılıb. Ona ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

O, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zamanlı Məmməd Rəhman oğlu** 1998-ci il avqustun 3-də Şərur rayonunun Püsyan kəndində anadan olub.

Leytenant Məmməd Zamanlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Məmməd Zamanlı sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Şərur rayonunda dəfn olunub.

Məmməd Zamanlı ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.




**Zamanov Mətləb Nizami oğlu** 1985-ci il yanvarın 29-da Şəmkir rayonunun Morul kəndində anadan olub.

Kiçik çavuş Mətləb Zamanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mətləb Zamanov oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub.

Mətləb Zamanov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Zamanov Sənan Qahir oğlu** 1987-ci il avqustun 17-də Qusar rayonunun Çiləgir kəndində dünyaya gəlib.

Mayor Sənan Zamanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb.

1 oktyabr 2020-ci ildə Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Qorxmaz komandir oktyabrın 2-də Qusar Şəhidlər Xiyabanında dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalları ilə təltif edildi.



**Zamanov Taleh Valeh oğlu** 2002-ci il aprelin 7-də Salyan rayonunun Qalaçala kəndində anadan olub.

Əsgər Taleh Zamanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Taleh Zamanov sentyabrın 30-da Ağdərə istiqamətində şəhid olub. Uzun müddət nəşi tapılmayıb. Noyabrın 27-də Salyan rayonunda dəfn edilib.


Taleh Zamanov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə də təltif edildi.



**Zamanov Vüqar İsmayıl oğlu** 1995-ci il martın 10-u Horadiz şəhərində anadan olub.

MAHHXHQ əsgər Vüqar Zamanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Horadiz, Şıxlı, Kürdlər, İşıqlı, Seyidəhmədli və bir neçə kənd və qəsəbələrimizdə, eləcə də Füzuli şəhərində gedən döyüşlərdə qəhrəmanlıq göstərərək düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını məhv edib. Noyabrın 5-i Şuşa şəhəri ətrafında Daşaltı uğrunda gedən döyüşlərdə şəhid olub və Horadiz şəhər qəbiristanlığında Ana torpağa tapşırılıb.

Şəhadətindən sonra Vüqar Zamanov "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Zaməddinov Fərid İmran oğlu** 1986-cı il mayın 11-də Oğuz şəhərində anadan olub.

Gizir Fərid Zaməddinov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ döyüşlərində, həmçinin Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Fərid Zaməddinov noyabrın 10-da Talış istiqamətində snayper gülləsi nəticəsində şəhid olub. Oğuz Şəhidlər Xiyabanında dəfn olunub.

Fərid Zaməddinov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Zəkiyev Rameş Gülverdi oğlu** 27 iyun 2001-ci ildə Astara rayonunun Şahağac kəndində anadan olub.

Əsgər Rameş Zəkiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində minaatan olaraq iştirak edib. Ağdam istiqamətində gedən döyüşlərdə vuruşub. 15 oktyabr 2020-ci ildə səhər saatlarında Ağdam rayonunun Hacıməmmədli kəndində minamyot mərmisinin düşməsi nəticəsində 2 döyüşçü yoldaşı ilə birgə şəhid olub. Onun cənazəsi 20 oktyabr 2020-ci il doğulduğu boya başa catdığı Astara rayonunun Şahağac kəndinə gətirib dəfn etdi.

Rameş Zəkiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Zərbaliyev Ziyad Nəriman oğlu** 2002-ci il mayın 19-da Şamaxı şəhərində anadan olub.

Əsgər Ziyad Zərbaliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Ziyad Zərbaliyev oktyabrın 20-də Füzuli döyüşləri zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Ziyad Zərbaliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zərbəliyev Aşurəli Səfərəli oğlu** 1999-cu il sentyabrın 9-da Qusar rayonunun Quxuroba kəndində anadan olub.

Əsgər Aşurəli Zərbəliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində savaşıb. Aşurəli Zərbəliyev oktyabrın 10-da şəhid olub. Qusar rayonunda dəfn olunub.

Aşurəli Zərbəliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zeynallı Aqil Aydın oğlu** 1995-ci il noyabrın 5-də Sabirabad rayonunun Axtaçı Muğan kəndində anadan olub.

Kiçik gizir Aqil Zeynallı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Aqil Zeynallı oktyabrın 31-də Şuşa döyüşləri zamanı Daşaltı istiqamətində şəhid olub. Sabirabad rayonunun Axtaçı Muğan kəndində dəfn olunub.

Aqil Zeynallı ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

**Zeynallı Elşad Elman oğlu** 1996-cı il oktyabrın 22-də Lənkəran rayonunda dünyaya gəlib. 2020-ci il sentyabrın 27-də ərazilərimizin düşmən işğalından azad olunması üçün başlanan Vətən müharibəsinə könüllü olaraq qatılıb.

Füzuli rayonu ərazisində hərbi əməliyyatlar nəticəsində digər növ partlayışlarla və ya qəlpələrlə törədilmiş zədələnmələr, bud arteriyasının travması diaqnozu ilə şəhid olub.

Döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə, Zeynallı Elşad "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Zeynallı Əsəd Arzuman oğlu** 1999-ci il avqustun 12-də Qəbələ rayonunun Seyidqışlaq kəndində dünyaya göz açıb.

Müharibə zamanı manqa atıcısı kimi hərbi xidmətini yerinə yetirən Əsəd Zeynallı Tərtər-Ağdərə istiqamətində döyüş yolu keçib.

2020-ci il oktyabrın 13-də Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində Əsəd aldığı qəlpə yarasından şəhid olub.

O, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Zeynallı Fikrət Akif oğlu** 1995-ci il fevralın 23-də Tovuz rayonunun Aşağı Öysüzlü kəndində anadan olub.

Əsgər Fikrət Zeynallı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşa və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Fikrət Zeynallı noyabrın 9-da Xocavənd döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Aşağı Öysüzlü kəndində dəfn edilib.

Fikrət Zeynallı ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zeynallı Hüseyn Vətənxan oğlu** 1993-ci il aprelin 11-də Cəlilabadda anadan olub.

Çavuş Hüseyn Zeynallı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. 2020-ci il sentyabrın 30-da Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi istiqamətində hücuma keçərkən şəhid olub.

Hüseyn Zeynallı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**Zeynallı Rəşad Qiyas oğlu** 21 aprel 1998-ci tarixində Bakıda anadan olub. Əsgər Rəşad Zeynallı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində döyüşən Rəşad Zeynallı oktyabrın 8-də şəhid olub.

Rəşad Zeynallı ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Döyüşdə fərqlənməya görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.



**Zeynalov Arzu Rövşən oğlu** 1999-cu il martın 6-da Qazaxıstan Respublikasının Arşalinski rayonunda dünyaya gəlib.

MAHHXHQ əsgər Arzu Zeynalov 2020-ci il oktyabrın 2-də Kəlbəcər rayonu istiqamətində şərti adı "Ağdağ" döyüş mövqeyi istiqamətində aparılan hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Arzu Zeynalov "Hərbi xidmətinə görə", "Kəlbəcər uğrunda", "İgidliyə görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Zeynalov Azad Rafiq oğlu** 1987-ci il martın 4-də Şərur şəhərində anadan olub.

Kapitan Azad Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Azad Zeynalov oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub.

Azad Zeynalov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zeynalov Cavid Vaqif oğlu** 1990-cı il oktyabrın 17-də Yardımlı rayonunun Mirimli kəndində anadan olub.

Baş çavuş Cavid Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cavid Zeynalov sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub.

Cavid Zeynalov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Zeynalov Elnur Elsevər oğlu** 1994-cü il iyulun 28-də Naxçıvan şəhərində anadan olub.

Baş leytenant Elnur Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Xocavəndin, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur Zeynalov oktyabrın 26-da Qubadlı döyüşləri zamanı şəhidlik zirvəsinə yüksəlib. Naxçıvan şəhərində dəfn edilib.

Elnur Zeynalov "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zeynalov Əlsafa Elşad oğlu** 1994-cü il iyulun 6-da Saatlı rayonunun Qaranuru kəndində anadan olub.

MAHHXHQ əsgər Əlsafa Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində böyük şücaətlə döyüşüb. Sentyabrın 27-də Gülüstan istiqamətində sürücüsü olduğu döyüş maşınında dəqiq manevrlər edərək düşmən obyektlərinin məhv edilməsində böyük rolu olub. Döyüşlərdə qəhrəmancasına şəhid olub.

Əlisəfa Zeynalov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**Zeynalov Elşən Zaman oğlu** 1999-cu il martın 8-də Goranboy rayonunun Düzqışlaq (keçmiş Ağamalıoğlu kəndi) kəndində anadan olub.


Əsgər Elşən Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində böyük şücaətlə döyüşüb. II Qarabağ müharibəsində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.



**Zeynalov Fikrət Hikmət oğlu** 1995-ci ildə Hacıqabulun Rəncbər kəndində dünyaya göz açıb.

Kiçik gizir Fikrət Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl və Xocavənd rayonunun işğaldan azad olunmasında xüsusi rəşadət, şücaət və qorxmazlıq nümayiş edib. Fikrət Zeynalov oktyabrın 16-da Füzuli döyüşləri zamanı şəhid olub.

Fikrət Zeynalov ölümündən sonra "Rəşadət", "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.





**Zeynalov İlqar Natiq oğlu** 1989-cu il fevralın 26-da Cəlilabad rayonunun Zopun kəndində anadan olub.

Baş leytenant İlqar Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad edilməsi işində igidlik göstərərək Talış kənd və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə cəsurluq nümunələri göstərib. Yüksək peşəkarlığına görə ona "Mübariz" postunda xidmət göstərmək tapşırılıb. Sentyabrın 29-da Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

İlqar Zeynalov ölümündən sonra "İgidliyə" görə, "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edildi.



**Zeynalov Məhəmməd Bəxtiyar oğlu** 1997-ci il fevralın 23-də Neftçala rayonunun Bankə qəsəbəsində anadan olub.

Leytenant Məhəmməd Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Məhəmməd Zeynalov oktyabrın 16-da Füzuli döyüşləri zamanı şəhid olub. Neftçala rayonunun Bankə qəsəbəsində dəfn olunub.

Məhəmməd Zeynalov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edildi.



**Zeynalov Müseyib Saleh oğlu** 1978-ci il yanvarın 27-də Salyan şəhərində anadan olub.

Mayor Müseyib Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Müseyib Zeynalov noyabrın 6-da Qubadlı döyüşləri zamanı şəhid olub. Salyan şəhərində dəfn olunub.

Müseyib Zeynalov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.

Müseyib Zeynalova məxsus materiallar ailəsi tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fonduna təhvil verilib.



**Zeynalov Nurlan Vasif oğlu** 1998-ci il dekabrın 4-də Bakı şəhərində anadan olub.

MAHHXHQ əsgər Nurlan Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Nurlan Zeynalov oktyabrın 9-da Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. Dekabrın 25-də ildə dəfn olunub.

**Zeynalov Nurlan Rəfail oğlu** 1989-cu il noyabrın 25-də Sabirabad şəhərində anadan olub.

Leytenant Nurlan Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Zeynalov noyabrın 6-da Xocavənd döyüşləri zamanı şəhid olub. Sabirabad şəhərində dəfn olunub.

Nurlan Zeynalov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zeynalov Ramin Yasən oğlu** 2000-ci ilin martın 1-də Ağdam rayonunun Qiyaslı kəndində məcburi köçkün ailəsində anadan olub.

Əsgər Ramin Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində döyüşərək yaralandığına görə hospitala gətirilib. Yaralı olmasına baxmayaraq, yenidən döyüş bölgəsinə əsgər yoldaşlarının yanına qayıdıb. Oktyabrın 19-da Murovdağ istiqamətində gedən döyüşlərdə qəhramanlıqla şəhid olub. Oktyabrın 20-də Ağdam rayonunun Şəhidlər Xiyabanında dəfn edilib.

O, ölümündən sonra "Hərbi xidmətlərə görə", "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zeynalov Sadiq Kamal oğlu** 1998-ci il sentyabrın 19-da Astara rayonunun Ərçivan qəsəbəsində anadan olub.

Kiçik çavuş Sadiq Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sadiq Zeynalov oktyabrın 25-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Sadiq Zeynalov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zeynalov Teymur Tağı oğlu** 1993-cü il martın 28-də Bakı şəhərində anadan olub.

Əsgər Teymur Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Teymur Zeynalov oktyabrın 24-də Füzuli döyüşləri zamanı şəhid olub. Bakı şəhərində dəfn olunub.

Teymur Zeynalov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.





**Zeynalov Tural Ruslan oğlu** 1987-ci il oktyabrın 4-də Binəqədi rayonunun Biləcəri qəsəbəsində anadan olub.

Kapitan Tural Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Zeynalov oktyabrın 11-də Füzuli döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Tural Zeynalov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zeynalov Turqut Fikrət oğlu** 1996-cı il avqustun 20-də Bərdə şəhərində anadan olub.

Əsgər Turqut Zeynalov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Turqut Zeynalov sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Bərdə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Turqut Zeynalov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zahirov Nazim Həmzə oğlu** 25 iyun 2001-ci ildə Azərbaycanın paytaxtı Bakı şəhərinin Bakıxanov qəsəbəsində anadan olub.

Əsgər Nazim Zahirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib, Suqovuşan döyüşlərində vuruşub. 16 oktyabr 2020-ci ildə Talış-Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olub.

Nazim Zahirov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zeyniyev Rəşad Ələkbər oğlu** 2001-ci il sentyabrın 13-də Cəlilabad rayonunda anadan olub.

Əsgər Rəşad Zeyniyev 28 sentyabr 2020-ci il tarixindən etibarən İkinci Qarabağ müharibəsində iştirak edib. Füzuli rayonu və Şuşa şəhəri uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib. Noyabrın 8-də Şuşa istiqamətində döyüş zamanı, 2 metrliyində partlayan mərmi Rəşadın həyatına son qoyub. Doğulub boya-başa çatdığı Cəlilabad torpağında dəfn olunub.

O ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", Xocavəndin azad olunmasına görə","Cəsur döyüşçü" medalları ilə təltif edildi.

**Ziyadov Fəqan Ziyad oğlu** 1995-ci ildə Bərdə şəhərinin Mustafaağalı kəndində doğulub.

MAHHXHQ əsgər Fəqan Ziyadov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış, Suqovuşan, Ağdam, Ağdərə, Tərtər istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. Tərtər rayonu Şıxarx qəsəbəsi istiqamətində gedən döyüşlərdə düşmənin əks hücumunun qarşısını alıb.

Oktyabrın 21-də Tərtər istiqamətində ağır yaralanıb. Oktyabrın 30-da şəhidlik zirvəsinə ucalıb. Məzarı doğulub boya-başa başa çatdığı Mustafaağalı kənd qəbiristanlığındadır.



**Zülfüqarlı Zeynal Alim oğlu** 1995-ci il mayın 31-də Şirvan şəhərində anadan olub.

Kiçik gizir Zeynal Zülfüqarlı 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zeynal Zülfüqarlı oktyabrın 19-da Xocavənd döyüşləri zamanı şəhid olub.

Zeynal Zülfüqarlı ölümündən sonra "Rəşadət" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildi.



**Zülfüqarov İlkin Nurəddin oğlu** 1989-cu il avqustun 8-də Ağsu rayonunun Gursulu kəndində anadan olub.

Kiçik gizir İlkin Zülfüqarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İlkin Zülfüqarov 08.10.2020-ci ildə Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olub.

İlkin Zülfüqarov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.



**Zülfüqarov Məlik Kamran oğlu** 2001-ci il iyulun 27-də Kürdəmir rayonunun Karrar qəsəbəsində anadan olub.

Əsgər Məlik Zülfüqarov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı ilk günlərdən ön cəbhədə döyüşüb. Füzulinin azad olunması istiqamətində gedən döyüşlərdə şəhid olub. 19 yaşlı şəhidimiz 21 oktyabrda doğulduğu qəsəbədə torpağa tapşırılıb.





**Zülfüqarzadə Fariz Fərhad oğlu** 20 noyabr 1992-ci il Lənkəran şəhərində anadan olub.

2020-ci il sentyabr ayının 27-də başlanan Vətən müharibəsində Füzuli, Zəngilan, Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak edib. Sonuncu döyüşünü oktyabr ayında Qubadlı rayonunda keçirib. 20 gün tankı düşmən tərəfindən hədəfə alınsa da, cəsur tankçımızın atəşini susdura bilməyiblər. Oktyabrın 19-da düşmən tərəfindən vurulan tankın yaralı heyətini xilas etsə də, öz həyatını vətənin azadlığı uğrunda qurban verib. Şəhidlik zirvəsinə ucalan Fariz Zülfüqarzadə oktyabrın 19-da Lənkəran şəhərində dəfn olunub.

O, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" medalları ilə təltif edildi.



**Əliyev İxtiyar İlqar oğlu** 1994-cü il iyulun 6-da Goranboy rayonunun Goranlı kəndində anadan olub.

Gizir İxtiyar Əliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtər Əlahiddə Kəşfiyyat Taborunun heyətində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İxtiyar Əliyev oktyabrın 6-da Ağdərə istiqamətində "951" zirvəsi uğrunda gedən döyüşlərdə şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunub. Onun nəşinin tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülüb. Onun nəşi 14 oktyabr 2021 -ci il tarixində Goranboy rayonunun Goranlı kəndində dəfn olub.

# VƏTƏN MÜHARİBƏSİ ZAMANI İTKİN DÜŞMÜŞ HƏRBİ QULLUQÇULARIN SİYAHISI



**Feyzullayev Aydın Zakir oğlu** 1995-ci il iyunun 19-da Suraxanı rayonunda anadan olub.

Əsgər Aydın Feyzullayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Aydın Feyzullayev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı itkin düşüb.



**Mehdiyev Asim Yaqub oğlu** 1 yanvar 2001-ci ildə Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olub.

MAHHXHQ əsgər Asim Mehdiyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak edib. Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Asim Mehdiyev 7 noyabr 2020-ci ildə Xocavənd rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı itkin düşüb. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunur. Hazırda onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür.



**Qədirli Elnur Rəcəb oğlu** 1997-ci il avqustun 27-də İsmayıllı rayonunun Diyallı kəndində anadan olub.

Əsgər Elnur Qədirli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur Qədirli oktyabrın 7-də Suqovuşan döyüşləri zamanı itkin düşüb.

Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunur. Hazırda onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür.



**Salamov Qorxmaz Bayram oğlu** 1996-cı il aprelin 22-də Şəki rayonunun Baş Göynük kəndində anadan olub.

Əsgər Qorxmaz Salamov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Qorxmaz Salamov oktyabrın 14-də Suqovuşan döyüşləri zamanı itkin düşüb.

Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunur. Hazırda onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür.



**Səfərli Xəqani İlqar oğlu** 1991-ci il oktyabrın 14-də Xətai rayonunda anadan olub.

Əsgər Xəqani Səfərli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Xəqani Səfərli oktyabrın 4-də Murovdağ döyüşləri zamanı itgin düşüb.

Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunur. Hazırda onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür.



**Vəlizadə İbrahim Səməd oğlu** 1998-ci il iyunun 11-də Şərur şəhərində anadan olub.

Leytenant İbrahim Vəlizadə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. İbrahim Vəlizadə sentyabrın 27-də Murovdağ döyüşləri zamanı itkin düşüb.

Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunur. Hazırda onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür.